**Soylu Atalı**

# Söz İşığı

## Atakənd-42

**"Elm və təhsil"**
**Bak-2020**

**Çapa hazırlayanlar*: Nurtəkin,***
***Göylü Atalılar***

**Soylu Atalı.**
**Söz İşığı (Ruhsal fəlsəfə açısından araşdırmalar, ələşdirmələr).**
**(Atakənd-42). Bakı, "Elm və təhsil"- 2020, 416 səh.**

Bu kitab, Asif Atanın (İnam Atanın) Mütləqə İnam Ocağının Yükümlüsü, araşdırmaçı filosof, görkəmli publisist Soylu Atalının altıncı kitabıdır. Kitabın birinci bölümü Asif Atanın "Qutsal Onluğu"na yazılan "Ön Söz"lərdir. Bu bölümdə Mütləqə İnam Dünyabaxışının özəllikləri vurğulanır, tutuşdurmalarla onun üstünlükləri bəlirlənir, eləcə də, dini çatışmazlıqlara aydınlıq gətirilir. Bu çatışmazlıqların bədii ədəbiyyatın obrazlarında da özünü göstərdiyi, toplumsal yaşama pis etkilər sərgilədiyi ikinci bölümdə yer alır.

Kitabın başqa bir bölümü toplumsal-ideoloji, eləcə də, siyasal olayları, Mütləqə İnam ruhaniyyatı açısından, araşdırmalardan, dəyərləndirmələrdən oluşubdur. Bölümdə dövlətlərarası yanaşmalar, siyasal gedişlərdəki pozuntular, insan yaşamında süni şəkildə yaradılan çətinliklər qınanılır. Habelə, Türklüyün çöküşünü doğuran nədənlərə aydınlıqlar gətirilərək, onun qurtuluşunun gərəkliyini bildirən çağırışlar edilir.

Soylu Atalının bu kitabı Asif Ata Dünyagörüşünü anlamaq baxımından önəmli bir araç sayıla bilər.

4702000000
N-98-2020 qrifli nəşr

© "Elm və təhsil", 2020

# Ön Söz

Ürəyində Ata Günəşi olsun, sayğılı oxucu!

Yeni kitabımla sənin qarşına çıxmaq mənim üçün həm qürur, həm də sorumluluq məsələsidir. Ona görə qürur məsələsidir ki, Vətənimə, ulusuma, bütövlükdə İnsanlığa olan sevgimi, öygümü Sözə çevirib ortaya çıxarıram. Ömrümün axtarışı, ağrısı, acısı, eləcə də sevinci, sevgisi bu yazılarda öz əksini tapır. Mən Asif Atanı öyrənəndən, tanıyandan sonra Sözü tanıdım, Sözə sarıldım. Yanlışlarımı gördüm, döydüm, döyüşdüm – bunu Sözlə ifadə elədim. Sözlə oyun oynamadım, necə gəldi, hara gəldi səpələmədim, içimdə bəslədim, doğrultdum. İçimdə Doğruluğuna qovuşan Sözlə yaraqlandım şərə qarşı. Oyuna çevrilən söz həqiqətdən danışa bilməz. Ona görə kitabımın adını "Söz İşığı" qoydum. Amalım İnsanlaşma-İnsanlaşdırma Yolu adlanır. Bu açıdan tapındığım Söz – İnsanlığın Söz İşığıdır.

Yuxarıda vurğuladım ki, bu kitabla görüşünə gəlmək həm də, sorumluluq məsələsidir. Çünkü yüzillərlə ulusal varlığımıza daşınan zərərli yaşam vərdişlərinə qarşı deyilən bir Sözün altına imza, arxasına ömür qoyulur. Mənim üçün Böyük Söz ömürdən başlayan, ömürə çevrilən dəyər kimidir. Sorumluluq daşımayanın ömrünə güvənilməz, sözünə inanılmaz. Söz – İnsan olmağın, Xalq olmağın, genel yanaşanda bəşər olmağın hikmətidir. Mən də bu hikmətin bilinməsinə qatqı göstərdiyim üçün sənin qarşında sorumluluq daşıyıram. İnanıram ki, sorumluluğumu bəlli bir düzeydə ödəyə bilmişəm. Bunu kanıtlamağı sənin öhdənə buraxıram.

Sayğılarımla!

# Birinci Bölüm

## İnamın Özülü, Fəlsəfəsi

Haqqında danışacağımız Bitiq Asif Atanın Beşinci Qutsal Bitiqi olan "Fəlsəfənin Təməli"dir. Bu adları biz qoymuşuq – Asif Atanın yazdığı 45 kitabı daşıdıqları məna yükünə uyğun təsnifatlaşdıraraq. Asif Atanın hər bir kitabı, kəlamı öz adları ilə də qorunub saxlanılır. Ancaq oxucuya çatdırmaq üçün hər birini ayrılıqda çap elətdirmək böyük çətinliklər yaradır. Ona görə onların çoxu tutumca kiçik olduqlarından uyğun üzlərdə (cildlərdə) birləşdirilməsi məqsədəuyğun sayıldı.

Dedik, Bitiqin adı "Fəlsəfənin Təməli"dir. Biz bu adı illər öncə, bəlgə ilə, qəbul elədiyimiz üçün dəyişmirik, saxlayırıq. Ancaq düşünürük, içindəki əsərlərin məzmunu yazımızın başlığına daha uyğundur. Yəni, "Bitiq"i "İnamın Özülü (təməli), Fəlsəfəsi" də adlandırmaq olardı. Bununla belə, bu yazıda məsələ adın üzərində vurğu eləmək deyil, "Bitiq"in içindəki məzmunu çatdırmaqdır. Beşinci Bitiq İnamın iki əsərini – "İnam Fəlsəfəsi"ni, "Təməl"i özündə birləşdirir. İnam Fəlsəfəsi fərqli fəlsəfədir, gələnəksəl fəlsəfədən üstündür. Bizə görə, İnam işiylə başlamayan, İnamı açmayan fəlsəfə inamsız fəlsəfədir. Atanın ölçüsünə görə inamsız fəlsəfə insana gərək deyil. Fəlsəfə insanı diriltməlidir – təfəkkürü, düşüncəni durultmalıdır ki, həyat mənalı olsun – Mənasına bərabər olsun. İnsanı diriltmək üçünsə İnamı aydınlatmalı, təsdiq etməlidir. Fəlsəfə İdraka dayanır. Ata da deyir, "İdrak İnamdan başlayır, həm də İdrak İnam yoludur". Deməli, idrak hər aşamada, hər dərkində İnamın inamlılığını təsdiq edir. İnam qalxıb-enmir. Yəni nisbiləşmir. Bir sözlə, keyfiyyətini dəyişmir. İnam – İdrak araçılığıyla özümlüyünü həm tapır, həm də qoruyur. İnanmağın İnamçılıq ölçüsü yaranır. Ancaq İnamla İdrak arasında etki qarşılıqlıdır, gəraklilik aşağı-yuxarı deyil. İdrak İnamı təsdiq elədiyi dərəcədə, özü İnam araçılığıyla yenilənir, doğrulur, daim yeni çalarları ilə ortaya çıxır. İdrak dünyanı İnam araçılığıyla dərk edir.

Dünyaya inanmaqda gerçəkliyin də rolu var. Yəni dünyanı var görürsən – dünyanın varlığına inanmamağa səbəb qalmır. İnandığın üçün başlayırsan dərk etməyə. Dünyanın gedişini, Mənaya bağlılığını, həyata etkisini anlamağa çalışdıqca idrak böyüyür, yetkinləşir. İdrak – Həqiqətə İnamlı münasibətin dərkini yetirir. Həqiqətə elə-belə İnam olmur. Həqiqətə inam onun dərkini tələb edir. Başlanğıcda dərk olunmayana inanmaq olar, ancaq dərkolunmazlıq inanmağın bir aşamasında sona çatmalıdır. Yoxsa dərk olunmayana inanmağı axıra kimi qorumaq çətindir. Həqiqət dərk olunana qədər dərk eləmək istəyəni sorğular yağışına tutur. Bu sorğular yağışı çözümünü tapmasa, həqiqətə inam gücünü, güvənini (etibarını) itirər.

İdrak elə bir gücdür, o, yalanı da, həqiqəti də üzə çıxarır, göstərir. Ona görə də din idraka qarşı çıxdı. Ata deyir, "dinin təməli cəfəngiyyatdır". Dinin özündə daşıdığı yalanı idrak üzə çıxaracaqdı deyə, din idrakçılıq əməlinə yasaq qoydu. Din, insanı – qanıb inanmağa deyil, gözüyumulu inanmağa çağırır. Din Allahı dərkolunmaz sayır. Dində bəsirət gözü xülyanı görür. Çünkü etiqadla idrak birləşmir. Din deyir: "Allah gerçək deyil, ona görə də onu dərk etmək olmaz". Ata isə deyir: Gerçəkliyi dərk eləmək, əslində Mənanı dərk eləməkdir. Məna Gerçəklik deyil, ancaq gerçək əsası var. Görsənişi araşdıranda (Təzahürü təhlil edəndə) Mahiyyətə yetmək olur. Belə də demək olar: Gerçəkliyi araşdıranda Mənaya gedib çıxılır.

Dində dünyanın gerçəkliyi Allahın görsənişi (təzahürü) deyil, yaratdığıdır. Ona görə də yaradanla yaradılanın bağlılığını ayırd eləmək, bəlli eləmək mümkün olmur. Çünkü Yaradan fövqəlyaradılan hesab olunur. Yəni Dünyaüstü bir qüvvə. Ancaq Dünyaüstü bir nəsnəni tanımaq olmur, çünkü dərk eləmək olmr. Dində Allahı dərk eləmək mümkün deyil, ancaq tanımaq gərəkli (vacib) sayılır. Allahı tanımaq Allahın mövcudluğuna inanmaqla eyniləşdirilir. Allahın mövcudluğuna sadəcə inanmaq – bəsit inamdır. Axı Şərin də mövcudluğu var. Yəni əgər inanmaq mövcudluğa yönəlikdirsə, onda Allaha inamla Şərə, deyək ki, İblisə inam arasında nə kimi fərq olar? – Allaha inam

o demək olmalı idi, həyatda xeyir əməli, həqiqət əməli, ədalət əməli gerçəkləşə bilir. Yəni həyatda belə bir olanaq (imkan) yaşayır. Bu olanağı inanan üzə çıxarır, "Səbəb"ə (Allaha) inamı doğruldur. Ancaq din Səbəbi elan edir, Sonucu (Nəticəni, yəni Həyatı) isə ləğv etməyə çalışır. Yəni Səbəbi (Allahı) hər şey sayır, Sonucu (Həyatı) isə fani sayaraq onu ləğv edir. Səbəb Sonucdan ayrılır, başqa sözlə, Sonucu olmayan Səbəbin gərəkliyini sunur. Əslində isə Sonucsuz Səbəb yoxdur, gərəksizdir. Gərəksiz Səbəb uydurmadır, yoxluqdur. Deməli, Allaha inam həyatda gerçəkləşə biləcək əməli təsdiq eləmir, Cənnət yalanını təsdiq edir. Yəni Cənnət adlanan xülyəvi Sonuc ortaya çıxır. Səbəb xülyalaşdığı kimi, Sonuc da xülyalaşır. Səbəb (Allah) də görünməz, dərkolunmaz olur, Sonuc (Cənnət) da. Bəndə yaxşı iş görürsə, bunun həyata qarışacağı (dəxli) olmur, bu əməl Cənnətə getmək üçün olur. Ona görə də həyatda yaxşı iş qurulmur, yaxşı münasibət oluşmur. Allaha ibadətdən – namazdan, orucdan... həyata işıq düşmür, həyatda heç bir dəyişiklik baş vermir. Dəyişiklik olacaqsa, Cənnətə düşmək, ya da düşməməklə bağlı olacaq. Əslində isə Allaha inam – insanda allahlıq keyfiyyətləri ortaya çıxarmalı (aşkarlamalı) idi. Onda dünya göründüyündən qat-qat yüksək münasibətlər halına bürünərdi.

Dində Allaha inam insanda bəndəlik – köləlik keyfiyyətləri üzə çıxardı, daha doğrusu, yaratdı. Dünya, göründüyü kimi, kölələrin münasibətləri halına büründü.

Din insanı özünə inanmamağa çağırır. Din insana tapşırır, qüdrətli olmağına, olacağına inanma. Dinə görə özünə inanmaqda təkəbbür var. Əgər insan ozü haqqında yüksək düşünsə, küfr etmiş olar. Din insana deyir, sən özünü bəndə say – nə karə say. Onda Allah bəlkə bunu gözə (nəzərə) aldı. Din insana kölə saflıq öyrədir, başını aşağı salmaq, dilini dinc qoymaq, Allahın işinə qarışmamaq sunur. Əslində insandakı "kölə saflıq" Allahın xudbinliyini təsdiq edir. İnsanın məğrur, vüqarlı saflığı Allaha xoş getmir, çünkü insanı özünə ortaq görür.

Din pisliyi deyil, pisi Cəhənnəmlə cəzalandırır. Din həm insana oğru olma deyir, həm də Cəhənnəmlə qorxudur. Deməli,

insanın oğru olmayacağına inanmır. İnansaydı Cənnətlə şirnikləndirməz, Cəhənnəmlə qorxutmazdı.

Asif Ata pisliyi – adamı insanlaşdırmaqla aradan qaldırır. Yaxşı olmaq xatirinə insanı nəyəsə tamahlandırmır, aldatmır. İnsanın İnsanlıq Özülünü, Mahiyyətini özünə tanıtmaqla pisliyi ötməyin mümkünlüyünü öyrədir.

Din Allahın kamilliynə inanmır. İnansaydı, insanı Allahla qorxutmazdı. Kamil olan qorxulu olmur, kamildən qorxmazlar, kamil olmayandan qorxarlar.

Din qorxutmasa, özü yox olar. Qorxu qurtaranda din də qurtaracaq. Başqa sözlə, insan kamilləşəndə din olmayacaq. Ona görə də din insanı kamilləşməyə qoymur, çünkü öz ölümünə yol açmır.

Din dünyanı fani sayır. Dünyanı fani sayanda dünyadakı Xeyirə inanılmaz. Çünkü dünya ilə birlikdə xeyir də faniləşir. Ona görə də Xeyir dünyadan ayrılır, "Göydəkinin" ixtiyarına, əlinə tapşırılır. O, istəyəndə dünyada xeyir olur, istəməyəndə olmur. Buna görədir, belə bəsit inam əsasında dünyada xeyir qıtlığı əmələ gəlir.

Dinin etkisində toplum olaylarla yaşayır, Məna ilə yaşamır. Ona görə də duyğular olaylanır (hadisələnir), mənalanmır. İdrak, mənəviyyat olaylanır. Olaylanma, yəni keçici olma. Keçici idrak, keçici duyğu ömrü Məna ilə doldura bilməz.

Ata deyir, "vəhydə Mahiyyət aqibətləşir". Mahiyyətin aqibətləşməsi insanın allah olması deməkdir. İnsan allahlaşırsa, dünyada münasibət nizamı yaradır, dünya gözəlləşir. Bəndə dünyada yüksək (ali) münasibət nizamı yarada bilməz. Dünyada yüksək münasibəti "Göydəki Allah" da yarada bilməz. Bunu İnsandakı Allah yarada bilər.

Əslində, dünyanın nizamına qutsallıq (müqəddəslik) gətirmək baxımından, "Göydəki Allah"la Yerdəki Bəndə eyni dərəcədə gücsüzdürlər: Bəndə kölə olduğu üçün, "Göydəki Allah" isə hökmdar olduğu, dünyadan uzaq düşdüyü üçün. Dünyadan uzaqda olan, dünyaya etki göstərə bilməz, hökmdar qutsallıq yarada bilməz. Ona görə də, insana inam olmasa, dünyanın ülvi

nizamından danışmaq mümkün deyil. Ata deyir, "İnsana inam – İnsandakı Mütləqə İnam deməkdir; İnsandakı Əzəliyə İnam deməkdir...". Atanın İnamına görə insan ölür, ancaq insanın əzəlilik xassəsi ölmür. Bədənə bərabər olan ölür, bədəndən artıq olan ölmür.

Asif Atanın düşüncəsində insan ən adi, ən yüksək duyğularıyla üzə çıxır. Adi keyfiyyətlər insanın ölümlüyü, yüksək keyfiyyətlər isə özümlüyüdür. İnamın məqsədi insanı ölümlüyündən özümlüyünə yüksəltməkdir. İnsanın Özümlüyü – Ölümsüzlüyüdür!

Dində insan tamğalanır (möhürlənir) – onun varlığına "Bəndəlik" tamğası vurulur. Yüksək keyfiyyətlər isə ilahi keyfiyyətlər adı ilə Allaha özgün (aid) edilir.

Asif Atanın düşüncəsində insan özündə Mütləq daşıyır, Dində isə insan Allahın yaratdığı yamaqdır (əlavədir).

Asif Atada Mütləq dünyanın özündədir – dünyadan üstündür, dində Allah dünyadan qıraqdadır – dünyaüstüdür.

Burada biz Asif Atanın dünyabaxışının ölçüsünü dinin ölçüsüylə tutuşdurmada aydınlaşdırmağa çalışdıq. Yuxarıda da vurğuladıq, inam fəlsəfədir. Dinin əsasında isə cəfəngiyyat durur. Cəfəngiyyatın fəlsəfəsi olmadığı üçün din fəlsəfə deyil.

İnamın ölçüsü həqiqət olduğu üçün, onun fəlsəfəsini açmaq, yazmaq əlçatmaz bir iş olub. Ata bu işi əlçatan elədi. Ataya qədər ən nikbin fəlsəfə belə, İnamın ölçüsünü yaratmayıb.

Ata Göydür!

Əski peyğəmbərlərdə vəhy ən çox şairanə təb səviyyəsində olub, ona görə varlığa münasibəti uydurublar. Əslində isə peyğəmbərdə şairanə təb müdrik düşüncə ilə birləşməlidir. Müdrik düşüncə də filosofluq tələb edir.

Əski peyğəmbərlər (əsasən semitlər) Allahın göndərdiyi, buyurduğu şəxs sayılır. Düşüncə, ideya da onların özündən deyil, qıraqdan onlara daşınır. Peyğəmbər maqnitafon funksiyası yerinə yetirir. Bununla da, peyğəmbərlik anlayışı cəfəngləşir. Biz düşünürük, peyğəmbərliyin mənası Asif Atadan başlayır – filosofluq vəhy ilə birləşir. Vəhy Atada qıraqdan daşınan düşüncə

yığını deyil, içdə qaynayan, bulaq kimi axan düşüncə-duyğu selidir.

Asif Atanı öyrəndikcə insanı öyrənmək, tanımaq olur. Həm də insana inam başlayır. Ata həm insanı başlayır, həm də insana inamı başlayır. İnsana inam, inanmaq onu cəsarətləşdirir. Sözü tanımaq, sözü demək qüdrəti – cəsarətli, müdrik insan yaradır. Cəsarət qəhrəmanlıq əməlidir, müdriklik filosofluq. Atada qəhrəmanlıq, filosofluq, peyğəmbərlik birləşir. Ata "Mütləq" adlı harayında (yazısında) deyir: Mütləq məni qəhrəmanlaşdırır, filosoflaşdırır, dahiləşdirir. Tutuşdurma üçün deyək, dində Allah insanı bəndələşdirir, kölələşdirir:

Cəsarət yerinə qorxu verir. Qorxaqdan qəhrəman olmaz.

Müdriklik yerinə təslimçi ruh verir. Kölədən filosof olmaz.

Ölməz xilqət yerinə günahkar məxluq xarakteri aşılayır. Günahkardan dahi olmaz.

Din insanı yaratmır, öldürür. Din varlığı ağartmır, qaraldır. Naşı inam aşılayır insana, onun üçün dərkedilməzlik sınırı yaradır, – İdrakın yolunu bağlayır. İnam idraka qovuşmur, tək qalır, körpə qalır, böyümür. Körpə məsum olsa da, həm də naşı olur. Körpəlik, naşılıq – inamı azdırır. İnam hər addımda yalanlara rast gəlir, yalanlarla dolur, doğmalaşır. Bununla da, ömrə ölüm gətirir, insanı heçə çevirir. İnsan əşya kimi mövcud olur. Özümlüyündən soraqsız ölür.

Yaşamır. Yaşayan qanmalıdır. Dində insanın qanmaq istəyi öldürülür. Bu səbəbdən də insanın dünyaya münasibəti ağlanmır, qara qalır, qaranlıq qalır.

İnsan, bəsitliyi idrakın sayəsində ötə bilər. Ancaq idrakdan məhrum olduğu dərəcədə bəsitliyə bağlanıb qalır. Bəsit yaşamağa zorlanan insan bəsitlikdən yüksəklik uydurur. Bununla da özünü aldadır, həyatı yola verir. Ömrü bəsitliyin içində başa vurur.

Yaşamır, çünkü qanmır. Yaşamaq – qanmaq deməkdir.

Dində Allah bəsitdir, ancaq, o, yüksək kimi sunulur. "Yüksəyin" qaşı-qabağı, görən gözü, sözü var – bəsit səviyyədə. Bə-

sitliyin içində yaşayan insan, özünü yola vermək (özünə təsəlli) üçün, dolduğu, yörələndiyi bəsitliyi uydurur.

Əslində insan inamına bərabərdir. Uydurmaya inananın ömrü, ləyaqəti də uydurmaya bərabər olur.

İdrak uydurulanı yaxın qoymur, bəsiti yüksək kimi qiymətləndirməyi rədd edir. Bu səbəbdən də din idraka uyğun deyil. Allah da idraka doğma deyil. İdraka yad olan da idrakı qəbul eləmir. Çünkü idrakın ortamında Allaha inanmaq olmur, idrakın dərk eləmədiyinə inanmaq mümkün deyil. Allah hər addımda idrakı hədələyir, bu səbəbdən də idrakın Allahı tanıması mümkünsüzləşir. Yadlıq ortamında heç nəyi tanımaq olmur, tanımaq doğmalıq ortamında (şəraitində) baş tutur.

Asif Atanın fəlsəfəsi idrak fəlsəfəsidir. O, hər addımda insanı idraklı olmağa, Mütləqi dərk etməyə çağırır. Ata öyrədir, olay dəyişkəndir, yox olandır. Dəyişkəni, yox olanı dərk eləmək olmur. Yalnız sabit, var olanı dərk eləmək olar. Mütləq sabit, var olandır. Allah sabit deyil, dəyişkəndir, ziddiyyətlidir. O, gah hökmdar kimi hayqırır, hədələyir, yeri, biçimi olur. Gah da yersiz, məkansız, səssiz, gözsüz olur. Bu "gah-gah"da bəlli bir keyfiyyət tapmaq, dəyər vermək olmur. Allah gah məna kimi olur, gah da olayın özü olur.

Əslində isə Mütləqdə görsənişə gəlmə (təzahür eləmə) var, çevrilmə yoxdur. Başqa sözlə, Mütləq dönüb olay olmur. Allahda isə görsəniş (təzahür) yoxdur, çevrilmə var. Həm da Allah olayı doğurmur, yaradır, dediyimiz kimi, özü də birdən dönüb olay olur. Olaylar Allahdan görsəniş deyil, Allahın yaratdığıdır. Təkcə olayları deyil, mənanı da Allah yaradır. Bunlar dinin həyata gətirdiyi fantaziyalardır.

Asif Ata deyir, "Varlıq – Sabit  Mahiyyət, Dəyişkən Təzahür; Sabit Məna, Dəyişkən hadisə deməkdir". Yəni varlıq gah bu, gah da o deyil. Varlıq bütövdür – Məna-biçim birgəliyidir.

Varlıqla mövcudluq eyni anlam daşımıır. Mövcudluq Varlığın biçim yanıdır. Mövcudluq bütöv deyil.

Asif Ata deyir, "Nisbi olan yoxluqdur, əslində". Məna görünüşə gəlir, yəni olay biçimində təzahür edir. Sonra olay yox

olur. Yəni olay bir ana, məqama, zamana bağlı olur. Bununla belə, yox olan olay yoxluqdan gəlmir, dediyimiz kimi, Varlıqdan – Mənadan gəlir. Yoxluqdan olay törəməz, mövcudluq alınmaz. Mövcudluq mənadan gəlir, yox olur. Bununla belə, mövcudluq mənasızlaşmır. Yəni Mənadan gələn yox olur, ancaq mənasızlaşmır. Çünkü Mənanın ifadəsinə gərək olur. Məna olay araçılığı ilə ifadə olunur.

Yoxluğu iki yöndə qiymətləndirmək olar: yoxluq həm görünüşə gəlməyəndir, həm də görünüşünü qoruyub saxlamayandır. Ancaq Mütləq yoxluq yoxdur. Çünkü "görünüşə gəlməyən bir şey" haqqında deyilirsə, o, yoxluq deyil. "Şey" yoxluq ola bilməz. Yoxluğun haqqı yoxdursa, başqa sözlə, onun haqqında danışılmırsa, o, "şey" adı ilə dilə, təsəvvürə gələ bilmir, gəlməməlidir. "Mütləq yoxluq" olmadığı üçün "nisbi yoxluq" anlayışı da yoxdur. Sadəcə yoxluq özü nisbi anlayışdır. Çünkü varlıq adlı anlayış var. Varlıq Mütləq anlayış olduğu üçün yoxluq nisbi anlayışdır.

Din deyir, Allah dünyanı yoxdan yaradıb. Asif Ata isə deyir, olay, mövcudluq Varlıqdan yaranır. "Öncə mütləq yoxluq olub, sonra Allah Yoxdan dünyanı yaradıb" demək dinin ortaya gətirdiyi cəfəng ideyalardan biridir.

("Bitiq"i bütöv aydınlaşdırmaq bir "ön söz"ə sığmaz. Əslində istək heç bu da deyil. Sadəcə ayrı-ayrı məqamlara diqqət ayırmaqla İnamın özümlüyünü ifadə edən çalarlara işarə edirik).

Bir var Mənadan törəyən olaylar, bir də var olaydan əmələ gələn olaylar. Bu məsələdə də dinin çaşdırıcılıqları çox olub. Din gah deyir, xeyir də, şər də Allahdandır, gah da deyir, Allah insana ağıl verdi, pis işlər görməsin. Yəni şər, adamın bağımsız əməlidir. Ancaq həm də dinin özül ideyalarından biri sayılan "Qismətçilik" var. Əslində dinin bu ziddiyyətləri antifəlsəfədir.

Asif Atada isə "olay Mənadan gələn, bir də olaydan əmələ gələn" olmaqla fərqlənir, qavranılır. Yəni olay Mənadan gəlir, ancaq elə olaylar var, olaydan təkan alır. Məsələn, insan İnsanlıq adlanan Mütləq Mənadan doğur. Deyək, meşəni yandırmaq

isə insanın özündən – balaca keyfiyyətlərindən əmələ gəlir. Olay başqa olaya təkan verir. Dünyada Dünyalıq mənasından dağ əmələ gəlir, dağı partlayıcı ilə dağıdıb uçurmaq insan adlanan olayın əməlindən, niyyətindən əmələ gəlir. Bir sıra hallarda olay mövcudluğunu uzatmaq üçün başqa olaya təkan verir. İnsan mövcud olmaq üçün, yəni bədənin tələblərini ödəmək üçün addım atır. Həmin istək, duyğu Mənadan gəlmir, bədənin mövcudolma tələbindən gəlir.

Sonra, insan iradəsinin anlamı ilə bağlı Asif Ata deyir, "İradənin təməli məsuliyyətdir". İnsanın doğadan, gerçəklikdən üstün olmaq olanağı var. İradə - üstünlük olanağının ifadəsi olanda ruhsallaşır, zor ifadəsi olanda heyvaniləşir. İnsan içində xeyiri üzə çıxaranda, mənəviyyat yaradanda iradə həmin olanağa bağlanır. İnsanın içi hansı tələbə yönəlirsə, iradə həmin tələbin ifadəsinə köklənir. İnsanın içində vicdan hakim olanda iradə ruhsal xarakter alır, başqa sözlə, vicdanın tələbini təsdiq edir. İnsanın içində xudbinlik hakim olanda, iradə heyvani xarakter alır, yırtıcı niyyətləri təsdiq edir. Ancaq mahiyyəti baxımından iradə həm mənəvi kamillikdən təkan alır, həm də mənəvi kamilliyin qoruyucusu kimi çıxış edir. Çünkü iradə güc anlayışı ilə eyniləşmir, heyvani güc əslində iradə deyil. Heyvani güc iradənin yoxluğu demək olur. İradə keyfiyyətini dəyişirsə, İradə sayılmır. Yəni, əgər iradə zəif olarsa, insanda mənəvi kamillik yaşayıb var ola bilməz, özünü doğrultmaz. Deməli, yalnız ruhsal iradə iradədir. Ata heyvani iradəni iradəsizlik hesab edir.

Ruhaniyyat bütöv olaydır, nisbi olay deyil. Yəni, ruhun əsas dörd keyfiyyəti – İnam, İdrak, Mənəviyyat, İradə Mütləq olanda Ruhaniyyatçılıq baş verir.

Burada biz ruhaniyyata olay dedik, ancaq Asif Ata deyir, olay keçicidir. Doğrudur, ruhaniyyat olaydır, ancaq İnsanlıq adlanan mənanı ifadə edən olaydır. Mənanı ifadə eləyən olay ölüb bitmir, yenilənir. Olaydan təkan alan olaylar tükənib ölür. Məsələn, insana qayğı, ədalətli davranma, vicdanlı olma İnsanlıqdan gələn keyfiyyətlərdir, yenilənir. Ömürdə yenilənmə nizamı var. Ancaq bədənin tələblərindən irəli gələn əməllər, de-

yək, mövcudluğun qorunması, ya da hərcayi istəklərin gerçəkləşməsi yenilənmir, təkrarlanır. Yenilənmədə gəlişmə (inkişaf) var, təkrarlanmada tükənmə, adiləşmə. Fərəhə çevrilməyən ləzzətçilik bir bireydə təkrarlanır, ancaq fərəhçilik doğuran əməl, deyək, insana qayğı öz etkisi ilə bir bireydə tükənib ölmür, başqa bireylərin sevincinə, sevgisinə girir.

Asif Ata deyir, "İnsanda özünü yaratmaq tələbi var. Kamillik həmin tələbi ödəyir". Əslində fərəh də bu ödənişdən doğur.

Geneldə Asif Atanın İnamı Fərəh inamıdır, çünkü insan Mütləqi dərk eləmək əsasında yaşayır. Dində insanın fərəhi mövcud deyil. Çünkü Mənanı dərk eləməkdən uzaqdır. Fərəh bütöv münasibətdir, çünkü Mənadan gəlir. Olaydan gələn fərəh tükənəndir, yox olandır. Din insanı bəndə sayır, bəndəliyə fərəhlənmək ağılsızlıqdır. Fərəhin qaynağı vüqardır. Vüqar – insanın özünü təsdiq eləməsindən yaranır. Bəndənin vüqarı olmur, köləlik vüqarsızlıqdır. Köləlik psixologiyasına uymaq çirkinlikdir. Bəndə köləliyi özü üçün gözəllik sayır – Allaha münasibət gözəlliyi hesab edir. Asif Ata deyir, "Gözəllik biçimin Məna səviyyəsidir". İnsan İnsanlığa bənzəyəndə gözəl olur. Gözəllik – bənzəyişdir, Məna üstə bənzəyişdir. Əməlin xeyirə bənzəmək gözəlliyi. İnsanın köləyə deyil, Allaha (əslində Mütləqə) bənzəməsi gözəllikdir. Gözəllik biçim-məna bağlılığının kamil görsənişidir.

İstəkli oxucu, biz İnamın özümlük fəlsəfəsindən ayrı-ayrı çalarlarına aydınlıq gətirməklə "Bitiq" haqqında ilkin bilgi yaratmağa çalışdıq. Asif Atanın Düşüncə-ideya yüklü bu fəlsəfəsini çox oxumaq, öyrənmək gərəkdir. Burada insanın bilmək, dərk etmək, davranmaq, münasibət qurmaq, Mənanı sevmək nizamı, qaydası yer alıbdır. Burada insanın ölməzlik istəyi, bütövləşmək fərəhi bitginləşir. İnsanın xalq, xalqın bəşər olmaq olanaqları üzə çıxarılır.

Öyrənmək, düşünmək, yetmək gərəkdir.

## Dünya İçindən Yaranır

Bundan sonra yaşamağın fəlakətli gedişindən qurtuluş axtaran bəşəriyyətin gələcəyi Asif Ata varlığına bağlıdır. Mütləqə İnam - insanın özü qarşısında yaratdığı uçurumdan onu (insanı) adlatmağa zəmin yaradır.

Mütləqə İnama qədər nisbi ideallara tapınmaqla insanlığın sonuna gəlib çıxdı dinlər. Dinlərin nisbi qutsallığından, nisbi həqiqətindən ayrılmağın çağıdır. İnsan yalnız Mütləq Ölçü ilə yaşayıb var ola bilər. O, nisbi ölçülərlə heyvanilik səviyyəsinə endi. Bu səviyyə ilə varlığı ayaqda tutan bütün ruhsal məziyyətləri itirməkdədir, itirməyə doğrudur. İnsan ata ola bilmir, ana ola bilmir, qardaş ola bilmir, bacı ola bilmir, dost ola bilmir, vətənli ola bilmir, bir sözlə, gələcəkli ola bilmir. İnsanın texnika erasında gələcəyə işıq yandırmaq dilәkləri puç oldu. İndi o, İnsanilik yüzilinin (əsrinin) işıqlandırdığı dünyaya üz tutmalıdır.

Dünyanı hər şeydən başladılar, dünya yarımçıq oldu. Bəşəriyyətin ağgünlülük (xoşbəxtlik) idealı mənasız eksperimentlər girdabında ilişib qaldı. Asif Ataya görə dünyanı İnsanlaşma ideyasından başlamaq gərəkdir, – texnologiyalaşan dünya İnsanilәşən dünya ilə əvəz olunmalıdır. İnsanilәşən dünya necədir, necə oluşur – bunu Onun (Asif Atanın) Qutsal Bitiqlərindən öyrənmək olar.

İndi bu Bitiqlərdən (“Qutsal Onluq”dan) birindən – “İçdən Yaranma” Bitiqindən (kitabından) danışacağıq. “Qutsal Onluq” Asif Atanın 45 kitabını özündə birləşdirir. Biz, Ocaq olaraq, 45 kitabı anlamlarına görə təsnifatlaşdırmış, uyğun anlamlıları bir üzdə (cilddə) birləşdirmişik. Beləliklə, 10 + 3 üzdə bütün kitablar sistem halına gətirilmişdir.

“İçdən Yaranma” İnamın 7 kitabını özündə birləşdirir. Asif Atanın bir çox kitabalrı tutumca kiçik ölçülü kitablardır. Bu kitablarda dünyanın heç bir düşüncə adamından örnək göstərilmir, heç kimin sözü, kitabı, heç bir olay, heç bir sürəc (proses)

yorumlanmır (şərh olunmur). Asif Ata özü özünü belə ("Gerçəkliyi Ötmək" kitabını çıxsaq, çünkü kitab bədii-fəlsəfi ələşdirmə (tənqid) yönündə yazılmışdır), yorumlamır. Tam olaraq, mahiyyət üstə düşüncə söylənilir. Ona görə Asif Atanın hər bir kitabını düşüncə kitabı, məna kitabı adlandırmaq olar.

"İçdən Yaranma"nın birinci kitabı "Dünyaçılıq – İnsançılıq" adlanır. Bu kitabda doğaya münasibətin yeni ölçüdə dərk olunması ortaya çıxır. Burada, indiyə qədər doğaya ən çox panteist yanaşma ölçüsü Mütləqçilik ölçüsü ilə əvəz olunur, doğanın mahiyyəti İnsaniliklə birlikdə götürülür. Genel olaraq, Doğaya münasibət Mütləqə münasibət səviyyəsində aydınladılanda, Doğaya qarşı davranışların təzadları, çelişkiləri çözümünü tapır. Söz yox, bu münasibətdə Doğa ilə Mütləq eyniləşdirilmir. Mütləq – Doğanın daşıdığı mahiyyətdir...

İnsan Doğaya poetik yanaşanda ona bəslədiyi münasibət ideala bənzəyir. Ancaq gerçəklikdə bu münasibət qorunub saxlanılmır. Belə götürəndə, nə poeziya, nə də fəlsəfə toplumsal sorunları çözə bilmədi. Toplumun yaratdığı sorunlar insanın Doğaya olan münasibətinin üzərinə çökdü. Asif Ata göstərir, bu çelişkiləri yalnız ruhaniyyat aradan qaldıra bilər. Ancaq Asif Ata ruhaniyyatı dini məzmunla eyniləşdirmir, tərsinə, doğaya münasibətin əyilməsində dini suçlayır. Yəni Doğaya münasibətin əyilməsinin, dinin Allahçılıq ideyasına bağlı olaraq, daha kəskin şəkil almasını vurğu edir. Bunun başlıca nədəni, dində, Allahın Doğaüstü qüvvə kimi sunulmasıdır. Bu sunulmada Doğa mahiyyətsizləşdirilir. Ancaq Asif Atada dünya Dünyalıqla birlikdə götürülür. Ona görə də Doğa mahiyyətinə doğma olur.

Dünyaçılıq – dünyanı bütöv götürmək, onu dərk eləməkdir.

Bitiqdəki "Kamilləşmə Əməli" insanı öz mahiyyətinə yetirir. Burada vurğulanır, Tanıma – Kamilləşmənin özülüdür. Deməli, İnsanlıq üstə yaşamaq – Özünü, Dünyanı tanımaqdan, bilməkdən başlayır.

Kitabda "Özüylədöyüş"ün nəliyi, necəliyi öyrədilir, əmələ başlamanın yolu aydınlaşdırılır.

Adam başqasını, davranışına görə, qınayır, ona acıqlanır. Bu o deməkdir, adam başqasının üzərində hakimlik eləmək istəyir. Başqasına münasibətdə özünü necə aparmaq əxlaqın birinci koşuludur (şərtidir). Başqasına münasibətdə yadlaşmaq, yağılaşmaq – içdə qəbahət becərmək, mənəviliyi inkar etməkdir. Başqasına insanca yanaşmaq, başqasının haqqını, özgürlüyünü tanımaq – onda özünün İnsanlıq keyfiyyətlərini görməkdir. Başqa sözlə, başqasılaşmaqdır, özünün insan olmaq kamilliyini təsdiq etməkdir.

Vətənə, xalqa, bəşərə münasibət də başqasına qarşı olan münasibətin doğruluğu, doğmalığı üzərində qurulur.

İnsan özündə İnam, İdrak, Mənəviyyat, İradə yaradır. Yəni, ruhunu bərpa edir, onu kamil səviyyəyə çatdırır. Yalnız bundan sonra o, toplumsal (ictimai) şərlə döyüşə bilər. Özündə kamil ruh yaratmayan insana döyüşkən (mübariz) insan demək olmaz.

Bitiq "Daxildən Gerçəkləşmək" əsəri ilə davam edir. Asif Ata deyir, Dünya Özündən yaranır. Yəni dünyadakıların təzahür etdiyi Dünyalıq dünyanın özündədir. Dünya qıraqdan yaradılmır, qıraqdan yönətilmir. Dünyanın qıraqdan yaradılmasını iddia eləmək onu mahiyyətsiz bir biçimə çevirməkdir. Mahiyyətsiz dünya ilə insanın heç bir bağlılığı (əlaqəsi) yaranmaz. Bu cəhətdən dinin dünyaya münasibəti antidünyadır...

Asif Atada dünyanın mahiyyəti onun Dünyalıq adlı Özümlüyüdür. İnsanın İnsanilik adlanan mahiyyəti də Dünyalıqla birdir. Ona görə də insanın kamilləşməsi – əslində Dünyalıq adlı mahiyyətə qovuşmasıdır. İnsanın dünya sevgisi onun öz İnsani mahiyyətinə olan münasibətidir. Allaha, yəni transendentala meyil edən adamın özünü sevməsi – əslində xudbinlikdir. Çünkü Allahın, yəni transendentalın insana dəxli yoxdur.

Dünyalığa meyil edən insanın özünü sevməsi – əslində dünyanı sevməsidir. Çünkü Dünyalıq onun Özümlüyüdür. Dünya insanın gözündə mənalıdır, o, fani, oyun-oyuncaq deyil. İnsan dünyanı dərk elədikcə başqa bir dünya axtarmır, əslində başqa bir dünyanın olduğuna inanmır da.

...Dünya içdən gerçəkləşir, içdəkini ifadə edir.

“Gerçəkliyi ötmək” əsərində Mənanın vəsfi şeir örnəkləri araçılığıyla aydınlaşdırılır. Gerçəklikdəki adilikləri, keçicilikləri görən ruh Mənaya can atır. Toplumsal həyatda bu, ən çox şeiriyyət araçılığıyla ifadə olunub. Həyata sığmayan ruh poeziyalaşır, təxəyyül şeiriyyət araçılığıyla Məna yoluna düşür...

- Həyatda bioloji döyüş görürlər, güzəran qurmağı bacarmaqda hünər görürlər, rəqabətdə qalib olmağı aqibət sayırlar. Həyatı ölümlüyə bərabər götürürlər. Əslində isə həyat sirlərlə, əsrarlarla zəngindir. Buna görədir, insanda yaşamaq eşqi tükənmir. İnam – həyatı fani sayanları rədd edir. Öyrədir ki, həyat özündə özündən Yüksək olanı gəzdirir. İnsanın məqsədi həmin Yüksək olana yetməkdir; həyatı itirməmək, həyat araçılığıyla ölümsüzlüyü dərk eləməkdir. Həyatı itirməmək – yəni həyatın özündəki özündən Yüksəyi itirməməkdir.

Dünya dərk olunandır, çünkü özündə özündən Yüksək olanı gəzdirir. Dünyanın qıraqdan yaradılıb yönətildiyini qəbul eləmək dünyanı dərk eləməməkdir. Çünkü qıraqdan yaradılan dünya mahiyyətsizdir. Mahiyyətsizin dərk olunması anlamı isə yoxdur. Mahiyyətsiz bir şeyi dərk eləmək – yoxluğa düşməkdir.

Bitiyin “Özündən Yüksək” əsərində yuxarıda vurğulananları anlamaq başa gəlir.

Bitiqdəki əsərlərdən biri də “Bütövlük Həqiqəti” adlanır. Hər bir əsər, adlarından göründüyü kimi, Asif Atanın Mütləqə İnam Dünyabaxışının məzmununu üzə çıxarır. Bu əsərdə ideal-gerçəklik münasibətlərinin mənasını anlamaq, öyrənmək olur.

Həyat gerçəklikdə adiləşir, bəsitləşir, cılızlaşır. Gerçəklik səviyyəsində idrak adiliyə, bəsitliyə, cılızlığa qulluq edir. Ancaq bütövlüyə can atan insan gerçəklik səviyyəsində həyatla barışmır. O, həyatı ideala yüksəltməyə, bənzətməyə çalışır. Daim ideal çağırışına doğru meyillənir, ideal tələblərinə əməl etmək istəyir. Bununla da insani münasibətləri tükənməkdən, həyatı ölməkdən qoruyur. Əslində Yüksək (Ali) Həyat yaradır...

Asif Ata bəşəriyyətin ideya tarixində yeni aşama başlayıb – dünyaya, həyata, insana münasibəti yeniləşdirir. Yenidən yara-

dır uçulanı, dağılanı. Dünyaya münasibəti dəyişməklə onu əsilləşdirir. Bunun üçün dünyanın Özümlüyünə dayanır – Dünyanın Dünyalıq Mənasına İnam yaradır.

Mahiyyətsizləşdirilən Dünya Mahiyyətləşən Dünyaya Yüksəlir.

## Özgürlük – İnsan Haqqıdır

Bəşər övladı birgəyaşayışın zəruriliyini anladıqca bu birgəyaşayışı təmin edən məsələləri zaman-zaman düşünüb yoluna qoydu. Ancaq birgə yaşamağın maddi ölçüsünü yaradıb ortaya gətirdi. Halbuki burada birgə yaşamağın mənəvi özülü bərqərar olunmalı idi. Sivilizasiyada dəyişikliklər, deyək ki, Quruluş dəyişilmələri iqtisadi prinsiplər üzərində baş verdi. Bir-birini əvəz edən Quldarlıq, Feodalizm, Kapitalizm, Sosializm – iqtisadi gəlişmənin (inkişafın) hər cür yollarını sınaqdan çıxardı. Ancaq heç vaxt insan ağgünlü (xoşbəxt) yaşamadı. Bu gün sonuncu minilliklərin sonuncu Quruluşu Kapitalizm aşamasıdır. Heç kim bunun adına kapitalizm demir, Demokratik Quruluş deyir. İnanmıram ki, pulçuluğu həyatın qarşılıqsız ölçüsü saymağı ayıb hesab eləyirlər deyə Quruluşu belə adlandırırlar. Sadəcə olaraq, humanizm görüntüsü yaradırlar ki, ayıblı əməllərin ağırlığı altından milyonların fəryadı üzərə çıxmasın. Kapitalizm həyatı bütünlüklə bazara çevirib. Gizlin alıb-aldatmaq yoxdur, açıq şəkildə, dövlət strukturlarının verdiyi olanaqlardan yararlanaraq, insanlara qarşı zorakılıq həyata keçirilir.

Belə görünürdü, Quldarlıqdan üzü bu yana daim müsbət dəyişikliklər olmalı idi. Bu müsbət dəyişikliklər də insana münasibətdə özünü göstərməli idi. Ancaq yazıqlar olsun, tərəqqi təbəqələrin mənafe fərqinə yaradı, insani münasibətlərin sağalmasına yol açmadı. Heç bir inkişaf toplumun təbəqələşməsini aradan qaldırmır. Təbəqələşmə isə heç vaxt indiki qədər müxtəlifləşməyib. Yəni təbəqələşmə xarakterik olaraq ikiləşmir,

başqa sözlə, pis münasibət təkcə varlı ilə yoxsul arasında deyil. Belə olsaydı, yoxsul varlını çoxdan devirərdi. Pis münasibət varlı ilə varlı, yoxsul ilə yoxsul arasında da eyni qaydadadır. Yəni pis münasibət insanlar arasında mövcuddur. Toplumda İnsanlığın olmaması – pis münasibətlər "uyumu" ("ahəngi") yaradır. Paxıllıq, xudbinlik, mənəmlik, rəqabətçilik kimi xarakterik cəhətlər təbəqəyə bölünmür ki. Təbəqəyə bölünənlər də bu keyfiyyətləri başqa təbəqəyə buraxmır, özüylə gəzdirir. Asif Ata deyir, "cəmiyyət insanın adamlıq səviyyəsindən yaranıb". Adam da özündə antiinsani keyfiyyətlər yaşadır. Yəni özünə qarşı yaşayır. İqtisadiyat da Adamlıq keyfiyyətləri əsasında tənzimlənir, inkişaf edir, – mahiyyətcə insana qarşı inkişaf edir. İnsana qarşı inkişaf isə təkcə insanın varlı-yoxsul olmasında özünü göstərmir, həm də Doğaya dəhşətli zərbə vurulur. Bu isə özlüyündə insanın fiziki sağlamlığını da hədələyir. Deməli, Adamlıq niyyətlərinin gerçəkləşməsi əsasında iqtisadiyyatın inkişaf etməsi doğal fəlakətlər bolluğu deməkdir. Həyat getdikcə faciəviləşir. İnsanın insan üzərində ağalığı, eqoizmi toplumsal, iqtisadi, siyasi sorunlar adıyla yaşayır. Ancaq məsələ Adamın Doğaya qarşı tamahında, insana qarşı ağalığındadır. Doğanın qurtuluşunun da bir yolu var – sənayeləşmə minimuma enməlidir. Sənayeləşmə doğasızlaşma deməkdir. Asif Ata da vurğulayır, bundan qurtarmaq üçün Adam İnsanlaşmalıdır. Toplumsal dəyişikliklər iqtisadi yürüş əsasında yox, İnsanilik əsasında olmalıdır. Onda hər kəs başqasından qazanc götürmək yox, başqasına xeyir vermək haqqında düşünər. Başqasına xeyir vermək istəyən doğaya zərər vurmaz.

Əməl qarşılıqlıdır, – başqasını özün üçün qazanc aracına çevirsən, o da səni çevirəcək. Başqasına xeyir vermək istəsən, o da sənə xeyir verəcək...

Bütün bunları "İqtisadiyyat İnsansızlığı – İqtisadiyyat İnsaniliyi" kitabından öyrənmək olar.

"X Bitiq"in ikinci əsəri "Həqiqət Azadlığı – Cəfəngiyyat Əsarəti" adlanır. Asif Ata bu əsərində insanı cəfəngiyyat əsarətindən qurtarmağın tələbini irəli sürür. Əslində toplum din ara-

çılığıyla ruhsal əsarətə düşüb. Bu əsarət həm də iqtisadi təbəqələşməyə qulluq edir. Din deyir, Allah dünyanı yönətir. Bu düşüncə Mənaya çatmır, gerçəklikdən gəlir, adilikdə qalır. Toplumu – ağalıq səviyyəsində yaşayan bir zümrə yönətir. İnsanlaşma olmadığı üçün toplumu ağalığın yönətməsi əməlindən fərqli bir əməl ortalığa çıxmayıb. Deməli, ağanın, ağalığın toplumu yönətməsi "qaçılmazlığı" şüurlara işləyib.

İnsanın insan üzərində ağalığını Allahın insan üzərində ağalığı ilə əvəz edən din dünyada ortaqsız Allah hakimiyyəti bərqərar etmək istədi. Bu, Don Kixotluq idi. Olmayan bir hakimiyyət, olmayanın yönətiçiliyi. Nəzəri bir boşluq.

Geneldə isə, dünyada Allah hakimiyyətini bərqərar etmək niyyətində ikiüzlülük vardı. Axı dinə görə dünyanın hakimiyyəti bünövrədən İblisin ixtiyarına buraxılıb. Toplumun varlığında Allahın deyil, İblisin yaşaması qərarlaşdırılıb. Bütün yer əməlləri də Allah məzmununa deyil, İblis məzmununa uyğundur...

Bir sözlə, bəşəriyyətin şüuruna hakim kəsilən cəfəngiyyat dünyanı qaranlığa bürüdü. Qaranlıq Yalandan törəyir, Yalan xeyirxahlıq doğmur, zülm doğur, istibdad yaradır. Yalan dünyanın ölümünə qərar verir, qurtuluşuna yox. Dünyanı Həqiqət qurtarır. Çünkü Həqiqət insana özgürlük gətirir. Dünya insani münasibətlərin saflığından qutsal nizam tapır.

Cəfəngiyyat ömürdə özgürlüyü əvəz edəndə insanın idrakı qaranlığa düşür. İnsan öz növündən olanın ağalığını rədd eləmək üçün öz üzərində Göydəki Allahın ağalığını yaradır. Bəndənin ağalığındansa Allahın ağalığı yaxşıdır deyə düşünür. Özünü mənasız yerə ovundurur ki, yerdəkinin ağalığı-filan boşdur, hamı Allahın quludur. Əslində ağalığı rədd eləmək üçün insandan öz İnsani mahiyyətinə bərabər yaşamaq tələb olunur. Bu olmayanda insan özü üçün ağanın yerini dəyişməklə qul psixologiyasından açılmır.

İnsanlığın geniş, sonsuz Məna olduğunu bəşəriyyət dərk eləsəydi, uzaqlarda Allah-ağa axtarmazdı.

Dünyanın mənaca geniş, sonsuz olduğunu dərk eləsəydi, axirət dünyasına ümid bəsləməzdi...

“Siyasətdə Dünyanı Nizamlamaq onu Buxovlamaq deməkdir əslində” (Asif Ata). Bu düşüncə “Siyasətdən Üstün” əsərindəndir. Asif Atanın Dünyabaxışına görə siyasət Adamın İnsanlaşmasının qarşısını alan əməldir. Dövlət xalqa qulluq eləmir, ona görə də siyasət yaranır. Yəni toplumu yalanlarla, zorakılıqla yönətməyin adı siyasətdir.

İç siyasət – xalqı mənasından ayırır, kütləyə (sürüyə) çevirir, yönətir. Şəxsiyyəti olmayan, böyükləri olmayan toplumu yönətmək asandır. Ona görə hakimiyyət xalqın içindən çıxan şəxsiyyətləri xalqdan ayırır, titullaşdırır, vəsiqələşdirir, məmurlaşdırır– toplumun bir ünsürünə çevirir. Şəxsiyyətsizləşdirilən xalq başsız qalır, kütləyə çevrilir. Hakimiyyət xalqa qulluq göstərməkdən ayrılır, toplumu özünə qulluq etdirərək yönətir (idarə edir).

Dış siyasətdə güclü olanlar başqa ölkələri kiçildir, onları yönətir. Öz xalqına ağalıq eləyən dünyaya da ağalıq eləmək istəyir. Bunun üçün başqa ölkələrin iç işinə, yönəticiliyinə qarışaraq, onun milli prinsiplər əsasında yaşamasını aradan qaldırır. Ancaq balaca dövlətlərin dünya ağalığında qatqısı olmur. Ona görə də onlar öz içində ağalığını qorumaq üçün beynəlmiləlçilik prinsipi ilə yaşamağa üstünlük verir. Çünkü milli prinsiplərlə yaşasa, xalqa ağalıq edə bilməz.

Beynəlmiləlçilik əsasında yaşamaq davamlı şəkildə özgələşmək (xariciləşmək) əməlidir, başqa sözlə, daim dış etkilərdən asılı olmaqdır. Özgələşməyin etkisində yaşayan dövlət heç vaxt xalqına qulluq göstərməz, göstərə bilməz. Ona görə də dış siyasət iç siyasətin üzərində gəlişmə (təşəkkül) tapır.

Dövlətin xalqı qoruması, ona qulluq eləməsi üçün dövlətin başında şəxsiyyət durmalıdır. Bunun üçün dövlət yönətiçiliyinin xarakteri dəyişməli, – siyasilikdən çıxmalı, ruhsallaşmalıdır. Asif Atanın tələbi, Yolu budur.

Asif Ata “Haqq – Haqsızlıq”, eləcə də “Haqq” əsərlərində ardıcıl şəkildə hüququn haqq olmadığını, insana yaramadığını

kanıtlayır (sübut edir). Hüquq qıraqdan (dövlətdən, siyasətdən) insana verilən imtiyazdır. Haqq – insanın içsəl məziyyətidir – İnsanlığın tələbidir. Hüquq adamı içindəki naqisliklərlə bir yerdə qoruyur, yəni adamı cəzalandıranda onun içi naqisliklərdən arınmır.

Hüquq canini cəza evinə salır, ancaq cinayəti canidən qurtarmır, – cani canilik dərdindən sağalmır. O, cəza evindən çıxanda içindəki cinayət olanağı ilə birlikdə özgür buraxılır. Cani qorxudulur, ancaq onun içindəki cinayət qorxmur, gizlənir. Fürsət düşəndə yenidən əmələ qayıdır. Beləliklə, cani-hüquq münasibəti əslində dərin mənada heç nəyi çözmür.

Hamı qanun qarşısında bərabərdir deyirlər. Axı qanun qarşısında bərabərliyin təminatı nə deməkdir? Varlı ilə yoxsul, ağa ilə qul, pullu ilə pulsuz nə vaxt qanun qarşısında bərabər olubdur? Hansı toplumda, hansı çağda? Bütün bunlar ritorik yalanlardır. İnsanlaşma yoxdursa, bərabərlik də yoxdur. Adamın içindəki əyrini, canini öldürmək üçün onu İnsanlaşdırmaq gərəkdir. Adam İnsana yüksəldikcə Hüquq da Haqla əvəz olunur. Budur Asif Atanın çağırışı.

Beləliklə, Asif Ata Yaşamın yeni ölçüsünü – Mütləqilik ölçüsünü bəlli edir.

Yalana Dəyişməzlik statusu verəndə o, ehkama çevrilir. Həqiqətin Dəyişməzliyi isə ona verilən status deyil, özümlükdür...

Bununla da, biz, Asif Atanın "Hüquqdan Haqqa" Qutsal Bitiyi haqqında yığcam bir mənzərə yaratmağa çalışdıq. Lap doğrusu isə Asif Atanın kəlamlarını öz Bitiqlərindən oxumaqda, düşünməkdədir.

## Görəni görmək gərəkliyi

Ürəyinizdə Ata Günəşi olsun!

Həqiqəti İnsanlığa yetən görər. İnsanlıqdan aşağıda durmaqla yarımhəqiqəti görmək olar, ya da heç görmək olmaz. İnsanlığın ölçüsündə duyğu da, İdrak da bütövdür. Bütövlük Həqiqətdən gəlir, Həqiqəti göstərir. Həqiqəti kiminsə ağzından eşidərək deməklə Həqiqət dərk olunmaz. Yalnız Həqiqət üstə yaşayanda söz kəsərli, işıqlı olur. Yalnız kəsərli, işıqlı söz ağıllara çatır, ürəklərin gücünə çevrilib yenidən yaşanır, – yaşama qayıdır. Həqiqəti yaşamayanın Həqiqət haqqında sözü anlaşılmaz olur. Həqiqət yanğıdır. Yanğı haqqında mülahizə edənlərlə Yanğı üstə yaşayanların etibarı, gərəkliyi bir olmur.

Bu çağa kimi bəşəriyyət ən çox boşluqda söz xərcləyənlərin etkisində olub. İndi Həqiqəti bütöv görənlərin, Həqiqət üstə yaşayanların, Həqiqət uğrunda savaşanların Yoluna düşməli, Qurtuluş qapısını açmalıdır.

Bəs Həqiqət nədir, Həqiqətə yetmək, onu dərk etmək nə deməkdir? Həqiqətə yetmənin ölçüsü necə olur? – Asif Ata bildirir, bəşəriyyət hələ həqiqəti bütöv dərk etməyib. Bu düşüncə ilə üzləşən istənilən adam, ilk baxışdan, Asif Ataya etiraz edər. Atanı gərəksiz inkarçılıqda suçlayar. Bəs bəşəriyyətin, neçə minillərdir, axtarışlar ilsırasının (tarixinin) üstündən cızmı çəkək? Doğrudan da, böyük suçlamadır (ittihamdır). Ancaq boşuna (əsassız) deyil. Asif Ata bəşəriyyətin fəlsəfi-düşüncə yönünü, Tanrısal sistemini araşdırıb öyrəndikdən sonra bu düşüncəyə gəlibdir. O deyir: "Fəlsəfə tarixi İdealizmlə Materializmin döyüşündən oluşubdur". Fəlsəfənin başqa yönləri bu iki düşüncə sisteminin içindən doğmuşdur. Varlığa yanaşma bu iki sistemin ölçüsündən uzaqlaşmayıb. Ona görə də varlığa yanaşma İdealizmlə Materializmin sınırında, çevrəsindədir.

Ata yazır: "Fəlsəfənin əsas məqsədi – Maddiyyatın (materiyanın) Yapıya (Şüura) yanaşması (münasibəti) deyil, Görsənişin (Təzahürün) Mahiyyətə yanaşmasıdır".

Materializm varlığı görsənişə (təzahürə) tən götürür. Ona görə də bu fəlsəfə ilə mahiyyəti dərk etmək olmaz, Görsənişi dərk etmək olar. Görsəniş isə nisbidir, ölümlüdür. İdrak görsənişdə boşluğa çıxır. Həqiqət görsənişdə deyil, onun mahiyyətindədir. Deməli, əslində Materializmdə dərk sürəci (prosesi) başa çatmır, yarımçıq qalır. Ona görə də İdrakın varlığa yanaşması özünü doğrultmur. Ataya görə Fəlsəfə – Varlığın mahiyyəti haqqında düşüncədir, Görsəniş haqqında düşüncə deyil.

İdealizm araçılığı ilə də Mahiyyət dərk olunmur. Bu fəlsəfəyə görə Mahiyyət ideya ilə eyniləşir. Görsəniş ideyalar aləminin kölgəsi kimi sunulur. Gözə alınsa, ağıldan qıraqda ideya yoxdur, başqa sözlə, ideya ağılın məhsuludur, onda İdealizmdə mahiyyəti dərk etmək yolu daralır, həqiqətə yetmək olanağı aradan gedir. Buradan belə bir düşüncəyə gəlmək olar: Fəlsəfənin Varlığa yanaşması onun bütün sonrakı addımlarını bəlli edir.

Ata yazır: "Var olmaq – Mahiyyətə tən olmaqdır.
Mahiyyət gerçəklikdə tam Olmur.
O, gerçəkliyin olanaqlarından artıqdır.
Bu səbəbdən də olan (gerçəklik) əslində Olmayandır.
Olmayan – yəni Mahiyyət – əslində olandır.
Yəni gerçəklik olur, ancaq Olmur.
Mahiyyət olmur, ancaq Olur".

*(Asif Ata. "Olan və Olmayan" əsəri.)*

Məsələn, insan cism (bədən) – mahiyyət (İnsanlıq) birliyidir. Cism (gerçəklik) görünəndir, İnsanlıq görünməyəndir (fiziksəl deyil). Bədən olur, ölür. Deməli, olmur, yəni əbədi deyil, bir yerə qədərdir. İnsanlıq olmur, yəni gerçəkliyə tən deyil. Ancaq əbədidir, yəni Olandır.

Bu yanaşma Mütləqilik Fəlsəfəsinin ölçüsüdür. Bu, Asif Atanın baxışıdır. Bu baxış Mahiyyətin ideya ilə eyniləşdirilməsindən, ya Görsənişə tən götürülməsindən yüksəkdə durur. Mahiyyət Mütləqə təndir. Mütləq (Əbədi, Əzəli, Kamil, Sonsuz

olan Mahiyyət) idrakla dərk olunur, ancaq idrakdan asılı deyil. İdrak mahiyyətə yoldur – fəlsəfə yoludur.

Asif Ata "Olan, Olmayan" əsərində fəlsəfi, ideoloji doktrinaları aydınlaşdırır, rədd edir. Çünkü bu doktrinalarla insan özünə çatmır, dünyanın mahiyyətinə yetmir. Fəlsəfi baxışlar Quruluşa yarayır, bundan siyasət yararlanır, maddiyyatçılıq ruhaniyyatçılığı üstələyir. Bununla da idealla gerçəklik arasında uçurum görünür. Özgürlük, ədalət idealda qalır, gerçəklikdə kanıtlanmır (təsdiq olunmur). Fəlsəfi doktrinalar insanı yanıldır, insan mahiyyətə yetmir, idealda olanı – Ədaləti, Özgürlüyü gerçəkliyə gətirə bilmir. Ya da yarımədalət gətirir, yarımözgürlük gətirir. Quruluş – insanı maddiyyatıçılıq tələsinə salır. Sosial gəlişmənin yollarını öyrədir, varlanmanın, güclənmənin yollarını öyrədir, mənəviyyat yaratmaq öyrətmir. Çünkü mənəviyyat yaratmağın yolunu tanımır.

Kapitalizm sənayeləşmək kultu yaratdı. İnsan sənayeləşmənin köləsinə çevrildi. Gödənçilik ən böyük mədəniyyət sayıldı. Köləlikdən ağgünlülük (xoşbəxtlik) düzəltmək istədilər, alınmadı.

Sosializm – istehsalat kultu yaratdı, dövlət ağalığı ilə ağgünlü gələcək qurmaq istədi, insan dövlətin köləsinə çevrildi. Kollektiv təsərrüfatçılıq bireysəl mülkiyyəti yoxa çıxartdı. İnsan sürüləşmə aqibətinə sürüldü, ulusal kimliyini itirdi, özgürlüyünü itirdi, dinc heyvana çevrildi. İnsana gödəni ödənilmiş (təmin olunmuş) heyvan kimi baxdılar. Elə bildilər insan təkcə gödəndən oluşubdur, onun qarnı doysa, dövlətdən heç nə tələb eləməyəcək. Ancaq bu niyyətin ömrü uzun sürmədi...

Deyirlər sosializmi qıraqdan kapitalizm yıxdı. Deyirik sosializmi – onun öz içindəki mənəviyyatsızlıq yıxdı. İçində möhkəm olanı dışarıdan heç nə yıxa bilməz.

Din insanı mənəviyyata çağırdı. Ancaq bu mənəviyyatın özülü insanın içində deyil, dışarıdadır. Yəni din insanı Allahın mənəviyyatına çağırdı. Öz içində mənəviyyatı olmayanı Allahın mənəviyyatını qorumağa çağırmaq cəfəngiyyatdır. İçində həqiqətə yetməyəni dışarıda həqiqəti tanımağa çağırmaq özünü

doğrultmaz. İnsanın mahiyyəti Allaha təndir. Ona bunu dərk etməyin yolunu demədi din. Bu səbəbdən də, dində insan Allaha əl açır, ondan maddiyyat dilənir, ruzi, bərəkət istəyir, mənəviyyat istəmir.

İnsanın Allahdan mənəviyyat istəməsi – içinə üz tutması demək olmalıdır. İçində ədaləti üzə çıxarmalı, ona yetməlidir. Onda həyat göründüyündən artıq olacaq, insanca davranışlar, yanaşmalar göründüyündən artıq olacaq. Maddiyyat uğrunda savaşa ehtiyac qalmayacaq, hər kəs başqasının haqqını dərk edəcək, sosial bərabərsizlik aradan qalxacaq.

Qoymurlar insan böyüsün, qoymurlar insan ədalətə, özgürlüyə yetsin. Nə Quruluş buna olanaq verir, nə dövlət, nə də din. Hamısı insanı özündən qıraqdakı qüvvəyə bağlayır, qıraqdakı qüvvədən asılı edir. Quruluş insanı doktrinalar əsarətinə salır, dövlət insanı hakimiyyət əsarətinə salır, din insanı Allah əsarətinə salır. Ona görə də həyat qaranlığa çevrilir.

Bəzən Asif Atanı bəlli fəlsəfi anlayışlarla anlamağa çalışırlar. Bunu da ən çox sovet oxulu keçmiş adamlar edirlər. Deməliyik, materialist, ya da idealist anlayışlarla Asif Atanı öyrənmək istəyi doğru sonuc verməz. Ata fəlsəfəsində anlayışlar yeni ölçü kəsb edir. Bu isə ideala yanaşmada yeni keyfiyyətlər ortaya çıxarır. Ancaq eyni halda, anlayışlar ifadə elədiyi anlamlara görə çelişkili (ziddiyyətli) də görünə bilir. Məsələn, bir yerdə "Həyat" anlayışı insanın öz üzərində qələbəsini ödəyən ortam kimi qiymətləndirilir, başqa bir yerdə insanın özümlüyünü itirdiyi ortam kimi. Sözsüz, insanın anlayışa yanaşmasının necəliyi çox önəmlidir. Bir var anlayışı yaşayanın onu necə ifadə eləməsi, bir də var oxucunun anlayışa yanaşması. Həyatı yaşayan ona necə yanaşır – bioloji ödəncin (təminatın) ödənildiyi ortam kimimi, özünün insani mahiyyətini üzə çıxarıb özümlüyünü təsdiq elədiyi araç kimimi?! Deməli, insan – biolojiliyindən yüksəyə qalxmırsa, həyat adi bir gedişə bərabərdir. İnsan kamilləşirsə, həyatı adilikdən qurtarır. Bu zaman Yüksək (ali) Həyat təsdiq olunur. Ata bunun adına Amal deyir.

Buradan çıxan sonuca baxaq: Ata "Həyat" anlayışını qonularda işlədəndə hər yol "burada "adi həyat", ya da "yüksək həyat" gözdə tutulur" deyə hər addımda açıqlamalar verə bilməz. Bu sorun, əslində bütün fəlsəfi dünyagörüşlərdə də özünü göstərir. Hər yol təkrar açıqlamalar edilərsə, sınırsız təkrarçılıq əsərin gücünü azaldar, oxunulmaz edər. Buna görə, öyrənmək istəyən oxucu yaradıcının anlayışlara gətirdiyi ölçünü özü üçün (araşdırma, ümumiləşdirmə yolu ilə) bəlli etməlidir.

Ata "Varlıq – Yoxluq" əsərində yazır: "Dünya, Həyat, İnsan – Mahiyyətlə Gerçəkliyin Birliyidir, – yəni Var olanla Var olmayanın birliyidir". Ataya görə Var olan – gerçəkliyə gələn, yəni mövcud olan deyil, Özündə qalandır. Nə deməkdir bu? Məsələn, torpaqda ağac bitir, bəlli bir çağa kimi boy atır, bar verir. Ancaq bu biçimin boyatma, barvermə olanağı sonsuz deyil, tükənir, quruyur, yox olur. Ancaq yaranışın olanağı başa çatmır. Yenə ağac bitəcək, quruyacaq. Yaranış nizamı, uyumu heç vaxt başa çatmır, əbədidir. Dünya həmin Yaranış nizamı, uyumu ilə gerçəkliyə, görünüşə gələnin birliyidir. Ancaq bu Birlik əbədi deyil, daim yenilənir. Yaranışın nizamı, uyumu sabitdir, gerçəkləşməsi isə dəyişir, yenilənir. Bir anda yaranış bir biçimlə bir olur, başqa anda başqa bir biçimlə. Yaranışın görünüşə gəlmə nizamı əbədidir, pozulmazdır. Ancaq dediyimiz kimi, bir görünüşdə dayanıb qalmır, yeni görünüşlərlə (təzahürlərlə) daim yenilənir. Burada Var olan Yaranışdır, Var olmayan Yaranışın görsənişi, gerçəkliyi.

İnsan özündə İnsanlıq mənası daşıyır. İnsan ölür, İnsanlıq ölmür. Yəni İnsanlıq bədənə yerləşməyib, Dünyanın Yaranış, Doğuluş nizamındadır. Yəni İnsanlıqla bədən birliyi bədənin ölümünə qədərdir. İnsanlığın bədənlə birliyi – bədənə yerləşib qalması anlamında deyil. Bir bədən öləndə İnsanlığın yeni bədənlərlə birliyi başlayır. İnsanlıq Doğuluş nizamındadır. Daim doğulanlarla birləşir, ancaq onlara sığmır, onlara yerləşib qalmır. İnsanlıq bədənə qıraqdan, sonradan gəlmir, Doğuluşdan gəlir. Yəni əslində bədən İnsanlığın (ifadə olunmaq üçün) görünüşə gəlməsidir. İnsanlıq Var olandır, İnsan Var olmayandır.

Burada əslində iki yoxdur, bir var. Məna var, gerçəkliyi var. Bu iki demək deyil. Ona görə bəzən Ata deyir – Dünyalıq Əbədidir. Bəzən də deyir, Dünya Əbədidir. Yəni Dünya əslində bir olan Mahiyyətdir, bir də Mahiyyətin Gerçəkliyidir. Gerçəklik – mahiyyətin görünməsidir, ikinci bir şey deyil. Yəni Mahiyyət ikiləşmir, gerçəkləşir. Gerçəkliyi ölür, özü ölmür. Özü var olandır, gerçəkliyi var olmayandır.

Hürufilərin "Ən-əl Həqq" ideyasında da bu anlamı görmək olur. Nəsimi deyir:

***İnkar əhlin söylədirsən birə yüz der, yüzə min,***<br>
***Əhli-iqrarın qatında varı birdir, var bir.***

İslam dünyagörüşündə isə durum tamam başqadır. Allah ayrıdır, Dünya ayrı. Allahla Dünya arasında birlik yoxdur, asılılıq var. Allah Dünyanın ağasıdır. Dünya Allah qatında heçdir, oyun-oyuncaqdır. Dünya Allahın yaratdığıdır, özü də kamil olmayan yaratdığıdır. Bir zamanlar dünya olmayacaq. Bu, dünyaya yanaşmanın antimahiyyət ölçüsüdür. İnkarçılıqdır. Burada Varlıq davamlı şəkildə danılır. Allahın özü belə, varlıq kimi dərk olunmur. Çünkü dünyadan ayrılır, yəni gerçəkliklə bağlılığı olmur. Gerçəkliklə bağlılığı olmayanın Varlığı cəfəngləşir. Cəfəngiyyat cəhalət yaradır. 7-ci yüzildə ərəb toplumu Bütsevərlik cəhalətindən Allahçılıq cəhalətinə sürüldü. Türk toplumu isə Tanrıçılıqdan Allahçılıq cəhalətinə sürüldü. Tanrıçılıq, ideal olmasa da, ideala doğma idi. Allahçılıq ideala qarşıdır. Çünkü, dediyimiz kimi, Allahçılıqda dünya mənasından, nəinki ayrılır, mənasızlaşır.

Qabaqcıl baxışlı insanların düşüncələrində, ideyalarında Allah anlamı dirilirdi, dünya mənalanırdı, Allahçılar isə onları öldürürdülər. Əslində Allahçılıqdakı cəfəngiyyatı qoruyur, Həqiqətin gerçəkləşməsinin yolunu kəsirdilər. Məsələn, H.M.Həllac Allahla İnsanı bir olmaqda görürdü, yəni mahiyyətlə gerçəklik birliyini dərk edirdi. Bu həqiqətə qarşı çıxanlar onun dərisini soydular. Eləcə də Nəsiminin, həqiqəti cəfəngiyyatdan ayırmaq

istədiyinə görə, dərisini soydular. Neçə belə qabaqcıl düşüncəli insanları öldürməklə Allah anlamını dərk etməyin yolunu bağlayıblar.

Bu gün də cəhalət davam edir, cəfəngiyyat qorunur, insan dünyanın mənasına doğmalaşa bilmir. İnsan idrakı keçicidə ilişib qalır, keçiciyə heyrətlənir, keçicidə möcüzə axtarır. Hər kəsin Allahın möcüzəsi adlandırıb heyrət elədiyi bir misala aydınlıq gətirək. İnsanlar arıların yaşam nizamında ilahi keyfiyyətlər axtarırlar: Arılar şirəni belə daşıyır, keşikçi filan işi görür, şirə gətirməyəni qovurlar b.k. İnsanların belə şeylərə heyrətlənməsi qəribədir. Nədən? Çünkü belə məsələlərdə sonsuzluq axtarmaq yersizdir. Bu, nəyisə dərk eləmək deyil, sadəcə bir növdən olan həşəratların yaşam sürəcini bilməkdir. İzləyib öyrənərsən, bilib başa çatarsan. Arı bütün hallarda sənin öyrəndiyin, bildiyin bir nizamla davranacaq, başqa bir gözlənilməzlik eləyəsi deyil. Bu sürəc min il bundan öncə də belə olub, min il bundan sonra da belə olacaq. Arının yaşam sürəci daim təkrar olunur. Arxasında gözlənilməzlik olmayan standart bir sürəcə heyrət eləməzlər. Arıda ağıl, şüur axtarırlar. Ağılda, şüurda gözlənilməzlik olur, axı bu, arıda yoxdur. Arıda, instinktiv olaraq, standart nizam var. Ancaq insan yüksək varlıqdır. Onda şüur, təfəkkür var, bunun arxasında gözlənilməzliklər olur. Başqa sözlə, mahiyyətə yetmək olanaqları var. İnsanda mahiyyət yeni çalarlarla tükənməz görsənişlərə gəlir. Əsil heyrət doğuracaq məsələ də budur. İnsanı dərk eləmək – İnsanlıq adlı mahiyyətə varmaqdır. Arını dərk eləmək isə arının özünə bağlı deyil, Dünyalığa bağlıdır. Arının yaşamı Dünyalığın sıradan bir çalarıdır. Bu çaları dərk eləmək istəsən, dediyimiz kimi, Dünyalığa gedib çıxacaqsan, arıda dayanmayacaqsan. Arıda dayananda standart bir nizamın olduğunu bilməkdən uzağa getməyəcəksən.

Dünyada heç nə var olmur, ancaq insan var olur. Çünkü insandan başqa heç nə mahiyyətə tən olmur. Tutaq, bir çağlar gedilib-gəlinən yolun qırağında ağac vardı. İndi yoxdur, ya quruyub, ya da kəsilib. Bu onu görənlərin xatırında, ya şəkildə, yazıda qalır. İnsan da bir çağlar yaşayırdı, indi ölüb, yoxdur. O da

onu tanıyanların xatırında qalıb, şəkildə, yazıda var. Ancaq ağacla insanın bir çağlar olub, indi olmaması eyni anlam daşımır. İnsan ağacdan fərqli olaraq, xatirə faktı olmaqla sınırlanmır (məhdudlaşmır). İnsan şüurlu, ruhlu varlıq olduğu üçün özündən sonra Mənanı tanımaq, dərk etmək nədəni saxlayır. Biz onun ömründən, düşüncəsindən Mənaya doğru yol keçib gedirik.

Ağac kamilliyə can atmır, Doğanın verdiyi səviyyədə nədirsə, elə o olur. İnsan isə Doğanın verdiyi ilə, yəni cismaniliklə yetərlənmir, kamilliyə can atır. Ağac gerçəklikdə dayanır, insan gerçəkliyi ötür. Var olmaq budur!

Bəs insan gerçəkliyi necə ötür, varlığını necə təsdiq edir, necə təsdiq etməlidir? Burada çox böyük çətinlik var, "olmalıdır", "eləməlidir", "eləyə bilər" deməklə məsələ çözümünü tapmır. Deməli, sözün gücü "necə olmalıdır"ı deməkdə deyil, "necə olunmalıdır"ı deməkdədir. Başqa sözlə, ideya-düşüncə sistemi doğru olmalı, insanın düşünə bilməsi, zəkasını, mənəviyyatını böyütməsi üçün ortam yaranmalıdır. Ancaq bu ortam qıraqdan deyil, insanın içsəl tələblərindən yarana bilər. Necə? – Bu çağa kimi insana doğal varlıq kimi yanaşılıb, yəni Doğanın ünsürü kimi. Onun ruhsal varlıq olduğu gözardı edilib. Sonucda insan Doğadan ayrıla bilməyib, Doğaya qaytarılıb, Doğaya bağlanılıb. Burada insanın Doğadan ayrılmaması heyvandan ayrılmaması anlamındadır. İnsan Doğaya heyvan kimi deyil, İnsan kimi qayıtmalıydı. Onda Doğanı insaniləşdirəcəkdi. Doğadan yalnız maddi yararlanmaq, onu talamaq – insanı doğanın mənasından ayırdı. Doğadan yararlanmaq – Doğanı öldürmək səviyyəsində gerçəkləşdi. Bir sözlə, varlanmaq, zorlanmaq, başqalarının üzərində ağalıq eləmək istəyi Doğa ilə insan arasında uçurum yaratdı. Bilim də bu işdə Doğaya zərbə vurdu. İnsan bilimlə Doğanı maddi kəşf elədi, sənətlə, poeziya ilə mənəvi kəşf elədi. Ancaq sonra maddi kəşflə əldə elədiyi qazanca üstünlük verdi.

Din də Doğa ilə insanın doğmalığını yarada bilmədi. İnsana Doğanın fani olduğunu yeritdi. Bir çağlar panteizm insana Do-

ğada Allahın olduğunu deyirdi. Onda insan Doğaya daha doğma idi. Ancaq monoteist dinlər Doğanın boş, anlamsız olduğunu yeritdilər. İnsan Doğaya yağı kəsildi.

Deməli, insanın doğru yanaşması üçün idrakda gəlişən ideya-düşüncə sistemi doğru özüllər üzərində qurulmalıdır. İdeya-düşüncə sistemi insana doğal varlıq kimi deyil, ruhsal varlıq kimi yanaşmalıdır. İnsanda ruhsal keyfiyyətlər, yaxşılıqlar (fəzilətlər) – olanaqlar şəklində olur. Doğa heç vaxt bu olanaqları üzə çıxarmır, bioloji olanaqları üzə çıxarır. Bir misala aydınlıq gətirək: Doğa münbit torpaqda gül də bitirir, alaq da. İnsan münbit torpağa qulluq göstərməklə barlı-bəhrəli məhsullar yetişdirir. Bunu insan ömrü ilə tutuşdursaq, eyni mənzərəni görürük. İnsan özünü doğal varlıq kimi aparırsa, Doğa onun içini səhraya çevirir. Ancaq özünü ruhsal varlıq kimi qavrayarsa, yəni içinin yiyəsi olarsa, doğa onda gözəl duyğular yaradar. İnsan-Doğa birliyi mənəviyyatla cismanilik birliyi kimidir. Mənəviyyat cismaniliyə tabe olanda heyvanilik qələbə çalır. Mənəviyyat cismaniliyə hakimlik edəndə onu urvatda saxlayır. Burada hakimlik ağalıq anlamına gəlmir, yiyəlik anlamına gəlir.

Bu çağa kimi bəşəriyyətin ən böyük sorunu mənəviyyatla cismaniliyin, Doğa ilə İnsaniliyin münasibətini doğru qura bilməməsindədir. İdealist baxışda Doğa ideyanın kölgəsi kimi dərk olunur. Materialist baxışda Doğa zəbt olunur. Dini baxışda Doğa rədd olunur. Mütləqilik baxışında Doğa insaniləşdirilir. Biz də Mütləqilik ölçüsündə yanaşılmanın doğru olduğunu önə çəkir, İnsanlığı buna çağırırıq.

Beləliklə, biz ayrı-ayrı ideya-düşüncə yönlərini tutuşduraraq, yığcam bir sonuc ortaya qoymağa çalışdıq. Nədən tutuşdurmalar yolu ilə?! Çünkü bir çox hallarda oxucu yeniliyi araşdırmaq, öyrənmək zəhmətinə qatlaşmaq istəmir. Rastlaşdığı ideyaların köhnələrdə də olduğunu düşünür. Ancaq Asif Atanın düşüncəsini əsaslı öyrəndikdə yeni ölçünün olduğunu görmək çətin olmur.

Biz oxuculara quruculuq zəhməti diləyirirk. O zaman Görəni görmək, Qurucunu qurmaq ərdəmliyi öz təsdiqini tapacaqdır.

## Varlıq Özüldə dərk olunur

Ön söz kitabı təqdim etmək üçündür, yəni onun içində yazılanları anlatmaqdır. Bu səbəbdən də çox sorumluluqlu (məsuliyyətli) işdir. Əslində kitaba ön sözü onu öyrənmiş, anlamış adam yazmalıdır. Biz də Asif Atanı öyrənmişik deyə, cəsarət tapıb Onun Qutsal Bitiqlərini sunmağa, daha doğrusu, anlatmağa çalışırıq.

Biz, kitab sözünün yerinə "Bitiq" sözünü işlədirik, söz yox, Asif Atanın "Onluq"unu gözdə tuturuq. Bu yazıda da "Onluq"dan biri – "Özüllər Özülü" Bitiqi haqqında danışırıq. Bu Bitiq Asif Atanın 45 əsərindən üçünü özündə birləşdirir: – "Əxlaq", "Ruhaniyyat", "Mahiyyət"...

"İnsan Əxlaqda Mütləq Xeyirə yüksəlir. Doğa özündə Xeyiri də, Şəri də yaşadır, Mütləq Xeyirə çatmır. Bu baxımdan Əxlaq Doğadan fərqlidir" (Asif Ata. "Əxlaq" əsərindən).

Doğa daim mövcud olmaq istəyir. Onun olmaması, olmayacağı anlamı yoxdur. Doğa mövcudluğunda hərəkətdədir, daim dəyişir, yenilənir. Doğanın bütöv daşlaşması, buzlaşması olası deyil. Başqa sözlə, buzlaşma, daşlaşma qalıcı (əbədi) deyil. Doğa dağında, daşında belə, hərəkətsiz deyildir. O, dağında, daşında dağılır, parçalanır. Yenidən dağlaşır, yenidən daşlaşır.

Doğa canlı qütbündə daha böyük dəyişikliyə uğrayır, yəni daha çox hərəkətlidir. Bu hərəkət zamanı ikili hallar ortaya çıxır: həm Doğanın mənası əlamətləşir, həm də fəlakətlər, faciələr ortaya çıxır. Görsəniş (Təzahür) Mənanı ifadə eləyir, ancaq həm də, heç vaxt Mənaya bərabər olmur. Olsaydı, Məna olardı, olay (hadisə) olmazdı, başqa sözlə, olay yaranmazdı. Deməli, olay Mənaya bərabər olmadığı üçün bütünlüklə Xeyir tərkibli olmur, naqis tərkibli də olur. Məna olaylaşanda əksilir. Əksilən

isə Mənaya əks axın da yaradır. Məsələn, daş yarılır, dağ uçur, deyək ki, böyük bir dərəni, bataqlığı doldurur. Sonra yaşıllaşır, mənzərələşir, otlağa çevrilir, qidaya çevrilir, – həyatın davamına təkan verir, bir sözlə, həyat nizamına qoşulur. Ancaq həm də altında qalan canlıların hamısını məhv edir. Başqa bir misal: doğada aslan əzəməti var. Bu əzəmət Mənanın (Mütləqin) hansısa bir ifadəsi kimi gözə görünür (nişana gəlir). Ancaq yem üstünə cumanda qarğa ilə aslan arasında fərq olmur. Bu, həyatın uyumu (ahəngi) kimi qavranılır. Ancaq bu səviyyə insan timsalında çox acınacaqlı, faciəli olur. İnsan da mövcudluğunu qorumaq üçün yemin üstünə cumur. Bu cummada İnsanla aslan, insanla qarğa arasında fərq aradan qalxır. Həm də bu gediş heç də həyatın uyumu demək deyil, uyumsuzluğu deməkdir. Çünkü nə qarğa, nə də aslan ağıl, zəka daşıyıcısı deyil. İnsan isə, ağlı, zəkası olduğuna görə, yem üstünə cummadan da, mövcudluğunu, tamam fərqli bir aşamada, sürdürə bilər.

Dünyanı mənimsəyəndə həyat qarışıqlığa (xaosa) çevrilir. Dünyanı idrakla, mənəviyyatla tənzimləyəndə isə həyat yüksək aşamaya (ali mərhələyə) keçir.

Bəşəriyyətin tarixində həyatı adidən yüksəyə qaldırmaq üçün daim zəhmət çəkən, ağıl işlədən, hünər göstərən şəxsiyyətlər olur. Ancaq həm də həyatı adiləşdirməyə köklənən əməllər də olur. Bu əməllər şəxsiyyət əməllərindən daha çox olsa da, Xeyir tərkibli gedişlər tükənmir. Naqis yönlü, Şər tərkibli əməllər də o vaxt aradan qalxır ki, bu gedişlərlə döyüşmək (mübarizə aparmaq) dağınıq, lokal xarakter daşımır. Yəni əsaslı olur. Döyüşün əsaslı olması isə İnsana dayanır, yəni İnsani səviyyəyə. Bu səviyyəni yetirməyi dinlər öhdələrinə götürdülər. Ancaq buna az mənada yetdilər. Çünkü dinlər yalana ümid yaratdılar. Yalan Şərin dostudur. Yalan varsa, həyatda, münasibətdə Şər də qalır.

Asif Ata həyatı Şərdən qurtarmaq üçün İnamı yalandan arındırdı. Başqa sözlə, Yalansız İnam yaratdı. Bundan sonra insan öz mahiyyətini dərk eləmək, mahiyyətinə bərabər yaşamaq haqqı əldə etdi.

Mahiyyətinə bərabər yaşamaq Əxlaq tələbidir.

Yuxarıda Asif Atanın əsərdən bir düşüncəsini örnək göstərmişdik – Əxlaqla Doğanı fərqləndirən bir düşüncə. Biz də aydınlaşdırmağa çalışırıq, Doğa mahiyyətə bərabər olmur, ancaq insan mahiyyətinə bərabər yaşaya bilər. Mütləqilik ölçüsü ilə yanaşanda Əxlaq tələbində bu mümkündür. Əxlaq – Gerçəklik üzərində yüksəlir. Yüksələn həm də yüksəldir. Yəni Əxlaqda üstün olmaq, üstün eləmək olanağı var. Üstünlük odur ki, üstün olduqlarını əksik görmək istəmirsən. Üstünlüyünə qıymırsan, əksiklik çevrəsində də Üstünlüyün nisbi duruma düşməsin deyə, gözünün gördüyü, qəlbinin duyduğu nə varsa, üstünlüyə çatdırmaq istəyirsən. Yüksəltmədən üstün olmaq istəyi xudbinliyə yarayır, mənəviliyə yaramır.

Əxlaq – qutsal davranma yoludur. Bu yolda Adamın bioloji təbiətində yaşayan xəbislik, xudpəsəndlik, cahillik i.a. yaramazlıqlar yeriyə bilmir. Yəni Əxlaq – Adamlığın qaranlıqlarını işıqlandırdıqca İnsanilik üzə çıxır, ömrə hakim olur. Ömürdə Adamlıq qurtarır, İnsanlıq başlayır.

Əxlaq – əsilliyə yönəlik davranış deməkdir. Asif Atanın öyrətisində (təlimində) bu Davranış – İnam, İdrak, Mənəviyyat, İradə arasında bütünləşir. Yəni Mütləqiliyə uyğun olur. Mütləqiliyə uyğun olan nə varsa, həyatın İnsani uyumuna gərək olur. Əxlaqda həyatın mənası dəyişir. Yəni, özünügizləmə yerinə özündənkeçmə, yaşamaq uğrunda yırtıcı döyüş yerinə ədalət uğrunda insani döyüş bərqərar olur.

Asif Ata deyir, "Xeyirə yüksəlməyən – toplum Şərindən qurtula bilməz". İnsan Xeyirə çatıbsa, o, heç kəsin içindəki şərə təkan verən davranışda bulunmaz. Başqalarının içindəki Şəri hərəkətə gətirən addım özü şərdir. Şərlə Şərə yön verən bir-birindən fərqlənməz...

Bitiqin ikinci əsəri "Ruhaniyyat" adlanır. Bu əsərdə Varlığın mücərrəd niyyətlərə bağlanması aradan qalxır, həyatın konkret prinsipləri aydınlaşdırılıb dərk olunur. Bu çağa qədər Ruhaniyyatı İlahiyyat olayı sayıb onu xəyali qüvvələrlə bağlayıblar. Sanki həyatdan sonrakı "həyat" üçün zəmin rolunu oynayır Ru-

haniyyat. Göyel (Səmavi) dinlərin təbliğatında bu cür məna edilir. Yəni göyel dinlərdə Ruhaniyyat həyat məsələsi deyil. Nəinki deyil, hətta din ruhaniyyatında həyat danılır. Misal üçün dinin özül prinsiplərindən birinə diqqət yetirək. Dində vurğu edilir, bəşər övladının ilk əcdadı olan Adəmlə Həvva Rəbbin "cənnət bağındakı buğda ağacına toxunmayın" əmrinə tabe olmamışdılar. Onlar buğda ağacından yedikləri (təam elədikləri) üçün ayıb yerləri görünmüş, Rəbb qəzəblənərək, onları "cənnət məkanı"ndan qovmuşdur...

Bu məntiqi aydınlaşdırsaq, yuxarıda dediyimizi – "din həyatı danır" düşüncəmizi təsdiq eləmiş olarıq.

Buğda çörək deməkdir. Çörək isə həyat əlamətidir, mövcudluğu təmin edən nemətdir. Bəs nə üçün buğda yediyinə görə bəşər övladının əcdadı cəzalandırılıbdır? Deməli, burada açıq şəkildə həyata qarşı çıxmaq var. İkinci bir örnək "onların ayıb yerləri göründü" deyimidir. Ayıb yerləri göründü, yəni doğub-törəmə olanaqları üzə çıxdı. Həyat doğub-törəmə araçılığıyla mövcud olur. Deməli, ayıb yerlərinin görünməsinə görə, yəni doğub-törəmə olanaqlarının ortaya çıxmasına görə bəşər övladının əcdadı cəzalandırılır. Bu düşüncə də həyata qarşıdır. Halbuki "Quran"da o da deyilir ki, "biz onu (Adəmi) palçıqdan (yəni torpaqdan) yaratdıq". Bəs necə olur, torpaqdan yaranan stimulunu, enerjisini haradan götürməlidir? Söz yox, torpaqdan...

Başqa bir yerdə bəşər övladına cənnətdə qalıcılıq (əbədilik), ölməzlik vəd olunur. Deyilir, "orda nə isti var, nə soyuq; nə zəhmət var, nə əziyyət. Bütün təamlar hazır şəkildə, qızıl məcməyilərdə qarşınıza gətirilir. Hər şeydən pak olan zövcələrlə ömrünüzü əyləncələrdə keçirəcəksiniz. Bir sözlə, siz orada ancaq kef çəkəcəksiniz". Biz, insan olaraq, belə yaşamağa tüfeyli həyat deyirik. Bu şirnikdirmələrə də əxlaqsızlıq deyirik. Əməksiz, zəhmətsiz ömür boş pətək kimidir. Bəs atalıq, analıq, qardaşlıq, bacılıq, dostluq, qohumluq bağlantıları necə olacaq?! Axı orada doğub-törəmə yoxdur! Deməli, din bəşər övladını qohumsuz, qardaşsız, atasız, anasız, övladsız... bir həyata çağı-

rır. Yəni mahiyyətsiz bir yaratıq olmağa çağırır. Dində bu yaratığın vətəni, milləti, dünyası olmur. Millət – atadan, anadan, qardaşdan, bacıdan, övladdan... əmələ gəlir. Dinin peyğəmbəri isə deyir, hamı mənim ümmətimdir, millət boş şeydir.

Ancaq nədənsə bu "boş şey"in üstündə (fövqündə) ərəb dili, mədəniyyəti, varlığı, etkisi daha da möhkəmlənir. "Bu dünya oyun-oyuncaqdır, heçdir, puçdur, yalnız axirət dünyası həqiqi dünyadır" deməklə antihəyat, antivətən, antimillət niyyətlərini daim möhkəmləndirir.

Asif Atanın fəlsəfəsinə görə isə, Ruhaniyyat İlahiyyat olayı deyil, o, insanın mənəviyyat əsasında yaşamasının anlamıdır. Ruhaniyyat – insanı dünyadan, həyatdan fərqləndirən yaşam tərzi olsa da, o, dünyanın, həyatın danılması deyil, təsdiqidir.

Dində insan, həyat, dünya mahiyyətsizləşir. İnamda isə dünyanın, həyatın, insanın mahiyyəti tanınıb dərk olunur. Asif Ata deyir: "İnam – Fərdləşməsə yaşamaz. Fərdləşməyən – Xalqlaşmaz". Çox böyük ideyadır. Bireydən (fərddən) başlanılmayan başlanılmır. Bireydən başlayan ədalət başqalaşır, başqalarında başlanılır.

Asif Ata fərdiyyətçidir. O, Fərdiyyəti Özümlüyə tən götürür. Ona görə də İnsanın Özüylədöyüş əsasında Mütləqləşməsinə inanır. Bu İnamdan doğur Onun "İnsanlaşın – İnsanlaşdırın!" çağırışı. İnsanlaşma olmadan Xalq yaranmır. Asif Ata deyir: "Xalq – Ruhani Birlikdir". Ruhaniyyatda təbəqələşmə yoxdur. Xalq – təbəqələşmə aradan qalxanda yaranır. Təbəqələşmə varsa, xalq özündən ayrılmış toplumdur (cəmiyyətdir)...

Burada biz dayanırıq, istəkli oxucu. Bitiqin özünə başlamaq üçün toparlanmağınızı diləyirik. Asif Atanın Bitiqləri yüksək səviyyədə özünüeyitim oxuludur (özünütəhsil məktəbidir). Özünə dərs deməyən insan biliksiz bir naşı kimi yaşayır. Özünə dərs demək – özünü kamilləşdirmək üçündür. Özüylə döyüş – ürəyi naqis duyğulardan arındırır; özünüeyitim – beyni tüfeyli düşüncələrdən arındırır; özündənkeçmə – əməllərdəki şər xislətin aradan qalxmasına qulluq edir.

Asif Atada İnsan var olur, Millət var olur, Vətən var olur, Bəşər var olur!

Asif Atanın Yolu – Var olmağın Yoludur!

## Özümləşmənin Ölçüsü

***Ən böyük quruculuq içdə gedən özümləşmə sürəcidir.***
***Soylu Atalı***

Asif Atanı tanıtmaq nə qədər çətindir, ancaq necə də sevincgətiricidir. Öncə çətinliyin nədənindən danışaq. Asif Ata yeni ideya yoluna başlayanda biz sosializm Quruluşunda yaşayırdıq. Üzdə hər şey özgürcəsinə görünürdü, ancaq ayrı cür düşünmək gizli şəkildə yasaq idi. Başqa cür düşüncələr izlənilib sıxışdırılırdı. İzləmələr birbaşa dövlət siyasəti idi. Bu da Asif Atanın geniş qol-qanad açmasına əngəl yaradırdı. Bununla belə, başqa cür düşüncələr, özəlliklə milli yönə bağlı düşüncələr insanlarda heyranlıq doğururdu. Axtarırdılar, ilgilənirdilər, oxuyurdular. Ancaq gözlənilməz olaylar baş verdi – Quruluş dəyişdi. Bu dəyişilmə Atanı çox pis etkiləyirdi. Onun belə bir sözü var: “Biz istəyirdik Quruluş yıxılsın, ancaq onu ləyaqət yıxsın, ləyaqətsizlik yıxmasın. Onu biz yıxmalıydıq, Batı demokratiyası yıxdı”. Elə Atanı tanıtmağın çətinliyi də buradan qaynaqlanır. Toplumun yaşamında qarşısıalınmaz bir anarxiya yarandı, özbaşınalıq hökm sürdü. Anarxiyanın yaratdığı boşluqlarda din, ateizm bir-birinə qarışdı. Gərəksiz informasiya bolluğu yarandı. Ətalət, gerilik sağlam düşüncələrin yaranmasına əngəl oldu. Dəyərlər gözdən salındı, dəyərsiz yaşamaq ölçü sayıldı. Milli varolmanın özülü sarsıdıldı, buna qarşı inam aradan qaldırıldı. Başqa sözlə, millivarolmanı sağlayan İnama gərək duyulmadı. Bir kəsim dedi, din var, bir kəsim “hər şey yeni texnologiyaların gəlişməsindən asılıdır” söylədi. Hamı özünü ağıllı saydı, qurtuluşçu, qurtarıcı ideyanın önəmi dərk olunmadı. Sosial yaşantılardakı ağırlıqlar, sıxıntılar da bu dediklərimizi daha da

dərinləşdirdi. Ancaq biz bu çətinlikləri yarıb Asif Atanı tanıtmaq yükünü ürəyimizə, ağlımıza yükləməliydik. Heç nə Asif Ata ideyalarının önəmini azalda, ona gərəkliyi ortadan qaldıra bilməzdi. Bu həqiqəti dərk elədikcə Asif Atanı tanıtmağın sevinci daha artıq gözə çarpmaqdadır. Onun qiymətini yaşayanlar bilər. Biz də özümüzdə güc tapıb, Asif Atanı tanıtmaq baxımından, əlimizə qələm götürürüksə, demək onun qiymətini daha yaxşı anlayırıq.

İstəkli oxucu, Asif Atanın "Qutsal Quruculuq" Bitiyinə yönəlik söz demək üçün girişə uzaqdan başlamağımız – sizin bu Bitiyi oxumağınıza başlanğıc vermək üçündür. Çağdaş insanlar kitab oxumaqdan yayınırlar. İnternetin olanaqlarından yararlanıb gərəksiz bilgilərlə yüklənirlər. Bu bilgilər Millətləşmə üçün yol açan biliklər deyil. Millətləşmə üçün ruhaniyyatı öyrənmək, ruhaniyyatla bağlı biliklərə yiyələnmək gərəkdir. İnsan özünü millət adlanan bütövün bir parçası kimi dərk eləməyincə, dünyada gözəlliklər, insanca yanaşmalar bərqərar olmaz.

İndi keçək, Asif Atanın bu Bitiqdə dediklərini anlamağa, anlatmağa.

Bitiq – "Yol. Ata Sözü" ilə başlayır. Burada aydınlıq gətirilən məsələlər Ruhaniyyatın yaşam üçün ölçü olmasına inamı gücləndirir. İnsanda nikbin baxış yaradır. Onun özünə inamı, güvənci yetkinləşir. Çünkü aydınlaşdırılan nə varsa, insan qəlbinin gözəlliklərindən doğur. Ata yazır: "Özümlə döyüşürəm, öz üzərimdə qələbə çalıram, Gerçəkliklə razılaşmıram, eybəcərliklə barışmıram, daim Mütləqə doğru irəliləyirəm". Gəlişmənin ölçüsü budur. Tələb çox böyükdür, ancaq əlçatmaz deyil. Nisbidə dayanma, keçiciylə barışma. Barışarsan sünilik çoxalar, yaşamda bütün davranışlar, yanaşmalar saxtalaşar deyilir əslində. Bu yanaşmanı dini yanaşmalarla tutuşdursaq, Asif Atanın yaratdığı ölçünün gərəkliyi daha aydın görünər. Din insanı Mütləqə can atmağa çağırmır, Mütləqin, daha doğrusu, Mütləqi əvəz edən Allahın qarşısında lal olmağa, kor olmağa – qul olmağa çağırır. Bu cür kor boyun əyməkdə Mütləq də kiçilir, insan da. İnsan Mütləqə mahiyyəti kimi baxıb ona doğmalaşmır,

ağası kimi qavrayıb boyun əyir. Din insana dünyanı da, insanın özünü də əyri tanıdır. Eyni halda, bu əyrini düzəltməyin insan üçün olumsuz olduğunu yeridir. Başqa sözlə, dünyanı düzəltməkdə insanın ixtiyarsız olduğunu vurğulayır. Bunu başqa cür də eləyə bilməz. Çünkü dinə görə dünyanı Allah yaradıb. Deməli, dünyanı Allah özü əyri yaradıb. Bu əyrini insan düzəldərsə, Allahdan üstün görünər. İnsan Allahdan üstün görünərsə, dinin varlığı sorğu altına düşər. Başqa cür desək, dinin yaratdığı Allah obrazının anlamı ortadan qalxar. Din özünü, yaratdığı Allah obrazını qorumaq üçün insanın böyüməsinin, düşünməsinin, qüdrətli olmasının qarşısını alır. Yəni Allahın yaratdığı dünyanı düzəltmək olmaz. Əgər gözə alınsa, dünyanın əyrisi insanın halı ilə bağlıdır, yəni insanın davranışı, yanaşması, çalışması öz insani mahiyyətinə uyğun olmadığı üçün dünyanın gedişi, nizamı pozulub, onda aydın olur, din insanlaşmaya qarşıdır. İnsan insanlaşarsa, dünyanı gözəlləşdirər, "fani dünya" ideyası puç olar. Dünya gözdən düşməz, sevilər. Ancaq din insanı sürüyə çevirir, kamilləşmə ölçüsünü ortadan qaldırır. Getdikcə yalan bürüyür dünyanı. Dinin etkisindəndir, dilində yalan gəzdirməyənə rast gəlmək olmur. Həkim sayruya (xəstəyə), öyrətmən öyrənciyə, ana övladına, övlad ataya, dövlət başçısı xalqına yalan danışır. Heç nəyi yalansız görə, düşünə bilmirlər. Yalanla üstün olmağa, üstün yaşamağa çalışırlar. Bu üstünlüyün alçaqlıq olduğunu alqılamırlar (fərqinə varmırlar). Mənəvi böhran yaşamın bütün gözəlliklərini qırıb tökür. Böyük sözlərlə kiçik istəklər ödənilir. Söz urvatdan düşür, dəyərini itirir. Yalan ədalətsizlik doğurur, ədalətsizlik – xeyiri alçaldır, şəri saygı taxtına mindirir. Bu gedişdə heç kim insanı tanımır, onun dəyişəcəyinə inanmır. Dünya belə gəlib, belə gedəcək deyirlər. Belə sürüçülük psixologiyasında "Fani dünya" ideyası dirilir. Bu, dinin insan düşüncəsində yaratdığı mənəvi azğınlığın görsənişidir. Necə?! – Din deyir, insanın öz iradəsi yoxdur, yalnız Allahın iradəsi var. Bu o deməkdir, yuxarıda dediyimiz kimi, insan dünyanı dəyişə bilməz. Bununla da, eybəcərlik həyata dolur. Eybəcərliyin qarşısını almaq üçün insanda Ruhsal İradə gərək-

dir. Dinə görə insan özündə bu iradəni görərsə, Allaha qarşı çıxmış olur. Ayrı cür desək, insan özünü Allaha ortaq eləmiş olur. Belə yanaşma insana qarşı da, Allah anlamına qarşı da ədalətsizlikdir. Bu ədalətsizlik dinin insana qarşı işlətdiyi yalanlardan qaynaqlanır. Din İnsanı Doğruya inandırmayıb, yalana inandırıb. Dinin yalanlarını dilə gətirənləri asıb kəsiblər, qorxutmağa çalışıblar. Bu açıdan din ədalətsizliyin, vicdansızlığın keşikçisidir. Toplumu sürüyə çevirmək pozğunluqdur. Din, davamlı olaraq bu pozğunluğu yaşadan soylar yetişdirir. Bu soyların yaşamı, "Fani dünya" ideyasını doğrultmaqla, Vətənin qutsallığını heçə çevirir, insanın böyüklüyünü danır. Bu baxımdan, dini – mənəviyyatın qaynağı deyil, ölümü saymaq gərəkdir. Mənəviyyat aradan gedəndə siyasət başlayır. Siyasət – yalanlar üzərində yönətim demək olur. Dinin kor elədiyi insanları aldatmaq daha amansız biçim alır.

Ədaləti öldürüb tərəqqidən danışırlar.
Yalanı başa çıxarıb tərəqqidən danışırlar.
Vətənsizliyi alışdırıb tərəqqidən danışırlar.
İnsanı alçaldıb tərəqqidən danışırlar.
Milləti parçalayıb tərəqqidən danışırlar.
Ailəni dağıdıb tərəqqidən danışırlar.
Sağlamlığı öldürüb tərəqqidən danışırlar.
Tarixi saxtalaşdırıb tərəqqidən danışırlar.

Ölüm adında yaşamaq icad edirlər. Bunun özülündə ruhaniyyatın dəyişikliyə uğradılması dayanır. Başqa sözlə, bütün bunlar ruhaniyyatsızlığa görədir.

Din insanı mahiyyətindən ayırıb. Mahiyyətindən ayrılan insan yaratdığı Quruluşlarda, toplumlarda özünü bütöv ifadə eləməyib. *"Çünkü yaratdığı toplumların heç biri onun ruhsal mahiyyətinə qulluq etməyib.*

*Siyasət ilə mənəviyyat arasında sonsuz ziddiyyət yaranıb, insan özünü toplumda itirib".* (A. Ata)

İnsan ruhsal varlıqdır. O öz mahiyyətinə uyğun yaşasa, siyasət ömründən silinib gedəcək. Siyasət toplumda daim yaşasa da, bireydə başa çatacaq. Siyasət – insanın mahiyyətində deyil,

bioloji yaşamındadır. Biolojilik tələblərindən qırağa çıxa bilməyəndə siyasət insanın ömründə var olur. İnsan ruhaniyyatla biolojilikdən yüksəyə qalxa bilir. Bu onun mahiyyət üstünlüyüdür. Asif Ata yazır: *"İnsan – ruhla Dünyanı dərk edən, qutsallıqda həqiqət arayan, özündənkeçmədə özünü tapan, Dünyaya, Doğaya, Topluma, Özünə sığmayan varlıqdır"*. Ata, insanın bu səviyyəyə yüksəlməsi üçün Özüylədöyüş yolu bəlirləyir: *"Özündən imtina, özünütapma, özündənkeçmə – İnsan Mənəviyyatının pillələri bunlardır"* deyir. Biz bu düşüncəyə dayanıb deyirik: İnsan bioloji tələblərdən üstün yaşayanda siyasəti ötür, mənəviyyatı bütövləşir.

Siyasət ömrün nisbi axarlarında etki göstərir. Yəni ömür siyasətə tabe olanda mənəviyyat bütövlüyünü itirir. Siyasət şər tərkiblidir, toplumun Adamlıq səviyyəsində yaşayır, İnsanda başa çatır.

Bu Bitiqdə Atanın Mütləq ideyası, Mütləqə baxışı qapsamlı bir aydınlığa çıxır. Ataya qədər Mütləqə yanaşma çelişkili, nisbi xarakter daşıyıb. Bunu biz, istər Musaçılığın, istər Xristiyanlığın, istər İslamçılığın Allah ideyalarında yetərincə aydın görürük. Adları çəkilən dinlərin baxışlarında Allah – Adamlıqla (yəni yarımçıqlıqla) İnsanlığın (yəni bütövlüyün) qarışığı kimi görünür. Özəllikcə, Musada, Məhəmməddə Allah tez-tez Adamlaşır, sərkərdələşir, hökmdarlaşır, ağalaşır. Musanın Allahı, ona, başqa xalqları əzib torpaqlarını ələ keçirmək göstərişi verir. Bu göstərişlərdə insana qarşı həm inamsızlıq, həm də amansızlıq hökm sürür. Biz bunu Məhəmmədin Allahında da görürük, insana inanmır, onu daim hədələyir. Asif Atada isə Mütləq insanı özünə çatdırır, kamilləşdirir. Mütləq alleqoriyalaşmır, abstraktlaşmır, xurafatlaşmır. Olduqca pozitiv, gerçəkçi anlam daşıyır: "*Həm yaxındır Mütləq, həm də uzaq. Yaxındır, çünkü özünü gerçəklikdə göstərir (büruzə verir), əməllərdə, olaylarda, keyfiyyətlərdə üzə çıxır"*. Dində Allah əməllərdə, olaylarda, keyfiyyətlərdə görsənmir (təzahür etmir), onları quraşdırır. Ata deyir, ***"Dünya heç vaxt tam Mütləq olmur, ancaq Gerçəklikdə həmişə Mütləqə can atmağa, ona yaxınlaşmağa,***

***onunla bir olmağa meyil var".*** Mütləq Dünyanın özündədir, ondan qıraqda deyil. Dində Allah dünyada deyil, dünyaüstüdür. Dünyanın, insanın Allaha can atması olanaqsızdır, çünkü Allah onları fani yaradıb. Faninin sonsuzluğa can atması yolverilməzdir. Bu dediklərimizi geneldə belə sonlandıra bilərik: Asif Ata bütün dinlərin Allah anlamına yanaşmalarını, bu anlamla insanın bağlılıqlarını, özgürlüyün insan iradəsindən qıraqda götürülməsini araşdırıb öyrəndikdən sonra dinin insana qarşı olduğunu vurğulayır, İnsanlığın Bayrağını başı üzərinə qaldıraraq, onun harayını çəkir. İnsanın öz anlamına uyğun yaşaması üçün ölçü, gələnək yaradaraq, bunları gerçəkləşdirməyi önərir.

Bitiqdə Mütləqə İnam Ruhaniyyatının quralları, gələnəkləri yer alır. Mütləqə İnam Ruhaniyyatını yaşadan, onun xalqla oturuşması uğrunda ruhsal döyüş sərgiləyən insanlar Asif Atanın – İnamın Evladları sayılırlar. Evladların bağlılıqları, hər şeyə doğru yanaşmaları "Sədaqət" əsərində öyrədilir. Evladların ruhsal yaşamını, döyüşünü yönətən Ocaq Qurumu "Ruhani Hökmlər"dəki buyuruqlarla nizamlanır. Çağın çətinliklərini, dolaşıqlarını, bu "Hökmlər"ə boyun əyməklə, anlamaq, ötmək gerçəkləşir.

Bitiyin sonuncu bölümü Asif Atanın "Yeddi Kəlam"ından oluşub. Bu Kəlamlarda Asif Atanın bütün "izm"lərdən yüksəkdə durduğu görünür. Məsələn, "İkilik" Kəlamında Dünyanın ikili xassəyə özgün olmasına toxunulur. Dialektikada "Əksliklərin Birliyi" qanunu var. Ata yazır: ***"Mütləq – Nisbinin inkarıdır, həm də Mənasıdır; Məna Təzahürü inkar edir, Mütləqin Nisbiyə, Nisbinin Mütləqə çevrilməsi ideyası – Dialektik cəfəngiyyatdır. Mütləqlə Nisbi arasında Birlik yoxdur – təzad var...***

***Dünya – Mütləq Mahiyyətlə Nisbi Gerçəklik təzadıdır".*** Burada həm dialektikanın uydurması rədd olunur, həm də dinlərin "iki dünya" ideyası. Dinlərdə gerçək dünya pislənilir, qarşılığında hər şeyi bol olan, insana ağgünlülük bağışlayan dünya uydurulur.

“Varlığın özündə – Varlıqdan Artıq” kəlamında deyilir: ***“Dünyanın Mahiyyətini dünyadan qıraqda axtarırlar – Allahda, Transsendentalda, zərurətdə... Əslində Dünyanın mahiyyəti – Dünyanın özündədir... dünya Dünyadakılardan oluşur, Dünyadakılardan artıqdır. Dünyadakılardan artıq olan – Dünyada yaşayır”.***

Burada da Dünyanın yaradılması ideyası rədd olunur. Əgər Dünyanın mahiyyəti özündədirsə, o, sonradan yaradıla bilməz. Dünyanı sonradan, qıraqdakı qüvvənin yaratması düçüncəsi – dünyanı mahiyyətsizləşdirir. Mahiyyət yaradıla bilməz. Bu yalanı doğrultmağın xatirinə dinlər dünyanı mahiyyətsiz, yəni fani elan edirlər.

Atanın “Varlıq-Məna“ kəlamında deyilir: ***“Varlıq cisimdən yaransaydı, Mənasız olardı – cismani Məna olmur.***

***Varlıq – Yoxdan yaransaydı, Mənasız olardı – Yoxluğun Mənası yoxdur.***

***Varlıq Mənadan yaranıb – bu səbəbdən də Mənalıdır. Varlıq özgə Mənasından yaransaydı, özü olmazdı.***

***Varlıq öz Mənasından yaranıb – bu səbəbdən də özümlüdür”.***

İstər Materializmin, istər dini baxışların Varlığa yanaşması pislənilir. Materialistlər deyir, dünya materiyadan yaranıb. Ata deyir, Varlıq cisimdən yaransaydı, Mənasız olardı.

Din deyir, Varlıq Yoxluqdan yaranıb. Ata deyir, Yoxluğun Mənası yoxdur, Yoxluqdan Varlıq törəyə bilməz. Bu düşüncəni bilim də qüvvətləndirir. “Enerjinin itməməsi qanunu”na görə heç nə yoxdan yaranmır, yoxluğa çevrilmir.

Sayğılı oxucu, Asif Atanın insana, bütövlükdə Varlığa yanaşması özündən öncəkilərdən başqadır. Bu başqalıq bəşər düşüncəsinə yenilik gətirir. Bu yenilik bəşər yaşamına yeni nizam, yön vəd edir. Ancaq nə yazıqlar, Yeniliyə qarşı olan konservativ baxışlar Asif Ataya qarşı aktivlik göstərirlər. Uğurlu sivilizasiya dəyişikliyinə əngəllər yaradırlar. Qabaqcıl düşünərlər bu əngəlləri ortadan qaldırmaq üçün hərəkətə keçməlidirlər. Geriliyin, köhnəliyin həyatımızda yaratdığı mənəvi böhranı

durdurmaq gərəkdir. Bu işdə Asif Atanın Düşüncə Sistemi Böyük Tutalqadır. İnsanlığın dirilməsi, dirçəlməsi bütün sorunların açarıdır. Bu baxımdan İnsanlığın Bayrağını başı üzərinə qaldırıb qorumaq – qeyrət, hünər istəyir. Biz də sağlam düşüncəli insanlarımızı buna çağırırıq!

## "Od İşığı" ideyası

Bəşər xalqlarının ən qədim inancları sırasında, bəlkə də, Tanrıçılıq dünyabaxışı birinci yerdə gəlir. Bu dünyabaxışa görə hər şey Doğada baş verir, hər şeyi Doğanın özü yaradır. Onu da deyək, bu baxış bilimdə ilk türk panteizmi olmuşdur. Anlamına görə Materializmlə heç də eynilik yaratmır. Tanrıçılıqda, Doğada ilahi uyum olduğu vurğulanır, başqa cür desək, Doğa özü ilahi sayılır. Materializmdə isə hər şeyin əsasında Materiya durur, ancaq burada heç bir ilahi uyum, qüdrət qəbul olunmur.

Dedik, Tanrıçılıqda Doğanın özündə ilahi uyum olduğu qəbul olunur. Burada Doğanın 4 ünsürü – torpaq, hava, su, od yaranışın qaynağı sayılır. Bu gün də xalqımız bu 4 ünsürü, dörd çərşənbə adı ilə bayram edir. Günün farsca adlanması yanlışdır, ancaq anlam dəyişmir. Bununla bağlı sonrakı bölümdə aydınlaşdırıcı söz deyiləcək. Ancaq burada başlıca məsələ ünsürlərin anlamı ilə bağlıdır.

Türklərdə yeddicənin (həftənin) üçüncü günü qutsal gün sayılıb. Bu da, ilin axırına doğru hava ortamının (Doğanın durumunun), dörd ünsürün anlamına uyğun şəkildə, dəyişilməsinə görə Xızırın ortaya çıxması söyləmləri ilə bağlıdır. Yəhudilərdə qutsal gün 6-cı gün sayılıb, ərəblərdə 5-ci gün, farslarda 2-ci gün i.a. Biz bu yazıda günlərin özəl seçilməsinin nədəninə yer ayırmayacağıq. İstəyimiz "Od İşığı" ideyasını anlatmaqdır. İndi baxışınızı önəmli bir məsələyə çəkək. Tanrıçılıq inamı bütün türk boylarında olduğu halda, dörd çərşənbənin bayram edilməsi, başlıca olaraq, Azərbaycan türklərinə xasdır. Bizim düşün-

cəmizə görə, bunun nədəni Xızırla bağlıdır. Söyləmlərdə deyilir, Tanrının hökmü ilə cansız, hər yeri qara çürüntülərdən oluşan doğanın üzərinə qara buludlar çökür, güclü yağış-sel başlayır. Göy guruldayır, şimşək oynayır, yerə ildırım çaxır. İldırımın çaxdığı yerdən Xızır çıxır. Bir az keçir, yenidən şimşək oynayır, ildırım çaxır. Bu zaman ildırımın çaxdığı yerdən qanadlı Göy At çıxır. At Xızıra doğru gəlir, Xızır geri çəkilmək istəyəndə qayıbdan səs ona deyir, atın belinə qalx. Xızır Göy atın belinə qalxanda at qanad açıb uçur. Atın keçdiyi yerlərdə doğa cana gəlir, hər yer yaşıllaşır, boz çöllərin yerində ormanlar əmələ gəlir. Xızırın Doğanı cana gətirdiyi gün üçüncü gün olduğuna görə xalqımız bu günü bayram edir. Söyləmlərdə (rəvayətlərdə) deyildiyinə görə, doğa dörd üçüncü gündə şəklə düşüb. Torpaq, hava, su, od – bu dörd ünsürün hər birinin, doğanın şəkillənməsinə etkisi dörd üçüncü gündə başa çatıb. Buradan görünən odur, yaranışda işıq məsələsinin həlledici çəkisi var. Ona görə işıq ideyası, sonralar da, inanc səviyyəsinə qaldırılmışdır.

Baxın, burada özül ilgə (prinsip) kimi görünən, üçlüyün birliyi də baxışımızı çəkən başlıca ideyadır. Bu üçlük – Tanrı-İşıq-Xızır Birliyinin anlamından oluşur. Yenə söyləmlərə baxaq: Deyilir, Tanrı İşığı Günəş – Yeri qızdırmağa başlayır, yerdən isti buxar qalxır, buxar bulud topalarına çevrilib şimşək oynadır, ildırım çaxır. İldırımın çaxdığı yerdən Xızır çıxır. Deməli, Xızır Tanrı işığından əmələ gəlmişdir. Tanrının işığı Doğanın özündədir, özüdür, Xızır da Doğanın özündən yaranıb. Bu ideya, sonralar bir çox baxışlarda dərin iz buraxmışdır. Araşdırılsa, Vedalarda "üç uqnum", Xristianlıqda "üçlük" ("troitsya") gedib bu ideyanın etkisinə dayanar. Fəlsəfəyə min il etki göstərən "Vəhdəti-Vücud" baxışı da bu ideyadan ciddi bəhrələnmişdir. Bu dediklərimizi faktlarla əsaslandırmaq da olar. Ancaq burada istək "Od İşığı" ideyasını anlatmaq olduğuna görə qonunu genişləndirmirik.

Biz dedik, Tanrıçılıqdan gələn üçlük ideyası, özündən sonrakı baxışlarda iz buraxmışdır. Onlardan biri də Zərdüştçülük-

dür. Zərdüştçülükdə Od qutsal sayılıb. Məbədlərdə Ocaq qalanıb, Od qorunub. Bu gələnəklər çağımıza kimi davam edib. Güney Azərbaycanın bəzi bölgələrində, indi də Zərdüşt atəşgahları qorunur.

Zərdüştün doğulması ilə bağlı da Od ideyası önəmli yer tutur. Onun doğulması ilə bağlı dastanlar, söyləmlər yaranmışdır. Zərdüştün dünyaya gəlməsi söyləmlərdə belə vurğulanır: o gecə Zərdüşt doğulacaqdı. Əhrimən, bütün devlərə hökm edən amansız devləri bir araya toplayıb Poruşaspın evinə göndərdi. Onlara, doğulacaq uşağı öldürməyi tapşırdı. Ancaq Hürmüzdün xeyirxah əməlləri Zərdüştü dünyaya gətirəcək ananı qorudu. Onu Xvarna ilə, Ailə Odu ilə çevrələdi. Devlər evə yaxın gedə bilmədilər...

Zərdüşt dünyaya gələndə Voxu Mana onun ağlına girir. Ona görə körpə nə ağlayır, nə də qışqırır, tərsinə, gülür. Hamı heyrət edir. Poruşasp deyir, bu olay Göylə bağlı məsələdir, oğlum güləndə ondan işıq çıxdığını gördüm.

Oradakılar bunun ardınca ikinci möcüzəni izləyirlər – körpə dil açıb danışır... Biz bu mifologiyanı sonacan yazmağı gərək bilmirik. Ünlü bilim adamı E.Əlibəyzadə özünün “Azərbaycan ədəbiyyatı tarixi”ndə bu məsələlərə daha geniş yer ayırmışdır. Biz isə baxışları, Zərdüştlə bağlı bəzi çalarların üzərində saxlamaq istəyirik. Baxın, mifologiyada deyilir, Hürmüzd, Zərdüştü doğacaq ananı “Ailə Odu” ilə qorudu. Bu, olduqca önəmli məsələdir. Zərdüştçülükdə ailəyə çox yüksək dəyər verilir, ailə qutsal sayılır, ona Od-İşıq anlamı verilir. Gənəl olaraq, Türkün ailəcanlılığı inanc səviyyəsində yaşadılmışdır. Türkdə ailə ən böyük dəyər, toxunulmaz ölçü sayılmışdır. Ədalət, xeyirxahlıq, vicdançılıq, – ailəyə bağlılığın görsənişi kimi yaşamda yer tutmuşdur. Ailəyə bağlılıq – abır, həya, böyük-kiçik yeri bilmək, ağsaqqala-ağbirçəyə sayğı kimi xarakterləri qoruyub saxlamışdır. Bu dediklərimizi “Dədə Qorqud” dastanlarında da aydın görürük. Qadına münasibət bütövlükdə ailənin ləyaqətini aydınlaşdırır.

***"Başım baxtı, evim taxtı,***
***Göz açıban gördüyüm,***
***Könül verib sevdiyim"*** – xanımın bu deyilişində kişi qeyrəti, mərdliyi, qəhrəmanlığı yaşayır. Yalnız ər kişilərə, ailə sədaqətli oğullara belə öygülər deyilərdi. Döyüş meydanlarında aslan kimi nərildəyən igidlər xanımının yanında ipək kimi zərif, həssas, təvazökar olurlar. Asif Atanın, bu mənzərəni ifadə edən bir deyimi var: "Türk ata minəndə Koroğlu, atdan düşəndə Füzuli olur".

Yeri gəlmişkən, biz "Od İşığı" ideyasına, Asif Atanın "Azərbaycanımız – Azərbaycanlığımız" dəyər sistemini aydınlaşdırmaq yönündə yanaşırıq. Ona görə bir ideyadan o birinə tez-tez keçid eləyəcəyimiz qaçılmazdır. İndi Zərdüştün "Doğum mifologiyası"na qayıdaraq, orada başqa bir önəmli məsələyə aydınlıq gətirməyə çalışaq. Deyilir, Zərdüşt dünyaya gələndə Voxu Mana onun ağlına girir. Ona görə də o, ağlamır, gülür. Güləndə ondan işıq çıxır. Baxın, türklərin əski inanclarında "ruhun bir bədəndən başqa bədənə köçmə" ideyası olmuşdur. Bu ideya, sonrakı çağlarda, Hürrəmilərdə də olub, Hürufilərdə də. Hürrəmilərə görə, Şirvinin ruhu başçıya, qəhrəmana köçür. Ona görə də o, yönəticiliyində ədalətli, xeyirxah, döyüşkənliyində yenilməz olur. Şirvin – Qüdrət Allahının adıdır. Onun ruhu qəhrəmana köçdüyünə görə, qəhrəmanın ağlı, mənəviyyatı işıqlı olur, onun varlığında şər əmələ yer qalmır. Bu ideya Tanrıçılıqdan qaynaqlanır. Anlamı dəyişmir, gələnəklər gəlişir. "Od İşığı" ideyasının anlamı – Tanrı-Doğa-İnsan Birliyidir. Tanrı Doğadadır, İnsandadır, Doğadan, İnsandan qıraqda Tanrı yoxdur.

Hürrəmilərə görə, Babəkin çağında, Şirvinin ruhu Babəkə köçmüşdür. Onlar buna inanırdılar. Babək, Düşmən ordusunun üzərinə, "mən içimdə Şirvin gəzdirirəm" deməklə yeriyirdi. Ona görə yenilmirdi. Babəkdə güc təkcə qolda deyildi, inamında idi. Başqa sözlə, Babəkin gücü ruhsal anlam daşıyırdı. Babəkin inamı vardı, bu inam Babəkdə yaşam sistemi yaratmışdı. Asif Ata yazır, əminliklə demək olar, "Babəkin fəlsəfəsi vardı,

ərəblər onu yandırdılar”. Babəkin yaşam nizamı, dövlət biçimi, yönəticilik yasaları vardı. Bu sistemin yazısı, fəlsəfəsi olmaya bilməzdi. “İçimdə Şirvin gəzdirirəm” – elə-belə deyiliş deyildi. Burada “Vəhdəti-Vücud” fəlsəfəsi, “Ən-əl-həqq” ideyası vardı. 10-cu yüzildə Hüseyn Mənsur Həllacın, XIV yüzildə Hürufilərin dediyi “Ən-əl-həqq” ideyasına Hürrəmilik baxışı böyük etki göstərmişdir. Asif Ata yazır, “Babəkçilik – Ən-əl-həqqdən önçəki Ən-əl-həqliyimiz idi”.

Zərdüştçülükdə “Voxu Mana” anlamına qaynaqlarda rast gəlməmişik. Ancaq məntiqlə demək olar, Voxu Mana elə Hörmüzdün İşığı idi. Bu da Babəkə köçən Şirvinin ruhu anlamı ilə oxşarlıq doğurur. Türklər gücü, qüdrəti Doğada axtarıblar, Doğanın özünə bağlı olublar. Bu şüur, bu düşüncə min illər türk varlığından ayrılmayıb. Çağımızın özündə də bu belədir. Baxmayaraq, ərəb-islam baxışı türk kimliyinə soxulmağa çalışdı, ancaq bu deyilənləri onun varlığından çıxara bilmədi. Doğrudur, ərəb-islam dünyagörüşü türk düşüncəsinə çox ziyan vurdu, ancaq dediyimiz kimi, nüvədə olanları tam sıradan çıxara bilmədi. Xalqımız indi də Novruz bayramını yaşadır, Od qalayır, Odun İşıq anlamını bayram edir. Yeri gəlmişkən, bir sıra araşdırmaçılar Novruz bayramını türkün doğuluş-qurtuluş günü ilə bağlayır, bu bayramı Ergenekon adlandırırlar. İsa Mehdioğlu isə Novruz bayramının Xızır bayramı olduğunu vurğulayır. Burada məntiq də dərindir. Dörd üçüncügün (çərşənbə) Xızır söyləmlərinə (rəvayətlərinə) daha uyğundur. Hər il Xızır Göy atı minib dörd üçüncügün Doğaya yeni nəfəs, yeni can verir. Axırıncı üçüncügün (çərşənbə) İlin-Ayın axır günü adlanır, həmin gün bayramlaşır. Hər üçüncügündə, ayrıca olaraq, ölənlərdən ən yaxın olanların adına da tonqal qalanır. Bununla da onların xatirəsinə işıq salınır, adları, yaşamda qalan varlıqları anılır.

İlaxırla bağlı bayram günlərində, Tanrı sevgililərə yuxuda Buta verir. Buta – haçalanmış alov dilinə deyilir, Tanrı İşığı anlamı daşıyır. Dillərin hərəsi sevgililərin birini təmsil edir. Tanrı yuxuda onların taleyini bir-birinə bağlayır. Göründüyü kimi, bu da Zərdüştlükdəki “Ailə İşığı” ideyasına uyğundur. Yəni Ailə –

Tanrının insanlara bağışladığı Yaşam İşığıdır. Bu işıqla o, şərdən qorunur, sevgisində bütünləşir, varlığını sürdürür. İlaxırda tonqal qalamanın başqa bir biçimi də var. İnsanlar tonqal qalayıb üstündən atlanırlar. Bu zaman onlar, özlərində daşıdıqları şər düşüncəni, varlıqlarına ağırlıq gətirən paxıllığı, qarınqululuğu, dedi-qoduçuluğu Odla yandırıb külə döndərirlər. Xəstəlik qaynağı, ölüm qaynağı olan pisliklər odda yandırılanda insanlar yeni, işıqlı diləklərlə dolurlar. Alovun üstündən atlananda dilə gətirilən nəğmənin sözləri də bunu bir daha kanıtlayır.

*Al qırmızı al alovum,*
*Sən əbədi qal, alovum,*
*Qırmızılığını mənə ver,*
*Sarılığımı al, alovum.*

İllər öncə bunu belə də oxuyurduq:

*Ocağım alovlansın,*
*Alovum daim qalsın.*
*Ağırlığım, uğurluğum,*
*Odda yanıb kül olsun.*

Elə buradaca bir faktı yada salmaq istərdik. Tarix üzrə bilim adamı, Kərəm Məmmədli, odun üstündən atlanmağı yada salıb, bu ideyaya qınaqla yanaşır. Onun dediyinə görə, türklər odu qutsal saymayıblar. İnsan bir şeyi qutsal sayırsa, ağırlığını necə onun üstünə tökə bilər?! Görünən odur, Kərəm bəy ya bu məsələni ciddi öyrənməyib (ona görə də bu ideyaya hərfi anlamda yanaşır), ya da İslam dünyagörüşünün etkisi ilə, dəyərlərimizə qarşı bac verir. Məsələ olduqca açıq qoyulur: – Od çirk götürmür, çirki yandırıb varlığı işıqlandırır. Tanrı işığı olan Od insana kömək edir, onun varlığına ağırlıq gətirən pislikləri yandırmaqla, sağlamlığını, mənəvi arılığını bərpa edir. Bu, Zərdüştlükdə də belədir. Əhrimən insanın düşüncəsinə girəndə pis niyyətlər becərir, əlinə qonanda pis əməllər yetirir, üzünə qonanda

təkəbbürə çevrilir, insan öz mahiyyətindən ayrılır, özünə qarşı yaşayır. Hürmüzd insan uğrunda döyüşür. İnsanın əlinə, əməlinə, düşüncəsinə, üzünə Əhrimənin qonmasına yol vermir. Zərdüştlükdə Arı düşüncə, Arı söz, Arı əməl ideyası da, buradan qaynaqlanıb, Od İşığı anlamı daşıyır.

Biz dedik, "Ailə Odu" ideyasının etkisi Dədə Qorqud dönəminin yaşam sistemində də özünü göstərmişdir. Eyni halda, insanların xəlqi birliyinin simgəsi kimi üç tonqal ideyası mövcud olmuş, anlamı çağımıza qədər gəlib çıxmışdır. Ucalıqlarda, dağ başında tonqal qalanardı, el-oba tonqalı görüncə bayram şənliyinin olduğundan soraq tutar, bir araya toplaşardılar. İkinci, üçüncü tonqalların da anlamı vardı. Əgər iki tonqal qalansaydı, el-oba yenə axışıb bir araya gələrdilər. İkinci tonqal yağı basqınlarından qorunmağın gərəkliyini bildirirdi. Üçüncü tonqal isə eli-obanı, onlara özgün olan torpağı əkib-becərməyə çağırar, özgür varlığını sürdürməyin sevincini sağlayardı.

Tanrı-Doğa-İşıq (Xızır) Birliyi Varlıq deməkdir. Bu üçü olmadan yaşam oluşmur. Oluşumun, Varlığın anlamı xalqımızın yaşam nizamında, ayrı-ayrı çalarlarla simgələşmişdir. Dediyimiz kimi, onlardan biri də Dədə Qorqudda "Od Sevinci" simgəsidir. Yəni üç tonqal görən toplum yaşamaq üçün çalışmaya çağırıldığını duyur, sevinir, ürək diləklərlə dolur, əməl başına tələsir.

Yuxarıda vurğuladıq, söyləmlərə görə Xızır ildırım çaxmasından görünmüşdür. Üstündən min illər keçir, xalqın qan yaddaşında söyləmlərin etkisi yaşayıb sabaha gedir. Baxın, Koroğlu dastanlarının min il öncə ilə bağlılığı necə özünü göstərir. Hər kəsə bəllidir, Koroğlunun atları (Qırat, Dürat) Dəryadan çıxmış madyanlardır. Heç kim bu cansız madyanlarda Tanrı sirrinin, Tanrı hikmətinin olduğunu görmür. Onlar adi atdan deyil, doğanın özündən yaranmışlardır. Uzaqgörənliyi, sirləri anlaması ilə ahıllaşmış Alı kişi madyanlarda Tanrı sirrinin olduğunu bilir. Ona görə oğluna tapşırır, 40 gün onların üzərinə işıq düşməməli, göz baxmamalıdır. Yetişmə çağına qədər sirlərini qorusan, Tanrının hikməti bu madyanlardakı fərqliliyi üzə

çıxaracaqdır. Koroğlu dözmür, bir gün qalmış atlara baxır. Əgər dözüm göstərsəydi, atın qanadları olacaqdı. Bu, əslində Xızırın qanadlanan Göyatının anlamına doğma bir məsələdir. Anlamı belədir: insanların zəif iradəliliyi – onları Tanrı hikmətindən uzaq salır.

"Koroğlu"da başqa bir çəkici məsələ də var – Misri qılıncın İldırım parçasından yaranması ideyası. Günəş – Doğada Tanrı işığıdır. O, yeri qızdırır, isti buxar əmələ gəlir, buxar bulud olub yağışa çevrilir, bulud topalarının axını – toqquşması ilə şimşək oynayır, ildırım çaxır. (Min il öncələr bilimin aydın məntiqi). İldırımın çaxdığı yerdən Doğaya can verən, yenilik gətirən Xızırla Göyat çıxır. "Koroğlu"da da madyanlar Günəşin buxarlandırıb sellərlə dəryaya çevirdiyi yerdən çıxır. İldırım parçasından Misri qılınc hazırlanır. Madyanlar da, Misri qılınc da Doğanın gücündən yaranıb. Başqa sözlə, Doğanın Od İşığından yaranıb. Koroğlu bu gücə dayandığı üçün yenilməz olur. Türkdə yenilməzlik ideyası – Tanrı-Doğa-İnsan birliyinə inamın ifadəsidir. Babəkin yenilməzliyi də bu inamdan qaynaqlanırdı.

"Od İşığı" ideyası düşüncəmizdə, şüurumuzda, gələnəklərimizdə Tanrı-Doğa-Türk Birliyinə inamın ifadəsi olduğu üçün yaşamımızın bütün çalarlarında özünü göstərmişdir. Nağıllarımızı ciddi araşdırsaq, onlarda da "Od İşığı" ideyasının etkisinə rast gələ bilərik. Nağıllarımızda yaşam münasibəti Zərdüştçülük ideyalarına uyğun şəkildə izlənilir. Burada Xeyirlə Şərin döyüşü, davranışı aydın şəkildə Əhrimənlə Hürmüzdün döyüşünün, münasibətinin ifadəsidir. İki dünya ideyası kimi qavranılan qaranlıq dünya ilə işıqlı dünya nağıllaşmış simgələrdir. Qaranlıq dünyanın sakinləri devlər, ifritələr – qara qüvvələrdir; işıqlı dünyanın sakinləri qəhrəmanlar, onların yardımçıları – At, Simurq quşu, (Onqon, ya da Ağ Sunqur, adı sonradan Simurq quşu olmuşdur), İşıq Saçan Kəmər. Olayların ardıcıllığını vurğulamadan, məsələnin fəlsəfi mahiyyətinə yönəlik, bir neçə söz demək yerinə düşər. Burada iki dünya deyilişi əslində özünü doğrultmur. Dünyada iki cəhət, iki tərəf deyilsə, daha doğ-

rudur. Yəni dünyanın gedişində iki tərəfin – Qaranlıq tərəfin, İşıqlı tərəfin olması. Şərlə Xeyirin döyüşü ideyasında da dediyimiz özünü doğruldur. Şər Xeyirlə döyüşəndə başqa dünyadan gəlmir, elə bu dünyanın özündə olur, özündə döyüşür. Şər insanın düşüncələrində, əməllərində oturuşmağa çalışır. Xeyir isə Şəri məhv eləmək üçün döyüşür, onu (Şəri) öz dünyasına qovmaq üçün çalışmır. Şər insanların yaşamında mövcud olur. Ancaq insan bunu görmür, görmək istəmir. Nağıllarımız şərin münasibətlərdə olduğunu, davranışlarda yaşadığını öyrədir. Həqiqətin, Xeyirxahlığın, Ədalətin açarı, ölçüsü bəlli toplumda, yaşamın bəlli gedişlərində deyil. Toplumun yaşamında ədalətsizlik, həqiqətsizlik, xeyirsizlik hökm sürür. Şər həqiqətin, ədalətin, xeyirin yolunu kəsib. Şər – insanın cılızlığı, xudbinliyi, tamahı, varidatsevərliyi deməkdir. İnsan öz üzərində qələbə çalmasa, xeyirə, ədalətə, həqiqətə qovuşmaz. Nağıllarımız bunu belə aydınlaşdırır: Bir padşahın bağından almaları dev oğurlayır. Oğlanları növbə ilə devi pusurlar. İki oğlu (bunları tənbəllik simgəsi saymaq olar) yatdıqları üçün oğrunu görmürlər. Üçüncü oğul (bunu da qəhrəmanlıq simgəsi sayaq) əziyyətə qatlaşıb yatmır. Oğrunu tutur, döyüşür, ancaq əlindən qaçırır. Dalınca getməli olur. Qardaşları da (gizlənməyi özlərinə sığışdırmayıb) onunla gedirlər. İz onları bir quyunun başına gətirir. Tənbəllik simgəsi olan qardaşlar quyunun dibinə düşə bilmirlər (bəlli "yandım" deyə bağırmalar), ancaq qəhrəman çətinlikləri yenib düşür. Yol onu böyük bir qəsrin qabağına aparır. Qəsr həqiqət yolunda qəhrəmanın qarşısına dikilən əngəldir. Bu əngəlin adı tamahdır, tənbəllikdir, qorxudur – qəhrəman sınağa çəkilir. İçəri girəndə qarşısına bağ-bostan, gül-çiçək, çay-çəmən çıxır. Qəhrəman dayanmır, yoluna davam edir. Hər otağı açdıqca fərqli zənginliklər çıxır qarşısına. 39-cu otaq lap çəkici, aldadıcı olur. Qızıl, ləl, qiymətli bəzək əşyaları qəhrəmanı tutub saxlamağa çalışır. Qəhrəman 40-cı otağa keçir. 40-cı otaq qaranlıq bir zirzəmidir, burada saçlarından asılmış gözəl bir qızdan başqa heç nə yoxdur. Qızı açıb yerə düşürəndə qara qüvvələr – devlər ona hücum çəkir. Devlərlə döyüşüb yenir,

buradan çıxmaq üçün yardımına, işıq anlamı daşıyan, Ağ Sunqur (Simurq) quşu gəlir, onları qanadlarında işığa çıxarır. Qəhrəman gözəl qızla evlənir, soy artırır. Onun soyu işıqlılıq gələnəklərini davam edib yaşadır. Burada qurtarıcılıq (xilaskarlıq) İşıq anlamı daşıyır. Nə baş verdi? Nə qədər ki, insan toplumun içində özüylə üz-üzə qalmır, özündəki qaranlıq məqamları da görmür. Elə ki çətinliklərin içində özü ilə üz-üzə qalır, həqiqəti, ədaləti, xeyiri tanıyır, yaşamda dəyişikliklər edir. Qəhrəmanın quyuda gördükləri, əslində toplumun öz yaşamında daşıdıqları idi.

Bunu biz sevgi dastanlarımızda da izləyirik. Tanrı pisliklərə bulaşmamış, arı-duru gənclərə yuxusunda Buta verir. Onu da demək yerinə düşər, Buta Badə sözünün eyni deyil. Xalqımızın düşüncələrində yer alan Buta – qoşa alov dilləridir. Gənclərə Badədə içki deyil, Buta bağışlanır. Tanrı insanın ürəyinə işıq salır. İşıqlı ürək sevir, sevgili olur. Sevən ürəklərdə şərə, pisliyə yer qalmır. Aşiq eşqdən başqa heç nə haqqında düşünmür. Eşq insanı mömünləşdirir. Sevdalı ürəklər – həqiqətə, ədalətə, xeyirə inandırır. Çünkü Od İşığı, əslində Mənəviyyat işığı anlamındadır.

Asif Atanın Mütləqə İnam ideyası da, anlamı baxımından, həmin gələnəklərin yeni aşamaya qalxması, gerçəkçi bir səviyyədə, İnsanlaşmanın İnam səviyyəsinə qalxmasının təsdiq olunmasıdır. Asif Atanın baxışında mifik çalarlar davam eləməsə də, Od, Ocaq ideyası yenilənərək yaşadılır. Asif Ata İşıqçıdır. Onun "Özüylədöyüş" ideyası mənəvi arılanma – İnsanlaşma – kamilləşmə yoludur. Mənəvi arılanma – İnsan ruhunun dörd çalarında, yəni İnamının, İdrakının, Mənəviyyatının, İradəsinin mütləq səviyyəyə yetməsində özünü göstərir. İnsan ruhunun dörd çalarının Doğanın nizamındakı çalarlarla doğmalıq əmələ gətirdiyini də demək olar. Doğada dörd fəsil insan ruhunun halları kimidir. Asif Ata insan kamilliyini Günəşə bənzədir. Günəş arıdır, oddur – çirk götürmür. İnsan çirkdən arınanda kamilləşir. Asif Atanın şəklinin, Günəş içində simgələşərək, bayraqlaşması da "Od İşığı" ideyasından qaynaqlanır. Mütləqə

İnam Ocağının dörd bayramının – "İnsanilik", "Xəlqilik", "Şərqilik", "Bəşərilik" – anlamı da Mütləq-Doğa-İnsan Birliyinin ifadəsi kimi dərk oluna bilər. Hər bayram Doğanın bir fəslində gerçəkləşdirilir.

Asif Atanın Günsırası da Doğanın halları ilə bağlıdır. Yeddicənin (həftənin) günləri isə insanın hallarını ifadə edir. Burada da Mütləq-Doğa-İnsan Birliyi öz yerini (əksini) tapır. Məsələn, aylar: Günəş, Çiçək, İşıq, Şölə, Od, Qürub, Ata, Xəzan, Yağış, Sərt, Qar, Köçəri – Doğanın halını, nizamını göstərir. Günlər: Arzu, Ümid, Dözüm, Mərhəm, Qismət, Murad, İnam – İnsan hallarıdır.

Bayramlarda tonqal qalanır, tonqal başında söz deyilir: bunlardan birini – "Şərqilik Bayramı üstə Mütləqlə Təması" örnək göstərmək olar:

Ruhaniyyat İşığı.
Müqəddəslik İşığı.
İnam İşığı.
İdrak İşığı.
Mənəviyyat İşığı.
İradə İşığı.
Vəhy İşığı.
Vəcd İşığı.
Şərq!
Sənə çatmalıyam!

Asif Atanın Mütləqə İnam Dünyabaxışı bütün anlamı ilə İşıqçılıq ideyasıdır. Od İşığı – Odlar Yurdu Azərbaycanın ruhsal mahiyyətidir, Onun Dünənidir, Gələcəyinin özülüdür.

"Od İşığı" ideyası ən çox Azərbaycançılıqda özünü göstərib. Bununla belə, başqa türk toplumlarının yaşamında da bu ideya ciddi iz buraxmışdır. Çünkü Tanrıçılıq bütün türklərin ortaq inancı olmuşdur. Göy türklərin ölçüyəgəlməz, arılıqda tayı olmayan Törələri olmuşdur. Ailəyə, qadına münasibət, ulu başçı Xaqana münasibət Törələrdə özül səviyyə sayılırdı. Göy türklərə görə Göy, Tanrı üzü idi. Tanrı üzü İşıqlı olur. Yaşam bu

işıqla nizam tapır. Türklərin ulu soyu da bu işıqdan törənmişdir. Eləcə də “Köç” dastanının anlamı İşıqçılıq, daha doğrusu, Tanrı İşığı ideyasına bağlı idi. Dastanın mahiyyəti belədir: uyğurların vətənində Hulina adlı dağ vardı. Burada Tuğla, Selenge adlı iki şəlalə axardı. Bir gecə bu iki şəlalənin arasındakı ağacın üstünə göydən bir işıq endi. Sonra bu ağacın gövdəsi şişməyə başladı. İlahi işıq 9 ay 10 gün ağacın üzərində dayandı. Ağacın gövdəsi yarıldı, orada 5 uşaq göründü. Onlar böyüyərək xaqan oldular... Göründüyü kimi, bir çox türk boyları öz yaranışlarını Tanrı işığı ilə bağlayırlar. Bu da, sonradan onların şüurunda oturuşmuş, inamlarının özülündə dayanmışdır.

“Koroğlu”da da oxşar anlam bizə bəllidir. Dastanda deyilir: Çənlibel Qayasının üstündə iri gövdəli ağac vardı. Altında iki bulaq axırdı. Bunun adı Qoşabulaq idi. Bir dəfə gecə doğudan bir ulduz, batıdan da bir ulduz gəlib Qoşabulağın üstündə toqquşurlar. Bu zaman Qoşabulağa işıq seli axıb tökülür. Bulağın suyu köpüklənib daşır. Koroğlu bu köpükdən başına tökür, içir. Ona görə qolları, səsi güclü olur, ozan olur, şair olur. Yenilməzlik sorağı hər yana yayılır... Bütün bu deyilənlər türk boylarının Doğaya bağlılığını, ortaq inanclarının olmasını bir daha kanıtlayır, onların hər birində İşıqçılıq ideyasının etkisini aydınlaşdırır.

İndi isə tarixi dəyərlərimizi dananların anlamsız arqumentlərinə aydınlıq gətirək. Burada biz ayrı-ayrı faktlara dayansaq da, düşüncələrimizi daha çox məntiqin gücü ilə deməyə çalışacağıq. Çünkü bəzi olayların tarixi faktları ziddiyyət doğura bilir. Ancaq istənilən bir olayın içsəl gəlişmə sürəci, məntiqlə öz aydınlığını ortaya qoyur. Bununla belə, nədənsə içimizdən çıxan bir sıra düşünürlər, tariximizi dəyişdirən, dəyərlərimizə qarşı yalançı arqumentlər sərgiləyən qaynaqların etkisi ilə, özünəyad, milli gəlişməyə tərs baxışlar ortaya qoyurlar. Bu baxışlar, başlıca olaraq, Zərdüştlüyə, Dədə Qorquda, Hürrəmiliyə, Hürufiliyə, Koroğluya qarşı yönəlir. Adları çəkilən olaylar elə dəyərlərdir, heç bir xalq tarixdə onlara tay dəyərlər yarada bilməmişlər. Ancaq bizdən olan özünəyadlaşanlar, öz balaca çıxarla-

rı üçün milli dəyərlərimizə qarşı dönüklük sərgiləyirlər. Burada həm İslam dünyabaxışına bac verilir, həm də Kürəsəlləşmənin dayaq ilgələrindən (prinsiplərindən) biri sayılan "dəyərlərə yenidən baxılması" tələbinə boyun əyilir.

Bu yanaşmalara aydınlıq gətirmək üçün birinci Zərdüştlükdən başlamaq olar.

Zərdüştün həm şəxsiyyəti, həm də dini dünyagörüşü farslara özgün sayılır. Çünkü Əhəmənilərin hakimiyyəti dönəminə qədərki çağ araşdırılmır. Midiya dövlətinin yaradıcılarının kimliyi ilə bağlı dəqiqləşdirmələr aparılmadan bu dövləti də farslarınkı sayırlar. Bu yanlışlar da sonrakı düşüncələrə qaynaq olur. Ancaq faktlar bunun tərsini söyləyir. Zərdüştün, ölməzlərin məclisində, sınaqdan keçməsi ilə bağlı yaranan söyləmlərdə adı keçən məsələlər çox önəmlidir. Zərdüştün ilk sınağı, Hürmüzdün müdrik söz, müdrik əməl, müdrik düşüncə ayəsini təkrar edə-edə odun-alovun arasından keçməsi olur. Od-alov məsələsi Tanrıçılıqdan gələn bir inamdır, farslarda belə münasibət olmayıb. Zərdüştün sınaqlardan uğurlu çıxmasını söyləmlərdə belə vurğulayırlar: "onu od yandırmadı, öküz (buğa) qorudu, at qurtardı, Qurd yemədi". Bu deyilişlər türkün totemçilik anlayışları ilə bağlı məsələlərdir. Od, At, Buğa, Qurd – farslarda belə simgələr olmamışdır.

Zərdüştlə bağlı bir sıra bilim adamlarının ilginc düşüncələri də var. Onlardan ikisini vurğulamaq yerinə düşər.

Alman filosofu Hegel yazır: "Asiyada ilahi işıq parladı, bundan sonra dünyanın tarixi başlandı... İlk dəfə Zərdüştün tərənnüm etdiyi İşıq – İdrak, ruh aləminə məxsusdur".

Alman bilgəsi Höte: "Zərdüşt ilkin olaraq, dəyərli Təbiət dinini gündəlik ayinə çevirmişdir". O, burada Təbiət dini deyəndə Tanrıçılığı gözə almışdır.

"Zərdüştlüyün mifologiyası"nda o, özünü belə sunur: "Mən ilk eyitimimi Xarranda İlyaz bəydən almışam".

Bu cür məntiqi faktlar ortada ola-ola, bəzi araşdırmaçı yazarlar Zərdüştlüyün fars dünyagörüşü olduğunda inad göstərirlər. Dediyimiz kimi, Əhəmənilərin Midiyanı ələ keçirdikləri

dönəmdən sonrakı qaynaqlarda dayanıb qalırlar. Burada bəzi tarixi faktları xatırlatmaq yerinə düşər. Midiyanın ilk qurucusu (banisi) Deyok olmuşdur. Herodotun, L.Diogenin bilgilərinə görə, Deyok, dövləti 6 tayfa ilə birlikdə yönətirdi. Bu tayfalardan biri Maqlar (Muğlar) idi. Zərdüşt də Maqların öncəsi (əvvəlincisi) idi. Dövlət yönəticiliyində olan tayfalararası münasibət Zərdüştdən gələn yüksək əxlaqi dəyərlərə əsaslanırdı. Bu gələnək Deyokdan sonrakı Fraorun, Kiaksarın, Astiyaqın hakimiyyətlərində də davam edirdi.

Söyləmlərə görə, Astiyaqın bir qızı vardı. Bir gecə yuxusunda görür, qızı o qədər sidik ifraz edib, bütün Asiyanı bürüyüb. Astiyaq yuxuyozanları dinlədikdən sonra qızını Kambis adlı bir farsa ərə verir. Bundan sonra bir gecə yuxusunda görür, qızının bətnindən üzüm tənəyi çıxıb bütün Asiyaya yayılır. Yenə yuxuyozanlardan soruşur. Onlar bildirirlər, qızının oğlu onun yerində hökmdar olacaq. Astiyaq, Maqlara nə etmək gərəkdiyini gənəşir. Maqlar da bildirirlər, biz səninlə eyni tayfayıq, istəmirik halkimiyyət başqalarının əlinə keçsin... Deməli, Midiya hökmdarı Muğlardandır. Muğlar da əski türklərdir. Onların adı ilə bu gün də bölgələrimizdə çoxsaylı yer adları var: Muğan, Muğanlı, Muğtala...

Ancaq Astiyaqın nəvəsi Kir üsyan qaldırıb Midiya dövlətini devirir, hakimiyyəti ələ keçriir. Ondan sonra hakimiyyətə onun oğlu Kambis gəlir (atasının adını oğluna qoyub). Hakimiyyət, tam olaraq, farsların əlinə keçir. Avesta kitabı da zəbt olunur, fars dilinə çevrilərək yenidən yazılır. Kambisə qədər bu kitabın anlamı Tanrıçılıqla, Od İşığı ideyası ilə bağlı olub. Ancaq Ktesi adlı farskökənli bir araşdırmaçı 17 il Əhəməni hökmdarının sarayında çalışıb, onun yönəticiliyinə uyğun dəyişikliklər aparıb. Hökmdar ona, ödül olaraq, şəhər bağışlayıb. Bu şəhərin adı tarixdə Ktesifon adlanır.

Türklərdə belə bir deyim var: "Hər kəs yeddi arxadönənini tanımalıdır". Bu deyim ona görə ortaya çıxıb, heç kim yeddi arxadönəni ilə ailə qurmamalıdır. Qan qohumu ilə ailə qurmaq Avestada da yol verilmirdi. Ancaq Əhəmənilər Avestanı zəbt

edəndən sonra bu qaydanı pozmuşdular. İngilis bilgəsi Meri Boys öz araşdırmalarında yazır: belə ilk nigah Kambisin iki doğma bacısı ilə bağladığı kəbindir". Herodotun bilgilərinə görə, Kambis bacılarından birinə vurulur, onunla evlənmək istəyi ilə, hökmranlığında olan hakimləri çağırır. Gələnəklərə tərs olsa da, onlardan soruşur: elə bir yasa (qanun) yoxdurmu, istəyən adama bacısı ilə cinsi yaxınlığa yol versin? Hakimlər belə bir yasa tapmırlar, ancaq ədalətə uyğundur deyə cavab verirlər. Onlar özlərindən yasa uydururılar, fars hökmdarı nə istəsə, ona yol verilir. Bununla da Kambis öncə böyük bacısı ilə, sonra da kiçik bacısı ilə evlənir. Sonradan bir sıra araşdırmaçılar, yanlış olaraq, fars hökmdarının belə qırağaçıxmalarını Avestaya, Zərdüştlüyə özgün saymışlar.

Dəyərlərimizi özgələşdirmə xətti Dədə Qorquda yanaşmada da özünü göstərmişdir. Baxın, Kitabın başlanğıcında Dədə Qorqud necə sunulur: "Rəsul Əleyhissəlam zamanına yaqın Bayat boyundan Qorqut Ata diyərlər, bir ər qopdı". Sonra Dədə Qorqudun dilindən yazılır:

"Allah-Allah deməyincə işlər alınmaz.
Qadir Tanrı verməyincə ər bayımaz.
Əzəldən yazılmasa, qul başına qəza gəlməz".

Buradakı ziddiyyətlər göstərir, kitab yazıya alınanda ciddi əl gəzdirilib, uyğunlaşdırmalar aparılmışdır. Belə bir tarixi dəyəri İslamın yaranma tarixinin içinə almaq düşündürücüdür. Bir yerdə "Allah" sözü, bir yerdə "Tanrı" sözü işlətmək, eləcə də "alın yazısı"na işarə vermək – onu göstərir, Dədə Qorqud kitabındakı olaylar, İslamı türklərə qəbul etdirəndən sonra baş vermişdir. Ancaq Dədə Qorqud boylarının heç birində İslam etkisi ilə yaşam sürəci görünmür. İçki məclisləri, qadının at belində ox atması, kişilərlə yarışması, İslamın yol vermədiyi davranışlar olub. Əski türklərdə "alın yazısı", "qul" sözü olmazdı. Türk qul-quldar tanımayıb.

"Salur Qazanın evinin yağmalanması" boyunda yenə İslama uyğun olmayan çalarlar qarşıya çıxır. Qazan xan köçünün da-

lınca gedərkən, Suya, qurda, köpəyə üz tutar, köçünün səmtini onlardan sorar. Doğaya, Doğadakılara üz tutmaq türkün Tanrıçılıq inamı ilə bağlı idi. Kitabın bu bölümündə yazılır: "Qurd üzü mübarək olar". Bu deyiliş əski türklərin totemçiliyi ilə bağlıdır. Ancaq elə həmin bölümdə (Qazan xanın suya üz tutub köçünü soraqladığı yerdə) "Həsən ilə Hüseynin həsrəti su" yazılır. Kitabı yazıya alarkən bu ziddiyyətləri gözdən qaçıranlar ya qərəzli olublar, ya da məsələyə başdansovudu yanaşıblar.

Bizə görə Dədə Qorqudluğun tarixi İslamdan min illər öncədir. Dədə Qorqud adı isə türkün yaşam sistemində təkrarlana bilər. VI yüzildə Oğuz yaşam sistemini Dədə Qorqudluğun başlanğıc tarixi saymaq yanlışlıq doğurar. Dilimizdə olan anlayışların Dədə Qorqudla bağlı olduğu bəllidir. Yəni hər şeyə ilk adı Dədə Qorqud qoyub. Bəs necə olur, bizim dilimiz, anlayışlarımız VI-VII yüzildənmi başlayır? Bundan öncə biz olmamışıqmı? Yenə eyni sorundur, məsələlərə, bizə sunulan tarixin açısından yanaşılır. Heç kim ağıl işlədib əski çağların araşdırılmasına girişmir. Çətinlikləri anlamaq olar, əski çağlardan bizə az faktlar gəlib çatmışdır. Ancaq ziddiyyətlər fərqli məntiqlər doğurur axı. Məsələn, Dədə Qorqud adının özü çox ilginc bir anlam yaradır. Nədənsə Dədə Qorqud boylarındakı əski sözlərin etimologiyasına girirlər, ancaq Dədə Qorqud adının öz etimologiyasına, demək olar, rast gəlinmir. Bizə görə Qor – Od-İşıq anlamında, Qut sözü isə mübarək, müqəddəs anlamı daşıyır. Qut sözünə "sal" artırması eləməklə qutsal, yəni müqəddəs sözü əmələ gəlmişdir. Bu açıdan yanaşanda Qorqut Ata – Müqəddəs, mübarək Od Ata anlamına gəlir. Bu ad əski Türklərdə Tanrıçılığın bilicisi, öyrədicisi kimi dərk oluna bilər. Əski türklərdə peyğəmbər əvəzi Atalıq ideyası olmuşdur. Bizə görə Şumer dastanı Bilqamıs da həmin anlamı daşıyır. Bilqamıs – Bil Qamsu söz birləşməsindən yaranıb, "hər şeyi bilən" anlamı daşıyır. Hər şeyi bilənə, çağdaş dönəmdə Peyğəmbər deyilməsi də dediyimizə uyğun gəlir.

Bizə görə Atalıq, Dədə Qorqudluq ideyası Oğuz Xandan qaynaqlanır. Qazi Bürhanəddin Bahadırın yazdığına görə Oğuz xanın 5 min yaşı vardır.

Bəzi çağdaş araşdırmaçı yazarların Hürrəmiliyə yanaşmalarını da eyni motivlə qiymətləndirmək olar. Onlar məsələlərə ya qərəzli yanaşırlar, ya da özlərində güc tapıb dərin axtarışlara girmədən asan yol seçirlər.

Hürrəmilərin böyük başçısı Babəki müsəlman sayanlar ziddiyyətli arqumentlər uydururlar. Ruhun bir bədəndən başqa bədənə köçməsinə inanması, içində Şirvin gəzdirməsi, buna görə də yenilməz olması – Babəkin öz inamının olmasını aydın göstərir. Bununla bağlı yuxarıda yazdığımız üçün təkrar etmirik. İslamın məntiqinə görə, Babək Allah qarşısında təkəbbürlülük göstərir. Ancaq Babəkə görə qürurlu, vüqarlı yaşamaq, davranmaq – özünə inamın göstəricisidir. İçində Allah gəzdirəndən qul olmaz.

Sayğılı oxucu! Bizim bu yazımız ən çox məntiqi düşüncələrin sonucudur. Yuxarıda bilimsəl arqumentlər az olsa da, həqiqət açıq görünür. Bu yazı ona görə yazıldı, ortada bizim dəyərlərimizi aşağılayıb özgələrə özgün eləmək sürəci var. Milli açıdan isə bu gedişə direniş yox kimidir. Bu yazı, milli araşdırmaçılara bir başlanğıc verərsə, uğurumuzdur.

Bu gün dəyərlərimizə qarşı çıxanlar min il bundan öncə geriliyə sürüklənənlərə səcdə qılır, onların boyunduruğa girmələrini – babalarımızın yolu deyə gözə sürtürlər. Min il bundan sonrakılar da, belə getsə, bu günkü geridüşüncəlilərimizin boyunduruğunu dədə-baba yolu sayacaqlar.

Bu gün dəyərlərimizə qarşı çıxanlar arı türkcəmizin bərpasına qarşı da çıxırlar. Sonucda bizim soylarımız millət olmağın yolunu elə özgəlikdə, özgələşməkdə görəcəklər.

Ötən yüzilin başlanğıcında, bolşeviklərin yardımı ilə, Quzey Azərbaycanda erməni dövləti yaratmaq istəyirdilər. Bəlli nədənlərdən bu baş tutmadı. Əgər baş tutsaydı, yəqin dilimizin yarısı da, zorla erməniləşdiriləcəkdi. Bu gün dilimizin doğmaca sözlərinə acıqla yanaşıb ərəbcəni, farscanı savunanların varislə-

ri, yəqin dilimizə zorla yeridilmiş erməni sözlərini də beləcə savunacaqdılar. İşğalı sevənlərin, savunanların millləşməsi heç zaman baş tutmaz.

Biz Millətləşmə yolu keçməliyik, şüarlarda deyil, işdə, içdə. Bunun üçün özümləşməyə aparan yolu tanımalı, tapmalıyıq. Ölçü, tələb bir olmalıdır. Bu işdə Önərdiyimiz Yol – Türkün Ruhaniyyat Ocağı – Asif Atanın Mütləqə İnam dünyabaxışıdır. Bu baxış – xalqımızın minilliklər boyu axtarışlarının, özünəxas yaşantılarının sintezidir. Tarix boyu yaratdığımız dəyərləri içinə alıb gələnəklərimizi yeni aşamalarda bərpa eləyir. Asif Atanın yaratdığı Dünyabaxışı qısqanmaq – özünə yadlaşmaqdır. Özünə yadlaşmaya "dur" deməyin çağıdır.

## Ömür Yolu

Ömür hardan başlayır? – Bu soruya müxtəlif cavablar vermək olar. Ancaq gərək bu cavablar hansısa məqsədi aydınlaşdıra, hansısa tələbləri çözə bilə. Məsələyə bu açıdan yanaşanda sorunun cavabı xeyli çətinləşir. Sorumluluq belə şeydir – hər bir münasibəti çətinləşdirə bilir. Ancaq biz burada bu çətinliyə yoldaş olub sorunun cavabını deməyə çalışacağıq. Öncə onu deyək, biz insan ömrünü fiziki başlanğıcından dəyərləndirməyin yanlısı deyilik. Fiziki başlanğıcından sonra ömürdə üzə çıxan bir çox cəhətlər uzaq Qədimlikdən gələn keyfiyyətlərdir. Uzaq Qədimlik isə xəlqi mahiyyətə bağlıdır. Bu mənada hər birey əslində həm xalqdan başlayır, həm də xalqı başlayır.

Xalqdan başlayır həm cismaniliyi, həm də mənəviliyi – gələnəkləri, dəyərləri, ləyaqəti, qəhrəmanlığı, özündənkeçməni, sanbalı, döyüşkənliyi...

Xalqı başlayır özünün soy artırma olanağıyla, insansevərliyi, vətənsevərliyi, xalqsevərliyi ilə; yaradıcı, qurucu keyfiyyətlərini üzə çıxarmasıyla.

Burada “xalqı başlayır” deyimi yerinə “xalqı davam edir” də demək olar. Əslində hər bir başlanğıc özü bir davam, hər bir davam özü bir başlanğıcdır.

Hər bir birey xalqın həyatında rol oynayır, özü bunu anlasa da, anlamasa da.

Bəs bu rol necədir, müsbətdirmi, mənfidirmi? – Söz yox, yaşamın anlamını bilməyən adamın oynadığı rol müsbət ola bilməz, başqa sözlə, bütöv sayıla bilməz. Xalqın varlığına kortəbii qatılmaq dəyərə çevrilməz. Ona görə də xalqın həyatında müsbət rol oynamaq üçün onun varlığını – tarixi keçmişini, mənəviyyatını, ruhaniyyatını, vətənçiliyini, dövlətçiliyini dərk etmək, dəyər yaradan, dəyərə çevrilən şəxsiyyətlərini tanımaq gərəkdir. Bu çox ağır işdir, uzun sürəcdir. Hər adamın bacarmadığı bir işdir. Bu səbəbdən də şəxsiyyətlər az olur, hər zaman da yetişmir.

Bununla belə, düşünürük, hər bir birey böyük şəxsiyyətləşmə yolu yeriməsə də, ulusal kimliyə, ulusal anlama doğma yaşaya bilər, yaşamalıdır. Onda bireyin də, bütövlükdə xalqın da həyatında gərəkli bir nizam yarana bilər. Qədimliyimizin yüksək, qutsal dəyərləri, keyfiyyətləri çağımızın inkişafı üçün özül olar, gələcəyimizi aydınlığa çıxarar.

Asif Atanın Amalı belə istəkləri gerçəkləşdirməyi hədəfləyən ideyalardan oluşubdur. Bu ideyalar əsasında yaşayan da, bu ideyaları ömründə daşıyan da ağgünlü insandır. Bununla belə, ideyanı ömründə daşımaq ideya əsasında yaşamaqdan daha böyük fərəhçilikdir. Çünkü birincidə ömür ideyaya tən olur, oxula çevrilir. Oxul isə yüksək yaşamın örnəyini yaradır.

Bu deyilənlər İnsanlaşma, İnsanlaşdırma fəlsəfəsinin ölçüsüdür. İndi mən bu ölçüyə dayanıb Amaldaşım Nurtəkin Atalının “Heyrətimin İnciləri” kitabına bir neçə söz yazmaq istəyirəm. Kitabın adı yox yerdən seçilməyib. Məndən olsa, Nurtəkinin adına “Heyrət” adını da artırardım. Çünkü heyrət onun varlığının mayasına çevrilib. Nurtəkin gözəlliyə, ülviliyə, qutsallığa, arı düşüncələrə, ülvi münasibətlərə elə heyrətlənir, ünsiyyətdə olduğu hər kəsə yaxşılığı (fəziləti) tanıdır, sevdirə bilir. Bu,

bənzərsiz, özünəxas bir haldır. Özü də az-az adamlarda gözə dəyən haldır. Çünkü Nurtəkinin heyrəti kortəbii xassələr daşımır – idraklı, duyğulu heyrətdir. Bu heyrət İdeyaya, İdeyanın yaradıcısına vurğunluqdan işıqlanır. İdeallar dərk olunmasaydı, heyrət sönük olardı. Böyük İdeyalar qarşıya böyük tələblər qoyur. Bu tələbləri ödəmək üçünsə çətinliklər aşmaq gərək olur. Çətinlik də yalnız idraklı, duyğulu hünərin qarşısında yenilir.

Söz yox, bu çətinliklər bir anda qarşıya çıxıb bir anda da ötülməyib. Nürtəkinin hünəri çətinliklərin dolanbaclarını bir sıra aşamalarda ötüb adlayıb. Bu yazının yazıldığında 18 ildir, Nurtəkin Asif Atanın çağırışından təpərlənib Onun (Asif Atanın) çətin yolları ilə Sabaha yürüyür. Bu 18 ilin hər anı həm ağrılarla, həm də sevinclərlə yüklü olub. Ağrını doğuran, yaradan nədənlər çoxdur, sevinci isə doğuran nədən birdir – hər ağrını, acını yaşayıb yenmək, hər çətinliyi arxada qoymaq...

Bəs çətinliklər niyə var, hardan çıxır?! – Genel anlamda vurğu eləmək olar, Asif Atanın ideyaları insanı gedişə qarşı çağırır – yalanla, cəhalətlə, ikiüzlülüklə, vətənsizliklə döyüşə yönəldir. Bu döyüş insandan qüdrətli, dözümlü olmaq tələb edir. Qüdrət, dözüm isə hazır şəkildə olmur, onu yaratmaq gərəkdir. Yaradıcılıq da daldada, bucaqda deyil, meydanda gerçəkləşir. Meydana çıxmaq isə böyük bir axına qarşı çıxmaqdır. Artıq bunları biləndən sonra qarşıya gələn çətinliyi aydınlaşdırmağa gərək qalmır.

Həm də gözə alsaq, Nurtəkin insanlığın zərif varlığıdır (qadındır), özü də kənd ortamında yaşayıb böyümüşdür, onda çətinliyin bir az da aşırı olacağını düşünmək gərəkir.

Nurtəkin Atalı 1974-cü ildə Bakının Saray köyündə doğulub boya-başa çatmışdır. Bu köydə orta eyitim almış, Sumqayıt Dövlət Sənaye İnstitutuna girmişdir. İnstitutun 4-cü kursunda oxuyarkən orada öyrətmənlik edən keçmiş Ocaqçılardan birinə rast gəlir. İlk yol Asif Atanın adını da ondan eşidir. Sonradan onun araçılığıyla gedib Asif Atanı dinləmiş, Ocağa Evlad olmuşdur. Bununla da Nurtəkinin həyatında dönüş başlamış, yəni aqibətinin gələcəyini seçmişdir. Bu seçim 22 yaşlı gənc bir qız

üçün nələr vəd edir, söz yox, o çağlar özü bunu dərk etmirdi. Onun seçimi özünün idi, ata-ananın, qohum-qonşunun qatqısı yox idi. Nurtəkin atasını uşaq yaşlarında itirmişdir. Anası da mədəniyyətli, zəhmətkeş adam olmaqla yanaşı, həm də, övladlarının seçim haqqına qarışmayan anlaşıqlı bir qadın idi. Bu baxımdan Nurtəkinin Asif Ata Amalına bağlanmasına evin içindən əngəl yaranmayıb. Bununla belə, qıraqdan Nurtəkinə qarşı gözə görünən, görünməyən basqılar, qısa vaxt içində, araya-ortaya çıxır. Çünkü Nurtəkin həm eyitim aldığı yüksək oxulda, həm kənd qonşularında, qohum evlərində Asif Atadan eşitdiklərini, öyrəndiklərini deməyə, özünü ifadə eləməyə başlayır.

Hər bir yeni yola, əqidəyə başlayan insanlarda olduğu kimi, Nurtəkində də əqidə haqqında bilik, təsəvvür birdən-birə yetgin biçimə düşməmişdir. Ona görə də ünsiyyətdə olduğu insanlara anlada bildiyi, bilmədiyi məqamlar olub. Sonucda qohumlar, qonşular Nurtəkinin yanlış yolda olduğu düşüncəsi yaratmağa başlayıblar. Onun əqidəsini ayrı-ayrı təriqətlərlə, təşkilatlarla eyniləşdirməyə çalışıblar. Ancaq Nurtəkinin düşüncəsi yetişdikcə, yetkinləşdikcə ona qarşı münasibətlər dəyişməyib, tərsinə, qısqanclıq, paxıllıq kimi münasibətlər də üstünə gəlib. Heç kim yörəsində özündən üstün – idraklı, mənəviyyatlı insan görmək istəmir, özəllikcə də yaxın qohumlar, tanışlar içərisində.

Hər yandan dedi-qoduların başladığı bir çağda Nurtəkin dözülməz bir sarsıntı ilə – Asif Atanı cismən itirməklə üzləşir. Belə bir durumunda birdən-birə mənəvi dayağını itirmək, söz yox, gənc bir qız üçün əqidə yolunda getməyi olumsuz edirdi. Ancaq o, Yoldan sapmadı, Amaldaşlarına söykənib ayaqda durdu. Bundan sonra heç kim, heç nə onu Asif Atanın Yolundan döndərə bilmədi. İlk heyrət, ilk vurğunluq işini görmüşdü – o, əbədiyyət yolçusuna çevrilmişdi.

Sonralar, gələcək həyat yoldaşının (nişanlısının) anası Ocağa qarşı barışmaz davranışa başlayanda, Nurtəkin nişanı qaytarıb imtina etmişdir. O, əqidəsinə saygı ilə yanaşıb anlayan birisinə rast gəlmədiyi üçün, uzun illər ailə qura bilməmiş, evsiz-eşiksiz yaşamışdır. Gah qardaşının, bacısının evlərinə sığınmış,

gah Amaldaşı, dostu Göylü Atalı ilə birlikdə kirayələrdə qalmışdır. Ancaq daim Ocaqçılıq fərəhi ilə yaşamış, Ocaq əməllərindən geri durmamışdır. Nurtəkin rahatsızlıqdan, ortamsızlıqdan çox əziyyətlər çəkmiş, bu çətinliklər üzündən xəstəliyə də uğramışdır. Sağlamlığını bərpa edənə qədər maddi çətinliklər də yaşamışdır. Bu çətinlikləri yenərək sağlamlığını bərpa edəndən sonra isə ayrı-ayrı yerlərdə işləmiş, qazandığı paraları Ocaq ədəbiyyatlarının, arxivinin yaranmasına, Azərbaycanı qarış-qarış gəzərək, Asif Ata Amalını haraylamağa xərcləmişdir. O, Ocaq yolunda özündənkeçmənin (fədakarlığın), umacaqsızlığın zirvəsini tutmuşdur (fəth etmişdir).

Nurtəkinin gücünə zərbə vuran olaylardan biri də anasını vaxtsız itirməsi oldu. Amaldan qıraqda güvəndiyi bir adam vardı, o da anası idi. Anasının ölümü böyük kədər idi, ancaq o bu kədəri çox ləyaqətlə yaşadı. Genel olaraq, kədər Nurtəkində çox gözəl görünür, çünkü onun kədərinə heç bir saxta əhval, oyun qarışmır. Anlayır kədəri, ona görə də onu adiləşdirmir. Onun bu halını ayrıca örnək saymaq olar...

Budur, o, yenə də ruhsal iş başındadır. Hər bir Ocaq əməlini ərdəmliklə yerinə yetirir, Ocaqçılıq ömrünü fərəhlə sürdürür.

Burada, biz əsasən Nurtəkinin ömründən danışdıq. Çünkü bu kitabı da, elə onun ömründən danışır.

Nurtəkin Ocağın Uluyol-Hünər Ailəsinin Yükümlüsüdür. Onun "Ailə Günü" tədbirlərində, Ocaq törənlərində uğurlu çıxışları olur. Bu çıxışlar – Asif Ata Amalını öyrəndiyi, dərk elədiyi, yaşadığı halların ifadəsi kimi araya gətirdiyi düşüncələrindən, yazılarından oluşub. Düşünürük, sevdalı ürəklər, ruhsal diləklər bu yazılarda Asif Atanın əməyini, ruhsal oxulunun etkisini duyub bəhrələnəcəklər. Ona görə də bu yazıları sıralayıb oxuculara – soydaşlarımıza sunuruq. Yuxarıda vurğuladığımız kimi, bu yazılar bir millətin əqidə yolçusunun (fədaisinin) heyrətinin inciləridir.

Amaldaşımız Nurtəkin Atalı, öz heyrətini yazıları ilə ifadə edən çağlarda, bunları nə vaxtsa kitab şəklinə salmağı heç ağlına da gətirməmişdi. Başqa sözlə, o, kitab üçün yazmırdı, hey-

rətli anlarının hesabatını verirdi. Ancaq yaşadıqlarını, düşündüklərini soydaşlarınla paylaşmağın uğurlu bir üsulu da kitabçılıqdır. Kitab böyük sözdür, qutsaldır. Çünkü orada insani, milli ləyaqəti var edən ömür yolu yazılır.

Amaldaşımıza ömür yolunda dönməzlik, ölməzlik diləyirik.

## Tükənməyən Ümidin Harayı

Deyirlər "ümid sonda ölür". Əslində ölmür. Əgər ümid ölə bilirsə, deməli, o, ümid deyilmiş. Ümidi ölənin ruhu olmur, ruhu olanın isə ümidi ölmür. Ya da belə də demək olar: – ümid bir bireyə, bir məqama bağlananda qırıla, ölə bilsə də, Dünyanın Varlığına bağlanan ümid heç vaxt ölməz. Dünya özünə, öz ölməzliyi qədər, ümid yaradır. Dünyanı dərk eləyənin ümidi yüksək ümiddir, başqa sözlə, ölməzdir. Dünyaya, onun Mənasına ümid bağlamaq – fərəhli ömür yiyəsi olmaqdır. Fərəh – idrakiliyin, mənəviliyin ifadəsidir... Bu, böyük düşüncənin yönüdür – İnsan fəlsəfəsinin ölçüsüdür. Bəşər tarixində belə ömür faktları çox azdır, bu azlar İnsanlığın bənzərsiz örnəyidir.

Söz yox, şəxsiyyətləri çeşidləmək, sortlara bölmək yolverilməzdir. Ancaq hər bir şəxsiyyətin dəyəri, yaradıcılığının yönü daşıdığı əqidənin hədəfləri ilə bəlli olur. Bir də onların ömürləri "dəyəri yaradan, dəyəri qoruyan" olmaqla qiymətləndirilir. Məsələn, İsa insan sevgisinə yönəlik bir dünyabaxış yaratdı, özü yaratdığı dəyərə tən oldu. Deyək, Pavel də bu dəyəri yaşatmaqla, yaymaqla dəyər ölçüsünü ifadə eləmiş oldu. Söz yox, bu bağlılıqda "İsa daha yaxşıdır, Pavel az yaxşıdır" məntiqi yaranmaz. Onların çəkisini də belə doğru olmayan məntiqlə qiymətləndirmək olmaz. Hər kəsin şəxsiyyəti düşüncəmizə, sevgimizə "yaradıb", ya da "qulluq edib" anlamlarının ölçüsü (miqyası) ilə girir. Deməli, şəxsiyyət yaşadığı ömrə, daşıdığı görəvə görə, belə demək mümkünsə, yerini bəlirləyir.

Burada bu misalı ona görə çəkib aydınlaşdırdıq, haqqında danışacağımız Günev Atalının şəxsiyyətinə düşən qiyməti də anlada bilək.

Daşıdıqları dünyagörüş, ölçü fərqli olsa da, əməyin, özündənkeçmənin yönü baxımından, Asif Ata ilə Günev Atalı münasibətini İsa-Pavel münasibətiylə tutuşdurmaq olar. Günev Atalı Yola, Yolun Yaradıcısına inamlı, heyrətlidir. Onun özündən keçməyi, zəhməti, ümidi inamından, heyrətindən əmələ gəlir. Pavel kimi Yolun yaradıcısını tanıtmaq, anlatmaq onun sevgisinə hakim olan bir görəvdir. Günev bu görəvin özünə vurulub. Vurğun baxışlar, vurğun yerişlər, vurğun çağırışlar onun şəxsiyyətinə aydınlıq gətirir, sanbal qazandırır. O, kitab adamı deyil, ruh adamıdır. Heyrətli çağırışları da tarixi gələnəklərdən deyil, ruhunun dərinliyindən gəlir. Atanın dediklərinə o qədər inanır, insanlarla ünsiyyətdə inandığını haraylayarkən heç vaxt qızarqalanmır (tərəddüd duyğusu keçirmir). Akademik düşüncələr, elmi biliklər, kitablardan gələn məntiqlər, üzləşəndə, Günevi çaşdırmır, ürəyinin ehtiraslı çağırışını kölgələyə bilmir. Çünkü Ruh Dünyasının məntiqini tanıyır, dəyərini anlayır. Bilir, dünya insanda əyilib, gediş ruhaniyyatsızlıqdan pozulub. Günevin də Asif Atadan gələn çağırışları pozuntuların nədənini anladan, bəşər övladını qurtuluşa səsləyən çağırışlardır.

Asif Atanın yaratdığı Ocaq əslində hər bir Ocaqçı üçün ruhsal bioqrafiyadır. Ona görə biz də Günev Atalını Ocaqçılıq bioqrafiyası ilə tanıdırıq. Ancaq onun Ocaqçılıq aqibəti də birdən-birə yaranmamış, çətin aşamalarda əzabdan-əzaba çırpılmış, dərya kimi çalxalanmış, durulub bəlli şəklə düşmüşdür. Bu Yolda onun qalxıb-enmələri, büdrəmələri, sarsıntıları çox olmuşdur. Bütün bunları bilmədən onun Ocaqçılıq aqibəti də dərk olunmaz.

İnsan niyə fərəhlənir, fərəhçilik boşuna deyilən sözdürmü? Asif Ata Ocağında "Fərəh" sözü çox işlənir. Bu sözü işlədən adam Ocağın gələnəksəl sözü kimi də işlədə bilər, yaşamının ölçüsü kimi də. Biz deyəndə "Fərəh" sözü Günevin yaşam ölçüsüdür, bunu onun Ocaqçılıq bioqrafiyasından görmək olur. Ona görə amaldaşımız Günev Atalının, ruhsal ömür yolunda, üzləşdiyi çətinliklərdən də bir neçə söz danışmaq gərəkir.

Günev Atalı (Əliyev Əlabbas Məcid oğlu) 1955-ci ildə qədim Beyləqanın Örənqala köyündə doğulub böyümüşdür. Orta oxulu bu köydə bitirib, təsərrüfatçılıqla, eləcə də ayrı-ayrı bireysəl tikintilərdə ustalıqla uğraşmışdır. O, oxuduğu ayrı-ayrı bədii, tarixi ədəbiyyatlardan da xarakter almış, millətə, vətənə, dövlətə münasibətində çağdaşlarından fərqlənmişdir. Bununla belə, onun vətənə, millətə, dövlətə münasibəti sevgi səviyyəsində olmuş, idraki yetginlik, bitginlik səviyyəsinə yüksəlməmişdir.

1988-ci ildə Qarabağın "Topxana"sından başlayan bəlli olaylar, bir çoxlarının həyatına birbaşa aktiv etki göstərdiyi kimi, Əlabbasın da şüurunda dəyişikliklərə yol açmışdır. Ancaq hələ sovet yönətim qurallarının qaldığı bir çağda bağımsız ağıl işlətmək, hansısa addımlar atmaq olduqca çətin idi. Əlabbas, həmin illərdə gizli şəkildə yayıcılıq edən (təbliğat aparan), Asif Ata davamçılarına rast gəlir. Belə bir ünsiyyətdə onu düşündürən bütün sorulara cavab tapacağına ümid bəsləyir. Ancaq onu yetərləndirən, yetərləndirməyən cavablar alır. Az vaxtdan sonra bağlantı qurduğu əski Ocaqçılar onu Asif Atanın özü ilə tanış edirlər. Asif Atanı dinləmək onu heyrətə salır, ağlının, ürəyinin gözü açılır. O bu şəxsiyyətin ideyasına, Yoluna inanaraq, Ocağın Evladlığını qəbul edir. Ocaq İlsırasının 11-ci ilində (1990-cı il) Asif Atadan Günev adını alır... Bundan sonra o, doğruçu döyüş yoluna düşür. Bir il sonra keçmiş amaldaşlarından birinin aktiv qatqısı ilə öz köyündə Ocaq Atasının görüşünü təşkil edir. Bu görüş bütün bölgəyə səs salır, baxışları Ocağa yönəldir. Bununla da həmin bölgədə "Qədimyurd" adı ilə Ocaq Ailəsinin yaranmasına yol açılır.

Hər bir Ocaq Ailəsində bir Ocaqçı təmsilçilik edir – çağdaş sözümüzlə desək, Ailənin Yükümlüsü olur. Bu görəv, Ocaq Ailəsində Atanı, Atanın qarşısında isə Ailəni təmsil eləmək anlamı daşıyır. "Qədimyurd" Ailəsinin Yükümlüsünü o çağlarda Atanın özü iki yol dəyişmiş, üçüncüdə bu yükün sorumluluğunu Günevə tapşırmışdır. Bunlar ona görə baş vermişdir, Ailədə yönətiçilik inzibati xarakter almışdır. Halbuki İnsanlaşma Oca-

ğında Amaldaşlar arasındakı münasibət yalnız ruhaniyyata əsaslanmalıdır.

Günev bu Ailənin yaşaması, genişlənməsi üçün ciddi çabalar göstərmiş, heç vaxt özünü aldatmamışdır. Çünkü ruhaniyyatçılıq onun fitri keyfiyyətlərində mövcud olmuşdur. Ancaq Ailəçilərin həyat tələblərini ötə bilməməsi ilə, eləcə də, bir-birinə, başqalarına sıradan, toplumçuluq (cəmiyyətçilik) halından gələn, münasibət sərgiləməsi ilə bu Ailənin ömrü qırılmış, çalışması dayanmışdır.

Günev Atalının özü də, sağlamlığında sorun olduğuna görə, bir il Ocaqdan qıraqda qalmışdır. Sağlamlığını bərpa elədikdən sonra isə Asif Atanın qarşısına gələrək, onu, yenidən Ocağa qaytarmasını diləmişdir. Ata bu diləyə yox deməmişdir. Çünkü Günev kimi anadangəlmə bir ruhaniyyatçını – "Ata vurğunu"nu itirməyi doğru saymamışdır.

Günev Atalı Ocağın yaşaması, yayılması üçün özündənkeçmə səviyyəsində çaba göstərən tək-tək Ocaqçılardandır. Ocaqçılığının ilk çağlarında balalarını dolandırmaq üçün ustalıq edib qazandığı paralardan həmişə Ocaq üçün də ayırmış, onun yaşayıb genişlənməsinə qulluq göstərmişdir.

Ocaq İlsırasının 12-ci ilində, öz köyündə, 40-50 sot torpaq sahəsi alaraq, "Amal Bağı" salmışdır. Asif Ata ölümündən illər öncə, ölüsünün bu "Bağ"da gömülməsini sonərkləmişdir (vəsiyyət etmişdir). Günev Atalı da hər cür çətinliyə, əngəllərə sinə gərib, Atanın ölüsünün Amal Bağında gömülməsini həyata keçirmişdir. Həmin olayda bənzərsiz qeyrət göstərdi Günev – Amaldaşlarına, bütövlükdə ulusuna örnək olacaq bir qeyrət.

Doğrudur, o çağlarda da, sağlamlığında baş qaldıran sorunla bağlı, Günev bir neçə il yenə Ocaqdan uzaq düşdü. Vurğu eləmək yerinə düşər, onun Ocaqdan uzaq düşməsində bu yazının yazarının da suçu vardır. Ocaqla bağlı aşırı ərklər onu çox yüklədi, (Günevin) bu ərkləri özünün bireysəl qayğıları ilə birləşdirmək gücü yetərsiz idi. Bununla belə, Ocaq Günevi yenidən qazandı.

Günev Amal Bağında, bir çağlar yaşamaq üçün sığındığı, bir tikilinin üzərində işləyib oranı "İnam Evi"nə çevirdi. Yaxın, uzaq ellərdən insanlar çağırdı. Oradan başlayan səfərlər elədi, Asif Atanın İnamının harayını çəkdi, çoxsaylı Ocaq ədəbiyyatları yaydı. Ocaqdan, Amaldaşlarından ilhamlanaraq, Amal Bağında, Ata ideyalarından qaynaqlanan arxitektura ilə İlk İnam (Məbədinin) Evinin tikintisinə başladı. Üzərinə haylananların etkisinə, həşirinə dözdü, addımı geri qoymadı. Bu yazının yazıldığı tarixdə İnam Evinin ("Məbəd"in) divarları artıq başa çatmaqdadır.

Yeni İnamın yayılması çox çətindir. Ocaq hər addımda bu çətinliyə dirənir, ancaq dayanmır, aşıb adlayır. Günev də bu çətinliklərlə daim öz bölgəsində üzləşir. Bir yandan dövlət orqanlarının yersiz qarışmaları, bir yandan İran şüurlu adamların, başqa yandan qohumlarının bezikdirici davranışları Günevi sındıra bilmədi. Çətinliklər onu daha da müdrikləşdirdi. Çünkü insan, millət sevgisi onun həyatının ana xəttidir.

Günevin hünərlərindən biri də öz bölgəsində "Atagün" Ocaq Ailəsini başlamaq oldu. İllər sonra orada ruhsal Ailəçiliyin bərpasını Ata işini bilməyin, dərk eləməyin gerçəkləşməsi saymaq doğrudur.

Günev Ocağı öz ömrünə çevirib, öz ömrünü Ocağa çevirib də demək olar...

Adını çəkdiyim, çəkmədiyim məsələlər sıradan olaylar deyil. Ulusal kimliyi təsdiq edən şəxsiyyət ömrüdür. Elə bir ömür, şəxsiyyətin özündən sonra da söz deyəcək, iş görəcəkdir.

Burada biz, əsasən, Günev Atalının ömründən, ruhsal çalışmalarından söz açdıq. Ancaq yazımızı onun "İnamlı İllərimin Harayı" kitabına ön söz kimi çatdırırıq. Çünkü bütün bu deyilənlər ömür yoludur, ömür kitabıdır – Asif Atanın peyğəmbərliyini, ideyalarını haraylayan ömür-ümid kitabı. Bu kitabda Günevin öz ulusuna, bütövlükdə bəşər övladına ümidi işıqlanır, yaşayır. Biz də soyumuza yaşanan, çağıran bir Ümidi çatdırırıq.

Xristianlıq üçün başlanğıcda Həvarilərin məktubları, çağırışları nədirsə, İnam üçün Günevin çağırış xislətli kitabı da odur. Amaldaşımızın ömür kitabı qutlu olsun, ruhu uca, Ulusu var olsun!

## İlkinlik istəyi ilə yaşayan ürək

"Kimin öncəsi, kimin sonrası" deyib ulular. Bu o deməkdir, kiminsə ömrünün öncəsi uğurlu olur, kiminsə ömrünün sonrası. Doğal olaraq düşünmək olar, bu düşüncə fiziki-cismani yaşama bağlı deyilməyib, mənəvi-ruhani yaşama özgün (aid) deyilib. Çoxluq baxımından insanların ömrünün sonrası ömrün öncəsindən qırağa çıxır, dəyişir, fərqlənir. Dəyişməyən ömür cismani yaşamdan başqa ölçüsü olmayanlarda ola bilər. Yəni axtarışlar əsasında ömür dəyişməli, gəlişməli (inkişaf etməli), yetginləşməlidir. Heç kim anadan kamil doğulmur, ya da heç kimin ömrünün öncəsi, sonrası, dinin dediyi kimi, bəlli qəlib içinə salınmr. Hər kəs yaşamını özü qurur – əyri, ya doğru.

Bu məsələlərə aydınlıq gətirmək üçün amaldaşım Ulusəs Atalının yaşamını, seçimini örnək demək istəyirəm. Həyatın çoxsaylı tələbləri ilə 58 il yaşadıqdan sonra Ulusəs, Asif Ata ideyalarına bağlanmış, bundan sonrakı ömrünü ruhsal döyüş (mübarizə) tələblərinə kökləmişdir. Bizə görə belə bir aqibətə rast gəlmək ağgünlükdür. Ömrün sonrasına uğur gətirməkdir. Əslində Ulusəsin öncəki ömrünə də uğursuzdur demək olmaz. Çünkü o, öncələr də bəsit yaşam sürməyib, doğru bildiyi istəklərini gerçəkləşdirmək üçün çabalar göstərib. Məsələn, Ulusəs Atalı Azərbaycan Dövlət Tibb Universitetini bitirib həkim kimi işə başladıqdan sonra işin sorumluluğuna vicdanla cavab verib. Umacaqsız, özündənkeçmə səviyyəsində çalışmalar yerinə yetirib. Daha sonralar humanitar işlərlə uğraşıb. Burada da özünü başqalarının ağgünlülüyü üçün verməsi onun ərdəmliyinin göstəricisidir.

Umacaqsızlıq, özündənkeçmə onun fitri keyfiyyətidir. İlk yol Asif Ata Ocağı ilə tanış olduqdan sonra, Ulusəs, Asif Ata-

nın "Uluyurd Hərəkatı" ideyasını gerçəkləşdirmək işinə girişdi. Keçmiş yaraqdaşı, dostu ilə birlikdə bu ideyanın genişlənməsi üçün hər cür olanaqlarını ortaya qoydu. O, kirayə verdiyi evindən gələn gəlirlə Hərəkatın işlərini yoluna qoyur, simgələrini (bayraq, herb, himn…) hazırlayır, çap işlərini görürdü. Bu gəliri ilə o, Asif Atanın "Uluyurd Aqibəti – Bütöv Azərbaycan" kitabını da çap etdirib yaymağa başladı…

Ancaq bu ideyanın gerçəkləşməsi təkcə özündənkeçmə ilə başa gəlmir, gərək Asif Atanın ideya-prinsiplərinə, ölçüsünə, döyüş tələblərinə yetkin səviyyədə bələd olasan. Bunun üçün aylarla, illərlə gərgin zəhmətə qatlaşmaq gərəkdir.

Uluyurd Hərəkatının işi yubandıqdan sonra Hərəkatın Yetkini (yetkilisi) Nəzakət Ulusəs Ocağa Evlad olub, Ulusəs Atalı aqibətini seçdi. O, Ocaqda da fitri umacaqsızlığı, özündənkeçməsi ilə ruhsal doğmalarının sayğısına layiq yaşayır.

Atanın dönəmindən Ulusəsin bu Yola qoşulduğu çağa kimi, Ocaq özünün qutsal toplantılarını bireysəl evlərdə keçirirdi. Ulusəs Ocağa gəldikdən sonra evinin bir kəsimini "İnam Evi"nə çevirdi. Ocağın bütün toplantıları, Ocaqla ilgilənən çoxsaylı gənclərlə, aydınlarla görüşlər burada – "İnam Evi"ndə keçirilməyə başladı. Bu yazının yazıldığı ilsırada (tarixdə) 6 il olur, Ocaq Ulusəsin ayırdığı evin olanaqlarından yararlana bilir. Bu əməl Ocaq ilsırasında ayrıca olaydır, səhifədir.

Ulusəs Ocağa gəldikdən sonra ayrı-ayrı vaxtlarda yaradıcılıq örnəkləri də araya gətirdi. Onun yazarlıq olanaqları işə düşdü. Sonucda Azərbaycanın, bir az geniş anlamda türkün dəyərlərinə yönəlik, Ocaq ölçüsü ilə, araşdırıcı, dəyərləndirici yazılar ortaya qoydu. Məsələn, onun "Babək – Özgürlük peyğəmbəridir", "Dönə-dönə Atatürk", "İnam Evi – İnsanlığın ünvanıdır" b.k. yazıları dəyərləndirilməli baxışlardır. Bu yazılarda ulus sevgisi, yurd sevgisi, insan sevgisi içdə yaranan halı göstərir.

Ulusəs Atalının Ocaqiçrə ilginc izləmələri, görümləri də var. O, Ocaq Evladlarının işlərini, ömürlərini izləyir, yazılı şəkildə öz baxışlarını sərgiləyir. Təkcə sərgiləmir, həm də fərəhlənir, umud bəsləyir. Son çağlarda Ulusəs özü bir sıra gərgin həyat

qayğıları yaşadı. Ancaq o bu qayğılara yenilmədi, yıxılmadı, həmin fərəh, həmin umud, Ocağa inam onu qorudu. “Sabahlı İnamım” kitabı da yazarın fərəhini, umudunu, inamını izhar edir.

Ulusəsi tanıtmaq önəmli bir məsələyə də aydınlıq gətirir. Gələnəksəl olaraq, insan hansısa bir ideyaya, yola gənc yaşlarından bağlanır. Çünkü gənclik duyğuları arı, sağlam, işgüzar, axtarıcı olur. İnsan öz duyğularını gənclikdə başqa yönə kökləyirsə, yaşlaşanda bu duyğuların yönünü dəyişmək çox çətin olur. Yuxarıda vurğuladımız kimi, Ulusəsin duyğuları körpə qalmayıb, onun toplumsal yaşamda çeşidli çalışmaları olub. Bununla belə, yaşının ahıl çağında, Atanın ruhsal döyüşünə qoşulmaqla, bəlli uğurlar yetirmək, sözün doğru anlamında, örnəkdir. Bu, həm Ata oxulunun etkisidir, həm insanın özündə daşıdığı insanlığın gücüdür. Asif Atanın dünyabaxışı da elə bu hikməti – İnsanlığın gücünü öyrədir.

Amaldaşımız Ulusəs, “Sabahlı İnamım” kitabı ilə, Asif Atanın bu hikmətini tanıdanlardan biridir, birincilərdəndir. Qutlu olsun.

## Ruhaniyyat İnsanlığın gerçəkləşməsidir
(Fəlsəfi-ruhsal araşdırma)

Bu yazı İnsanlıq axtarışlarının doğru, əyri yönlərini araşdırmaq üçün bir çabadır. Biz hər bir kitaba, olaya yanaşmada Asif Atanın yaratdığı Mütləqilik ölçüsü ilə baxmağa çalışırıq.

Xalqların öz içində Tanrısal sistemə yanaşmalarından doğan dünyagörüş məsələləri İnsanlığın keçdiyi keşməkeşli yolları tanımaqda yardımçı ola bilib, ancaq bütövlükdə İnsanlığı anlamağa yardımçı ola bilməyib. Çünkü heç bir dünyagörüş İnsanlığı hədəf olaraq götürməyib. Bu nə ilə bağlıdır?! Bəlkə dağınıq toplumların birgə yaşayışını nizama salmaq üçün ayrı yollar qaçılmaz olub?! Bəzən araşdırmaçılar deyirlər: keçmişin ni-

zamsızlığını qiymətləndirərkən, ona bugünün məntiqi ilə, ölçüsü ilə yanaşmaq doğru deyil. Çünkü o dövr başqa idi, bu dövr başqa.

Biz bu deyilişi gözardı eləmirik. Bununla belə, bu deyilişi ölçü kimi də götürmürük. Bəşəriyyətin mədəni, mənəvi gəlişməsində aşamalar qarşısıalınmazdır. Bu gedişi, doğal olaraq, anlamaq olar. Yaşamın nizamı sıçrayışla başa gəlməz. Dirçəliş (ərəbcə təkamül) aşamalarla özünü göstərir. Olsun! Əgər belədirsə, onda dünyagörüşlərin nisbi ideyalarını ələşdirmək (tənqid etmək) yanlışmı sayılmalıdır?! Bəs ələşdirmə olmadan Gəlişmə (inkişaf) necə baş verə bilər?! Durumu necə dəyərləndirmək gərəkdir?! – Keçmişə bugünün gözüylə baxmamağı önərənlərə deyirik, keçmişin yanlışları, əksklikləri keçmişin özü üçün ələşdirilmir. Çünkü keçmişi dəyişmək artıq mümkünsüzdür. Deməli, ələşdirmə gələcək üçündür. Başqa sözlə, gələcək soylar keçmişi olduğu kimi təkrarlamalı deyillər, dərs götürməli, yenilənməlidirlər. Yəni keçmişi ələşdirmə gələcək üçün yol açmaqdır. Keçmişi, yanlışları ilə, bu günə, gələcəyə daşımaq yolverilməzdir. Ələşdirmə də bunun üçündür.

Bu deyilənlər toplumsal, siyasal gedişlərin, davranışların yanlışlarını ələşdirmək baxımından doğru. Bəs ruhaniyyat üçün necə? Axı ruhaniyyat – İnsanlığın gerçəkləşməsidir. Burada ələşdirmə üçün yanlışlar çox olacaqsa, bəs adı niyə ruhaniyyatdır?! Axı ruhaniyyat siyasal davranışlar doğurmamalıdır. Doğura bilərsə, bəs ruhaniyyatla siyasətin ayrılıqları nədir?! – Bu sorğulara aydınlıq gətirmək üçün Göyel dinlərin ruhaniyyat adına ortaya gətirdikləri dünyagörüşlərə baxmaq gərəkir. Çünkü dərinə gedəndə bəlli olur, bu dünyagörüşlər ruhaniyyat elan edib, daha çox siyasətlə uğraşıblar. Burada biz ən çox Göyel dinlərin ilkini olan İudaizmin qutsal kitabındakı faktlara üz tutub tutuşdurmalar aparacağıq. Bu faktların İnsanlığa nə dərəcədə işıq tutması, ya da tərs olması ilə bağlı düşüncələrimizi bildirəcəyik. Üç din – İudaizm (buna Musəvilik də deyilir), Xristianlıq, İslam Göyel dinlər sayılır. Hər üçü semit düşüncəsinin ortaya qoyduğu baxışdır. Bunlardan ikisi – İudaizmlə Xristian-

lıq, yəhudi dünyagörüşü olmaqla, bir kitabda – Bibliyada sistemləşibdir. İki parçadan oluşub: Əhdi-Ətiq, Əhdi-Cədid. Birinci parçaya, Tövratla Zəbur da özgün olmaqla, yəhudilərin ruhaniyyat sistemi adını vermək olar. İkinci parçaya isə, Xristianlığın qutsal kitabı sayılan İncil özgündür. Göyel dinlərdən üçüncüsü İslam-ərəb dünyagörüşü kimi gerçəkləşmişdir. Qutsal kitabı Quran olan bu dünyagörüş Xristianlıq kimi geniş coğrafiyada yayılmışdır.

Biz bu yazıda əsasən ilk Göyel din olan İudaizmin, daha doğrusu, onun qutsal kitabı Əhdi-Ətiqin üzərində dayanacağıq. Yuxarıda vurğulanan sorğuları da, bu kitabın məntiqlərinə aydınlıq gətirməklə, cavablandırmağa çalışacağıq.

Öncə İudaizmin yarandığı tarixi ortamı gözdən keçirək. Bu kitabın danışdığı dövr, əsasən Misirdə Fironluq dönəmindən üzü bu yana, özünün dünyagörüş kimi yarandığı çağa qədər olan tarixi qapsayır. Özü də vurğu edirik, tarixi. Ondan öncəki çağlarla bağlı kitabda deyilənlər mifik tarixdir. Bu tarix, Tanrıçılıq inancında, yaranışla bağlı deyilənlərdən mənimsənilibdir. Bir az da İsraillilərin soy şəcərələrinin formalaşa bilməməsinin, yerdəyişmələr eləməsinin tarixi göstərilibdir. Bu elə bir tarixdir, gerçək elmi tarixlə ziddiyyət əmələ gətirir. Burada bəşəriyyətin icma dövrü bilinmir. İsraildə tayfalar əmələ gəlir, sonra bölünür, sonra xalq əmələ gəlir. Quldarlıq münasibətləri ortaya çıxır.

Gözə alsaq, bu bir din kitabıdır, ondan ciddi elmi-tarixi araşdırmalar ummaya bilərik. Ancaq tarixi ortamı elə mifləşdirir, kitabın ruhaniyyat adına iddia eləməsi də sorğu altına düşür. Çünkü ruhaniyyat – insan varlığının, münasibətlərinin, konkret xalqda, bəşər səviyyəsinə qalxması kimi dərk oluna bilər. Biz isə, kitabı oxuduqca, bu dediyimiz səviyyəni izləyib aydınlığa yetə bilmirik. Tayfalar necə yarandı, Bütlər necə yarandı, bilinmir. Adəmdən Nuha qədər olan aralıqda əsasən şəcərə sadalanır. Sonra Nuhda bir olan Allah ideyası ortaya çıxır. Sonra Allahın insanlarla çəkişməsi, qovğası, davası izlənilir.

Bu kitabda görünən odur, Göy Tanrıçılıqdan Tanrı ideyası ayrı-ayrı düzəlişlərlə (korrektələrlə) mənimsənilib, sonra adamabənzər bir qüvvə milli Allah baxışı kimi formalaşdırılıb. Bunu anlamaq olar. Quldarlıq Quruluşu deyilən bir çağda, heyvan sürüsü kimi doğulub, aradan getməyin qarşısını almaq üçün bu cür axtarışların çox böyük önəmi olmuşdur. Aclıq, quraqlıq tayfalar şəklində yaşayan insanları elədən-elə, belədən-belə səpələyirdi. Elm gəlişməmiş, doğanın olanaqları (təbiətin imkanları) doğru, düzgün qullanılmırdı. Aclığa uğrayan tayfalar, istər-istəməz, verimli torpaqlarda oturuşmuş, güclü yönətimə yiyələnmiş toplumlara boyun əyirdilər (tabeliyinə girirdilər). Ancaq koşullar olduqca ağır idi – vergilər çox, ödəmək olanaqsız. Üstəlik, adam yerinə qoyulmayan bu tayfalar üzünü, kimliyini itirirdilər. İsrail oğulları belə bir aqibətlə üzləşmişdilər. Başıpozuqluq, barbar düşüncə onları Misir fironlarının əlaltısına çevirmiş, qul ömrü yaşamağa sürülmüşdülər. Bu elə çağ idi, hər şeyə doğal baxılırdı. Hər kəsin aqibətinin tanrıların hökmü ilə qurulduğu düşünülürdü. Amansız yaşamın pəncəsində sıxılmağın nədənini insanların mənəvi geriliyində, ədalətsizliyin, vicdansızlığın insan əməllərinə bağlı olmasında axtarmırdılar. Gerçəklik bütün aydınlığı ilə ortalıqda olduğu halda, hər bir yanaşmaya mifik don geydirilir, yaşam fantaziyalarla bəzədilirdi. Belə bir küt, axmaq gedişin içində başqa bir şüurun – üstün şüurun gəlişməsi olanaqsız idi. Bu üzdən belə bir ortamda Musanın ortaya çıxıb öz qövmünü toparlamasını hünər faktı adlandırmaq olar. Ancaq qutsal fakt saymaq olmaz. Nədən olmaz? – Bununla bağlı kitabın sərgilədiyi bilgilərə dayanıb aydınlıqlar gətirməyə çalışacağıq. İndi isə başqa bir məsələyə aydınlıq gətirmək gərəkir. Biz nədən bu kitaba üz tutduq, bu dünyabaxışı araşdırmaq istəyinə düşdük? – Bu gün türk ulusumuz içindən yıxılmış durumdadır. Ancaq düşünürük, yıxıldığı nöqtəni bəlli edib dəyərləndirə bilmir. Başqa sözlə, düşdüyü fəlakətlərdən dərs götürə bilmir – necə toparlansın, necə qorunsun?! Bizə görə, çözülməsi baxımından, bu düşüncənin kökündə ruhaniyyat məsələsi dayanır. Ancaq toplumumuzun üzdə olan kəsimi elə

düşünür, qurtuluş yolu – bilimsəl biliklərə yiyələnib iqtisadi gəlişmələri təmin etməkdədir. Biz bilimin gəlişməsinə tərs düşüncədə deyilik. Bu gəlişmə qarşısıalınmazdır. Ancaq insanlığın qurtuluşu bilimin gəlişməsində deyil. Bilimsəl gəlişmə insanların təcrübi-gerçəkçi biliklərini genişləndirir, ancaq onu mənəvi nizam oluşduran ideyalara yönləndirmir. Başqa sözlə, fiziksəl yaşamın, dolanışığın yollarını deyir, var olmağın – mənəvi yaşamağın qeydinə qalmır. Bu gün biz bunun görsənişlərini öz toplumumuzda izləyirik. Çoxluğun başı fiziksəl yaşamağa qarışıb. Mənəvi sorunlardan rahatsız olanlar da var. Onlara da ideyanı deyəndə ağıllarına çatır, ancaq içlərində oturmur. Ona görə ideya ağıldan tez ayrılır. Yəni ideya yaşanılmır, eşidilir, sonra unudulur. Əslində bilimsəl söyləmlər də, daha çox, yaşamdan qıraqda danışılır. Yaşanılsa belə, toplumu millət olmaq səviyyəsinə qaldırmır. Beləcə, toplumun öncül insanları bir şey danışıb başqa şey yaşayır. Ya da pis şey danışıb pis də yaşayır. Bütün bunları ona görə deyirik, yuxarıda vurğuladıq, bizim toplumumuzun toparlanıb millət kimi davam eləməsi üçün ruhaniyyat gərəkdir. Çünkü yaşam ruhaniyyatsız nizam tapmaz.

Bəs yəhudilərin dünyabaxış prinsiplərindən danışarkən bunları nədən xatırladırıq?! – Musa öz qövmünü Misir əsarətindən qurtarmaq üçün yaşam quralları düşünüb özünəxas ruhaniyyat sistemi yaratdı. Bununla öz qövmünü illərlə səhralarda dolandırıb zəhmətə alışdırdı. Bütsevərliyi aradan qaldırıb, onları tək Allaha (Ölçüyə) boyun əydirdi. Tək Allaha bağlanmaqla hamının yönü bir oldu, birlik yarandı. Bəşərilik baxımdan bu dünyabaxış düzmü idi, əyrimi, bu, məsələnin ayrı bir cəhətidir. Buna sonrakı bölümlərdə aydınlıq gətirməyə çalışacağıq. Əsas odur, bu dünyabaxış yəhudilərin öz içində yarandı, öz şüurundan formalaşdı. Bununla da, yəhudilərin tarix səhnəsindən çıxmasının qarşısı alındı.

***xxx***

Türk ruhaniyyat xalqıdır, bütün keyfiyyətləri: birüzlülüyü, halallığı, döyüşkənliyi, mərdliyi, qorxmazlığı, insansevərliyi,

doğasevərliyi onu ruhaniyyatsız qoya bilməzdi. O, Tanrıçılıq inamı yaratmışdı. Sadalanan keyfiyyətlərin Tanrıdan gəldiyini düşünürdü. Özü də Tanrısına bənzəyirdi. Türk üçün Tanrı Doğada idi. Ona görə Doğa arı-duru idi. Tanrı-insan birliyi yaranırdı türk düşüncəsində. Türkə görə insan Tanrıdan başlayır, Tanrıdan yaranır. Biz bunu qədim mifoloji baxışlardan aydın görürürk: ***"Anla Kinin sevgisindən Enlil tanrı doğuldu. Enlilin dalınca ilk ər-arvaddan yeni-yeni övladlar törədi. Yeddi böyük tanrı ilə ilahənin ən ağıllısı, qüdrətlisi bütün kainatı yönətməyə, insanlığın taleyini bəlirləməyə başladı. Tanrı, ilahə böyüdü, evləndi, onların övladları törədi. Onlar üçün ən ucası, ən yaxın dərk ediləni Göylər atası An, Torpaq anası Ki oldu. Onlar genişləndilər, böyük qardaşları Enlildən kömək dilədilər, hər gün yox, hər saat böyüsünlər, hamısı ən güclü, yenilməz olsunlar. Bununla Enlil böyük iş gördü. Mis bıçaqla o, Göy qübbəsini çərtdi. Göy tanrısı An, inilti ilə öz arvadı ilahə Yer Kidən ayrıldı. Böyük dünyanın dağları, gurultu ilə parçalandı. İlahə yerin yatdığı yastı dairə onun çevrəsini yuyan ilk yaranış Okeandan yuxarıda qaldı, dünyanın örtüyü nəhəng qalaylı yarımkürə isə havadan asılı qaldı".***

*("Azərbaycan ədəbiyyatı tarixi". E. Əlibəyzadə. səh.42)*

Tanrıçılıq türk panteizminin əsasını qoydu. Araşdırdıqca bəlli olur, bütün xalqlarda tanrısal axtarışlar bu qaynaqdan bəhrələnmişlər. Bu deyilişi, ayrı-ayrı tutuşdurmalarla, doğrultmağa çalışacağıq. Hələliksə bu qonuya üz tutmağımızın nədəninə aydınlıq gətirməyi davam edək. Yuxarıda vurğuladıq: bizim toplumumuzun toparlanıb millət kimi davam eləməsi üçün ruhaniyyat gərəkdir. Burada isə türk Tanrıçılığının, yəni ruhaniyyatının olmasından söz açırıq. Məsələ ondadır, türk toplumu çağımızda ayrı bir ruhaniyyatla yaşayır. Yaşatdığı ruhaniyyatda onun Tanrıçılığından heç bir qatqı yoxdur. Bütünlüklə özünə, üzünə yad bir ruhaniyyat yaşadır. Bunun içində isə özünəxaslığı sıradan çıxıb. Biz yazmışıq: Ruhaniyyat xalqın özünüqoruma sistemidir. Ancaq ruhaniyyat xalqın öz içində yarananda

özünüqoruma sisteminə çevrilir. Ruhaniyyat adına türkə qıraqdan gələn, gətirilən etki ruhsal işğal yaratdı, əsarətə çevrildi. Konkret İslam dünyagörüşü türk kimliyini nəinki qorudu, min illər dirçələ bilməyəcək bir səviyyədə sarsıtdı. Çünkü Tanrıya yanaşma İslamda barbarcasına idi. Türkdə Tanrı anlamı İslamdakından qat-qat dərin idi. Türkdə Doğadakı gözəlliyə, ənginliyə, genişliyə, Doğa ilə insanın birliyinə sevgi vardı. İslamda isə, zəhmli, kinli, cənnətli, cəhənnəmli Allahla qorxutmaq. Sonradan (İslamın gəlişiylə) qorxunc Allaha tapınan türk, onda (Allahda) özünəxas keyfiyyətlər görə bilmədi. Getdikcə keyfiyyətlərini unutdu, xarakterini dəyişdi. Min ildir, onun öz içində ruhaniyyat yaranmır. Ayrı-ayrı çağlarda ruhaniyyat yönündə yarananları isə ayaqda tuta bilmir. İslam qaranlığının içindən çıxıb öz yeniliyinə üz tutmur. Məsələn, Zərdüştçülük, Xürrəmilik, Hürufilik – İnsanlığa ayrı-ayrı çağlarda işıq tutsalar da, İslamın etkisində dışlanıb tarixin arxivinə gömülmüşdülər.

Yuxarıda biz Musanın yəhudiləri qurtarmasını örnək verdik. İudaizmi insançı baxış saymırıq. Ancaq bu Baxış yəhudilərin öz içində, öz xarakterindən yarandığına görə onları toparlayıb yox olmaqdan qorudu. Bu gün də onlar İudaizmi ilkinliyinə uyğun şəkildə yaşadıb özlərini qoruyurlar. Bax bu, mövcudolmanın nədənini aydınlaşdırmaq yönündən dediyimiz düşüncələrdir.

Ancaq mövcudolma nə dərəcədə insanlığa yarayıb, bəşəri örnəyə çevrilib?! Yoxsa fəlakətlər, dağıntılar üzərindəmi baş tutub?! Bu fəlakətlərin, dağıntıların altında nələr qalıb?! Bir toplumun qorunması insanlığı ayaqlayıbsa, ayaqlamaqda davam edirsə, necə alqışlana bilər?! Bütün bu sorğulara cavab vermək gərəkdir. Bu sorğulara cavab vermək üçün Bibliyanın faktlarına aydınlıq gətirilməlidir. Bunun üçün yəhudilərin qurtuluşunu şərtləndirən faktlardan başlamağı doğru bilirik.

## I. Bütsevərliklə Təkallahlığın ayrıntıları

İnsanlığın dərki ağırdır. Buna tək-tək yetənlər olur. Çoxluq üzdə qalır, üzdən yanaşır. Buna görədir bəşər övladında axtarışlar özündən qırağa çıxır, qırağa yönəlir. Xəyallar, düşüncələr fantastikləşir. İnsan özülünü görmürsə, özünü necə tanıya bilər?! Gücün, qüdrətin qıraqda axtarılmasının başlıca qaynağı bundan yaranır. Bütçülüyün, Bütsevərliyin əsasında da bu durur. Tayfalar şəklində yaşayan insanlar özünü doğada baş verən dağıntılardan da qorumaq istəyir, başqa tayfaların basqılarından da. Bunun üçün özünə hami – qoruyucu axtarır. Ancaq onu öz yanında, yaxınında görmək istəyir. Deməli, hami, yəni Allah, onun tayfasının çevrəsində olmalıdır. Büt (Tayfa Allahı) onlar arasında birləşdirici rol oynayır. Həm içlərində bir ağsaqqal (başbilən) olur, həm də Büt. Başbilən başqa tayfalarla davranışlarda yol göstərə bilər, ancaq Doğanın doğurduğu fəlakətləri nizamlaya bilməz. "Büt"ün etkisiylə Doğanı sakitləşdirmək, deyək, uçqunları, sellənmələri dayandırmaq (halbuki nə uçqun, nə sellənmə, nə başqa olaylar dayanmaz proseslər deyillər), onların inamına çevrilirdi. Bütlərin qarşısında oyunlar, ayinlər yerinə yetirmək, yalvarışlar eləmək, qurbanlar vermək çox aşırı biçim almışdı. İnsan zəkasının süstlüyü, düşüncənin susqunluğu həyatı bütünlüklə cəhalətdən oluşdururdu. Ən yaxşı yenilik – ən qorxulu fəlakət kimi üzə çıxırdı. Söz yox, belə bir başı-ayağı bilinməyən gedişdə çoxallahlığın şüurlardan sıxışdırılması, Təkallahlıq ideyasının ortaya çıxması devrimsəl (inqilabi) bir gəlişmə idi. Tək Allah bütün tayfalara gərək olmalı idi. Bunu şüurlara yeritmək – yeridəndən Allahlıq qüdrəti istəyirdi. Ancaq necə?! – Qaranlıq boşluqlarda dolaşan şüurları doldurmaq, dolğunluq yaratmaq, doğal olaraq, birdən-birə başa gəlmirdi. Bəlkə buna görə razılaşmaq olar, aşamalar gərək idi. Ancaq bu aşamalar aydınlaşa-aydınlaşa, gəlişə-gəlişə həqiqətə dayanmalı idi axı...

Tək Allahı bütün tayfalarınkı eləmək üçün Allah heç bir tayfanın yanında, yaxınında olmamalı idi. Yəni tayfayaxas Büt sə-

viyyəsində qalmamalı idi. Hamı üzünü bir yerə tutmalı, Birlik olmalı idi. Bu oldu. Sonra gəlişmə sonucunda Allah bütün bəşəriyyətin olmalı, bütün xalqları birləşdirməli idi. Sözdə bu da oldu, işdə isə olmadı. Bütlərə xas olan cəhətlər Tək Allahda yenə özünü göstərdi. Bu dəfə üz tutmalar, yalvarışlar, qurbanlar Tək Allaha yönəldildi. Min illər bu ideya ciddi dəyişmədən, gəlişmədən davam edildi. Buna kitabdan ayrı-ayrı alıntıları (sitatları) örnək vermək olar: ***"İshaq oradan Beer-Şevaya getdi. O gecə Rəbb ona görünüb dedi: "Mən atan İbrahimin Allahıyam. Qorxma, çünkü mən səninləyəm. Qulum İbrahimə görə sənə xeyir-dua verəcəyəm, nəslini çoxaldacağam".***

*(Əhdi-Ətiq. Tövrat, Zəbur, peyğəmbərlərin kitabları. Kitab şirkəti-2004. səh.39)*

Başqa bir yerdə: ***Rəbb Musaya dedi: "İsrail övladları arasında hər bətndən ilk doğulan bütün oğlanları və bütün heyvanların balalarını mənim üçün təqdis et; onlar Mənimdir".***

*(həmin kitab, səh.107).*

***"Üçüncü gün bütün xalqın gözü qarşısında Rəbb Sina dağı üzərinə enəcək. Xalqın ətrafında sərhəd çəkib de: Özünüzü dağa çıxmaqdan, onun ətəyinə toxunmaqdan gözləyin. Dağa toxunan hər kəs öldürülməlidir".***

*(həmin kitab, səh.118).*

Bu alıntılardan görünən odur, Göyel Allah Yerel Bütü ayrı-ayrı cəhətləriylə davam edir. Bir qövmün olur. Qövmlər arasında ayrı-seçkilik edir. Belə isə, bu dini necə monoteist adlandırmaq olar?! Bir qövmün şüurunu təmsil edən, onun durumuna uyğun anlam daşıyan Allah başqa toplumlar üçün özünü doğrultmursa, onun təkcəliyinə inam da aradan gedir. Hələ biz demirik, Allah İsrail qövmünün ordu başçısı, Yüksək Baş Komandanı kimi davranır. Onları döyüşə hazırlayır, göstərişlər verir. Bəzən elə göstərişlər verir, heç bir savaş yasalarına uyğun gəlmir. Məsələn, torpaqları əllərindən alınan şəhərlərin

toplumunu körpəsindən qocasına kimi öldürmək göstərişi verir. Allah İsraillilərə dönə-dönə bəşər övladına qarşı soyqırım göstərişi verirsə, onun bəşər üçün gərəkliliyi, təkcəliyi necə özünü doğrulda bilər?! Bu dediklərimizə örnək olaraq kitabdan yenə alıntılara baxaq: ***"Başan padşahı Oq bütün ordusu ilə bərabər Edreidə onlarla döyüşə çıxdı. Rəbb Musaya dedi: "ondan qorxma, çünkü Mən onu, bütün xalqını və torpağını sənə təslim edirəm. Xeşbonda yaşayan Emorluların padşahı Sixonun başına gətirdiyini onun da başına gətir". İsraillilər onu, övladlarını və bütün xalqını bir nəfər qalmayana qədər qırdılar və torpağını ələ keçirdilər".***

*(həmin kitab, səh.250).*

Bu cür döyüşlər, axırıncı adamına qədər öldürmə göstərişləri kitabda çox yer tutur. Kitabın isə üz qabığında yazılıb: Müqəddəs Kitab. Deməli, İsraillilər, eləcə də, onların Allahı üçün müqəddəslik – İsrail torpaqlarının genişlənməsi üçün başqa toplumlar üzərində soyqırım törətməkdədir. Bu tərbiyə ilə formalaşan İsrailə yüzillər boyu bel bağlamaq olumsuz olub. Bu gün də bu xalq öz doğduğunu İudaizm dünyagörüşü ilə tərbiyə edir. Onların şüuruna dağıdıcı Allah hakimdir, onlar da ona sadiqdir. Onlar üçün qutsallıq (müqəddəslik) – bir xalqın (özlərinin) çıxarına qoyulan addır. Allaha verilən keyfiyyətlər bir xalqın xarakterini bütün çılpaqlığı ilə üzə çıxardır. Allah acıqlı, xudbin, həris, qısqanc keyfiyyətlərlə formalaşdırılıbdır. Bunu aydın görmək üçün yenə kitaba üz tutuaq:

***"Mən sənin Allahın Rəbb, qısqanc Allaham. Mənə nifrət edən ataların cəzasını üç-dörd nəslə qədər övladlarına çəkdirərəm. Məni sevib əmrlərimə əməl edənlərin isə minlərlə nəslinə məhəbbət göstərərəm".***

*(həmin kitab, səh.119).*

***"Onlara de: "Rəbbə verəcəyiniz təqdim budur: daimi yandırma qurbanı olarq hər gün iki birillik qüsursuz erkək toğlu. Toğlulardan birini səhər, o birini isə axşamçağı tədim edin...***

***Rəbbə yandırma qurbanı olaraq iki buğa, bir qoç və birillik yeddi erkək toğlu təqdim edin..."***

*(həmin kitab, səh.262).*

Belə tələblər o qədərdir, hər kəs ilboyu əməl eləyəndə qurbanların sayı hesaba gəlmir. Bəlkə də düşünmək olar, qurbanlar tələb eləmək oğurluğun qarşısını almaq üçün, eləcə də Bütlərin qarşısnda qurbanlar kəsməyi yığışdırmaq üçün edilir. Ancaq bunu az da eləmək olardı. Axı Allahı bunca həris göstərməyin anlamı yoxdur. Allahı gözüdoymaz obrazlaşdırmaq, bəlli olmur, nəyin çıxarı üçün düşünülüb. Anlaşılan odur, Musa ilə Harun özlərini, yaxın çevrələrini toplumun hesabına dolandırıblar. Biz bunu İslamın yaradıcısı Məhəmmədin həyatında da izləyirik. Bəlli “Qənimət surəsi” buna bir örnəkdir. Belə isə, Allahı özünün, çevrəsinin çıxarları üçün obrazlaşdıran adamların peyğəmbərliyi bəşəri sayıla bilərmi?!

Kitabdan başqa bir alıntıya diqqət yetirək: ***"Bunlar, İsrail övladlarının xüsusi hədiyyə olaraq gətirdikləri yellətmə təqdimlərinin hamısı sənindir. Onları sənə və oğullarına-qızlarına əbədi pay olaraq verdim. Sənin ailəndə pak olan hər kəs onu yeyə bilər. Rəbbə verdikləri ilk məhsullarını, zeytun yağının ən yaxşısının hamısını, təzə şərabın və buğdanın ən yaxşısının hamısını sənə verdim. Torpaqlarında bitən nübardan Rəbbə gətirdiklərinin hamısı sənin olsun... İsraildə Rəbbə həmişəlik həsr olunan hər şey sənin olsun".***

*(həmin kitab. Səh.244).*

Bunlar Allahın Haruna söylədikləridir. Musa, qardaşı Harunla, İsraillilәri, Türkiyəlilərin sözü ilə desək, qandırırmışlar yəqin. Ağıl işlədib İsraillilәri toparlamağın qarşılığında, onlardan ən böyük umacaqlarını əldə eləmişdilər. Peyğəmbərliklə umacaqlıq bir araya sığırsa, Allahın varlığında ölçü axtarmaq anlamını itirir. Belə götürsək, itirib də. Min ildir bu xalq pulqazanc (sərmayəçi toplum) xalqı kimi bilinibdir. Dəyərlərə, bəşər xalqlarına yanaşmaları, pulçuluq ölçüsü ilədir. Biz burada tutuşdurma aparıb, insanlığın necə ölçüyə çevrildiyini anlatmaq

üçün, Göytürklərin yaşam qurallarını dilə gətirməyi uyğun bilirik.

## II. Ruhaniyyat başqalarının bənzərsizliyini pozmamalıdır

Ayrı-ayrı ilsıra (tarix) bilgilərinə görə türk törələrində başlıca ölçü halallıq olub. Oğurluq, aldatmaq, dəllallıq eləmək, şirindillilik, üzgörənlik türk xarakterinə yad olub. Bu xarakteri türk törələri, yasaları uzun yüzillər qoruyub saxlayıbdır. Ailəcanlılıq, qadına münasibət sağlam özüllər üzərində oturuşaraq soylardan soylara ötürülüb. Evli qadınla yaxınlıq etməyin cəzası ölümlə ödənilib. Başqasının zəhmətinə, malına ortaq olmaq ən ağır iş sayılıb, namusa, qeyrətə tərs əməl kimi dəyərləndirilibdir. Ancaq başqa millətlərlə (genetik olaraq) qaynayıb-qarışandan, dünyabaxışı devrilib törələri pozulandan sonra türkün xarakterində kəskin dəyişikliklər başlamışdır. Qədim türk törələrini öyrənən hər kəs bu dediklərimizi anlayar, buna nağıl kimi baxmaz. Doğal olaraq, bugünkü çağdan baxılarsa, saydığımız arı keyfiyyətlərin, bəlli xarakterlərin haçansa olmuş olması nağıl etkisi bağışlaya bilər, inandırıcı görünməz. Ona görə, Asif Atanın "Özüylədöyüş" ideyasını nədən bu qədər önəmli saydığı ağlımıza daha yaxşı çatır. İnsan öz üzərində qələbə çalarsa, o cür keyfiyyətlərə yetməyin mümkünlüyü ona inandırıcı görünəcək. İnsan öz ömründə yüksək keyfiyyətlərə yetincə, bunun, başqalarının ömründə də, mümkünlüyünə inana bilər. İnsanlıq keyfiyyətlərinin bərpa olunub yaşadılması isə ruhaniyyatdan keçir. Asif Ata bunun üçün ruhaniyyat sistemi yaradıb. "İnsanlaşın, İnsanlaşdırın!" çağırışı da qədim köklərə dayanır.

Biz daim ruhaniyyat məsələsini önə çəkirik. Çünkü bir çox türkçülük sevgisi ilə yaşayanlar, türkün min il öncə yaşadığı keyfiyyətləri bərpa eləməyin yolunu – o çağların qurallarını bərpa eləməkdə görürlər. Ancaq bu istək əsaslı deyil. Dünya kapitalizm dünyasıdır, toplumsal həyatın mənəvi nizamı da dinçiliklə bağlıdır. Bunların içində ayrıca bir millətin qədim tö-

rələrlə yaşaması olan iş deyil. Sivilizasiya dəyişməlidir, bütün xalqlarda dönüş yaranmalıdır. Bunların olması isə ruhaniyyatçılıqdan keçir. Ona görə Asif Ata öz ideyalarını bir xalqda sınırlamır, "Bəşərin qurtuluşu İnsanlaşmaqdadır!" deyir. Deməli, hər xalq öz içində milli-insani keyfiyyətlərinə dönməlidir. Yoxsa türkün qədim törələri bütün xalqlar üçün ölçü ola bilməz. Bununla belə, məsələ düşünüldüyü kimi sadə də deyil. Cəhalət yayan dinlərə, eləcə də kapitalizmə qarşı direniş göstərmək üçün illərlə ruhsal iş getməlidir. Çünkü ruhaniyyat asanlıqla götürülmür. Ruhaniyyat, ortaya çıxdığı andan, minlərlə sorğu yağışına tutulur: Dünya necə yaranıb, həyat nədir, insanla heyvanın ayrıntılarını necə bəlirləmək olar, kosmik bağlılıqlar necə oluşur – bunu kim nizamlayır, bilik hardan başlayır?! – Bu kimi sorğulara cavab istənilir. Ruhaniyyatın başlıca işi – xeyir-şər təzadını çözməkdə axtarılır. İnsan nə üçün həm xeyirin yanında görünür, həm də şərin?! Tamah nədir, ölüm nədir, qalıcılıq (əbədilik) nədir, yəni insan bədənlə başa çatırmı, yoxsa sonradan davam edirmi, harda davam edir?! – Əslində ruhaniyyat insani münasibətlərin qurulmasını, qorunmasını nizamlamalıdır. Ancaq ondan daha böyük umacaqlar ortaya çıxır. O (ruhaniyyat) da mənəvi etkisini yeritmək üçün daha böyük alanda söz deməli olur. Belə olanda isə, bir çox hallarda, bilimə tərs gəlməli olur. Bilimlə ruhaniyyat ayrılırsa, sözləri üst-üstə düşmürsə, onda toplumsal nizam bütövləşə bilməz. Bu çağa kimi biz bilimlə gələnəksəl ruhaniyyatı ayrı-ayrı xətlərdə görmüşük. Ona görə gələnəksəl ruhaniyyat ona yönələn sorğuların cavablarını ən çox uydurmaqla uğraşıb. Ona görə kapitalizm kimi antiinsani sivilizasiyaların yaranmasına əngəl ola bilməyib.

Asif Atanın ruhaniyyatı yuxarıda qoyulan sorğulara aydınlıq gətirməyi qarşısına qoyub, ona yetibdir. Bu zaman o, bilimə arxa çevirməyib, tərsinə, bilimin olanaqlarından yararlanıbdır. İndi biz yuxarıda vurğulanan sorğulara Asif Atanın Mütləqilik ölçüsüylə aydınlıq gətirəcəyik. Bundan sonra yenidən ona qədərki ruhaniyyatların sorununu vurğulayacağıq.

Dedik, ruhaniyyatın qarşısında xeyir-şər təzadını çözmək tələbi durub. Hər bir dində ruhaniyyatın bu məsələyə yanaşması fərqli olub. Hər birində bu məsələ yaranışa münasibətdən qaynaqlanıb. Yaranışa münasibət də doğru olmayıb. Ona görə xeyir-şər təzadı da doğru aydınlaşdırılmayıb. Yəni istər Şumer dünyagörüşündə, istər Göyel dinlərdə bu məsələnin özülündə yanlış mifik şüur dayanır. Başqa sözlə, xeyirin də, şərin də Tanrıdan gəldiyi (göyel dinlərdə Allahdan gəldiyi) vurğulanaraq qarşısıalınmaz olduğu bildirilib. Sanki bu yöndə axtarışlar yola verilib. Məsələn, Göy Tanrıçılığın da özülündə duran Şumer baxışında deyilir: ***"Bütün adamlar bir dildə danışır və bir-birilə sakitlikdə yaşayırdı. Qorxu, paxıllıq yox idi. Heç bir adam başqasının nüfuzuna, malına həsəd aparmazdı... İnsanlar rahatlıqda, bolluqda yaşayır, nəslini artırır, hamılıqla ev və qalalar ucaldır, eyni bir dildə Enlilin başçılığı ilə hakimiyyətini şöhrətləndirirlər. Ancaq Tanrı-insan bu xoş günə, bu "qızıl əsri"nə dözmədi. Tanrılığa ucalan insan özünün yaratdığı bu xeyir işlərə, firavan həyata, insanın artıb inkişaf etməsinə, xoşbəxtliyinə daraldı. Onun daxilində paxıllıq, həsəd duyğusu yarandı. Sonucda xeyiri də, şəri də o özü yaratdı".***

*(E.Əlibəyzadə. "Azərbaycan Ədəbiyyatı tarixi", səh.46).*

***"Rəbb bəşər övladlarının tikdiyi şəhəri və qülləni görmək üçün aşağı endi. Rəbb dedi: "Budur, onların hamısı bir xalqdır və bir dilləri var. Buna görə də bu işi görməyə başlamışlar və indi etmək istədikləri işə heç kəs mane olmayacaq. Gəlin aşağı enib, orada onların dilini qarışdıraq ki, bir-birilərinin dilini başa düşməsinlər".***

*(Müqəddəs Kitab (Bibliya), səh.15).*

***"Allah İblisə: "Mən sənə əmr edəndə sənə səcdə etməyə nə mane oldu? - deyə buyurdu. İblis: Mən ondan daha yaxşıyam (üstünəm), çünkü sən məni oddan, onu isə palçıqdan yaratdın!" - dedi.***

***Allah buyurdu: Oradan (Cənnətdən) aşağı en. Orada sənə (Allahın əmrinə) təkəbbür göstərmək yaramaz. Oradan çıx, çünkü sən alçağın birisən!***

***İblis dedi: Mənə Qiyamətə qədər möhlət ver!***

***Allah buyurdu: Sən Möhlət verilənlərdənsən!***

***İblis dedi: Sən məni (Adəmə səcdə etmədiyimə görə) azdırıb yoldan çıxartdığın üçün mən də sənin düz yolunun üstündə oturub insanlara (sənə ibadət və itaət etməyə) mane olacağam!"***

*("Quran", "Əl-Əraf" surəsi, səh.126).*

Göründüyü kimi, bütün dünyabaxışlar xeyirlə şərin yerini bəlli etmək üçün çabalar göstərmiş, sonucda yanlışa yol vermişlər. Bu düşüncəni irəli sürərkən cəsarətimizin arxasında Asif Atanın fəlsəfi ölçüsü dayanır. Yuxarıdakı alıntılarda şər Tanrının öz xislətində ifadə olunur. Başqa sözlə, şərin mahiyyətdə olduğu bildirilir. Deməli, Şər Tanrıdan gəlirsə, onun qarşısını almaq mümkün deyil. Bizə görə, ***"dünya belə gəlib, belə də gedəcək"*** deyilişi də buradan ortaya çıxıb. Özəlliklə semit insanlarında bu məsələ qarşısıalınmaz bir ehkama çevrilir. İnsan əli-qolu bağlı, şüuru dağınıq, idrakı sönük bir duruma düşürülür. Ziddiyyətlərin içində özünüdərk sürəcinə yol tapa bilmir. Çünkü heç nəyin ondan asılı olmadığı düşüncəsinə pərçimlənir. Alın yazısına qarşı çıxmağın olumsuzluğu etkisi altında bəşəri varlığın nə demək olduğunu kəsdirə bilmir. Bu baxışlara görə, insan Allahın yazdığını poza bilməz. Başqa sözlə, Allahın insan üçün bəlirlədiyi taleni dəyişmək insanın olanaqları dışındadır. Əslində bu taleni Allah özü də dəyişmir. Sadəcə insanın yaşadığı ömrə görə (Qiyamət günündə) ödül (mükafat), ya da cəza təyin edəcək. Əgər Allah insanın taleyini öncədən bəlli edibsə, deməli, ödül, ya da cəza artıq təyin edilmişdir. Bunu sadəcə insanın özünə bildirmək qalır. Ancaq insan yaşadıqca bunu heç zaman bilməyəcək. Yalnız öləndən sonra, bəlli gündə, biləcək. O zaman isə heç nə eləmək olmayacaq. Bəs yaşadığı çağda nə eləmək olar? – Allahın buyurduğu bəsit şüurla

yaşamaq! Bu ölçü ilə yaşayanda insan heç zaman kamilləşməyəcək, dünyanı dərk eləməyəcək. Deməli, özgürlüyü, ağgünlülüyü (xoşbəxtliyi) də tanımayacaq. Əslində dünyanı dərk sürəci (prosesi) insanın Tanrıya münasibətində yer tutmur. Bu sürəc münasibətlərdən qırağa çıxarılıb. Bir halda, dünya fanidir, onu dərk eləməkdən söz getməməlidir. Fanini, ölümlünü, gec-tez yox olanı dərk eləmək idraka nə vəd edə bilər?! Bir şeyi dərk eləmək – onun anlamına yetmək deməkdir. Bəs anlamsız dünyanı, ya da anlamı yalan, oyun-oyuncaq olan dünyanı dərk eləmək boşluğa düşmək deyilmi? Əslində, dediyimiz kimi, dünyanı dərk eləmək onun anlamına yetməkdir. Başqa sözlə, Tanrını dərk etməkdir. Ancaq Tanrı dünyanın anlamı kimi deyil, yaradıcısı, bənnası kimi çıxış edir. Biz evə baxıb onu tikən usta haqqında hansı düşüncəyə gələ bilərik?! – Uzaqbaşı ustanın peşəkarlığının yüksək, ya da zəif olduğunu düşünə bilərik. Onun necə bir şəxsiyyət olduğunu isə evə baxıb söyləmək olduqca çətindir. Bəs dünyanın bənnası haqqında düşüncələr nə dərəcədə dərk sürəcinə girə bilər? – Bunu da demək çox çətindir. Hələ üstəlik bu bənna oyun-oyuncaq yaradıbsa. Oyun-oyuncaq yaradanın kamil, bütöv olması artıq sorğu altına düşür. Göründüyü kimi, semit inanclarında İnsan-Tanrı münasibətləri bütün aşamalarda ziddiyyətli doğur. Belə ziddiyyətli münasibətlərlə toplumsal yaşama gözəllik gəlməz, gəlməsi olası (mümkün) olmaz. Ona görə umudsuzcasına deyilir: ***"dünya belə qurulub, belə də gedəcək"***. Yəni insan neyləsə belə, dünyanın gedişini dəyişə bilməyəcək. Şər də Tanrının xislətidirsə, yəni mayadadırsa, dünyanın gedişini dəyişmək heç olası deyil.

Biz bu deyilənlərin özülsüz, zərərli olduğunu, Asif Atanın baxışına dayanaraq, daim vurğu edirik. Asif Atanın Xeyir, Şər anlayışlarına baxışı orijinal bir ölçü ilə – Mütləqilik ölçüsü ilə aydınlaşır. Ata deyir: "Şər Xeyirin yoxluğudur". Başqa sözlə, şərin mahiyyəti yoxdur. Yəni şər mahiyyətdən gələ bilməz. Şər mayada ola bilməz. Əgər olsaydı, onda varlıq olmazdı. Şər gəlişmə (inkişaf) yaratmır, çökdürür. Şər mayada olsaydı, dağıdardı, heç bir gəlişmə baş verməzdi.

Bəs "şər xeyirin yoxluğudur" nə deməkdir? – Toplumsal (ictimai) həyat ayrı-ayrı bireylərin birgəyaşayış nizamıdır. Ancaq bu nizamda xeyir, ədalət, həqiqət bütöv olmur. Çünkü bütün insanlar kamil deyil. Eyni halda, doğuluş adlı qalıcı bir sürəc (əbədi bir proses) var. Soylar yeni insanların dünyaya gəlməsiylə davam edir. Ancaq insanlar anadan kamil doğulmurlar. Bioloji insanların mövcudolma koşulları (şərtləri) onların davranışlarında, insana, doğaya yanaşmalarında qüsurlar ortaya çıxarır. Deməli, dünyaya gələn insanın ağlı böyüdükcə bioloji mövcudolma uğrunda döyüşünü (mübarizəsini) yeni aşamaya keçirməlidir. Başqaları ilə birgə mövcud olmağın qaçılmazlığını dərk etməli, İnsanlığın qanunları ilə yaşamağa üstünlük verməlidir. Hər kəsin yaşamaq haqqı bilinməli, gözə alınmalıdır. Bunun üçün ədalət bir ömürdə bütöv üzə çıxmalı, xeyir düşüncəyə, davranışa, yanaşmaya hakim olmalıdır. Bununla insan ömründə şərin etkisi aradan qalxır. Başqa sözlə, şər toplumsal həyatdan tam silinməsə də bireysəl ömürdə başa çatır. Toplumsal nizamı da bireysəl ömürlər yaratmalıdır. Asif Ata şərin bireysəl ömürdən silinməsi üçün "Özüylədöyüş" ölçüsü önərir. Öz üzərində qələbə çalan insan vicdan hakimliyinə boyun əyir. Belə olanda şərin etkisi toplumsal həyatda minimuma enir. Məsələyə Asif Atanın ölçüsü ilə yanaşanda ***"dünya belə gəlib, belə də getməməlidir"*** qərarı verməк gərəkir. Dünya fani deyil, mahiyyətcə qalıcıdır (əbədidir). Dünyanın gedişi insan ləyaqətinə bağlıdır. İnsan özümləşdikcə dünya gözəlləşir. Deməli, Dünyabaxışın əyri, ya doğru olduğu da insana yanaşmada aydınlaşır. İnsan nədir, necədir, necə olmalıdır – sorularına aydınlıq gətirmək dünyabaxışın ləyaqətini göstərir. İnsana, Doğaya münasibət yerində olduğu dərəcədə Tanrısal sistemin özül prinsipləri doğrudur. Tanrısallığın doğruluğu insanın özünüdərkində doğrulur. Bu açıdan Göyel dinlərin yanaşmasında uğursuzluqlar aydınlaşmalıdır. Bibliyada deyim var: ***"Allah insanı yaradanda öz bənzərinə görə yaratdı".***

*(Müqəddəs kitab (Bibliya), "Kitab" şirkəti, səh.8).*

Bu deyiliş başqa biçimdə belədir: ***"Allah Adəmi öz surətinə və onun (Adəmin) öz surətinə uyğun yaratdı".*** – Buradan iki məntiq çıxarmaq olar: 1) Adəmi, yəni ümumilikdə bəşər övladını; 2) Adəmi, yəni ilk peyğəmbəri, kamil varlığı. Dinlərin prinsiplərindən göründüyü kimi, məsələni ikinci anlamda götürürlər. Olsun! Deməli, Allah – peyğəmbərliyi öz surətinin kamilliyini üzə çıxarmaq, insanlara örnək olmaq üçün yetirmişdir. Belədə isə, görünən odur, Allah kamil deyil, qüsurludur. Nədən?! – Çünkü Adəm ciddi yanlışlara yol verib. O üzdən Allahın yanından (cənnətdən) qovulub... Allahın surətini özündə daşıyan, ondan soraq verən, nişanə göstərən peyğəmbərlərdən biri də Məhəmməddir. Məhəmməd də xarakterik olaraq, daha çox, yunanların baş allahı Zevsin surətinə bənzəyir. Zevs kimi qısqanc, arvadbaz, toplumu savaşa sövq edən. Əslində Məhəmmədin Allahı da bu deyilənlərə yad deyil. Məhəmməd özünü, başlanğıcda xarakterizə elədiyi, Allaha deyil, Allahı özünə bənzədib. Əgər Allahı bu deyilənlərdən üstün saysaq, gərək ərəblərin içində yaranan İslam təliminin Allaha qarşı olduğunu qəbul edək...

Ancaq İslam dünyabaxışının etkisindən doğan Hürufilik təriqəti ***"Allah insanı öz surətinə bənzər yaratdı"*** deyimini insanın xeyrinə gəlişdirmişdir (inkişaf etdirmişdir). Bizə görə fiziki insan Allah Anlamının gerçəkliyidir. (Söhbət Məhəmmədin yanlış obrazlaşdırdığı Allahdan getmir). Başqa sözlə, insan İnsanlığın görsənişidir (təzahürüdür), görünüşə gəlməsidir. Gerçək insan öz Mənasına, Hürufilərin deyilişiylə götürsək, Allaha bənzəmək üçün yaşamalıdır. İnsan Allaha bənzəyəndə özü olur, bənzəməyəndə kölə olur. Dində isə insanın Allaha bənzəməsindən deyil, Allaha kölə olub boyun əyməsindən (itaət etməsindən) danışılır. Əslində semit baxışı ***"Allah insanı öz surətinə uyğun yaratmışdır"*** desə də, öz məntiqini danır. Biz bunu Quranın insana yanaşmasında aydın görürük. Deməli, özüldə qoyulan ideyaya yanlış yanaşma, düşüncənin bütün aşamalarında, öz etkisini göstərmişdir. Yəni hər bir məsələ ilə bağlı

düşüncə, özüldə qoyulan bu yanlışlığın etkisi ilə həqiqətdən uzaqlaşmışdır.

Burada qaçılmaz bir düşüncəni vurğulamaq gərəkdir: İnsanla bağlı ilk yanaşmanı Hürufilər gəlişdirsələr də, təriqət kimi, etki gördükləri İslamın yaradıcısına boyun əymirlər. Başqa sözlə, Məhəmməd onların öyrətməni sayıla bilməz. Hürufilər İnsanı Allah sayırlar, yəni insanın mayasında Allah var. Ona görə, insan özünə bənzəmək üçün Allaha dönməldir. Məhəmməd isə deyir, Allahın dərgahına dönməlidir, yəni cənnətə. Hürufilər cənnət vəd eləmirlər, çünkü insan onlar üçün Allahdır, Allahın isə cənnətə ehtiyacı yoxdur...

İnsanın Allah sayılması Xristianlıqda da özünü göstərib. Ancaq bu zaman biz insanlığın təsdiqini deyil, xurafatlaşmasını izləməli oluruq. Xristianlıqda İsanı müqəddəs ruh sayırlar. Yəni Allah İsanı bakirə Məryəmin qarnına ruh kimi üfürüb. Bu məntiq İslamın baş kitabı Quranda da verilibdir. Bəlli "Məryəm" surəsi bu məsələdən danışır. Söz yox, bunu sözün doğru anlamında götürmək cəfəngiyyatdır. Ancaq sözün sətiraltı anlamı budur: İnsan Allahdan yaranır, insanda Allah var.

Asif Atanın "İnsan – bədən-Məna bağlılığıdır" deyimindən yanaşsaq, İnsan-Allah bağlılığını (əlaqəsini) doğru qiymətləndirmək olar. Ancaq Xristianlığın İsaya yanaşmasındakı bəlli "üçlük" – biçim-məna birliyinin fəlsəfi açımına gəlmir. Yəni "üçlük"dəki "qutsal yol, hərəkət, çalışma" ayrı bir anlayışdır. Ən yaxşı halda, "üçlüyün" üçüncü tələbini Məna-gerçəklik birliyindən oluşan nizam qanunauyğunluğu saymaq olar. Burada bizim başlıca istəyimiz, söz yox, bütün anlayışları aydınlaşdırmaq deyil, məntiqə girməkdir. Məntiq də odur, İnsan Allahdan başlayır. Başqa sözlə, insan fiziksəl varlıq olaraq, Mənanın gerçəkləşməsi, görünüşə gəlməsidir.

Xristianlıqda göstərilən, Quranda vurğulanan bu məsələnin pis cəhəti odur, insanın Allah anlamı daşıması eybəcər şəklə salınır. Yəni İsanın atası Yusifin (İosif) şərəfi alçaldılır, ləyqəti heçə endirilir. Başqa bir cəhət, burada bizim anlam verməyə çalışdığımız məsələ, göründüyü kimi, xurafatlaşdırılır. Birinci-

si, İsanın atasının ləyaqətinin danılması ilə, ikincisi, Allahdan başlamağın bütün insanlara deyil, birinə özgün edilməsi ilə. İsa, Allahın Məryəmə qeybdən cinsi toxunması ilə əmələ gəlir. Deməli, insanın Allahdan gəlməsi ideyasının xurafatlaşdırılması onu göstərir, məqsəd insanın böyüklüyünü ona göstərmək deyil, sadə toplumu aldadıb Allaha, eləcə də İsaya inandırmaq üçündür. Bununla da bəşəriyyətin min illərdir, insan-məna birliyi yönündə axtarışları eybəcər şəklə salınır, varlığa münasibət saxtalaşdırılır. Deməli, İsa bəşər övladı deyil, Allahın oğludur, ona görə qutsaldır. Belə çıxır, bəşər övladı qutsal ola bilməz, yalnız Allaha qoyun ("ovçı") ola bilər. Deməli, insanın qutsal olması üçün, onun – Allahın təcəllası kimi gəlməsi yox, Allahın belindən gəlməsi gərəkmiş. Bu kimi məntiqlərin içinə girdikcə bəlli olur, semit dinləri insanlığı alçaldır.

Müsəlmanlıqda da insanı Allaha tən götürmək halları var. Ancaq bu dünyabaxışın daşıyıcılarının özləri bu cür demirlər. Məsələn, Məhəmmədlə, Əli ilə bağlı, bir çox söyləmlərdə, elə ilahi keyfiyyətlər sunurlar, bu keyfiyyətlər Allaha özgün edilə bilər. Söz yox, bu keyfiyyətlər uydururlur. Çünkü bu keyfiyyətlər elə deyilir, haqqında söz gedən insanların fiziksəl varlıq olduqları gözardı edilir. İkinci bir yandan, İslamda da, Xristianlıqda olduğu kimi, ilahi keyfiyyətlər yalnız seçkin adamlar haqqında deyilir. Tutuşdurma üçün deyək, hürufilər uca keyfiyyətləri (Allaha özgün edilən keyfiyyətləri) ümumi insana bağlayırlar. Onlar insanı Allaha tən götürəndə, insanın fiziksəl varlıq olduğunu gözardı eləmirlər. Yəni Allahlığın – fiziksəl insanın simasında təcəlla etdiyini önə çəkirlər. Fiziksəl insan öz davranışları ilə, yüksək mənəvi keyfiyyətləri ilə (fiziksəl varlıq olduğuna baxmayaraq) daha üstün varlıq olduğunu sübuta yetirir. Belə ki, yalansızlığa, tamahsızlığa, rəqibsizliyə... yetən insanın ömrü Allah anlamına uyğun formalaşır.

## III. Türkə bağlı baxışlar insana yanaşmada daha anlamlıdır

Hürufilikdə İnsanın Allaha tən götürülməsinə Tanrıçılıq, Zərdüştçülük başlanğıc (təkan) verir. Məsələn, Zərdüştdə Hörmüzd insan uğrunda döyüşür – həm Doğada döyüşür, həm insanın özündə. İnsanın əməllərində, üzündə, gülüşündə, düşüncəsində, davranışlarında. Əhrimənin – insanın əlinə, əməlinə, üzünə qonmasına yol vermir. Yəni əslində Hörmüzd insanın özündədir (sadəcə məntiq mifləşdirilir). Bu ideya Asif Atada insanın içsəl (daxili) şərlə, eləcə də, toplumsal (ictimai) şərlə döyüş ideyasına çox doğmadır. Semit dünyagörüşü Allahı insandan ayırdı – az anlamda panteistcəsinə, daha çox xurafatcasına. Panteistliyi ondadır, Allah göylərdədir, yəni əslində Doğadadır. Göylər elə Doğadır – Doğadakıları o yaradır. Xurafatı daha böyükdür, yəni Allahçılıq əslində padşahlıq sistemidir, onda hər şey – əyan-əşrəf, ödül, cəza var. Bununla da, insan Allahsızlaşdı, kiçildi, kiçildildi. Allah Anlamını kiçiltməklə insanı cılızlaşdırdılar. İnsan Allah adlanan ağanın qulu səviyyəsinə endirildi. Cılızlaşan insandan dünyanı işıqlandıracaq əməllər yetişmədi. Semit dünyagörüşü əslində insan idrakının olanaqlarını öldürdü. Eyni halda, insanı ucaldacaq baxışlarla döyüşdü, onları insanın ağlından, yaşamından sildi. Zərdüştlüyə "şeytan əməli" damğası vurdu, Hürufiləri kafir elan edib qırdı. Hürufilik kimi qabaqcıl bir baxışı tarixin küncünə elə gizləyirlər, nə adını tutan var, nə də öyrənən. Halbuki istənilən bir xalqın əlində belə böyük bir dəyər olsaydı, bütün bəşəriyyətə örnək verərdi. İndi semit dünyabaxışının daşıyıcıları Asif Atanın ideyalarından gizlənirlər.

Yuxarıda vurğuladıq, bizim ölçümüz Asif Atanın "Mütləqə İnam" ideyasından qaynaqlanır. Həm də bu ölçü onun özünü təsdiq üçündür. Ona görə burada Asif Atanın Allah Anlamına, İnsana yanaşmasını özəl olaraq vurğulamaq gərəkir:

## Mütləqlə Görüş

– Sən əbədisən, möhtəşəmsən, sonsuzsan, əvəzsizsən, sənə səcdə qılıram.

– Mən Sənəm, Özünü yaxşı tanı. Mən Səndə Varam.

– Mən Sən ola bilmərəm. Ağlım naqisdir, hissiyyatım bulanıqdır, iradəm zəifdir, qədim olsam da, naşıyam, özümə ləyaqətli həyat qura bilməmişəm, yanlışlıqlar içərisində itmişəm, çox axtarıb az tapıram, yaratdıqlarıma sahib olmamışam, ehtiraslarımı cilovlamağı bacarmamışam, daxilimdəki şəri öldürməmişəm. Mən Sən deyiləm. Sən ola bilmərəm. Özünü mənə oxşatma. ***Sənin yanında mən bir heçəm.***

– Ona görə ki, özündə deyilsən, özün ola bilməmisən. Ruhun alidir, Mütləqdir – onu eşitməmisən! Məhəbbətin ilahidir – onu qəlbindən qovmusan! Müqəddəslik duyğun ülvidir – ondan əl çəkmisən! Peyğəmbərlik siqlətin əzəmətlidir – onu anlamamısan! Özündən aliyə qovuşmaq həvəsin zəruridir – ondan əl çəkmisən! Mahiyyətin, mənan genişdir, lakin mühitə sığmısan! İndiyə qədər sən özün olmamısan!

– Zəif olduğum üçün olmamışam! Zəifliyimi dərk etmişəm və zəif qalmışam. Sən hədsiz dərəcədə güclüsən və bu səbəbdən də gücünü dərk etmisən. ***Mən Sən olsaydım, güclü olardım.***

– Sən öz Allahlığını özündən ayırıb nadir övladlarında təcəssüm etdirmisən. Peyğəmbərlərin səni öz ürəklərində görüblər, dahi sənətkarların əsərlərində vəsf ediblər, musiqidə ilahi səsi eşitmisən, qəhrəmanlarında, fədakarlarında ölümsüz qüdrətini hiss etmisən. Özün isə özündən ayrı düşmüsən, çünkü naşılıgın, şərin, naqisliyin sözünü eşitmisən və öz təbiətinin əksinə yaşamısan!

– Hərcayi sözlərə qulaq asanı Mütləq saymaq olarmı? ***Mütləq olsaydım, Şəri eşitməzdim.***

– Sənin ruhani mənan ilahidir, cismani mənan bəsitdir. Daxilində həm Mütləq, həm də Nisbilik yaşayır. Ancaq mahiyyətin – Mütləqdir, buna görə də sən şəri daxilindən silməyə qadirsən. Ancaq sən bunu eləmirsən, Mütləqin gücünə arxalan-

mırsan, Mütləqi unudursan, onu qəlbində görmürsən və nisbi, natam, bayağı ehtiraslar, düşüncələr həyatına hakim olur. Sən elə bilirsən ki, busan, özünə inamın sarsılır və şər qüvvələr səni öz alətinə çevirir.

– ***Deməli, mən yenə də Sən deyiləm.*** Sən bütövsən, mən yarımçığam, sən vahidsən – mən müxtəlifəm, sən paksan – mən bulanığam.

– Mən ***Mütləqəm, sən özündə Mütləqi gəzdirən.*** Fərqimiz bundadır. Mən İşığam, qəlbinə axmışam. Sən İşığı unutmusan, qaranlığa qovuşmusan. Sənin bütövlüyün mahiyyətindədir, Mahiyyətin isə – Mənəm. ***Sən – Mənsən!***

Mahiyyətinin ifadəsində – Mütləqlə yanaşı, nisbi, yanlış, şər də aşkara çıxırsa – bu səni çaşdırmasın. ***İfadə mahiyyətdən aşağıdır.*** Sənin bəlan ondadır ki, zahirdəkinə uyursan, daxildəkini unudursan, Allahlığından ayrılırsan. O zaman ki, sən öz Peyğəmbərlərinə, Qəhrəmanlarına mənən, idraklı, hissi yaxınlaşacaqsan, onda özün olacaqsan, Mütləqə qovuşacaqsan.

– Demək istəyirsən ki, mənim gücüm sonsuz, duyğularım, düşüncələrim mütləq mənada ülvi olacaq, idealım tam həyata keçəcək, mən Sənin kimi ölümsüz olacağam?! Bu mümkündürmü?!

– Özünü dərindən anla! Bunların hamısı səndə var. Özündən əl çəkdiyin üçün onları özündə görmürsən. Ruhani qüdrətin hüdudsuzdur: o səni ülvi şəxsiyyətə çevirə bilər, daxili aləmini mütləq mənada saflaşdıra bilər, sənə ölümsüzlük bəxş edə bilər, bir şərtlə ki, özündəki Mütləqi görəsən, özünə tam qayıdasan! Əgər özündə Mütləqi görmürsənsə, deməli, insan kimi yaşamırsan. Sən – Mütləqsən, ancaq bunu bilmirsən. Faciən bundadır. Mütləqliyini bilsəydin, ruhsuz, mənəviyyatsız, idraksız həyatı həyat saymazdın, mühitdə itməzdin, maddi nemətlərin əsiri olmazdın, heyvanat dünyasıyla öz dünyan arasında fərqi görərdin, məhəbbətin ilahi mənasını qoruyardın, daxilini çirkin duyğulardan təmizləyərdin, mütilikdən, köləlikdən, qorxu kabusundan xilas olardın, həqiqəti, ədaləti özün qədər sevərdin. Bunlardan ona görə uzaqsan ki, özündəki Mütləqi görməmisən!

– Mütləqdən ayrılmışam, deməli, Mütləq olmağa layiq deyilmişəm! Özünü mənə bənzətmə! Mütləqsən, ona görə də özündən ayrılmamısan!

– Sənin Mütləqə qayıtmaqdan başqa əlacın yoxdur. Nisbi idrakla, mənəviyyatla, hissiyyatla sən yaşaya bilməyəcəksən. Ya Allah olmalısan, ya da ölməlisən! Başqa yol yoxdur!

Mütləqin səsi zəhmli, hökmlü və sərt idi!

*(Asif Ata. "Mütləqə İnam" Bitiyi, "Mütləqlə görüş bölümü).*

Bu, Asif Atanın Allahının (Mütləqin) insanla obrazlı qonuşmasıdır. Burada Allah insandan Allah olmaq, yəni öz Anlamına qovuşmaq tələb edir. Semit baxışlarında isə, dediyimiz kimi, Allah insandan qurbanlar tələb edir, insanı hədələyir, ləyaqətini aşağılayır. Örnək: ***"Rəbb Musaya dedi: düş xalqa tapşır ki, məbada Rəbbi görmək üçün onun tərəfində olan sərhədi keçsin, yoxsa çoxları məhv olar".***

*(Əhdi-Ətiq, Kitab şirkəti, 2004. səh.118).*

***"- Həqiqətən, cəhənnəm (mələklərin hazır durub kafirləri gözlədiyi) pusqudur!***

***- O, azğınların məskənidir.***

***- Onlar orada daha sonsuz müddət qalacaqlar.***

***- Onlar orada nə bir sərinlik görəcək, nə də içməyə bir şey tapacaqlar;***

***- Qaynar sudan və irindən başqa!"***

*("Quran", "Azərnəşr", 1992. səh.612).*

Biz Bibliyadakı, Qurandakı daha çirkin faktları sadalamaq istəmirik. İnsana yanaşma təkcə faktların tək-təkində kobud deyil, bütövlükdə kitabların əsas prinsipləri insana qarşı yönəlibdir. Dünyaya, Doğaya münasibət də belədir. Asif Atada isə, Doğada Mütləq var, Məna var. Doğa yenilənmələri ilə Mənalıdır. İnsan Məna kimidir, yəni Mütləqə təndir. Ancaq Doğa mə-

nalıdır, Məna kimi deyil, yəni Mütləqin Görsənişidir (Təzahürüdür), ona tən deyil.

Dinin cəhalətinə uyan, sosial sorunlarla yaşayan, siyasi, inzibati zor qarşısında əzilən, əyilən insan özündə Mütləqi görə bilmir. İnsanı Allah saymaq ona görə ağıllarına sığmır, Allahı dünyanın yaradıcısı kimi götürürlər. Düşünürlər, insan bu boyda dünyanı necə yarada bilər?! Nə qədər, insan dünyanın yoxdan, bir baxışla yaradıldığına inanacaq, heç vaxt kamilləşməyəcək. Kamillik – Dünyanın əzəli, əbədi, kamil, sonsuz olduğunu dərk eləməkdən başlayır. Əslində kamillik Asif Atadan başlayır, yəni Mütləqilik ölçüsü ilə yaşamaqdan.

Bir haşiyə çıxaq: Bəzən Asif Ataya sayğı duyan ayrı-ayrı adamlar onun dediklərini mücərrəd sayırlar. Çünkü belə adamlar sözdə dinin etkisindən uzaq olduqlarını düşünsələr də, əslində düşüncə, idrak baxımından dinin etkisində olduqlarını anlamırlar. "Asif Atanın dediyi ölçü ilə xalq yaşaya bilməz, bu tək-tək adamların işidir" deyə dayazlıqda dururlar. Söz yox, insanlığın fəlsəfəsini toplum kütləvi şəkildə bilməyəcək, ancaq insanlığın tələblərini hamı yaşaya bilər. Yəni çoxluq vicdanlı ola bilər, ədalətli yaşayar, başqalarına zor işlətməz, başqalarının haqqını ayaqlamaz, böyüyün, kiçiyin yerini bilər. (Hamı xörək bişirə bilmir, ancaq hamı bir aşpazın bişirdiyi xörəkdən yeyir. Bu sadə bir məntiqi dərk eləməmək idraki naşılıqdır). Bu gün bunlar pozulub. Topluma bu gündən baxmaq – dinin, siyasətin yaratdığı anarxiyadan baxmaqdır.

Döyüşməyən adam başqasının döyüşünün sonuc verəcəyinə inanmaz. Asif Ata deyir, bu çağacan filan məsələlər olmayıb, bundan sonra olmalıdır. Niyə olmalıdır? – Çünkü verdiyi ölçünün insanı öz mahiyyətinə yüksəldəcəyinə inanır. Ancaq "bu çağacan olmayıb, bundan sonra da olmayacaq" deyənlər insanlığın həqiqətini anlaya bilməyənlərdir. Anlamayan inana bilməz. Buna doğal yanaşmaq gərəkir. Hamının, həqiqəti bir anda anlayacağına Asif Ata da qərar vermir. Yeni ideya etkisinin oturuşması aşamalarla başa gəlir. Ölçü yenilənib, yeni ölçü ilə düşünmək, yaşamaq gərəkir. Köhnə ölçü ilə ruhaniyyat yaran-

madı. Başqa sözlə, Allahçılıqda İnsançılıq gücsüzləşdi. Köhnə peyğəmbərlər öncə Allahı, bəşəri düşündülər, sonra Allahı öz millətinin böyüyünə, hamisinə çevirdilər. Allah bəşəri olmaqdan uzaqlaşdırıldıqca, din qurucuları təkcə şüurları deyil, getdikləri ölkələrin torpaqlarını da zəbt elədilər. Başqa sözlə, öncə din imperiyası yaradırlar, dalınca da bunu dövlət imperiyasına çevirirlər. Dövlət imperiyasına qulluq edən din bəşəri humanizmi bərqərar edə bilməz.

Din şüurları işğal elədiyinə görə imperiyaçılığı, ya da dövlət imperiyasına qulluq eləməsi, sadə insanlara üzdə görünmür. Din siyasətə çevrilir. Siyasət işğal edir, talayır, üzdə isə dinin qutsallığını qorumaqdan danışır. Din də Allahın qutsallığından danışır. Ancaq Allahın heç bir xarakteri qutsal deyil. Allah, keyfiyyətcə yaxşı araşdırılsa, ən pis hökmdara bənzədiyi üzə çıxar.

Tövratda Allah yalnız İsrail oğullarına xasdır. Qutsal sayılan kitab, başqa xalqların adını yalnız işğal olunacaqları halda çəkir. Allah İsrail oğullarına başqa xalqları daim məhv etmək göstərişi verir. İsrailin Allahı da, peyğəmbəri də işğalçıdır, amansızdır, qaniçəndir. Rəbb İnsanlığın Allahı olsaydı, ayrı-seçkilik eləməzdi.

Yəhudilər Rəbblərini başqa xalqlara verməyiblər. Ona görə yox ki, saygı duyublar. Sadəcə istəməyiblər, Rəbbin xarakterinə başqa xalqlardan da keyfiyyətlər girsin. Girərsə, getdikcə yəhudilərin xarakterləri dəyişilər, dünyanı qatıb-qarışdırmaqla öz varlıqlarını sürdürə bilməzlər. Yəhudi öz xarakterini Rəbbinə verib. Rəbb həmin xarakteri qoruyur, zaman-zaman (ibadətlə) yeni yəhudi soylarına qaytarır.

Tanrıçılıq da türkdən başqa heç bir xalqda olmayıb (sadəcə bəhrələniblər, özlərininkini yaradanda Tanrıçılıqdan gələn atributları dəyişdiriblər). Türk Tanrısını başqa xalqlara qəbul elətdirmək üçün zor işlətməyib. Türk Tanrısına saygı duyub. Eyni halda, Tanrıçılığı qəbul etmək istəyənlər gərək türk xarakteri kimi mətin, birüzlü, biryönlü olsunlar. Bu da zorla alınmaz. Ancaq ərəb öz Allahına saygı duymayıb, onu zorla başqa xalq-

lara sırıyıb. Başqa sözlə, xalqları özü kimi xaraktersiz, kefcil eləməyə zorlayıb. Türkün iradəsi zorlandıqca xarakteri dəyişdi. Bu gün türk Tanrısına bənzəmir, ya da az bənzəyir, daha çox ərəbin Allahına bənzəyir – dağınıq, xaraktersiz.

Hörmüzd Tanrıçılıqdan gəlirdi, hər şeydən arı idi. Ancaq İslamda Allahın iki üzü var – həm qutsallıqlar, gözəllikər, həm də acıqlı, eybəcər, fəlakətli. Allahın iki məkanı – cənnət, cəhənnəm, onun ikiüzlülüyünün ifadəsidir. (Məna-Gerçəklik məsələsi deyil). Allah sabit deyil, daim dəyişkəndir. İnsanı gah şirnikdirir (cənnətlə), gah da (cəhənnəmdə) qan-irin içirtməklə hədələyir. İblis tərbiyəsi alanlar cəhənnəmdə odlanırlar. Bu baxışda Allah bir sayılsa da, İblisin də bağımsızlığı var. Həm İblisin bağımsızlığı, həm də "Bir Olan Allah"da cənnət, cəhənnəm – dualizmin pis şəklə düşmüş qalığıdır.

Burada biz Tanrıçılığın üstünlüklərindən danışsaq da, yönümüz Mütləqə İnamadır. Tanrıçılıq Allahçılığa yeniləndən sonra dirçəlməyib, bundan sonra da dirçəlməsi alınmayacaq. Min ildir bir Baxışdan ayrılmış dünyanı hərəkətə gətirmək üçün bir çox yeniliklər gərəkir. Sıradan çıxarılmışa yenilik gətirmək özünü doğrultmur. Biz Mütləqə İnam baxışının qəbul olunmasını doğru sayırıq. Tanrıçılığın üstün keyfiyyətləri Mütləqə İnamda öz əksini tapır.

Bu gün Tanrıçılığı təbliğ edənlər var. Ancaq onların ərəbçiliyə dirənişi o çağkı Tanrıçıların (yenilmişlərin) dirənişindən çox gücsüzdür. Çünkü Tanrıçılıq – o çağdakıların yaşamında vardı, indikilərin biliyində, dilində. Ancaq Ocaqçılıq daha böyük, əsaslı, üstün ideya olmaqla yaşamımızda var. Ona görə həyata keçirilməsi mücərrəd deyil, yetərincə konkretdir. Başqa bir yöndən, Asif Ata bütün bəşəriyyətə gərək olan Allah ideyasını (Mütləq olanı) ortaya gətirir. Bu İnamda hər xalq öz xarakterini, böyük anlamda kimliyini qoruyub gələcək soylarına ötürmək olanağı əldə edir.

Burada gərəkən bir açıqlama verək: Fərqli dillər, fərqli mədəniyyətlər, fərqli dəyərlər olduğu halda, bir İnam olasıdırmı? – Bizə görə bir İnam, bütün xalqlarda, bir ruhaniyyatın olması

anlamına gəlmir. Çünkü ruhaniyyatın bəşəri prinsipləri ilə yanaşı milli prinsipləri də var. Məsələn, ədalət, sosial bərabərlik, toplumun insani qanunlarla təşkil olunması – ruhaniyyatın bəşəri çalarları sayıla bilər. Hər xalqın özünəxas gələnəkləri – toy, vay, bayram, məişət özəllikləri, şəxsiyyətləri, Tanrıya verdikləri milli keyfiyyətlər – ruhaniyyatın milli xəttidir. Hətta ədəbiyyatda, poeziyada belə, millilik, bəşərilik sınırları mövcuddur. İnamda Allah, başqa sözlə, Mütləq bir xalqı o birinin ayağına vermir. Daha doğrusu, xalqlararası düşmənliyi (ədavəti) aradan qaldırır. Çünkü münasibətlər hərbə, iqtisadiyyata, siyasətə deyil, İnsanlığın prinsiplərinə söykənir. Bununla belə, İnsanlığa qarşı yönəlmiş siyasəti sarsıtmaq üçün, düşünürük, bütün bəşəriyyətə bir İnam gərəkdir. İnam çox olanda mənafelər ortaya çıxır, başqa sözlə, mənafelər də çox olur. Mənafelər toqquşmalar yaradır. Bütün millətlərin birliyi, doğmalığı – faydaçılığı Xeyirlə əvəz eləməkdən keçir. Ruhaniyyat bir İnama dayansa, pozucu mənafeləri aradan qaldırar.

Din siyasətlə döyüşə bilmədi, çünkü öz içindəki yalanlar ona əngəl oldu. Din insanlığı qoruya bilmədi, dinin özünü qorumağa çalışdılar. Ancaq yalanı doğuran bir Baxış yalanla qorunub var ola bilməz. Çağımızda dinlərin döyüşü deyə bir şey uydururlar. Bunu da ən çox Göyel sayılan Xristianlıqla İslama özgün edirlər. Əslində isə Xristianlıqla İslamın döyüşü yoxdur. Döyüşüb nə edəcəklər?! – Bütün müsəlmanları xristiana döndərmək adında hədəf yoxdur axı. Sadəcə elə görüntü yarada bilərlər. Xristian sayılan Avropa ölkələri müsəlmanları xristianlaşdırarlarsa, o zaman onların doğal sərvətlərini asanlıqla sömürə bilməzlər. Onlara cahil müsəlman gərəkdir, öz içlərində döyüşdürsünlər, qıraqdan onlara (guya) qayğıkeşlik edib öz "böyüklüklərini" yeritsinlər. Döyüşüb Xristianlıq qələbə çalsa, Avropadakı hüquqçuluq, açıq-saçıqlıq, müsəlmanlarla öz aralarında, bərabərlik yarada bilər. Bunun olmaması üçün müsəlman elə müsəlman qalmalıdır.

Bu gün də Türk Dünyasını, ərəb dünyasını özləri ilə bərabər səviyyəyə buraxmırlar. Dinlərarası dialoq-filan buna qulluq edir.

İslamı heç kim Yer üzündən silmək istəmir. Çünkü dünyanı yönətən siyasi güclər bilir, İslam çöksə, millətləşmə sürəci başlayacaq, köklü xalqlar dirçələcək...

**- Sözardı -**

Dünya ona görə dağılır, Tanrısal məsələləri oyuna çevirdilər. Din öz Tanrı Anlamını oyuna gətirdi. Siyasət də dini terror ortamına çevirdi. Asif Ata bunları dərindən gördü. Ona görə dedi: "Zəmanə İnamını İnamsızlıq saydım, İnam yaratdım!".

Biz Azərbaycanda peyğəmbərlik olayı yaradırıq – İnsanlaşma, Millətləşmə (bizdə türkləşmə), Bəşərləşmə (Qloballaşma yox) gedişi yaradan Dünyabaxış!

Bir sıra hallarda Avropanın, ərəblərin, başqalarının adını qınaqla vurğulamağımız türk ayrılığı yaratmaq, türkü başqalarına qarşı qoymaq üçün deyil. Asif Ata bəşəriyyəti oyunlardan qurtarmaq üçün ruhsal savaşa başlayıb. Onun bütün düşüncələri insandan başlayır, insana üz tutur, insanda başa çatır. Ataya görə Allaha inanmaq İnsana inanmağı rədd etməməlidir. Allahı içində, yəni İnsanda görə bilməyənin Allaha inamına inanmaq doğru deyil. Allah insanda ifadə olunur, dərk olunur, yaşayır. İnsanı Allahın köləsi saymaq Allahı öldürməkdir. Çünkü yalnız Ağa özünə kölə istəyir. Allahı ağalaşdırma – onun qutsallığını rədd etməkdir...

Beləliklə, biz bu yazı ilə, Göyel dinlərin kitablarında Allaha, İnsana, Doğaya yanaşmanın bəzi çalarlarına aydınlıq gətirməyə çalışdıq. Özəllikcə Bibliyanın dediklərinə daha çox toxunduq. Bəşər övladı ayrı-ayrı çağlarda keçmişə ayıq baxmağa çalışır, ancaq gələcəyə uğurlu söz deyə bilmir. Hər kəs qüsuru görür, qınayır, ələşdirir, ancaq qüsursuzluğu görə, deyə bilmir. Bu çox prinsipial məsələdir. Nədən bilmir? – Çünkü üzdə görünəni görür, dərindəki səbəbi görmür. Dərindəki səbəb bilinməyəndə

isə, gələcək üçün doğru olanı da demək olmur. Bu açıdan baxsaq, peyğəmbərliyin, filosofluğun böyük önəm daşıdığını daha yaxşı anlamaq olur. Bizim yanaşmalarımız ona görə fərqlidir. Çünkü biz sadəcə qınayıb, ələşdirib keçmirik, yol deyirik. Çünkü İnam yaradıcısının, filosofunun sözünə, işinə arxalanırıq.

Biz, bəşəriyyətin keçdiyi yollarda yüksək tapıntılardan bəhrələnirik, yanlışları rədd edirik. Yüksək tapıntılardan bəhrələnəndə belə, onları təkrar eləmirik. Davam da eləmirik. Çünkü bu tapıntılar yanlışlarla çulğaşmış durumdadır. Məsələn, biz peyğəmbərlərin uğurlu işlərini qiymətləndiririk, ancaq zərərlərinə qarşı barışmaz oluruq. Belə olmasa, insanı qurtarmaq baş tutmaz. Şərlə Xeyiri bir-birinə qarışdıran düşüncələrdən bəşər övladının şüuru arınmasa, insanın özünüdərk məsələsi yeriməz. Ədalətdən, həqiqətdən danışmaq dəyərini itirər. Ədalət, həqiqət insanın özünü dərk etməsindən sonra yaşamağa başlayır. Bu sürəci həyata keçirən, yaşadan, qoruyan Tanrısal sistemdir. Tanrısal sistemi düzgün qurmaq gərəkdir. Biz də düşünürük, bu sistemi Asif Ata özündə düzgün qurub. Əgər siz də, sayğılı oxucular, Asif Atanı dərindən öyrənsəniz, bizim dediklərimizi təsdiq edərsiniz. Biz sizi, öyrənib təsdiq eləməyə – İnsanlaşmağa, Millətləşməyə, Bəşərləşməyə çağırırıq!

## Həyatın Anlamı görünəndən artıqdır

Bu günlərdə Lev Tolstoyun “Bugünümüzdəki köləlik” kitabını oxuyub qurtardım. Çox bəhrələndim, çox düşündüm. Öncələr də yazdığım kimi, Tolstoy İnsanlığa sevgini anladan məktəbdir. Ancaq bu məktəb yetərincə öyrənilib dərk olunmayıb. Bizə görə Tolstoyu bədii yaradıcılıq açısından dərk eləmək alınmaz. Çünkü onun həyata baxışı daha çox ruhaniyyatçılıq yönündədir. Ruhaniyyatçılıqda da özünəxas yanaşma ölçüsü var. Bu özünəxaslıq nədən doğur?! – O, içində yaşadığı xristianlığın başında duranları rədd edir, kilsədə yaşadılan anlamsız gələnəkləri, duaları insanlığa tərs sayır. İnamın oyuna çevrilməsinin yolverilməz olduğunu qabardır... İllər öncə Azərbayca-

nın basın yayınlarında bir yazıya rast gəlmişdim, nə yazıqlar, nə qəzetin, nə də yazarın adı yadımda qalmayıb. Yazıda belə vurğu vardı: "Ədəbiyyatda dahilik zirvəsinə qalxan Tolstoy İslam dinini sevmiş, onu qəbul etmişdir". Ola bilər, o yazar Tolstoyun xristian ruhanilərinə, kilsə yaramazlıqlarına qarşı söz deməsinə əsaslanırdı. Bu yazıda Tolstoyun düşüncəsi, dinə baxışı yazar üçün özəl bir önəm daşımırdı. Sadəcə İslamın bütün dinlərdən üstün olmasını əsaslandırmağa tanıqlar (şahidlər) axtarırdı. Halbuki Tolstoyun İslam dininə sayğı göstərməsinə, onu qəbul eləməsilə bağlı hər hansı fakt ortada yoxdur. Tərsinə, Tolstoy elə bu kitabında özünün xristian olması ilə qürur duyduğunu bildirir. Kitabda öz diliylə söylədiyi bir alıntıya baxsaq, buna yenidən tanıqlıq eləmiş olarıq: "Mən öz inancımın indiyədək olmuş inanclardan ən yaxşısı və ən doğrusu olduğunu demirəm, ancaq bundan başqasını da görmürəm – bundan sadə və aydın, ağılın və ürəyin bütün tələblərinə yetərincə cavab verən başqa bir inanc tanımıram; bundan yaxşı bir inanc olduğunu bilsəm, o andaca onu qəbul eləməyə hazıram. Axı mən Tanrıya doğruluqdan başqa heç nə gərək olmadığını bilirəm". ***("Bugünümüzdəki köləlik", Alatoran çapı, səh.24).***

Bu deyilişlərdə Tolstoyun Tanrı anlamına üstün bir biçimdə bağlı olduğu açıq görünür. Yuxarıda dediyimiz kimi, Tolstoyçuluq məktəbi düzgün öyrənilmədiyinə görə ondan bəhrələnmələr də tamam başqa yöndə özünü göstərir. "İnsan Tanrıya necə yanaşmalıdır, ya da Tanrı insana nə üçün gərəkdir?!" Tolstoyçuluq məktəbi ən çox bunu öyrətdiyi halda, həyatı oyuna çevirən din ruhaniləri Tolstoyu söyür, kimlərsə ondan öz daşıdıqları inanca süni üstünlüklər vermək üçün yararlanır, kimlərsə onu özünün bədii təxəyyülünün olanaqlarını artırmaq üçün öyrənir. İstənilən halda, yanaşma Tolstoyçuluğun həqiqi anlamına girmir. Tolstoyun yaradıcılığı insanlara bədii ədəbiyyatı deyil, insanlığı sevmək öyrədir. Xristianlığın elan elədiyi insana sevgi ideyasını uğurla öyrədir. "Özünə qarşı görmək istəmədiyin bir yanaşmanı sən də bir başqasına qarşı eləmə" çağırışının üzərində, az qala, peyğəmbərcəsinə vurğu eləyir. Mən

Soylu olaraq, Tolstoydan insana sevgi öyrənmişəm. Xristian deyiləm, ancaq əslində xristianlığın Tolstoyun həyatında yaşayan tələblərindən bəhrələnmişəm. Bəlkə də xristianlığın bəşərilik motivlərinin anlamı da bu cür məsələlərdə – bəhrələnmələrdədir. Düşünürəm, mənim daşıdığım dünyabaxışın (Mütləqə İnamın) tələbləri də mənim ömrümdə yaşayıb var olarsa, başqaları da mənim ömrümdən beləcə bəhrələnib varlığı təsdiq eləmiş olar...

Mənim soyumun yaşadığı yer Doğanın gözəl yerlərindən biridir. Dağları, meşələri, bulaqları, havası, sağlam həyat yaşamaq üçün, uğurlu bir ortamdır (zəmindir). Doğanın bu gözəlliyini insanlarımızın gözü görür, ürəkləri isə dərindən duymur. Güneylərə, düzlərə mal-qarasının örüş yeri kimi, meşələrdəki ağaclara soyuq aylarda, odun kimi, ocaq qalamaq qaynağı kimi baxır. Yəni məişət orbitində yaşayır. Kəndə getdiyim çağlarda insanlarımıza deyirəm, doğaya bir az fərqli baxmağa, gözünüzlə gördüklərinizi fərqli görməyə çalışın. Ola bilməz ki, doğanın bu gözəllikləri ilə təmasda olan, onun sağlam suyundan içib, sağlam havasını udanlar arasında, özündə, fərqli olanaqlar daşıyan olmasın. Aranızda elə adamlar olar, onların içində şair ola bilər, filosofluq, alimlik olanaqları (imkanları) daşıyarlar, özlərindən xəbərsiz. Onları üzə çıxarmaq gərəkdir. Soyumuz məişət düşüncələrini bir az ötə bilsələr, toplum üçün gərəkli olarlar. Baxış dəyişər, qonu dəyişər, yaxşılıqlar artar. Dedi-qodu azalar, ziyankarlıqlar aradan gedə bilər... Bütün bunlar mənim insan sevgimin görsənişləridir. İnsanlıqdan öyrəndiyim, öyrətmək istədiyim çalarlardır. İnsanların bir-birinə etkisini dərk eləməyənlər həyatı dəyişməyin olumsuz olduğunu söyləyirlər, axı sən kimsən ki, həyatı dəyişəsən deyirlər. Əslində isə insanlığı öyrənmək, yaşamaq, öyrətmək elə həyatı dəyişməkdir. Tolstoy da, insana sevgi yoluyla həyatı dəyişməyin yollarını öyrətməyə çalışır. Bütün bunları araşdırıb öyrəndikcə Tolstoy məni Asif Ataya daha da yaxınlaşdırır. Asif Atanın belə bir deyimi var: "Sufilərlə Hürufilərin arasında bir addım yol vardı. Ancaq bu bir addım min ilə bərabər oldu". İndi mən deyirəm:

Tolstoyla Asif Atanın da arasında bir addım yol var. Ancaq bu bir addım da min ilə bərabər oldu. Bu yazıda Sufilərlə Hürufilərin arasında bir addımın min ilə bərabər olmasına aydınlıq gətirməyəcəm. Ancaq Tolstoyla Asif Atanın arasındakı bir addımın min il anlamı daşımasına qısaca bir aydınlıq gətirmək istəyirəm: Tolstoy xristian sevgisini öz ömründə kamil bir qata qaldırdı. Ancaq Asif Atanı dinlər qane etmədi. O dinlərdən yüksəyə qalxan İnam yaratdı. Xristianlıq haqqında Tosltoy yazır: "bundan yaxşı bir inanc olduğunu bilsəm, o andaca onu qəbul edərdim". Asif Ata da bəşəriyyətin inanc sistemi içərisində daha yaxşısını tanımırdı. Bununla belə, indiyədək olanların içərisində daha yaxşı olanlardan birinə bağlanıb qalmadı, özü yeni Yol yaratdı. Xristianlığın insan sevgisi də ona az gəldi. Çünkü Xristianlıq insanı niyə sevmək üçün səbəb vermir. Sevilməli olan insanı balaca sayır, balaca görür, Tanrı qarşısında suçlu bilir. Bu ona bənzəyir ki, deyəsən alma çürükdür, ancaq onu yemək gərəkdir. Tolstoya qədər də "dünyanı sevgi qurtaracaq" deyənlər olub. Yəqin ki, bu deyiliş, genel olaraq, xristianlığın anlamından yaranıb. Ancaq bu söz bir şüardır. İnsanı kiçik bilib, suçlu sayıb onu sevməkdə yalan var. Suçlunu, kiçiyi sevmək, ən yaxşı halda, onu yazıqlayıb mərhəmət göstərmək anlamına gələ bilər. Bununla kiçiklik, suçluluq aradan qalxmaz, başqa sözlə, dünyanı qurtarmaq olmaz. Münasibətlərdə, davranışlarda balacalıq, suçluluq mərhəmət ölçüsüylə yoluna qoyulanda həyatın gözəlliyi dərk olunmaz, insan ömrünün kamilliyə yetməsinə inam yaranmaz. Elə-belə deyil, hər kəs insanla bağlı güzəşti ölçü kimi görür. Ona görə deyirlər: suçsuz insan olmaz. Bu, insana inamsızlıqdan irəli gəlir. Bu inamsızlığı dinlər yaradıblar. Biz demirik, insan suç işlədəndə ona güzəşt eləmək olmaz, onu çıxdanc eləmək gərəkdir. Biz deyirik, suça haqq qazandırmaq, kamilləşməyə inamın yolunu bağlamaq olmaz. Tərsinə olarsa, suç böyüyüb günaha, dönüklüyə çevrilə bilər. Nitşenin fəlsəfəsi əslində xristianlığın yersiz mərhəmətçiliyinə qarşı yarandı. Ancaq mərhəmətçiliyə tərs olan "üstün insan" ("fövqəl mən") ideyası daha pis xarakter yaradır. Yazıq insan-

dan güclü insan yaratmaq insanlığı təsdiq eləmir, qəddarlığı, amansızlığı savunur. Yenə deyirəm, genel olaraq mərhəmət duyğusuna qarşı deyilik, onun doğru zamanda işlədilməməsinə qarşıyıq. Mərhəmət duyğusunu aradan qaldıranda insanla heyvan arasında fərq aradan gedir. Mərhəmət insani duyğudur. Bu duyğunu suçun qorunmasına zəmin eləmək doğru deyil. Başqa anlamda bu duyğu insanı yanlış addımlardan qoruya bilən duyğudur. Məsələn, yanlış olaraq, ləyaqətli bir insan, mühakimə oluna bilər, ancaq ona mərhəmət göstərməklə yanlışı bəlirləyib doğrunu ortaya çıxarmaq baş verə bilər. Biz bu nöqtədən başlayaraq, nədən "dünyanı sevgi qurtaracaq" deyilişini şüar saydığımızı əsaslandıra bilərik. Eyni halda, bizim bunu əsaslandırmağımız daha böyük bir sorunun da cavabı ola bilər. Bu soru belədir: Mən niyə Mütləqçiyəm, ya da "Asif Ata nədən Yeni İnam yaratdı?". Bu sorunun cavabı oxucunu hara götürər, nələrə yönəldə bilər? – Bu, bizim cavabımızın doğruluğundan, səmimiliyindən asılıdır.

Asif Ata bizi Ocağına götürəndə (qəbul eləyəndə) bir Rica (adına dilək deyək. Bir var diləkcə – ərizə, bir də var Rica – dilək) yazdırardı. Nədən Ocağı seçirəm, Ocaqdan gözləntilərim nədir, Ocağa vermək istədiklərim nə?! Bu diləklər çox vaxt boğazdan yuxarı yazılır, hara üz tutulduğu, Ocağın nə demək olduğu dərk olunmur. Bununla belə, Ata bu "Rica"nı yazdırırdı. Söz yox, Ata bilirdi, Ocağa gəlmək üçün "Rica" yazan adam, az da olsa, sorumluluq daşıyır, oturub düşünür. Bəlkə kimlərsə öz yazdıqlarını unutmaz, onları doğrultmağa çalışar. Ancaq Ocağa üz tutanların içərisində özü, sözü qarşısında sorumluluq daşıyan adam çox az olub. Ona görə bu gün Ocaqda olanların sayı da çox azdır. Həyatda hər şey asandır, çünkü sorumluluq yoxdur. Həyatın anlamına yetmək isə çox çətindir, – burada İnsanlaşma yükü, sorumluluğu çıxır qarşıya. Ocağa gəlib-getmə də çox asan olub, ancaq qalmaq çətindir. Asan gəlib, asan gedənin özü qarşısında, vətənin, millətin, böyük anlamda insanlığın qarşısında sorumluluğu olmur. Gündəlik həyat normalarına, əslində nizamsızlığına uyğun yaşadığına görə əqidə onun üçün

anlam kəsb eləmir. Hamının biri olmaqdan yüksəyə qalxmır, mənəvi çatışmazlıqları – zülmü, əsarəti, alçalmağı ömründən qovmaq istəmir. Ona görə ədalətsizliyə boyun əyir, kölə taleyi yaşamaqla barışır. Bu, insanın özündən ayrılması, özünəyadlaşması, bioloji varlığa çevrilməsi gedişidir... Biz istəsək də, istəməsək də, insanın taleyi mürəkkəb qurulub. Belə də deyə bilərik: insan Doğanın ikili şəklidir. Yəni o, mövcud olmaq üçün bioloji proseslərə qatılır – yemək, içmək, geyinmək, çalışmaq (yəni əməklə uğraşmaq). Eyni halda, mövcudluğu ötən davranışlarda bulunaraq ölməzlik qazanmaq. Bu ikinci hal, artıq onun ruhani xislətinin işə keçməsidir. Başqa cür desək, mənəvi varlıq olduğunu sübuta yetirməsidir. İnsan ruhani tələblərlə yaşayanda özünəyadlaşma aradan qalxır. Özünəyadlaşmadan çıxmaq insan ömründə yeni anlam daşıyır, – şüur dəyişir, düşüncə dəyişir, vətən, millət, insanlıq öz anlamında gəlir ömrə. Bura qədər hər şey öz adında dilə gətirilsə də, ömürlə birlik yaratmırdı. Ancaq ömrün yönü dəyişəndə həyatda hər şey öz anlamı ilə dərk olunmağa başlayır. Asif Ata ömrün arınması, durulması gedişinə "Özüylədöyüş" adı qoyub. Özüylədöyüş yamanlıq yerinə yaxşılıq gətirir ömrə, dönüklük yerinə sadiqlik, alçaqlıq yerinə vüqar, qorxaqlıq yerinə cəsarət, tənbəllik yerinə hünər, maddiyyatsevərlik yerinə ruhaniyyatsevərlik, özünəyararlıq (mənfəətçilik) yerinə xeyirxahlıq. Bu, İnsanlığın nizamıdır, bu, həyatın gözəlliyidir. Bəs bir ömürdə buna yetmək mümkündürmü? Söz yox, mümkündür. Ancaq bunu asanlıqla demək olmur. Bunun üçün insanın xarakterində üç keyfiyyət bir araya gəlməlidir: 1. Doğrudan da, özünün ruhani mahiyyətinə uyğun yaşamağı istəmək; 2. Bu, istəyin doğrula biləcəyinə inanmaq; 3. İnamını doğrultmaq üçün ortaya iradə qoymaq. Bizim dediyimiz bu məsələ ilə ilgili tarixdən örnək soruşsalar, elə buradaca Tolstoyun adını çəkə bilərik. (Çağımızda isə tarixləri belə, ötə bilən örnək Asif Atadır). Öyrənənlər bilirlər, Tolstoyçuluq əslində onun 50 yaşından sonra başlayıb. O bunu özünün "Etiraflarım" əsəri ilə aydın bir şəkildə söyləmişdir. Yetənəkli, oxunaqlı əsərlərinin olmasına baxmayaraq, günlərin birində

özünə, yaşamını alt-üst edəcək sorular verir: "Mən kiməm, həyat nədir, mən niyə yaşayıram?". Üzdən adi görünən bu sorular onu böyük axtarışlara yönəldib. Sorularına doğru cavab bulmayınca çətinliklər qarşsıında sarsılıb, intihara cəhdlər edib. Ancaq içindəki həqiqət tələbi - həyatla, onu (həyatı) anlamadan üzülüşməyin yanlış olduğunu öyrədib. Tolstoy öz ömrünə yenidən başlayıb, əsil ruhaniyyat möminliyi qatlarına yüksəlib. Bu kitabında da həqiqətlə bir olduğunu, yazdıqları boyunca, uğurla anlada bilir. Kitabdan ilginc bir alıntını baxışınıza sunuram: "Beləliklə də, özümün pravoslav inancımı öz rahatlığımdan artıq sevdim, sonra xristianlığı kilsədən artıq sevdim, indi isə həqiqəti dünyada olan bütün şeylərdən artıq sevirəm. Bu yola başladığım gündən indiyədək, həqiqət həmişə mənim üçün öz anladığım xristianlıqla üst-üstə düşmüşdür". Bu cümlələrdən görünən odur, Tolstoy çox dərin, uzun axtarışlar yolu keçmişdir. Özünün anladığı xristianlığı da yalanlardan, miflərdən ayıraraq, insanlığa nəyin uyğun olduğunu aydınladaraq vurğu edir. Söz yox, xristianlığa bütöv yanaşmaq gərəkdiyini biz bilirik. Ancaq öncələr də yazdığımız kimi, biz Tolstoydan peyğəmbərlik uma bilmərik. O, yeni dünyabaxış yaratmayıb, yarada bilməyib. Ona görə də əski inanc – insana hansı səviyyədə gərək ola bilərsə, onun üzərində dayanır. Bizim üçün başlıca doğru olan məsələ Tolstoyun insana, varlığa yanaşmasında ideal bir səmimiyyətlə yaşamasıdır. Tolstoy öz inancında insana gərək olan yönü savunsa da, dinin toplum üzərində tabuya çevrilməsini, kilsələşməsini rədd edir. Belə olmasa idi, biz Tolstoyda yanıla bilərdik. Yəni bütövlükdə həyatı qapsaya bilməyən, bitkin bir ölçü verə bilməyən bir inancı (xristianlığı) bütöv şəkildə bizə sunmaq çaşdırıcılıq yaradardı. Yalnız "insana sevgi", "özünə qarşı pis şeylərin olmasını istəmirsənsə, sən də eləmə" deyilişini Tolstoy birgə yaşayışın düsturu saymaqla, insanları dinin yanlışa çəkməsindən qorumağa çalışır. Ancaq bununla o, elmi inanc yerində görənlərin yanında da dayanmır. Tolstoy elmin, hər yöndə, birgəyaşayışı doğruldacaq həqiqətlər ortaya çıxardığına inanmır. O deyir: "əslində belə bir elm yoxdur,

elm adlandırılan dəyər təsadüfi, bir-birindən asılılığı olmayan bilikləri bir yerə toplayır. Bu biliklər çox vaxt heç kimə gərək olmur. Bundan başqa bu biliklər nəinki danılmaz doğruluqlar olur, tərsinə, elmin bilik dediyi bu şeylər çox hallarda yanılmalarla sonuclanır. Bu gün doğru sayılanların sabah yanlış olduğu ortaya çıxır, elm də arasıkəsilmədən öz doğru bildiklərini danmalı olur... Belə elmin peşində olanların baxışları eyni ilə kilsənin heç vaxt yanılmadığını deyən ruhanilərin düşüncələrinə bənzəyir”. ***(“Bugünümüzdəki köləlik”, səh.29).***

Belə yanaşmalar, bizim çağımızda da var. Dinə bağlı olanlarla elmi baxışları ölçü götürənlər arasında açıq, gizli çəkişmələr gedir. Əslində ruhaniyyat, dinin başladığı çağlarda, sadə insanlar arasında daha tez yayılır. Hər zaman haqsızlıqla, ədalətsizliklə üzləşdiklərinə görə, ruhaniyyatın çağırışlarını öz xeyirlərinə sayırlar, belə bir çağırışın yörəsində birləşə bilirlər. Ancaq siyasət yönəticiləri ruhaniyyatın başına keçəndə oyunbazlıqlar başlayır. Sadə insanların öz haqlarının ödənməməsini, ədalətin bərqərar olunmamasını görməmələri üçün ruhaniyyatı fantastikləşdirirlər. İnsanların başı dinin uydurulmuş gedişlərinə alışmağa qarışır. Din başçılarından, yönəticilərindən əfsanəvi qəhrəmanlar quraşdırırlar, onların sadə, gerçək bir insan olduqları toplumun ağlına, düşüncəsinə yaxın buraxılmır. Ona görə toplum gözə görünməyən, qeybdə olan ilahiləşdirilmiş qüvvələrin nə vaxtsa ədaləti bərqərar edəcəklərinə ümid bəsləyir. Bu hal, çağımızda islam dininə tapınanlar içərisində daha çox işlənilir. Dindar kütlə hələ də “sahib-əz Zamanın – Mehdinin olmasına, nə vaxtsa gələcəyinə inanır. İkinci cəbhədə olan insanlar belə yanaşmaları əsas gətirib dini baxışları ələşdirmələrə girişirlər. Beləliklə, insanlığa özgün olmayan, insana yaramayan bir düzəydə çəkişmələr, döyüşmələr baş alıb gedir. Dini savunanlar hər zaman fantastik dəyərləndirmələrə dayanırlar, gerçək həqiqətlərə söykənmirlər. Belə götürəndə onların ağlı bundan uzağa da getmir. Onlar dini dəyərləri fantastikləşdirməsələr savuna bilməzlər. Çünkü Cəfəngiyyatın imkanı uydurmağa yetir, böyük həqiqətlərdən bəhs etməyə çatmır. Bu səbəbdən, qarşı cəbhə dinin fantastik dəyərlərini danarkən, düşüncə-

lərində ruhaniyyatın gərəksizliyi canlanır... Din öz fantastik dəyərləri ilə mədəniyyətin gəlişməsinə, Vətənçiliyin dərk olunmasına əngəl yaradırsa, bunu dananlarda isə kosmopolit düşüncə vətənçiliyin, millətçiliyin dərk olunmasının qarşısını alır. İstənilən halda, dini dananlar məsələlərə ateistcəsinə yanaşırlar. Bu isə bütünlükdə ruhaniyyatın danılmasına gətirib çıxarır. Ruhaniyyat da danılırsa, birgəyaşayışın nizamı yarana bilməz. Ruhaniyyatın danılması yolverilməz olduğu kimi, uydurulması da yolverilməzdir. Dinlərdə Tanrı-insan münasibətləri bütünlüklə uydurmalar üzərində qurulur. Birgəyaşayışın nizamı da ən çox bu nöqtədən pozulmağa başlayır. Çünkü İnsan hər şeylə uğraşdı, özüylə yox. Özünü deyil, özündən qıraqda nələrsə yaratdı. Ona görə yaratdıqlarına yenilməyə başladı. Tanrını da içində deyil, uzaqlığında yaratdı. Tanrıya boyun əydi, ona qurbanlar verdi. Ancaq pozuntulardan qoruna bilmədi. Bir yandan elm yaratdı, Doğa ilə öcəşdi, bir yandan da uydurduğu varlıqlarla ayaqda durmağa çalışdı. Alınmadı. Daim öz taleyi ilə oynadı. Taleyini oyuna salıb məhv edəcək şeylərə xərclədi ömrünü. Toplumun içindən biri çıxıb uydurmalara, uydurmalardan doğan pozuntulara "dur" deyəndə isə onu yamanladı, döydü, söydü, çıxdanc elədi. Qarışıq, dolaşıq məsələdir. Toplum xeyiri, şəri düzgün tanımır, ona görə həyatı dərk eləyə bilmir. Hər kəs həyatı əyən gedişlərə qatılır, ancaq heç kim özünü suçlamır. Hamı başqasını suçlayır, ancaq hamı başqasına baxır, özünə baxmır. Bircə an dayanıb özünə baxanlar isə toplumdan ayrılır. Özünə baxmağı bacaran özündəki yanlışlarla barışmır, mənəvi kamilliyə yetir. İnsanlığın qurtuluşunun insanın özündən asılı olduğuna inanır. İnsanın mənəvi kamilliyi isə təkcə birgəyaşayışın nizamını yaratmaq üçün deyil, geniş qapsamda əbədi məsələlərə bağlıdır. Deyək, insan öz varlığını əbədi, sonsuz olana bağlı dərk eləmirsə, sadəcə pisliklərdən çəkinərək, insanlara münasibətinin arılığını qoruyursa, onun mənəvi kamilliyindən danışmaq axıra kimi özünü doğrultmaz. Bu halı Tolstoy dinlə bağlayır. Tolstoya görə din – insanın sonsuzluqla özü arasında bağlılıq yaratmasına yardımçı olan dünyagörüşdür. Bir zaman o, hakim dinlərin bu məsələdə özlərini doğrultmadığını

da vurğu edir. O deyir: insanla sonsuzluq arasında bağlılıq yaratmayan dini din saymaq olmaz. İnsanla insanlıq arasında münasibət yaradan Kontun pozitivizm fəlsəfəsini də yetərsiz sayır. Tolstoy deyir: "Doğruçu din, insanın şüuru, bliyi ilə ziddiyyət yaratmadan, insan ilə onun içində yaşadığı sonsuz dünya arasında münasibət yaratmaqdır". Biz Tolstoyun bu təyinini doğru sayırıq, ancaq gerçəklikdə belə bir din mövcud deyildir. Tolstoyun əsil xristianlıq dediyi dünyabaxışda da, bu düşüncəni biz görə bilmirik. Odur ki, biz bunu Tolstoyun öz diləyi, düşüncə yönü sayırıq. Kilsənin yaratdığı xristianlıqla "başlanğıc xristianlığın" (İsaçılığın) arasında kəskin təzadlar ola bilər, ancaq bu təzadlar "başlanğıc xristianlığın" sonsuzluğu tam, doğru bəlirləməsi (təyin eləməsi) anlamına gəlməz. Söz yox, Tolstoy kilsələrdə sonsuzluğa münasibətin saxtalaşdırılmasını doğru aydınlaşdırır. Biz buna başqa dinlərin yanaşmasını da əlavə edirik, yəni saxtalıq təkcə kilsələrdə deyil, başqa dinlərin də məbədlərində həyata keçirirlir. Genel olaraq, sonsuzluğa münasibətin doğruluğu, bireysəl münasibətlərin (özbaşınalığın) ibadət evlərinə hakim kəsilməsindən sonra daha da korlanır. Ona görə çox vaxt məbədlərlə məbədlərin tabe olduğu Dünyabaxış arasında çelişkilər əmələ gəlir. Bunu qıraqdan izləyənlər sonsuzluğa münasibəti məbədlərdən qıraqda qurmağı doğru sayırlar. Ancaq bu tək-tək adamlarda yaranan düşüncədir. Çoxluq dinə şüurdan, bilikdən qıraqda dayanıb baxırlar. Bunların Tolstoyu Allahsızlıqda suçlaması doğal görünür. Tolstoy kilsənin insanla Tanrı arasına girməsini – insanın dərk prosesinə əngəl sayır. Kütlə isə araçı (vasitəçi) olmadan insanın Tanrını dərk etməsini mümkünsüz sayır. Ancaq bu o zaman özünü doğruldar ki, kilsəni yönətənlər Tanrını dərk eləmiş mömin öyrətmənlər olsunlar. Xristisnlıq tarixinin heç bir aşamasında belə bir faktın olmasına rast gəlinməyib. "Başlanğıc xristianlığın" özündə Həvariləri xristianlığın öyrətmənləri saymaq olar, ancaq həqiqətin öyrətmənləri saymaq çətindir. Bu açıdan düşünürük, Tolstoyun vurğu elədiyi əsil xristianlıq da "başlanğıc xristianlıq" deyil. Tolstoy "başlanğıc xristianlıq"da olduğu kimi insanları bir-birinə bərabər sayır, ancaq Tolstoyun belə sayması, özünəxas,

fərqli anlam daşıyır. Çünki "başlanğıc xristianlıq"da insanların bərabərliyi onların heç sayılması ilə eyniləşdirilir. İnsanlar suçlu törəmə sayılırsa, onların eyni dərəcədə haqlı olmalarını demək, hamısına ədalətin gözüylə baxmaq belə, qurtuluş yolu deyildir. Özünü suçlu törəmənin davamı saymaqla, insanların başqalarına qarşı axıracan ədalətli olacağına heç kim heç kimi inandıra bilməz.

İndi isə bu yanaşmalarımızdakı bəzi çalarlara aydınlıq gətirməyə çalışaq. Mən, Soylu Atalı olaraq, fəlsəfənin olanaqlarından yararlanıb bəzi məsələlərdə daşıdığım Dünyabaxışın, eləcə də milli-etnik kimliyimin xeyrinə yozumlar irəli sürmüşəm, başqa sözlə, yorumlarımı öz dünyabaxışımın, milli-etnik kimliyimin üstünlüyünü sübut etməyə yönəltmişəm. Ruhaniyyatçılıq isə ümumbəşəri açıdan yanaşmağı, yansız (tərəfsiz) davranmağı tələb edir. Ancaq yaşadığım, yaşatdığım ideyalara bağlı düşüncələrimi doğru saymaqda, doğru aşılamaqda haqsız deyiləm. Axı ortada danılmaz görsənişlər, gerçəkliklər var. Milli-etnik kimliyim Türklüyümdür. Türklük bəşər svilizasiyalarının gəlişməsində, xalqlara münasibətdə tarixə dəyərli örnəklər vermişdir. Bunu dünyanın bir çox qabaqcıl düşüncə adamları da etiraf etmişlər. İkinci bir yandan, bu gün dünyanı yönətən güclər əslində dünyanın nizamını pozmuşlar. Bu da ona görə olmuşdur ki, türkü dağınıq duruma gətirmiş, türklüyün bəşərdə yerini əksildərək etkisiz hala salmışlar. Daşıdığım dünyabaxışın üstünlüyünü vurğulamağa gəlincə, o da bu dediyim məsələ ilə sıx bağlıdır. Bizə görə türklüyün bəşərdə mənəvi-ruhani etkisi artmalıdır. Bu etkinin artması İnsanlığın yaşama qayıtmasında başlıca rol oynaya bilər. Türk dəyəryaratma, dəyəryaşatma açısından ən böyük bəşər xalqlarından biridir. Mənim daşıdığım Mütləqə İnam Dünyabaxışı da min illərdir bəşər mənəviyyatında çəkisi olan Türk dəyərlərinin sintezi, gəlişməsi kimi şəkillənmiş bir dəyərdir. Türk Doğasevərdir, Türkün Tanrısı Doğanın uyumundadır. Asif Atanın İnsanlaşma təliminin gəlişməsində Türk-Doğa Birliyinin böyük etkisi olmuşdur.

Bütün bunları deyəndən sonra qarşımıza bir soru çıxır: Bəs necə olub, Tolstoy kimi humanist doğruçu bir düşünər bu dedi-

yim keyfiyyətlərə heç yerdə toxunmayıb, dilə gətirməyib? İnsanlığı düşünən, insanla bağlı hər bir sorunu incələməyə çalışan bir düşüncə insanının gözündən yayına bilərdimi bu cür məsələlər?! O da ola, mən Tolstoyu, Asif Atadan sonra, özümün öyrətmənim sayıram. Çox ola bilər, çağdaş toplumsal bir yaşam sistemi olmadığına görə, başqa sözlə, türk panteizmi sayılan Tanrıçılığın yaşam gələnəkləri mövcud olmadığı üçün bu Dünyabaxışı hallandırmaqdan vaz keçib. Tarixdə dayanmış, bugünümüzə gəlib çatmamış bir dünyagörüşə Asif Ata da üz tutmayıb. Asif Ata özününkünü yarada bildi, Tolstoy isə özününkünü yaratmadığı üçün daha üstün saydığı birində dayandı. Burada Asif Ata ilə Tolstoyun baxışları arasında yeni bir fərqin də ortaya çıxdığını görürük. Tolstoy çağımıza kimi gələn dünyabaxışdan birində ən üstün cəhətləri görüb vurğulayır. Asif Ata isə bu dünyagörüşdə, eləcə də çağımızda yaşayan başqa dünyagörüşlərdə doğru olmayan çalarları daha çox vurğulayır. Söz yox, Asif Ata hansısa üstün cəhətləri də gözardı eləmir. Dediyimiz kimi, Asif Ata özünün Dünyabaxışını yaratdığı üçün əsaslandırmalıdır, - olanlar varkən nədən yenisini yaratdı?! Tolstoy isə qurtuluşa çağırmağını, mövcud dünyabaxışlardan ən yaxşı saydığının üstünlüklərinə dayanıb əsaslandırmalıdır. Bu məsələnin bir yanı. Məsələnin başqa bir cəhətini də vurğulayaq. Sual yarana bilər, nədən Asif Atadan, Tolstoydan başqa kimsənin  adını hallandırmırıq?! Yuxarıda da vurğuladığımız kimi, bizim üçün Tolstoy ədiblikdən, filosof-yazıçılıqdan daha çox ruhaniyyatçıdır. O, peyğəmbər işini yüksək qiymətləndirir, həyata, insana peyğəmbərcəsinə yanaşır, hətta insana əski peyğəmbərlərdən doğru yanaşır. Peyğəmbərlər toplumsal nizam xatirinə bəzi məsələlərdə insanı aldadırlar, Tolstoy insanı aldatmır, baxmayaraq, dünyabaxışlardan birini üstün sayıb onda daynır. Asif Ata isə Dünyabaxışlardan birini seçib onda, insanı aldatdıqlarına görə, dayanmadı... bununla belə, nə Tolstoyun, nə də Asif Atanın çağırışları toplumda sürəkli yerimir. Tolstoyun çağırışı xristianlıq üzərində qurulub. Xristianlıq isə iki min ildir var. Bəlkə yeni tələblər – etkisi köhnəlmiş bir baxışın üzərində vurğulandığı üçün özünü doğrulda bilmir. Asif Atanın

yeni tələbləri isə yaşamın səmtini dəyişməyə çalışan Yeniliyə dayandığından etkiləri çətin formalaşır. Çoxluq konservativ düşüncələrə bağlı olduğundan Yeniliyin yeriməsinə əngəl yaradır. Genel olaraq, Yeniliyə yanaşma açısından Asif Ataya baxışları üç qrupa bölmək olar: Birincisi, Asif Atanın işini bilməyən, dərk etməyən, qəbul eləməyən qrup. Buna dini düşüncənin etkisində olanları özgün eləmək olar. İkincisi, Asif Atanı bilmək istəməyən, qəbul etmək istəməyən qrupdur. Buna üzdə olan oxumuşlar, siyasiləşmişlər özgündür. Bunların baxışına əngəl olan məsələ Asif Atanın peyğəmbər adlandırılmasıdır. Onlara görə indi peyğəmbərlik çağı deyil, peyğəmbərə artıq gərək yoxdur. Biz dönə-dönə yazmışıq, demişik belə düşünənlər yanılırlar. Toplumsal yaşamda nə dəyişdi ki?! Elm ən yüksək düzəyə qalxdı, ancaq barbarlıq, gerilik, soyğunçuluq, talançılıq, savaş-qırğın aradan qalxmadı. İnsan öz növündən olana qənim kəsilib, həyat uğrunda heyvani döyüş görünməmiş düzəyə qalxıb. Ruhaniyyat varsa, Peyğəmbərlik varsa (hamının gördüyü kimi var da), bunlar yenilənməlidir. Siyasət nizam yaratmır, yaratmayacaq. Siyasət – nizamın pozulmasından yaranan gedişdir. Siyasət milləti, vətəni alver predmetinə çevirir. "Vətənə münasibət dəyişməlidir" yazmışdım: Vətəndə dəyər yaradıb, onu yaşatmaq – İnsanlığın ünvanına çevirmək gərəkdir. Onda torpaq müqəddəslik səviyyəsinə qalxar, niyə qorunduğunun dəyəri dərk olunar. Ancaq vətən – bir qrup hakim təbəqənin gəlir-qazanc ünvanı kimi qorunursa, bunun üçün başqa torpaqlara göz dikilir, ələ keçirmək üçün dinc insanları qırırlarsa, çoxluğun səfaləti, azlığın güzəran firavanlığı ödənirsə, sözsüz ki, torpaq müqəddəslik anlamını itirir. Yalançı patriotizm dəyərlər üçün deyil, ağalıq üçün ayaqda saxlanılır. Hər kəsə, dövlətin başında duranların ağzı ilə belə patriotizm aşılanır. Dövlət, – başında duranların əməlləri ilə vətən anlamına qarşı formalaşır, ona görə də sadə insanlar çaşır. Onların, müqəddəs saydıqları vətəndə, hər şeyləri əllərindən alınır, əzilir, basqı altında saxlanılırlar. Ona görə Vətəni – zor aparatı kimi çalışan dövlətə bərabər tuturlar, sevmirlər. Dövləti talançılar işğal edib başına keçirlər. Bir sözlə, işğal olunan dövlət ağalığa imtiyazlar yaradıb

onu qoruyur. Hamını da bu imtiyazların gərəkliyini qəbul eləməyə zorlayırlar. Beləcə, vətəni sadə toplumun gözündən salırlar. Sadə toplum səfalət içinə düşdükcə dövlətə, başqa sözlə, hakimiyyətə etiraz eləməyə başlayır (çünkü onun üçün dövlətlə hakimiyyət eyni anlam daşıyır). Bu etirazlar kritik həddə çatanda hakimiyyət qonşu xalqların dövləti ilə qovğa yaradır, öz toplumunun baxışlarını hədəfdən yayındırır, qonşunu hər kəsə ümumi düşmən göstərməklə öz eybəcərliklərini, talançılıqlarını ört-basdır edib ömrünü uzatmağa çalışır. Toplum bu tələblərə inanmayanda, hakimiyyətə boyun əymək istəməyəndə onu vətənə qarşı olmaqda suçlayır. Hətta etirazçıların yönəticilərini bu ad altında tutuqlayıb sıradan çıxarır. Sonra bu topluma yenidən patriotizm təbliğatı aparır. Belə bir eybəcər durumu siyasətlə yoluna qoymaq olumsuzdur. Bu ədalətsizliyi, toplumsal nizamsızlığı ruhaniyyatla yoluna qoymaq olar. Tolstoy da bu kitabında ("Bugünümüzdəki köləlik") siyasi patriotizmi rədd edir. Yəni bəşəri duyğularla patriotizmə qarşı çıxan Tolstoy, məncə, bu cür gedişləri gözə alır. Biz də belə düşünürük, insan dəyərdir, onu vətən üçün yaşadarlar, öldürməzlər. Vətən insaniləşərsə, insan özü vətən üçün könüllü fədakarlıqlar eləyə bilər. Vətəni qorumaq - ağalığı qorumaq yox, insanlığı qorumaq anlamı daşıyar. Ona görə də dövlətin başında duranların vətən obrazı toplumda sevgi yarada bilmir, daha da vətəni gözdən salır. Heç kim içində patriot olmaq istəmir. Zorla vətən sevilməz, zorla ruhaniyyat yaranmaz, zorla insanlaşmaq olmaz. Zor ölməlidir ki, hər şey əsilləşsin. Bütün bu deyilənlərdən sonra bir daha vurğu edirik: siyasətçilər, ya da siyasətə meyil edənlər Asif Atanı anlamaq, qəbul eləmək istəməz.

Asif Ataya yanaşmada üçüncü qrupa – onu bəlli bir yerə qədər bilən, ya da bilməyən, ancaq qəbul edən insanları özgün saymaq olar. Bunlar bizik - Asif Atanın davamında çalışan, bir də ona sayğı bəsləyənlər, yəni rəğbətçilər. Asif Atanı bilən çox azdır. Onları da ideal bilik yiyəsi saymaq çox tezdir. Genel olaraq, bu gün Asif Atanı qəbul edənləri də iki qrupa ayırmaq olar. Öncə onu deyək ki, Asif Atanın ideyalarından doğan tələblərə görə, gerçək olaraq Ocaqçıları qruplara bölmək olmaz,

heç kimə ayrıca üstünlük verilmir. Üstünlüyü fərd özü qazanır - ömrü, çalışmaları ilə. Sözsüz, ideyanı yaşadan qrumun yiyələri də onlar sayılırlar. Ancaq biz Ataya, Ocağa, Onun ideyalarına münasibətin fəlsəfəsini aydınlaşdırmaq üçün, Atanı qəbul edənləri, şərti olaraq, iki qrupa ayıra bilərik: Asif Atanın davamında olanlar; Asif Atanın davamında görünənlər. İdeyanı anlayan, ona bağlanan aşiqlər heyrətlilər davam sayılır. Onlarla bir yerdə görünən, ancaq öz məişəti, qayğıları ilə yaşayanlar isə davam kimi görünməyə çalışanlardır. Obrazlı desək, içəri girə bilmirlər, qırağa da dura bilmirlər. İçəri girəndə boğulur, dışarı duranda heç olurlar. Ona görə böyük ideyaların yükü sabaha ağır daşınır. Biz aşiqlik olmadan, heyrət duyğusu yaranmadan Yola düşməyi mümkünsüz sayırıq. Bəs duyğular necə yaranır, nə ilə ünsiyyətdə yetkin şəkilə düşür?! Genel olaraq, bəşər övladının duyğuları ən çox Doğa ilə ünsiyyətdə yaranır. Ruhani anlamda insanın duyğuları Tanrı ilə ünsiyyətdə biçimə düşür, həyata, dünyaya baxışı formalaşır. Tanrını da insana tanıdan, yəni insan-tanrı ünsiyyətini yaradan dinlər olub. Dinlərin Tanrı obrazında yalanlar olduğuna görə insan-tanrı münasibətlərində də doğruluq başa varmayıb. İnsanın Tanrıya münasibətindən nisbi duyğular yaranır. Bu isə yaşamdakı bütün münasibətlərin əyilməsinə nədən olur. Tostoy da bu kitabında insanın Sonsuzluğa münasibətinin doğru bəlirlənməsini gərəkli vurğulayır. Yəni belə də demək olar: Sonsuzluğa baxış, yanaşma dəyişilməlidir. Bunun üçün Sonsuzluğun özü də insan üçün tam aydın olmalıdır. Tolstoy Sonsuzluğu, qəbul elədiyi dünyabaxışın üstünlükləri araçılığı ilə öyrətməyə çalışır. Asif Ata isə, vurğuladığımız kimi, daha çox qabağa gedərək parlaq, danılması mümkün olmayan düşüncələr ortaya qoyur. Bəs nədən onu qəbul edənlər bilməkdə, anlamaqda gecikir, nəzəri olsa da, fərqli yaşam cəbhələrinə ayrıla bilirlər?! Bizə görə bu, artıq bireysəl olanaqlar açısından dəyərləndirilə bilər. Yaşam ortamının çətinliklərinə yıxılmamaq, dünya nemətlərinin şirinliyinə uymamaq, ömrü bayağılaşdıran gedişlərə direniş göstərmək - içdən güclü olmaq tələb edir. Bunun asan olmadığı da bəlli. Eyni halda, Asif Atanı qəbul edənlər, dini qəbul etməsələr belə, dinin

Tanrı obrazı ilə ünsiyyətdən tam ayrıla biliblərmi? Belə də soruşa bilərik: Asif Atanın dəyərləndirdiyi, obrazlaşdırdığı Mütləq olanla ünsiyyətə girə biliblərmi?! Onlarda duyğular nədən qaynaqlanır?! Bu sorğulara da biz, nəzəri olaraq, cavab verə bilərik. Yaşantılar göstərir ki, Mütləq olanla ünsiyyət çox yetərsizdir. Bu yetərsizliyə görədir, qıraqdan Ocağa münasibət tam bəlirliyini (müəyyənliyini) tapmır. Yəni Asif Atanın ideya-prinsiplərini başqalarının araşdırıb öyrənmək istəyi aktiv düzəyə qalxmır. Söz yox, burda başqalarının yanlışlıqları da açıq görünür. Belə ki, ideyaya qiymət, onu daşıyanların ömrünə, davranışına görə verilir. Bu isə bütün hallar üçün doğru sayıla bilməz. İdeya bir çağın insanlarının işində bütöv üzə çıxıb ifadə olunursa, tarixə çevrilməsi, arxivə qoyulması ədalətli sayıla bilməz. Bu gün Ocaq haqqında üzdən baxıb, ələşdirmə açısından çox şeylər demək olar. Bu zaman deyilənlərin çoxu doğru da ola bilər. Yəni Ocaq insanının yanlış davranışlarına, zəifliklərinə qıraqdan verilən qiymət doğru ola bilər. Ancaq 41 ildr ortada olan yeni bir olayın yaşadılması bu deyilənlərdən qat-qat dərində olan zəhmətlərlə, fədakarlıqlarla başa gəlmişdir. Nə yazıqlar, belə zəhmətləri çağın özü qiymətləndirə bilmir, gələcək qiymətləndirir. Mən yazmışdım: dini qəbul eləməyənlərin çoxu dinin ideyalarındakı yanlışlardan daha çox dindarların davranışlarındakı yanlışlara əsaslanırlar. Bu yanaşmada hədəf yanlışın özü olmur, yanlışı eləyənlər olur. Bu isə pozitiv dəyişikliklərə gətirib çıxara bilməz. Gəlişmə doğruçu dəyişikliklərə bağlıdır... Ancaq başqalarının yanlış dəyərləndirmələri ideya daşıyıcılarının arxayınlaşması üçün tutalqa da sayıla bilməz. Özəllikcə Ocaqçılar üçün belə bir bəhanə yoxdur, ola bilməz. Onlar Mütləqilik ölçüsüylə, tələbiylə yaşamağa borcludurlar. Bu borcun ödənməsi isə təkcə qıraqdan baxanlara hesablanmır, həm də onların insani kimliyinin gələcəyi bəlirlənmiş olur. Ancaq dediyimiz kimi, bütün bunlar yuxarıda qoyduğumuz soruların (Ocaqçılar Mütləq olanla ünsiyyətdə ola bilirlərmi; onlarda yaşam duyğuları nədən qaynaqlanır?!) nəzəri cavabıdır. Gerçək cavabları Ocaqçıların özüylədöyüş əməlləri verə bilər. O da hələlik ya yoxdur, ya da olduqca zəifdir. Bu, ortadan qalxmasa

Ocaqçılıq kimi bir dəyər uzun illər arxivə gömülə bilər. Ona görə Ocağın onu dərindən anlaya bilən insanlara böyük ehtiyacı var. Bu gün Ocağa yaxın olan adamların da, Ocaqçıların da Ocaqla bağlı davranışları, dediyimiz kimi, bu ehtiyacdan uzaqda görünür. Çünkü Ocağa gerçəkliyin (reallığın) tələblərində sınırlanan ağılla yanaşırlar. Biz ağıla qarşı deyilik. Ancaq ağıl yaşamaq nizamı yaradan gücdür, yaşamaq anlamına girə biləcək güc deyil. Hamıda ağıl olur, Doğa bəşər övladından bunu əsirgəməyib, ancaq yaşamın anlamını anlayacaq hünər yoxdur. Bu isə təkcələrdə olan keyfiyyətdir. Elə Ocaqçılıq da təkcələrin işidir. Ağıl yetkinliyi - alovlu, emosional ürəklə bütövləşəndə Ocaqçılıq aşamalarla sabaha gedə biləcək. Bunu yaratmaq, obrazlı desək, adamdan Allah olmaq istəyir. Öncələr yazmışdım: Ruhaniyyat - ağıllı adamların deyil, heyrətli adamların işidir. Heyrətdən uzaq ağıllı adamlar Asif Ataya yaxınlaşdıqca Ocaq arxivə çevrilə bilər. Ocağı ilk olaraq, onlardan qorumaq gərək olacaq. Gerilikçi düşüncələrdən Ocağı qorumaq asandır. Onlardan qorumaq çətin. Bu həqiqəti bilmək, anlamaq gərəkdir...

Belə götürəndə, Tolstoyun yaşamla bağlı dedikləri Asif Atanın dedikləridir. Ancaq Asif Atadakı kimi bitkin, sistemli, bəlirli deyil. Ona görə də Tolstoy peyğəmbər deyil, Asif Ata peyğəmbərdir. Əgər Asif Atadan peyğəmbər sözünü alsan, o da Tolstoy kimi sevilən düha olacaq, ancaq Yol olmayacaq...

Asif Atanı "düzəltməyə" çalışanlar, daha doğrusu, olduğu kimi bütöv qəbul eləməyənlər Ocağın yaşamasına, yeriməsinə əngəl olacaqlar. Əngəl düşüncələri Ocağa yaxın buraxmaq olmaz.

Beləliklə, mən yenə Tolstoydan Asif Ataya gəlib çıxdım. Yol məni buraya gətirib çıxartdı. İçim belə köklənib, işim belə qurulub!

# İkinci Bölüm

## (İdeoloji yöndən axtarışlar)

## Özgürlüyün Özülü

Toplumsal (ictimai) şüur deyilən bir anlayış var. Bu anlayışa hər kəs fərqli yanaşır. Kimi deyir toplumsal şüur dəyişməlidir, kimi deyir toplumsal şüur xalqımızın əskidən gələn düşüncəsinin göstəricisidir, ona toxunmaq olmaz. Bu anlayışa yanaşma bütün çağlarda belə olmuşdur. Bəs necə olmalıdır – toplumsal şüur dəyişməlidir, yoxsa toxunulmazdır? Əslində toplumsal şüur ulusal şüur anlayışının doğru, ya da yanlış yön alan göstəricisidir. Ulusal gələnəklərin yenilənməsi, gəlişməsi ilə bu şüur ulusun özünəxaslığını yaşadır. Gələnəklərin özgələşməsi ilə toplumsal şüur da pisə doğru dəyişilir. Buna görə də toplumsal şüuru etalon kimi tutmaq olmaz. Varlığın anlamı gəlişmə ilə dərk olunur. Gəlişmə yoxdursa, geriçi şüur ulusda bir çox dəyərlərin itirilməsinə, sıradan çıxarılmasına gətirib çıxarır. Ancaq "gəlişmə" anlamına da doğru yanaşmaq gərəkdir. Özümlüyünü itirib özgənin çağdaşlığına tapınmaq gəlişmə sayıla bilməz. Toplumsal şüurun dəyişilməsini də bu açıdan aydınlaşdırmaq olar. Yəni gəlişmə ulusal dəyərlərin yaşanmasında, yaranmasında yenilənmə deməkdir. Bütünlüklə başqalarının mədəniyyətinə qoşulmaqda gəlişmə deyil, geriləmə olur.

İndi toplumsal şüurun gəlişməsi anlayışına aydınlıq gətirək. Bizim toplumumuzun etnik kimliyi türkdür. Deməli, gəlişmə türklüyə özgün olan bütün düşüncələri qapsamalıdır. Türk ulusal şüuru ingilis, rus, ərəb şüuruna dönüşə bilməz. Dönüşərsə, onda türklükdən danışmağın heç bir anlamı qalmaz.

Yaxın ilsırada (tarixdə) bizim ideoloji türkçülərimiz olub. Onların, türkçülüyü dirçəltməklə bağlı, ciddi çalışmaları olub. Onlar ideoloji özüllər üzərində işləyəndə vurğu ediblər: "dildə türkçülük, mədəniyyətdə türkçülük, estetikada türkçülük, əxlaqda türkçülük, hüquqda türkçülük, dində türkçülük, iqtisadiyyatda türkçülük, siyasətdə türkçülük, fəlsəfədə türkçülük". Bir sözlə, yaşamın bütün çalarlarında türkçülük. Çox gözəl, çox doğru vurğudur. Ancaq bu prinsiplərin anlamına girəndə, çox

hayıf, bütün hallarda doğru məntiqə bağlanmaq olmur. Bunlardan birini aydınlaşdırmaqla dediyimizin doğruluğuna baxaq. Ulusal şüur ruha, ruhçuluğa bağlı olduğundan "dində türkçülük" anlayışının üzərində dayanmağı doğru sayırıq. Çünkü ruhçuluğun etkisi birbaşa inamla bağlıdır. Deməli, ideoloji türkçülərimizin "dində türkçülük" anlayışları bu baxımdan ilginc görünür. Biz burada onların – "Türk millətindənəm, Batı mədəniyyətindənəm, İslam ümmətindənəm" kimi düşüncələrini kökündən yanlış sayırıq.

Türkçülüyün yaşamda etkiyə çevrilməsi o çağ üçün önəmli olduğu kimi, bu çağ üçün də önəmlidir. Ancaq gözə almalıyıq, türkçülük, onların dediyi kimi, dində özünü doğrulda bilməz. Çünkü onlar türk şüurunu, düşüncəsini dinə gətirmirlər (bu heç olası iş də deyil), sadəcə dinin ritualларını, dualarını türkcəyə çevirməyi uyğun görürlər. Bununla isə heç nə dəyişmir, dəyişə bilməz. Biz bildiririk, ərəb dünyagörüşünün ifadəsi olan İslam dini ulusal anlama, anlayışa qarşıdır. Ümmətçilik ideyasının hədəfi ulusçuluq şüurunu vurub sıradan çıxarmaqdır. Əgər ulusçuluq sıradan çıxarılırsa, qaçılmaz olaraq, ulusa özgün olan dəyərlər də, keyfiyyətlər də dışlanır. Burada artıq "dildə türkçülük" ideyası da zədə götürür. Dil ulusa xas olan əsas keyfiyyətdir. Ümmətçilikdə isə başlıca dil ərəb dilidir, mədəniyyət ərəb mədəniyyətidir, anlayışlar ərəbcədir b.k. Deməli, dini nəsnələri türkcəyə çevirməklə ulusal şüurun gəlişməsini sürdürmək olan iş deyil. Bu çağa kimi olmayıb da. Bu gün də ərəb dünyagörüşünün basqısı altında olan türk, din qurallarını türkcəyə çevirmir, elə ərəb dilində də yaşadır.

Bu günlərdə bir iş yoldaşımız öldü. Onu basdırmağa getdik, ulusal şüurun nə günə qaldığını izlədikcə əzab çəkirdim. Bütövlükdə bu gedişdən özümü, millətim adına, alçalmış duyurdum. Hamı əlini göyə açıb cavan mollanı dinləyir. Molla da özünü yerin-göyün sultanı kimi aparır, dil boğaza qoymurdu. Hamıya "yaxşı davranmaq" (yəni sakit olub onu dinləmək) göstərişi verir, ərəblərin, din yiyələrinin 9 arxadönəninə "rəhmət" oxuyurdu. Onların kölgəsində də ölənin günahlarının ba-

ğışlanması üçün Allaha yalvarırdı. Ən eybəcər cəhətlərdən biri də budur, molla ölənin adını da ərəbcə deyir. Onsuz da adlarımız, soyadlarımız ərəbcədir. Üstəlik molla "oğlu" sözünü işlətməyi də uyğun bilmir, "Ələkbər ibn Səməd" deyir. Hər dəfə bunu eşitdikcə yerə girməyim gəlirdi. Vətənimizdə bizim gələnəyimizə bir baxın. Anamızın layla dilini, gözümüz baxa-baxa, dəyərsizləşdirirlər, heç kəs də səsini çıxarmır.

Bəri başdan mənliyimiz kölgələndirilirsə, ulusçuluğa necə yetə bilərik?! Dilin gücü ideyaya bağlıdır. İdeya da yabançıdır, yanlışdırsa, yazılarımızda türk sözlərini işlətməyimiz hansı gərəkən dəyişiklik yarada bilər ki?! Min ildir İslam dini şüurumuza köləlik aşılayır. Yaxşı, köləliyi ərəbcə deyil, türkcə eləyəndə nə dəyişəcək?!

Buna görə biz ideoloji türkçülərimizin bir sıra baxışları ilə razılaşmırıq. Bildiririk, türkçülük ideoloji hədəf deyil, ruhsal hədəfdir. Başqa sözlə, türkçülüyün yeni anlamını – ruhsal türkçülük aşamasına başlamaq düşüncəsini irəli sürürük. Ulusal varolma siyasal istək ola bilməz. Bu, bəşəri tələbdir. Siyasət mənafelər davranışı olduğundan türkçülüyü mənafelər döyüşünə çevirmək olmaz. Bu gün bizi çevrələyən gedişdə (bütövlükdə dünyada) biz ulusçuluğun siyasətə çevrilməsini izləyirik. Məsələn, rusçuluq, ingilisçilik, farsçılıq... Bu "çılıq"lar ulusal-mənəvi təsdiqə deyil, başqalarına basqı göstərməyə hesablanıb, basqı yaratmağa köklənib. Türkçülüyü bu sıraya qatmaq, onu bəri başdan yox etmək demək olar.

Beləliklə, biz ruhsal türkçülük ərdəmliyi irəli sürərək, "İnam Türkçülüyü"nün təsdiqinə çalışmağı doğru sayırıq. İnam Türkçülüyü – Türkçülüyə buxov olan dini biryolluq rədd edir. Ümmətçilik yerinə sağlam, bəşəri anlam daşıyan ulusçuluğu (milətçiliyi) yetirir. Bunun üçün insanlarımızın içi, şüuru, düşüncəsi dindən ayrılmalı, özgür olmalıdır. Dilin başlıca qoruyucusu olan analarımızın şüuru dəyişilməlidir. Layla dilimizi yaşadan ana, ərəb şüuru ilə buxovlanmamalıdır. İnam – beşiyimizin işığına çevrilməli, analarımızın sevincinə qonmalıdır. Onda şüu-

rumuz ulusçuluğumuza köklənəcək. Vətənə də, anaya da, ulusa da yanaşma yenilənəcək...

Deyirlər, insan hər şeyini dəyişə bilər – dilini, mədəniyyətini, vətənini, inancını. Ancaq atasını, anasını dəyişə bilməz. Burada ataya, anaya yanaşmanı doğru saysaq da, bütövlükdə qarşılaşdırmanı doğru saymırıq. Biz isə deyirik: insan üçün bir vətən, bir də ana mühakimə olunmaz. Yeri gəlsə, ana da mühakimə olunar. Əgər o dünyaya övlad gətirib sonra atarsa, analıq haqqını itirər. Deməli, ana daşıdığı əzaba görə haqqını itirmir, haqlı ana isə mühakimə olunmaz. Başqa sözlə, analığı yaşadan ana mühakimə olunmaz.

Yeri gəlsə, ulus da mühakimə olunar – özünə qarşı yaşayarsa. Ancaq Vətən heç çağ mühakimə olunmaz. İnsan Vətənə dönüklük edə bilir, vətən insana dönüklük eləmir. Vətən kök verir, dil verir, mədəniyyət verir, daha böyük anlamda ruh verir. Vətən böyük məsələdir. Türkçülükdə vətənçilik qutsaldır. Dində vətən ötəridir, fanidir, heçdir. Çünkü dində insanın hədəfi "Axirət dünyası"na qovuşmaqdır. Yaşadığımız dünya fanidirsə, vətən yoxdur. "Axirət dünyası" üçün yaşayanlar vətəni sonacan sevməz, qorumaz.

Dil, Vətən, Ulus – bizim özgürlüyümüzün özülüdür. Hər üçü dində sıradan çıxarılır. Ona görə Türkçülüyə çağıranlar, özünü Türkçülük yolunda sayanlar məsələni dərindən düşünməlidirlər.

## Ruhsuz törənlər gələnəyi

Xalqda evlənmə törəninin adına toy deyirlər. Belə götürəndə bu törənin məzmunu da "toy" sözünün altında həyata keçirilən əməllərdən oluşub. Düşünürük, "toya çağrılmaq" deyilişinin yerinə "evlənmə törəninə çağrılmaq" deyilişi daha yaxşı səslənərdi. Ancaq burada istəyimiz, sözün mənşəyinin hardan başlamasını araşdırmaq deyil, sözün ifadə elədiyi bütöv bir gələnəyə baxış yönəltməkdir. Evlənmə əməli xalq yaratmanın özül olayı-

dır. İki gəncin ailə qurması mənaca bir evin faktı kimi sınırlaşa bilməz, dediyimiz kimi, elin, ya da xalqın varlığına özgündür. El yığılır, törən keçirir, bayram əhvalına dolur, öz tanıklığı ilə iki gəncin ailə olmasını kanıtlayır. Ona görə də evlənmə törəni bu məzmunu ifadə eləməlidir. Ancaq eləyirmi?! Nə yazıqlar, yox! Mən Asif Atanın ölümündən bu çağa kimi, toplamda, 4-5 yol çağdaş toy gələnəyinin törənlərinə qatılmışam. Söz yox, öz istəyimə, iradəmə qarşı getmişəm. Ən yaxın qohumların israrına etiraz edə bilməmişəm. Bu tədbirlərin də hər birində uğurlama sözü deyib qıraqda dayanmışam, restoranın həşirində oturmağa dözməmişəm. Gurultulu sözlər işlətməyi sevmirəm. Ancaq deməliyəm, restoran ortamında restoran qualları ilə həyata keçirilən evlənmə törəni mənim varlığımı sanki aşağılayır, fiziki, mənəvi işgəncəyə uğradır. Hər dəfə o tədbirlərdə oturub çıxanda beynimdə, qulaqlarımda yaranan küydən sarsılıram. İşin mənəvi çalarına gəlincə, süfrə arxasında növ-növ şərab içənlərin bayağı, sürü halında oynamaları törənin anlam ciddiyyətini tamam heçə endirir. Xalq ruhuna uyğun olmayan, bayağı restoran musiqisi toplumu manqurtlaşdırma əməlindən başqa bir şey deyil. İnsanlar buraya nə üçün yığışıb, nə baş verir, bəlli olmur. Hər kəs öz həşirində. Başlanğıcdan sona qədər bu törən tüfeyli həyat sürənlərin əməlinə bənzəyir. Törənin mahiyyəti dərk olunmur. Ailə niyə qurulur, nə deməkdir, – bu məzmunda yarımca cümlə belə, deyilmir, qutsal söz söylənilmir, uğurlama verilmir. Milli ruhu ifadə eləyən, qoruyan gələnək, sıradan çıxarılaraq, tərəqqi zərbə altına atılır. Toplum bu dediklərimizi bəlkə də alçaltma mənasında anlayar. Halbuki milli kimliyə yadlaşmanın özü ən böyük alçalmadır. Bu gün bizim, bir xalq olaraq, yaşam tərzimiz özü alçalmadır. Sürüləşməyə etiraz etməyən toplum xalq sayıla bilərmi?! Suç kimdədir, kimdən umaq, bizi özümüzə yadlaşdıran gedişlərə dur desin?! Hər kəs hər kəsi söyməkdə, hər kəs hər kəsi suçlamaqda. Xalq öz içində nizam yarada bilməyəndə qıraqdan qurtarıcı axtarır. Ancaq "Qıraq" heç vaxt qurtarıcı vermir, Qəsbkar verir. Toplumumuz,

pis şeylərə, boyunəyməyə elə alışdırılıb, istər içərinin əliylə olsun, istər dışarının, daim kölə kimi yönətilirik.

Bu günlərdə bacım, oğluna toy elədi. Xəstə bacımın sözündən keçmədim, tədbirinə qatılmağım qaçılmaz oldu. Mənaca qutsal olan evlənmə törəninin eybəcər hala salınmasının bir daha görəni oldum. Hər şey sözdən başlayır. Söz qutsaldır – nizamdır, uyumdur, yoldur. Evlənmə törənində söz aradan götürülüb. Uğurlama verən yox, ağsaqqal yox, ağbirçək yox. Ürəklərdən sevinc səsi, sevgi sözü eşidilmir. Qurulan ailənin mərifəti nədir, gələcəyi nə olacaq? Evlənənlərə münasibət bu dərəcədə bayağı olduğu halda, onlar xalqın mənəvi quruculuğuna hansı dəyərləri verəcəklər?! Bu səviyyə ilə ailə xalq yarada bilməz, döl artırıb sürü yaradar, toplum yaradar – milli kimliyini bilməyən, dəyəri tanımayan ruhsuz bir toplum.

Mən bacımın tədbirində yönətimə qarışmaq, söz demək, yön vermək istədim. Ancaq nə yazıqlar, mənim belə bir haqqımın olmadığını bildirdilər. Törənin yiyəsi restorandır, onun da öz quralları var: süfrəyə düzdüyü yüz adda "təamlar"dan dadmaq, şərabdan içib ortalıqda ritmsiz, mənasız bir musiqi altında oynamaq (daha doğrusu, atlanıb-düşmək). Süfrədə yeməyi də boğazına restoran qulluqçuları dürtür. Sonra oğlunu, qızını (bəyini, gəlinini) götür get, restoran da öz pulunu saysın. Xalqın gələnəyini bundan da aşağı səviyyəyə salmaq, toplumu düşündüyümüzdən də betər alçaltmaq olarmış...

Restoran tədbirlərindən çıxandan sonra hər kəs deyinir, ancaq heç kim bu gedişdən boyun qaçırmır (imtina eləmir). Bunu olumsuz görürlər. Guya törən keçirməyə ünvan yoxdur. Yalandır! Artıq kəndlərdə də bu gələnək həyata keçirilir. Məsələ ünvan məsələsi deyil, toplumun iradəsizliyi məsələsidir. Bu məsələni nizama salmaq üçün toplumun açıq etirazı, dövlətin işə qarışması gərəkdir. Ancaq gözə alsaq, restoranların yiyələri pulçulardır, pulçuluğun da arxasında məmurlar dayanır, məsələni bu üsulla yoluna qoymaq çətinləşir. Ona görə də biz, Asif Atanın Mütləqə İnam Ocağı, xalqımıza yeni milli qurallar önəririk. O sıradan, evlənmə quralı olaraq, "Beşikbaşı Törəni". Bu

quralı diləyən, bizə yaxın olan, insanların həyatında gerçəkləşdirmişik də. Biz sadəcə çatışmazlıqları ələşdirmirik, həm də doğru olanı həyata keçiririk. Həyətlərdə çadır qurub, ya da uyğun Odalarda Milli Ruhumuzu ifadə edən insani bir Quralı – "Beşikbaşı Törəni"ni həyata keçirməkdə heç bir sorun görmürük. Millətini sevən, onun gələcəyini düşünən insanlarımız ortaya iradə qoymalıdır.

## Özümləşmək tələbi

*xxx*

Mədəniyyətlər xurafat üstə qurulur – ya dini xurafat, ya da ideoloji xurafat. Azərbaycanda mədəniyyət dəyişiklikləri, yüzillərdir, özümləşmə yönündə yox, həm dini, həm də ideoloji cəhətdən baş verir. Son dəfə, 90-cı illərə qədər, ərəbçilik xurafatı kommunist-atesit xurafatı ilə üstələnmişdi. Sonra isə Batının demokratik xurafatı ilə qaynayıb-qarışdı. Mədəniyyətlərin (?) qarışmasından yaranan toplumsal ortam qarşısıalınmaz bir anarxiya durumundadır. Mədəniyyətdə özgələşmə, dini, ideoloji basqı millətimizi toplumsal, siyasal uğursuzluqlar orbitində saxlayır.

*xxx*

Bu gün millətimizin mənəvi dayaq nöqtəsi isə hələ də ərəbçiliyin uğursuz quramalarında, başqa sözlə, xurafat göyündədir. Ona görə də milli bəlirliyimiz başı üstədir. İçində dayaq nöqtəsi olmayanın özgürlüyü əsarətə düşür.

*xxx*

Dinin fəziləti ideala bağlı olan, yəni olanaqda olan fəzilət deyil. Cəfəngiyyata bağlı, olanaqda olmayan, yəni gerçəkləşməsi baş tutmayandır. İdealda olan fəzilət, mücərrəd olsa da, can atılan, gerçəkləşməsi gözlənilən fəzilətdir. Dini fəzilət cəfəngləşən mücərrədçilikdir. Dinin ideyaları idealdan gəlmir,

uydurulur. Bu səbəbdən də cəfəngləşir. İdealda olanla uydurulan arasında heç bir bağlılıq yoxdur. Din ideala sevgi, vurğunluq yaratmadı, oyunlarla bəzədilmiş ideal uydurdu. Din yalançı ağgünlüyü (cənnəti), qorxuları (cəhənnəmi) doğruçu həyat adına bağlayıb köpük yaratdı. İdraka gərək olmayan köpük göstərgəliyindən yalanlar törədi.

***xxx***

İnsanlar özlərindən Allaha obraz verirlər, bir üzə bağlı şəklə salırlar. Hər kəs öz diləyinə uyğun, ya da peyğəmbərin diləklərinə uyğun şəkildə Allaha yanaşır. Allah diləklərə uyğunlaşdırıldığı dərəcədə sınırlıdır, nisbidir. Mənaca sonsuzluq olan məsələ, insanların diləklərində sonlulaşır. Allah, belə götürəndə, diləkdir. Ancaq boş (xülyəvi) diləkdir, gerçəkliyə özgün olmayan diləkdir. Bu Allah anlamını diləklərlə deyil, idrak tələbi ilə tanımaq olar. Ona görə Allah anlamını qurtarmağın, ona qovuşmağın bir yolu var – Allahlıq məzmununu dünyada, insanda mənalandırmaq gərəkdir. Din bundan yan keçdiyi dərəcədə bu məzmunu itirir.

***xxx***

Ayağını 21-ci yüzilə qoyub ürəyini, ağlını 7-ci yüzilə bağlayan türkün bəşər sivilizasiyasında hər hansı bir rolundan danışmaq olası deyil. Türk, dünyanın ruhsal qurulmasında qatılmaqdan dala durmaqla, milli varolma haqqını itirmiş durumdadır. Biz Mütləqə İnam dəyərini bu haqqın bərpa olunmasının təkcə doğru yolu sayırıq.

***xxx***

Dinə pərçimlənmək dünyanın nizamında üstünlüyü əldən verməkdir – dünyanı kürəselləşdirənlərin (qloballaşdıranların, yəni özünə yadlaşdıranların) ixtiyarına buraxmaqdır.

***xxx***

Azərbaycan üç yöndən müstəmləkə aqibəti yaşayır: Ruhsal (dini) müstəmləkəçilik, siyasi-ideoloji müstəmləkəçilik, psixoloji müstəmləkəçilik.

Ruhsal müstəmləkəçilikdən çıxış yolu – Mütləqə İnam (Mütləqə İnama üz tutmaq din yalanından qurtarmaqdır. Türklüyü üstün etmək olanağıdır, habelə dünya nizamına toplumsal gəlişmə gətirməkdir);

Siyasi-ideoloji müstəmləkəçilikdən çıxış yolu – Uluyurd Hərəkatı;

Psixoloji müstəmləkəçilikdən çıxış yolu – Özgürlüyün milli olanaqlarına inam.

## İnamın özümləşmə tələbi

***xxx***

Biz, Amal Yolçuları İnsana səcdə qılırıq. Bu münasibət içdə yaşayan tələbdir – İnsanlığın tələbidir. İnsana münasibət özünü tanıyanda, dərk edəndə doğrulaşır. Bu gələnək ulu keçmişimizdən gəlir. Bugünkülər ulu keçmişə köhnəlik deyirlər, insana səcdəyə köhnəliyin qalığı kimi baxırlar. Çağdaş insan özünü tanımır, çünkü insanlıqla uğraşmır. İnsanlıqla uğraşmayanlar demokratiya ilə uğraşırlar, ən yaxşı halda, iqtisadiyyatla, hüquqla uğraşırlar. Bunların heç biri insanlığa çatmır. Çünkü bunların hər birində insan üzdə dayanır.

***xxx***

İnsan İnsanlığa bərabər yaşayanda Səcdəgaha çevrilir. İnsanlığa səcdə – dünyaya inam bəsləyəndə yaranır. Köhnə Dünyabaxışların İnsanüstü varlıq uydurmaları ilə dünyaya inanmaq aradan qaldırıldı. Fövqəlqüvvəyə səcdə – dünyaya fani baxmaq tələbi doğurdu.

***xxx***

Dinin ən böyük həqiqəti fövqəlqüvvəyə inam yaratmaqdır. Əslində bu, dinin ən böyük uğursuzluğudur. Bütün zamanları

aldatmaqla yaşamı xurafata pərçimlədi din. Cəhalət yaşamın ölçüsü oldu.

***xxx***

Din yeni insan yaratmadı, Quruluşun yetişdirdiyi insanın üzərində hakim oldu. Yeni insan kamil insandır, Bəndədən kamil insan yaranmazdı.

***xxx***

Yenilik bütün dövrlərə sığır, ancaq öz dövrünə sığmır. Başqa sözlə, öz dövrü onu qəbul eləmir. Sonrakı dövrlərdə yeniliyin tələblərinə uyğun yaşaya bilməsələr də, insanlar ona normal baxırlar. Öz dövründə isə yeniliyə uyğunlaşmağı anormallıq sayırlar. Öz dövründə Məcnuna dəli dedilər, sonrakı dövrlərdə ona aşiqliyin ölçüsü kimi yanaşdılar, ədəbiyyatın, poeziyanın ən böyük obrazına çevirdilər onu.

Ancaq dinin böyükləri öz dövrlərinə hakim oldular. Çünkü qılınclı idilər, qənimətli idilər, "Şirnili" (cənnətli), "Qorxulu" (cəhənnəmli) idilər. Sonrakı dövrlərə də "Qorxu" ilə girdilər. Yüzillər onlara yarıdı, onlar yüzilləri anlamüstə yaşatmadılar.

***xxx***

Dinin yalanlarından siyasət yalanları törədi, artdı, çoxaldı, dünyanı bürüdü.

Siyasətdə hamı aldadır, hamı aldanır. Siyasətin böyük şəxsiyyəti öz sevərlərini (pərəstişkarlarını) daim aldadır. Yalan üstə qurulan siyasət mənəviyyatsızlıq bacarığıdır, zorakılıq, ikiüzlülük bacarığıdır.

***xxx***

Siyasətdə dünyaya gəlirli (faydalı) münasibət bəslənilir. Doğal nemətlərə qarşı hərislik – siyasət adamına yalan danışmaq öyrədir. Topluma sözləşir (vəd verir), onu hakimiyyətə gətirsə, bütün nemətləri topluma verəcək. Sözdə hər şey xalqındır. Elə ki əli görəvə çatır, hər şeyi mənimsəyir. Topluma isə quru söz-

ləşmələri dinləmək buraxır, küçələrdə əkdirdiyi gülə-ota, döşəməyə, körpüyə tamaşa etmək buraxır...

***xxx***

Siyasal dünyada dövlət dindən ayrı görünür. Ancaq üsulu din üsuludur – yalan, qorxu, sözləşmələrə (vədlərə) şirnikdirən münasibət. Bu səbəbdən də xalq yaranmır, toplum yaranır.

Xalqı Ruhaniyyat yaradır – İnam Ruhaniyyatı. Din ruhaniyyatsızlıq yaratdığına görə həyatda insani qanunlar işləmədi. İnsani qanunlar insana inam bəsləyəndə işləyir. Ona görə İnsana inanmaq gərək – Fövqəlqüvvədən asılılığı rədd eləmək, dünyanı fani saymaq tələbini rədd eləmək – İnsanlaşmanı təsdiq eləmək gərək!

***xxx***

Asif Atanın "İnsanlaşın- İnsanlaşdırın!" çağırışı dünyaya, həyata, insana inam bəsləmək çağırışıdır. Bunu biz bəşəriyyətin özümləşmə tələbi sayırıq!

## Asif Atanın (İnam Atanın) gömüldüyü (İlk Torpaqda) "Amal Bağı"nda Ziyarət sözü

Bu gün biz Asif Atanın gömüldüyü ilk torpağı – "Amal Bağı"nı ziyarət edirik. Əslində xalqın gələcəyini ziyarət edirik. Asif Atanın üz qoyduğu torpaq vətəndir, Asif Atanın üz qoyduğu torpaq dəyərdir. Xalqı xalq eləyən Vətən dəyəridir. Asif Ata yeni bəşər halı yaradan, həyata ruhsal nizam gətirən böyük bir dünyabaxış sistemi verib xalqımıza. Böyük bir həqiqət tələbi gətirib. Ona görə də onun üz qoyduğu torpaq qutsaldır. Ona görə də onun üz qoyduğu torpağı ziyarət eləmək xalqın gələcəyini ziyarət eləməkdir. Biz də xalqımızın xalq olmasını – gələcəkli, vətənli, qutsal xalq olmasını istəyirik. Əgər insanlarımız bura gəlişdə qürur duyğusu keçirərsə, onun içində xalq başlanğıcı

özünü göstərər, xəlqi ləyaqətin görünməsi baş verər. Bunu insanlara addım-addım, hal-hal dərk elətdirmək gərək. Biz burada nə işlər görürüksə, onlara anlatmaq gərəkdir. Üzü özgəlikdən kölgələnən millətimizin ruhaniyyatını yaradırıq. Bu, xalqın yönüdür (qibləsidir). Örənqala adlı balaca bir bölgə bu gün Asif Atanın yurdunun – Azərbaycanın ruhsal yönünü təmsil edir. Azərbaycanın ruhsal yönünü, bu gün, Ərdəbilin hansısa bir kəndi təmsil etsəydi, gedib onu ziyarət edərdim. Bu gün Azərbaycanın ruhsal gələcəyini bura təmsil edir. Sabah Azərbaycanın özü həm siyasal, həm də ruhsal mənada bütövləşəndə o, bəşəriyyətin ruhsal ortasına (mərkəzinə) çevriləcək. Asif Ata bunu deyib – "Azərbaycan bəşəriyyətin Ruhsal Ortasıdır". Bizim buraya səfərimizin, gəlişimizin məqsədi budur, anlamı budur. Xalq olaq, gələcəyimiz olsun, bəşəriyyətə yön verək, söz deyək. Bəşəriyyət bizə düzgün ruhsal yön vermədi, ağalıq elədi. Yarımçıq olduq, özümüzə bənzəmədik, böyüklüyümüzə çatmadıq...

Ata bizə buyurmuşdu, biz də onu burda gömdük. Nə idi onun dərdi, sonra da onu burdan çıxardılar. Sən ömrünü Yurduna ver, yurdunda da sənə yer olmasın. Bu o deməkdir, xalqın öz yurdunda yiyəsi yoxdur. Yad baxışlar onun şəxsiyyətini yurdunda yersiz edir. Xalqın öz yurdunda onun yiyəsi yoxdursa, dəyəri yoxdursa, onda ona necə güvənmək olar?! O vaxt sən xalq olacaqsan, sənin şəxsiyyətinin öz yurdunda yeri var, dəyəri var, ona sevgi var. Sevdiyin nədir göstər, yaratdığın nədir göstər, onda mən biləcəm sən xalqsan. Xarakterinlə, ortaya qoyduğunla biləcəksən, sən xalqsan. Onda biləcəksən sən başlamısan. Bizim gəlişimizin məqsədi budur. Ona görə də mən, hər dəfə bura gələndə, həmin əhvalla, həmin qırımla gəlirəm. Əslində bu torpaq xalqın mahiyyətinin ifadə olunduğu torpaqdır. Xalqın mahiyyətini ziyarət eləməyə gəlirəm, onun bəşər səviyyəsində ruhsal etkiyə çevrilməsini ziyarət etməyə gəlirəm. Budur mənim gəlişimin məqsədi. Ona görə də qürur duyuram. Üzümü sabaha tuturam, deyirəm: bu gəlişimiz o deməkdir, min illər bundan sonra, bizim xalqımızın dönüb özünə baxdığı bir

zamanda, o, arxasında bizi görəcək. Yəni yiyə görəcək – dəyər kimi, məni quran özül budur deyəcək... Millətə ruhsal tarix yaradırıq, varolma tarixi, ruhaniyyat tarixi. Bu, siyasət məsələsi deyil, bu, Obamanın Rusiyaya mesaj verməsi məsələsi deyil. Bu bəşər səviyyəsində ruhaniyyat tarixidir. Ona görə də bununla qürur duyuram...

## Ocaq tədbirində

Asif Ataya tapınmaq məsələsi. Ocaqda hər birey Asif Ataya tapınmağından qürur duyğusu yaşayır. Təkcə Asif Ata Ocağının tədbirində deyil, dünyanın hər yerində bu duyğunu yaşayır. Həmin qürurla deyə bilərsən, xalq Ocaqdadır. Mən Azərbaycanın xəlqi mənasını sevirəm, heç kim mənim qarşımda durub, bu xalqı aşağıladığımı deyə, bunu sübut eləyə bilməz, gücü çatmaz. Mənim ömrümə xalqın ağrısı yüklənib. Mənim ürəyimə onun, özünə qarşı yaşadığı, fəlakətlərinin kədəri yüklənib...

Hər yerdə bu sözü mən deyərəm: Asif Atanın davamında, min il sonralar üçün belə, fəlakət yoxdur, qəbahət yoxdur, insana dönüklük yoxdur, bəşərə dönüklük yoxdur. Məhəmmədin davamında dönüklük var. Möhtəsim Səhllə birləşib dönüklük elədi, Babəki doğrayıb vətənini dağıtdı, özgürlüyünü boğdu. Bu, Məhəmmədin davamıdır. Asif Atanın davamında o yoxdur, olmayacaq. Məhəmmədin davamında var, çünkü özülünü Məhəmməd özü töküb. Bu dediklərimiz, saydıqlarımız o özülün üstündə yarandı. Asif Ata elə özül qoymayıb.

Ona görə deyirəm, Məhəmməddən qorxan adamdan türk olmaz, xalq olmaz. Mən türkəm, xalqam, öz evimin içində öz işığımı yandırıram. Göyləri, başımın üstündə, özgür olaraq görürəm. Öz Allahımı görürəm, ona tapınıram. Ona görə deyirəm, mən Türkəm, xalqam, xalqın məzmunu məndədir. Məhəmməddən qorxan sən, necə türk ola bilərsən?! Mənə kafirlik damğası vuran sən, necə türksən?! Nəyin türkdü, necə xalqsan sən?!

Mən bir yazı yazmışdım: İsa dağılmış, tökülmüş Avropa insanından özünə, Allahına qutsal yanaşma bəsləyə bilən insan yaratmaq üçün çalışdı. Görəsən, Asif Ata dağılmış, müsəlmanlaşmış bu xalqdan türk yarada biləcəkmi?! Nə vaxt türk yarada biləcək?! – O vaxt türk yarada biləcək, onun xalqı "mən müsəlman deyiləm, xristian deyiləm, buddist deyiləm" deməyə başlayacaq. Mənim tarixim var, babalarım var, o tarixin üstündə qətiyyətlə dayanan şərəfli bir türkəm. Ürəyimin bütün gözəlliklərini bəşəriyyətə açan şərəfli bir insanam, onda sən deyə biləcəksən, türksən. Ona görə Ocağın nə işlə uğraşdığını anlamaq gərəkdir. Beş adam bir araya gəlib haray çəkir, söz deyir, ürəyinin gücünü qoyur ortaya. Oyun oynamır, taledir bu. Bütün bəşər aqibəti, yeni bir səviyyədə, sənin ürəyində yaşam işığı tapıb. Bəşəri görmək istəyən o ürəyə baxsın. Ayrı yerdə bəşəri tapa bilməyəcək.

Ocağın atdığı addım, ortaya qoyduğu ləyaqət min il öyréniləcək bir dəyərdir. Mən bu Yolun vurğunuyam. Mənim vurğunluq duyğularımı Asif Atanın Mütləqə İnam sevdası yazıb-yaradıb. Ona görə mənim başqa yönə vaxtım yoxdur. Mən ancaq Ocaqla uğraşıram. Bu xalqın mahiyyətində həqiqət ehtiyacı var, həqiqət işığı var. Asif Ata yox yerdən ona həqiqət uydurmur. Yox yerdən ona gələcək uydurmur. Asif Ata "Azərbaycanımız-Azərbaycanlığımız" dəyər sistemi yaradıb. Bu sistemdə Asif Ata Dədə Qorqud haqda danışır. Halbuki Dədə Qorqud haqda yazını insanlarımız gedib xaricdə axtarmalı olur. Drezdendə, Vatikanda... Dədə Qorqud elə bir həyat sistemidir, bu gün bütün diləklərimiz o özüllər üzərində gəlişir. Ata deyir, Dədə Qorqud Ağsaqqallıq böyüklüyümüzün ifadəsidir. Ağsaqqallıq böyüklüyümüzün ifadəsi nağıl deyil, həyatdır. Dədə Qorqudda Ağsaqqallıq məsələsi həyat sistemidir. Böyük var idi, ailə var idi, igid var idi, qəhrəman var idi, nizam var idi. Üstündən min il keçdi, xalq dastanlar yaratdı. Xalqın həmin diləkləri Koroğluda yenidən ortaya çıxdı. (7777) Dəlilər böyük bir xalq deməkdir. Yəni xalqın obrazını ifadə eləyir. Bu xalqın içində yarımca şər yoxdur, dönüklük yoxdur, hamısı mərddir, halaldır.

Ata deyirdi, mən inanmıram Həmzə türk olsun. Mən də əminəm, Koroğlu dünyası türkün dünyası idi, Həmzə erməni toplumunun obrazı idi. O gəldi Türkün içinə, ona yer verdilər, üzünə xoş baxdılar. Axırda türkün torpağını parça-parça əlindən aldı. Koroğlunun atını aldadıb əlindən alması elə həmin anlamın obrazıdır bəlkə də. Necə bir-birinə bənzəyir. Ona görə də xalqın içini böyütmək gərək, ağlını böyütmək gərək. Dəyərinə baxmaq gərək, nağıl deyil bu. Bəzən sən ermənini örnək göstərirsən, erməni qədər də olmadıq deyirsən. Deməli, sən Koroğlunu dərk eləmirsən, Babəki dərk eləmirsən, Dədə Qorqudu dərk eləmirsən. Babəkin özündən keçməsini görmürsən. O, özündən keçirdi sən bu günə düşməyəsən. Bu gün ayaqlar altında qalmısan, namusun əllərdə qalıb. Babəkin özgürlük carının adı "Gələcək" idi – sənin ruhunun qurtulduğu Gələcək. Asif Atanın da dediyi odur. Asif Ata demir, on beş gündən sonra mən bu xalqı düzəldəcəm. Deyir 100 ildən sonra sənin xalqın məhv olmasın, ləyaqət qoysun ortaya. Həmin Gələcəyi yaradır. Babək sənin üçün Gələcəyi verirdi, diləyini gözündə qoydular. İndi Babəkinə yiyə çıx. Onda gəlib çıxacaqsan Asif Atanın çağırışına. Nə istəyir səndən Asif Ata? Asif Ata deyəndə bu bayrağı başının üstünə qaldır, ona görə demir, ona da tarixdə bir yuva açasan. Bu Bayraq sənin başının üstündə olanda, sənin başının üstündə başqasının çətiri olmayacaq, göylər üzünə qapanmayacaq, işığa həsrət qalmayacaqsan, qalıcılığın sevgisinə həsrət qalmayacaqsan. Bu Bayrağı başının üstünə as, ürəyin bu bayrağın işığı qədər böyüyəcək, özgürlüyünə yiyə çıxacaqsan...

## Dində Allah Mütləq deyil

Biz Göyel (Səmavi) dinlərin Allah anlayışında Mütləqilik görmürük. Çünkü bu dinlərdə Allah "Qüvvə"ləşir. Qüvvə fiziksəl anlayışdır, onun ölçü vahidi var, hesablana bilir. Əslində isə Mütləqi hesablamaq olumsuzdur. Allah anlamı İsmin Adlıq halının suallarına (kim, nə, hara) cavab vermir. Yəni İlkin, Qalıcı (Əzəli, Əbədi) olan Mütləq (bizə sunulan allah yox, allah anlamı) kim, nə, hara deyil. Ancaq Göyel dinlər allahı "qüvvə"ləşdirməklə "kim" edirlər. Bu dinlərdə "qüvvə" danışır, görür, qəzəblənir, yönətir, düzür-qoşur... Belə keyfiyyətlər adama – fiziksəl varlığa xas olan cəhətlərdir. "Qüvvə"nin qabağına "ilahi" sözünü artırmaqla heç nə dəyişmir, qüvvə qüvvədir. Bəzən deyirlər "ilahi enerjidir", enerji də qüvvə kimi, hesablanan, ölçü vahidi olan fiziksəl anlayışdır. Mütləq qüvvə deyil, Qüdrətdir. Bu Qüdrət nizamlamır, Nizamın özüdür. Qüdrət təzahür edir, biçimlənir, görünüşə gəlir, şəklə düşür. Bu zaman O, öz gerçəkliyini, təzahürlərini yönətmir, əymir, düzəltmir. Qüdrətin "yönətmək" məntiqi yoxdur. Olarsa, onda Allah adamabənzər olur, daha doğrusu, Mütləq olmur.

Bəşəriyyətin yanıldığı Tanrısal sistem yalanlardan, uydurmalardan qurtarmayınca dünyada İnsanlıq nizamı yaranmaz, gözəllik bərqərar olmaz. Dünyanı siyasətlə düzəltmək istəyi yalandır. Siyasətdə əyrilik var, yalan var. Bu əyriliyi, yalanı siyasətdən alsan, onda o, siyasət olmaz, ruhaniyyat olar. Elə ki ruhaniyyatda yalan, əyrilik oldu, onda bu olur siyasət. (İran "ruhaniyyatı, Ərdoğan "ruhaniyyatı ən eybəcər siyasətdir, onlarda ruhaniyyat yoxdur. Siyasət özü olanda yenə nələrisə çözə bilir. Ruhaniyyat siyasətləşəndə hər şeyi murdarlayır). Dünyanın gözəlləşməsini istəyən bəşəriyyət gərək ruhaniyyatı yalanlardan ayırsın. Bunun üçün, yenə deyirik, Tanrısal sistemi dərk eləmək, onu düzgün qurmaq gərəkdir...

## Siyasətin dini

Biz yazmışdıq, İslam çoxdan siyasətləşmiş bir dindir. Bu siyasətləşmiş din ən çox Türk Dünyasının içini poliqona çevirib. İçimizdə İran İslamı var, Şiəlik adında, İngilis İslamı var, Vəhabilik adında, Amerika İslamı var, Nurçuluq adında. İran şiəçiliyi Azərbaycanı bölünmüş durumda saxlayır, eləcə də sünnü sayılan Türkiyə ilə Azərbaycan arasında ayrılıq sınırı saxlayır. İngilis Vəhabiliyi içimizdə 7-ci yüzil şüuru bəsləyir, bunun faciələrini bir az sonra, ən ağrılı şəkildə bizə yaşadacaqlar. Amerika Nurçuluğu da Orta Doğu projesinin başlıca yaraqlarından biridir. Türkiyəni parçalamaq, Kürdüstan yaratmaq, yaranacaq Türk Birliyinin qarşısını kəsmək. Bu plan da yaxşı yeriyir. Ərdoğanla Gülənin qovğası başqatmadan başqa bir şey deyil. Bu gün Ərdoğan Türkiyədə Gülənçi ovuna çıxıb, bunu Azərbaycana da daşıyırlar. Axı Gülənçilik nə demək?! Məgər Ərdoğanın Türkiyədə oturtduğu Nurçuluq deyilmi?! Sabah Ərdoğan devrilsə, bunların yeri dəyişəcək. Bu dəfə də Ərdoğançı axtarmağa başlayacaqlar. Yaxşı olmazmı elə Nurçuluğun özü Türkiyə dövlətinin başından rədd ola. Hakimiyyətdə Ərdoğan da olsa, Amerika Nurçuluğu Atatürkün Türklük sistemini dağıdır, Gülən də olsaydı dağıdacaqdı. Nə fərqi var ki?! Bunlar, elə başlanğıcda, bir yerdə olanda, hədəf Atatürk sistemini çökdürmək idi. Gülənsiz də o sürəc həyata keçirilir.

Nə qədər gec deyil, düşünüb ayılmaq gərəkdir, Türkiyədə islamlaşma fəlakətinə qarşı milli hərəkat başlamalıdır.

## Ürəyinizdə Günəş olsun, sayğılı yurddaşlarımız!

Yüz illərdir, Azərbaycan toplumu özünəyadlaşma aqibəti yaşayır. Həyatımıza özgəçilik fəlakəti gətirən başqa mədəniyyətlərin, qıraq basqıların etkisi altında, bir xalq olaraq, içsəl cırmaqlaşma səviyyəsində yaşamağa sanki məhkum olunmuşuq. Yadlığa qarşı döyüşə bilməyəndə, həmişə özümüz özümüzlə döyüşmüşük, yəni bir-birimizlə. Bir-birimizlə döyüşümüz başqa etkiləri, mədəniyyətləri savunmağımızla həyata keçib. Bu hal toplumumuzun həyatında bu gün də davam edir. Toplumsal-siyasal təşkilatların, partiyaların münasibətlərində biz bunu, nə yazıqlar, hər an görürük. Bu da ona görədir, biz xalq olaraq, içəridən gəlişmirik, özümlü dəyərlər yaratmırıq. Asif Ata belə bir dəyəri yaradıb ortaya qoydu. Dedi, xalq olmağımızın yolu içdən qurulmağımızdan keçir. Biz, Asif Ataya tapınanlar, bu prinsipi ölçü götürdük. Buna baxmayaraq, toplumun halında yaşayan qüsurlar Asif Atanın Ocağında da özünü göstərdi. Ocağa üz tutanlar toplumun qüsurlarını özləri ilə Ocağa daşıdılar. Bu açıdan toplumla Ocaq ortamı arasındakı fərq elə də böyük deyildi. Bu da doğaldır. Heç nə bir gündə baş tutmur. Bunun üçün içdən yol keçmək gərək, Asif Atanın İnsanlaşma ideyasının başlıca üslubu olan "Özüylədöyüş" əməlini işə salmaq gərəkdir. Yadlığı hər kəs içində daşıyır. Başqasında yadlıq axtarıb döyüşmək, tarixin heç bir dönəmində, özünü doğrultmayıb. Tərsinə, ziyan verib. Siyasət də, belə götürəndə, başqası ilə döyüşmək səviyyəsindən doğub. Adamda özünüqoruma instinkti çox güclüdür. Onun üstünə getdikcə, həmin instinktlər aktivləşir, pis mənada yenilməz olur, düşmənçilik başlayır. Bir-birinə qarşı fəndlər düşünülür, məkrlər işə salınır, qərəzli təbliğatlar aparılır. Bu cür münasibət cinayətə qədər gəlişir…

Asif Atanın ölümündən sonra, ortamına toplaşan adamların münasibətlərində mənəmlik, birincilik, paxıllıq, qısqanclıq duyğuları fəlakətli bir səviyyədə özünü göstərdi. Mən də, Soylu Atalı olaraq, bu duyğulardan qıraqda deyildim. Bununla bağlı,

qapsamlı şəkildə, "İnam Sorağında" kitabımda yazmışam (kitab 400 tirajla "Adiloğlu" nəşriyyatında çap olundu, yayıldı, hələ də qalan sayları yayılır). Orada mən balaca duyğularımı, qüsurlarımı, naşılığımı, kallığımı incəliklərinə qədər vurğulamışam. Bu, mənim ciddi şəkildə özüylə döyüşə başlamağımın sonucu idi. Çox ilginc bir məsələ də vardı: mən də özümlə döyüşürdüm, başqaları da mənimlə döyüşürdü. Çünkü mən Ocağın Yükümlüsü sorumluluğunu üzərimə götürmüşdüm, bu yükə layiq olmağa çalışırdım. O birilər isə nə yükün altına girirdilər, nə də mənim yükü götürməyimi istəyirdilər. Bununla belə, mən öz üzərimdə yenilməzliyə (qələbəyə) yetdim. Bu gün də mən öz üzərimdə işləyirəm. Toplumsal şərlə – ehkamla, quruluşla, ədalətsizliklə, həqiqətsizliklə döyüşmək üçün öz üzərində üstünlüyə çatmaq, içsəl özgürlüyə yetmək gərəkdir. Asif Atanın tələbi də budur.

Mənim ilk, başlıca öyrətmənim Asif Atadır, ikinci öyrətmənim Tolstoydur. Onların özüylə döyüşləri, özlərini yaratmaları düşünürəm, bütün insanlıq üçün örnəkdir. Hər kəsin öz ömründə bu örnəkdən bəhrələnməsini istəyərdim. Onda çox gözəl insani ortam yaranar. Toplumsal şər bireysəl yetkinliyin qarşısında yenilər…

## Milli kimliyi qorumaq üçün

Deyirlər İslam barış dinidir. Deyirəm necə barış dinidir, şəriətin 6 rüknəsindən biri "cihad"dır. Yəni din uğrunda savaş.

Peyğəmbərdən başlayaraq, bütün xəlifələr – dinə başçılıq edənlər savaş aparıblar, savaşdıqlarını yeniblər, sərvətlərini talayıblar, özlərini qul kimi işlədiblər. Bu da olub onların "barış"ı. Bu nəyə bənzəyir?! – Rusiya erməninin içində üstümüzə gəldi, torpaqlarımızı əlimizdən alıb erməniyə verdi; Xocalıda vəhşət törətdi; indi yaraqlanıb erməninin içində onu qoruyur. Bizə də deyirlər savaş olmaz, barış yolu ilə məsələni çözün. Deyirik, yaxşı, torpaqlarımızı qaytarın, biz də yanaşmada barış

yolunu qoruyaq. Qaytarmırlar, həm də deyirlər barış olsun. Yəni torpaqlarımızdan əl çəkək, barış olsun.

Din başçıları da elə, vurub qol-qıçını qırır, talayır, deyir məni qəbul elə, barış bağlayaq. Əgər elə barış sevərsənsə, sənin dinini qəbul etməyənlə barış bağla, niyə üstünə ordu çəkirsən?! Savaşla inandırmaq cəhalətdir. İnsanı bir cəhalətdən çıxarıb başqa cəhalətə soxmaqdır.

İslam dini yarandığı gündən ərəb dünyasında hansı cəhaləti ortadan qaldırdı?! – İnamla demək olar, heç birini. Hamı bir şey əzbərləyib: "qızları basdırırdılar, İslam onun qarşısını aldı". Bu faktdan sallaşmaq özü gerilikdir. Bəs onda ərəb oğullarını kim doğurdu?! Adı çəkilən fakt sadəcə bir-iki tayfanın içində olub. Din dünyabaxışını da belə bir faktla sınırlaşdırmaq, bunu, az qala, bütün bəşəriyyətin uğuru saymaq, doğrudan da, gerilikdir.

İslam Xilafət yaratdı. Xəlifə saraylarında hərəmxanalar, pozğunluqlar baş alıb getdi. Bu pozğunluqlar min ildir davam edir. Bu gün də ərəblər dağınıq, qarışıq, pozğun durumdadır. 10 qadınla nigah bağlayan şeyxlər də ərəbdir, 10 yaşlı uşağın əlinə bıçaq verib kişinin başını kəsdirən də. Bəs İslam dininin qutsallığı, hünəri nədədir?! Min ildir ortada heç bir insanca dirçəliş yoxdur.

Türklərdə hərəmxanaçılıq eybəcərliyi olmayıb. İslamı qəbul edəndən sonra Osmanlı sultanlarının saraylarında hərəmxanalar əmələ gəldi, türk milli kimliyi də aradan getdi.

Dinən deyir, insan Allahın yolundan çıxıb, ona görə dünya məhv olur. Soruşmaq gərəkdir, bəs Allahın yolu hanı, necədir, nə vaxt insan bu yola düşəcək?!

Deyirlər Allahın yolu namaz qılmaqdır. – Yaxşı, milyonlarla insan namaz qılır.

Deyirlər Allahın yolu oruc tutmaqdır. – Milyonlarla insan oruc tutur.

Deyirlər Allahın yolu həcc ziyarətidir. – Milyonlarla insan həcc ziyarətinə gedir. Allahın yolu "cihad"dırsa, bu boyda İŞİD ortaya çıxıb, gündə baş kəsir...

Allahın yolu yoxdur, çünkü din Allah anlamını verə bilmədi, cəhalət yolsuzluğu yaratdı, insan yolsuzlaşdı. Allah, “Quran”da, insanları hədələyib deyir, öləndən sonra sizə qan-irin içirdəcəm, odda yandıracam. “Quran”ın dediyindən belə görünür, İŞİD elə Allahın dediyi kimi eləyir, sadəcə öləndən sonra yox, sağlığında. Başqa sözlə, Quranda Allah insan üçün İŞİD başçısı kimi davranır.

Hələ bununla belə, müsəlman, beyninə yeridilən bir şeyi deyib durur: Məhəmməddən sonra Dünyabaxış yaradıcısı olmayacaq, “Quran”dan sonra kitab yazılmayacaq. Baxın, bunlar geriliyi, qanı-qadanı yasalaşdırırlar, Feodalizm təfəkkürünü qoruyurlar. Dirçəlişin yolunu göstərənlərə də kafir deyib damğalamağa çalışırlar. Göz görəki İslam dünyanı qurtarmaq yox, dağıtmaq gedişləri hazırlayır. Ona görə qabağa, yəni gələcəyə getmək istəyən millət İslamı geridə buraxmalıdır.

Mən bir inamçıyam, ateist deyiləm. Mən ruhaniyyatı anlayan, inamın nə demək olduğunu dərk eləyən bir vətən övladı olaraq, ilk növbədə türk ulusuna səslənib bu düşüncələri deyirəm. Ancaq bəşərsevər olduğum üçün bu çağırışı ərəblərə də, farslara da, başqa müsəlmanlara da özgün sayıram.

## Nəimi – 675

Azərbaycan dəyərlər vətənidir. Yüzilliklərin tarixini arasıkəsilmədən heyrətləndirən bir millətin vətəni. Zamanların, dövrlərin gəlişmə nizamına göz yetirsək, orada Azərbaycan düşüncəsinin, mənəviyyatının izini, etkisini görərik. Hər bir xalq zaman-zaman Azərbaycan dəyərlərinə üz tutub – araşdırıb, öyrənib, bəhrələnib. Bu dəyərlərimizdən biri XIV yüzildə meydana gələn Hürufilik təlimidir. Minilliklərin yaşamında özünü göstərən "Vəhdəti-Vücud" (Varlığın Birliyi) ideyası Hürufilikdə yüksək bir qata (mərtəbəyə) qalxmışdır. Başqa cür desək, bu ideyanın sintezi kimi insanın Allaha tən olması düşüncəsi ortaya çıxmışdır, bu da ərəbcədə deyilən "Ən-əl-Həqq" sözü ilə bə-

yan edilmişdir. Yaradıcısı Azərbaycan türkü Şeyx Fəzlullah Nəimi olmuşdur. Hürufilik ərəb dilindəki "hərf" sözünün toplamını bildirir. Nəimi öz təlimini ərəb abesinin anlamı ilə aydınladaraq, buna özəl mistik anlayış kimi yanaşmışdır. Quranın yazıldığı ərəb abesinin hərfləri – sözləri, kəlamları ifadə edir. Sözlər isə varlığın özülüdür. Allah sözlər araçılığı ilə insanda təcəlla tapır.

Eləcə də insan üzünün cizgiləri Hürufilik təlimində önəmli yer tutur. Nəiminin düşüncəsinə görə, əgər Quranda qutsal anlam oxumaq istəyirsənsə, insanın üzünə bax. Orada Allahın varlığını nişan verən ifadələr bəs qədərdir...

Bu yazıda Hürufiliklə bağlı bəlli həqiqətləri təkrar etməyə gərək duymuruq. Sadəcə böyük bir həqiqəti insanlarımıza xatırlatmaq istəyirik: Bu gün biz, təkcə Azərbaycanın deyil, bütövlükdə bəşəriyyətin böyük şəxsiyyətlərindən biri olan Nəiminin anadan olmasının 675 illiyi qarşısındayıq. Biz özümüzü bu şəxsiyyətimizin düşüncəsinin, əməyinin yiyəsi, varisi kimi görürük. Bu açıdan, onun şəxsiyyətini, yaradıcılığını olanaqlarımız içində öyrənməyi, öyrətməyi özümüzə borc bilirik.

Bu gün, başqa dəyərləimiz, şəxsiyyətlərimiz kimi, Nəimi haqqında da dolaşıq-qarışıq düşüncələr formalaşdırmağa çalışırlar. İslam dininə bağlı bir çox yazarlar Nəimi ilə bağlı xoşagəlməz düşüncələr söyləmiş, o çağın, eləcə də sonrakı çağların insanlarını çaşdırmağa meyillənmişlər. Çağdaşlarından biri yazır: ***"Fəzlullah Nəimi öz yalançı təlimi ilə insanları yoldan çıxarır, hətta Əmir Teymura da etki göstərməyə çalışırmış. Teymur isə onun küfrünə inanmayıb edam etdirmişdir".*** Baxın, bütün dühalara deyilən ittihamdır. Miladdan öncə Sokrata qarşı da oxşar ittiham irəli sürülmüşdür: "Sokrat aldadıcı düşüncələri ilə Afina gənclərini yoldan çıxarır, onları üsyankar ruhda tərbiyə edir".

Ancaq yuxarıda, qısaca olaraq, Hürufiliyin anlamını vurğuladıq. Göründüyü kimi, ideyanın anlamı Nəimi şəxsiyyətinin böyüklüyünü ortaya qoyur. İnsana bunca yüksək qiymət verən,

ən başlıcası, bəşər yaşamında Nəsimi kimi ölməz düha yetişdirən bir şəxsiyyətin mənliyi, kimliyi bəri başdan bəlli olur.

Bununla belə, bu gün çağdaşlarımız arasında dinə bağlı bəzi yazarlar Nəimini də, Nəsimini də dindar elan edirlər. Onların din yolu ilə getdikləri düşüncəsini formalaşdırmağa çalışırlar. Bu da onunla bağlıdır, Nəimi öz təlimini bildirənə kimi ünlü sufi şeyxi Şiblinin ardıcılı olmuşdur. Sonralar o, İslamın Şiə, Sünni məzhəblərinin yandaşları arasından özünə ardıcıllar hazırlamışdır. Bəzi qaynaqlar bildirir, o, özünün XII İmam Mehdi olduğunu da vurğulamışdır. Bizim, bunları danmaqla, Nəimini, süni olaraq, arılığa çıxarmaq istəyimiz yoxdur. Başqa anlamda desək, doğrusuna qalsa, burada pis bir şey də yoxdur. Qaranlığın, cəhalətin yayıldığı bir ortamda Hürufilər taktik davranışlar da sərgiləyə bilərdilər. Üzdə İslamın içindən boylanmasaydılar, düşüncələrini yaymaq çabaları olanaqsız olardı.

Belə götürəndə Nəiminin ideya istəyi yetərincə aydın deyilirdi. Məsələn, Nəimiyə görə kainat qalıcıdır (əbədidir), sadəcə ayrı-ayrı dövrlər bir-birini əvəz edir. (Dində isə dünyanın faniliyi ideyası vardır). Dövrlərin bir-birini əvəz etməsi isə peyğəmbərlik, imamlıq, allahlıq aşamalarını ortaya çıxarır. Adəmlə başlayan peyğəmbərlik dövrü Məhəmmədlə başa çatmışdır. Əli ibn Əbu Taliblə başlayan imamlıq dövrü XI imam Həsənlə başa çatmışdır. Allahlıq dövrü isə Fəzlullahla başlamışdır. Burada iki cəhət aydınlaşır. Birincisi, Nəimi peyğəmbərlik etsə də, özünə müsəlmanlar arasında peyğəmbər deməmişdir. Çünkü Məhəmməd, özündən sonra peyğəmbərin olmayacağını söyləmişdir. Deməli, müsəlmanları öz təliminə yönəldib cəhaləti aradan qaldırmaq üçün açıq şəkildə Məhəmmədin bu deyilişinə qarşı çıxmağı gərək bilməmişdir. İkinci yandan isə, özünün Allah olduğunu deməklə, müsəlman soydaşlarının baxışlarını daha böyük ideyaya yönəltmiş, bütövlükdə insan haqqında ən yüksək düşüncə formalaşdırmağa çalışmışdır.

Nəimi öz təlimini öyrətmək üçün bir sıra əsərlər yazmışdır. Nə yazıqlar, bu gün bizə o əsərlərin yalnız adları bəllidir: "Cavidannamə", "Növmnamə", "Vəsiyyətnamə", "Məhəbbətna-

mə", "Ərşnamə", İskəndərnamə"... Biz Nəimini ayrı-ayrı epizodik bilgilərdən, daha çox isə Nəsiminin qəzəllərindən öyrənirik. Nəsiminin qəzəllərində baş xətt, yuxarıda deyildiyi kimi, "insanın üzü hərflə kəlamların ünvanıdır" ideyasının vurğusudur. Bu ideya sonralar Füzuli yaradıcılığına da etki göstərmişdir. İnsan üzünün ilahi sirlərin ifadəsi olması onun qəzəllərində önəmli yer tutur. Məsələn: "Heyrət ey büt, surətin gördükdə lal eylər məni" b.k. Bu ayrı bir qonudur.

Onu da demək yerinə düşər, Hürufilik türk panteizminin sintezi olmaqla, özündə Zərdüştlüyün, Xürrəmiliyin anlamlarını da ifadə edir. İnsandakı geriliyə qarşı ideya savaşı açan Nəimi Hürufilikdə Hörmüzd anlamı ilə təcəlla tapır. Eləcə də, Xürrəmiliyin "insan özgürlüyü, bağımsızlığı" ideyası, Hürufilikdə insanın ilahi qüdrətə xas olmasında özünü göstərir, insanın özünün bunu dərk eləməsi ilə ifadə olunur.

Sonda bildiririk, Azərbaycan-türk dəyərləri, adını çəkdiyimiz, çəkmədiklərimiz, Asif Atanın Mütləqə İnam Dünyagörüşündə ümumiləşir, uca, qalıcı xassələri ilə yenidən düşüncəmizə, yaşamımıza qayıdır.

## Aşağıdan yuxarı atılan daşlar boşuna gedər...

Bu gün bir yazı oxudum, başlıq belə idi: "Xaliq Bahadır İslamı söyə bilmədiyi üçün İranı söyür". Yazarı Elçin Qəhrəmanovdur. Doğrusu, Elçin Qəhrəmanovu tanımıram. Tanınmayan, tanımadığım birilərinin yazısını oxumağa vaxt da olmur. Ancaq illərdir millətimizin dili, dəyərləri uğrunda savaşın ön sıralarında duranlardan birinin – Xaliq Bahadırın haqqında olduğu üçün yazını oxudum. Yazar kimdirsə, antitürk olduğu, İran rejiminin buyruğunda durduğu açıq görünür. "Xaliq Bahadır nə istədiyini bilmir" deyə vurğu edir. Onun yazdığına görə Osmanlı ilə Atatürk, İranla İslam arasında vurnuxurmuş Xaliq Bahadır. Yazarın vurğuları olduqca yayğındır. Yayğın olduğu dərəcədə də yersizdir. Çünkü heç bir məsələni (burada vurğu edilənləri) doğru-düzgün araşdırıb

öyrənməyib. Anri Masseni də İslamın təkcə araşdırmaçısı kimi bilir. Bilmək gərəkdir: İslam haqqında təkcə Anri Masse yazmayıb. Onlarca filosof, bilim adamları ciddi araşdırmalar ortaya qoyublar. Ona görə yanlız Anri Massenin qarşısına dikilib İslama vəkillik eləmək özünü doğrultmaz. İkinci, istənilən bir dinin haqqında uzman düşüncə adamları söyüş yazmır, doğruçu araşdırmalar, bəlirtilər ortaya qoymağa çalışırlar. Onların araşdırmalarında yanlış çalarlar da ola bilər. Bu isə söyüş anlamına gəlməz. Ona görə bu yazının yazarı, eləcə də, bunun kimi başqa buyruqda duranlar aranı qatmağa çalışmasalar doğrudur. İdrakın, düşüncənin gəlişməsi əngəl tanımaz. Əngəl olmağa çalışanların bunu bilməsi gərəkdir.

Yazar Xaliq Bahadırın yazısından alıntı göstərir: "İslam uzmanları – bilginləri Məhəmmədi daha çox peyğəmbər kimi tanıtmağa çalışırlar, məncə, bu, çox da düzgün yanaşma deyil". Elçin Qəhrəmanov bu cümlənin yarısını kəsib, "o həm də, dövlət xadimi olmuşdur" deyilişini gizlətməklə, Xaliq Bahadıra qarşı məkrli fənd işlətməyə çalışmışdır. Yəni, "görürsünüzmü, Xaliq Bahadır Məhəmmədin peyğəmbərliyinə qarşı çıxır" demək istəyir. Bununla da, özünə yersiz nifrətdaşlar qazanmağa çalışır. Belə "priyomlar" ləyaqətə qarşı davranmaqdan doğan çabalardır. Bəyəm Elçin Qəhrəmanov bilmirmi, 7-cü yüzildə İslam xilafəti yaranmışdı, Məhəmməd də onun başında dururdu?! Bunu danmaq hansı doğru faktı ortaya çıxarır, ya da, belə bir doğru faktı deməkdə pis olan nədir?!

Elçin Qəhrəmanov öz yazısının bir yerində Xomeyninin dediklərinə dayanır. Ancaq ondan başqa hər kəs bilir, Xomeynini Fransa diplomatiyası hazırlayıb gətirmişdi İran İslam İnqilabının başına.

Yazının başqa bir yerində Bakını erməni vəhşətindən qurtaran Osmanlı ordusu ilə Atatürkün arasına sınır çəkməyə çalışılır. Bilmək gərəkdir, ordu dövlət quruluşu yaratmır, onu yönətən dövlətin toplumunu, sınırlarını qoruyur. Ordu Türk ordusudur, dövlət Osmanlı adlansa da, cümhuriyyət adlansa da. Atatürk, Batı Avropa dövlətlərinin (250 illik plan əsasında) yıxdıqları, Osmanlının xarabalıqları üzərində Türkiyə Respublikasını yaratdı. Ancaq o bunu Bakını qurtaran Osmanlı ordusu ilə, yəni Türk əsgərləri ilə gerçəkləşdirdi.

Elçin Qəhrəmanov kimi bir çoxları Atatürkün Azərbaycanı Leninə satmasından danışırlar. Nə yazıqlar, belələrinin ağzı işləyir, ancaq görünən odur, ağlı işləmir. Lenin Azərbaycanı 1920-ci ilin aprelində (Müsavatın qurduğu Respublikanı devirərək) Rusiyanın etkisinə aldı. Türkiyə Respublikası isə 1923-cü ildə odun-alovun içində quruldu. Avropa dövlətləri Türkiyə torpaqlarını öz aralarında bölmüşdülər. Onların niyyətlərini güc-bəla ilə pozan Türkiyə ordusunun gücü sarsılmışdı. Özü güclə ayaqüstə dura bildiyi halda, güclü bir inqilabla hər yeri tutan Lenin Rusiyasının əlindən Azərbaycanı necə qurtara bilərdi?! Atatürkün sonərkini xatırladıram: Heç bir imperiya qalıcı deyil. Zaman gələcək sovetlər çökəcək, Türkiyə Respublikası buna hazır olmalı, bağımsızlıq əldə edən qardaşlarına yiyə çıxmalıdır.

Bunları kimlər bilmək istəməsə də, biz bilirik. Atatürkü bizim gözümüzdən kimsə salmağa çalışmasın. Yazarın da Xaliq Bahadırın yaşam-döyüş yoluna göz yetirə bilməsini diləyərdim. Xaliq Bahadır Doğrusevər, millətsevər, bəşərsevər bir düşüncə-əqidə yolçusudur. O, aydın baxışı, aydın hədəfi, aydın döyüşü olan Azərbaycan Aydınıdır. Ürəyinizi məkrdən uzaq tutun, onu gücdən salmayın. Doğrusevər olsanız, Xaliq Bahadırı daha yaxşı anlayarsınız!

## Şəxsiyyət Yubileydə tanınmır

Xalq şəxsiyyətlər doğur, ancaq şəxsiyyətlərini çağında tanıya bilmir. Böyüməyən xalq, heç sonradan da, şəxsiyyətlərini tanıya bilmir. Tərəqqi üzü aşağı gedəndə şəxsiyyətlə xalq təzadı həmişə qalır, aradan qalxmır. Beləliklə, xalq öz şəxsiyyətlərinin çağırışlarını eşitmir, onlardan ayrılır. Şəxsiyyəti öz dövrünün qəlibinə salmaqla, xalq özünə də, şəxsiyyətinə də dönüklük edir. Xalq özü ilə şəxsiyyəti arasında (yalançı) birlik görüntüsü yaratmaqla özünün qədirbilən olmasına inanmaq istəyir. Bu hal, tarixin xalq üzərində ironiyası deməkdir. Çünkü özünü aldatmaqdan böyük yalan yoxdur.

Biz burada xalq deyəndə özündən ayrılmış toplumu gözə alırıq. Özünə – Özümlüyünə bərabər yaşayan xalq böyük qüdrətdir. Ancaq

nə yazıqlar, bu gün xalqın yaşamı ilə əsilliyi arasında çox kəskin təzad vardır.

Qonunu çox genişləndirmədən, düşüncəmizi, ədəbi ortamın özünə, şəxsiyyətinə, xalqına münasibətinin bəzi çalarları üzərində vurğu eləmək istəyərdik. Bu günlərdə tanınmış şair Akif Səmədin yubiley tədbirinə çağrı aldıq. Doğrusu, biz həmişə yubiley tədbirlərinə qarşı olmuşuq. Çünkü yubileylərdə şəxsiyyət tanınmır, doğruçu söz deyilmir, bir sözlə, üzəvarilik, boğazdanyuxarı öygülər baş alıb gedir. Ancaq Akif Səməd şəxsiyyətinə sayğımıza görə, onun adına təşkil olunan tədbirə qatılmağı özümüzə borc bildik. Üzləşdiyimiz hallar isə yenə də gələnəksəl köhnəlik, məzmunsuz öygülərdən oluşdu. Yola vermək xatirinə hazırlanmış bir planla keçirilən tədbirin, düşünürük, Akif Səmədə heç bir özgünlüyü yox idi. Akif Səməd sağ olsaydı, o tədbirə qatılmazdı. Mən Akif Səmədlə vur-tut iki yol görüşmüşəm. Ancaq bu iki ünsiyyət tanıdan ünsiyyət olub, Akif Səmədi tanımışam. Onun müsahibələrini, yazılarını, şeirlərini basından da izləyirdim. Akif Səməd rahatsız adam idi. Vətəninin taleyi, millətə, onun şəxsiyyətlərinə doğru olmayan münasibət daim onun halına ağrı verirdi. Bu ağrısını o, yazılarında, şeirlərində ifadə edirdi. Akif Səməd heç vaxt rəsmiyyətlə qaynayıb-qarışmadı, tərsinə, rəsmi strukturların haqsızlığını, harınlığını özünəxas bir ürəkliliklə ifşa edərdi... Bəs bu gün niyə onun xatirə tədbiri rəsmiləşdirilir, qorxu altında adi öygülərdə sınırlaşdırılır?! Ürəksizlik ucbatından Akif qəlibə sürüklənir, onun ağrısının, dərdinin, haqsızlıqlara qarşı etirazının, savaşının üstünə qara örtük çəkilir.

Akif Səməd də bir şəxsiyyətdir. Onun parçalanmış, paralanmış, talanmış Vətəni; əzilmiş, döyülmüş, alçaldılmış milləti; unudulmuş, unutdurulmuş dəyərləri, şəxsiyyətləri var. Dərindən sevilməyən, ikinci dərəcəli olaya çevrilən, öz yurdunda kölgələnən, dolaşdırılan ana dili var. O, bunları bilirdi, gücü içində döyüşürdü. Yurdunun, millətinin sarsılmasından sarsılır, ürəyi ağrı tapırdı. Ona görə də "Döyüşən Söz"lə yaşayırdı. Bəs bu gün onun ağrısı, döyüşü niyə dilə gətirilmir?! Yoxsa hər şey düzəlib, Akif Səmədin döyüşən ruhu özgür xalqın ürəyinə hakim olub?!

Yanılırsınız, sayğılı soydaşlarım! İnciməyin, mən sizə ərk edib yanılırsınız deyirəm. Akif Səmədə ən böyük sayğı, onun, uğrunda döyüşdüyü ideallarin arxasında durmaq, sözünə söykək olmaqdır. Bu cür tədbirlərdə milli, ideoloji söhbətlər getməlidir. Akiflərin xatirəsini yubiley öygüləri ilə bağlayıb baş qatmaq gərək deyil, onun ruhunu ürəkli örnəklərlə birləşdirmək, doğmalaşdırmaq gərəkdir. Onda xalqımızı dəyərli, ruhlu millətə çevirəcəyik. Şəxsiyyətlər də millətin özgürlüyündə, ürəkliliyində, döyüşündə yaşayıb var olur. Şəxsiyyətlərimizi var edən sözün arxasında da, yalnız ürəkli, ruhlu insanlar dayana bilər, dayanmalıdır!

## Çağımızın örnək aydını

"İnsan həyata bilinməyən (naməlum) olaraq gəlir, bilinməyən olaraq gedir". Bu söz Asif Atanın sözüdür. Bu sözü çoxluğa özgün götürmək olar. Çoxluq, həyata niyə gəlib, niyə getdiyini yaşamı boyunca dərk eləmir. Ona görə həyat çoxluğa əyri görünür, dünya anlamsız gəlir. Ona görə çoxluq həyat uğrunda öz növündən olanlarla döyüşür. Ancaq ayrı-ayrı insanlar həyatın mənasını görə bilir, insanın öz mənasından ayrılmasını dərk edir. Mənəvi, siyasi pozuntuların bununla bağlı olduğunu kəsdirə bilir. İnsanlığın yaşama gəlişi üçün çaba göstərir. İnsanlığın millət düzeyində varlığını qorumaq, mədəniyyətin bərpa olunmasını sağlamaq üçün ömür verir. Bu cür insanlara aydın (ərəbcə ziyalı) deyilir. Biliyini, savadını, elmi olanaqlarını öz məişətinin gəlişməsinə bağlayan insan aydın sayılmaz. Ona görə istənilən savadlı, bilikli, diplomlu adamı aydın saymaq doğru deyil. Doğruçu, aydın insanın diplomu olmaya da bilər. "Aydın"lıq biliklə mənəviyyatın birliyindən oluşur...

Aydın məsələsi ilə bağlı düşüncələri genişləndirmək də olar. Ancaq bu yazının yönünə görə gərək bilmirik. İstəyimiz – milli ərdəmliyi ilə örnək olan bir aydınımızı tanıtmaqdır. Düşünülə bilər, hər bir insan, ömrü, düşüncəsi, sözü, çalışmaları ilə özü özünü tanıtmalıdır. Bu məntiqi biz doğru sayırıq. Ancaq zaman anarxiya qaranlığına bü-

rünəndə aydınların işığını dözülməz həyat ortamı ilə üzləşən insanlar görə bilmirlər. Zaman onlara ayrı şeylər göstərir, yalançı böyüklər tanıdır. Ona görə düşünməyi bacaranlar özlərindən öncəki örnək düşünərləri tanıtmağa borcludurlar. Ancaq bunu təkcə həyata gözünü yumanlar üçün eləmək doğru deyil, çalışmaq olanaqları azalmış yaşlı insanlar üçün də eləmək gərəkdir. Hər kəs öz sağlığında əməyinin qiymətləndirilməsini görməyi haqq edir...

İndi giriş sözünü bitirib haqqında danışacağımız aydının kimliyinə üz tutaq. Bu aydın Borçalı mahalının Kəpənəkçi köyündən olan İsa Mehdioğludur. Saygılı oxucu! İndi Azərbaycanda yersiz bir gələnək yaranıb: dost dostun, qohum qohumun haqqında yersiz öygülər yazır. Az-çox yazarlığı olan adamlar bir-birindən belə şeylər umurlar. Bəlli çevrənin gözündə böyük görünmək acıdırlar. Biz belə bir yalanın peşində deyilik, ola bilmərik. Bir neçə il bundan öncə tanınmış şair Akif Səmədlə bağlı bir yazımız çap olundu. Yazı belə başlayırdı: "Söz Tanrıdan aşağıdır, ancaq Tanrını da tanıdan, anladan Sözdür". Sözlə oyun olmaz. Oyuna salınan sözün işığı olmaz. Balaca ürəklərdə, qaranlıq düşüncələrdə söz bəslənilməz, böyüməz. Biz bunları anladığımız üçün sözə qarşı dönüklük etmirik. Sözü hər yerə, hər kəsə yamaq-calaq vurmuruq...

Qayıdaq İsa Mehdioğlunun kimlik məsələsinə. Onun uşaqlıq illəri Sovet dövrünün ilk çağlarına düşüb. Bu dövr milli məsələlərin aradan qaldırıldığı, oxullarda qondarma "sovet xalqı" şüurunun aşılandığı bir dövr idi. Borçalının biryolluq gürcüləşdirilməsi, yalançı qardaşlıq etkisi altında yad mədəniyyətin üstün duruma gətirilməsi, doğma Azərbaycana onun bir parçası olan Borçalının ayrı respublika kimi baxması düşüncələrin yönünü dəyişməkdə idi. Bununla belə, ulusal gələnəkləri bilən, milli folklordan örnəkləri öyrədən bir ailədə böyüməsini İsa Mehdioğlu üçün üstünlük saymaq olar. Özünün dediyinə görə, böyüklərindən Oğuz xanın dastanını dinləyib, Yurdu Borçalının Oğuz xanla bağlı olduğunu öyrənib. İsa Mehdioğlunun sonrakı yaşamının milli ruhda formalaşmasında, ideya adamına çevrilməsində, söz yox bu deyilənlərin etkisi olmuşdur... O, tibb üzrə yüksək oxul bitirmişdir. Həkim kimi çalışmalarını sürdürərkən bir sıra elmi

yazılar (məqalələr) yazmış, tibb jurnalında çap etdirmişdir. "Azərbaycanda donorluğun tarixi və qanköçürmədə əhəmiyyəti", "Hemotoloji xəstəliklərin diaqnostikası və müalicəsi" adlı kitabları basılmışdır. Bununla o, yalnız xəstələrə qulluq göstərməklə yetərlənməmiş, toplumunun sağlam gələcəyi üçün elmi ədəbiyyatların yaranmasına qatqı göstərmişdir. Ancaq İsa Mehdioğlunun fəlsəfi görüşləri olduğu üçün düşüncələri sonrakı axtarışlarında daha da qabağa getmişdir. O, təkcə ixtisas uzmanı kimi deyil, yuxarıda vurğuladığımız kimi, ideya adamı kimi formalaşmışdır. Elə sonrakı kitabları da ideya axtarışlarının sonucu kimi araya gəlmişdir. Onun baxışlarını ən çox təsəvvüf fəlsəfəsi çəkmiş, türk milli kimliyini də bu açıdan öyrənməyə çalışmışdır. "Təsəvvüf tarixinə yeni baxış", "Təsəvvüfdə vəhdəti-vücud fəlsəfəsi", "Türk dünyasında Zülqərneyn fenomeni", "Türk dünyasında Xızır fenomeni" adlı kitablarında milli ruhun kökləri, gələnəklərdə necə yaşaması, milli özünüqoruma sisteminin ayrı-ayrı özəllikləri yer tutur. Bütün bunları oxuduqca İsa Mehdioğlunun Millət sevgisi, vətən duyğuları sevgimizə işıq salır, ürəyimizə sevinc dalğaları gətirir. Onun əsərlərindən biri də "Ailənin sağlamlıq kitabı" adlanır. Burada da biz onu İnsanlığın ləyaqətinə sadiq görürük. Toplumunu sağlam görmək, onun yaşamında zərərli etkiləri açıb göstərmək İsa Mehdioğlunun aydınlıq ləyaqətindən doğan bir görsənişdir. Yaşının ahıl çağlarında belə elmi axtarışlarını öz toplumunun sağlamlığına yönəltməkdən qürur duyduğunu görürük.

Əslində İsa Mehdioğlunun yaradıcılıq axtarışları yaşamının məntiqi davamıdır. O, necə yaşayıbsa elə düşünüb. "Necə düşünübsə, elə də yaşayıb" da deyə bilərik. Onun milli sorunlarımızla bağlı ayrı-ayrı qayğılarını, rahatsızlıqlarını, sözün doğru anlamında, öz soyu, eli üçün də, bütövlükdə Azərbaycan insanı üçün də örnək saya bilərik. Millət öz aydınlarının qayğıları ilə mariflənir, öz aydınlarının ağrıları ilə işıqlanır...

Sovet quruluşunun son çağlarında milli məsələlər yenidən qabarmağa başladı. Yalançı "Vahid Bəşər" ideologiyasının basqıları altında sıxışdırılan Milli kimlik məsələsi gündəmə gələndə bundan hər bir millət yararlanmağa çalışdı. Burada da Borçalının taleyi mürək-

kəb durumdan çıxmadı. Gürcü millətçiləri Borçalıda yaşayan türklərin oyanışından rahatsız olmağa başladılar. Onların öz dədə-baba yurdlarından köçməsi üçün hər cür basqı göstərdilər. Özəl təbliğat qurdular, guya Borçalılar bu yurda 17-ci yüzildə gəliblər. Guya Şah Abbas onları bu torpaqda yerləşdiribdir. Bununla bağlı kəndlərə minlərlə vərəqələr atmışdılar. Buna görə İsa Mehdioğlu rayon rəhbərliyi ilə görüşmüş, onlarla qovğa edib belə əməllərindən daşınmağa çağırmışdır. Onlar bu faktları guya Azərbaycanın Milli Ensiklopediyasından götürdüklərini bildirmişlər. İsa Mehdioğlu Azərbaycan Elmlər Akademiyasında olmuş, onları bu məsələyə aydınlıq gətirməyə çağırmışdır. Qarşılıq görməyəndə qovğa eləmiş, sonralar "Yiyəsiz Borçalı" adlı haray yazmışdır.

Gürcüsoylu akademik Musxelişvili bir elmi yazısında belə bir fakt göstərmişdir: Eranın 5-ci yüzilində indiki Bolus rayonuna özgün olan ərazidə Kapanakçı şəhəri olmuşdur. İsa Mehdioğlu bu faktı əldə tutalqa edib rəsmi Tiflisə üz tutmuş, Kəpənəkçinin 1500 illiyini rəsmi şəkildə keçirməyə icazə istəmişdir. Bununla o, türklərin Borçalıya 17-ci yüzildə yerləşdirilməsi yalanını ifşa etməyə çalışmışdır. Rəsmi Tiflis həmin yazı faktının üzünü çıxarmaqla bərabər çoxsaylı qollamalarla (imzalarla) təsdiq olunmuş məktub istəmişdir. Nə yazıqlar, bu məsələdə İsa Mehdioğlunun sözünə söykək olmamış, məsələ qapanmışdır...

Eloğlumuz yalnız bir bölgənin qayğıları ilə deyil, bütövlükdə milli kimlik şüurumuzun sorunları ilə də ilgilənmiş, ayrı-ayrı çağlarda ayrı-ayrı yazıları ilə çağırışlar eləmişdir. O sıradan dilimizin özümləşməsi ilə bağlı istəklərini ortaya qoymuşdur. Akademiyanın Dilçilik İnstitutuna dönə-dönə məktublar yazmış, dilimizin arınmasına, qorunmasına yönəlik çağırışlarda bulunmuşdur. Borçalıda bəzi tarixi abidələrin şəklini çəkib Azərbaycan Elmlər Akademiyasına sunmuşdur. Bu abidələrlə bağlı axtarışların aparılmasına gərək olduğunu sübutlamışdır. Orada Alban abesi ilə yazıların olduğunu göstərmişdir. 90 yaşının astanasında "Türk dilinin sözlüyü"nü hazırlamışdır. Bütün bunlar onun Millətinə, Vətəninə tükənməyən sevgisindən qaynaqlanır.

İsa Mehdioğlu illərdir, Asif Atanın Mütləqə İnam Dünyagörüşü ilə də ilgilənir. Dönə-dönə Ocaq tədbirlərinə qatılmış, üst-üstə düşən düşüncələrilə bağlı sevincini, sevgisini ifadə etmişdir. Belə bir aydındır İsa Mehdioğlu – örnək qeyrəti, örnək ləyaqəti, örnək çalışmaları ilə sevgimizi oxşayan, mənliyimizə dost olan Azərbaycan aydını! Dünya səninlə çox gözəl görünür, Yaşa, var ol, sayğılı Eloğlu!

## Psixologiya insanı yanlış qiymətləndirir

Bu çağa kimi insan haqqında başqa-başqa düşüncələr, ideyalar ortaya qoyulubdur. Ancaq bununla belə, insan ən çox bilimin subyekti kimi araşdırılıb, bilimin baxışları altında da qiymətləndirilib. Bu halda insanın ruhsal mahiyyət daşıması elə də böyük önəm daşımayıb. Sonucda insana yiyə durmaq yerinə onu yönətmək haqqında düşünüblər. İnsan küçümsənilib, suçlandırılıb – basqı altında saxlanılıb.

Din insanı günah daşıyıcısı kimi tanıyıb, onun yaşamını sanki yasaqları ilə gözaltına alıb. Yəni din bəşər övladına günah aqibəti uydurub – bəlli Adəm-Həvva olayı.

Bilim də insanı bioloji varlıq kimi tanıyaraq, onu dövlətin siyasətinə tapşırıb. Bir sözlə, insanlığın sirri böyük anlamda açılmayıb, tərsinə, bağlanıb. İstər biologiya, istər antropologiya insanı bütünlüklə cismani olanaqları ilə öyrənib. Vurğuladığımız kimi, insanın bu yöndən öyrənilməsi onun mənəvi varlıq kimi tanınmasını (əslində dərk olunmasını) daraldıb. Ən yaxşı halda, insanın mənəvi durumunu, psixologiya adlı bilim sahəsi yaradıb, onun yardımı ilə öyrənirlər. Əslində öyrənmirlər, insanı psixologiyaya tən bir olay kimi qəbul edib sunurlar.

Psixologiya, bizə görə, insan xarakteri üzərində qurulmuş bilim növüdür. Bu bilim növü insanın mahiyyətinə girmir. Bəlkə girə bilmir desək, daha doğru olar. İnsanın xarakteri də 4 temperament üzrə qiymətləndirilib sunulur. Bu temperamentlər – xolerik, sanqvinik, melanxolik, fleqmatik adlanır. Yaxşı araşdırılsa, bəlli olar, tempera-

ment, Adamlığın pis-yaxşı cəhətlərini özündə daşıyır. O yaxşı cəhətlər də insanlığın dərin qatlarını deyil, tərbiyəvi xassələrini nişan verir. Açıq demək olar, psixologiya adlanan bilim növü insanın öz mahiyyətinə doğru gəlişməsinə yardımçı olmur, tərsinə, insanın necə var, elə qalmasını saxlayır. Psixologiya insana öyrədir, sən Adamlıqdan oluşursan. Əslində bu da başqa bir biçimdə "Qismətçilik"dir (fatalizmdir). Qismətçiliyin də insanı alətə, oyuncağa çevirməsindən dönə-dönə danışmışıq.

Burada biz yenə də Asif Atanın dünyagörüşünə üz tutmalı oluruq. Asif Ata, insana inam üzərində, İnsanlaşma harayı çəkir. İnsana öyrədir, sən necə varsan, azsan, göründüyünə tən deyilsən, içində Mütləq gəzdirirsən. İçindəkinə tən yaşamaq üçün Dünyaya gəlmisən. Asif Atanın dünyagörüşünə görə insanı hallar oluşdurur. İnsan öz yaşamında nəyə üz tutursa, onun halını üz tutduğu sahə yaradır. Məsələn, əgər insan üzünü gerçəkliyə tutursa, gerçəkliyin tələbi ilə, məntiqi ilə yaşayırsa, onun halını gerçəklik yaradır. Deyək, sosial, məişət, toplumsal qayğılarla yaşayanda, başqa sözlə, düşüncə bütünlüklə bu yöndə qurulanda insan bioloji varlıq səviyyəsində təsdiq olunur. Bu halda onun öyrənilməsi, qiymətləndirilməsi psixologiya adlanan bilimin ixtiyarına verilir. Ancaq insan üzünü Mənaya, deyək, Tanrı anlamına tutarsa, onda onun halını Məna yaradır. Bu halda insanın düşüncəsi mənəvi yasalarla dolub zənginləşir. Belə olanda insanın öyrənilməsi, dəyərləndirilməsi ruhaniyyatın ixtiyarına keçir. İnsan ruhaniyyat üstə yaşayanda, onun varlığını fəlsəfi dərinliklərdən tanıyıb üzə çıxarmaqla, psixologiya adlanan bilimin insanda yanıldığını sübuta yetirmək olumludur. Buna görə biz deyirik: insanın yiyəsi Asif Atadır, insanın dəyəri, qiyməti, Asif Atanın dünyabaxışındadır!

## İdeya, Deviz (şüar)

Bir var deviz, bir də var ideya.

Deviz – bir diləyin sadəcə deyimdə ifadəsidir.

İdeya isə, diləyin, düşüncənin, sistemli şəkildə həyata keçirilməsi üçün, işlənib sunulmasıdır. Məsələn, Əbülfəz Elçibəyin "Bütövləş-

mə, Millətləşmə, Dövlətləşmə" devizi. Göründüyü kimi, bu elə diləkdir, işlənib prinsipial sistem halına gətirilməyib. Deyilişdən bəlli olur, bu sadəcə istəyin səslənməsidir. Biz bunun konseptual biçiminə heç yerdə rast gəlməmişik. Bəllidir, bizim yaşadığımız indiki tarixi ortamda millətləşmə olmadan Bütövləşmədən danışmaq olası deyil. Millətləşməyən toplum Bütövləşməni necə həyata keçirə bilər?! Millətləşmə isə toplumun varlığını sıfırdan başlamaq anlamına gəlmir. Biz bir millət kimi bəşər həyatında varıq. İmperiya basqıları bizi, din, siyasət anlamında elə günə salıb, birliyimiz tam pozulub. Ona görə, söhbət milli şüurun gəlişməsindən gedir, parçalanma dərk olunmalı, hiddət dalğası yaranmalıdır, Bütövləşmə baş versin. Bu açıdan, deviz (şüar) hesablanmamış dilək deməkdir. Yaxşı niyyət həyata keçməyəcəksə, onun yaxşılığına umsunub qalmaq doğru deyil. İstər Güneydə, istər Quzeydə toplumun başlıca kütləsi tarixi həqiqətləri axıra qədər bilmir, dərk eləməyib. Bunun üçün bir neçə il ardıcıl maarifçilik işi getməli idi.

Asif Ata da deyir, Azərbaycan Bütövləşməlidir. Ancaq O, bildirir, bunun üçün O Tay, Bu Tay Azərbaycanda İnsanlaşma, Xalqlaşma sürəci getməlidir. Siyasal anlamda Uluyurd Hərəkatı yaranmalıdır. Uluyurd Hərəkatının prinsiplərini (Uluyurd Hərəkatının 5 prinsipi konseptual olaraq işlənib) həyata keçirə bilən şəxsiyyətlər yetişməlidir. Bu şəxsiyyətlər yadlıqlardan, içdən arınmaqla, böyüyə bilər. Asif Atanın dediyi aşama doğru, gərəkli olanı göstərir. Əbülfəz bəyin dediyi isə, gərəkli olanı göstərsə də, doğru olanı yetirmir. Deməli, "bunlar elə eyni işi görürlər" deyənlər yanlışlığa yol verirlər. Əbülfəz bəy Bütövləşməni – Azərbaycanın bir parçasında qurulan dövlətə güvənib söyləyir. Asif Ata, dövlətin başlıca dayağı olan, xalqın qurulmalı Kamil Birliyinə. Əbülfəz bəyin dediyi mücərrəd olaraq qalar, həyata keçməz. Çünkü dövlətə qarşı yetərincə qısqanc dış qüvvələr var. O qüvvələrin, özündən ayrılmış xalqımızın öz əliylə, Bütövləşməni əngəlləmək olanaqları var. Asif Atanın dediyi çətin, gec həyata keçər. Çünkü xalqı dəyişmək, qurmaq ağır zəhmət, uzun illər tələb edir.

Toplum siyasətçinin mücərrəd dediyinə inandı, inamında yanıldı. Çünkü burada toplumun öhdəsinə yalnız sözləşməni (vədi) eşitmək düşür, addım atmaq yox. Yəni toplum zəhmətə qatlaşmaq istəmir, hər şeyi, ona umud verəndən gözləyir.

Toplum ruhaniyyatçının dediyinə inanmadı, inamsızlığında yanıldı. Çünkü burada onun üzərinə özünü dəyişmək, ciddi döyüşmək tələbi qoyulur.

Toplum konkretlə mücərrədin yerini dəyişik salır. Ona görə də devizin ötəriliyini, ideyanın həmişəliyini dərk edə bilmir. Toplum, ona söz verəni alqışlayır, ancaq uğur görməyəndə söz verəni lənətləyir.

Toplum, onu çətin, doğru yola çağıranı xəyalsevər sayır. Bu səbəbdən də həşirə düşür...

Gərək öndər toplumu böyütsün. Çünkü toplumun yüksək səviyyəsinə dayanmadan qüdrətli olmaq olası deyil.

Toplumla öndər arasında əməli, idraki birlik yoxdursa, deməli, hər ikisi yetginsizdir, yetərsizdir (söhbət siyasal yönətmədən gedir).

İndiki siyasal rejimin "gücü"nü də bu açıdan öyrənmək, qiymətləndirmək gərəkdir – bu rejimlə döyüş necədir?! Eləcə də ölkəiçi, ölkədışı şərlə döyüş ideya üzərindəmi qurulub, şüar üzərindəmi?!

Özgürlüyümüz ötəri devizlərdə deyil, dərin, məzmunlu ideyalardadır!

# III BÖLÜM

## (Bədii ədəbiyyatda ruhaniyyata bağlı etkilər)

## İnsanlığın Yaşam Sevdası

*(Viktor Hüqonun "Səfillər" əsəri üstə düşündüklərim)*

*"İnsan ən pis ortamda belə, yaxşı olaraq qala bilər"*
*(Asif Ata).*

### 1. Gəlişmə – antigəlişmə

Gəlişmə (tərəqqi) harda baş verir – bilimdə, texnikada, məişətdə, dövlət quruluşunun, yönətiminin yenilənməsində, sınırların qorunması üçün yaraqların modernləşməsində, Doğanı mənimsəmənin çalarlarında. Bunların heç biri toplumdan qıraqda deyil, ancaq insandan qıraqda baş verir. Bu cür gəlişmələrlə bağlı qalaq-qalaq kitablar basılır, bilim dərəcələri alınır, ödüllər qazanılır, şöhrət pillələri fəth olunur. Ancaq insanın içində gedən mürəkkəb sürəclər – sarsıntılar, əyintilər, dönüklüklər, qəbahətlər bilinmir, dərk olunmur, aradan qaldırılmır. Bu ona görədir, gəlişmə əsilliyə yetmir.

Tarixi yaradanlar, tarixi yaşadanlar, tarixlə yaşayanlar, tarixdən üstün yaşayanlar – gəlişmənin genetikası da, mahiyyəti də bu kontekstdə bu sistemi aydınlaşdırmaqla öyrənilə bilər. Hər halda, biz belə düşünürük. Biz düşüncələrimizi zorla yeritmirik, onu əsaslandırmağa çalışırıq. Bunun üçün bir sıra hallarda böyük ədəbiyyatlara üz tutur, yaradıcı insanların bu yöndəki əməklərindən yararlanmağı doğru sayırıq. Çünkü insan taleyinin durumunu ən çox böyük ədəbiyyatlar axtarır. Bu axtarışlarda bəşər mədəniyyətinin qabağa getməsinə qatqı göstərən dühaların rahatsızlıqları vurğulanır. O da var, bu rahatsızlıqlar əsasən yazıçının içində gedir, kitaba yazılır. Gərək bu rahatsızlığın etkisini kitabdan qırağa çıxartmaq üçün düşünən insanlar hər yerdə hərəkətə keçsinlər. Hərəkət nizamı, hərəkət sistemi yaradan, ona yön verən yeni Mütləqə İnam Dünyabaxışı da artıq ortadadır...

İndi gəlişmənin genetikasını özündə daşıyan sistemə aydınlıq gətirməyə çalışaq. Biz "tarixi yaradanlar" vurğumuzun məntiqi ilə başlayaraq bütövlükdə bu sistemi qapsamağı gözə alırıq.

Tarix çox mürəkkəb bir anlayışdır. Çünkü tarix – onu yaradanların əməllərindən, xarakterlərindən yazılır. Bu əməllər, xarakterlər insan varlığının necə ifadə olunması ilə bağlıdır. İnsanın Tanrıya, dünyaya, insana münasibəti necə gerçəkləşir, necə olaylaşır – bu münasibət çox qarışıq-dolaşıq özünü göstərir. Tarixin mürəkkəbliyi də buradan əmələ gəlir. Bəlkə insan özü də tarixin mürəkkəbliyini qaçılmaz sayır, ona haqq verir. Burada balaca bir aydınlaşdırma vermək yerinə düşər. Bir var insanın yanaşmasının zənginliyi, bir də var ziddiyyətliliyi. Zəngin yanaşma kamil, yetkin səviyyəli insanda üzə çıxır. Ziddiyyətli münasibət isə kamil olmayan, bəsit yaşam sürən insanda özünü göstərir.

Asif Atanın dünyabaxışında bəşər övladının səviyyəsi üç anlayışla vurğulanır: məxluq, adam, insan. Məxluq ömrü heyvanlığa uyğun yaşamdır. Adam səviyyəsi – güvənilməyən, qalxıb-enən, nisbi, dəyişkən yanaşmalarla izlənilən bir səviyyədir. İnsan yönü isə kamil, sabit, anlamını doğruldan bir səviyyədir. Əgər bu ölçü ilə yanaşsaq, insanın Tanrıya, Dünyaya, İnsana yanaşmasının zəngin, ya da ziddiyyətli olmasının nədənini, nə demək olduğunu anlayarıq. Tarix də bu yanaşmalardan oluşur. Gözə alsaq, tarix ən çox savaşlardan, qırğınlardan, dünyanı talamaqdan, doğanı pis anlamda mənimsəməkdən soraq verir, düşünməliyik, bu tarix Adamlığın yaratdığı gedişlərdir.

**Tarix – keçmişlə bağlı əbədi bilik deməkdir.** Ancaq anlamca əbədiliyə girməyən bilikdir. Bəlkə insanlıq qələbə çaldıqda tarix öz qanlı bilikləri ilə silinib gedəcəkdir. Çünkü tarixin bu qanlı bilikləri gələcəyin ümidlərinə kölgə, hətta ləkə salır. Pis örnəklərlə dolu olan tarix bilgiləri insan mənəviyyatının işığında niyə yaşamalıdır ki?! Bir sözlə, Adamlığın yaratdığı tarix ziddiyyətli, İnsanlığın yaşadığı, yaşadıldığı tarix isə zəngindir. Məxluq isə tarix yaratmır.

Ziddiyyətli çoxdur, zəngin az. Azda Məna var, çoxda olay. Olay qalaqlanır, köhnəlir, Məna isə yenilənir, örnəkləşir...

İndi biz Hüqonun “Səfillər” əsərinə üz tutub dediklərimizi genişləndirmək istəyirik. “Səfillər”dən örnəklər götürməklə Hüqonun ideya axtarışlarını sunmaq olar. Hüqo, bütün klassiklər kimi, təkcə yaşadığı dövrün deyil, bütün zamanların doğurduğu fəlakətlərin nədənini dərk eləyib. Bəşər övladının bu fəlakətlər dolanbacından qurtarmasına yardımçı olmağa çalışıb. O, öz yurdunun insanı ilə bəşəriyyətin taleyinin bir nöqtədə kəsişdiyini əsaslandıra bilib. Onun ədalət uğrunda savaşı da bu nöqtədən addım götürür. O, ulusal-bəşəri fəlakətin, sosial ədalətsizliyin qaynağını bütün aydınlığı ilə görə bilir. Toplumun siyasət ortamına çevrilməsini insanın taleyində sistemləşdirərək, xristianlığın başlanğıcından gələn insan sevgisiylə bunu aradan qaldırmağın gərəkliyini önə çəkir. Xristianlığın bəlli prinsipləri ilə bunların ortadan getməsini təmin eləmək olumludurmu, deyilmi, – bu, məsələnin ayrı bir çalarıdır. Hüqo sənət araçılığı ilə nə eləyə bilərsə, onu eləyir. Çünkü yeni bir “xristianlıq”, başqa sözlə, yeni bir “dünyabaxış sistemi” yaratmaq Hüqonun işi, gücü dışındadır. Ona görə biz də onun, xrisianlıqda doğru bildiyi prinsiplərə üz tutaraq, axtarışlar etməsini izləyirik. Xristianlığı köhnəlmiş, nisbi dünyagörüş saysaq da, bu, bizim Hüqo səmimiyyətinə sayğımıza kölgə salmır. O ki qaldı, bizim bütün ədəbiyyat, sənət örnəklərinə yanaşmamızda “dünyagörüş” məsələsini önə çəkməyimizə, bu doğal bir yanaşmadır. Çünkü hər bir yanaşmanın, bütövlükdə varlığın özülü İnam məsələsinə dayanır. Biz əsər boyu izləyirik, Hüqonun özü də insanın düşdüyü qaranlıqların işığını İnancda axtarır. İnsan Tanrı anlamına inanmalıdır. Bu İnamda onun öz növündən olanlarla birgə yaşamaq nizamı var. Bu nizam Tanrı anlamından doğan ədalət, həqiqət, vicdan anlayışlarının yaşadılması ilə qoruna bilər. Bu anlayışlar insan ömründə mütləqləşəndə yüksək (ali) həyatın gözəllikləri dərk olunur. Toplumsal (ictimai) həyat mənəviyyat işığıyla aydınlığa çıxarsa, qaralamalarla, qaranlıqlarla dolu olan tarix də öz ömrünü başa vurar, qanlı biliklərlə bu günə daşınmaz, İn-

sanlığın tarixi başlayar. İnsanlığın tarixini tarixdən üstün yaşayanlar yazır, daha doğrusu, yaradır. Tarixdən üstün yaşayanlar yüksək həyatın qurucularıdır. Onların ömrü, işi ölümündən sonra deyil, çağında da dərk olunarsa, tarix qaralamalardan özgür olub yüksək həyatın tələblərini öyrədə bilər. Başqa sözlə, tarixdən dərs götürməklə qurucu tələblərə yetmək olar.

Deyirlər tarix təkrar olunur. Bu ona görədir, Adam İnsanlaşmır. Adamlığın doğurduğu əməllər bütün dövrləri bir-birinə bənzədir. İnsanlığın doğurduğu əməllər dövrünə zənginlik gətirir, hər anın o birindən üstünlüyünü, zənginliyini ortaya çıxarır. Adamlıq – köhnəlik yaradır, daha doğrusu, öz əməlləri ilə köhnəlir, İnsanlıq yenilik yaradır. İnsanlığın yeniliyi işığa çevrilir, işıq köhnəlmir, bütün dövrlərdə yenilənir. Biz, həqiqət aşiqlərinin dərisinin soyulmasını, odda yandırılmasını misal deyə bilərik. 15-ci yüzildə həqiqətçinin (Nəsiminin) dərisini soydular, ancaq həqiqəti məğlub edə bilmədilər. Həqiqətin işığı bütün zamanların qaranlığının üzünə düşür. Onun davamında Brunolar ayılır, həqiqətin işığını sönməyə qoymur. Onların axtarışları fərqli görünsə də, hər birinin qaynağı Həqiqətdir.

Biz dedik, həqiqətə tapınanlar tarixdən üstün yaşayırlar. Yəni bir dövrə sığmırlar, bir dövrdə qalıb köhnəlmirlər, Qalıcılığın (əbədiyyətin) mənəviyyatında döyünən ürəyə çevrilirlər. Böyük ədəbiyyat da, böyük sənət də bu döyüntülərdən süzülüb gəlir, yüksək mənəviyyatın pozulmaz sistemində yaşayıb işığın gücünə qarışırlar. Hüqo da bu işığa qatqı verən sənətkarlardandır.

Yuxarıda vurğuladıq, Hüqo, toplumsal bəlalara dirəniş göstərmək üçün, insanı xristianlığın ehkamlarında yaşadılan yaxşılıqlara (fəzilətlərə) çağırır. Ancaq o, fəzilətləri kilsələrdə, dini qurumlarda deyil, bireysəl əməllərdə, düşüncələrdə tapır. Onun "Səfillər"i də həmin əməllərdən, düşüncələrdən başlanğıc götürür. Əsəri başlayan olay bir az fərqli görünsə də, dediyimizi, olayların sonrakı gəlişmələrində, davamlı izləyə bilirik. Bireysəl əməllər məbədlərin içindən yön alır. Sonra toplumun içinə

yeriyir, ayrı-ayrı bireylərin ömründən şəri çıxararaq, ürəklərin özünü məbədə çevirir.

***"Cənab Mirielin yeparxiyaya gəlməsi ilə doğan bütün dedi-qoduların danışacağımız əhvalat üçün heç bir cəhətdən əhəmiyyəti olmasa da, hər şeyi dürüst anlamaq üçün bunları qeyd etmək, bəlkə də, faydasız deyildir. Adamların yaydıqları şayiələr həqiqət, yaxud yalan da olsa, hər halda, insanın həyatında, xüsusən, onun sonrakı taleyində, onun öz əməlləri qədər əhəmiyyətli rol oynayır. Cənab Miriel Eks də məhkəmə palatası müşavirinin oğlu idi, deməli, məhkəmə aristokratiyasına mənsub idi...***

***Nəhayət, inqilab başlandı. Hadisələr sürətlə bir-birini təqib edirdi, məhkəmə məmurlarının seyrəlmiş, təqib edilən ailələrinin hərəsi bir yana qaçıb dağıldı. Miriel inqilabın hələ ilk günlərində İtaliyaya mühacirət etdi. Arvadı çoxdan bəri düçar olduğu döş xəstəliyindən orada öldü. Uşaqları yox idi. Bəs Mirielin sonrakı həyatı necə quruldu? Köhnə Fransa cəmiyyəti artıq süqut etmişdi. Mirielin öz ailəsi məhv olmuşdu. Mirielin tərki-dünya etməsinə və yalqızlığa çəkilməsinə səbəb, bəlkə də, bunlar olmuşdu? Yaxud, bəlkə də, eşqbazlıq və əyləncələr içində ömür sürərkən o, varlığını qıran və maddi rifahını pozan ictimai sarsıntılar qarşısında dayanmağa qadir insanın bəzən lap ürəyinə dəyib, onu yerlə-yeksan edən gizli və dəhşətli zərbələrdən birinə düçar olmuşdu? Bu suallara heç kəs cavab verə bilməzdi: yalnız bu məlumdur ki, Miriel İtaliyadan qayıtdıqda artıq keşiş idi".***

*("Səfillər", səh.5. "Qanun Nəşriyyatı",<br>"Əli və Nino Nəşriyyatı", 2013.)*

- Toplumun halı, həyatı nə qədər rəngarəng, nə qədər əlvan, nə qədər mürəkkəb. Hərə bir cür düşünür, bir cür yaşayır, həqiqət hərəyə bir cür çatır, hərə ədaləti özünəyarar görür, birgə (vahid) ölçü yox, birgə amal yox. Diləklər başqa, diləklərin ödənməsi üçün tələblər başqa. Hər kəsin istəkləri bir-biriylə toqquşur. Birgə yaşayışı qurmaq, nizamlamaq bu koşullar için-

də olduqca çətindir. Ona görə toplumçuluq adlanan ortamda doğulan insan bu mürəkkəbliyin içində dağınıq tərbiyə alır. Bu ortama bənzəyən insan – ortamın bütün tələblərini öz ömründə gerçəkləşdirməyə çalışır. Kef, əyləncə, eşqbazlıq, yüksək təbəqəyə mənsub adamların üzgörə sayğısını duymaq, şöhrət, ödüllənmək, bir sözlə, hər kəsdən üstün görünmək – ortamın başlıca tələbləri bunlardır. Bütün bunlar insanın mahiyyətindən qıraqdadır. Ya da bütün bunlar insanın ömrünə girdikcə, mahiyyət işığı onun ömründən qırağa çəkilir. Günlərin bir günü, toplumçuluq adlanan ortamda, hansısa səbəbdən kəskin bir dəyişiklik baş verdikdə, hər şey uçub-dağılır. Həyat insana boş, anlamsız görünür. Əyləncə içində yaşamış insanlardan çox az kəsiminin həyatında dönüş başlayır. Budur, inqilab Mirielinin yaşadığı üzdəki dəbdəbələri vurub dağıdır. Evliyi (ailəsi) belə məhv olur. O, böyük bir sarsıntı içinə girir. Bu sarsıntı Mirielini toplumun aldadıcı ortamından uzaqlaşdırıb tərki-dünya edir. Tərki-dünya kimi bir yaşamı doğru saymırıq. Ancaq toplumçuluq ortamının dəyişilməsinə etki göstərə bilməyən insanın ondan qaçmasını anlayırıq. Toplum necə var, elə qalırsa, insan üçün, toplumun içində ondan yüksək yaşamaq olduqca çətindir. Tarix boyu toplumun içində toplumdan yüksək yaşamağı çox az insanlar bacarıb. O da var, toplumun dəyişilməsinə etki göstərə bilməyəndə, istər onun içində arı (təmiz) yaşa, istər ondan qıraqda, bunun elə bir önəmi yoxdur. Ancaq həqiqətin yolunu tapmaq asan deyil. Bəzən insan toplumun həşirində boğulanda yalqızlığa çəkilir. Bu yalqızlıq tarixin ibtidai dövrlərində necə olub, bilmirik. Bildiyimiz tarixlərdə isə yalqızlığa çəkilən insanlar məbədlərə üz tutublar. Məbədlərdə onların yalqızlığını Tanrı sevgisi doldurub. Onlar dünyadan, bəlkə belə demək doğru olar, toplum ortamından ayrılmaqla Tanrı ilə birliyə yetiblər. Bundan sonra onların ömrünü toplum deyil, Tanrı tərbiyə eləyib. Başqa sözlə, özləri özlərini Tanrı sevgisiylə yenidən qurublar. Yenidən qurulma – yenidən doğulmamı deməkdir, nisbidirmi, mütləqdirmi, bu məsələnin ayrı bir yönüdür. Niyə?! – Çünkü bu sorunun cavabı insan ömrünə etki göstərən dünya-

baxışın ideya səviyyəsindən çox asılıdır. Hələ ki, bu məsələnin incəliklərinə girmədən, olaylara yanaşmağımızı qiymətləndirməyi Mirielinin tapındığı dünyabaxışın açısından götürəcəyik. Bütöv dəyərləndirmələrə gəldikdə isə, öz istəklərimizə də üz tutmağa çalışacağıq. Yuxarıda deyildi, Mirieli toplumsal həyatda sarsıldıqdan sonra inanc evinə çəkilib tərki-dünya yaşayır. Ancaq o, Tanrı ədaləti ilə dolub insanlara qayğı göstərməyi həyatının tələbinə çevirir. Onun çalışmaları, Tanrıya sevgi evi ilə insanlara qayğı ünvanı arasında, xeyirxahlıq yolu çəkməyə başlayır. Bu xeyirxahlığın sorağı artıq ölkənin hər yerinə yayılırdı. Əsər bundan sonra Mirielinin xeyirxahlıq faktlarını sadalamaq yox, insan duyğularında, əməllərində baş verən qutsal dəyişiklikləri göstərmək xətti tutur. Biz də əsərdə ömürlərin bir-birinə etki göstərməsi ideyasını izləyirik.

Biz dedik, toplumun halı, həyatı çox mürəkkəb, çox rəngarəngdir. Ancaq hamı üçün genel, ortaq olan qaçılmaz məsələlər də var. Bunlardan biri, hamını birləşdirən, onların danışdığı dildir. Biri qanunlardır. Dil – hamının bir-birini anlaması üçün gərəkən bir dəyərdir. İnsanların içində, düşüncəsində bir-birinə uyğun olan da, olmayan da nəsnələr var. Bir-birinə uyğun olanlar insanlıq tələbləridir. Bu tələblər insanları, araçısız (vasitəsiz) olaraq, bir-birinə yaxınlaşdırır, anlaşdırır. Bir-birinə uyğun olmayan məsələlərdə isə, insanlar bir-biri ilə qanunlar araçılığı ilə anlaşırlar. Ancaq bir çox hallarda qanun özü insanlarla anlaşmaya girə bilmir. Çünkü qanun insanın həyatını dəyişmir, onu öz mahiyyətinə çatdırmır, sadəcə, insanın qarşısında tələblər, yasaqlar qoyur. Əslində qanun toplumsal həyatı zor araçılığı ilə nizamlayır. Zor toplumsal davranışlarda daha amansız pozuntular əmələ gətirir. Qanun insana deyir – oğurluq eləmək olmaz, eləyərsən, zindana düşərsən. Ancaq insanın oğurluq etməməsi üçün ortam yaratmır. Söz yox, qanun deyəndə biz dövlət-insan münasibətlərinin nizamlanmasını gözə alırıq. Söhbət isə bütün hallarda insandan gedir. İnsan qanunu yazır da, pozur da. Deməli, qanunu yazan onu asanlıqla poza da bilirsə, qanunun ortada olması hər şey demək deyil. Qanun yazılanda, gələ-

nəksəl olaraq, humanist düşünülür. Ancaq yerinə yetiriləndə bir təbəqənin üstünlüyünü qoruyur. Bunun etkisini əsərdəki ayrı-ayrı obrazların taleyində aydın görmək olur. Əsərin baş obrazı Jan Valjanın taleyi isə daha böyük örnəkdir: ***"Ehtiyac bu bədbəxt ailəni getdikcə daha artıq sıxırdı. Bir dəfə qış olduqca ağır keçdi. Jan Valjan işsiz idi. Ailəsi çörəksiz qaldı. Sözün tam mənası ilə. Yeddi uşaq çörəksiz qalmışdı.***

***Bir bazar axşamı Faverol meydanındakı çörəkçixana sahibi Mober İzabo yatmağa hazırlaşırkən, dükanın qabağındakı dəmir şəbəkəli şüşə pəncərəyə nəyin isə bərk dəydiyini eşitdi. O, tez dükana girdikdə yumruqla sındırılmış şüşədən və deşilmiş şəbəkədən bir qolun içəri soxulduğunu gördü. Qol bir çörək götürüb yox oldu. İzabo dərhal küçəyə çıxdı, oğru var qüvvəsi ilə qaçırdı, İzabo oğrunun dalınca yüyürüb ona çatdı. Oğru çörəyi atmışdı, lakin əli qan içində idi. Bu Jan Valjan idi...***

***Şiddətli çəkic zərbələri ilə dəmir xaltanı onun boynuna bənd etdikləri zaman o ağlayırdı, göz yaşları onu boğur, danışmağa qoymurdu. Yalnız ara-sıra: "Mən Faverolda ağac kəsirdim" deyə bilirdi. Sonra yenə hönkürə-hönkürə sağ əlini yuxarı qaldırır və yeddi dəfə getdikcə daha aşağı salırdı, elə bil, yeddi uşağın başına toxunurdu. Onun bu hərəkətindən başa düşmək olurdu ki, onun cinayəti, nədən ibarət olursa-olsun, yeddi körpəni yedirmək və geydirmək üçün edilmişdir.***

***O, Tulona göndərildi. Onu iyirmi yeddi günə boğazı zəncirli halda arabada oraya apardılar, Tulonda ona qırmızı dustaq köynəyi geydirdilər. Vaxtilə onun həyatını təşkil edən bütün keçmişi, hətta adı belə qeyb oldu. O, artıq Jan Valjan deyildi: o, 24601-ci nömrə idi. Bacısı necə oldu? Onun yeddi kiçik uşağı necə oldu? Kimə nə dəxli var! Cavan ağac kökündən kəsilərsə, onun üzərindəki bir ovuc yaşıl yarpaq necə olar?".***

*("Səfillər", səh.59)*

- Qanun toplumsal nizamın qarantı sayılsa da, burada biz qanunun əsaslı bir faciəyə özül qoyduğunu izləyirik. Qanunun gözü qarşısında insanların yaşamını səfalət ələ keçirir. Bütöv bir ailənin aclığı söz qonusudur. Körpəni necə anlatmaq olar, yaşadığın ölkənin qanunu sənin ac qalmağına hökm vermişdir. Çünkü qanunun yolu ilə işləmək olanaqları yoxa çıxmış, çörək əldə etmək ehtimalı əldən getmişdir. İndi qalıb qanunsuzluq yolu, yəni çörəyi oğurlamaq. Bu isə aclığı ortadan qaldırmağın bütöv olanağı deyil. İki cəhətdən. Birincisi odur, davamlı oğurluq eləmək olası deyil. Körpə bu gün bir tikə çörək yesə də, sabah yenə ac qalacaq. İkincisi isə odur, bu birdəfəlik oğurluq baş tutacaq, yoxsa çörək oğurlayan yarı yolda yaxalanacaq?! Əsərdən götürdüyümüz alıntıdan göründüyü kimi, ac yetimləri bir günlük belə doyurmaq baş tutmur. İndi qanun yeddi körpə uşağın, eləcə də, hələ sevib-sevilməyə macal tapmayan, gəncliyin ən ibtidai romantikasını duymayan 24 yaşlı gəncin – Jan Valjanın faciəsinə hökm verəcək. Bu gəncin köksündə hansı iztirablar döyünür, hansı fəlakətlər böyüyür – belə şeylər qanunun qulağına girmir. Suçlunu cəzalandırmaqla suç aradan qalxmır, yenə yaşayır. Qanun cəzalandırmağa suçlu axtarır, suçu cəzalandırmaq adında isə nə anlayışı var, nə də məntiqi. Əslində insana normal yaşam ortamı yaratmadan dövlət qanunlarını ona yeritmək, habelə aclıqdan, əlacsızlıqdan bu qanunları pozanları cəzalandırmaq cinayətdir. Doğrudur, dövlət mühakimə olunmur. Ancaq dövlətin mühakimə olunmaması üçün onun qanunları İnsanlığın mənəvi prinsiplərindən yazılmalı, insana qayğı üstə gerçəkləşməlidir.

Başqasının nəyinisə oğurlamaq pis şeydir. Oğurluq tüfeylilərin işidir. Bəs tüfeyliliyi kim yaradır, bu cür yaşam ölçüsü nədən qaynaqlanır?! Dövlət bunca qutsallaşdırılırsa, bu sorğulara cavab verməli deyilmi?! İnsanın yaşadığı ölkədə, gəzdiyi torpağın üstündə yaşamaq haqqı pozulursa, gündəlik təkcə çörəyi belə əldə edə bilmirsə, o hansı qanunlarla yaşamalıdır?! Necə olur, eyni növdən olan bəşər övladı bunca ayrı-seçkiliyə uğrayır, bütün bunlar, dövlət kimi qutsal sayılan, ona hər cür üstün-

lüklər verilən qoruyucu bir sistemin gözləri qarşısında baş verir?! Ya da bu ayrı-seçkiliyi elə dövlətin özü yaradır?! Belədə haqqı pozulan insan necə davranmalı, necə münasibət sərgiləməlidir?! – Söz yox, Doğanın qanunları əsasında davranacaqdır. Doğanın qanunları isə mövcudluğu qorumaq üçün hər şeyə əl atmağı ortaya çıxarır. Dövlət Doğanın qanunlarını toplumun içərisinə buraxmır. Ancaq dediyimiz kimi, toplumu Doğanın başqa canlılarına xas olan keyfiyyətlərdən də arındırmır, ya da arındırma qanunlarını yaşatmır. Doğanın qanunları heyvanat aləminə özgündür: güclü zəifi parçalayıb yeyir. Zəif də özündən zəifi mənimsəyib mövcud olmasını sürdürür. Heyvanın mənəviyyatı, şüuru olmadığı üçün bu qanunları dəyişmək olumsuzdur. Ancaq insan öz mənəviyyatı, şüuru ilə heyvandan ayrıldı. Birgə yaşayışını qorumaq üçün Doğa qanunlarını deyil, toplum qanunlarını əsas götürdü. Başqa sözlə, bu qanunları özü yaratdı. Üstəlik, bu qanunları həyata keçirmək üçün dövlət adlanan bir mexanizm də düşündü. Ancaq diləkləri özünü doğrultmadı. O (insan), toplum qanunları ilə dilədiyi ədaləti, həqiqəti əldə edə bilmədi. Qanunlar diləklərindən doğdu, diləkləri arı, inandırıcı (səmimi) idi. Onu yerinə yetirərkən isə xarakterinə üz tutdu. Xarakteri isə yuxarıda vurğuladığımız kimi, Doğanın verdiyi keyfiyyətlərlə yüklü olaraq qaldı. Başqa sözlə, bioloji istəklərlə, bioloji tələblərlə yaşadı. Öz üzərində işləyib mənəviyyatın tələblərini eşitmədi. Ona görə dövlət – bilimli, bilikli, ancaq Doğadan gələn xarakterlərlə yaşayanların əlinə keçdi. Sonucda dövlətin başında zəifləri əzən, onların olanaqlarını mənimsəyən kimsələr oturduldu. Bu da, bir daha vurğulayaq, Doğanın nizam qanunlarına uyğundur, insanlığın yox. Deməli, insan toplumda yenə yalqızdır, yenə yazıqdır. Biz bunları, haqqında danışdığımız əsərin obrazlarının taleyində, axıra qədər izləyə bilirik. Katorqaya sürülməklə Jan Valjanın içində dövlət, onun qanunları, hər cür heyvani duyğuları bərpa eləyir. Budur, insan toplumda heyvandan ayrılmalıykən heyvana qaytarılır. Heyvanca davrananların zalımlığı, ədalətsizliyi, qəddarlığı bir gəncin dustaq ömründə elə ağır iz buraxır, sanki bircə dənə

qutsal duyğu saxlamır. Dövlətin aradan qaldıra bilmədiyi səfalət bir gənci oğurluğa zorladı, qanun bu gənci içəriləməklə toplum üçün ondan daha qorxulu bir xarakter yaratdı. O, fiziksəl özgürlüyə çıxandan sonra daha hansı cinayətlər törədəcəkdir?! Toplum anlamadı, onun yaratdığı qanun (tutuqlama) insanı tərbiyə eləmir, olan-qalan tərbiyəsini də korlayır. Qanun zor işlətməklə, qəddarlıq eləməklə insandakı naqisliyi döymür, xalisliyi döyür. İnsana qarşı hansı münasibət sərgiləyirsənsə, o münasibətə uyğun cəhətlər dirçəlir.

Xristianlığı qəbul eləmiş dövlət, ən azından, İsanın sevgi çağırışlarının mahiyyətini anlamalı, ona bəlli bir ölçüdə əməl etməli idi. Tərsinə, dövlət İsanın çağırışlarını yaşatmır, xristianlığı özünün ağalığını qorumağa yönəldir. Buna görədir, ruhani dünyabaxışla dövlət nizamı arasında daim ziddiyyətlər ortaya çıxır. İsanın təlimi ilə sonradan dövlətin qəbul elədiyi xristianlıq arasında da ziddiyyətlər beləcə yaşamaqdadır. Toplum da bütün dövrlərdə İsanın təlimi ilə deyil, xristianlığın rəsmiləşən quralları ilə davranır. İbadət evləri yaranır, mənəviyyat evləri yaranmır. Toplum Tanrının qarşısında borcunu ödədiyini düşünür, Tanrı ilə birləşmir. Tanrını özündən güclü sayır, Tanrını içsəl gücü saymır. (Əslində Tanrı insandan güclü deyil, Tanrı – insanın gücüdür). Tanrıdan ayrılır, ona görə də təbəqələrə bölünür. Zalım da ibadət evlərinə gedir, məzlum da. İbadət insanı Tanrıya qovuşdurmur. Tanrı ilə birləşməyən zalım, ibadət evindən zalımlığı ilə, məzlum məzlumluğu ilə qayıdır. Təbəqələşən toplumda Tanrı var olmur. Ədalətsizlik qüvvədən düşmür, həqiqətsizliyin etkisi aradan qalxmır, mənəviyyatsızlığın pozuntuları genişlənir. Özünə yiyə olmayan toplumun ixtiyarı bütünlüklə dövlətin əlinə keçir.

Yuxarıda da dedik, dövlətin başında mənəviyyat adamları deyil, təbəqə adamları durur. Bu təbəqə üstün təbəqə sayılır – varlı, zorlu, hakim. Təbəqəçiliyin hakim olduğu dövlətdə ədalət bərqərar ola bilməz. Dövlət səfillər yaradır – səfillik ortamına çevirir aşağı təbəqənin yaşamını. Səfalətin içində işləyən qanun əslində təbəqəçiliyi qoruyur. Qanun səfilə deyir, acından öl, an-

caq qanunu pozma. Yəni səni talayıb ac qoyanlardan oğurluq eləmə.

Əslində dövlətə, onun qanunlarına saygı – toplumun birgəyaşayış nizamının (ədalətli, vicdanlı bağlılıqların) qorunmasına saygıdır. Ancaq birgəyaşayış nizamı insandan heyvan əmələ gətirirsə, durum xeyli mürəkkəbləşir. Biz buna Jan Valjanın taleyində aydınlıq gətirməyə çalışırıq. Hüqo öz obrazlarının düşdükləri ortamı, bu ortamdakı durumlarını çox sadə bir dildə çatdıra bilir. Eyni halda, hər bir obrazın xarakterini, xarakterdə baş verən dəyişiklikləri bütün aydınlığı ilə catdıra bilir. Biz bunları izlədikcə öz çağımızla Hüqo çağının arasında bağlılıqlar görürük. Bütün çağlarda toplumsal sorunlar bir-birinə bağlı şəkildə qırmızı xətlə uzanır. Bu xətdə dəyişiklik apara biləcək ideya qüdrəti sanki ortaya çıxmır, ya da bu ideyanı gerçəkləşdirə biləcək mexanizm yaranmır. Zaman keçdikcə sivilizasiyanın apardığı islahatlar həmin qırmızı xəttə toxuna bilmir. Gəlişmə (tərəqqi) üzdə gedir. Bu səbəbdən də gəlişmə ilə antigəlişmə daim paralel mövcud olur. Dediyimiz kimi, toplumun yaşam araclarında (vasitələrində) gəlişmə özünü göstərsə də, təbəqələrarası münasibətlərdə, dövlətin yönətimində, qanunların işləməsində, toplumsal davranışlarda antigəlişmə qorunub saxlanır. Yaşamağın ən ibtidai biçimini belə itirən gənc Jan Valjan katorqa taleyinə sürüklənir. Fiziki, mənəvi işgəncələrlə üz-üzə qalır. İllərlə sürən bu işgəncələr onun fiziki dözümlülüyünü artırsa da, mənəvi kimliyində çox ağır izlər buraxır. Mənəviyyat çiçək kimi incə, həssas məsələdir. Çiçəyə qulluq edəndə sevgi ətri saçır, tapdalayıb əzəndə üfunət qoxuyur. İnsan mənəviyyatına yanaşma da beləcədir. Budur, Jan Valjan məhv edilmiş mənliyi ilə katorqadan qayıdır. O artıq arı duyğulu gənc deyil, qutsallığa bağlı duyğularını itirmiş yetkin yaşlı bir kişidir. Gəncliyin qaynar bir çağında buxovlanmışdı onun varlığı. Ancaq düşünmək olmaz, bu buxovu o, yalnız katorqa həyatında tapmışdır. Əslində o, heç vaxt özgür olmamışdır. Yaşadığı toplum da onun üçün ümidsizlik qaranlığına çevrilmişdir. Katorqa qaranlığına o, başqa bir qaranlıqdan sürülmüşdür. Katorqa hə-

yatında ülvi duyğuların üzə çıxmasına, böyüməsinə ortam olmadığı kimi, dustaq yaşamından qıraqda da, belə bir ortamın olmasından söz gedə bilməz.

İndi o, özgürlüyə çıxıb toplum içinə qayıdır. Ancaq necə qarşılanır – hamı ona yad ünsür kimi baxır, hamı ondan qorxur. Heç kim onun udduğu havanı udmağa belə ortaq olmaq istəmir. Hamı ona arxasını çevirir, hər kəs onun sorğularını cavabsız qoyur. Özünün katorqada, ağır zəhmətlə, qazandığı puluna da ona bir tikə yemək vermirlər. Bu yanaşma nədir, toplumsal (ictimai) qınaqdırmı, ən adi çörək oğurluğunu belə damğalamaqdırmı?! – Yox, bunların heç biri deyil. Axı o, xəzinədən pul, dövlətdən yaraq, tövlədən dana oğurlamayıb. Sadəcə 7 azyaşlı yetimlərin ehtiyacından yana bir tikə çörək oğurlayıb. Burada qanun hər şeydən yüksəkmi tutulur?! – O da deyil, olması yaxşı da deyil. Qanunun insan həyatından yüksək tutulması daha betər eybəcərlikdir. Sadəcə bu yanaşmada qanun toplumun pozulmuş, alçalmış psixologiyası kimi ortaya çıxır. Biz başlanğıcda da vurğulamışdıq, qanun toplumu alçaldır, insanı da bu alçalmış toplumun gözündən salır. Deməli, birgə yaşayan insanlar bir-birinə yad əhvalda yaşayırlar. Qanun bu yadlığı qoruyur. Yadlığı qoruyan qanun dövləti insana sevdirə bilərmi?!...

Jan Valjan qalmağa yer, yeməyə bir tikə çörək axtarır. Ancaq bunları ona heç kim vermir. Kim versin, kimdən alsın – toplumda ədalətin ən ibtidai şəkli belə dəyişikliyə uğramış, ürəklərdən ayrılmışdır (tərk etmişdir). Ya da ibtidai ədalət duyğusu "normal" toplum sakininə qarşı oyana bilir, katorqalı kimsəyə qarşı yox.

Jan Valjanın şüurunda özünün də varlığı çoxdan qaranlığa bürünmüşdür. Bəlkə də ədalət adlı bir anlayış onun yaddaşından silinib getmişdir. Belə isə, bəs nə üçün o, inadla qapıları döyməkdə davam edir? – Görünür, insanın doğal şüurunun dərin qatlarına, ümidin işığını axıra qədər söndürə biləcək, qaranlıq girə bilmir. Axı necə ola bilər, yeri gələndə itə də qapı açan toplumun içindən kimsə öz növündən olana qarşı bunu eləməsin?!

Budur, Jan Valjan axırda Mirielinin qapısını döyür. O, burada, toplumda bu çağa kimi görmədiyi, mərhəm münasibətlə qarşılaşır. Toplumdan qıraqda, qanundan üstün bir münasibəti dərk eləmək, o anda, söz yox, çox çətindir. Tanrı işığı ilə formalaşan insan sevgisini, ilk yol duyan katorqalı birisi hələ də heç nədən məmnun görünmür. O, bütün günü heç yerdə əldə edə bilmədiyi yeməyi, yatacağı əldə eləsə də, döyülmüş mənəviyyatında tərpəniş görsənmir. Bu qədər qayğının qarşılığında buradan da oğurluq edir. Bu dəfə yepiskopun gümüş şamdanlarını. Ancaq Tanrı sevgisi ilə yaşayan insanlarda şamdan tamahı olmaz. Ona görə Yepiskop Tanrı anlamından içində böyütdüyü mərhəmət işığını Jan Valjandan əsirgəmir. Onun yenidən tutuqlanmasının qarşısını alır. Hər kəs asan yol seçir – oğrudur, qurtardı, deməli, onu tutdurmaq ədalətli yoldur. Ancaq içində Tanrı hikmətilə yaşayan adam belə düşünmür, yanlış əməlləri doğuran nədənləri dərk etməyə çalışır. Yepiskop da belə davranır. Deməli, mərhəmət var, ədalət var, vicdan deyə bir şey var. Çox vaxt insan bunların öz içində olanaq kimi olduğunu bilmir, bu anlayışları başqaları öz əməlləri ilə qıraqdan ona göstərir. Sonrakı bölümlərdə görəcəyik, mərhəmət, ədalət, vicdan duyğuları Jan Valjanın içində yüksək səviyyədə özünü göstərir. Qanun öz kəsə gedişləri ilə insanda belə duyğuları oyada bilməz. Ancaq Yepiskopun pis davranışa pisliklə deyil, xeyirlə qarşılıq verməsi bir insan ömründə köklü dəyişikliyə nədən olur.

Başqa yerdən, bar verən ağacın toxumunu gətirib öz bağçasında əkən bir adam, bu çağa kimi bağbanlıq eləməzdi, indi o, cəfakeş bağban olmaq, bar bəsləmək olanağı tapır. Torpağı az yararlı, çox yararlı da ola bilər, ancaq mütləq yararsız ola bilməz. Yetər, insan bunu görməyə, anlamağa başlasın.

Əsərin sonrakı bölümlərində (fəsillərində) biz Jan Valjanın ağıllı bir ixtiraçı kimi ortaya çıxdığını izləyirik. O, özünün sadə bir ixtirası ilə Monfermeyl şəhərini də varlandırır, bütövlükdə ölkəyə də, önəmli bir tutumda, gəlir qazandırır. Üstəlik nə qədər işsiz insanların dolanışığı üçün ortam yaradır. Ancaq çox ilginc bir durumu qiymətləndirmək tələbi ilə üzləşirik. Jan Val-

jan bu işləri görərkən də qanundan gizlənməli olur. O, adını, kimliyini dəyişmək zorunda qalır. Qanun isə gec-tez onun kimliyini üzə çıxarıb qovmağa başlayır, başqa cür desək, "mərdi qova-qova namərd eləmək" işini yerinə yetirir. Bəs niyə axı?! – Bax, bunu dərk eləmək çox çətindir. Axı yoxsul insanların qayğısına qalan, bütövlükdə bir şəhərin yaşam səviyyəsini öz əməyi, ağlı ilə yüksəldən Madlen nə üçün mənəviyyatında katorqa damğası daşımalıdır?! Öncə insanları suç işləməyə zorlamaq (deyək, çörək oğurlamaq qaçılmazlığına soxmaq), sonra da onu əbədi suçlu saymaq nədən dəyişməz həyat ehkamına çevrilməlidir?! – Burada Tanrısal sistemə özgün olan dini baxışların yanlış etkisi görünməyə başlayır. Yuxarıda vurğulamışdıq, "xristianlığı köhnəlmiş, nisbi dünyagörüş saysaq da, bu, bizim Hüqo səmimiyyətinə sayğımıza kölgə salmır". Biz xristian ehkamlarının yanlışlarını qəbul etməsək də, Hüqonun insanları bu baxışın mərhəmətçilik ideyasına çağırmasını anlamağa çalışırıq. Çünkü Hüqo ədibdir, dünyabaxış yaradıcısı deyil.

Bununla belə, insan-qanun münasibətlərini aydınlaşdırmaq gərəkdir. Biz bunu eləyərkən, o dövrün üz tutulmalı dini ideyalarını danmaq (ya da rədd eləmək) qaçılmazlığı ilə qarşılaşırıq. Semit baxışlarında qəbul olunması olumsuz olan bir sıra nəsnələr vardır. Onlardan biri insan varlığına yanaşmadır. Bu yanaşmanın anlamı odur, bəşər övladının ilk əcdadları olan Adəmlə Həvva rəbbin buyruqlarına əməl etməmiş, Cənnətdə yasaq edilmiş buğda ağacından dadmışlar. Sonucda onların ayıb yerləri görünmüş, bu, rəbbin qəzəbinə nədən olmuşdur. Beləliklə, böyük "günaha" görə onlar Cənnətdən qovulmuşlar. Buradan çıxan məntiqi tutmaq üçün bütövlükdə deyilişin daşıdığı özəlliklərə aydınlıq gətirək. Bu ideyada həm dolaşıqlıq var, həm də tələskənlik. Dolaşıqlıq budur, hər şeydən arı, duru sayılan Cənnətdə yasaq edilmiş buğda ağacı niyə var?! Əslində bu dolaşıqlıq tələskənlikdən doğmuşdur. Yəni tələskənlik – gerçəkliyi anlamadan onu danmaqla ortaya çıxmışdır, bu da dolaşıqlıq yaratmışdır. Buğda yaşam aracıdır (həyat vasitəsidir). Buğdadan dadmağı günah elan eləməklə yaşama qarşı çıxılır. İkinci, "on-

lar buğdadan dadanda ayıb yerləri göründü". Yəni doğub-törədi, bəşər oldu. Deməli, günahın elan olunması insanın bəşər olmasına qarşı çıxmaqdır. Bununla da, bəşər övladının əzəli günahkar olması ideyası ilə insan varlığına qarşısıalınmaz bir ağırlıq gətirilmişdir. Tanrı qarşısında günah işlətmiş Adəmlə Həvvanın günahına bütün bəşəriyyət əbədi ortaq edilmişdir. İndi bu qonunun yuxarıda qoyduğumuz – "öncə insanları suç işlətməyə zorlamaq, sonra da onu əbədi suçlu saymaq nədən dəyişməz yaşam ehkamına çevrilməlidir" sorğusu ilə bağlılığına aydınlıq gətirək. Min ildir dini baxış insan şüuruna yeridib, bəşər övladı özünün ilk əcdadı olan Adəmlə Həvvanın Tanrı qarşısında yol verdiyi günahdan çıxmayıb. Bu şüurla yaşayan insan qanun yazır. Qanun da deyir, Jan Valjan öz mənəviyyatını yüksək dəyərlərlə doldurub Madlen olsa da, ona haqq tanımaq olumsuzdur. Çünkü o, gəncliyində, bacısının körpə uşaqlarının acından ölməməsi üçün oğurladığı bir tikə çörəyə görə əbədi günah qazanmışdır. Deməli, Tanrı Cənnətdə yasaq edilmiş buğda ağacı əkib, sonra bundan dadanları cəzalandırmaq hökmü vermişdir. "Əbədi günah" ideyası bu məsələdən qaynaqlanır, toplumsal yaşamda da qorunub saxlanır. Baxın, insan Tanrı anlamı ilə bağlı necə yanlış düşüncə daşıyır. O bu yanlış düşüncəni toplumsal yaşamında da gerçəkləşdirir. Deməli, insanın gerçək yaşamındakı bütün sorunlardan qurtuluşu Tanrı anlamı ilə bağlı yanlış düşüncələrdən qurtulmasındadır. Həyatın bütün çalarlarının – ədalətin, mərhəmətin, vicdanlı yaşamağın doğrulması insanın öz içində yanlış düşüncələrdən, yanaşmalardan özgür olması ilə baş tuta bilər. Burada biz Asif Ata dünyabaxışındakı "İnsan Yönü" ideyasına gəlib çıxırıq. Nədən Asif Ata dönmədən vurğu edir: "Bəşərin qurtuluşu İnsanlaşmaqdadır. İnsanlaşın – İnsanlaşdırın!". Əslində Asif Ata Tanrısal sistemi yanlışlardan qurtarır, başqa sözlə, insanı qurtarır!...

Yuxarıda vurğuladıq, qanun toplumda yüksək təbəqənin istəklərini qoruyur. Yüksək təbəqə varlanır, zorlanır, dövlət yönətimini ələ keçirir. Yoxsul, olanağı oğurlanmış təbəqə isə mövcudluğunu qorumağa çalışır. Əlindən alınanları geri qay-

tarmaq, adam kimi yaşamaq, nəfəs almaq istəyir. Bu zaman qarşısında qanunu görür. Qanun onu hədələyir, düşdüyü aqibətlə barışmağa zorlayır.

"Heyhat! Allah insanlara yaşamaq üçün hava vermişdir, qanun isə Allahın verdiyi havanı satır".

*("Səfillər", səh.12)*

Bu düşüncəni anlamaq üçün Tanrı-Gerçəklik məsələsinə yenidən qayıtmaq yerinə düşər. İlk baxışdan oxucu deyər, burada anlaşılmayan nə var, qanun insana ögey münasibət bəsləyib. Yox! Bu ilk baxış durumun mahiyyətini tam ifadə etmir.

Asif Ata deyir, İnsan – Məna ilə Gerçəklik birliyidir. Ancaq Məna – Gerçəklikdən üstündür, dərindir. Yəni insanın bioloji xassələri olsa da, o, daha çox ruhsal varlıqdır. Fiziksəl mövcudluğu bədəndir, mahiyyəti İnsanlıqdır. O, fiziksəl mövcudluğunu qoruyarkən ruhsal mahiyyətini unutmamalıdır. Başqa canlılar kimi mövcudluğunu qorumaq üçün öz növündən olanları məhv etməməlidir. Çünkü o, Mənadan gəlir. Məqsədi – gəldiyi, başladığı Mənaya qovuşmaq, onun tələblərinə uyğun yaşamaq olmalıdır. Asif Ataya görə, insanın bioloji, fiziki biçiminin olması onun günahı deyil. Biçim olmasa Məna da olmaz, başqa sözlə, bilinməz. Məna görünüşə gəlməlidir (təzahür etməlidir), gerçək şəklə düşməlidir. Düzdür, Məna görünüşə gələndə əksilir, azalır. Ancaq bunsuz varlığı bütöv düşünmək olanaqsızdır.

Məna görünüşə gəlib gerçəkləşsə də, gerçəkliyə çevrilmir. Yəni həm də Məna olaraq qalır. Məna öz gerçəkliyini cəzalandırmır. Belə bir məntiq yoxdur. Ancaq semit dünyabaxışında Məna ilə gerçəklik başqa-başqa məsələlərdir. Burada Məna (Allah) gerçəkliyi quraşdırıb yaradır. Sonra bu gerçəkliyi (Adəmlə Həvvanı) sınağa çəkir, tələblərinə uyğun olmadığı üçün cəzalandırır. Göründüyü kimi, Allah anlamına yanaşma fantaziyalaşır. Fantaziyalara uyan insan toplumsal yaşamda da doğru bir sistem qura bilmir, çünkü özünü dərk etmir. Özünü dərk etmədiyi qədər isə özgəsinə ziyan verir.

Biz bu dediklərimizin görüntülərini əsərin başqa bir obrazının xarakterində, davranışlarında da aydınca izləyə bilirik. Bu obraz polis məmuru, qanun keşikçisi Javerdir. Onun üçün varlığın bütün mənası yalnız qanunda toplanıbdır. Qanundan qıraqda heç bir məntiq onun ağlını, düşüncəsini uğraşdırmır (məşğul etmir). Əsərdə Javerin sevgisinin, sevgilisinin, ailəsinin, övladlarının, qohum-qardaşının olub-olmaması haqqında bilgi verilmir. Bəlkə də yoxdur. Olsaydı, qanunu mütləq sayması bəlkə də olanaqsız olardı. Çünkü öz yaxınlarının da necə yaşaması gözünün önündə olacaqdı. Onlar da Javerin qanuna bağlılığından (təəssübçülüyündən) doğan tələblərinə tam cavab verə bilməyəcəkdilər. Biz əsərin gedişində görürük, Javer üçün sevgi yoxdur – qanun var; mərhəmət yoxdur – qanun var; ana fəryadı yoxdur – qanun var; körpə gələcəyi yoxdur – qanun var; mənəvi gəlişməni anlamaq yoxdur – qanun var. Bir sözlə, Tanrı yoxdur – qanun var. Yuxarıda saydıqlarımızın hamısı Tanrı anlamına özgündür. Javer qanun qaxacıdır – quru, soyuq, cansız, qorxulu. Bu halı biz talesiz, körpəsini dolanışıq ucbatından mərhəmətsiz meşşanların (Tenardyelərin) tapdağına buraxıb gəlmiş Fantinanın fəryadına yanaşmada oxuyur, dərk edirik:

"Cənab Javer, mənə yazığınız gəlsin!

Fantina bu sözləri ikiqat əyilib, dizi üstündən qalxmayaraq, yaşarmış gözləri ilə heç bir şey görməyərək danışırdı. Əllərini ovaraq, yarıçılpaq sinəsinə sıxırdı, quru və qırıq-qırıq öskürdüyü üçün səsi can verən adamların qorxunc pıçıltısı kimi yavaşcadan çıxırdı. Böyük kədər zavallı adamların üzünə nur salan ilahi və qorxunc bir qüvvədir. Bu halda Fantina yenə gözəl görünürdü. Arabir sükut edərək miskincəsinə casusun ətəyini öpürdü. Onun yalvarışları daş qəlbləri belə yumşalda bilərdi, lakin ağac bir qəlbi yumşaltmaq mümkün deyildir.

Javer: – Yaxşı, yetər, – dedi, – dediklərinə qulaq asdım! Gərək ki, nə lazımsa hamısını söylədin. Di get. Altı ay həbsxanada yatacaqsan; lap allahın özü də burada bir iş görə bilməz".

*("Səfillər", səh.129).*

- Budur, polis casusunun içində heç bir mərhəmət duyğusu görünmür. İnsanca bir duyğu içində baş qaldırsaydı, insan faciəsinin sirrinə varardı. Araşdırma aparıb durumu qiymətləndirərdi. Burada onun üçün hansısa səfeh bir burjuaya əl qaldıran "fahişəni" cəzalandırmaq var. O düşünür, bu addımında tam haqlıdır. Toplumsal nizam pozulmamalıdır.

İşin ən pis cəhəti odur, qanun hərəkəti görür, yaşanan acını isə anlamır, duyğuları əzən gərginliyin nədənini görmür. Fantinanın ürəyindən qan axır, o, öz körpəsinin yaşaması üçün ondan tələb olunan pulun necə əldə olunmasının ümidsizliyini yaşayır. Şaxtalı bir qış günündə yarımçılpaq bədənini soyuqdan qorumağa paltarı olmadığı halda, tərbiyəsi kefdən, əyləncədən başqa bir şey olmayanın biri onun açıq sinəsinə göz dikir. İstehzalı baxışı, gülüşü, davranışı ilə tərbiyəsizlik edən bir axmağın qar topu Fantinanın bədəninə dəydikcə ruhunu gizildədir. Ruhuna yığılan gərginliyin ağırlığı altında onu ələ salanı cırmaqlamağa başlayır. Bununla da qanunu pozur, "cinayət" işlədir. İndi o, qanun qaxacı Javerin ixtiyarındadır. Heç bir fəryadın, yalvarışın, göz yaşının, yuxarıda vurğuladığımız kimi, Javerin içində yeri, üzərində insanca etkisi yoxdur. Fantinanın içində bir ananın ümidləri can verir. Bunu isə qanunu qoruyan görmür, Fantinada Tanrıya qarşı şübhə, insanlığa qarşı nifrət bəsləyir. Tanrının varlığına qarşı şübhə, insana qarşı nifrət isə torpağın altına gedən ölümə qoşulmur ki. Toplumun qabalığında, qanunun yabalığında yenidən göyərir, yenidən qayıdır səfalətin əlinə keçən talelərə...

## 2. Xeyir Ümidin yenilməzliyidir

Ancaq xeyiri mütləq şəkildə məğlub eləmək də olmur. Mənəviyyatını səfalətin basqısından qurtara bilənlər xeyirin işığını yenidən yandırırlar.

Javerin qaranlıq baxışlarının qarşısında fəryad qoparan Fantina birdən başqa bir mənzərə ilə üzləşir. İndi onun ümidsizlik-

lə yaşaran solğun gözlərinə xeyir öz işığını salaraq, son ümidin sönməsinin qarşısını aldığını izləyir. Budur, şəhər meri, Javerin üzərində hüquqi hökmü olan Madlen, ümidsizləşən bir ürəklə amansızlaşan bir ürəyin arasına keçmiş, Fantinaya ağgünlülük vəd eləmişdir.

Öncə Fantina Madlenin gəlişinə qəzəblənmişdi. O, elə bilirdi fəlakətlərini yaradan Madlen olmuşdur. Axı o, Madlenin ixtirası ilə işləyən fabrikdə çalışırdı. O, buradan dedi-qodu həvəskarlarının əli ilə işdən qovulmuş, bununla da körpəsinin qayğılarını ödəyə bilməyəcək duruma düşmüşdü. Fantina yanlış olaraq, fəlakətinin suçunu Madlendə görmüş, onun üzünə tüpürmüşdür.

"Sonra bu merin, dövlət məmurunun sakit bir halda üzünü silib "bu qadını azad edin!" dediyini eşitdikdə, Javer birdən-birə çaşıb qaldı. O düşünmək və daşınmaq qabiliyyətini itirdi. Heyrəti son dərəcəyə varmışdı. Dili tutulmuşdu".

*("Səfillər", səh.130)*

- Ömründə bir dəfə əzabın nə olduğunu düşünməyən, Tanrı sevgisini duyğularına yaxın buraxmayan Javer üçün belə bir "cinayəti" bağışlamaq cinayət idi. O, Madlenin (Jan Valjanın) ürəyindən soraqsız idi. Qutsal bir ürəyin qanundan yüksəkdə durmasını dərk edə bilməzdi.

Qanunu heç kim sevmir. Qanun həm qoruyur, həm öldürür – mövcudluğu (canı, cismi) qoruyur, varlığı (mənəviliyi) öldürür.

"Fantinanın keçirdiyi macəra nədir? Bu macəra qul satın alan cəmiyyətin macərasıdır. Cəmiyyət bu qulları hardan satın alır? Səfalətdən".

*("Səfillər", səh.126)*

"Bu adam ona qurtuluş əlini uzatmışdı, həm də ən dəhşətli bir şəkildə təhqir edildiyi zaman uzatmışdı. O, səhv etmişdimi? Öz qəlbini köksündən dəyişməli idimi?.. O, büsbütün özünü itirmişdi. O, çaşqın, pərişan bir halda dinləyir, baxır və cənab Madlenin hər bir sözü ilə qəlbində dəhşət saçan nifrət dünyası

dağılır, əriyir, məhv olur və sevinc, etimad və məhəbbət gətirən, anlaşılmaz və ürəyi qızdıran bir şey doğmağa başlayırdı”.

*(“Səfillər”, səh.133)*

- Fantina Tanrının varlığı ilə görüşürdü. O bu varlığı nifrət elədiyi bir ömürdən qarşılayır, ona qarşı sərgilənən əmələ ad axtarırdı – bu ad mərhəmətdir, ədalətdir, həqiqətdir. Fantinanın ürəyində ölməkdə olan duyğular – mərhəmət, ədalət, həqiqət adlanan işıqdan mayalanırdı. Tanrının yaşadığı bir ömrə nifrət bəsləmək olası deyildi: Ağgünlülük duyğusu da, nifrət duyğusunun gücdən düşdüyü zaman, sevgi duyğusunun yaşamaq istəməsindən doğulmağa başlayır.

Çox ilgincdir. Bir anda yaranan dəyişikliklər hansı sirləri açır – məchul duyğuların bəlirlənməsi Xeyirin Şər üzərində qələbəsi deyilmi?! Bayaqdan bütün ümidlər sönmüşdü, Şər mütləq qalib görünürdü. Fantina üçün ümidlə ümidsizlik bir-birinə qarışmış, onların anlam fərqi aradan getmişdi. Fantinaya elə gəlirdi, onun təkcə (yeganə) yardımçısı var – ölüm. İnsanın düşüncələrində həqiqətin aydınlığı itirsə, ölüm haqqında qorxulu təsəvvürlər tamam dəyişir. Ölümün gəlişini hazırlayan çəkicilik (cazibə) yenilməz qüdrət kimi adamın qarşısına tikilir. Ancaq Fantinanın bunu düşünməsi hələ tezdir. Axı o özü üçün yaşamır. Onun körpəcə “Torağay”ını tapdaqda buraxıb qalıcı səssizliyə çəkilməsi olumsuzdur.

İnsanın taleyində faciənin mütləq çalarlarını izləmək necə də çəkicidir. Həm belə bir məşum əzabın olmasını istəməmək, həm də onun necə sonuca varmasını ilahi bir ilgi ilə (maraqla) izləmək də bizim – oxucuların ziddiyyətidirmi?!.

Əzab, işgəncə ölümün əyləncəsidir. Biryolluq ölüm yavaş-yavaş (tədrici) ölümdən – çapqın, talançı, sökücü, üzücü ölümdən daha ədalətlidir. Biryolluq ölüm fiziksəl sondur, yavaş-yavaş ölüm mənəvi son. Fantinanın taleyinə əl qoyan faciə onun mənəvi sonunu hazırlayır.

Elə ki insanın nəinki fərəhlənməyə, hətta ümidsizləşməyə belə gücü qalmayıb, deməli, ölüm canlanıb. Yəni ölüm təkcə

cansız meyit demək deyil, həm də göz baxa-baxa, ayaq gedə-gedə varlığın heçə çevrilməsidir. Yeriyən ölüm, boylanıb baxan ölüm, danışan, eşidən, çığıran, bağıran ölüm... Ölüm yeriyir, ancaq bu yerişdə yol olmur; Ölüm baxır, ancaq heç nəyi görmür; Ölüm duyğulu görünür, ancaq heç nə düşünmür. Ölümdə tərpəniş görünər, ancaq həyata bənzəməz. Ölüm həyatı udur, ancaq heç vaxt var ola bilmir.

Həyat toplumsal (ictimai) quruluşun basqısı altında dəyişikliyə uğrayır. Bu dəyişiklik ömürləri faciə xarabalıqlarına çevirir. Fantinanın faciəsini son həddə çatdıran da belə bir ortamdır. Bu ortamın, izlədiyimiz bu gedişdə, qoruyanı şər kabusuna çevrilən Javerdir. Javerin məntiqinə görə bu ortamın qaralları onun gözləri qarşısında pozulur – "fahişənin" biri çox asanlıqla özgürlük əldə edir. (Bayaqdan həyata istehza edən ölüm çalarları Madlenin varlığında gələn Xeyirin işığı ilə çəkilib gedir). Fantinanın özgürlüyünün ixtiyarı Javerin əlindən çıxır. Onun düşüncəsinə görə, hər şey baş-ayaq gəlir. Qoruduğu qanun bir anda sarsılıb etkisini itirir. Bəs onda Javer kimdir, onun varlığı nədə özünü göstərir? Bu düşüncə ədaləti bərpa eləmək istəyindənmi doğur, yoxsa xarakterin şərə qarışmasındanmı?! Üzdən baxanda ədalətin bərpası görünə bilər, ancaq o nə ədalətdir, insan taleyinin acılarına biganə qalır?!

Şər insanın xarakterində öncədən də ola bilər, sonradan qazanılmış da ola bilər. Yəni sonradan şərləşdirilən xarakter. Həmişə aclıq, maddi ehtiyac zəif adamların xarakterini şərin ixtiyarına itələyir. Ödənc (təminat) qarşılığında Xeyirə qarşı getmək, insanlığı ayaqlamaq, vicdanı susdurmaq şər tələbi ilə olur. Bunları Javer haqqında söyləmək özünü doğrultmur. Çünkü o bunları ödəncsizlikdən eləmir, xarakterindən çıxış edir. Deməli, şər onun xarakterində, ödənc vədi ilə, sonradan qazanılan deyil. İnzibati xarakterlər qanunun insana yanlış yanaşması ilə formalaşır. Ona görə də belə adam xeyirə qarşı öc olur, ancaq xeyiri qoruduğunu düşünür...

Biz bu əsərdə Hüqonun araşdırdığı olayları elə-belə sadalamaq istəmirik, çağımızın o çağla xarakterik eyniliyini aydınlaş-

dırmağa çalışırıq. Hüqo, insan varlığına yanaşmada, qanunun bir təbəqənin ağalığını qoruduğunu sübuta yetirir. Ancaq biz bunların, 18-ci yüzilin sorunu kimi, arxivlərdə qaldığının deyil, çağımızda yaşadığının, hakim etkiyə çevrildiyinin tanıklarıyıq (şahidləriyik). Özü də uzaqlarda yox, lap elə öz ölkəmizdə, gözümüzün qabağında. Parlament hakimiyyəti qoruyur, güc baxanlıqları (nazirlikləri) hakimiyyəti qoruyur, məhkəmə hakimiyyəti qoruyur. Ancaq xalqı qoruyan görünürlər.

Hakimiyyətin mənafeyini qorumaq məntiqi də var, xalqın varlığını qorumaq məntiqi də. Bunlar bir-birindən ayrılıb. Hakimiyyətin varlığını qorumaq – bir təbəqənin mənafeyini təsdiq edir, ayrı-ayrı bireylərə, onların ailələrinə üstünlük yaradır. Xalqın varlığını qorumaq – insanlığın, dəyərlərin yaşamasını təsdiq eləməkdir.

Dövlətin yuxarıda adı çəkilən strukturları hakimiyyəti xalqdan qoruyur, xalqı isə özündən, yəni insanları bir-birindən. Hakimiyyətin qorunması – ağalığın xalqdan üstünlüyünün qorunmasıdır, xalqın qorunması da ağalığın qorunması kimi özünü göstərir, yəni birgə yaşayışın – xalqın canının, cisminin qorunması demək olur. Burada xalqın varlığının anlamı qorunmur, çünkü xalqın varlığı – onun insanlığı, dəyərləri deməkdir. Buna görə də dövlət xalqın doğması deyil. Yadlıq da yad əhvallar doğurur. Xalq dövlətdən öz haqqını almaq üçün, onu yönətən hakimiyyətlə qovğalara girməli olur. Bu qovğalar böyüdükcə qarşısıalınmaz olur, devrimlərə qədər gəlişir. Söz yox, devrim çıxış yolu deyil, ancaq yüzillər göstərir, tarix öz gərgin gedişini hər zaman devrimlərlə yoluna qoymağa çalışıbdır. Eyni halda, çıxış yolu olmadığını da dönə-dönə sübut edibdir.

Devrimi kim edir – oliqarxlar, burjuaziya, yoxsa yoxsul kütlə? Burjua-yoxsul kütlə biryerdəliyi ilə başa gələn devrimlərin, tarixdə, daha çox tanıkı olmuşuq. Bəs bu devrimlərin bəslədiyi, böyütdüyü, ortaya çıxartdığı həyat, qurallar, münasibət, yön necə olub, necədir? Çox hallarda hərəkət etməyə maddi olanağı olmadığı üçün yoxsul kütlə sosial etirazını devrim səviyyəsinə qaldırmaq üçün burjuaziya ilə birləşir. Sonucda burjuaziya ha-

kimiyyəti ələ keçirib yeni inhisarçılıq yaradır, yoxsulluq isə, ortada səngisə də, aradan qalxmır. Yoxsulların devrimi də özünü doğrultmur, doğrultmaz. Çünkü üzdə baş verən dəyişiklik prinsiplərə toxunmur. "Səfillər" əsərində də izlədiyimiz olaylar, səfalət içinə atılanların faciələri, ayrı-ayrı çağlarda baş verən, devrimlərdən sonrakı görsənişlərdir.

Biz, insanları devrim eləməyə meyilli olduqlarına görə qınamırıq. Bu meyil insanın içində qarşısıalınmaz bir tələbdir. İnsan ən ağır koşullarla yaşamağa qadirdir. Ancaq bu koşullar ölüm həddinə qalxarsa, insanın içindəki həyat eşqi üsyan eləməyə başlayar. Bu üsyan hər şeyi bir anda qırıb tökər. Yanlış qurulan quruluş bu cür hərəkətlərə daim yol açır. Ancaq bizim dediyimiz odur, bu dağıntıların üzərində bütöv ədalət bərqərar olmaz. Çünkü döyüş həyat uğrunda gedir, həqiqət uğrunda getmir. Ona görə Asif Ata deyir, bəşər ədaləti Ruhsal Dirçəlişlə bərpa edə bilər, devrimlə yox. İnsan dəyişməsə, həyatı heç nə dəyişə bilməyəcək.

Haqqında danışdığımız əsər də Ruhsal Dirçəlişə yardımçı olan bir dəyərdir. Yardımçılıq yarımçıqlıq deyil. Çünkü, yuxarıda vurğuladığımız kimi, bu əsər bədii dəyər olduğu üçün Ruhsal Dirçəlişin bütöv nizamını ortaya qoya bilməz, ancaq yardımçı ola bilər.

Bu əsər ədalətli yaşamağın gözəlliklərini ayrı-ayrı bireysəl xarakterlərdə göstərməyə çalışıb. Həm də bu xarakterlərdə həyatın anlamına, gerçəkliyinə özgün olan sevgi səhnəsi, kədər səhnəsi, xoşbəxtlik səhnəsi, bədbəxtlik səhnəsi, ölüm səhnəsi ən yüksək səviyyədə təsvirə gəlir. Bu təsvirlər oxucunu ciddi düşündürür, toplumun durumunda onun da sorumlu olduğunu aydınlığa çıxarır. İnsan toplumun durumunu yalnız görürsə, bu azdır, onu dərk eləmək gərəkdir. Dərk eləmək isə Tanrının sirlərinə yetmək istəyiylə olumludur. Tanrının sirri dünyanın sirri deməkdir. Tanrı dünyanın anlamıdır. Biz burada anlayışları, başqa sözlə, Tanrı sözünü toplumun vərdiş elədiyi adla işlədirik (bizim fəlsəfəmizdə Dünyanın anlamının adı "Mütləq"dir). Ancaq toplumun Tanrıda düşündüyü xarakter, heç də, bizim

qəbul elədiyimiz Mütləqin anlamıyla üst-üstə düşmür. Bu üzdən “xristianlığın ehkamlarını köhnəlmiş saysaq da, Hüqo səmimiyyətini anlamağa çalışırıq” yazmışdıq. Yəni Hüqo insanları inancdakı qutsallığa çağırır. Bu zaman o, inancda nəyin doğru, nəyin yanlış olduğunu araşdırmır. Biz də buna görə onu qınamırıq. Ancaq öz düşüncələrimizi ortaya gətiririk, oxucu bizim, bu əsərin dinin ehkamlarına yanaşmasını ideal saymadığımızı dərk eləsin. Çünkü nə xristianlıq, nə də başqa dinlər Tanrını dünyanın anlamı saymır, ağası, yaradıcısı, qurucusu sayır. Ona görə Asif Ata dinlərin Tanrı ideyalarını yanlış sayır, bütövlükdə “Tanrı anlamı”nı isə öz Dünyabaxışında əsilliyə yetirib qarşımıza çıxarır. O bu anlamı verərkən “Tanrı” sözünü deyil, yuxarıda dediyimiz kimi, “Mütləq” sözünü qullanır. Çünkü artıq “Tanrı” sözü insanların ağlına dini anlamda oturub, onlara başqa keyfiyyətlər aşılayır... Bu haqda çox yazmışıq, yuxarıda da vurğulamışıq. İndi isə əsərin sevgi, kədər, faciə, xoşbəxtlik, bədbəxtlik, ölüm səhnələrindən ayrı-ayrı örnəklər göstərib, düşüncələrimizi aydın bir nizamla davam etməyə çalışacağıq. Daha doğrusu, yuxarıda vurğuladığımız genel olayları daha konkret faktlara bağlamağı sağlayacağıq.

## 3. Şər aldada bilir, ancaq varlığa yetmir

İstər Jan Valjan, istər Fantina həyatda onlar üçün hazırlanmış fəlakətlərə özləri addım götürmüşlər, ancaq balaca Kozetta fəlakətə yönəlik addımı özü atmamış, bir növ istəmədən fəlakətə itələnmişdir. Ona görə toplumun mənəvi durumunu onun taleyi daha aydın göstərə bilir.

Kozettanın anası – Fantina gəncliyin naşı romantikasına uymaqla səfalətə yem olmuşdur. Əslində o, sevmək-sevilmək ehtiyacından bu aqibətə uğramışdır. Sevgi ilə ağıl – insan üçün gərəkən koşullardır, ancaq bunlar çox vaxt bir-biri ilə yol getmir. Budur, Fantina ilk sevgisinin tələbi ilə Tolomes adlı birini ər sayaraq, ona təslim olmuş, ondan boyuna uşaq düşmüşdü. Ancaq inanılıb yaxa verilən Tolomes Fantinanı atıb yoxa çıx-

mışdır. Üzdən baxanda elə görünür, bütün fəlakətlərin nədəni sevgi duyğusu olmuşdur. Əslində isə toplumsal nizamsızlıq elə durum yaradıb, qutsal duyğularla yaşayanlar münasibətlərdə yanılır. Yəni toplumsal gediş qutsal duyğuları suçlayan, mühakimə edən əhvallar doğurur. Ancaq bu cür halları toplumsal (ictimai) qanunauyğunluğa çevirən quruluşu heç kim, heç nə mühakimə eləmir. Qanun da bu quruluşun koşullarından doğmuş yalançı nizam yaradır. Yalançı nizamda məsum, arı bir ürəyin sevgiyə bürünməsindən sonra ilginc qüsurlar ortaya çıxır – sevən adam yanlışlar edir. Bu yanlışın sonucu Kozettanın taleyinə toxunur... Onu böyütmək, yaşatmaq gərəkdir. Fantinanın isə buna maddi olanağı yoxdur. O, körpəni Tenardyelər ailəsinə tapşırıb iş axtarmağa başlayır. Həyatının yeni dramatizmi də bundan sonra başlayır.

"Bəzi adamlar var, xərçəng kimi daim qaranlığa doğru çəkilir; ömürlərində irəliyə getmək yerinə geriyə gedirlər. Öz mənəvi eybəcərliklərini artırmaq üçün həyat təcrübələrini alət edirlər, pozularaq işıqdan qaranlığa doğru sürünürlər. Tenardyelərin də xasiyyəti belə idi... Bu cür adamların keçmişləri həyəcanlı, gələcəkləri isə dəhşətli olur. Burada hər şey gizlidir, onların nə etmiş olduqlarından, nə edəcəklərindən heç bir kəsin xəbəri olmur".

*("Səfillər", səh.103)*

"Kozettanın hər bir hərəkəti başına bir çox kobud və haqsız cəzaların yağdırılmasına səbəb olurdu. Zavallı və aciz qızcığaz!

Onun nə yer üzündə nələr olduğundan, nə də Allahdan xəbəri vardı; daim cəza alır, daim döyülür, söyülür və qarşısında ana məhəbbətinin səhər şəfəqləri altında yaşayan, özü kimi iki balaca məxluq görürdü".

*("Səfillər", səh.105)*

"Məhəllədə ona "Torağay" deyirdilər. Xalq ad qoymağı çox sevir; kiçik bir quşdan çox yer tutmayan, daim titrəyən, qorxan, evin və kəndin içində hələ hamının yatdığı bir zamanda, dan

yeri ağarmamış hər kəsdən əvvəl küçələrdə və çöldə görünən bu uşağı torağaya bənzətmiş və ona bu adı qoymuşdular.

Ancaq bu zavallı torağay heç ötməzdi".

*("Səfillər", səh.106)*

- Burada biz səfalət içində yaşayan, bir-birinə zidd iki aqibəti görürük. Biri Tenardyelər ailəsi, biri də Kozettadır. Tenardyelər zamanın tələbi ilə səfilləşmiş olsalar da, mənəvi yoxsulluq onların varlığında əsas amil kimi özünü göstərir. Yəni bir var könlündə səfalət doğanlar, bir də var səfalətin içinə atılanlar. Tenardyeləri könlündə səfalət doğanlar tipinə özgün etmək olar. Kozetta isə səfalətin içinə atılmış faciə yavrusudur. Aldanmış zavallı bir ananın yanlış davranışından başlayan bir fəlakəti – mənəviyyat üzünə həsrət qalmış Tenardyelər ən yüksək səviyyəyə çatdıraraq, müdhiş bir faciə səhnəsinə çevirmişdilər. Bu faciənin özəlliyi ondadır, balaca bir varlıq illərlə adi ağlın kəsdirə bilməyəcəyi bir ağırlığın altında yaşaya bilmişdir. Bəlkə də bu ağırlığın Tanrı işığının ürəklərdən ayrılmasından doğduğunu dərk etsəydi, başqa bir ağırlıqdan – insan dünyasına nifrət duyğusunun ağırlığından bu körpəcə varlıq parça-parça olub dağılardı. Axı o, hələ Tanrının varlığını eşidəcək, anlayacaq bir yaşa çatmamış Tanrısız, dünyasız bir ailəyə təslim edilmişdir. İndi onun həyat üçün formalaşmamış ağlına, heç kimsəyə verə bilməyəcəyi məchul sorular gələ bilərdi: – Nə üçün onun yuxusu dan yeri ilə birgə sökülməli, çəkdiyi zəhmətlərin ağrısı qaranlıq olub onun varlığına tökülməlidir?! Niyə ona heyvanca münasibət bəslənməli, ancaq onunla yaşıd olan başqa körpələrə qarşı şəfqət duyğusu bağışlanmalıdır?! Onun anası kimdir – Fantinadırmı, yoxsa sığındığı ailənin ona hazırladığı faciədirmi?! Alçaldılmalarla, söyüşlərlə, döyülmələrlə bəslənilən faciənin döşündən süd əmən Kozetta necə dərk edə bilər, sevinc adlı bir duyğu onun ürəyinə yaxın gəlmir, ya da gəlməyə qoymurlar. Bu sorular Kozettanın varlığında gizlənib. Nə vaxtsa üzə çıxacaqmı – bəlli deyil. Belə bir durumu lənətləyə biləcək nə din var, nə də Tanrı. Tanrı da ayrı-ayrı könüllərə çə-

kilibdir sanki. Uzun-uzadı ağırlıqlardan, çətinliklərdən sonra hansısa könüldə nə vaxtsa dolanıb Kozettaya rast gələcəkdir. Bu körpə yavrunun könlünə işıq salıb hansısa duyğuları bərpa edəcəkdir.

Məsələnin bu durumunu söyləməzdən öncə Tenardye xarakterinin üzərinə qayıdaq. Hüqo bu obrazı əsərin başlanğıcından sonuna kimi mütləq şər kimi qələmə vermişdir. İlk baxışdan oxucu işin bu cəhəti ilə barışmaya bilər. Yəni insan mütləq şər daşıyıcısı ola bilməz. Ən pis adamın belə ayrı-ayrı əməllərində xeyir tərkibi də özünü göstərməlidir. Elə bədii əsərin bir cəhəti də odur, şərin həyatda mütləq etkiyə xas olmadığını sübut eləsin. Ancaq bir az dərindən yanaşanda Hüqoya haqq verməli oluruq. Çünkü Tenardye xislətindəki eybəcərlik bütöv biçim almasaydı, Kozetta faciəsinin miqyasını da bilmək çətinləşərdi. Eyni halda, Jan Valjanın bənzərsiz qayğıkeşliyində xeyirin qələbəsinin hikməti də oxucu duyğusuna böyük etki göstərməzdi. Bununla biz "şər hökmən olmalıdır" qərarı vermirik. Onsuz da bilirik, toplumsal həyat öz bətnində şər xisləti daşıyır. Başqa sözlə, toplumsal həyat xeyirə mütləq qovuşa bilmir. Bu yarımçıqlıqda isə şər özünə yer tapa bilir. O da var, şərin mütləqləşməsindən söz gedə bilməz, bütünləşmək üçün şərə yer yoxdur. Şərin varlığı yarımçıqlıqda, fəlsəfi dillə desək, nisbidə, ötəridə bəlli olur. Asif Atanın fəlsəfəsində vurğulanır, Xeyirin mütləq varlığı bireysəl ömürlərdə başa varır, toplumsal həyatda isə xeyir həmişə nisbiləşir. Ancaq xeyirə canatma tələbi heç vaxt azalmır. Bireysəl kamillik də bu tələbdən əmələ gəlir.

Yuxarıda bildirdik, şər mövcudluğunu sürdürmək üçün həmişə özünə Tenardye xisləti axtarır. O, Tenardye xislətində həm mövcud olur, həm də gizlənə bilir: soyğunçuluq elədiyi halda, qurtarıcı kimi tanınır; hər şeyi, hər kəsi öz çıxarına qurban verdiyi halda, yiyə kimi görünür. Bir yerdə biz Tenardyenin Ponmersini soyduğunu görürük. Ancaq Ponmersi onu özünün qurtarıcısı olaraq düşünür.

"...O yenə əyildi, yığını dağıdıb mane olanları bir kənara atdı, ölünün qolundan yapışdı, başını azad etdi, bədənini yuxarı

qaldırdı və bir neçə dəqiqə sonra, ölü olmasa da bihuş olan bu adamı yolun qaranlığında sürüdü. Bu kirasir idi, zabit idi, hətta görünür, lap yüksək bir rütbə sahibi idi, kirasanın altından qalın qızıl epoleti görünürdü, başında kaskası yox idi. Qana bulaşmış üzündən qılınc zərbəsindən əmələ gələn dərin bir yara keçirdi. Bununla belə, burada söylənilməsi münasib görülə bilərsə, xoşbəxt bir təsadüf sayəsində, meyitlər onun üzərində qübbə kimi bir tay təşkil etdiyindən o əzilməmişdi, qolu, qıçı sağ qalmışdı. Gözləri qapalı idi.

Kirasasında gümüş Fəxri legion xaçı görünürdü.

Sərsəri xaçı qopardıb şinelinin dərin və gizli ciblərindən birinə dürtdü.

Saat olan ciblərini yoxladı, saatı tapıb gizlətdi. Sonra jilet ciblərini axtardı, pul kisəsini tapdı, onu da mənimsədi. Can verməkdə olan bu insana yardım etmək üçün göstərdiyi səylər bu dərəcəyə çatdıqda, zabit birdən-birə gözlərini açdı. Zərif bir səslə: – sağ ol! – deyə mızıldandı".

*("Səfillər", səh.236)*

- Biz Tenardyenin kimliyində insanlığın qaralan üzünə baxırıq. Əslində bu əməllərin yiyələrini hər yerdə görürük. Lap elə beş addımlığımızda. Onlar sərbəstdirlər. Biz onlara heç nə demirik, deyə bilmirik. Çünkü biz bütün bunları sadəcə bilirik, əlimizdə isə heç bir dəlil yoxdur, onlar çox qürurlu davranırlar. Ancaq elə ki, əlimizə balaca bir dəlil keçdi, onlar pişiyə dönürlər. Onlar qorxduqları üçün gizlənməyə başlayırlar. Onların bu duruma düşməsi qələbədirmi, – nəyin, kimin qələbəsidir – demək çətindir. Ömürlər insanlığın qarşısında sarsılıb daşıdığı şərdən imtina eləmir, (şərlə birlikdə) geri çəkilməklə şəri gizləyirlər. Əslində isə şərin fəsadını başqaları biləndən sonra yox, insanlığın ömrə gəlişindən sonra qalibiyyət-məğlubiyyət məsələsi çözümünü tapır. Şər məğlub olub bir ömürdə öz yerini xeyirə verəndən sonra...

Tenardye soyur, aldadır, insan ləyaqətini alverə çevirir. Bu, açıq görünür, ancaq heç bir toplumsal qınaq olmadığı üçün o

sərbəstdir. Onun sərbəstliyini koşullandıran (şərtləndirən) ikinci bir cəhət də vardır – Tenardye vicdan əsasında düşünüb addım atmağı heç bir vaxt ağlına gətirməyib. Ona görə 6-8 yaşlı bir uşağı qoşqu heyvanı yerində görmək onu rahatsız eləmir. Meşşan üçün insan taleyi onun çıxarından üstün deyil ki. Kozetta onun üçün göydəndüşmə pay idi. Öncə Fantinanın analıq duyğularını buxovlamaq əməli, sonradan isə Jan Valjandan daim nələrsə qoparmaq meyli onun "gəlir sevincini" ödəyirdi. Tenardyenin sevinci qorxulu sevincdir. Onun sevinci ancaq fəlakət törədir. Burada biz mənfi sevinc ideyasına gəlib çıxırıq. Çox ilginc bir məsələdir. "Sevinc" heyvani bir duyğudurmu, insani duyğudurmu?! – Görünən odur, bu duyğunun hansı cəhətə özgün edilməsi onun qaynaqlandığı məsələ ilə bağlıdır. Sevinc şərdən də başlanğıc götürür, xeyirdən də. Doğrudur, sevinc şərdən başlanğıc götürsə də, əməlin sonucu mütləq şər deyil. Yəni əməl tam olaraq şəri təsdiq eləmir. Məsələn, Tenardye niyə sevinir?! Deyək, Kozettanı sığınacağına götürməklə Fantina işləyib ona pul göndərəcəkdi. Bu pulu isə o, balalarını böyütməyə, ailəsinin mövcudluğunu qorumağa yönəldəcəkdir. Ya da kisəsini Kozetta üçün açan Jan Valjandan daha çox pul qoparacaqdı. Yenə də ailənin mövcudluğu qorunacaqdı. Bu sonucdur. Ancaq əməlin gedişi şəryönlü addımlardır. Ona görə biz Tenardyenin sevincini mənfi sevinc adlandırırıq. Çünkü, yuxarıda dediyimiz kimi, sonuc bir ailənin acından qurtarması olsa da, davranışlar şəri ifadə edir. Bu ziddiyyətli durumda xeyir nisbidir. Sevinərkən Tenardye də "balalarımı qoruya biləcəm" deyə düşünmür, "aldada bildim, ya da məcbur edə bildim" deyə düşünür. Bizim də qarşımıza çıxan məsələ onun balalarının dolanıb-dolana bilməyəcəyi məsələ deyil, insanlığın məzhəkəyə çevrilməsi məsələsidir. Birisinin balası başqa birisinin balasının fəlakətindən xoşbəxtlik əldə etməlidirmi?! İnsanlığa arxa çevirib istər öz balasına, istərsə də başqa birisinə xoşbəxtlik qazandırmaq, istənilən halda, ikrah duyğusu oyadır. İnsanlığa doğma olan hər bir düşüncə yiyəsi belə bir şeyi ancaq nifrətlə damğalaya bilər...

Bütün bunlara baxmayaraq, əsəri sonacan izlədikdə görürük, həqiqət Tenardye əməllərinin kölgəsində qalmır, üzə çıxıb əsil münasibətlərin doğulmasını sağlayır...

Toplum bireylərin zəif keçmişindən güclü faciə yaradır. Biz bunu Fantinanın taleyində izlədik. Gəncliyin naşı inamı, pozulmuş toplumda ömrü puç edir.

Kozetta – Fantinanın faciəli taleyindən doğulsa da, toplumun durumunu Fantina taleyi qədər qabarıq şəkildə göstərə bilir. Fantina toplumun qadına yanaşmasının bütün çağları qapsayan bir görsənişidir. Fantina sevib-sevilmək istəyirdi, ancaq toplumun pozğun tərbiyəsi ilə harınlamış birisi, onu bir gül kimi qoxulayıb ayaqlar altına atdı.

Toplum heç bir durumu anlamı üzrə qiymətləndirə bilmir. Ona görə Fantinanı sadəcə fahişə adlandırır. Fantinada ananı görməyib fahişəni görənlər, bütövlükdə qadın ləyaqətini sorğu altına atırlar. Öncələrdə də belə olub, çağdaş toplumda da belədir.

Qadında hiylə görürlər, ancaq bu hiyləni doğuran nədəni görmürlər. Hiylə kimə qarşı yönəlir?! – Qadın üzərində öz gücünü sınağa çəkən kişiyə qarşı. Kişi gücü mənəvi hikmətə də çevrilə bilər, zora da. Zora çevrilən kişi gücü qadında özünə qarşı hiylə doğurdu. Hiyləyə haqq vermirik, sadəcə hiyləni qınayarkən onu doğuran nədəni görməyin gərəkliyini vurğulayırıq. Dönüklüklərin, qəbahətlərin, pozğunluqların nədənini yalnız qadına yükləyən toplum ədaləti yaşama qaytara bilməz.

Qadın aşırı duyğusaldır. Onda bütün duyğular aşırı dərəcədədir. Ona görə qadının qarşısında kişi təvazökar davranarsa, kobudluq etməzsə, ondakı bütün qutsal duyğuların oyanışına başlanğıc verər. Qadının könlü qutsallıq yatağıdır. Bu qutsallığa yiyə çıxanda qadın allaha çevrilir, bu qutsallığı ayaqlayanda isə qadın fahişəyə çevrilir. Bu düşüncə – "qadının taleyi öz əlində deyil" anlamına gəlmir, "qadının özgürlüyünə toxunmaq yolverilməzdir" anlamına gəlir. Asılılıq məsələsinə gəlincə, qadın kişidən nə qədər asılıdırsa, kişi də qadından bir o qədər ası-

lıdır – həm fiziki, həm də mənəvi. Qalır hər kəsin öz yerini bilməsi, dərk eləməsi.

Bir sözlə, qadına yanaşma – İnsana yanaşma səviyyəsində dərk olunanda doğru olur. Ona zəif cinsin bireyi kimi yanaşmaq həqiqi ölçü sayıla bilməz. Qadının zəif sayılması yalnız fiziksəl əmək ortamında gözə alına bilər.

Beləliklə, Fantinaya yanaşmanın eybəcərliyini toplumun yaşamındakı qırağaçıxmalara bağlamaqla aydınlaşdırsaq da, Kozettaya yanaşmanı hansısa qırağaçıxmalara bağlamağa çətinlik çəkirik. Toplum Fantinanı fahişə adlandırıb onun əzablarını gözardı edə bilər, bəs Kozettanın əzablarına nə ilə haqq verir?! – Axı o heç fahişəliyə yuvarlanacaq yaşda da deyil. Deməli, məsələ kiminsə fahişə olub-olmamasında deyil. Toplum özü Tenardye xislətinin daşıyıcısıdır. İnsanlığa inam aradan gedəndə toplu Tenardye doğur. İnanmaq qədər gərəkli nemət ola bilməz. İnam Tərəqqinin açarıdır. Toplum buna arxa çevirir.

Tenardye inamsızlığının, insansızlığının yaratdığı ortamda hər şeyin qəhr olunduğu görünür. Kimin ağlına gələr, Kozetta adlı faciə yavrusu əslində Tərəqqinin solmaz çiçəyidir. Tenardye xislətli toplum da onun soldurulmasına göz yumur. Ancaq əsərin sonrakı bölümlərində biz Kozettanı elə tərəqqinin solmaz çiçəyi kimi də görürük. Əslində bunca ağırlıqların, sarsıntıların altında Kozetta pozulmalı, mənən məhv olmalı idi. Ancaq fitrətdəki, mayadakı Tanrı hikməti üzə çıxırsa, ən pis ortamın belə, insandakı xeyir tərkibini məhv eləməsi baş tutmur. Burada biz yazının başlanğıcında vurğulanan epiqrafı yenidən xatırlatmaq istəyirik: "İnsan ən pis ortamda belə yaxşı olaraq qala bilər". Bu düşüncənin burada yerinə düşmədiyi, yəni Kozettaya özgün olmadığı görünə bilər. Əslində isə birbaşa bağlıdır. İnsanı ortam yaradır deyirlər. Bu düşüncə həqiqət olsaydı, Jan Valjan ən qəddar, qorxulu bir varlıq kimi formalaşmalı idi. Lap elə Kozetta, dediyimiz kimi, bunca alçaltmaların, mənəvi işgəncələrin sonucunda idbar bir varlığa çevrilməli idi. Ancaq görünən odur, inam insanı ortamdan yüksəyə qaldıra bilir. Kozetta Tenardye eybəcərliyindən yüksəkdə duran Jan Valjan ata-

lığına inanır, güvənirdi. Tərəqqi də ortamdan yüksəkdə yaşayan insanların ləyaqətinə bənzəyir.

Jan Valjanın gəlişinə qədər Tenardye dünyasızlığında Kozettanın taleyi təsəvvürlərdə faciəvi bir sonuca varırdı. Fantinanın acınacaqlı taleyindən də ancaq bu durum yarana bilərdi. Əsərin Jan Valjanın gəlişinə kimi olan parçalarında Kozettanı harda görürüksə, onu ancaq fəlakət izləyir.

***"Qızcığaz aciz bir halda ətrafına boylandı. Nə etsin? Haraya getsin? Qabaqda Tenardye qarının kabusu, arxada isə – qaranlığın və meşələrin bütün cinləri dururdu. Lakin Tenardye qarı daha qorxunc idi, Kozetta onun qabağında geri çəkildi. Qızcığaz yenə bulağa doğru yüyürməyə başladı. Qaça-qaça kənddən çıxdı, qaça-qaça meşəyə girdi, o artıq heç bir şeyə baxmır, artıq heç bir şeyə qulaq asmırdı. Yalnız nəfəsinin daraldığını hiss etdiyi zaman bir az ayaq saxladı, lakin yenə də dayanmadı. O, ümidsizlik içərisində yoluna davam edirdi. O, ağlamağını saxlayaraq, yüyürürdü. Meşənin gecə səsləri onu hər tərəfdən bürüdü. O artıq heç bir şey düşünmür, heç bir şey görmürdü. Bu balaca məxluq gecənin nəhayətsizliyi ilə üz-üzə gəlmişdi. Bir tərəfdə dünyanı bürümüş zülmət, o biri tərəfdə isə – bir heç, bir zərrə".***

*("Səfillər", səh.256)*

- Biz kimin haqqında dinləyirik – gənclik çağına ayaq qoymuş bir qızınmı, yetkin yaşda olan bir qadınınmı, yoxsa özünü hər bir qorxudan qoruya biləcək güclü bir kişininmi?! – Bunların heç biri deyil, heç kimi, heç nəyi olmayan zavallı bir doğa yavrusu haqqında danışılır. İndi hər şey ona yaddır, doğa da doğma deyil. Doğanın məchul qaranlıqları içindən nələr gözləməmək olar. Qorxa-qorxa ucsuz-bucaqsız qaranlıqların içinə yerimək – bir anda varlığının sonuna çatmazdımı?! İstənilən balaca, böyük bir vəhşi, hələ dünyanı anlamaq üçün ağlı, şüuru böyüməyə macal tapmayan bu körpəciyəzi haqlamazdımı?! Onun kövrək, titrək ürəyi bu soruların altında çırpınmağa tələsiyir. Bütün bunlar, Tenardyelərin qarşısında, onun varlığını al-

çaldacaq soruları eşitməmək üçün idi. Həyat bu körpəciyə necə tez bir zamanda dərs verdi. Bu qədər amansızlıqmı olar?!

Adamlar Tanrı ilə doğmalaşmaq üçün Məbədlərə toplanırlar, ancaq Kozettanın məsum varlığındakı Tanrını heç kəs görmür. Əslində məbədlər də adamlara Tanrının körpə sevincində, ana fəryadında, insan əzabında yaşadığını öyrədə bilmədilər. Toplum – Tanrının yaşaya bilməyəcəyi, başqa sözlə, Tanrısallığın qoruna bilməyəcəyi bir ortamdır. Ona görə birey toplumda işgəncəli ömür sürür. Kozettanın taleyi toplumun durumunu göstərir. Bu əsərdə toplumun bütün faciəsi bir obrazda toplanıb sanki. Doğrudur, faciə obrazlar arasında paylanmır. Hər bir obrazın taleyində faciə bütün dolğunluğu ilə özünü göstərə bilib. Sadəcə Kozettanın azyaşlı olması yaşadığı acıları daha etkili eləyir.

Biz, əslində insan qəlbinin ortamda, bir yerdə, məhv olmayacağını aydınlaşdırmaq üçün bu düşüncələri sərgilədik. Yəni "insan ən pis ortamda belə arı olaraq qala bilər". Bunu sonrakı bölümdə vurğulamağa çalışacağıq.

## 4. Xeyir – özündən keçənlərin İşığıdır

Yuxarıda dedik, Jan Valjan bəs qədər maddi qazanc əldə eləyə bilmişdir. Üstəlik o, şəhər meri qoyularaq (təyin edilərək) hüquqi üstünlüklər (imtiyazlar) qazanmışdır. Ancaq o, vicdan əsiri olduğu üçün başqa birisinin Jan Valjan adı ilə mühakimə olunmasına dözmür, özünü tanıdır. Onun yerinə qurban gedən birisini qurtardıqdan sonra isə özünü ələ vermək düşüncəsindən daşınır. Yenə də qaçıb gizlənməli olur. Onu buna zorlayan tutuqlanmaq qorxusu deyildi, bala həsrətiylə, acılar içində həyata gözünü yuman Fantinaya vermək istədiyi ağgünlülüyü (xoşbəxtliyi) başa çatdırmaq düşüncəsi idi. Fantinanın yarımçıq ömrünün faciəsi Kozettanın taleyində davam etməməli idi. Jan Valjanın özünün bireysəl həyatı puç olmuşdu, zəhmətlə qazandığı puldan başqa heç nəyi, heç kimi yox idi. Nə ailəsi vardı, nə

qohumu, nə dostu. Sevgili olmadı, ər olmadı, ata olmadı. Zaman hər şeyi onun əlindən aldı. Ancaq heç nə onun içindəki mərhəməti, xeyirxahlığı öldürə bilmədi. O, Kozettanı bulmalı, atalıq duyğusunun da, insan sevgisinin də boşluğunu varlığında doldurmalı idi. Varlığında boşluq daşımaq çox ağırdır. Boşluq – mənəvi sarsıntılar yaradır. Bu sarsıntıların ağrısı ömrə ağırlıqlar gətirir.

Jan Valjan Kozettanı tapır, həris, meşşan Tenardyelər ailəsinə gözləniləndən artıq para verib Kozettanı özü ilə aparır. Ancaq Kozettaya özgürlük verməsi özünə baha başa gəlir. Kozettanın özgür böyüməsi, rahat nəfəs alması üçün ən qorxulu çətinlikləri yaşamalı olur. Çünkü katorqa həyatından sonra nə üçün, kimin üçün yaşadığının önəmi yox idi. O, fiziksəl sonuna kimi sadəcə yaşamalı idi. Ancaq Kozetta onun həyatına gələndən sonra yaşamının anlamı dəyişdi. İndi o, Kozettanın ağgünlülüyü üçün yaşayır. Bu, onun içindəki tanrısal hikmətin – mərhəmətin, xeyirxahlığın tələbi idi. Varlığında buraxdığı bütün boşluqları Kozettaya ağgünlülük verməsi ilə doldurmağa çalışırdı.

Ancaq yaşamın da öz qaralları var – Kozetta böyüyür, böyüdükcə Jan Valjanın nisgilləri də böyüyürdü. O, Kozetta üçün ata, ana, qardaş, bacı, dost – hər şey oldu, ancaq sevgili ola bilmədi. Biməzdi də. Əgər olsaydı, yaş uyğunsuzluğu ilə Kozettaya ağgünlülük deyil, qaragünlülük gətirərdi. Yəni yaşlı olduğu üçün tez öləcək, gənc Kozetta isə yenə tək qalacaqdı. Mənəvi kriteriyaları da gözardı eləmiş olacaqdı.

Kozetta gəncdir, onun sevib-sevilmək ehtiyacı var. Bu, həm də onun doğal haqqıdır. Ona qarşı ata, ana boşluğunu doldurmaq vüsalı bir ayrı şeydir, sevgili olmaq məsələsində isə vüsala yetmək tamam ayrı anlam daşıyır. Budur, Kozetta Mariusu görür, içində, özünün indiyə kimi yaşamadığı, anlamadığı ilginc duyğular baş qaldırır. Jan Valjan Kozettada qarşısıalınmaz duyğuların baş qaldırmasını görüncə öz içində də yeni sarsıntıların baş qaldırdığını duyur. O, Kozettadan ayrı yaşaya biləcəyini düşünə bilmir...

Marius əsərdəki aydın obrazlardan biridir. O, gəncliyin qəlbində vicdanı, sadəliyi, halallığı yetkin səviyyədə yaşadan sevgi yavrusu kimi çıxır qarşımıza. Ancaq, dediyimiz kimi, Jan Valjan üçün istənilməyən bir varlıqdır. Çünkü Marius Kozettanı onun varlığından uzaqlaşdıra biləcək bir qüvvədir. Jan Valjan özü sevgili həsrəti ilə yaşamayıb, ancaq Mariusun ortaya çıxması ilə, Kozetta ilə Marius arasında yaranan sevgi duyğusunun ona nələr yaşadacağını bütün varlığı ilə duymağa başlayır.

Kozettanın Jan Valjanın içində gizlənən mənəvi iztirablardan sorağı yoxdur, ancaq bu məsələdə onun suçu da yoxdur. O, sadəcə sevilir, sevməyə can atır. Budur, onun ağgünlülüyünün sınırları özü üçün indi aydınlaşmağa başlayır. Çünkü həyatın anlamı, bütün çalarları ilə, insanın varlığında özünü göstərəndə ağgünlülük bütövləşir. Belə olmasa, əzablarla böyümüş bir insanda, bəlkə də, yaşamaq üçün həvəs də qalmazdı. Məsələn, Kozetta üçün həyat Mariusu görəndən sonra mənalanmağa başlayır. Yoxsa onun üçün həyat bu çağa kimi elə bir ciddi söz sərgiləməyib. Jan Valjanın ona qarşı qayğıları da sevgili olmaq tələbinin qarşısında azdır. Doğrudur, Tenardyelər ailəsindən qurtulduqdan sonra Kozettanın duyğularında çox dəyişikliklər yarandı. Ancaq dəyişikliklərlə zənginləşən bu duyğular belə, onu hələ sevginin, ayrılığın, uzaqlığın, yenidən qovuşmaq ehtiyacının əzablı nəşəsi ilə sınağa çəkməyib. Ona heç nə – istər monastr sakitliyi, tərki-dünyalığı, bakirəliyi olsun, istər Jan Valjanın yaratdığı dinclik, sakitlik ortamı, ya da Kozetta ilə birgə keçirdiyi əyləncəli gəzintilər olsun, Mariusun xəyalı qədər çəkici (cazibəli) gəlmir. Qadın özünü birinə etibar edəndən sonra Tanrının anlamını gerçəkləşdirən əməllər qurucusuna çevrilir. O, sevgili olur, ana olur, ailə olur, soy (nəsil) olur, xalqın, daha geniş anlamda bəşəriyyətin bir parçasına çevrilir. Kozetta üçün artıq belə bir aşama yetişib. Doğrudur, heç bir insan vurulanda belə şeyləri düşünmür. Başqa sözlə, bunların olması üçün vurulmur. Vurğunluq – ilahi bir işıqdır, bir anda adamın könlünə düşür, onun bütün duyğuları sehrlənib bir nöqtədə bir-

ləşir. Vurğunluq sirdir, heç kim bu sirri açmaq haqqında düşünməz, onun yanğısıyla yaşamalı olar. Bu yanğıdan qıraqda insana hər şey sönük, qiymətsiz görünür. Kozetta da bu hala düşür, Marius da. Hətta Marius Kozettanın izini itirdikdən sonra ölməyin yollarını axtarmağa başlayır.

Jan Valjan Kozettanı Tenardyelər qaranlığından işığa çıxartsa da, bu sevgi yavrularına əngəl olsaydı, Kozetta üçün qiymətini itirərdi. Həm də ikinci dəfə, Jan Valjanın əngəli adlı, qaranlığa qayıtmaq Kozettanın varlığını elə sarsıdardı, onun üçün yaşamağın bir anlamı qalmazdı. Çox qəribədir, bir-birinə doğma olan insanların istəkləri hansısa nöqtədə bir-birinə yad kimidir. Ancaq buna baxmayaraq, bütün bu çabalarla Jan Valjanın istəyi Kozettanı ağgünlülüyə çatdırmaq idi. Sonra bəlli olur, bundan qıraqda onun özünün Jan Valjanın) ağgünlülüyü yox imiş. Yoxsa böyük bir ziddiyyət boşluğunda hər şey qabaq-qarşı gələrdi. Çünkü Jan Valjanın bu qədər diqqətinin, zəhmətinin, qayğısının qarşılığında, ömründə birinci yol gördüyü birisinin – Mariusun ondan yüksək tutulması heç cür anlaşılmazdı. Kozettalar üçün Tanrıdan könlünə gələn bir sirrin izahını ilk dəfə gördüyü bir başqasında tapması heyrətdoğurucudur. Bu elə sirdir, buna əngəl ola bilmək hər kəsin gücü dışındadır. Sevgi elə bir gücdür, heç kimə, heç nəyə boyun əymir, tərsinə, ürəkləri öz əsirinə çevirir. Budur, iki gəncin uğradığı bu halı əsərdən izləyirik:

***"1832-ci ilin may ayı davam etdikcə gündən-günə daha artıq ətir saçan, daha artıq qalınlaşan sıx ağaclar kölgəsində, başlı-başına buraxılan bu kiçicik bağda hər axşam iki adam görünərdi: onlar bütün ismət və bəkarət dəfinəsini özlərində cəmləşdirən, qəlbləri səmavi bir xoşbəxtliklə dolu olan, insandan daha çox mələyə bənzəyən, duyduqları sevinclə məstləşən, təmiz, pak, nəcib, zülmətdə bir-biri üçün işıq saçan iki gəncdi. Kozettaya elə gəlirdi ki, Mariusun başı üstündə şəfəq vardır, Marius da Kozettanın ətrafında halə görürdü. Onlar bir-birinə təmas edirdi, bir-birinə baxırdı, bir-birinin əlindən tuturdu, bir-birinə sıxılırdı, lakin onların aşmadığı bir hüdud***

***vardı. Onlar bu hüdudu ona görə aşmırdılar ki, bunu nalayiq hərəkət hesab edirdilər, onlar belə bir hüdudun olduğunu bilmirdilər. Marius bir hüdud hiss edirdi – bu hüdud Kozettanın məsumluğu idi, Kozetta da bir hüdud hiss edirdi – bu hüdud Mariusun vicdanı idi. Onların ilk öpüşü həm də sonuncu öpüş oldu. Bu öpüşdən sonra Marius ancaq dodaqlarını Kozettanın əlinə, ləçəyinə, ya da hörüyünə toxundurardı. Kozetta onun üçün qadın deyildi, ətirdi...***

***Gecə onlar bağda olanda bağ sanki canlanır, müqəddəs bir yer olurdu. Bütün güllər onların ətrafında açılır, onlara ətir saçırdı, onlar da ürəyini açır, öz ruhlarını çiçəklərə saçırdılar. Şirəyə dolmuş, məst olmuş, nəşəli, gur bitkilər bu iki gəncin ətrafında tir-tir əsirdi, onlar sevgi sözünü söyləyirdi, ağaclar bundan tutrəyirdilər".***

*("Səfillər", səh.666)*

- Bu nədir, sadəcə romantik xəyaldırmı? – Çağımızın bir çox insanlarından sorarsan, deyər, bu bir təxəyyül uydurmasıdır. Gerçək yaşamda belə bir ilahi sevgi coşqusunun olmasına çoxları inanmaz. Hər kəs gerçəkliyə, zamana baxarsa, ondan uzağa baxmazsa, bunu görməz, görməsi olumsuz olar. Zaman ilahi xilqətə çevrilənləri yaxına buraxmır. Zamanın tələbi ilə yaşayanlar da bunu anlamır. Öz içi ilə zamanın arasında uyğunluq görən adam bədii obrazlarda göstərilən sağlam yönlərlə doğmalaşmaq istəməz. Çağımızda bədii kitabların oxunmamasının bir nədəni də budur. Sevgiyə, sevdalı yaşama meyil aradan getdikcə insan olmağın dəyəri gözdən düşür.

Ancaq bütün bunlara baxmayaraq, yazıçı insanları zamandan üstün olan həqiqəti görməyə çağırır. Biz kitabdan götürdüyümüz alıntını oxuduqca sevdalı ürəklərin varlığını dərk edirik. Könüllər dünyasının gözəllikləri işıq seli kimi axıb duyğularımıza dolur, varlığımızı qutsal diləklər aydınlığına qovuşdurur. Oxuduqlarımızı yazan kimdir, hansı dildə yazılıb?! Doğanın bakirə gözəlliyinə qutsal nəğmələr söyləyən gənc könüllərin milləti kim, dili nə? – Onlar türkdürlərmi, hələ lap qədimdən

bəşəriyyətə ruhaniyyat gələnəyi öyrədən hind xalqının yavrularıdırmı, Məcnunluq aşiqliyinin odunda qovrulan ərəb yeniyetmələridirlərmi? – Nə fərq edər ki?! İnsanlığın ruhundan mayalanmış sevda mələkləri elə bizik, bizimkilərdir, doğmalarımız, sevdiklərimizdir.

Yazıçının böyüklüyü bir xalqın tarixi kimliyini nə qədər işıqlandırırsa, bəşəri qiyməti bundan daha yüksəkdir. Hüqo bu gün pozulmuş Fransız toplumunun mənəvi özülündə insani, bəşəri işığın olduğunu sübut etməyə çalışır. O işıqdan ayrılmağın özünəyadlaşma olduğunu anladır. Bütün bunlar özümlüyü qorumağın bərpası üçün göstərilən çabalardır.

Bu gün bəşəriyyətin özünəxaslığını danan Avropa Birliyinin aparıcı dövlətlərindən biri Fransadır. Terrorçuluqla, soyqırımçılıqla uğraşan erməni azğınlığının arxasında duran Fransa hara, bəşər dünyasına Hüqo yaradıcılığı kimi bir dəyəri verən Fransa hara. Birincini biz nifrətlə damğalayır, ikinciyə isə, Hüqo varlığına bağlı olduğu dərəcədə, saygı sunuruq.

## 5. Xeyirə qovuşduran Kədər işığı

Biz dedik, əsərdə ideal səhnələr verilmişdir. Faciə ilə fədakarlığın birləşdiyi anlar o qədər çəkicidir, həyatın özü kimi, varlığımıza yeriyir. Budur, Jan Valjan içini ağır sarsıntıların didib-dağıdacağı addımları atmağa başlayır. O, Mariusu ölümün əlindən alıb Kozettaya qovuşdurur. Bu, onun üçün olduqca ağır bir sonluqdur. Ömrünün ahıl çağında Kozettadan uzaqda yaşamaq, varlığını yenidən yalqızlığın girovuna çevirmək – sözə sığmayan bir əzab aşamasının başlanğıcıdır. O, katorqa kimi fiziki əzabın öhdəsindən gəlmişdi, ancaq mənəvi əzaba dözmək fərqli bir iradə tələb edir. Burada onun ömür nizamı sökülür. Elə bir nizam, Jan Valjanın varlığındakı bütün boşluqları, demək olar, doldurmuşdur. Bu nizam – Kozetta ilə onun həm fiziki, həm də mənəvi birliyidir. İndi bu birliyin fiziki bağlarına son verən Mariusu Jan Valjan öz əliylə meydana qaytarır.

Yuxarıda vurğulamışdıq, Kozettanın izini itirdikdən sonra Marius ölməyin yollarını axtarırdı. O bu yolu, dövlətin köhnə quruluşuna qarşı, qiyam qaldıranlara qoşulmaqla tapmışdı. Həm ideoloji niyyətini gerçəkləşdirir, həm də bu vuruşda ölməyi göz altına almışdı. Ancaq bu döyüş meydanında ölümcül yaralanmış Mariusu Jan Valjan qurtarmaq qərarı verir.

Bununla belə, bu qərarı gerçəkləşdirmək Jan Valjan üçün fiziki anlamda da ölümlə öcəşmək idi. Hər yan göz altında, hər küçə, hər yol bağlı. Jan Valjan keçilməsi olumsuz olan yeraltı yolu – tullantılar axıdılan yolu seçir. Əslində bundan başqa o, özünə yol tapa bilməyəcəkdi. Bu, ölüm yolu idi. Jan Valjan bu yol ilə öz içində Kozettaya vəd elədiyi ağgünlülüyü (xoşbəxtliyi) tamamlamaq istəyinə doğru gedirdi.

***"Jan Valjan qabağa gedir, can verən, ya bəlkə də – kim bilir! – ölmüş bir adamı çiynində aparırdı. Su onun qoltuğuna çıxmışdı. O, hiss edirdi ki, batır: ayaqlarını bu dərin bataqlıqda güclə tərpədirdi. Qalın palçıq təbəqəsi onun üçün həm dayanacaq nöqtəsi idi, həm onun yeriməsinə mane olurdu. O yenə də Mariusu yuxarı qaldırır, var qüvvəsini toplayaraq irəliləyirdi; irəlilədikcə daha artıq suya batırdı. Sudan bayırda onun ancaq başı, bir də Mariusu tutduğu əlləri qalmışdı...***

***Jan Valjan daha artıq dərinə getdi, başını geri atdı ki, su ağzına dolmasın; onun üzünü bu qaranlıqda görən olsaydı, onu zülmət içində üzən bir maska zənn edərdi. Jan Valjan Mariusun əyilən başını, göyərmiş üzünü güclə seçə bilirdi. O, bir daha var qüvvəsini toplayaraq axırıncı dəfə bir addım da atdı: qəfildən ayağı bərk bir şeyə toxundu, o, özünə istinad nöqtəsi tapa bildi. Bu, bir an da gec olsaydı, onun işi bitərdi...***

***Çuxurda o, həyatdan məhrum olmasa da, sanki bütün qüvvəsindən məhrum olmuşdu. Son dəqiqələrin gərginliyi onu lap əldən salmışdı. O, elə yorulmuşdu ki, hər üç addımdan bir dayanıb dincəlir, divara söykənirdi. Mariusu daha yaxşı dalına almaq üçün bir də divarın çıxıntısında oturanda elə hiss etdi ki, daha yerindən qalxmayacaq, elə orada qala-***

***caqdır. Lakin onun qüvvəsi tükənsə də, iradəsi qırılmamışdı. O, ayağa qalxdı".***

*("Səfillər", səh.856-857)*

- Biz bu səhnədə daha çox əzabı görürük. Ancaq ruhumuz, bu əzabın arxasında ucalan mənəviyyat abidəsinə üz tutaraq, insan varlığından saçılan qutsallıq işığına səcdə qılır. Özündənkeçmənin (fədakarlığın) hər şeyi – qorxunu, ölümü, yoxluğu yendiyi qısa bir zaman kəsiyində qalıcılığın (əbədiyyətin) ruhumuza görünməsindən bəxtiyarlıq duyğuları yaşayırıq. Nə böyük hal, nə böyük örnək! Tanrı anlamının insan varlığında bütün dolğunluğuyla özünü göstərməsi – sevgiyə, mərhəmətə, ədalətə, vicdana inam yaratması sözə sığmayan bir sirr kimi üzə çıxır. Genel olaraq, bir sıra bədii əsərlərdə insan Allah kimi obrazlaşır. Onun (insanın) ünvanına Allah sözü deyilməsə də, xarakterik olaraq, Allahlıq keyfiyyətlərinin daşıyıcısı kimi tanıdılır. Bu yanaşmanı biz ən çox Tolstoyun əsərlərindən izləmişik. Zamanın balaca saydığı, toplumun yenik bildiyi, qanunun günahkar saydığı insan – özünün Tanrısal əməlləri ilə qalıcılıq (əbədiyyət) carçısı olduğunu sübuta yetirir...

Marius artıq qurtarılmışdır. Ancaq buna baxmayaraq, Jan Valjanın ürəyi rahatlıq tapmır. Bunun bir nədənini yuxarıda vurğuladıq, Kozettaya bağlı varlığı yalqızlığın sıxıntıları içinə girməkdədir. İkinci nədəni isə onun, toplum üçün, qaranlıq keçmişi olan birisi kimi qalmasıdır. O bu çağa kimi hər kəsdən gizli yaşamışdır. Adını, kimliyini dəyişib gizlənərək, yaşamaq insan üçün ən ağır, aydınlaşdırılması (izahı) çətin olan bir durumdur. Ancaq o, bunu eləməyə də bilmirdi. Yuxarıda da dedik, Jan Valjana nə qanun dinclik verir, nə də toplumun yanaşması ona yer saxlayır. Bu çağa kimi o, gizli yaşaya bildi. Ancaq indi, Kozetta ilə Marius ailə qurandan sonra, onun gizli yaşaması özünə olanaqsız görünür. Onun içində elə bir ilahi dəyişikliklər baş verib, hər kəsi aldatmaq olumlu görünə bilər, ancaq özünü, vicdanını aldadıb yaşamaq heç cür olumlu ola bilməz. Onun içində yaşanan gərginlikləri əsər daha yaxşı ifadə

eləyibdir. O bu sirri açmaq üçün, bütün varlığını vicdanına boyun əydirərək (təslim edərək) Mariusun qarşısında dayanıb hesabat verir. Doğrusuna qalsa, bu hesabat, onun İnsanlıq qarşısında, qutsalcasına hər şeyi boynuna almalarıdır (etiraflarıdır). Hər kəsin, hətta Kozettanın gözündən düşəcəyindən qorxmur, ancaq vicdanın qarşısında gözükölgəli yaşamaqdan dolayı dəhşətli sarsıntılar burulğanına düşür. Əsərdən götürdüyümüz alıntıdan bütün bunları aydınlığı ilə görmək olur:

***"Buna görə də sizin yanınıza gəldim ki, hər şeyi açıb sizə deyim. Hər şeyi, ya bəlkə də, hər şeyi! O şey ki, ancaq mənə aiddir, o barədə heç danışmaq lazım deyil; bunu mən öz ürəyimdə saxlayıram. Əsas şeyləri siz indi bilirsiniz. Bu qayda ilə mən öz sirrimi götürüb sizə gətirdim. Mən onu sizin gözünüzün qabağında açdım. Belə bir qərara gəlmək asan deyildi. Mən bütün gecəni öz-özümlə mübarizə etmişəm. Ah, mən öz-özümü inandırmağa çalışırdım ki, burada vəziyyət bir başqadır. Şanmatye məsələsində olduğu kimi deyil, indi mən öz adımı gizlətməklə heç kəsə yamanlıq etmərəm, Foşlevan adı mənə, etdiyim xidmətə görə bir minnətdarlıq kimi, cənab Foşlevanın özü tərəfindən verilmişdir, mən bu adı yenə saxlaya bilərəm, sizin təklif etdiyiniz otaqda xoşbəxt həyat keçirə bilərəm, heç kəsi zəhmətə salmaram, öz guşəmdə yaşaram, Kozetta sizin olsa da, onunla bir evdə yaşamaq, hər halda, mənim üçün bir təsəlli olar – siz elə bilirsiniz mən bunları düşünmürdüm? Bizim hər birimiz xoşbəxt olardı. Mənə əvvəlki kimi cənab Foşlevan deyərdilər, hər şey öz qaydası ilə gedərdi: Hər şey, ancaq mənim qəlbim narahat olardı. Hər tərəfdən üstümə sevinc yağardı, lakin mənim qəlbimdə qaranlıq gecə hökmranlıq edərdi. Xoşbəxt olmaq kifayət deyil, adam gərək öz-özü ilə sülh içində yaşasın. İndi belə bir şey təsəvvür edin: mən cənab Foşlevan olub qalaydım, deməli ki, əsil simamı gizlədəydim, deməli ki, sizin çiçəklənən xoşbəxtliyiniz qarşısında sirrimin üstünü örtəydim, qəlbimdəki zülmətlə bu işıqlı dünyada gəzəydim, deməli ki, sizə xəbərdarlıq etmədən katorqanı sizin evə gətirəydim, süfrənizin başında oturaydım, fik-***

***rimdə də bu olaydı ki, siz mənim kim olduğumu bilsəniz, məni buradan qovarsınız; sizin adamlara mən qulluq etməyə imkan verəydim, “belə də dəhşət olar!” Birdən elə olaydı ki, dirsəyim sizə toxunaydı, – əslində, bu gərək sizi iyrəndirəydi; sizin əlinizi sıxmaq mənim üçün bir oğurluq olardı!***

***Sizinlə bir yerdə keçirdiyim bu həyatda mənim yeganə qayğım bu olacaqdı ki, bu dəhşətli quyunun qapağını yerindən tərpətməyə yol verməyim. Bu qayda ilə mən ölü olduğum halda, sizin kimi dirilərə bağlanmış olardım. Kozettanı həmişəlik özümə buxovlardım. Siz, o və mən katorqa dustağının yaşıl qalpağı altında üç başdan ibarət bir şey olardıq. Bu, sizi sarsıtmırmı? İndi mən ən bədbəxt insanam, amma onda ən rəzil bir adam olardım. Bu cinayəti mən hər gün edərdim! Bu qara maskada öz sifətimi hər gün gizlədərdim! Mən sizi hər gün öz rüsvayçılığıma şərik edərdim! Hər gün! Sizi, mənim əzizlərimi, sizi, mənim balalarımı, mənim məsum mələklərimi! Susmaq asandırmı? Qəlbindəkini gizlətmək asan şeydirmi? Yox, asan deyil! Susmaq var ki, yalan deyir. Mən öz yalanımı, rüsvayçılığımı, alçaqlığımı, qorxaqlığımı, xəyanətimi, cinayətkarlığımı damla-damla içərdim, sonra onları qusardım... Kozettanın üzünə baxardım, onun mələk təbəssümünə iblis təbəssümü ilə cavab verərdim, – bununla da ən rəzil bir adam olardım! Niyə axı? Xoşbəxt olmaq üçün. Mən xoşbəxt olum? Mənim xoşbəxt olmağa haqqım var? Məni həyatdan kənara atıblar, cənab!”...***

*(“Səfillər”, səh.918-919)*

- Burada bir neçə məqama göz yetirmək gərəkir: Jan Valjan, bütün əzabların ağırlığı altına girərək, Kozettaya təkcə ağgünlülük vermir, həm də onun bakirə ləyaqətini öz qaranlıq keçmişinə bulaşdırmaqdan qoruyur.

Üzləşdiyimiz bu durum, doğrusuna qalsa, toplumun faciəsidir. İnsana yanaşmanın bunca əskikliyi heyvanat aləminin qalib görkəmi ilə ölçülə bilər.

Jan Valjan özünə toplumun gözüylə baxıb suçlu görür. Halbuki quruluşun onun ömründə əkdiyi balaca bir suçu o, çoxdan öldürüb gömmüşdür. İndi onun ürəyində haqqın göyel sirləri yaşamaqdadır. O, bütün yanlışların, suçların üzərində mənəviyyat zirvəsinə yüksəlmişdir.

Burada üzdən baxanda günahı boynunaalma (etiraf) var. Qulağımıza çatan odur. Əslində isə qarşımızda günahsızlıq boynunaalması yaşanır. Bununla da arılıq, duruluq harayı enir ürəyimizin dərinliklərinə – bu dərinliklərdən inam, sevgi qazanır özünə qarşı.

Bu haraylarda hər şey – yalan da, günah da, qorxaqlıq da, dönüklük də vicdanın ehtiraslı alovlarında yandırılır, ürək günahsızlıq dəryasına çevrilib durulur.

O, Mariusun qabağında suçlu bildiyi yaşantılarını dilə gətirir. Ancaq bunları deyərkən o, toxtaqlıq (təsəlli) istəmir, nə də bağışlanacağını düşünüb ümid gözləmir. Ömrünü, bütün aydınlığı (şəffaflığı) ilə, göz önünə qoyduqdan sonra ruhu dinc (sakit) bir hala dolur. O, özünü qaragünlü (bədbəxt) adlandırsa da, bəxtiyarlıq pilləsinə ayaq basmışdır. Bu pillə onun fiziksəl varlığından çox illər sonra da, səcdəyə layiq, xatırlanacaqdır...

Jan Valjan bunları niyə edirdi, nəyi çatmırdı?! – Doğrusuna qalsa, o, boynuna alır, vicdanını ləkələnməkdən qoruyur. Toplum isə onun qüsurunu keçmişdən gələcəyə daşımağa çalışır. Günahsızlığa çıxmış bir insanın ömründə günahı qorumağa çalışan toplum günahkar toplumdur.

Jan Valjan bütün bunları elədikdən sonra ruhu bu cəhətdən dincliyə çatır. Ancaq başqa bir cəhətdən ruhunu daha amansız sarsıntılar içinə atır. O, Kozettadan ayrılmaqla özünü yalqızlığın pəncəsində ölümə məhkum edir. Əgər o, indiyə kimi Kozetta üçün yaşamışdısa, bundan sonra nə üçün yaşayacağını kəsdirə bilmir. Marius bir çağlar Kozettadan, sevgili kimi, ayrıldığı üçün sarsılıb ölümə yuvarlanırdı. Jan Valjan isə Kozettadan ayrılmağı – insan varlığının anlamından ayrılmaq kimi dərk edərək həyatdan üzülür. Hər iki səhnədə insana verilən qiymət çox yüksəkdir.

Əsərin dramatik bir səhnəsi də Mariusla Kozettanın Jan Valjanın doğruçu kimliyini tanıdıqları andır. Tenardye, qazanc əldə eləmək istəyiylə, şər xislətini ifadə eləsə də, Marius Jan Valjanın qutsal varlıq olmasının sirlərinə yetir. Tenardye pul qarşılığında Foşlevanın Madlen olmasını, onun yeraltı yollarda, guya, meyit soymasını söyləyir. Bununla da Marius, Kozettaya bağışlanan pulların Jan Valjanın halal əməyi ilə başa gəldiyini, üstəlik onun özünü ölümdən qurtardığını bilir. İndi onun ürəyinə Jan Valjan ilahi bir insan kimi qayıdır. Onunla birlikdə yaşamaq ağgünlülüyünə tələsir. Ancaq artıq gecdir. Böyük sarsıntılar öz işini görmüşdür. Mariusla Kozetta Jan Valjanın ölüm anlarını izləməyə çata bilirlər:

***"Jan Valjan gülümsəyirdi.***

***Cənab Ponmersi (Mariusun soyadıdır – S.A.), siz məni öz yanınıza aparsanız da, mən yenə əvvəlki adam olub qalmayacağammı?***

***... Biz düşünən kimi Allah da düşünmüşdür, o öz qərarını dəyişmir; mən gərək gedəm. Bizə nə lazım olduğunu Allah bizdən yaxşı bilir. Qoy cənab Ponmersi Kozetta ilə xoşbəxt olsun, qoy gənclik aydın səhərlə birləşsin, qoy yasəmənlə bülbüllər, mənim balalarım, sizə fərəh versin, qoy sizin həyatınız, çiçək açmış çəmən kimi, günəşlə dolu olsun, mən daha heç bir şeyə gərək deyiləm, mən ölməliyəm; belə lazımdır, bu yaxşıdır. Başa düşün, yaxşı fikirləşin, daha heç bir şey eləmək olmaz, mən hiss edirəm ki, hər şey bitmişdir...***

***Sənin nə xoş təbiətli ərin var, Kozetta! Onunla bir yerdə olmaq, mənimlə bir yerdə olmaqdan sənin daha artıq xoşuna gəlir.***

***Qapının dalından səs gəldi. Həkim içəri girdi. Jan Valjan dedi:***

***– Xoş gördük, doktor. Bunlar mənim zavallı balalarım!***

***Marius həkimə yaxınlaşdı. Ona ancaq bircə kəlmə söz dedi: "Cənab..." Lakin bu sözün deyilişində ifadə olunmamış bir sual vardı. Həkim bu suala ancaq mənalı baxışla cavab verdi.***

***Jan Valjan:***

***– Bir şey bizim ürəyimizcə deyilsə, bu heç də Allahdan narazılıq eləməyə bizə haqq vermir, – dedi.***

***Hamı susdu. Hamının qəlbində bir iztirab vardı.***

***Jan Valjan Kozettaya sarı döndü. Ona elə diqqətlə baxdı ki, sanki Kozettanın surətini əbədiyyətə aparmaq istəyirdi. Jan Valjan enməyə başladığı zülmətin elə bir dərinliyində idi ki, hələ Kozettanı görərkən ona valeh ola bilirdi. Sanki, Kozettanın işıq saçan zərif üzünün əksi onun solğun çöhrəsinə düşmüşdü. Qəbirin də öz sevinci var...”***

*(“Səfillər”, səh.960-961)*

- Bu faciədirmi, yoxsa doğal qanunauyğunluqdurmu?! Necə də məsum bir durum canlanır gözümüzün qarşısında. Faciənin də məsumu, amansızı olurmuş. Səhnə kədərli olduğu dərəcədə çəkicidir. Bu kədərdə həsrət o qədər gözəlləşir, ölümün amansızlığı, qorxusu, yoxluğu aradan qalxır. Ölüm həyatın danılması kimi deyil, davamı kimi dərk olunur. Faciə münasibətləri aydınlaşdırır, könülləri daha da yaxınlaşdırır. Ona görə də burada bizə doğal qanunauyğunluq kimi görünən hallar insani qanunauyğunluğun təsdiqi olur. Çünkü bir insan ömrünün bütün uğurlu, uğursuz yönlərini öyrənir, həyatın gerçəkliyi amansız olsa da, onun mahiyyətinə doğmalaşırıq. Bu bir məktəbdir. Mənəvi, fiziki ömrümüzü tərbiyə eləmək baxımından belə ömürlər uğurlu örnəklərdir.

Bu örnəkləri bəzən kimlərsə həyat təcrübəsi sayır, biz saymırıq. Həyat öyrətmir, döyür. Bizi də həyatın döydüyü, ancaq əyə bilmədiyi ömürlər öyrədir. Əyilməzlik, dönməzlik, ədalət, vicdan bir arada olanda mənəviyyatın gücünə çevrilir, bu güc yeni örnəklər yaradır.

Hüqo da bu örnəkləri tanıdan qüdrətli sənətkarlardandır. Ona bu əsəri üstə saygımız da sonsuzdur. Əsər insan mənəviyyatını aşağılayan gedişlərə qarşı həyəcanlı bir etirazdır. Zamana ağalıq eləyənləri də etkili uyarmaqdır. Bu cəhətdən Hüqo, əsərini ədəbi tənqid üçün sanki bağlamışdır. Hər şeyi o qədər

dolğun, aydınlığı ilə yazmışdır, əlavə söz deməyə yer saxlamamışdır. Biz də Hüqonun anlatdıqlarını yenidən anlatmaq istəyindən uzağıq. Sadəcə, Hüqonun çağı ilə öz çağımız arasında bağlılıqları göstərməyə çalışırıq. İnsanı qapsayan sorunların bütün yüzillərin bətnində daşındığını öyrənmək, bundan dərs götürmək gəlişmə üçün gərəkən bir məsələdir.

Genel olaraq, Hüqonun xəyal dünyası ilə bizim insanlıq uğrunda savaşımız arasında bir yaxınlıq vardır. Xəyal da ruhun axtarışlarından yaranır, ürəyin zənginliyinə çevrilir. Bu zənginlik ümid işığı kimi insanın varlığına yayılır. Ürək daim xəyallar bəsləyir. Böyük amallarda addım atarkən xəyallar işin başlanğıcı olur. Əgər ürəkdə yeni xəyallar qurulmasa, ümidsizlik başlayır. Ümidsizliklər ürəyi gəmirsə, ruhun ölümü yeyinləşər. Həyatımızda bədii ədəbiyyatın rolu da belə məsələlərə başlanğıc verməsindədir. Düzdür, yüksək idealları gerçəkləşdirmək bədii ədəbiyyatın işi deyil, ancaq yüksək ideallar haqqında düşünmək hər kəsin haqqıdır, bu önəmlidir. Yüksək ideallar haqqında düşünən hər kəs öz ölkəsini ədalətin bərpa olunacağı ünvan, öz xalqını isə ədaləti gerçəkləşdirib təsdiq edəcək qüdrət sayır. Məsələn, Hüqo öz obrazının diliylə Fransanı ədalət uğrunda savaş yetirən bir ölkə, onun insanlarını isə bəşəriyyətə cəsarət örnəyi göstərə biləcək uğur daşıyıcıları sayır. Başqa xalqların təfəkkür daşıyıcılarında da bənzər düşüncələrə rast gəlmək olur. Bu istək, bu niyyət baş tutacaq-tutmayacaq, bu, məsələnin ayrı bir yönüdür. Böyük düşüncə yiyələri öz düşüncə sistemlərinin ədaləti bərpa edə biləcək gücdə olub-olmamasını düşünməz. Onlar bir istək ortaya qoyurlar, başqa düşüncə, cəsarət yiyələri isə bunu başa çatdırmaq görəvini öz üzərlərinə götürürlər. Bu sürəc harda başa çatacaq, necə sonuclanacaq – bu da artıq gələcəyin ixtiyarında olan məsələdir. Ancaq heç kəs yaxasını qırağa çəkməməlidir, hər kəsin tərəqqiyə qatqısı olmalıdır...

Biz də deyirik, türk bəşərin qurtarıcısıdır. Bu deyiliş də eləbelə deyil, qurtarıcı ideya daşıdığımıza, eləcə də bu işi özümüzün başladığımıza görə qərar veririk. Ancaq bu qərar ədəbi ör-

nəklərin verdiyi qərarın başlanğıc götürdüyü məsələlərdən çox fərqlidir, üstündür. Bizim qərar dediyimiz məsələ Asif Atanın ortaya qoyduğu İnam Dünyabaxışı ilə bağlıdır. Köhnə inancların, köhnə ölçülərin bütünlüklə yenisi ilə əvəz olunması, verdiyimiz qərarın, başqa sözlə, Asif Ata gəlişinin özül faktıdır. Asif Atanın qərarı – İnsanlığı ölçüyə çevirən böyük bir gəlişmədir. Bu ölçü bütün bəşəri düşüncələri, bədii örnəkləri öz içinə alır. Bu ölçü Yeni bir Sivilizasiyanın açarıdır. Bu açarın qapı açdığı dünyada Hüqoların antitərəqqiyə qarşı etirazlarına, insan sevgilərinə, ədalət istəklərinə də yiyəlik qüdrəti yaşayır!

## Nəsimi – 650

**Günaydın dəyərli yurddaşlarımız!**

Bu il biz, bir millət olaraq, Böyük Nəsiminin anadan olmasının 650 illiyi qarşısındayıq. Düşünürəm, bu çağa kimi Nəsimi bütöv şəkildə araşdırılıb öyrənilməyib. Bundan sonra öyrəniləcəkmi, bilmirəm. Çünkü onun doğru araşdırılıb öyrənilməsinə iki fakt ciddi əngəl olur. Bunlardan biri milli kimlik yapımızı çökdürən, yaşamımızda mənəvi boşluq yaradan din faktorudur, ikincisi, insanları kütləyə çevirən, alimi, aydını, mədəniyyət xadimlərini boyunduruğa salan siyasal hakimiyyət faktorudur. Nə qədər toplumun yapısında din ağalığı hökm sürür, nə qədər siyasal hakimiyyət xarakterini dəyişmədən insan üzərində ağalıq edir, Nəsimi doğru dəyərini tapmayacaq. Nəsimiyə yiyə çıxmaq üçün özündənkeçən millətsevər, dəyərsevər insanlar gərəkdir.

Nəsimi bu millətin içində yetişsə də, bəşər olayıdır, dəyəridir. Çünkü onun idealı İnsandır. Onun düşüncəsi – İnsançılıq məktəbidir. Bu məktəbi keçən istənilən bir millət – İnsanlaşma ölçüsü tapar. Bizim, bir millət olaraq, bu məktəbi keçmək olanağımız var. Bu olanaqdan yararlansaydıq, bəşəriyyət üçün örnək millətə çevrilərdik. Ümmətləşmək bəlasından, kosmopolit

dünyasızlığından, İranlaşma, ərəbləşmə geriliyindən qurtulardıq.

İnsan haqqında Kamil Söz Nəsiminin ürəyində bəslənildi, varlığında üzə çıxdı. Ancaq bunu görən, bilən, anlayan tapılmadı, tapılmır. Ya da o qədər azdır, yayğındır, gerçək etkisi yoxdur. Nəsimi elə bir dəyərdir, onu itirmək – Vətəni itirməkdir, işıqlı gələcəkdən uzaq düşməkdir.

Biz Nəsimi Böyüklüyünün hikmətini, onun öz yaradıcılığına, yaşadığı ömür yoluna dayanıb kanıtlayacağıq.

Söz yox, Nəsimini Hürufilikdən ayrı öyrənmək olumsuzdur. O bu təlimin kamil izharçısı idi, Yurdunda işıq kimi yanmağa başlamışdı.

***“Kəbə üzündür, ey sənəm, üzünədir sücudumuz,***
***Ta ki, görə bu səcdəyi narə yana həsudumuz”.***

Ruhumuzu işğal edib özgə torpaqlarında bizə qiblə yaratdılar. Vətənindən uzaqda qutsallıq axtaranlara rütbə verdilər. Ancaq bu rütbəlilərin içində Vətən sevgisi yaranmadı, İnsan sevgisi böyümədi. Nəsimi insana qibləni öz yurdunda göstərir. Səcdə olunası yer İnsan üzünün gözəlliyinə bağlıdır. Eşqdən böyük rütbə yoxdur deyir Nəsimi.

İnsana münasibətin ucalığı Hürufilik təliminin canıdır. Bu təlimi dərk eləyən Vətəninə, ailəsinə, ulusuna bağlı olar. Bu bağlılıq Vətəni qibləyə çevirər.

Təlim harda yaranırsa, onun qaynağı hansı xalqın mənəvi görüşlərini yaşadırsa, ora qibləyə çevrilir.

***“Anəstünarə sirrini Musa nə bilsin, ya Şəcər,***
***Anı mana sorsun ki, mən ol nur ilə nar olmuşam.***

***Zikrim Ənəlhəqdir mənim, doğru sözüm həqdir mənim,***
***Darın içində qeyrühü həm leysə fiddar olmuşam”.***

Musa Allahı od kimi görürdü, oda səcdə qılırdı, ancaq onu dərk eləmirdi, ondan qorxurdu. Musada səcdə qorxudan törə-

yirdi. Nəsimi od işığının insanda olduğunu, bu sirrin insan düşüncəsində açıldığını, buna görə də eşq zirvəsinə qalxdığını – kamilləşdiyini vurğulayırdı. İnsana bundan böyük yanaşma, dəyər vermə olmayıb.

***"Ey özündən bixəbər qafil, oyan,***
***Həqqə gəl ki, Həqq deyil batil, oyan".***

Kimə, kimlərə deyirdi bunları görəsən?! Onun soyunu dinin işğal etməsindən 700 il sonra deyirdi bunu. Bir sıra ərəbbaşlı qorxaqlar deyirlər, Nəsimi insanı dinə çağırırdı. Məgər bu, dinə çağırışdır?! Dini yaradıb ortaya qoyan deyir, mən Həqqin quluyam, sən Həqqin qulusan. Nəsimi isə deyir, Həqq mənəm, Həqq sənsən, oyan, bunu anla. Anla ki, yaşamı işıqlandıra biləsən. Cahan qaranlığa qərq olub. Onu qul deyil, Həqq olan işıqlandıra bilər. Görün, insanı hara qaldırır?!

İnsanı dindən, dinin yaratdığı gerilikdən ayılmağa çağırır. Məhəmmədin Bəndə elədiyi insanı Nəsimi Allah sayır. İnsanın Allah düzəyinə yüksəlməsini istəməyənlər soydular onun dərisini. Bu edam sıradan İŞİD-çilərin gerçəkləşdirdikləri bir cahillik əməli deyildi, dövlət yönəticilərinin düşünüb ortaya qoyduqları bir qərarın gerçəkləşməsi idi. Çağdaş gerilikçilər Nəsiminin dərisinin soyulmasını da danmağa çalışırlar, din yayıcılarının vəhşətini gizləmək istəyirlər. Nəsiminin edam kürsüsündən söylədiklərini danmaqla yeni cinayətlər işləmiş olurlar.

***"Zahidin bir barmağın kəssən, dönər həqdən qaçar,***
***Gör bu gerçək aşiqi sər-pa soyarlar ağrımaq.***

***Soyun, ey murdar sallaxlar, Nəsiminin tənin,***
***Bunca namərdi görün bir ər qıyarlar ağrımaz".***

Nəsimini soydular, Hürufiliyi dağıtdılar. Azərbaycanın qibləyə çevrilməsinin qarşısını aldılar. Hürufiləri məhv eləmək – Azərbaycanın özümləşməsini məhv eləmək idi. İslamın ruhumuzu işğal eləməsindən yarım min il sonra Ulusun ruhani öz-

gürləşməsinə olanaq yaranmışdı, qarşısını aldılar. Hürufiləri yenməsəydilər, İslam qapalılığı, qaranlığı Azərbaycandan rədd ediləcəkdi. Bu gün Asif Atanın yolunu kəsmək də, həmin yanlışın, suçun davamıdır.

İnsanın tapınağı (Məbudu) özgürlüyə nə dərəcədə açıqdır?! – İslam dünyagörüşü istər Azərbaycan üçün, istər bütövlükdə türk üçün özgürlük qaynağı deyil, özünəyadlaşma yönüdür. Milli düzeydə özəl mənfi etkisi olan İslam dünyagörüşünün insana, millətə yanaşmasını (ümmətçilik ideyasını) araşdıran hər kəs bu dediklərimizi görə bilər. İslamda insan Mənasından ayrılır. Mütləq olanla insan arasında, birlik yerinə, ölçüyəgəlməz asılılıq yaranır. Hürufilər İnsanı Həqq saymaqla, onun Mütləq olanla bir olduğunu, ayrılmaz olduğunu sübut edirlər. Bunu öz təlimlərində - ideya düzeyinə qaldırırlar. Nəsimi bunu şeir diliylə daha ucadan, açıq bir anlamla söyləyir.

***“Sən hümayi-laməkansan, kəndözündən bixəbər,***
***Gəlmədin ta kim, görəsən mənzili-əlayi-eşq.***

***Çıx qəfəsdən, gəlgil, ey bülbül, gülüstan seyrin et,***
***Bas qədəm meydani-eşqə görəsən məvayi-eşq”.***

Dinin insana qoyduğu bütün yasaqları ortadan qaldırır, Allahın gizli taxtını yerlə bir edir. Nəsimiyə görə, eşq varsa, Allahın sirləri bilinəndir. Allahın sirləri açılmırsa, eşq deyə bir şey yoxdur. Din deyir, Allahın işlərinə qarışma, Nəsimi deyir, Allahın sirləri bilinməsə, həqiqətə eşq yaranmaz.

Nəsimidə İnsan özü qibləyə çevrilir. O, öz yolunda mənəvi-ruhani nizam yaratdığı üçün Vətəni də qutsaldır – qiblə özündə, Vətənində yaranır.

Qiblə özgürlükdən yaranır, əsarətdən qiblə yaranmaz. Özgür düşüncənin yerinə zorakı düşüncə gətirirlər, işğalın ömrünü uzadırlar. Milli şüuru sıradan çıxardanda əsarətin ömrü uzanır. Hürufilik işğala qarşı direniş idi...

***Məndə sığar iki cahan, mən bu cahana sığmazam,***
***Gövhəri-laməkan mənəm, kövnü məkanə sığmazam.***

***Gərçi mühiti-əzəməm, adım adəmdir, adəməm,***
***Dar ilə künfəkan mənəm, mən bu məkana sığmazam.***

Feodal düşüncə ortamında insanı allah saymaq – insan üçün nə qədər gərəkliydisə, bunu söyləyən üçün bir o qədər qorxulu idi. Quruluş insanı qorxu altında saxlayırdı. Çünkü insanın özünü görməsi, tanıması, daşıdığı məna yükünü dərk eləməsi Quruluşun ölümü idi. Quruluşa qarşı çıxmaq, insanı Quruluş azğınlığından qorumaq sınırsız hünər idi. Bu hünərlə yaşamaq – Dünyaya yeni Yaşam Uyumu vəd edirdi. Sarsıdırdı minillərin geriliyini, antiinsani şüurları.

***Zərrə mənəm, Günəş mənəm, çar ilə pəncü şeş mənəm,***
***Surəti gör bəyan ilə, çünkü bəyanə sığmazam.***

Bu, türk şüurunun, türk panteizminin yeni aşamaya qalxması idi.

İkiliklər üzərində qurulub bütün gerçəkliklər. İkilikdən çelişkilər doğur, insan bu çelişkiləri ötə bilməyəndə həyat özü dolaşığa düşür – yaxşı ilə pisin, ağla qaranın, qaranlıqla işığın yeri dəyişir. Nəsimi insanı ən yüksək qatda göstərməklə, ona sorumluluğunu anladır. İnsanı – özünü balaca saymaq günahından arındırmağa çalışır. Bununla Nəsimi insanı uydurmur, onun özündən, göründüyündən yüksək olmaq olanaqlarını açıb göstərir. Bunu, həm insanın içini göstərməklə, həm də dinin yaratdığı toplumsal ortamı, dünyanın gedişini ifşa eləməklə yerinə yetirir.

***"Bivəfadır çün bu aləm, kimdən istərsən vəfa?***
***Bivəfa aləmdə sən yari-vəfadar istəmə!***

***Gül bulunmaz bu dikənli dünyanın bağında çün,***
***Əbsəm ol, bihudə gülsüz yerdə gülzar istəmə!"***
Ya da

***Gərçi bu gün Nəsimiyəm, haşimiyəm, qüreyşiyəm,***
***Bundan uludur ayətim, ayətü şanə sığmazam".***

Gerçək dünyada, gedişdə, zaman sınırında məni bölürsən – qul deyə, şah deyə, haşimi, qureyşi deyə. Mənim mənam bunlardan çox dərindir, çox yüksəkdədir. Məni gerçəkliyə pərçimləyib sınırlama, mən cisim-candan üstünəm, bunların heç birinə sığmayan ulu anlam daşıyıcısıyam.

Nəsimi öz qəzəllərində insan-Tanrı ayrılığını rədd edir. Tərsinə, bir bağlılıq, bir bütövlük yaradır. İnsanın üzündə Tanrının şəklini yaradır – İnsan varlığının kamil surətini tablolaşdıran rəssam kimi bilinir. Nəsimi sufilikdən başlamışdı, ancaq sufilikdən yüksəyə qalxmışdı.

***Mən nə vəch ilən deyəm haqqı ki, səndən ayrıdır,***
***Çün gözümlə görmüşəm haqqın nişanı səndədir.***

Sufi Allaha qul idi, Nəsimi Allahın özü idi. Ona görə insanın özünü qul saymasını rədd edir.

O dövrün insana münasibəti ilə Nəsiminin insana münasibəti arasında yer-göy fərqi vardı. Bu fərq – insanı qul durumuna salanları, insanı qul durumunda saxlayanları sözün qüdrəti ilə üz-üzə qoyurdu, onları qorxu altına salırdı. Ona görə bu təlimi daşıyanlara qarşı amansız idilər. Öldürürdülər Hürufiləri. Ağalığın İslam adlanan qaranlıq çətirini başının üstündə görmək istəməyənlərə kafirlik damğası vurub qorxu yaradırdılar. Qaranlıqdan qorxmayanları ölümün pəncəsinə atırdılar. Belə bir ortamı yaradanlardan biri Əmir Teymur idi. Teymur öz şöhrətinə, taxt-tac, sərvət tamahına qurban verirdi Hürufiləri. Əslində, Azərbaycanın örnəyində, bütün türklüyə zərbə vururdu. Teymur olmasaydı, Hürufilər Azərbaycanda qalib olacaqdı, İslam

geriliyi yeniləcəkdi. Teymurun cahanşümul imperatorluğu Hürufiliyin yaradıcılarını məhv elədi. Bu gün Teymurdan quruca ad qalıb, ancaq Hürufiliyin milli-mənəvi etki olanaqları çox genişdir. Ona görə ərəbbaşlar Hürufiliyin öz anlamı ilə tanınmasına əngəl olmağa çalışırlar. Teymuru savunanlar da, əslində bunu Teymura sevgidən eləmirlər, İslamı qorumaq üçün edirlər.

Burada biz məsələyə hərb tarixi açısından yanaşmırıq, milli kimlik şüurumuzu qorumaq açısından yanaşırıq. Hərb tarixi ilə öyünməyi də yersiz sayırıq. Fatehlik – fiziki, mənəvi soyqırım deməkdir, bəşəri mahiyətə qarşı yönəlmiş cinayətlər səbəbidir. Bəşəri mahiyətə qarşı böyük cinayətlərin işlədiyi bir çağda Hürufilər İnsanilik təlimi yaratmışdılar. Bu, yenilməz bir cəsarət idi. Hürufilərdə insana özgün olan bütün yüksək keyfiyyətlər üzə çıxmışdı. Ancaq fateh qılıncı insanın öz mahiyyətinə uyğun yaşamasının (Hürufilərin diliylə desək, Allah olmasının) qarşısını aldı. İnsanı qılıncla qorxutdular, yavaş-yavaş əsarətə alışdırdılar, onu özünün Allahlıq mənasından ayırdılar. İndi İnsana yenidən öz mənasını anlatmaq, özgürlüyü tanıtmaq – böyük zaman, hünər tələb edir.

Fatehlik insanın ruhunu öldürürdü, Hürufilik dirildirdi.

Şirvanşah Teymurun qarşısında aciz idi, Hürufilər üçün heç nə eləyə bilmədi. Bugünkü hakimiyətimiz də Hürufilik üçün heç nə eləmir. "Nəsimi ili" elan eləmək – xalqın duyğularına girmək üçündür, gerçək bir addım belə atılmır. Televiziyalarda Hürufilik Təliminin özəllikləri xalqa öyrədilmir, oxullarda bununla bağlı eyitim verilmir. Ancaq Nəsimidən molla düzəltməyə çalışırlar.

Özümlüyümüzə qarşı yad düşüncəli adamlar Nəsimini dindar elan eləməkdən belə çəkinmirlər. Ya onlar Nəsimiliyi də, dini də dərk eləmirlər, ya da bilə-bilə dönüklük edirlər.

Biz, Asif Atanın Mütləqə İnam Ocağı olaraq, milli kimliyimizi, mənəvi varlığımızı özündə daşıyan bütün dəyərlərimizə yiyə durur, onların öz anlamlarına uyğun öyrənilməsinə, sevilib yaşadılmasına çalışırıq. Hürufilikdən danışanda gərək həm tari-

xi faciələrimiz dərk olunsun, həm də bu faciələrdən dərs götürərək, milli qurtuluşumuz yetirilsin.

## Sənət Mömini

Dilimizdə, sənətdə, ədəbiyyatda şərti anlayışlar işlədilir. Məsələn, filankəs natiqlikdə dahidir, filankəs muğam oxumaqda dahidir, filankəs səbrdə b.k. Burada biz "sənət mömini" ifadəmizi şərti xarakterlə demirik. Doğrudan da Yanardağ Sabir sənətdə möminlik zirvəsinə qalxdı, bunu biz həqiqi anlamda tanıtmaq istəyərdik.

Mömin sözü dini anlayışdır, ancaq möminlik eləmək sadə yaşamın nizamıdır. Sənətdə möminlik də Yanardağın yaşam quruluşuna özgündür. Biz bunu onun "İstibdad və İstila, yaxud Xeyirlə Şər arasında Bəşər Aqibəti" əsərində aydın izləyirik. Onun, toplumsal yaşamı sənət araçılığıyla aydınlatması çoxcəhətlidir. Yanaşma üslubu aydındır, tez anlaşılandır, məntiqi qabiliyyəti çəkicidir. Ədəbi dastanlardan götürdüyü alıntılarla özünün araşdırması elə bir uyumlu biçimə düşür, adamda oxuculuq bacarığını yeniləyir. Həm də olayların araşdırılmasında bəşər həyatının bütün dramatizmi – ziddiyyətləri, ülviyyətləri, geriliyi, gəlişməsi dərk olunan bir şəklə düşür. Əsər boyu Yanardağın bəşər həyatına münasibəti iki cəbhədə gəlişir. Biri şərin "şıltağı", bəşər övladının bu şıltağın qarşısında çaşbaş düşməsidir. O biri isə Xeyirin səbrdən qoparaq kükrəməsi, dünyanın, həyatın mayasında özünün (xeyirin) yaşamasını kanıtlamasıdır (sübut eləməsidir). Yanardağ əsər boyu bir çox yerdə vurğu edir: ***"bəşər Xeyirə nisbətən Şəri daha asan həzm edir"***. Ancaq həm də bütün aşamalarda Şərin fəsadlarına qarşı Xeyirin ülviyyətini qabardır. Kanıtlamağa çalışır, Şər nə qədər tarixi aşamaları zədələmiş görünsə də, heç vaxt Xeyirə qalib ola bilməyib. Çünkü varlığın mahiyyətində Xeyir var. Şər gedişdədir, Mənada deyil.

Sabir Yanardağın araşdırmaları M.S.Ordubadinin əsərləri ilə başlayır. Bu əsərlərin leytmotivi üzərində o, Şərin genişlənmə səbəblərini, yaşama qanunauyğunluqlarını çox ustalıqla aydınlaşdırır. İstibdad özünə daim yeni keşikçilər hazırlayır, onlara özü ortam yaradır, bu ortamı ifadə eləmək üçün xarakter aşılayır. Kitaba üz tutub düşüncələrimizi bir alıntı ilə kanıtlamağa çalışaq:

***"İstila gedişinin özü hələ lap başlanğıcda qırğın və dağıntı hesabına başa gəlir. Sonra o, əsarət durumunu saxlamaq, ictimai qüvvələri öz məqsədinə tabe etmək üçün güclü və sağlam qüvvələri məhv edir. Lakin o, tora salmaq və hipnoz etmək naminə canavar təbiətini gizləmək üçün mələk tülünə bürünməlidir. Bu zaman məhv etməyin mürəkkəb və daha amansız üsulları başlayır. Bunun ilkini və başlıcası parçalamaq yolu ilə məhv etməkdir. O bu iş üçün millətin öz içərisindən satqınlar, laqeydlər zümrəsi yaradır. Bu gedişat əvvəlcə milli cılızlaşmanın əsasını qoyur. Sonra o, xalqı məhv etməlidir...***

***Bu İstila ilə İstibdadın vəhdət təşkil elədiyi nöqtədir. İstibdad üçün gücsüz düşdüyü nöqtələr münbit bir mühit rolu oynayırdı. O, bu mühitdən istifadə edərək gücsüz nöqtələri daha da artırır, şiddətləndirir, pərakəndəliyə, satqınlığa, xaraktersizliyə, şərəfsizliyə, bayağılığa, tənbəlliyə, bekarçılığa, qəbahətlərə, cinayətlərə, səfilliyə yeni tonlar verərək, qəddarlığın meydanını başdan-başa sulayır" (S.Y. "İstibdad və İstila").***

Buradan elə görünər, şər qarşısıalınmaz bir gedişin, sürəcin doğurduğu həyat tələbidir. İstibdad xarakterdə yaşayır, ancaq xarakterə sığmır, daha mürəkkəb biçim alır, bəşər həyatına hakim olana qədər böyüyür. Min illik bəşər tarixini izlədikdə də biz bunun tanıqı oluruq. Sanki tarix də bu deyilənlərə dayaq durub şərin yenilməz olduğunu kanıtlamağa çalışır. Ancaq Asif Ata deyir, bəşər tarixi qaralamadır. İnsan doğruçu tarixi oxumayıb, çünkü o, yazılmayıb. Doğruçu tarix İnsanlığın tarixidir. İnsanlığın tarixində şər yoxdur, ya da, çox epizodik, cılız olur. Bunu biz Sabir Yanardağın öz əsərində, Şərin qarşısına keçə-

rək, cəsarətlə söyləmələrində də görürük. O deyir, şər danışanda üzdən gözəl görünür, inandırıcı etki bağışlayır: ***“ancaq bu gözəl inamlar və bu gözəl danışıq məntiqsizliklər seylabından ibarətdir. Kim şahidlik verə bilər ki, doğrudan da çarizmin boynuna belə bir vəzifə düşmüşdür? Əgər ilk hökmün varlığı şübhə doğurursa, ondan doğan bütün hökmlərin özülü məntiqsizliklərə əsaslanmalıdır. Bir halda ki, biz hər cür istilanı cinayətlər və qəbahətlər dağarcığı hesab edirik. O nə qədər parlaq şüarlarla müşayiət olunsa da...” (S.Y. İstibdad və İstila).***

Doğru, Şəri güclü sayanlar, yenilməz görənlər özlərinin cılızlığına haqq qazandırırlar. Şər bu qədər güclü, qalıcı, məğlubedilməz isə, nə üçün Xeyirin libasına bürünür, nə üçün Xeyirin adından danışır, sözdə Xeyirin tələblərini ortaya çəkir?! Şər mahiyyətə dayanmır, dayansaydı, öz adından danışardı, hər yerdə açıq şəkildə öz yenilməzliyini kanıtlamağa çalışardı. Şər bunu bilir, açıq əməllərdə öz xislətini üzə çıxaran kimi məğlub olacaqdır. Şər əməllər törədənlər həmişə bu əməllərin Xeyir anlamı daşıdığını yeridirlər. Həm də Şər xisləti ilə yaşayanlar özlərini qorumaq üçün davamlı olaraq bir araya gəlirlər. Elə Şərin güclü görünməsi də onun daşıyıcılarının üzdə bir araya gəlməsinə görədir. Ac, vəhşi qurdlar ovun üzərinə birlikdə gedirlər. Ancaq öz aralarında ovu bölmək uğrunda bir-birini həm də gəmirirlər. Toplumsal həyatda da belədir – xalqın adına, mahiyyətinə uyğun yaşamayanlar toplumsal təbəqə əmələ gətirir, Şər xisləti ilə dolanlar bir araya gəlib güclənirlər. Onlar, toplumun, sadə əməklə, öz həyatını yaşayan kəsimini talamaqla dağınıq duruma salırlar. Bununla da güclü-gücsüz təbəqələr yaranır. Dövlət də ən çox bu təbəqələrin münasibətini yoluna qoyur, ancaq güclünün xeyrinə. Bu səbəbdən də dövlət özündə Şər xisləti daşıyır. Yəni dövlət Şər xislətli təbəqənin aparatı rolunu oynayır. Bu aparat – istila yaradan istibdadçı güclərin birindən o birinə ötürülməklə xarakterini qoruyub saxlayır. İstibdad aşırı həddə çatanda toplumun, yəni məzlum təbəqənin içərisindən qarşı (əks) qüvvə toparlanır. Yönətim ələ keçirilir. Zülm görmüş toplum sevinir, rahat nəfəs almaq istəyir. Bu dəfə taleyini öz içərisindən çıxmışlara tapşırır. Ancaq istibdad aradan

qalxmır, yeni biçimdə həyata, münasibətlərə qayıdır. Gündən-günə artır, böyüyür, öncəki səviyyəsini yenidən qurur (bərpa edir). Bu dəfə yeni soyda yeni qarşı qüvvə dirçəlməyə başlayır i.a.

Soylar bir-birini əvəz edir, ancaq bir soy özündən öncəkinin fəlakətlərinin səbəblərini doğru biçimdə dərk eləmir. Bu səbəbdən də toplumsal faciə öz uyumunu qoruyub saxlayır. Ancaq bu faciələri tədqiq edən, öyrənən, öyrədən sənət örnəkləri də hər zaman ortaya çıxır, Xeyirin ölməzliyini sübuta yetirən "SÖZ"ü ortaya qoyur. İndi haqqında danışdığımız Yanardağ sənəti həmin örnəklərdən biridir, birincilərdəndir. Ona görə birincilərdən deyirik, biz Asif Atanın Mütləqə İnam Dünyabaxışının daşıyıcılarıyıq. Yanardağın bu əsərinin araya gəlməsi də Asif Atanın İnsanlaşma ideyasına uğurlu bir qulluq göstərməkdir. Asif Atanın təlimi Şərin, niyə yaşaya bilməsini göstərməklə, necə aradan qaldırılmasını yetirir. Bu cür möhtəşəm sənət örnəkləri isə şərin ikiüzlülüyünü, dağıdıcılığını, qanlılığını, aldadıcılıq xislətlərini açıb göstərir. Biz də peyğəmbər işi ilə, bu işə qulluq göstərməni bir arada götürür, bunu bir dəyər kimi sunuruq.

Bayaq dedik, soylar dəyişir, təbəqələr arasında savaş da dəyişir, yenilənir. Ancaq əsaslı fərq ortaya çıxmır. Niyyətlər dəyişir, planlar dəyişir, savaş üsulları dəyişir, ancaq ədalət başa varmır, çünkü insan dəyişmir. Ona görə Asif Atanın ideya-baxışı insan üzərində qurulub, insanın dəyişməsi uğrunda iş aparır. O, vurğu edir, hər cür sənət, ədəbiyyat, mədəniyyət örnəkləri insanın dəyişməsinə, onun öz mahiyyətinə uyğun yaşamasına qulluq göstərməlidir...

S.Yanardağın araşdırmaları çoxyönlüdür. O, insanın bireysəl aqibətini toplumsal kontekstdə özünəxas bir uğurla qiymətləndirərək, millətin varlığına bağlayır. Birey-millət bağlılığı həm fəlakətlərin, həm də quruculuğun zəmini kimi dərk olunanda bütün çelişkilər qarşımızda işıqlanır, tərəqqi üçün yeni yön görünür. Birey öz mahiyyətini itirəndə millətin gücü sarsılır, "Toplumçuluq" səviyyəsinə enir. Şər də bu nöqtədə doğulur, həyatın uyumunu yavaş-yavaş sarsıdır. Bu məntiq daha geniş – bəşər səviyyəsində də doğrudur.

Bu əsərdə S.Yanardağ Doğusal dəyərlərin etki gücünə, sıradan çıxarılmasına da baxış ayırıb. Dinin, mifologiyanın, sənətin, biliminin insan həyatında yeri, rolu, gerçək olaylara, yaşamın prinsiplərinə dayanılaraq, yaxşı, ya pis çalarlarıyla aydınlaşdırılmışdır. O bu məsələdə "İliada"nın söyləmlərinə (rəvayətlərinə) üz tutmuş, bütün olayların incəliklərini baxışdan keçirmişdir.

Burada Şərlə Xeyir qarşıdurması, döyüşü, xarakterlərdəki tələbi o qədər aydın, doğru ifadə olunmuşdur, daha geniş aydınlatmalara gərək duymuruq, birbaşa oxucunun əsərə başlamasını önəririk. Söz yox, əsərdə bəlli qırağa çıxmalar da yox deyil. Bəzən yetənəkli (istedadlı) aydınımız S.Yanardağ olayların anlamını dastanın dediyi səviyyədən qırağa çıxarıb artırır (idealizə edir). Bu, ən çox "Axilles ülviyyəti" dediyi məsələdə özünü göstərir. Biz burada məsələnin üzərinə getmirik, çünkü niyyət sağlamdır, yanaşma Xeyirə ziyan gətirmir.

Başqa bir çalar, əsərdə S.Yanardağın dili ərəbcə, farsca sözlərlə çox yüklüdür. Söz yox, bunun səbəbi dilimizin, sovet dönəmində, daha çox qarışıq duruma gətirilməsi ilə bağlıdır. Ancaq bununla belə, biz, dilçi, ədəbiyyatçı alimlərimizə qarşı güzəştli baxış sərgiləməyin yanlısı da deyilik. Dili qorumaq daha çox dilçilərin üzərinə düşür. Hər bir aydın, öz yaşadığı çağda, bacardığı qədər dilin arılaşmasına – özümləşməsinə çalışmalıdır.

Biz də Sabir Yanardağın "İstibdad və İstila, yaxud Xeyirlə Şər arasında Bəşər Aqibəti" əsərində düzəlişlər edərkən, əsərin dilini, bacardığımız qədər, türkləşdirməyə çalışdıq. Dilimizin aydın, sadə sözlərini ərəb-fars sözlərinin yerinə qoymaqla, onun (dilimizin) qarşısındakı sorumluluğumuzu az, ya çox ölçüdə yerinə yetirdik.

İstəkli oxucu! Sənə sunulan bu kitab İnsançılıq baxımından, milli şüurun gəlişməsi baxımından çox önəmlidir. Eləcə də ədəbi ələşdirmənin (tənqidin), az qala, sıradan çıxdığı bir çağda bu əsər ədəbi ortam üçün bir mayak rolu oynaya bilər. Biz belə düşünürük, inanırıq, gələcək soylar da əsərin dəyərini biləcəkdir.

## Akif Səməd – İşıqlı şeiriyyət yolçusu

Söz Tanrıdan sonradır. Ancaq Tanrını da tanıdan Sözdür. Ona görə Sözü Tanrı ilə cərgələşdirmək yox, birlikdə götürmək gərəkdir. Tanrı ilə birlikdə olan Söz hansı könüldə nəğmə qoşursa, o könül yiyəsi mürşidə çevrilir: Dərdi tanıyan, bəsləyən, sevən bir mürşidə; Dərddən ümid yaradan, ümidi könüllərə yazan bir mürşidə.

Könül əhlinin dünyası dərd özüllü dünyadır, ona görə də əlçatmazdır. Əlçatan dərd şəxsin bireysəl-fiziki taleyinin ifadəsi olur...

Dərd də yaşamaq istəyir. Ona görə yaşayır, könül əhlinin dünyası var olsun.

Dərd yaşamağa həmişə böyük ürəklər axtarır. Balaca ürəklərin, Dərd yükünü daşımağa, gücü olmur. Böyük ürəkdə dərd böyüyür, artır, ürək yiyəsini torpağa gömənə qədər şiddətlənir. Ancaq özü torpağa gömülmür. Yaşadığı ürəyin gözəlliyi ilə birgə yeni ürəklərdə yuva qurur...

Beləcə, dərd yüzillər yol gəlir, ürəklərdən ürəklərə yol olur, ürəkləri bir-birinə bağlayır. Biz, dərdli ürəklərin harayında yüzillər öncəki könüllərin gözəlliklərini tanıyır, sevdalarını sevir, keçmişlə gələcəyin bağlılığını dərk edirik.

Dərddən qaçan Tanrını tanımaz. Tanrıya qovuşmaq – Tanrılaşmaq Yolu – Dərd Yoludur, kədər yoludur, zəhmət yoludur. Bu yolu başlayanın ömrü İşığa çıxır, dünyaya işıq gətirir. Dərdlə İşıq – fərqli görünsə də birlik təşkil edir. Şeiriyyət işıq deməkdir, o, balaca ürəklərdə yanmır. Belə götürəndə, balaca şeir olmur. O ya var, ya da yoxdur. Şeiriyyət say deyil, riyazi hesablanmır, şeiriyyət könüllərdə bəstələnən qalıcılıq (əbədiyyət) nəğməsidir. Qalıcılıq nəğməsi oxuyan könüllər ölməz. Çünkü başqa könüllərə sevda bağışlayar. Sevdalı ürəklər qutsal münasibətlər uyumunu yaşadar.

Budur şair ömrü, şeiriyyətin varlığı – Dərddən başlayır, İşığa çevrilir. Arı düşüncələr, arı niyyətlər, arı əməllər qaynağı olur Dərdli Ürəklər...

Bu yazıda biz dərdinə qonaq olmaqla işıqlı düşüncələri ilə tanışlaşdığımız Akif Səmədi sunuruq. Akif Səməd tək-tək yaşayan yaradıcılardandır. Onun üstün cəhətidir, çağının tələbləri ilə yaşamadı, şeiriyyətin nəğməkarına döndü. Əsil şeiriyyət də çağı ifadə eləmir, olmalını öyür, çatdırır. Bu baxımdan Akif Səməd şeiriyyətə çağından başlamır, qədimlərdən, böyüklərdən başlayır.

***Qırıq Sazın nə simiyəm?***
***Baharın son nəsimiyəm,***
***Mən ki, haman Nəsimiyəm***
***Nə bağ-bostan alveridi..***

Başqa bir yerdə:

***Verirsən yelə – toxumdu...***
***Kim deyir, hədərdi, hədər,***
***Yaxşılıq elə toxumdu,***
***Ürəklə ək, daşda bitər.***

Bu, Qədimlikdən gələn ümiddi, çağın boz-bulanlıq havasında qırılmır, Xeyirə qovuşur, Xeyiri yaşadır....

Bəzən şair, çağın azğınlığı, amansızlığı dəyərləri əzib üstündən keçəndə, fəryad edir.

***Adətə bax, vərdişə bax,***
***Şam yanır, şamdan ağlayır,***
***Zamana bax, gərdişə bax,***
***Bağ gülür, bağman ağlayır.***
***Aldanıb dünya malına,***
***Alıb dünyanı dalına,***
***Akif Səmədin halına,***
***Nə gündü, şeytan ağlayır.***

Şeytan qiyafətindəki adamlar çevrəsində yaşayır, ancaq çaşmır, qorxmur, inildəmir. İçində haqqı yaşadan insan ortamdakı

haqsızlıqdan sızıldamaz. Belə adamlar ortamın haqsızlığından əndişəyə düşüb ağlamır, içindəki haqqı ortama verə bilməməkdən dərdlənir. Belələrinin dərdi "niyə yoxdur" məntiqindən yaranmır, "niyə almır" məntiqindən doğur.

***Könül harda, Akif orda,***
***Yolu olan qalmaz darda,***
***Nə tapıbsan adamlarda,***
***Məhəmməd, dərdiş, gəl gedək.***

Ya da,

***Yatıram yuxum ağrımaz,***
***Bir misra duyğum ağrımaz,***
***Sevinmə, ruhum ağrımaz,***
***Mənimki can ağrısıdır.***

***Bir sözün var yüz ağrısı,***
***Hər ağrının öz ağrısı,***
***Şair kəsin söz ağrısı,***
***Dünyanın söz ağrısıdır.***

Başqa bir yerdə:

***Qarışqaya dən gətirdim,***
***Buz ürəyə gün gətirdim,***
***Hər çətini mən götürdüm,***
***Dost məni görmədi, könlüm.***

...Akif Səmədin özünəxas bir üstünlüyü də var. O, dərdini də, sevincini, sevgisini də çox sadə bir dildə ifadə edir. Keçmişimizə çevrilən böyük şəxsiyyətlərimizdə böyük dərdin mənasını sığışdırmaq, ifadə eləmək üçün böyük misralar gərək olub. Sonralar bu, dərdin musiqiləşməsində – muğamlaşmasında haraylanıb. Akif Səməddə isə yaşadığı dərdin məzmunu 6-lıqda, 8-likdə ifadə oluna bilib. Təcnisdə, gəraylıda, ağıda nəğməyə çevrilə bilib. Bu həm də çətindir. Ancaq çətin olan hər məsələ saz sevdalı könüllərdə sadələşə, asanlaşa bilir...

Akif Səmədin şeirlərində dərd qapsamlı ifadə olunub: Dövrün dəyərlə, yaradıcının sözlə, nadanın qeyrətlə, şairin hikmətlə oyun oynaması, xalqın sözünü deməli olanların şaha, görəvə, ödülə əyilməsi, satılması Akif Səmədin şeirlərində özünəxas bir üslubla hədəfə alınıb rədd edilir:

***Şaha razılıq eləmək,***
***Ya da tazılıq eləmək,***
***Qalıb qazılıq eləmək,***
***Düzlük deyil, çıxaq gedək.***

Ya da,

***Qanan qaçır mən dəlidən,***
***Zəhər içim mərd əlindən,***
***Bu sahil dərd, dərd əlindən,***
***Qopar məni, ay gəmiçi.***

Akif Səmədin doğulduğu elə, yurda bağlılığı da bütövyurd kontekstində dərk oluna bilir. O, öz dağlarının, çöllərinin gözəlliklərini belə, seyr edəndə Azərbaycan boyda dərdlə danışır. Vətəninin parçalanması, satılması, yiyəsizləşməsi ağrıya çevrilir, sözü ağrıda-ağrıda qulaqlarımıza dolur, ürəyimizə çatır.

***Qollar qanrılsın, çatılsın***
***Sürü sürüyə qatılsın.***
***Torpaq verilsin, satılsın,***
***Satan padşaha dinməyim.***

***... Deyirəm daha dinməyim,***
***Çəkilən aha dinməyim,***
***Satan padşaha dinməyim,***
***Göydə Allaha dinməyim.***

Ya da,

***Öz dərdimi bölürəm,***
***Öz dərdimə gülürəm.***
***"Araz" deyib ölürəm –***
***Qardaş, mən şeir yazmıram.***

............................

*Neçə kəhərlər nal salıb,*
*Neçə igidlər ad alıb,*
*At səsinə həsrət qalıb,*
*İndi İncənin yolları.*

Başqa yerdə,

*İçimizdə boğuluruq,*
*Üzdə hələ şeir yazırıq.*
*Ürəyimiz quru budaq,*
*Sözdə hələ şeir yazırıq.*

Bu sətirlərdə milli varlığımızın zədələnməsinin doğurduğu rahatsızlıq da var, ideoloji savaşın yoxluğuna edilən vurğular (eyhamlar) da.

Şairdə bəşəri duyğular yaşayır. Ancaq o, həm də Vətən övladıdır. Dünya – şair üçün Vətəndən başlayır. Vətənə ağlayan göz insanı Bəşər səviyyəsində görür! Şair Akif Səməd, yaradıcılığı boyu, bu zirvələrə qoşub, bu zirvələrə can atıb!

## Dəyərlərimizi havalandıranların "aydınlığı"

(Rasim Qaracanın düşüncələrinə cavab)

Bu gün toplumsal ortamda olanlar çoxluq olaraq həqiqətlərə ayıq baxmaqdan çəkinirlər, ya da baxa bilmirlər. Asif Ataya münasibəti bu məsələylə bağlı bir örnək olaraq göstərmək istəyirəm. Ona sayğı, sevgi bəsləməyənləri anlamaq olar. Onlar biranlamlı olaraq yeniliyə, milliliyə qapalı olan geri düşüncəli adamlardır. Ancaq sayğı bəsləyənlərin yanaşmasında da qəribə bir çəkingənlik, hürkmək var. Belə adamlar Asif Ataya sayğılarını qırağa qoya bilmirlər. Ancaq ona bütöv də yanaşa bilmirlər. Asif Atanı alim-filosof kimi götürürlər, onun Yeni İnam yaradıcılığını sinirə bilmirlər. Ona görə də Asif Atanı elm müstəvisinə daşıyıb ikinci xətti ya danırlar, ya da üstündən sükutla keçirlər. Bəziləri hətta onun özünə peyğəmbər deməsini normal

durumdan çıxması kimi qiymətləndirir. Bunlardan biri tanınmış şair-yazar Rasim Qaracadır. Bu günlərdə Asif Ata Ocağının 40 illiyinə hazırlaşırıq. Amaldaşım Göylü, toplumsal baxımdan meydanda olan, ayrı-ayrı insanlardan Ocaq haqqında düşündüklərini yazmalarını rica etmişdir. Var olsunlar, onlar da yazıb göndərmişdilər. Yazıların dərin-dayaz, geniş-yığcam olmasının önəmi yoxdur. Hər kəsə xoş sözlərinə görə sayğı duyuruq. Tənqidi yanaşmalar da olsaydı sayğ ilə qarşılayardıq. Ancaq Asif Atanı aşağılamağı ləyaqətə uyğun saymırıq. Yanlış bildiyimiz yanaşmalara da cavab haqqımızı dilə gətiririk. Rasim bəy 78-ci ildə Asif Atanın ona yazdığı məktubdan ilhamlandığını, etkiləndiyini yazıb. Asif Atanın sovet rejimi ilə, onun antimilli ideologiyası ilə dönməz bir savaş apardığını dəyərləndirib. Bu savaş ortamında Asif Atanı böyük alim olaraq görür. Sonra da yazır: "Asif Ataya qarşı sovet repressiya maşını işə düşmüşdü, əvvəlcə işsiz qoydular, əsərlərini çap etmədilər, sonra ailəsini dağıtdılar, əsəblərini yerindən oynatdılar, 90-cı illərin kadrlarında gördükləriniz sizi yanıltmasın, bunlar Asif Atanın ruhi sarsıntı keçirdiyi zamanların kadrlarıdır. 15 illik ardıcıl təzyiqlərin nəticəsində sağlamlığını itirmiş, havalanmış, özünü peyğəmbər elan etmişdi. Ziyalı şərəfini hər şeydən uca tutan bu görkəmli insanı bax beləcə sıradan çıxartmışdılar".

Baxın, bu bir Azərbaycan aydını sayılan adamın gəldiyi sonuc. Bu sonuca qarşı bizlərdə iki baxış yaranır: ya bu yazar özünü aşırı dərəcədə, Asif Atanın "anormallığını" görəcək qədər, ağıllı sayır, ya da adamın ağlının imkanları məhduddur. Bu qədər düşünə bilir. Hər iki hal geridir, gerilikdir. Nədən? Bu adam Asif Atanın özünü peyğəmbər saymasını anormallıq kimi qiymətləndirərkən fərqinə varmır ki, Asif Atanın onlarca davamçılarını da anormal saymış olur. Bu özü anormallıqdır. Ola bilərmi ki, bu adamların hamısı ruhi sorunlar yaşamış adamlar olsun. Yaxşı, Asif Ata rejimin basqısından "havalanıb" özünü

peyğəmbər adlandırdı. Bəs onun dalınca gedənlərin heç birimi onun “havalandığını” görmədi? Yəni Rasim Qaraca kimi ağıllı adam tapılmadımı, Qaracanın “anladığını” o da anlasın. Başqa bir məsələ, deyirsiniz Asif Ata rejimlə döyüşürdü. Axı niyə demirsiniz, o, rejimə qarşı nə ilə döyüşürdü?! Ədəbiyyat tənqidçiliyi ilə o boyda rejimə qarşı döyüşməkmi olardı?! Ədəbiyat tənqidçiliyi ilə ədəbiyatın çatışmazlıqları ilə döyüşə bilərdi, xalqları işğalda saxlayan ideologiya ilə yox ki. Ona görə bilməyiniz gərək, rejimlə döyüş müstəvisində Asif Atanı təkcə ədəbiyat alimi kimi tanıtmaq – onu danmaqdır. Daha geniş götürsək, yalan danışmaqdır. Çünkü bir ədəbiyat alimindən bunca qorxub onu antikomunist, antimarksist, antisosialist, pantürkist, klerikalist, faşist epitetləri ilə damğalamazdılar. Heç düşünə bildinizmi, sizin iddia elədiyiniz kimi olsaydı, yəni Asif Ata “ruhi sarsıntı keçirmiş”, “sıradan çıxarılmış” olsaydı, ona bu damğaları, dünyanın yarısına hökm edən bir rejim niyə vurmalı idi ki?! Əgər sıradan çıxarmışdısa, yenidən onu damğalayan rejimdəmi havalanmışdı?! Qəbul eləsəniz də, eləməsəniz də, Asif Ata alimlik səviyyəsini çoxdan aşıb, bu gerçək bir faktdır. Siz də, ya bu gerçək faktı deyin, ya da danışmayın. Onu dəyişib (təhrif edib) başqa cür göstərməkdə isə sayğının səmimi olmasını düşünmürəm.

Onu da deyim ki, Asif Ataya basqı 15 il deyil, öldüyü günə qədər davam edib. Sovet rejimi çökəndən sonra da başqa biçimdə basqılar həyata keçirilirdi. Baxın, Rasim Qaraca yazısında Asif Atanın tələbələri kimi vaxtilə Ocaqda olmuş, sonra Ocaqdan çıxmış adamların adını çəkir. Bunlar da alim Asif Atanın elmi tələbələri imiş. Hər halda Rasim Qaracanın yazdığından belə çıxır. Onlarla işimiz yox. Onlardan bəzilərinə, Ocaqdan getsələr də, bu gün də sayğım var. Məsələ ondadır, Rasim Qaraca bu gün Asif Atanın Ocağını sönməyə qoymayan, yolunu, amalını yaşadıb davam etdirən adamların varlığını gör-

məzdən gəlir. Asif Atanı elm müstəvisinə daşımaqla onu “havalanmaqdan xilas eləməyə” çalışır. Bu boyda düşüncəsizliyi görəndə isə “aydın” sözü də adamın gözündə ucuzlaşır. Belə düşüncələrin yaranmasının nədəni isə bəllidir, kosmopolit “yenilikçilər”in milli kimliyi dərindən öyrənib dərk eliyə bilməməsi. Sözsüz bunların hamısı aydın adının doğrulmamasının görsənişləridir. Rasim Qaracanın şüurunda “sıradan çıxmaq” sözü fərqli anlam daşıyırmış. Asif Ata tənqidçilikdən qırağa çıxıb İnam dünyabaxışı yaratdısa, bunu rejimə yenildiyindən eləyibmiş. Ancaq cənab Rasim Qaracaya bildirmək istəyirik: Asif Ata yenilmədi, sıradan çıxarılmadı, yüksəldi, kamilləşdi, özünü təsdiq elədi. Sıradan çıxdı, ancaq adilərin, bəsitlərin, karların, korların, satqınların sırasından çıxdı. Daha doğrusu, onlarla bir sırada durmadı. Bunu görmək üçün Asif Atanı oxuyub öyrənmək gərək idi. 40 il bundan öncəki yazılmış məktubu oxumaqla yetərlənmək olmazdı. Asif Ata necə yenildi ki, 40 ildir Ocağı, Amalı yaşayır, yayılır.

Milli dəyərlərimizə, tarixdəki zəngin keçmişimizə biganə olanlar Asif Atanın nə yaratdığını, hara gəlib çıxdığını görə, anlaya bilməzlər. Az da olsa, öz keçmişinə, milli kimliyinə sayğı duyanlar Asif Atanın İnam fəlsəfəsini araşdırıb öyrənməli idilər, öyrənməlidirlər. Bunun yerinə “ay aman, kişi gül kimi alim idi, kaş özünü uydurmayaydı” deyib xəcalət çəkmək, inciməyin, milli kimliyi tanımamaq, anlamamaq görsənişi yaradır. Sizlərin məntiqinə görə Babək də “havalanıb” özünü Şirvinə tay tuturdu, Nəsimi də “havalanıb” Fəzl Həqq” deyirdi. Bu məntiqlə Azərbaycanın bütün dəyərləri “havalanmaqdan” yaranıbmış. Ona görə bu gün cəsarətli, dönməz döyüşkən aydınlar yetişmir. Yetişməyən, yetkin düşünməyən adamlardan da nəsə ummaq özünü doğrultmaz. Bir şeyi də bilməyinizi istəyirəm, biz Asif Atanı bir öyrətmənimiz olaraq savunmuruq. Bunun nə Asif Ataya gərəyi var, nə də bizə. Biz onu gələcəyimizin özül

dəyəri olaraq görürük. Milli özünüqoruma sistemimizin quruluşu olaraq dərk edirik. Sizə elm hər şey kimi gəlir, bizə isə təkcə elm az gəlir. Ruhaniyyatsız xalqı elm qorumaq gücündə deyil. Xalqın qurulması da, qorunması da onun yaşamında mənəviyyat ölçüsünün doğru, düzgün olması ilə baş verir. Asif Ata xalqının mənəviyyat-ruhaniyyat prinsiplərini bəlirləyib bu quruculuğa Atalıq edir. Min ildir bizim mənəviyyatımıza ərəb dünyabaxışı atalıq edir. Ruhumuz da göz qabağında. Batıda isə mənəviyyatımıza atalıq edə biləcək nə sistem var, nə də elə bir sistem yaradacaq şəxsiyyət. Belə bir sistem, şəxsiyyət olsa belə, o bizim mənəviyyatımıza atalıq edə bilməz. Ata bizim öz içimizdən çıxmalı idi, çıxdı. Bu gün içimizdə "ağıllıların" davranışları isə bizi atasız qoymağa, yenidən min illər əsarətdə qalmağımıza yönəlir, yönləndirilir. Onu da deyim, Asif Atanın hədəfi başlanğıcdan Mənəviyyat Ocağı qalamaq idi. O özü deyirdi: "tənqid bizim üçün, amalımıza yürüdüyümüz yolda bir aracdır". Hələ 70-ci illərin ilk çağlarında o, düşünürdü, Ulusal Savaş sonucunda milli dövlət quracaq, özü yandaşları ilə hakimiyyətə gələcək. Milli strategiya, milli konsepsiya bəlirləyəcək. Ancaq təqiblər amansız şəkil alanda çevrəsində, demək olar, heç kim qalmadı. O zaman anladı ki, xalqının indiki durumu ilə, burax dövlət qurmağı da, yol getmək alınmır. Demək, toplumumuz onun diləklərinin gerçəkləşməsinə hazır deyil. İçdən dəyişilməli, böyüməli, qurulmalıdır. Bu isə siyasi mübarizələrlə olmaz. Ona görə dedi: "Düşündük, daşındıq, Ocaqlaşma yolu tutduq". Siz isə deyirsiniz, Asif Atanın davamçılarının yaratdığı Ocağa üzv olmamışam. İnciməyin, burada da özünü ağıllı, üstün göstərmək cəhdi var. Onu da bilin, Ocağı Asif Atanın davamçıları deyil, onun özü yaratdı. Davamçıları Onun yaratdıqlarını qoruyub yaşadırlar. Bilin, Azərbaycanda İnam Xalqı yaranacaq! Bunu siz də, biz də bütöv görməyəcəyik, ancaq gələcək soylarımız bütöv görəcək. Ona görə bütöv sözü işlədi-

rəm, Azərbaycanda bu gün də “İnam Xalqı” şüurunun daşıyıcıları var. Bu, təkcə Ocağın 3-5 üyəsindən oluşmayıb, Ocaqdan qıraqda da oluşmaqdadır...

## “Tənqidçi”nin Boyalı (Rəngli) baxışı

Bu günlərdə İradə Musayeva adlı ədəbiyatçının, diplom üzrə rütbəsini də gözə alsaq, ədəbiyat üzrə fəlsəfə doktorunun feysbukda bir statusunu oxudum: “Bizdə həmişə fəlsəfədən dərs deyən müəllimlə filosofu eyniləşdiriblər. Ədəbiyyatda da belə hallar olub. Məsələn, filosoflardan çox sitat gətirən adama axırda filosof-yazar, filosof-tənqidçi deyiblər. Məsələn, Asif Əfəndiyev...”

Ortalığa atılan anlamsız bir cümləylə özünün “papaq altında” bir kimliyinin olmasını qabartmaq, bunu göstəriyə çevirmək şöhrətsevərliyi, bizə görə yazıqlıq örnəyidir. Öncə bu xanımın bilgili, tutumlu olduğunu düşünərək canlı, üz-üzə polemikaya çağırdım. Adam sözü sağa-sola fırladandan sonra hansısa “yarpaq-xəzəl” bir saytda “Asif Əfəndiyev tənqidinə bir baxış” başlıqlı yazı yayımladı. Bu yazını oxuyandan sonra bir daha əmin oldum, bu xanımın diplomdan başqa ortaya qoyacağı bir şeyi yoxmuş. Onun yazısının altında qısaca düşüncəmi yazdım: “...Bəri başdan deyim, siz Asif Atanı nə oxumusunuz, nə də öyrənmisiniz. Bilmədiyiniz məsələ haqqında isə buraxın yazmağı, danışmağı belə uyğun görmürəm. SÖZÜ tanımaq diplom almaq qədər asan deyil. Bir çox insanlar SÖZƏ bağlı yolda yürüdüklərini sanırlar. Ancaq nəzəriyəçiliyin sıfır nöqtəsinin çevrəsində dolaşdıqlarının fərqinə varmazlar. Ona görə onların “sözü” İnsan varlığına bağlı əbədiyətin qapısını döyə bilməz. Başqa sözlə, Sözə sataşmaqla özünə diqqət ayırmaqdan uzağa gedə bilməz...”.

Bu yazdıqlarımı bir az anlatmağa çalışım. Asif Əfəndiyev Moskvada eyitim alarkən kitab evlərindən axşam saat 10-da çıxardı. Heç yerdə millətinin, vətəninin adına rast gəlməyəndə sarsıntılı düşüncələr içərisində axtarışlara baş vurub. Öyrənib, bilib, Azərbaycanın zəngin milli dəyərləri, dərin bəşəri kökləri var... Ancaq bunu necə isbatlamalı?! Sovet imperiyasının xalqları tam işğal eləməsindən, milli düşünərləri soyqırıma uğratmasından çox da böyük zaman keçməmişdi. Bakıya qayıdandan sonra, iki yol, istəklərini rüşeym halında dilinə gətirən kimi, Dövlət Təhlükəsizlik Komitəsinin basqıları altına düşüb. Hələ öyrəncilik illərini yenicə başa vuran, gənc bir insan üçün imperiyanın azman hədələri ilə üz-üzə gəlmək sadə bir proses deyildi. Ölümü gözə almaq idi. Üstəlik ata-ananın, görəvdə olan qohumların basqısı... O çağlarda nəinki istəklərini dilə gətirmək, Bakıda qalıb işləmək belə olumsuz idi. Çıxış yolu isə bir idi: ədəbi tənqidlə uğraşdığı görüntüsü yaratmaq, Şəri aldatmaq. Gizlində isə öz ideyalarını işləyib hazırlamaq. Asif Ata üçün tənqid böyük ideyalarını ortaya gətirmək yolunda bəhanə idi. O deyirdi: "tənqid bizim ayağımızdır, başımız deyil". İndi bu xanım Asif Atanın ayağı ilə yox, ayağının tozu ilə, yəni axtarışları üçün lokal güzəştləri ilə bağlı ortaya baxış sərgiləməyə çalışmışdır. Soruşuram, bu ortamda İradə Musayeva sağlam bir millətçi olub diplom ala bilərdimi?! Ya da belə soruşum: doğrudanmı İradə Musayeva Azərbaycanın Milli Elmlər Akademiyasından milli-bəşəri düşüncələrinə, ya da ədəbiyat tənqidçiliyinin insan-vətən-dünya konsepsiyasına bağlı dərin fəlsəfi düşüncələrinə görə diplom almışdır?! Öz üzərində işləməyən, uğraşmaq istədiyi (ya da toxunmaq istədiyi) obyekti, predmeti dərindən öyrənməyən bir adam necə sağlam mühakimələr yürüdə bilər?! Heç düşündünüzmü, nədən sosrealizmdən lokal fraqmentlər yazan bir adam az sonra antimarksist, antikommunist, antisosialist, pantürkist, klerikalist, faşist epitetləriylə damğala-

nıb təqib olunmuşdur?! İşdən çıxarılmış, ailəsi dağıdılmış, üst-üstə 21 il çapına yasaq qoyulmuş bir adamda nə görmüşdülər axı?! Ədəbi tənqidi "bacarmayan", "filosof olmayan" bir adamdan bunca qorxmağın anlamı nə idi görəsən?!

Baxın, İradə Musayeva nə yazır: "...Zaman, reallıq və həqiqət tənqidçi Asif Əfəndiyevin hökmünün üstündən çalın-çarpaz xətt çəkdi. Deməli, Asif Əfəndiyevə peyğəmbər uzaqgörənliyini şamil etmək doğru deyil. Bəs Asif Əfəndiyev filosofdurmu? İstənilən bir bədii mətni, oradakı obrazları təhlil edərkən filosofların adını çəkmək, onlardan sitatlar gətirmək və məlum fəlsəfi qanunlarla yazıçı və şairin ideya-estetik görüşlərini mühakimə etmək, bəzən doğru, bəzən yanlış hökmlər çıxarmaq filosofluqdurmu? Ədəbiyyatşünas-tənqidçi olmaq məsuliyyətini üzərinə götürən hər kəs bəşər fəlsəfi görüşlərindən xəbərdar olmalı, ordakı anlayış və konsepsiyaların məğzini bilməlidir".

Soruşuram, hansı zaman, hansı reallıq, hansı həqiqət sizin gözünüzü açmış da, aydınlıq gətirin. İnsan varlığını oyuna çevirən, kapitalistləşən, dinçiləşən, ateistləşən zamanmı sizə dərin "həqiqətlər" öyrətdi?! İnsanın taleyini, xalqların ləyaqətini girova çevirən zaman, reallıq sosializmlə kapitalizmin kombinasiyasından oluşub. Siz də bu "Zaman"ın yavrularından biri kimi düşünürsünüz, yaşayırsınız. Hanı sizin amansız gedişlərə qarşı dirəniş göstərən ədəbiyatşünaslığınızın, tənqidçiliyinizin yaratdığı fəlsəfi iradə, əzm, döyüşkənlik?! Baxın, nəzəriyyə əzbərçiliyindən irəli gələn uzun-uzadı iki cümləniz bir-birini necə asanlıqla inkar edir. Bir cümlənizdə deyirsiniz: "...Bədii mətni, ordakı obrazları təhlil edərkən filosofların adını çəkmək, onlardan sitat gətirmək filosofluqdurmu?" O biri cümlənizdə yazırsınız: "ədəbiyatşünas-tənqidçi olmaq məsuliyyətini üzərinə götürən hər kəs bəşər fəlsəfi görüşlərindən xəbərdar olmalıdır". Sayın ədəbiyatşünas, heç olmasa öz yazdığınızı təkrar oxuyun, düşünün. Həm "tənqidçilik edəndə başqa filosofların baxışına

söykənməməli” deyirsiniz, həm də “tənqidçi olanda onların baxışını bilmək gərəkdir” deyirsiniz. Bilməyiniz gərək, bəşər fəlsəfi görüşlərini yaradan ayrı-ayrı filosoflardır. Doğruçu filosof özündən öncəkilərlə tanış olur, onlardan bəhrələnir də. Ancaq özünün düşüncələrini bəlirləyən baxışlarını da ortaya qoyur. Bunu dartışmağa gərək yox. Söhbət Asif Atadan gedərkən isə, araşdırın onun fəlsəfəsini, görün orada hansısa filosofdan (düşüncəsini gücləndirmək istəyiylə) hansısa alıntıya rast gələcəksinizmi? Bununla belə, Asif Ata bəşər fəlsəfəsini araşdırmış, onlardan bəhrələnmişdir də. Bunu etməmək olumsuzdur. Bunu da dartışmağa gərək yox.

Bilirsinizmi Asif Ata niyə təqib olunurdu? 70-80-ci illərdə onun “Mütləqə İnam Beşliyi” əldən-ələ gəzir, üzü artırılıb yayılırdı. Azərbaycanda bağımsız, qüdrəyli düşüncə formalaşırdı. Bu düşüncələrin nədən oluşduğunu bilmək istəyirsinizsə, bununla bağlı həm bu, həm də başqa ədəbiyatları əldə eləməyə sizə kömək edə bilərik. Yetər, siz içdənlik göstərib öyrənmək istəyəsiniz. Sizə Asif Atanın fəlsəfi düşüncələrini (Fəlsəfəsini) araşdıran yazılar da suna bilərik. Ancaq “alabaşnəzərlilik” konsepsiyasına meyil etməyi heç kimə məsləhət görmürük.

## Sənət Tərəqqi Yoludur

***“Sənət araçılığıyla biz dünyanı, özümüzü kəşf edirik”***
***(Asif Ata).***

Sənətin gücü – ümumiləşdirmələr yolu ilə həyatın mənasına, insanlığın dərin qatlarına girə bilməsindədir (nüfuz etməsindədir). Ancaq ümumiləşdirmələr aparmaq üçün toplumsal həyatın qaralları ilə insani xüsusiyyətlər arasındakı bağlılığı dərk etmək gərəkdir. Eləcə də insanın mənəvi varlığına mədəni etkilərin yaxşı, ya pis çalarları doğru qiymətləndirilməlidir. Bu isə

sənətkardan yüksək yetənək (istedad), peşəkarlıq, cəsarət tələb edir...

Hər bir konkret olayın arxasındakı genel prinsipləri qavramadan sənətin toplumsal nizamdakı rolunu təmin eləmək olası deyil. Xəyal dünyası ilə real dünya arasında bağlılıq yarada bilməyən sənət etki gücünü itirir, bu gündən sabaha yol başlaya bilmir. Toplumsal özülü olmayan təxəyyül məna yükü ilə zənginləşə bilməz, ya da tərsinə. Belə təxəyyül tərəqqiyə örnək olaraq nə verə bilər ki?! Xəyallar, diləklər dünyasından real dünya üçün gəlişmə zəmini yaratmayan sənətin yönü cəfəngiyyata bərabərdir. Gələnəksəl olaraq, sənət iki cəhətdən cəfəngiyyatlaşa bilir. Birincisi, yuxarıda dediyimiz kimi, gerçəklikdə (real dünyada) özülü olmayan mücərrəd xəyal olayları uyduranda (gələnəksəl olaraq belə faktlar ən çox dini baxışlarla bağlı olur). Məsələn, İsa Muğannanın "saf ağ" dünyagörüşündən qaynaqlanan "kosmik tayfa" obrazları. Bu obrazların gerçək dünyada heç bir özülü, söykənəcəyi yoxdur.

İkincisi, sənət, pozuntuya uğramış toplumsal etikanın insani məcraya düşməsinə yardımçı olmaq yerinə, bu pozuntuları az qala həyat normativləri kimi sadalamaqla yetərlənəndə. Heç bir yeni düşüncə, yeni hal yaranmır. Burada "sənət sənət üçündür" deyimi özünü doğruldur (buna bilimdə dekadentlik – ümid düşkünlüyü deyirlər). Bir sözlə, toplumsal həyatın gəlişməsinə başlanğıc verməyən, ya da əngəl olan sənət örnəkləri bədii cəhətdən alınmış olsa da, idraki baxımdan cəgəngiyyata çevrilirlər. Belə olanda genel sənətin bir yönü olan teatr, kino faktı da zədələnmiş olur. Çünkü, bəlli olduğu kimi, sənətin bu iki sahəsi bədii ədəbiyyata bağlı şəkildə gəlişir. Gəlişdikcə mədəni həyatımıza etkisi də böyüyür. Ancaq bu gün biz bu etkinin varlığından sinədolu danışa bilmirik. Həm bədii ədəbiyyatın milli şüura etki göstərən qonusu yoxdur, həm də həyatımızın başqa sahələri kimi, bu sahə də dəllallar dünyasının ümidinə buraxılıb.

Çağdaş sənət biznes aracına çevrildiyi üçün həyatın kölgəsindən başqa bir şey deyil. Konkret olaraq, bugünkü teatr yüngül əyləncələr göstərməkdən, təlxəklik simasızlığı yaratmaqdan uzağa getmir. Söz yox, sənət dünyasının yetənəkli insanları yox deyil. Ancaq onların da işi genel həyat tıxacına düşüb. Genel olaraq, sənəti həyatının üzvi hissəsi kimi anlamayanların çalışması, toplumsal düşüncəyə etki göstərən, sənət yaratmaqdan deyil, sənəti araca çevirib pul qazanmaqdan oluşur. Sənət də məişətin ödəncisinə (təminatçısına) çevrilirsə, onda tərəqqidən danışmaq yersizdir.

Doğrudur, dünya durmadan dəyişir. Dəyişdikcə də yeni tələblər doğurur. Ancaq bu tələblər dəyişikliyi müsbət məcraya yönəltmək anlamı daşımalıdır. Tərsinə olanda, sənət bu dəyişilmənin axarına yuvarlanmaqla özünü kanıtlaya (təsdiq edə) bilməz. Elə düşünürük, dünyanın dəyişilməsində sənətin qatqısı – toplumsal münasibətlərin insani səviyyəyə qalxmasına etkisi ilə özünü göstərməlidir. Yəni sənət uğurlu nizamın yaranmasında öz etkisini ortaya qoymalıdır.

Yaşadığımız hər bir dövr bəşər tarixinin bəlli bir kəsiyidir. Biz tarixin bu kəsiyində necə yaşayırıq, necə davranırıq, özümüzdən sonrakı soylara hansı mədəni, mənəvi irsləri ötürürük – bunların hər birinə görə sorumluluq daşıyırıq. Ona görə istər ədəbiyyatın, istər teatrın, kinonun səviyyəsi yaradıcı insanların hər birini düşündürməli, bu sahələrin getdikcə cansıxıcı olaya çevrilib mənasızlaşması rahatsız etməlidir. Dünya ilə insanın bağlılığı dərk olunmur, həyat, toplumsal münasibətlər getdikcə pozuntuya uğrayır. Belə bir vaxtda sənət haray çəkməli, döyüşkən ədəbiyyat yetişməli idi. Ancaq ya əyləncə ədəbiyyatı yaranır, ya da sadəcə təsvir ədəbiyyatı. Ədəbiyyatın yetənəkli soyu çoxluq baxımından bu xəttə yuvarlandı. Az sayda olanlar isə üzə çıxa bilmədilər. Söz yox, burada dövlətin üzərinə çox böyük sorumluluq düşür. Pozuntuları qamçılayan ssenarilər işlən-

məli, bunlar dəstəklənməli idi. Teatr, kino sənəti də bu ssenarilər əsasında toplumsal şüurun gəlişməsinə etki göstərməli idi. Ancaq nə yazıqlar, nə belə ssenarilər ortaya gəlir, nə də yetənəklərini bu işə yönəltməyə ürək edənlər. Gənc soyun, özünü ifadə eləmək istəyən, aktyorları da əlacsızlıqdan səhnədə qadın paltarı geyməklə məişət "qəhrəmanları"nın obrazlarını yaradırlar. Deməliyik, məişət davranışlarını, məişət əhvallarını ən yüksək səviyyədə ifadə eləmək belə, milli mədəniyyətə heç bir örnək verə bilməz. Eləcə də kino sənətinin obrazları – səhnələşən məişət münasibətlərinin ifadəsindən, ya da kriminal davranışları göstərməkdən yüksəyə qalxa bilmir. İndi yaşamca önəmi olan prinsipial kinolar yaranmır. Düşüncələri kütləşdirən, dünyanın yüksək mənasını dərk etməyin yollarını tamaşaçının üzünə bağlayan teleseriallar bolluğu yaranır. Serialların aşıladığı psixologiya bir şey aşılayır, insan heç vaxt düzəlməyəcək, həyat heç vaxt gözəlləşməyəcək. Bir sözlə, insani gözəlliklərin yaşama qaytarılmasına bəslənilən ümidlər boşluğa düşür...

Toplum indiki quruluşda necə yaşasın, necə davransın – bu yöndən eyitimləndirilmir. Xalqın mədəni, mənəvi dünyası anarxiyaya çevrilib. Belə bir zamanda ədəbiyyat döyüşməli, iş aparmalıdır. Ancaq ədəbi aləm bəsit bir qəlibə çevrilib, qəlib ədəbiyyatı yazılır. Bu isə, belə götürsək, sənət dünyasına qazılan sonevdir (qəbirdir). Bu gedişdə "Yazıçılar Birliyi" sənət dünyasının sonevliyi (qəbirstanlığı) rolunu oynayır. Hakim rejim də sənət dünyasını göz altında (nəzarətdə) saxlamaq üçün bu "sonevliyi" qoruyur. Ödüllənmələrə, titullara göz dikən neçə-neçə yetənəklilər işığa çevrilmədən qaranlığa gömülür. Xalqın bəxti gündən-günə qaralır. Sənəti ölən xalq dünyasız xalqdır. Dünyasızlıq aqibəti hazırlanıb insana.

Döyüşkən ədəbiyyat yaranmasa, toplumsal yaşamda dönüş də yaranmayacaq. Dönüşü başlamaq üçün sənət dirilməlidir!

## Xalq Ruhunun İncilərindən

Dədə Qorqudlu dünyamızı xatirata çevirdik. Tarixləşdi müdrikliyimiz. İndi Yalıncıqlar dünyasıdır. Hər yerdə satqınlıq, hər yerdə dönüklük. Milli dəyərlərimiz satılır, xalq ruhuna qarış dönük çıxılır. Mədəniyyət, ailə, qeyrət, ədalət, vicdan pulçuluğun, zorun boyunduruğundadır (tabeliyindədir). Gözünü açıb həyata baxanda hər şey qara boyada görünür. Ümid sarsılır sanki. Başını qaldırıb göylərə baxanda allahsızlıq şığıyır adamın baxışlarına. Adam könlünü köksünə sıxıb uzaqlara getmək istəyir. Ancaq hardadır o uzaqlıq? Axı adamı ümid harda gözləyir?! Hardadır haqq üzü, Tanrı sözü?!

Biz Ocağıq – öz dünyamız var. Durmadan öz dünyamıza dönürük, öz dünyamızı yaşadırıq. Ancaq dərviş deyilik. Gerçəklikdən qaçmırıq. Gerçək həyat var, xalq var, dünya var. Gerçəkliyi qaranlığın ixtiyarınamı buraxmaq?! Yox! Gerçəklikdə ümid işığı yandırmaq! Harda da arı, duru nə varsa tapmaq, tanımaq, sunmaq.

Budur, Eloğlum Həmid Ormanlının bir məktubunu oxuyuram: “Qardaş, sənə bir aşıq disqi göndərirəm, xahiş edirəm, vaxt tapıb onu mütləq dinlə!” Dinlədim. İncə Dərəsindən Nazim Əsədoğlu adlı aşıq. Doğrusu, birinci kərədir belə bir aşıq dinləyirəm. Ancaq səs məni xalq ruhuna çağırdı. Səsdəki kövrək lirika, sanki poeziya çələngi hörürdü ruhuma. Ötən ay İncə Dərəsində keçirilmiş saz-söz şölənindən çəkilmiş fotolar səsin uyumu ilə gözlərimin önündən ötüb keçirdi. “Dədə”sizləşən dünyamızda ozan-saz ruhu yaşayır, yaşadılırdı. Qədim Oğuz Yurdu İncə Dərəsinin doğa lövhələrini izlədikcə Tanrının səsini dinləyirdim. Aşıq Nazim Əsədoğlunun sinəsinə sıxdığı sazın qutsal harayları ürəyimə Tanrı səsi kimi çatırdı. Bu yanda da fotoların dalğa-dalğa yenilənməsində Doğa qonaqlarının Akif

Səmədin sonevi başında toplanması. Sonevlikdə Akif bəyin büstünə baxa-baxa görünməzlikdən (qeybdən) onun şeir dolu səsini dinləyirdim...

Akif bəyi sağlığında bircə yol görmüşdüm. Səsi də kədərli idi, üzü də, baxışı da. Bu kədər ona sanbal verirdi. Sayğı bəslədiyim aydın idi. Türkün Tanrı deyən oğullarından biri idi Akif Səməd. İndi onu dinlədikcə Tanrının doğmasını xatırlayırdım.

Dünyanın min bir oyunlarından, bir gün də olsa, ayrılıb dağlara dost olmaq, Tanrı səsi olan sazı dinləmək xalq ruhuna qovuşmaqdır. Gedişə boyun əyməmək üçün Doğanın arılığına üz tutmaq, xalq ruhu ilə sevinmək nə qədər önəmlidir...

Akif Səmədin şeirləri də Dübeytiyə çevrilmişdi – Nazim Əsədoğlunun sinəsində çağlayan sazın harayına qarışmışdı.

"Tanrı Türkün Babasıdır" deyir Asif Ata. "Baba"sını çağırırdı şeir-saz diliylə –Akif Səmədlə Nazim Əsədoğlu...

## "Sevda" ulusa sevgi örnəyidir

Milli kimliyimizə qovuşmağın biçimləri çox, ölçüsü (meyarı) isə birdir. Biçim yaşam davranışlarıdır, ölçü isə Anlama bağlıdır. Ona görə Xalqın yaşam qurallarında biçim dəyişilə bilər, ölçü isə dəyişməməlidir. Biçimin ölçü üzərində dəyişməsi gəlişmə deməkdir. Belə dəyişmə qaçılmazdır, gərəklidir. (Yəni dəyər konservativ amil deyil, yerində saya bilməz). Ölçünün dəyişməsi ilə biçimin dəyişməsi isə yanlışdır, xatalıdır. Çünkü ölçü itəndə özünəxaslıq itir, özgələşmə başlayır. Yəni milli-insani kimlik unudulur. Milli kimliyi olmayanın Vətəni də dağılır. Bu gün biz, millət olaraq, bu aqibəti yaşayırıq. Yaşam ölçümüz dəyişib – kimliyimiz, sistem olaraq, bəlli deyil, Vətənimiz də dağılıb (dağıdılıb). Ona görə millətin aydın düşüncəli insanlarından böyük çabalar tələb olunur. Onlardan Milli Ölçüyə üz

tutmaq, millətin özünəxas yaşam biçimlərini bərpa eləməyə qulluq göstərmək umulur.

Bu məsələ çox dərin, geniş qonudur. Biz də bu qonunu genişləndirmədən konkret istəyimizi vurğulamağa çalışacağıq. Haqqında söz gedən qonu – Azərbaycanın aydın düşüncəli, ünlü rəssamı Vaqif Ucatayın "Sevda" əsəridir. Əsər – xalqımızın klassik toy gələnəyinin təsvirindən oluşub. Burada toy gələnəyimizin bəzi çalarları işlənilməsə də, bütövlükdə bir çox incəliklərə aydınlıq gətirilib. Doğrudur, təsvir olunan gələnək Azərbaycanın bir bölgəsinin (Şabranın) həyata keçirdiyi toy biçimi üzərində qurulub. Rəssam doğulub-böyüdüyü bölgənin toy gələnəyini bütün Azərbaycan olayı kimi obrazlaşdırsa da, yanılmayıb. Çünkü başqa bölgələrdə mövcud olmuş toy gələnəklərindən, təsvir olunan bu gələnəyin özəl ayrıntıları (fərqləri) yoxdur. Ya da üzdədir, anlamda deyil. Bu da onunla bağlıdır, rəssam bu əsəri işləyərkən, başqa bölgələrin toy gələnəkləri ilə ilgilənmiş, ümumiləşdirmələr aparmışdır.

Əsərdə başlıca məsələ isə bu deyilənlərdən daha dərindədir. Yəni millətin toy gələnəyi bu gün gərəkdiyindən daha çox çağdaşlaşıb. Ancaq bu çağdaşlaşma gəlişmə deyil, özgələşmədir. Çünkü milli köklərə bağlı olaraq yenilənməyib, qədimliyə, özünəxaslığa zidd olaraq dəyişilib. Rəssam da, illərlə üzərində çalışdığı bu əsəri ilə, soydaşlarının baxışını milli köklərə yönəltməyə çalışıb.

Ailə qurmaq ciddi olaydır. Ailə – xalqın həm fiziki, həm də mənəvi qurucusudur. Xalq ailədən başlayır, ailə ilə davam edir. Ailə xalqın həm etnik varlığını yaşadır, həm də bəşəri keyfiyyətlərini. Ona görə ailə qurmaq olduqca sorumlu məsələdir. Ailə iki gəncin varlığında formalaşsa da, təkcə iki gəncin işi deyil, bütövlükdə xalqın işidir. El yığılıb iki gəncə ailə qurur, onları xalqın milli dəyər ölçüsüylə bir araya gətirir, uğurlama verir. Onlara bu dəyərləri yaşatmağın həm gərəkliyini, həm də

yollarını öyrədir. Ailəni quranlar dünyaya gətirdikləri övlada xalqın dəyərlərini, gələnəklərini miras olaraq ötürür. Bu açıdan yanaşanda, rəssamın istəyinin nə qədər sağlam olduğunu anlamaq çətin deyil.

Əsərdə təkcə gələnəklərin biçimi təsvir edilməyib, xalqın varlığında yaşarı rol oynayan başqa dəyərlər, şəxsiyyətlər də yer tutub. Bu da onu göstərir, "Sevda" əsəri biçim qəlibindən qırağa çıxıb daha böyük anlam ölçüsünə bağlanır. Əsərdə Mədəniyyətimizin, dövlətçilik tariximizin qurucuları, daha böyük anlamda ruhsal kimliyimizin ölçüsünü yaradan şəxsiyyətlərimiz özəl biçimdə təsvir ediliblər. Dədə Qorquddan Asif Ataya qədər uzanan ruhsallıq salnaməmiz Dədə Qorqudun işıq yayan obrazı kimi qarşımızda canlanır. Eləcə də, insançılıq yönü yaradan Nəsimi, ruhsal özgürlüyümüzün simgəsi olan Babək, siyasal bağımsızlığımızın örnəyi Şah İsmayıl, dövlətçiliyimizə yeni yön verən M.Ə.Rəsulzadə, musiqi mədəniyyətimizin böyük öndəri Ü.Hacıbəyli, millli eyitimçilik (marifçilik) gələnəyimizin aparıcılarından biri H.Zərdabi əsərə özəl anlam verən obrazlardır. Bu şəxsiyyətlərimizin ailə qonusunda (toy gələnəyində) yer tutmaları əsərin dərinliyindən soraq verir. Onların göydə təsvir olunmasının da özəl anlamı var – xalqın yaşamına etki göstərən dəyərlər Göy olayı sayılırlar. Göyləşən olay isə Qalıcı (əbədi) olur. Əslində Qalıcı olanları yaşadanlar da ölməzlik anlamına qovuşurlar.

Bizə sunulan "Sevda" əsəri, Vaqif bəy Ucatayın milli ləyaqət göstəricisi olmaqla yanaşı, həm də özünün qalıcılıq faktıdır. Dəyərli aydınımıza "gələcəkli işin qutlu olsun!" deyirik.

# DÖRDÜNCÜ BÖLÜM

## Xalqının durumundan əzab çəkən bağımsızlığımız

İllər öncə "Bağımsızlığından əziyyət çəkən xalq" yazısı yazmışdım. Bağımsız elan olunduq, ancaq sevinə bilmədik. Çünkü həyat, məişət, quruluş, nizam, milli yön, heç biri yerində olmadı. Üstəlik dışasılılıq bir neçə yönə bağlandı. Sanki bağımsız olmağımıza görə kimlərəsə borclu qaldıq, başqa sözlə, Uluslararası güclərə "vergi" verməyə başladıq. Ölkənin enerji olanaqları su qiymətinə satışa qoyuldu. "Suyun qiyməti"ni isə iç talançılarımız mənimsədi. Suveren dövlətin asılı iqtisadiyyatı yarandı. Bununla da xalqın həyatı asılılığa bağlandı. Asılılığa bağlanmalarımız qələbə kimi bayram olundu ("əsrin müqaviləsi"ni ən böyük uğur kimi bayrama çevirməyi yada salmaq yetər). Asılı iqtisadiyyatın üzərində taktik diplomatiya quruldu. Böyük (böyük olanaqları) olduğumuz halda, cırtdanlara seçilmiş aqibəti yaşadıq. Milli strategiyası olmayan bağımsız dövlət – bununla xalq hara qədər gəlişə bilər ki?! Milli strategiya olsaydı, "Balanslaşdırma siyasəti"nin bugünkü sonucu gözə alınar, fəlakətlər qabaqlanardı. Hakimiyyəti qoruyan taktiki gedişlər bütövlükdə bağımsızlığı, xalqın gələcəyini qorxu altında qoyubdur. Hər kəsə içimizdə at oynatmaq olanağı verildi, təki hakimiyyətə toxunmasınlar. Batı bizim xalqımızı, özgürlük, demokratik hüquqlar qışqırda-qışqırda dağınıqlığa sürüdü; "mədəni bağlantılar, dostluq bağlantıları, bilimsəl konfranslar adı altında İran toplumumuzun bəlli kəsimini mollaların ixtiyarına bağladı; Rusiya açıq şəkildə xalqımızı vətənsizləşdirdi. Bir xalq olaraq, zorakılığın hər bir üslubuna uğradıq. İçəridə güvəncimiz qalmadığına görə, qruplar şəklində dışarıda güvənc qaynaqları axtarmağımız, bağımsızlığımızı qorxularla üz-üzə gətirib. Hakimiyyətin yadlığı, yağılığı xalqı elə acınacaqlı, dağınıq hala salıb, indi özü çaşbaş durumdadır. Hər yandan basqı görür, hədələnir. Rusiyanın ölkəmizdə çevriliş hədələri onun imperiyaçılıq niyyətlərinin görsənişidir, bu, üzdə açıq görünür. Ancaq Rusiyanın bu hədələri Azərbaycanın bağımsız varlıq ol-

masından qıcıqlanması ilə sınırlanmır. Həm də, Batının bölgəni ələ keçirməsindən yana keçirdiyi rahatsızlığın ifadəsidir. Ancaq Batı üzdə özgürlük carçısı kimi görünür. Halbuki ATƏT-in Minsk Qrupunun bölgəni bölüşdürmək, mənimsəmək üçün yaradılmış bir qurum olduğu, ötən illərin əməllərində, siyasal kanıtını çoxdan tapıbdır. Bizim üçün Batı Rusiyadan az qorxulu deyil. Baxın, Misirdə, İraqda, başqa ərəb ölkələrində bu çağa kimi diktatorların arxasında duran batı deyildimi?! Sonradan, vətəndaş savaşları ilə, onları devirən yenə Batı deyildimi?! Burada bizim el məsəli yerinə düşür:-"ilanın ağına da, qarasına da...". Onların sadəcə görsənişdə fərqləri var – Rusiya həmişə açıq zor kimi görsənib, Batı isə yalançı özgürlük carçısı kimi. Hər ikisinin bizə (bütövlükdə Türk Dünyasına) münasibəti qorxuludur. Baxın, Fransanın, İngiltərənin, ABŞ-ın zaman-zaman tutduqları mövqeyə. Deyirlər Rusiyanın addımları, bəyanatları dünyaya açıq meydan oxumaqdır. Bəyəm Batı dünyaya azan oxuyur?! Batı dünyaya meydan oxumur, dünyanı meydansız qoyur.

Rusiya hər gün erməni silahlandırır, özü də Minsk Qrupunun aparıcılarından biridir. Bəs o biri aparıcılar neyləyirlər?! – Deyirlər, Azərbaycan barış variantları haqqında düşünməlidir. Yəni ermənin silahlandırılmasına illərlə göz yummaq, Azərbaycanı isə "barışa" çağırmaq – Qarabağı, gerçək olaraq, Azərbaycansızlaşdırmaq deməkdir. Söz yox, Azərbaycan da silahlanıb, ordusunu modernləşdirməyə meyil edib. Ancaq bir var dövlətçiliyi qorumaq, bir də var zəbtçiliyi qorumaq. Burada Azərbaycana qarşı erməni zəbtçiliyi qorunur. Rusiya Azərbaycana SSRİ-nin gözüylə baxır, onun bağımsızlığı ilə barışa bilmir. Nə Rusiyanın, nə də Batının Azərbaycana qarşı münasibəti onun hakimiyyətinə qarşı münasibəti deyil, Azərbaycan dövlətinə, dövlətçiliyinə qarşı münasibətdir. Bütün bu deyilənlərin fonunda Azərbaycanın siyasal müxalifəti, nə yazıqlar, cılız istəklərlə uğraşır. İllərlə Batıya yan alan müxalifət bir şeyi ciddi araşdırmır. Batı, SSRİ-nin dayaqlarını yıxmaq üçün, 90-cı illərdə bəlli qüvvələri millətçilik bayrağı altında ayağa qaldırmışdı.

Sonrakı aşamada milli şüarlarla hakimiyyətə gələn qüvvələr Batıya gərək olmayacaqdı. Həmin qüvvələr Batı üçün "birdəfəlik" (odnarazovıy) qüvvə olduqlarını dərk eləmədilər, millətçilikdən əl çəkib Batının demokratiyası uğrunda döyüşə başladılar. Nə yazıqlar, Milli strategiya hazırlayıb Birlik yaratmaq haqqında düşünmədilər. Millilik çağıran (yaradan yox) qüvvələr Batının onları biryolluq qıraqda saxlayacaqlarını dərk etsəydilər, Azərbaycan da indiki duruma düşməzdi.

Bu gün Azərbaycan Qarabağla bağlı heç barış yolu da tələb edə bilməyəcək. Birincisi, Azərbaycan üçün barış adlanan məntiq yoxdur, savaşla əldən gedən torpaq barış yolu ilə necə qayıda bilər?! Barış Qarabağın ya hamısını, ya da ən yaxşı halda, bir parçasını vermək deməkdir. İkincisi, Rusiya onsuz da hər şeyə yeni adlar qoyur, bəhanələr axtarır. Azərbaycan iqtidarı Balanslaşdırma oyunu oynayanda Qarabağ uğrunda savaşsaydı, daha az bəhanə verərdi. İndi bizimkilərin, Qarabağla bağlı, "lazım gələrsə" kimi populist çıxışları da Rusiya üçün bəhanədir. İqtidar başqa cür siyasi alverlər haqqında düşünəcək (Rusiyanı sakitləşdirmək üçün, onun kadrı, Ramiz Meydiyevə yeni olanaqlar da yarada bilər, bunun əlamətləri görünür də). Ancaq Azərbaycan haqqında düşünməyəcək, düşünə bilməyəcək. Ümid isə satılmayan, sağlam milli bireylərin ortaya çıxmasına qalıb.

## Zorakı hakimiyyətin bayram zorakılığı

Bu gün xalqımız Quruluşdan Quruluşa (Sosializmdən Kapitalizmə) keçməsinin çətinliklərini, belə desək, fəlakətlərini yaşamaqdadır. Söz yox, fəlakət Quruluşun mahiyyətindədir. Üstəlik dövlətimizin başında olan hakimiyyət ötən illər içində bu fəlakəti daha da genişləndirmişdir. Hakimiyyətin yadlığı, özbaşınalığı Quruluşun mahiyyətindən gələn fəlakətlərlə mütləq birlik təşkil edir. Bu da özünü xalqın həyatında bütün çılpaqlığı ilə göstərir. Ölkənin gəlir olanaqları üzə çıxdıqca aclıq, səfalət

daha da "çiçəklənir". Di gəl, xalqın gözünə üfürmək üçün kül də yetərincədir. Ölkə başdan-başa parklar, qazon örtüklü yaşıllıqlar, körpülər, heykəllər bolluğuna düşüb. Ancaq eyitim, sağlamlıq, kənd təsərrüfatı, məhkəmə-hüquq sistemi i.a. bərbad durumdadır. İstəyimiz hər gün basının sadaladığı sorunları yenidən sadalamaq deyil. Sadəcə insanlarımızın baxışını dövlət bağımsızlığımızı hədələyən qorxulu gedişləri dərk etməyin gərəkliyinə yönəltmək istəyirik.

Gözə külüfürmə əməlinin bir çaları da il içində bayram günlərinin aşırı dərəcədə çox olmasında özünü göstərir. Hər kəs anlaya bilər, bayram günlərinin çoxluğu siyasi görsənişdir. Guya toplum o qədər yaxşı yaşayır, həyatından razıdır, az qala hər ay iki yol bayram günü keçirir. Ac insanlara bayram elətdirmək zorakılıqdır, əxlaqa uyğun olmayan gedişdir. Bir yandan işsizlik, bir yandan işləyənlərə az əmək haqqının verilməsi, bu biri yandan da zorlama bayramlarla işsizlik yaratmaq, başqa sözlə, iş günlərinin sayını azaltmaq. İç siyasət deyilən eybəcərliyin bundan betəri yoxdur.

İndi qarşıdan Novruz (Ergenekon) bayramı gəlir (bəlkə də bunun doğru adı Xızır bayramıdır). İl içində keçirilən bayramlar arasında, daşıdığı məzmuna görə, xalqımızın ruhuna ən yaxını, doğma olanı Novruz bayramıdır. Ancaq nə yazıqlar, bu bayram da siyasiləşdirilib, "kül"ün içinə qatılıb. Hələ sovetlər dağılan arada, ruhumuza doğma olan, bu bayramın məzmunu xalqın şüuruna yeriməsin deyə, onu inhisara götürmək yolları axtarılırdı. Öncə istədilər, Novruz bayramına dini (İslam) don geydirib, hakimiyyətin buyruğunda çalışan "Qafqaz Müsəlmanları İdarəsi"nin (QMİ) inhisarına keçirsinlər. Bu yöndə bir ara söhbətlər, təbliğatlar da aparılırdı. Ancaq sonradan deyəsən başa düşdülər, bu, İslamın zərərinə olacaq. Çünkü Novruz bayramı Qədim Türklərin panteizm dünyabaxışından yaranıb, Tanrıçılıq inamına dayanır. İslamın formal monoteistliyi ilə panteizmi ortaqlaşdırmaq, kuşkusuz (şübhəsiz), İslam dininin sonrakı taleyində mürəkkəbliklər ortaya çıxaracaqdı. Ona görə məcbur olub dedilər, bu, dinə bağlı deyil, milli bayramdır. Bəlkə

burada İranın da etkisi oldu – dinin içinə türk panteizminin girməsini önləmək baxımından. Ancaq bununla belə, Novruzu bəlli çalarlarıyla dinə bağlı saxlamağa tərpənişlər oldu. Türk ruhuna yamaq olmaq, ya da türk ruhunu yamaq etmək zaman-zaman milli şüurun aşılanmasına öz etkisini göstərmişdir. Axır, son dövrlər türk ruhuna, başqa sözlə, Novruzluğa qarşı daha bir zərbə endirdilər. Onu uluslararası bayram elan elədilər. Bizimkilər də bunu hakimiyyətin dış siyasətindəki uğuru kimi sundular. Doğrusunu götürəndə isə, Milli bir Bayramı, dəyəri uluslararasılaşdırmaq onu dəyişməkdir, onun milli şüura etki gücünü azaltmaqdır. Baxmayaraq, Novruzu ən çox türk xalqları keçirir, onu uluslararasılaşdırmaq türk birliyinə qarşı düşünülmüş addımdır. Türk etnosunun bütöv etnos olmaması düşüncəsi yaradılır. Beləcə, bütün dəyərlərimiz ya başqa olayların kölgəsinə salınır, ya dəyişdirilir, ya da sıradan çıxarılır. Çünkü Novruz kimi milli bir dəyərin gəlişməsi, həm İslamın milli şüurumuza mənfi etkisini önləyər, həm də Batıdan gələn ideoloji özgələşdirmələri.

Novruzun milli-ruhsal olay kimi tanınmasında Asif Atanın böyük etkisi olmuşdur. Onun "Novruzluğumuz" yazısında bütöv milli-ruhsal dəyərlərimizin birliyi öz yerini tapır. Novruzluğun Zərdüştçülüyə, Dədə Qorqudluğa bağlı yönləri vurğulanaraq, Azərbaycanın işıqçılıq mahiyyəti bütün dolğunluğu ilə üzə çıxır. Ocaq qalamaq, onun dövrəsində halay vurub oynamaq, odun üstündən atılaraq içsəl ağırlıqdan özgür olmaq (qüsurları tonqalda yandırmaq anlamında) türk mahiyyətinin bayramıdır. Doğrusuna qalsa, bu hallar, Zərdüştçülük adlı İşıqçılığımızdan irəli gəlir. Genellikdə isə türkün panteizm xəttidir.

Türkün panteizmi Asif Atanın yaratdığı Mütləqə İnam Dünyabaxışına daha yaxındır. Doğrudur, Asif Ata Doğanı ilahiləşdirmir, ancaq ruh doğmadır. Ona görə deyir: Novruzluqdan od almaq – İşıqlanmaq, mahiyyətinə qovuşmaq gərəkdir. Günəş Ayının (mart) 15-də həyata keçirdiyimiz "İnsanilik" bayramımız da elə bu ruhun izharıdır. Qədimliyimizlə Sabahımızı birləşdirən Qutsallıq Gələnəyidir!

## Anarxiya Qurallları

Bu gün Azərbaycan elə bir aşamaya keçib, anarxiya əlindən tərpənmək olmur. Hər bir balaca olay böyüdülür, toplumsallaşdırılır. Hər bir toplumsal fəlakət isə küyə çevrilir. Elə bir həşirə salınır, fəlakət doğru qiymətini tapmır. Bu gedişdən isə qarşı duran siyasi qüvvələr yararlanmağa çalışır. Sağlam döyüş sağlam ideoloji zəminlər üzərində qurula bilər. Bu olmadığına görə ən çirkin üsullara əl atılır. Belə faktlar bəs qədərdir. Ancaq bunlardan birinin üzərində düşüncələrimizi yürüdə bilərik. Bu gün ölkənin gündəmini qapsayan Əkrəm Əylisli olayına fərqli yanaşmalar olsa da, ən çox üst-üstə düşən, haqlı etirazlar qabarır. Deyək, Azərbaycanın milli mənafeyinə toxunan məqamlar vurğulanır. Ancaq nə yazıqlar, məsələ tam olaraq siyasiləşdirilib. Elə buna görədir, məsələyə münasibət bildirənlərin çoxluğu çaşqın durumdadır. Bilmirlər, buna söz özgürlüyü kimi baxsınlar, yoxsa milli soruna çevrilən fakt kimi. Bunun da səbəbi odur, ölkədə milli-ideoloji ölçü yoxdur. Əgər bu, buna bənzər sorunları Avropadan gətirilən "söz özgürlüyü" ilə bəlirləsək, onda gərək Avropa yönətim qurallarını qəbul edənlər səslərini çıxarmasınlar. Yox, əgər bu "söz özgürlüyü" ölçü götürülmürsə, onda gərək ortada milli haqqı qoruyan münasibət ölçüsü olsun. Belə bir ölçü isə, dediyimiz kimi, yoxdur. İqtidarın sərgilədiyi münasibət, hər kəsə bəllidir, milli ləyaqəti qapsamır. Çünkü biz bunu Ermənistanla iş birliyi quran iqtidar yanlılarının əməllərində dönə-dönə izləmişik. Ermənilərlə bağlantıda bulunanların ermənini öyəni topa tutması necə milli xarakter daşıya bilər?! Açıq şəkildə görünür, iqtidar özünün bireysəl çıxarına toxunan məsələnin çözümünü milli müstəvidə həyata keçirir. Müxalifətçilərin savunma xarakterli çıxışları, yazıları da, uluslararası qüvvələr qarşısında, yalançı insansevərlik görüntüsü yaratmaqdan başqa bir şey deyil. Məsələn, belə düşüncələr bildirilir, "Əkrəm Əylisli sadəcə bir yazıçıdır, o, öz təxəy-

yülünün dediklərini sərbəst şəkildə qələmə ala bilər. Düşüncələrini yazdığında yanlışa da yol verə bilər. İqtidarda olanların əməllərinin, yəni ermənilərlə çeşidli iş birliyinin qarşısında isə bir yazıçının yanlışı heç görünmür də”. İqtidarın Əkrəm Əylislinin əməlini, seçki öncəsi, öz çıxarı üçün həşirə çevirməsinə, toplumsal düşüncəni qatıb-qarışdırmasına sözümüz yox. Ancaq düşünürük, Ə.Əylislinin atdığı addım, yəni Azərbaycanın ləyaqətini aşağılaması, Azərbaycan türkünün vəhşi obrazını yaratmağa çalışması, iqtidar yanlılarının ermənilərlə iş birliyindən, daha amansız, daha qorxuludur. Çünkü iş birliyi quranların eybəcərliyi ən çox bu günümüzün fəlakətidir. Sabah, Milli dövlətçiliyin həryönlü oturuşmasından sonra, bu eybəcərliklər olmayacaq. Ancaq Əylislinin yazdığı qalacaq, gələcək soyları sorun qarşısında qoyacaq. Necə deyərlər, “yazıya pozu yoxdur”. “Söz özgürlüyü”nü bəhanə edib belə bir dönüklüyü savunanlar isə bilməlidirlər, söz özgürdür, böhtan isə özgür deyil. “Əsərdə yazıçı deyil, obraz danışır” demək isə dönüklüyə ortaq olmaqdır. Obraz havada uçan topa-topa bulud deyil, hara gəldi yağsın. Yazıçının təxəyyülü obrazlar araçılığıyla ifadə olunur. Əsərdə iftira danışan obraza qarşı tavır sərgiləyən başqa bir obraza da yer verilsəydi, yazıçını hardasa anlamaq olardı. Bu gün bu əsəri hər kəs bədii əsər adlandırır. Ancaq sabah yağı qüvvələr bu əsəri tarixi əsər kimi meydana çıxaracaqlar, siyasi təbliğat faktına çevirəcəklər. Genel olaraq, xalqlararası münasibətlərdə yaşanan neqativ halları bütövlükdə bir xalqın xeyrinə, ya da zərərinə sərgiləməyi doğru saymırıq. Əgər yazıçı özünü insansevər kimi tanıtmaq istəyirsə, məsələyə biryönlü yanaşmamalıdır. Əylisli məsələyə nəinki biryönlü yanaşır, o, millətin mənliyini eşitdiyi, gördüyü bir-iki faktla, tam olaraq, eyniləşdirir. Adını qoyur, xalqlar arasında yaranan ziddiyyətləri aradan qaldırır. Unutmaq olmaz, erməni özünü dərk edə bilməyən, bu səbəbdən də bəşəriyyətə heç bir mədəni, mənəvi dəyər verməyən toplumdur. Onun xislətindəki terrorizm, amansızlıq, fürsətçilik bu cür xəlqi boşluqdan qaynaqlanır. Onun türkə qarşı nifrəti, türkün onu döyməsinə görə deyil (belə götürəndə, türk onu hələ döy-

məyib), türkdən daha çox torpaq qoparmaq istəyidir. Başqasından nəsə almaq istəyən, vicdanını susdursun deyə, özündə ona qarşı öncə nifrət yaradır. Doğrusuna qalsa, ermənidə vicdan deyilən bir şey də yoxdur. Vicdan olsaydı, tarixin hansısa bir dönəmində özünü göstərərdi. Yazıçı ermənidə olmayan keyfiyyətlər "kəşf" edir. Bununla da ermənininin arxasında durub türkü dışarıdan çökdürən qüvvələrin buyruğuna işləyir.

Əkrəm Əylislinin ailəlikcə yaşamaq haqqından məhrum edilməsi isə iqtidarın sağlam olmayan baxışının göstəricisidir. Ailəni Ə.Əylislinin suçuna ortaq eləmək – ədalətsizliyi, haqsızlığı kanıtlayır. Üstəlik Ə.Əylislinin işlədiyi suça dolayısıyla haqq verir. Suçludan dissident düzəldirlər. Suçlunu, onun ailəsini çörəksiz qoymaq məsələni çözməz. Suçluya qarşı insanlığa özgün olmayan hərəkətlər ona sayğı yaradar...

Beləcə, bütün milli sorunlarımız belədir – onun nədəni, niyəsi dərk olunmur, üzünə pərdə çəkilir. Baxın, sanki olaylar bilərəkdən hazırlanır. Bir aşamada milli dəyərlərimizə hücumlar sərgilənir. O an toplumun aktiv kəsimi iki yerə ayrılır: – hücumu dəstəkləyənlər, ona qarşı çıxanlar. Başqa bir aşamada millətin simasına qarşı söz deyilir. Yenə iki yerə bölünmələr baş verir.

Millətin ləyaqətinə siyasi istəklərdən yanaşmaq doğru deyil. Ancaq nə qədər, bütün olaylar siyasiləşdirilir, nə qədər, başqa qüvvələrin bireylərimiz, təşkilatlarımız üzərində etkisi davam edir, bütöv milli ölçünün yaranması, milli baxışın ortaya gəlməsi baş verməyəcək...

## Fəlakətə çevrilən ideologiya

Gürcüstanda hakimiyyət dəyişdi. Hər kəs bunu demokratiyanın yeni aşaması sayır. Bu, üzdə görünən, baxışlara yeridiləndir. Doğrusuna baxılsa isə, balaca dövlətlərdəki dəyişiklik böyük güclərin çıxarları yönündə baş verir. Batının Orta Doğu əməliyyatlarını, göründüyü kimi, ən çox Rusiya əngəlləyir.

Başqa sözlə, Rusiya bu əməliyyatların gerçəkləşməsində özünün çıxarlarını  gözə aldırır. Batının Rusiyaya güzəştə getməsi hələlik qaçılmazdır. Bunun da iki nədəni var. Birinci, zəngin neft xəzinələrindən dolayı iqtisadi cəhətdən bərkiyən ərəb dünyasını yönətilən duruma gətirmək gərək idi. Ən çox Batı Avropa xalqlarından oluşan Amerika Birləşik Dövlətləri, bugünkü siyasal uğurlarına baxmayaraq, enişə yuvarlana  bilər. Milyardlarla dövlət borcu olan ABD Batı Avropa dövlətlərinin siyasal yardımı ilə ayaqda dura bilir. ABD dünya yönəticiliyinin ortasıdır. Bu orta, ABD-nin dövlət halına gətirildiyi ilk gündən, bu çağa kimi Avropalıların əlindədir, Avropa Doğu dövlətlərinin gözlənilən basqılarından ABD araçılığıyla qorunur. Əgər ABD-də yönəticilik ərəblərin, çinlilərin, türklərin, hindlilərin əlinə keçərsə, Avropanın hansı duruma düşəcəyini təsəvvür eləmək heç də çətin deyil. Avropalıların ABD ilə bəlli iqtisadi çəkişmələrinə, habelə, "avro" pul vahidi işlətmələrinə  gəlincə, bu məsələlər dediklərimizin üstündən xətt çəkmir. Bu münasibət ABD-də artan yəhudi etkilərini neytrallaşdırmaq istəyi güdür.

Rusiyaya edilən güzəştin ikinci nədəni ən çox türklərlə bağlıdır. İki qitənin orta zolağında, səpələnmiş durumda yaşayan türklərin nə vaxtsa bir araya gəlməsi dünyanın siyasal mənzərəsini tamam dəyişə bilər. Yəni dünyanın siyasal yönəticiliyi bu "zolaq"da oluşar. Ona görə də türkün birlik halına gəlməsinin qarşısını hər nə olursa olsun, almağa çalışırlar. Bu gün türk birliyini sıfırdan tərpədə biləcək gerçək siyasal güc Türkiyə olduğuna görə, onu dövrəyə alıb parçalamağa çalışırlar. Bunun üçün Orta Asiya türklərini, Azərbaycan türklərini, Rusiyanın içinə alınan türkləri dağınıq durumda, göz altında saxlamaq gərəkir. Bu işi Rusiya həyata keçirir. Türklərə, ərəblərə qarşı Rusiyanın, Batının eyni mövqedən çıxış etmələri hər zaman göz qabağında olubdur. Bu ilişkilərlə bağlı tarixdən yetərincə misallar göstərmək olar. Deməli, dünyaya ağalıq eləmək uğrunda Batı ilə Rusiyanın maraqları toqquşsa da, onların siyasal möv-

cudluğunu hədələyən ortaq “düşmənlər”i var. Bunu gözə alırlar.

İndi qayıdaq, Gürcüstanda görüntülənən, demokratiya məsələsinə. Hər zaman vurğuladığımız kimi, böyük güclərin istəklərinə əngəl olan başlıca bölgə faktı Azərbaycandır. Ona görə Türkiyənin arxasında Azərbaycanın güclənməsinin, bütövləşməsinin qarşısını, nəyin bahasına olsa da, almağa çalışırlar. On illərlə işləyən planlar dəyişməyib. Azərbaycanı parçalayan, xırdalayan dövlətlərin niyyətləri bu gün də öz qüvvəsini saxlayır. Bu qüvvələr Avropadır, Rusiyadır. Bugünkü həyatımızda fəlakətlərimizi yaradan, Qarabağ sorununun çözümünə əngəl olan Avropadır, Rusiyadır (ATƏT-in Minsk Qrupu). Bütün bu oyunlar demokratiya pərdəsi altında həyata keçirilir. Ancaq bizim siyasətçilərimiz, yazarlarımız fəlakətlərimizin səbəblərini Avropaya zəif inteqrasiya eləməyimizdə axtarırlar. Nə yazıqlar, ən çılpaq münasibətləri belə görmürlər, görmək istəmirlər. Söz yox, Avropanın yönətim quralları birinci növbədə insanlarımızın şüurunu zəbt eləyib. Bu səbəbdəndir, Gürcüstanda gedən siyasal dəyişikliyə umsunurlar. Halbuki Gürcüstanda baş verən hakimiyyət dəyişikliyi bəri başdan Azərbaycan üçün yeni “baş ağrıları” vəd eləyir. Artıq Moskva-Tiflis-İrəvan dəmir yolunun işə düşəcəyi haqqında düşüncələr səsləndirilir. Deməli, Ermənistan iqtisadi blokadadan çıxarıla bilər. Bu isə Qarabağ sorunlarının çözülməsi istəklərinə yeni bir zərbə deməkdir. Hələ bu bir yana, son vaxtlar Borçalıda, yeni fəlakətlərin özülü qoyulur. Daha doğrusu, qısa sürədə ara verən tendensiya yenidən gündəliyə gətirilir. Artıq evlərə silahlı basqınlar həyata keçirilir. Bu əməllər eyni vaxtda həm Başkeçiddə (Dmanisidə), həm Bolusda (Bolnisidə), həm də Borçalıda (Marneulidə) gerçəkləşir. Ona görə də bu olay təsadüfi xarakter daşıya bilməz. Deməli, Borçalıdan yeni köç dalğaları başlaya bilər. Qaçqın, köçkün yuvasına çevrilən Bakı şəhəri yenidən sarsıdıla bilər. Bundan öncə də qaçqın, köçkün axınları ən çox Başkəndə – Bakıya yönəldilmişdi. Çünkü Başkəndi çalxalamaqla bütün ölkənin başını qatıb sarsıtmaq olur.

İllər öncə, Borçalıda oxşar olaylar baş verəndə, bizimkilər yazırdılar, bu əməlləri həyata keçirən erməni qruplarıdır. İstəkləri Azərbaycanla Gürcüstanın arasını vurmaqdır. Nə yazıqlar, Gürcüstanın dövlət siyasətini, bunu dəstəkləyən dış güclərin istəklərini doğru qiymətləndirmirlər. İstək Borçalını yavaş-yavaş türksüzləşdirməkdir. Necə olur, dövlət davamlı hərəkət edən silahlı qrupların (ortada olan qrup bilindiyi halda) öhdəsindən gələ bilmir?! Necə olur, bu silahlı qruplar Azərbaycan türklərinə qarşı basqınlar həyata keçirirlər?! Yenə də orada yaşayan soydaşlarımızın gözünü qorxudub köçməyə məcbur edirlər. Zviyad Qamsaxurdiya şovinizmi aradan getməyib. O, gürcü məqsədini açıq həyata keçirirdi, ondan öncəkilərlə sonrakılar isə qapalı şəkildə. Yazıqlar olsun, Azərbaycan iqtidarı da hər zaman taktiki gedişlər edir, bütün addımlarını beş-on ilə hesablayır. Heç bir qlobal sorunlarımızla bağlı dövlət strategiyamız görünmür. İqtidarımız "Borçalı cəmiyyəti" yaradıb Saakaşvilini öydürür, Gürcüstan-Azərbaycan münasibətlərinin ən yüksək səviyyədə olduğunu təbliğ etdirir. İldə bir yol, göy yaylaqlara toplaşıb, yeyib-içmək də yüksək münasibətin görsənişi kimi sunulur. Yenə də soydaşlarımıza yalançı ümidlər verilir. Halbuki Borçalıların siyasal təşkilatlanması, ən azı muxtariyyat əldə edib, özünü qorumaq üçün döyüşə girməsi gərəkdir. Nə vaxta qədər aldanacağıq, aldadılacağıq?! Bilə-bilə aldanış daha böyük fəlakətlərə yol açır. Heç bir fəlakətlərimizdən dərs götürmürük.

Hər zaman vurğu elədiyimiz kimi, bu gün Azərbaycanda Uluyurd Hərəkatına böyük ehtiyac var. Gələcəyimizi qorxuya bağlayanlara dirəniş göstərmək üçün Milli Döyüş Hərəkatına – Uluyurd Hərəkatına bağlı toparlanmağımız gərəkdir!

## Balanslaşdırılan faciələrimiz

Artıq bir neçə gündür Azərbaycanın cəbhə bölgəsində atəşkəsi ermənilər pozur. Söz yox, Azərbaycanın silahlı qüvvələri gərəkən cavabı verir. Bəzi xətlərdə erməninin yerləşdiyi bölgələrə doğru irəliləyir də. Bu irəliləməni eşidən bir sıra soydaşlarımız, qürur duyğusu ilə, sosial şəbəkələrdə münasibət sərgiləyirlər. Bu duyğular doğaldır. 20 ildir yurdumuzun bəlli torpaqlarının erməni tapdağında qalması vətən oğullarının qüruruna toxunur, qeyrətini incidir. Nə yazıqlar, həm dünya gücləri, həm də ölkə hakimiyyəti, qeyrətimizi incidə-incidə, bizi də, yeni soyları da qeyrətsizləşdirmək kursu götürüblər.

Bu gün biz ordumuzun ayaqda görünməsiylə qürur duyğusu keçirsək də, bu ayağadurmanın Yurdumuzu işğaldan özgür etməyə hesablanmadığını da bilirik. İllərdir cəbhədəki silah səsləri siyasi oyunların uyumu kimi eşidilməkdədir. Dünyanın harasında nə baş verir-versin, bütün siyasi olayların Azərbaycana birbaşa etkisi olur. Çünkü Azərbaycan dünya üçün strateji önəm daşıyan bölgədir. Dünyanın neft-yanacaq ehtiyacının önəmli bir payı Azərbaycandan ödənilir. Bu səbəbdən də Batı-Avropa birliyi ilə Rusiya arasında gedən çəkişmə davamlı şəkildə Azərbaycanı zədələyir. Batı ilə Rusiyanın marağı hansı ölkədə toqquşubsa, Qarabağda atəşkəs pozulub. Batı Rusiyanı İraqda sıxışdıranda da bu belə idi, Suriyada da, İranda da i.a. İndi də Batı Rusiyanın etkisini Ukraynada sıxışdırmağa başlayıb. Ukraynada rusmeyilli hakimiyyətin mövqeləri sarsıldıqca Azərbaycanın cəbhə bölgələrində atışmaların səsi də çoxalır.

Söz yox, burada Batının gəlişinə ağ don, Rusiyanın əməllərinə qara don geyindirməyə çalışanlar da az deyil. Guya Rusiyanın imperiyası hər yerdə özgürlüyə qənim kəsilir, Batının gəlişi isə özgürlüyün qapısını açır. Heç də belə deyil. Hər kəs Batının işğal etdiyi, qarışdırdığı ölkələrin taleyinə baxsın. Batı əsgərlərinin törətdikləri fiziki, mənəvi cinayətləri də hesaba alsın. Batının ayaq basdığı bütün ölkələrdə illərnən vətəndaş savaşı gedir. Batının "İnsan haqları, demokratiya" dediyi şey girdiyi

bütün ölkələrdə vətəndaş qarşıdurması demək olubdur. Bu qarşıdurma böyük güclərin bir-biriylə hesablaşmaq anı gələndə yeni aşamaya keçir. Yəni vətəndaş qarşıdurması vətəndaş savaşı ilə əvəz olunur. Bu cəhətdən Azərbaycan da vətəndaş savaşı gözləntisindən (ehtimalından) sığortalanmayıb.

Düşünürük, cəbhə bölgələrimizdə eşidilən atəş səsləri Azərbaycan iqtidarının illərlə yürütdüyü "balanslaşdırma siyasəti"nin görsənişidir. "Balanslaşdırma siyasəti" – çəkişən böyük güclərin həmişə birinə rüşvət verib, birinə də papaq. Öz başı olmayanın papağı özgənin başında olar.

Söz yox, dövlət maraqlarını düşünərkən biz, vətəndaş olaraq, Azərbaycan iqtidarını nə Batının, nə də Rusiyanın ayağına verməyin yanlısı deyilik. Ancaq "balanslaşdırma siyasəti"ndə çox az hallarda dövlət maraqları ödənib. Ən çox hakimiyyət maraqlarına hesablanmış bir siyasətdir. "Balanslaşdırma siyasəti"ndə milli maraqlarla hakimiyyət maraqları həmişə toqquşub. Məsələn, Azərbaycan böyük güclərin tələbi, diktəsi ilə yönətilib, o güclərin iqtisadi, siyasi umacaqları ödənilib. Dövlətin strateji prinsipləri isə arxa plana keçirilib. Bununla da hakimiyyətin ömrü uzanıb, milli özünəxaslığın gələcəyi isə sorğu altına düşüb. Bir sözlə, bu illərdə "balanslaşdırma siyasəti" yaşadığımız, yaşayacağımız faciələrimizi balanslaşdıran siyasət oldu...

Biz dedik, Batı ilə Rusiya, aralarında gedən çəkişmədə uduzmamaq üçün, vətəndaş qarşıdurmasını vətəndaş savaşına qədər genişləndirmək gücündədirlər. Bu olanaq Azərbaycan üçün daha qorxulu bir tendensiyanı əmələ gətirir. Batı bir ölkədə öz çıxarını ödəmək üçün həmin ölkənin iqtidar-müxalifət qarşıdurmasını yeni aşamaya keçirir. Rusiyanın əlində isə Azərbaycana qarşı başqa "silahlar" mövcuddur. Bu gün dövlətini, toplumunu qoruyub saxlaya bilməyən erməni Rusiyanın haylaması ilə Azərbaycana qarşı çox asan aktivləşir. (Belə götürəndə onun bundan başqa yolu da yoxdur, varlığı da olmaz). Rusiyanın ikinci yöndən etki olanaqları içimizdəki etnik toplumların bölücülüyə (separatizmə) yuvarlana bilməsidir. Bütün bunların qarşısında isə Azərbaycan toplumunu bir araya gətirə

bilən sabit, örnək olan, içindəkilərlə bir olan milli qüvvə mövcud deyil. Siyasi müxalifətimiz də milli qüvvə ola bilmədi. Milli Qüvvə olmayan siyasi müxalifət hakimiyyət dəyişikliyi edə bilər, dış güclərin yardımı ilə. Ancaq milli dövlətçiliyi gəlişdirib milləti toparlaya bilməz. Bu səbəbdən də, Azərbaycanı talayan bir hakimiyyətlə qarşıdurma həddində olan siyasi müxalifətə bel bağlamaq bizə ümid vermir. Toplumun iqtidara bağlı kəsimi ilə siyasi müxalifətə bağlı kəsimi arasında millilik baxımından seçim eləmək çətindir. Sadə, vicdanlı insanlarımızın hansı cəbhədə (iqtidar, ya da müxalifət) dayanması milliliyi bəlli edə bilməz. İstək, hədəf aydınlığı olmadan, ideya, ideologiya fərqi bilinmədən, insanların milli hədəflər çevrəsində birliyi yaranmadan heç bir qüvvəyə Milli Qüvvə adı qoymaq olmaz. Yəni "quru-quru qurbanın olum" məntiqi ilə iş aşmaz. İqtidar yanlıları hər şeyə, ən çox, öz məişət rahatlığından baxır. Siyasi müxalifət isə, Batı onlardan əlini çəkməsin deyə, Milliliyin adını tutmur. Hakimiyyət dəyişikliyi ilə sosial sorunlar qismən çözümünü tapa bilər. Ancaq Milli sorunlar yalnız milli ideyalarla çözülə bilir. Milli ideyalar isə heç kimin proqramında yoxdur. Bizə, Azərbaycan olaraq, milli ideya proqramları olan Milli Qüvvə gərəkdir. Bu məsələnin başa gəlməsi necə də ağırdır, çətindir. Biz bunu bilirik. Ancaq başqa yol yoxdur. Başqa döyüş növləri də bizi indiki durumdan çıxara bilməyəcək... Biz milli hədəflər haqqında danışanda, söz yox, dış qüvvələrin etkisini gözardı eləmirik. Ancaq onu yəqin bilirik, öz hədəfləri (milli hədəfləri) olmayanlar saya salınmır, yalnız yönətilirlər. Ancaq milli hədəfləri olanlarla dış qüvvələr nələrdəsə (bəzən çox şeylərdə) hesablaşmaq zorunda qalır. Çünkü milli hədəfləri olanlar millətlə bir olurlar.

Ona görə, istər iqtidara loyal münasibət sərgiləyənlər içindən olsun, istər siyasi müxalifət yanlıları içindən, Yurdunu, Ulusunu sevən hər kəsi bu məsələ ilə bağlı düşünməyə çağırırıq.

## Anlayışların anlamsızlığı

Elə siyasi anlayışlar var, açıq şəkildə məntiqə tərs görünür. Ancaq insanlar bunun fərqinə varıb araşdırmırlar. Məsələn, "dövlət marağı" adlanan anlayışa göz yetirək. Hakimiyyət sorumluları hansısa, özünəyarar olmayan, addımı atmaq istəməyəndə deyirlər, dövlət marağına uyğun gəlmədiyi üçün filan addımı atmaq olmaz. Ancaq müxalifət sorumluları ələşdirici tavır göstərib deyirlər, hakimiyyət filan addımı öz marağına ziyan verdiyi üçün atmır, yəni öz marağını dövlətin marağından üstün tutur. Hər iki düşərgə dediyi sözü siyasi baxımdan əsaslandırır da. Bəs doğru olan nədir? Dövlətlə hakimiyyətin marağı niyə toqquşur, nədə toqquşur? Toqquşmaya bilərmi? Bütün dövrlərdə tarix hakimiyyətlə dövlətin marağının toqquşduğunu kanıtlayır. Bəs necə olsun? Bu beləmi olmalıdır, həmişə beləmi olacaq? Belə olmalıdırsa, belə olacaqsa, onda ədalət nə deməkdir, o nə vaxt qalib gələcəkdir? Buradan çıxış yolu yoxdursa, bəs insanlar nə üçün daim ədalət axtarırlar? Görünən bir fakt var, dünyanın siyasal yönətilməsində dövlətin mənafeyi, hakimiyyətin mənafeyi, millətin mənafeyi bir araya sığmır. Ancaq həm də "milli dövlət" anlayışı var, "hakimiyyət xalqındır", yəni demokratiya. Bu kimi deyilişlər dövlət qanunvericiliklərində təsbit edilir. Bu necə olan işdir – hər bir sözün, anlayışın daşıdığı məna ilə gerçək ifadəsi arasında kəskin təzad olur?!

Götürək Azərbaycan dövlətini. Hakimiyyətin aktiv çıxarları genişləndikcə, dövlətin dünya çapında manevr olanaqları daralır. Daha doğrusu, dövlətimizin dünyaya etki göstərmək olanaqları geniş olduğu halda, onun gerçəkləşməsi minimum həddə enir. Çünkü dövlət sistemimiz ləbbeykçi – "bəli, baş üstə" prinsipi əsasında formalaşıb. Daim bir qrupun mənafeyinə uyğun addımlar atılır. Dövlətin mənafeyini düşünən milli institutlar çalışmır. Əgər çalışsaydı, bir çox antimilli gedişlərə yox deyər, milli yöndə nələrinsə həyata keçirilməsini tələb edərdi.

Biz dövlət yönətimində "bəli, baş üstə" üslubu ilə, daha doğrusu, hakim təbəqənin qabağında iradəsizcəsinə görəv daşı-

mağı doğru saymırıq. Ancaq bu o demək deyil, dövlətçilikdə çoxbaşlı yönətmə sistemini dəstəkləyirik. Dövlətçiliyi anarxiya səviyyəsində yaşatmaq olumsuzdur. Onu demək istəyirik, yuxarıdan aşağı yönətmə o vaxt özünü doğruldar, dövlətçilik Milli Prinsiplər üzərində oturuşmuş olsun. Bəs bu nə vaxt ola bilər? – Gərək Dövlət siyasal anlayışlarla, tələblərlə deyil, mənəvi anlayışlarla, tələblərlə yönətilsin. Hüquqi Dövlət anlayışı İnsani Dövlət anlayışı ilə əvəz olunmalıdır. Söz yox, anlayışlar öz məzmununu tam olaraq ifadə etməlidir. Hüquqi dövlət mənafe doğurur, İnsani dövlət haqq yetirir. Yəni dövlətin mənafeyi, hakimiyyətin mənafeyi, millətin mənafeyi deyə üç bağımsız subyekt əvəzinə dövlətin haqqı, hakimiyyətin haqqı, millətin haqqı məzmununda təkcə bir etki oluşur. Bu düşüncəni bir misalla aydınlaşdıraq: Biz Azərbaycan olaraq, parçalanmış durumdayıq. Böyük bir parçamız İran adlanan rejimin əsarətində assimilyasiyaya uğrayıb. Kiçik bir parçamızda da dövlət elan eləmişik. Siyasal dünyanın BMT adında hüquqi bir təşkilatı var. Bu təşkilat "torpaqların (ərazilərin) toxunulmazlığı" adında hüquqi sənəd qəbul edib. Bu sənədə görə bizim burdakı dövlətimiz Güney Azərbaycandakı soydaşlarımızın zorakılığa uğramasına qarşı söz deyə bilməz, onun özgürlüyünə yönəlik tələb irəli sürə bilməz. Bilərsə, İran adlanan dövlətin iç işlərinə qarışmış sayılar. Deməli, uluslararası hüquqi bir təşkilatın hüquqi bir sənədi, bizim, bir millət olaraq, tarixi, insani haqqımızı ortadan qaldırmışdır. Dövlətimiz bu hüquqi prosedura qarşı söz deyərsə, uluslararası basqılara uğrayar. Deməli, dövlətin mənafeyi gözgörəki millətin mənafeyinə uyğun gəlmir. Başqa sözlə, milləti öz tarixi haqqına qovuşdurmağa haqqı çatmır. Halbuki millətin haqqı deyilən bir anlayış var. Bir dili, bir mədəniyyəti, qan qohumluğu olan bir millət, bölünmüş coğrafiyada, birgə yaşamağa haqq edir. Həmin millət bu haqqını, qurduğu dövlətiylə qorumalıdır. Buradan da "dövlətin haqqı" anlayışı öz aydınlığını tapır. (Söz yox, bir qrupun əlində aciz qalan dövlətdən söhbət getmr.) Belə götürəndə, dövlətin haqqı – onu quran millətin özgürlüyünü, bütövlüyünü qorumaq, yaşatmaqdır. Bu de-

diklərimiz hüquq sözünə özgün edilə bilmir. Çünkü hüquq məsələsini siyasət ödəyir. Siyasət isə taktiki mənafeləri qoruyur. Başqa sözlə, biz Azərbaycanın bütövlüyü, özgürlüyü məsələsini qoyanda siyasət İran adlanan dövlətin hüququnu, mənafeyini ortaya gətirir. Güney Azərbaycanı basqı altında saxlamaq İran adlanan dövlətin hüququ, mənafeyi sayıla bilər, ancaq haqqı sayıla bilməz.

Bütün bunları əsas götürüb deyirik, dövlətçilik, özgürlük, ədalət məsələlərini hüquqi müstəvidə özümləşdirmək alınmır, bu, İnsanilik tələbində doğrula bilər.

Dünyanın çağdaş hüquqçuluq oyunu ilə Azərbaycanın bütövlüyünə, özgürlüyünə qovuşmasını gözləmək mənasız olar. Tarixi haqqımıza qovuşmağın yolu Millətçilik Savaşından keçir. Bu həqiqətlə ürəyində, düşüncəsində köklənməyən insanlar vətən, millət sevgisində möhkəmlənə bilməz...

## Dövləti xalqsızlaşdırma siyasəti

Bütün dünyada qəbul olunmuş bir fakt var – dövlətə xalqının adından danışmaq haqqı tanınıb. Ancaq dövlətin başına keçənlər bu haqqı heç vaxt axıra kimi doğrulda bilmirlər. Bu, özünü iç siyasətdə də göstərir, dış siyasətdə də. Dövlət güclü olanda haqqını dış sıyasətdə daha çox doğruldur (iç siyasətdə demirik, çünkü iç siyasət gücə deyil, birbaşa milli strategiyanın düzgün bəlirlənməsinə bağlıdır). Dövlət zəif olanda isə, demək olar, haqqını itirir; dış siyasətdə əlaltıya çevrilir, iç siyasətdə isə xalqını əzir. Bu məsələ iç-içə olan məsələdir. Yəni əlaltıya çevrilən dövlət xalqını əzir, ya da tərsinə, xalqını əzən dövlət əlaltıya çevrilir. Bu gün bizim dövlətimiz bu durumdadır. Dövlətimizin başında duranlar onu haqsız duruma soxublar. Xalqı əzə-əzə, talaya-talaya dövlətsizləşmə qorxusu yaradıblar. Dövlətimiz neçə yerdən buyruq alır, basqı yeyir. Tanrı qarşısında da, İnsanlıq qarşısında da dövləti xalqın gözündən salmaqdan böyük günah, dönüklük ola bilməz. Dövlət ona görə düşünü-

lüb, xalqı qurub qorusun. Dövləti hansısa bir tayfa işğal edirsə, xalqın qurulmasından, qorunmasından söz gedə bilməz. Xalqın varoluşunu sağlayan bütün yönlər – təhsil, mədəniyyət, sağlıq qurumları, iqtisadiyyat sıradan çıxarılıb dağıdılırsa, dövlət yaşamaq haqqını itirir. Dövlətimizin bu bəlalardan qurtuluşu hər bir vətəndaşın bireysəl çıxarından daha önəmlidir, daha öndədir. Dövlətimizin sıradan çıxarılması, xalq olaraq, tarix səhnəsindən çıxarılmağımıza yol açır. Bu qorxunu önləməyi düşünmək hər kəsin qutsal borcudur. Bunu anlamayanlar anlamalıdır. Bunu anlamayanlara anlatmaq – anlayanların başlıca görəvidir. Dövləti yanlış yönətənlərə heç kim öz adından danışmaq haqqı tanımamalıdır.

Hakimiyət iç üzünü gizlədə bilməyəndə xalqın içində olan tanınmışlardan buyruğuna adamlar götürür. Onlara titullar, ödüllər verməklə xalqı aldatmaq yolu tutur, öz ömrünü uzatmağa çalışır. "Xalq şairi", "xalq artisti", xalq rəssamı... adları da bunun üçün formalaşır. Xalqı sevən, düşünən yetənəkli adamlar belə adları şəxsiyətinə ləkə kimi görməlidir. Bu gün "xalq" damğası daşıyan istənilən adamı antixalq saymaq özünü doğruldar. Xalqı əzənlərdən bu adı almağın başqa anlamı yoxdur. Xalqı düşünənlərin hamısı "xalq düşməni" adı ilə damğalandı... Xalqın sevgisində olmayanlara "xalq" adı vermək – dövləti gözdən salmaqdır. Eyni halda, hakimiyətin "xalqı" olmaq – dövləti gözdən salmaqdır. Bu gediş – Milli strategiyası olmayan hakimiyətin xalqı əzmək üçün iç siyasətini oluşdurur. "Xalq" sözünü xalqdan alıb rəsmiləşdirmək, başqa sözlə, titula çevirmək bütövlükdə İnsanlığın sorunudur. Bu sorunu yaradanlarla döyüşmək Qeyrət əməlidir.

## Milli Faciəmizin Xocalısı

Güclü siyasət, zəif siyasət deyilişini qəbul etmirik. Güclü dövlət, zəif dövlət məntiqini doğru sayırıq. Güclü siyasət olmur, gücə dayanan siyasət olur. Bəs dövlətin gücü nəyə bağlıdır?! Düşünürük, sağlam prinsiplər üzərində milli ideologiya-

nın işlənib hazırlanması, bu ideolojinin dövlət yönətimində hakim etkisinin olması gərəkdir. Bunu isə ədalətli şəxsiyyət, milli ruha bağlı olan siyasi xadim gerçəkləşdirə bilər. Dövlət güclü olanda əməli addımlar atır, zəif olanda isə baş qatır. Dövlətin zəif, ya güclü olmasını ilk növbədə onun öz içində yaratdığı nizamda görmək olar. Bu nizamın adına "içsəl siyasət" deyirlər. Dövlət içrə yaranan nizam ədalətli qanunlarla həyata keçiriləndə dövlətin dünyada yeri, etkisi də bəlli olur, yəni dövlətin yürütdüyü dış siyasət öz xalqının bağımsız mədəni, mənəvi varlığını təmsil edir.

Bəs bu deyilənlərin fonunda biz öz dövlətimizi necə görürük? Sovetlər dağılandan sonra dövlətimiz struktur baxımından bəlli yönlərdə gəlişmə aşamaları keçib. Ancaq biz gəlişmənin icazə verilən yönlərində irəliləmişik. Bu da doğaldır. Güclü dövlətlər güclü düşmənlərinin olmasını istəmir. Dünyanı yönətən güclər bizi özləri ilə çəkişə biləcək aşamaya buraxmazlar. Ancaq gəlişmə elə bir tendensiyadır, onu keçmək üçün heç kimdən icazə almağa gərək yoxdur. Dövlət öz prinsiplərini həyata keçirməli, işini görməlidir. Ancaq nə yazıqlar, bizdə doğal, doğru gəlişmə yolu keçilmir, dövlət "qəlibdə gəlişmə" ilə yetərlənir. Dış texnologiyaları ölkəyə gətirib işlətmək heç də gəlişmə demək deyil. Ən yeni texnologiyaların sürəkli işlədilməsi belə, öz xalqını sürü halına gətirən dövlətə uğur qazandırmaz... Sovetlər dağılandan sonra ölkəmizdə talançılıq ən yüksək həddə çatıb. Yeni texnologiyalardan qullanmaq ən çox talançılara, talançılığa gərək olub. Bu texnologiyaların işlədilməsi bəzi hallarda toplumun sosial durumuna ziyan verib. Yeni texnologiyalar işçi qüvvəyə gərəkliyi azaldır. Doğrusuna qalsa isə texnologiyanın gəlişməsindən asılı olmayaraq, əmək cəbhəsində hər bir işçi qüvvənin yerini bəlli eləmək alınandır. Ancaq kapitalizm ortamında, yəni pulçuluğun hakim olduğu zamanda istehsal araçları ilə işçi qüvvəsi arasındakı bağlılığı qorumaq, başqa sözlə, qanunauyğunluq yaratmaq olduqca çətindir. Rüşvətxorluğun, korrupsiyanın həyat normasına çevrildiyi bizim kimi ölkələrdə isə demək olar, baş tutmur. Dövlət müəssisələ-

rində bugünkü kütləvi ixtisarların da kökündə bu durur. Baş görəvlər tutan zümrələr mənimsədikləri gəlir "payları"nı azaltmırlar, işçi qüvvələrin sayını azaldırlar. Məsələnin pis cəhəti odur, toplumun bu gedişə münasibəti də aydın deyil. Bu səbəbdən toplumun hakimiyyət yanlılarına, qarşıduranlarına bölünməsini milli mənafe baxımından qiymətləndirmək doğru deyil. Biranlamlı olaraq sosial durumlarının səviyyəsinə görə bu belədir. Yəni sosial durumu orta, yuxarı olanlar başlarını yuxarı qaldırıb heç nəyi görmək istəmirlər. Onlar hakimiyyət dəyirmanına tökülən su rolunu oynayırlar. Sosial durumu aşağı həddə olanlar isə heç bir etkisi olmayan etirazlar edirlər. Çox az sayda adam tapmaq olar, məsələni milli sorun səviyyəsində dərk etsin. Ancaq nə qədər, sorun genel halda milli deyil, yalnız sosial olaraq qəbul ediləcək, çözümünü tapmayacaq.

Bir ay bundan öncə "20 Yanvar" adlanan faciəmizin ildönümü qeyd edildi. Nə baş verdi, nə aydınlaşdı, nə dərk olundu, nə çözümünü tapdı – bəlli deyil. İndi də "Xocalı soyqırımı"nın ildönümü qeyd olunur. Nə aydınlaşacaq, nə bilinəcək – bəlli deyil. Toplum bağımsız dövlətində sosial faciələr yaşayır. Haqsızlıqdan, ədalətsizlikdən, vicdansızlıqdan qaynaqlanan əməllər hər gün mənəvi soyqırım həyata keçirir. Özünü yandıranlar, asanlar, xəstəlikdən əzab çəkənlər, dərmanlardan müalicə əvəzinə xəstəlik tapanlar, məmur qapılarında sürünənlər "Xocalı soyqırımı" haqqında nə düşünsünlər?! Elə hər kəs öz həyatında daha betər faciəni yaşadığı halda, artıq tarixə çevrilən faciənin qeyrətini yaşaya bilərmi?!

İndi "Xocalı"nı yubileyləşdirmək toplumda qeyrəti diriltmir, öldürür. Öz ölkəsində mənəviyyatı öldürülən vətəndaş üçün erməninin qarnını cırdığı, güllələdiyi körpənin, qocanın taleyi çoxdan adiləşib. Bir az da belə desək, durum elə bir həddə çatıb, sadə vətəndaşlar milli faciəni bölgənin faciəsi kimi başa düşürlər. Bəzən isə həmin bölgənin adamlarını fərsizlikdə suçlayırlar. Bəs dövlət bu sorunu çözmək üçün hansı addımı atır?! Demək olar, heç bir addımı. Səfirliklərimiz dış ölkələrin vətəndaşlarına Xocalıda ermənilərin törətdikləri vəhşətlərin şəkilləri-

ni göstərməkdən məmnunluq halı yaradırlar. Şəxsən məndə heç bir məmnunluq halı baş qaldırmır. Xalqa yiyə çıxıb faciəni onun özünə dərk etdirmək gərəkdir, xalqı yaşamaq uğrunda döyüşə soxub, "Xocalı"nı siyasi divident predmetinə çevirmək yox!..

Ermənini Xocalıda törətdiyi vəhşilik 1992-ci ildən başlamır, 1905, 1918, 1948-ci illərdən üzü bu yana gəlir. Bundan sonra harda dayanacaq – bəlli deyil. Erməni vəhşətinin qarşısını kəsmək üçün vətəni, dövləti xalqa sevdirmək gərəkdir. Yəni ona normal yaşamaq, düşünmək, döyüşmək haqqı vermək gərəkdir. Milli ideologiyası, milli strategiyası olmayan dövlətin xalqı faciədən çıxmaz.

Qarşıda "Xocalı soyqırımı"nın ildönümüdür. Bununla bağlı gəlişi yaxşı sözlər danışmağın, yazmağın özü də başqatma əməlidir. Öldürülənlərin, namusuna əl uzadılanların, gözüyaşlı qalanların qarşısında hər birimiz sorumluluq daşıyırıq. Bu sorumluluğu dərk eləmək – milli-insani savaş aparmaq deməkdir.

## Türklüyün dərdi

Bir tanışımla telefon söhbətimdə nikbin olduğumu söylədim. Həm də halım çox fərəhlidir dedim. Doğaldır. Çünkü Asif Atanın Yolu, Amalı, Ölçüsü adamın içini o qədər zənginləşdirir, düşüncələrlə dolmaq, varlığın mayasında İnsanlığın toxunulmazlığı gələcəyə dönməz bir inam yaradır. İnsan gündəlik qayğılarla yaşayır, əməklə, yaradıcılıqla uğraşır. Belə məqamda onun yadına düşməyə bilər, köksündə bir ürək döyünür. Bu döyüntülər insanın əməklə, yaradıcılıqla uğraşmasının, bütövlükdə isə varlığının qarantıdır. Özlüyündə bu döyüntüləri yaradan, saxlayan ruhaniyyat faktıdır. İnsan nə qədər bu ölçüdən uzaqlaşsa da, özünə yadlaşıb cılızlığa yuvarlansa da, bütövlükdə bəşər gedişini pozuntulara uğratsa da, ruhaniyyatdan biryolluq qopub varlığına son verə bilməz. İnsan- ruhaniyyat bağlılığı ən dərin qatlarda nüvə-elektron bağlılığı kimidir.

Ancaq bütün bunlara baxmayaraq, zaman baxımından bizi qayğılandıran həyat, dünya sorunları insan ruhuna ağırlıq gətirməkdədir. Özəllikcə siyasi dünyanın mürəkkəbləşdirdiyi, çözümünə yol verмədiyi milli məsələlər daim ağla, düşüncəyə yük olur, dərd gətirir, kədər yaradır. Bizim üçün ən böyük etkisi olan dərd, kədər Türk varlığına qarşı davamlı şəkildə həyata keçirilən dönüklük əməlləridir. Bununla bağlı bəzi məqamlara münasibət sərgiləmək, baxışları ona yönəltmək istəyirik. Yazıqlıq doğurucu haldır, Ermənistan dövlətinin yaranmasına tarix bitgin şəkildə yanaşmayıb. Söhbət ötən yüzilin 18-ci ilində Azərbaycan respublikasının yaranması ilə Bakıda, Şamaxıda, Qubada, bir sıra bölgələrdə erməni-bolşevik birləşməsinin həyata keçirdiyi soyqırım məsələsindən gedir. Burada üzdəki məntiq onu göstərir, Azərbaycanın qurulmaqda olan, daha doğrusu, genişlənən bolşevik-rus imperiyasının sınırlarından qıraqda qalması imperiya üçün böyük itki olardı. Həm də Batı-Avropa özü üçün qorxu yaradan Osmanlı imperiyasının çöküşünü surətləndirmək yönündə çabalar göstərirdi. Osmanlının Qafqaza etkisini aradan qaldırmaq, onun Azərbaycanla coğrafi sınırlarını bağlamaq onlar üçün böyük önəm daşıyırdı. Deməli, Ermənistan dövləti yaratmaq bir deyil, bir neçə dövlətin planında var idi. Özü də Doğu Anadoludan başlayaraq İrəvan i.a. bölgələrdə. Söz yox, istək bəlli sürəcləri araşdırmaq deyil. Bizə görə soyqırımın başlıca hədəfi Azərbaycanı sarsıtmaqla bütün Quzey Azərbaycan ərazisində erməni yönətim quralları tətbiq etmək, Azərbaycan türklərini öz yurdlarında etkisiz etnik topluma çevirmək idi. Yəni Ermənistan adlanan dövlət bütün Azərbaycan (Quzey Azərbaycan) ərazisində yaradılır. Beləliklə, Azərbaycan-türk dövlətçiliyinə biryolluq son qoyulur. Belə götürəndə, İran dövləti yaratmaqla, minillik türk hökmdarlığına Güney Azərbaycanda son qoydular da (hələlik)...

Osmanlı ordusunun işə qarışması ilə bu niyyət pozuldu, Ermənistan dövləti Azərbaycanın bir parçasında – batı torpaqlarında yaradıldı. Sonra sovetlər bizi ermənilərlə "qardaşlaşdırdı", soyqırımın üstünə pərdə çəkildi, tarixi cinayət hiddətlərdən

silindi. Əcəba, bununla sürəc başa çatdımı?! Çatmadı! Sovetlər dağılandan sonra rus-erməni birləşmələrinin əli yenidən qanımıza bulaşdı. Yenidən vətənimizin bir parçasını əlimizdən aldılar. Yenə də tarixi cinayətlər ört-basdır edildi. Ancaq sürəc dayanmayıb. Qorxular yenə də bizi qarabaqara izləməkdədir. Bu gün Azərbaycanın türk toplumu xof altındadır. Zaman-zaman gah ləzgi, gah talış, gah kürd muxtariyyəti məsələsini ortaya atırlar. Buna görədir, bu toplumların adları Azərbaycan türklərində xof, qıcıq doğurur. Halbuki, tarixlər boyu türkün bu toplumlara qarşı basqısı baş verməyib. Bu toplumlarla iç-içə yaşayıb türk. Bu toplumlardan türkə qarşı silah kimi qullanan dünya gücləri yüzillərdir dincliyimizə, əmin-amanlığımıza qənim kəsilir. "İlan vuran ala çatıdan qorxar" deyiblər. Bizə qarşı ermənilər həmin güclərin yardımı, təhriki ilə soyqırım da törədiblər, vətənimizi də bölüblər. İndi də, Sovetlər dağılandan bəri, Yurdumuzda kürdləşdirmə sürəci, xofu yaşadılır. Biz bu qorxulu tendensiyanı təkcə ayrı-ayrı bireylərin yazılarında, çağırışlarında deyil, hakimiyyət səviyyəsindəki əməllərdə də izləyirik. Yüksək eşalonlarda kürd kökənli adamların yerləşdirilməsi, iqtisadi bazaların ələ keçirilməsi yetərincə vurğulanıb, bu məsələlər cavabsız buraxılıb. Söz yox, kürd kökənlilərin hansısa görəvi tutması suç deyil, əməllərin dövlətçiliyimizi təhdid etməsi suçdur.

Dünya güclərinin hazırladığı Orta Doğu projesinin başlıca xətlərindən biri "Kürdüstan dövləti" nin yaradılmasıdır. Kürd toplumunu Orta Doğu xalqlarına qarşı qoymaq – türk, ərəb dünyası üzərində Batının etkisini saxlamağa qulluq etdiyi bəllidir. Bu coğrafiya da dörd dövlətin ərazisindən qoparılır: Türkiyə, Suriya, İraq, İran. Belə götürəndə, İran deyilən bir şey yoxdur, o ərazi Güney Azərbaycan əyalətlərini qapsayır. Deməli, yenə Azərbaycan-türk dövlətçiliyinə son qoymaq niyyəti açıq görünür. Bir yandan dörd dövlətin ərazisində iş gedir, bir yandan da Azərbaycan Respublikasının dövlət strukturlarında. Bizə görə Heydər Əliyevin hakimiyyətə gətirilməsi də, bu komandanın 20 ildir qorunması da bu planın bir parçası kimi gö-

rünür. Baxın, H.Əliyev hakimiyyətə gətirilir, gələn kimi dövlət səviyyəsində türk dilini, türk milli kimliyini vurub sıradan çıxarır. Sonra addım-addım kürdləşdirmə siyasəti yürüdülür. Bu gün Vasif Talıbovun Naxçıvanda yaratdığı rejim Naxçıvanı boşaltmağa qulluq edir. Bütün bunlar hansısa qlobal planın gerçəkləşməsinə ortam yaratmaq deyilmi?! Düşünmək çağıdır. Öncə hər şey bizimkilərə nağıl kimi görünür, gerçəkliklə üzüzə qalanda isə gec olur... Toplumu sürü halına gətiriblər. Hər kəs səhərdən axşama bir tikə çörəkdən başqa heç nə haqqında düşünə bilmir. Siyasi müxalifət dağınıq, bir-birinə qarşı qərəzli. Aydınlar susur. Düşmən isə yorulmadan işləyir. Düşünmək, bİr araya gəlmək, ciddi müzakirələr açmaq gərəkdir, sağlam xətt qurulmalı, doğru yön bəlirlənməli, doğru savaş aparılmalıdır!

## "İqtidar Demokratiyası"nın yaratdığı siyasi iflas

Bu gün seçki öncəsi aşama olsa da, siyasi mənzərəni izləyən toplumda özəl aktivlik gözə çarpmır. Çünkü heç bir ümid doğrulmur, göstərilən çabalarda enerji boşuna xərclənmiş kimi görünür. Əsəblər tarıma çəkilir, fəlakətli, acınacaqlı yaşam ortamı formalaşır. Aktivlik zəif görünsə də, sadə toplum, hər necə gəldi, dəyişiklik istəyir. Ancaq bu dəyişikliyi həyata keçirə bilən güc, ölçü yoxdur. Müxalifətin yalançı birliyini isə güc saymaq olumsuzdur. Əgər müxalifətin orta səviyyədə birliyi olsaydı, toplum daha aktiv şəkildə öz hiddətinin arxasında durardı. Ölkədə dəyişikliyin baş verməsi üçün yetərincə səbəb var. Dış asılılığın son həddə çatması, bağımsızlığı tamamilə formal duruma salması bəri başdan qarşıdakı illərdə hansı faciələri yaşayacağımızı bəlli edir. Etnik, dini bölücülük qorxusu gündən-günə dərinləşir. Dövlətin bütün strukturlarında mütləq qanunsuzluğun baş alıb getməsi acınacaqlı bir həddə çatıb. Vətəndaşın istənilən bir sorununu çözməsi yüksək məbləğdə rüşvət qarşılığında ola bilir. Gözə alsaq, toplumun rüşvət vermək olanağı tükənib, yəni yoxsulluğun ağır həddində yaşayır, sorunların çö-

zülməsinin olumsuzluğunu dərk eləmək çətin olmaz. Dövlətin uzun illər yaşayıb mövcud olması tükdən asılıdır. Ədalətsizlik, həqiqətsizlik, vicdansızlıq, özbaşınalıq qarşısıalınmaz sürəcə çevrilib. Bütün bu deyilənlər göstərir, xalqın hiddətinə yiyə çıxan olsa, dəyişiklik baş tuta bilər. Dövlətin mövcudluğunun sürməsi isə sadəcə siyasi öndərlikdəki dəyişikliyə bağlı deyil, bütün strukturlarda ədalətin, həqiqətin bərpa olunmasına bağlıdır. Xalq öz dövlətini sevməsə, onu qorumaz. Bu gün xalq, düşüncəsində, dövlətlə siyasi hakimiyyət arasında bərabərlik işarəsi qoyub. Xalqın iztirablarını, işgəncələrini, ləyaqətini gözə almayanlar dövlətçiliyə də, gələcəyə də zərbə vururlar. Bu zərbələr prezident seçkiləri zamanında daha qabarıq şəkildə özünü göstərir. Bir də görürsən beş adam, səkkiz adam adaylığını verir. (Bu yol artıq 20-ni də keçdi). Söz yox, bu çoxadaylılığı Batıda demokratiya kimi qiymətləndirirlər. Doğrusuna qalsa isə, çoxadaylılıq səsvermənin nizamını pozmaq istəyənlərin işinə yarayır. Əgər çoxadaylılıq demokratiyadırsa, Batının supergücü sayılan ABD-də niyə bu demokratiya yoxdur? ABD-də iki aday olur – respublikaçıların, demokratların. İki partiya döyüşür. Ancaq doğrudanmı döyüşür? Belə götürəndə bu iki partiya hakimiyyətin yönətilməsində sadəcə bir-birini əvəz edir. Hər biri, iki yol seçilməklə, uzun illərdir bu balansı qoruyub saxlayırlar. Elə hal olmayıb, bu partiyalardan biri üç yol dalbadal seçkini udsun. Qanunla bir adam iki yoldan artıq seçilə bilməz. Ancaq partiyanın başqa bir adayı üçüncü seçkidə uduş əldə edə bilməzmi? Sadəcə bu düşünülmüş bir sistemdir. Əgər ABD-də də hər seçkidə on adam adaylığını irəli sürərsə, bizdəki kimi anarxiya yaranar. Belədə isə ABD dünyaya ağalıq olanaqlarını itirə bilər. Çünkü razılaşdırılmamış qalibiyyətlərdə bir-birinə qarşı qısqanclıq, qisasçılıq əməlləri özünü göstərərdi, bununla da içsəl qarşıdurmalar, dediyimiz kimi, dövlətin gücünü heçə endirərdi. Deməli, çoxpartiyalılıq dövlətin daha çox asılılığı deməkdir. Başqa sözlə, çoxadaylılıq bölücülük deməkdir, bu da anarxiyanın yaranmasına səbəb olur. Hakimiyyəti əldən burax-

maq istəməyən qüvvə isə bu durumdan özü üçün önəmli bir şəkildə qullana bilir.

Ona görə, ABD-nin demokratiyası "kim istəyir" prinsipinə dayanmır, dünya üzərində ağalığını qoruyub saxlamağa dayanır. Bizdə isə hər kəs özü üçündür. Bu "özüüçünlükdə" isə dövləti yaşada biləcək, xalqı qurtaracaq sorumluluq özünü göstərmir, göstərə də bilməz.

Oyunlarla başlasa da, bu gün Milli Şura bir aday irəli sürüb. Gözlənilməliydi, seçkidə iki aday olacaq – biri hakimiyyətin, biri də müxalifətin. Ancaq hakimiyyət öz "müxalifətinin" nümayəndələrini də ortaya çıxartmaqla özünün "demokratiyasını" həyata keçirir. Səsləri bölmək, əyintilərə yol vermək üçün ən yaxşı üsul elə bu demokratiyadır. Onsuz da siyasi dünya Azərbaycanda dəyişikliyin baş verməsini istəmir. Ona görə "iqtidar demokratiyası" bu istəməməyi ödəmiş olur. Nə yazıqlar, Milli Şuranı ortaya çıxaran dağınıq müxalifət, onu qorumağa, özündə ərdəmlik, milli qürur tapa bilmir. Yenə söyüşlər, yenə cırmaqlaşmalar... Xalq dediyimiz toplum bunlara güvənib səs verə biləcəkmi?! Səs versə də, səsinə yiyə duracaqmı?! Kimə inanıb bunu edəcək?!

Hər bir tarixi, siyasi ortamı, gedişin anatomiyasını araşdırdıqca, biz yenə öz dediyimizə dönür, öz məntiqimizdə vurğu edirik: Azərbaycanda köklü dəyişikliyi həyata keçirmək üçün sağlam Milli Qüvvə formalaşmalı, Uluyurd Hərəkatına başlamalıdır.

## Milli dövlət sorunumuz

Uzun zamandır Azərbaycan-Türkiyə münasibətlərinə dövlət səviyyəsində soyuq küləklər əsir. Toplumsal-siyasi aləmdə bunun nədəninə fərqli yanaşmalar var. Özünün siyasi çıxarını başlıca sayan qüvvələr düşünürlər, Türkiyə demokratik, Batı dəyərləri ilə qaynayıb-qarışmış (inteqrasiya etmiş) ölkədir. Azərbaycan isə demokratik olmayan, özbaşınalıqlarla, anarxi-

yaya yuvarlanmaqla nüfuzunu itirmiş durumdadır. Bir az türk sevgisi ilə düşünənlərə görə, Türkiyə oturuşmuş, təcrübəli dövlətdir, Azərbaycan isə gəncdir, imperiya etkisindən yeni çıxıb. Ancaq soyuqluğun doğru nədəni başqadır. Ola bilər, indi deyəcəyimiz düşüncələrlə ortaq olanlar da var. Bizə görə münasibətlərdəki soyuqluğun birinci nədəni həm Türkiyə hökumətinin, həm də Azərbaycan hakimiyyətinin Türklüyə arxa çevirmələridir. Bu gün Türkiyədə Ərdoğanın başı hakimiyyətini qorumağa qarışıb. Yardımı ilə hakimiyyətə gəldiyi Fətullah Gülənin ABD-dən tolazladığı sapandların zərbələrindən yayınmaqla uğraşır. Bunun üçün də özünü türk sevdalısı, Türkiyənin qoruyucusu kimi qandırmağa qalxıb: "40 il boyunca dövlətin içinə sızmağa çalışmış bir sistemdən söhbət gedir" deyərək, "xaç atası" Fətullah Güləni Türkiyə üçün qorxulu, özünü isə məsum göstərməyə çalışır. Görəsən Ərdoğan, Atatürkün qurduğu dövlətin içinə girmək üçün 40 il fəndlər düşünən, planlar cızan bir örgütün ayağına çarıq olduğunu yaddaşlardan silə biləcəyinə özü inanırmı?! Bəlkə hakimiyyətə gəlmək üçün "örgütlərin lideri"nə (özü F.Güləni belə adlandırır) baba deməsi Türkiyə dövləti üçünmüş?! Ömrünü türklüyün qorunmasına bağlamış onlarca türk fədailərini şərləyib zindanlara doldurmasını Gülənin ayağınamı yazacaq?! Özünü "Orta Doğu müsəlmanları yönətimi"nin "baş mollası" kimi sırıyanda " mənim millətim kürddür, türkdür, arapdır, lazdır" deyirdi. Atatürkün "nə mutlu türkəm deyənə" sözünü bəşəriliyə tərs bir baxış kimi yeritmək istəyir. Ancaq Ərdoğanlar heç vaxt anlamaq istəmirlər, milləti böyütmək, sevmək bəşəriliyi danmaz, təsdiq edər. İndi Nurçuluğun "baş mollası" onu hədəfə götürəndə Türkiyə dövlətinin çıxarından "çıxış edir". Halbuki bu qədər nala-mıxa vuran adamın Türkiyə Baş Bakanlığına gəlməsi Gülənlərin yardımları ilə baş tutdu. Yəni toplumun dini duyğularını işğal etməklə Atatürk prinsiplərinə vurulan zərbənin bir başı Gülənin əlində idi, bir başı da Ərdoğanın. 40 ildir bu cütlüyün qatıldığı bir sistem Türkiyəni sarsıtmaq üçün gücləndirilən PKK-nın da dolayısı ilə himayəçisi olmuşdur. Bu PKK məsələsində onların siyasi so-

rumluluq daşıyıb-daşımamasını Türkiyə dövləti qiymətləndirə bilər. Ancaq onların mənəvi sorumluluq daşımalarını heç kim dana bilməz. Bu iki dış qüvvə "oyuncaqları"ndan biri Türkiyə siyasətinin içinə soxulmuş, bölücülüyün ideoloqu olan o biri isə ABD-də himayə edilmişdir. Nə yazıqlar, çağdaş Türkiyə siyasətində bu "oyuncaqlar"ı ifşa edib aradan qaldıra bilən güclü Milli Qüvvə yoxdur...

Azərbaycanda da 40 ildir toplumu manqurtlaşdıran yönətiçilik iş başındadır. Bu illər içrə türklüyün başını davamlı olaraq kəsən bir rejimin Türkiyə ilə hər hansı bir ortaq dəyəri ola bilməz. Talançılıq, genefondun məhv edilməsi elə bir həddə çatıb, gedişi tənzimləmək üçün rejimin özü götür-qoy eləmək zorundadır. Uğurlu götür-qoy eləmək də heç vaxt alınmayacaq. Çünkü toplumsal pozuntunun qarşısını almaq üçün köklü dəyişikliklər tələb olunur. Bu tələblərin qısa zaman içində gerçəkləşməsi isə rejimin özünün çökməsi demək olar. Əlində kapital toplanmış qüvvələrin dağıdıcı gücü var... Dediklərimizi bir misalla genişləndirsək, daha yaxşı anlaşılmış olar: Bu günlərdə Milli Məclisin öndəri Oqtay Əsədov yas yerlərində Quranın türk dilində (onlar Azərbaycan dilində deyirlər) oxunmasını önərir. Allahşükür Paşazadə isə ultimativ dildə danışıraq: "yas yerində Quranın Azərbaycan dilində oxunması müzakirə qonusu ola bilməz!" deyir. Baxın, qanunla din dövlətdən ayrıdır, ancaq Allahşükür Paşazadə qanunverici orqanın başında duran adamla hökmlə danışır. Kimə güvənir, nəyə güvənir?! Niyə türk yası ərəbcə ifadə olunmalıdır? Söz yox, türk xalqını güclə mənəvi geriliyə bağlayan mollabaşılara yerini göstərmək üçün türklüyün hakim olduğu dövlət gərəkdir. O da ki yoxdur. Olsaydı, bu Qurumun (QMİ-nin) başbilənindən soruşardı, niyə ərəb dili, ərəb quralı icra olunmalıdır?! Niyə Allah türkə ərəb qibləsinə yaşamaq əmri verib?!

O.Əsədovun önərisi çox gecikib. Artıq dövlətin içində "uzun saqqal, gödək şalvar" bir çete özü üçün toplumsal yönətmə biçimi oluşdurur. Dövlətin ağzının içində vətəndaşdan terrorçu düzəldib dış ölkələrə göndərir. Nə vaxta qədər tolerantlıq

oyunu ilə onların əməllərinə göz yumub, torlarına düşən gəncləri isə zindanlara dolduracaqsan?! Güvənc yerimiz olan dövlətimiz talançıların əlində oyuncağa çevrildi, heç kimimizə, heç nəyimizə yiyə çıxa bilmir.

Bir sözlə, münasibətlərə zərər verən misallar yetərincədir, istəyimiz onları saymaq deyil.

Bəs nə etməli, iki türk dövlətinin – Azərbaycanla Türkiyənin yönətiçiliyi əldən çıxıb, durum da getdikcə çətinləşir. Düşünürük, həşirlərə düşmədən, uymadan Milli Qüvvə oluşmalı, həm orda, həm burda. Onlar birləşməlidirlər!

## Böhranın kölgəsi

Bu gün toplumun başlıca bir qonusu var: devalvasiya, iqtisadi böhran. Ancaq böhran toplumun yaşamına tam girməyib, toplumun üzərinə düşən böhranın kölgəsidir. Bu da, belə götürəndə, sonucdur. Daha doğrusu, sonucun başlanğıcıdır. Böhran isə 20 ildən artıqdır yaşanır. Bu çağacan siyasal yönətim böhran pillələri yaratmaqla uğraşırdı. İndi ilk həşirə düşən də siyasal yönətimin başında duran harın şəbəkənin özü oldu. Çünkü bu şəbəkə həmişə "düz xətt" üzrə yaşayıb. Düşüncəsi də "düz xətt" üzrə formalaşıb. Dünyanın qlobal işlərinin gedişini, ayrı-ayrı aşamalarda hansı sonucları verəcəyini, bu şəbəkənin anlamaq gücündə olmadığını zaman dönə-dönə ortaya qoyub.

Sonuc bir anda baş vermir, ancaq onun bütün ağırlığı bir anda özünün kulminasiya nöqtəsində dayanır. Belə anlarda dövlət bu ağırlığa hazırlıqsız yaxalanır. Topluma münasibəti bəlli olmayan bir şəklə düşür. Budur, toplumumuz səfalətin son həddində yaşayır. Bıçaq sümüyü deşib keçməkdədir. Belə bir ağrıya dözmək isə olduqca çətindir. Toplumun ağrılarına nədən olan da, onu aradan qaldırmağı vəd edən də şəbəkənin başında duranlardır.

Bu gün toplumun üzləşdiyi sosial fəlakət – son həddi aşan qəzəbin amansız görkəmi ilə dik dayanıb gözlərimizin içinə baxır. Bu qəzəb sanki toplumun bütün ümidlərini məhv eləmək qərarına hazırlaşır. Bu qərarda min cür kələk, min cür yalanlar dolanır, bir-bir başını çıxarıb özünü topluma göstərir. Buna misal kimi, Milli Bankın rəhbərliyinin, eləcə də ölkə başçısının bir-birini danıb yalana çıxaran qərarlarını, çıxışlarını göstərmək olar. Bu köhnə üsuldur. Hiddətinə sarılıb küçələrə axan toplumu sakitləşdirmək üçün göstərilən çabalardır. Ölkə başçısının tez-tez hökümət təmsilçilərini bir araya toplaması, iki gündən artıq ömrü olmayan qərarlar verməsi, toplumun baxışını yayındırmağa hesablanıb. Göstərməyə çalışırlar, durumdan çıxmaq üçün gərgin iş gedir, çabalar göstərilir. Gərək toplum da bir az səbrli olsun, bunların başını sosial tələblərlə qatmasın.

Beləcə, bir ay, iki ay vaxtı uzadıb hiddətlərin sakitləşməsinə çalışırlar. Toplumun da hiddəti yatdısa, bərpası uzun zaman tələb edir.

Hakimiyyət ayrı-ayrı millət vəkillərinin, məmurların diliylə ciddi islahatlara başladığının görüntüsünü yaradır. İslahat – uğurlu dəyişikliklər anlamı daşıyan sözdür. Ancaq bizdə islahat, başlıca olaraq, iş yerlərinin bağlanması, işçilərin kəsirə düşməsi yönündə həyata keçirilir. Dövlət başçısının başqa yöndən islahat qərarları, demək olar, özünü doğrultmur. Dövlətin xeyrinə atılmalı elə addımlar var, bu addımlar məmurlar şəbəkəsinin ziyanına nədən olar. Ancaq eyni halda, bu şəbəkənin başında duran dövlət başçısının özünün də maddi sisteminin çökməsinə gətirib çıxarar. Dövlət başçısı öz maddi sisteminin çökməsinə göz yumub millət üçün fədakarlıq edərmi?! İnandırıcı deyil. Belə isə onun uğurlu islahatlar həyata keçirməsinə inanmaq da boş, anlamsız bir məsələdir. Tərsinə, toplumun sosial həyatının çöküşünə yol açan başqa bir aşamaya doğru addım atılır – dışarıdan böyük çəkidə kredit götürməyə hazırlıq yapılır. Bundan sonra yaşadığımız siyasal böhran daha da dərinləşəcək. Sosial sorunların kəskinləşməsi isə yeni qarşıdurmalara nədən olacaq.

Deyirlər iqtisadi böhranın ağırlığını təkcə Azərbaycan deyil, bir sıra ölkələr yaşamaqdadır. Biz isə deyirik: Azərbaycanı başqa ölkələrlə tutuşdurub yaranmış fəlakətlərə haqq verməyə heç kimin haqqı yoxdur. Başqa ölkələrin talançıları ilə qoy öz içlərində uğraşsınlar. Biz elə bir olanaqları olan ölkəyik, istənilən qlobal bir böhran bizi ən aşağı həddə yaxalaya bilər. Ölkənin başında duranlar illərdir, milli strategiya haqqında düşünmür, ancaq ölkənin sərvətlərini talamaq yarışına girişirlər. İllərdir biz bu fəlakətlərin içərimizə yeriməsini təşkil eləyən talançılıq yarışlarını izləyirik.

İşin bir pis cəhəti də odur, talançılara son verməyi millətin özü deyil, onun İradəsindən qıraqdakı dış qüvvələr düşünür. Görünür, millətin çıxarını düşünmək yükünün ağırlığı ölkə aydınlarının, millətsevərlərin üzərinə düşəcək.

Düşünürük, bu gün onların görəvi Milli Konsepsiyanı işləmək olmalıdır. Biz hər şeyə gecikdikcə, hər şeyə də hazırlıqsız yaxalanırıq. Ciddi düşünmək çağıdır...

## Milli Dəyər Dövlətin özülüdür

Bala verməyən heyvanlara qısır deyirlər. Ancaq bu qısırlıq növbəti il aradan qalxa bilir. Övladı olmayan atalara da "sonsuz" deyirlər. Ancaq sonsuzluq həmişəlik olur. Düşünürük, millətin də "sonsuzluğu" var. Məsələn, dəyər yaradıb bəşəri səviyyəyə qalxa bilməyən millətі "sonsuz" saymaq olar. Sonsuz adamlar çoxluq baxımından əligödək (xəsis), acgöz olurlar. Dəyərsiz millət də xəbis, məkrli olur. Biz bunu erməninin varlığında gördük. Azərbaycan mətbəxini, musiqisini mənimsəməklə bəşər ailəsində özünü var göstərməyə çalışır. Əgər müsəlman olsaydılar, onlarda ərəb, fars adları yayılmış olsaydı, böyük şəxsiyyətlərimizi də adlarına çıxardılar. Necə, talışlar Babəki, kürdlər Zərdüştü, Babəki, Novruz-Ergenekon bayramını öz adlarına çıxırlar. Bunun birinci nədəni odur, türklərlə adı

çəkilən toplumlar eyni dünyagörüşü – müsəlmançılığı paylaşırlar. Bu toplumların (türklərin, talışların, kürdlərin) şəxs adları bir-birinə bənzəyir. Çünkü din amili çox böyük rol oynayır. Din bu toplumları ruhani işğala uğratdığı kimi, öz anlayışlarını, şəxs adlarını da (bizə, onlara) sırıyıb. İkinci nədən, Türkün öz yaratdığı dəyərlərə yiyə çıxmamasıdır. Zərdüşt Azərbaycanın olduğu halda, İran dəyəri, ya da İran xalqlarının ortaq dəyəri sayılır. Geneldə, xalqların ortaq bir dəyəri ola bilər. Məsələn, Muğam. Ancaq şəxsiyyət necə ortaq ola bilər?! O, bir millətin övladıdır. Şəxsiyyət yaratdığı dəyərlə də ortaq ola bilər, birey kimi isə eyni vaxtda beş millətin törəməsi ola bilməz. Konkret Novruz-Ergenekon bayramı isə özündə daşıdığı atributlarla hardan qaynaqlandığı bəllidir. Bu bayramın məzmununda başlıca atribut odla bağlıdır. Od isə Azərbaycanın mahiyyətindən irəli gəlir, – İşıqçılıq ideyası Azərbaycanın bütünlükdə ruhaniyyat tarixinin özəyini təşkil edir. Biz bu haqda çox yazmışıq. Ən başlıcası Asif Atanın “Azərbaycanımız – Azərbaycanlığımız” izharında bu “işıqçılıq ideyası” bütöv bir xətt təşkil edərək yəqinlik yaradır. Məsələn, Zərdüşt Odçuluğu – İşıqçılığı; Dədə Qorqud Müdrikliyi – İşıqçılığı (Qorqud sözünün özü də odla bağlıdır); Babək Özgürlüyü – Fərəhçiliyi – İşıqçılığı; Nəsimi İnsançılığı – İşıqçılığı; Füzuli Aşiqçiliyi – İşıqçılığı; Muğam İlahiliyi – İşıqçılığı; Saz Tanrıçılığı – İşıqçılığı. Azərbaycan sözünün mənası da Oda – İşığa bağlıdır. Od Qoruyan, Odlar Yurdu – saydığımız ruhani məzmunla, özəllikcə onun ilkinliyi ilə (Zərdüştçülüklə) bağlıdır. Bu səbəbdən də, guya bu dəyərlərin yaradıcısı kimi özünü bəşəriyyətə, tarixə sunmaq istəyənlərin çabası bütünlüklə gərəksizdir. Bəs bu çabaların nədəni hardan qaynaqlanır?! Tarixdə köklü qədim xalqlar var. Bu xalqların varlığını ifadə eləyən başlıca çalarlardan biri, bəlkə də birincisi dildir. Dil varsa, mədəniyyət də olmalıdır. Çünkü dilin ifadə elədiyi məna, məzmun olmazsa, gəlişə bilməz, sıradan çıxa bilər. Ancaq dilin gəlişməsi iki yöndə mədəniyyətə bağlı olur. Daha doğrusu, dilin gəlişməsi, yaşaması mədəniyyətin etki olanaqlarından asılıdır. Yəni bir var öz içində mövcudluğunu tə-

min etmək, bir də var, dünyaca etkili olmaqla, bəşər sivilizasiyasının yaranmasında, yenilənməsində qatqısı olmaq. Millət öz içində mövcudluğunu özünəxas məişət mədəniyyəti, əmək-təsərrüfat yaradıcılığı, bireysəl incəsənət qabiliyyəti ilə sürdürür. Ancaq sivilizasiyaya etki göstərmək başqa bir olanağın olmasını istəyir. Bu da Dövlətçilik məsələsidir. Dövlətçiliyin olması isə asan bir iş deyil. Dövlət elə-belə yaranmır. Gərək xalqın bəşəriyyətə verdiyi dəyər olsun. Bəşəri dəyər yaratmaq xalqı haqlı edir. Bu olmadıqda, bəşəri səviyyədə dəyəri, mədəniyyəti olmayan xalq, qaçılmaz olaraq, mədəni xalqların etkisinə uğrayır. Ona görə də "Dövlət yönətimi" həmin mədəni xalqa xas olur. Dövlət özündə yaşayan bütün toplumları, hamıya etki göstərə bilən, mədəniyyətlə bir araya gətirib yönətir. Tərsinə olsaydı, dövlət məsələsi baş tutmazdı.

Bu gün siyasi dünya qədim, köklü xalqların dövlətlərini parçalamaqla "kürd dövləti" yaratmağa çalışır. Söz yox, bu "yaradıcılıq" humanizmə deyil, siyasi istəklərə dayanır. Ancaq nəyə dayanırsa dayansın, gərək dövlət yaratmağa haqq edəsən. Bu haqq isə millətin bəşəri səviyyədə dəyər, mədəniyyət yaradıcılığının olmasını tələb edir. Tarixdə isə bizə kürd toplumunun istər dəyər, istər mədəniyyət yönündən bəşərə örnək verməsi bəlli deyil. Ona görə də kürd toplumunun ayrı-ayrı nümayəndələri, dövlət yaratmağa haqlı olduqlarını sübut eləmək üçün, bəşər səviyyəsinə qaldırdığımız ayrı-ayrı dəyərlərimizi öz adlarına çıxmağa başlayıblar. Bəs niyə İranın deyil, Türkiyənin, İraqın deyil, Azərbaycanın dəyərlərinə göz dikirlər?! Bunun başlıca nədəni, Azərbaycanın güclü dövlət deyil, parçalanmış, bölünmüş durumda olmasıdır. İkinci nədəni isə, Azərbaycanın öz dəyərlərinə yiyə durmamasıdır, ya da dəyərlərinə soyuq yanaşmasıdır. Bu nədən həm də birbaşa birinci nədənlə bağlıdır. Yəni parçalanmış, bölünmüş olduğu üçün gücü zəifdir. Gücü zəif olduğu üçün dəyərlərinə yiyə dura bilmir...

Elə düşünə bilərlər, bəşəri dəyəri, mədəniyyəti yaratmaq üçün qabaqca millətin dövləti olmalıdır. Biz isə düşünürük, millət – dövlətinin olmasına qədər də bəşəri dəyər yaratmalı idi. Mə-

sələn, bu günkü siyasətini, mövqeyini qəbul etməsək də, yəhudilər, dövlətlərini yaradana qədər də, bəşəri dəyər veriblər. Ancaq Azərbaycanı parçalayıb erməniyə dövlət yaratdılar. Erməni yüz ilə yaxındır dövlətli sayılır, bununla belə, heç bir bəşəri dəyər verməyib, tərsinə, yalnız dağıdıcılıqla uğraşıb. Deməli, xalqın mayasında, mahiyyətində olmalıdır – Bəşərilik, Dəyərçilik!

## Türk Ruhu – Qurtarıcı Dəyərdir

Tarixə hikmət söyləmiş türk ruhunu öyrənib deyirik – dünyanı türk ruhu qurtaracaq. Ancaq bunun üçün türk ruhunu diriltmək, dirçəltmək gərəkdir. Türk ruhunu öldürüb bəşəriyyətin xarabalıqları üzərində bayquş kimi ulayan dünyaya Gələcək uğurlar vəd eləmir. Başqaları bəşəriyyətə gərək olan türk dəyərlərini adiləşdirir, ya da sıradan çıxarır, türk isə başqalarının adi dəyərlərini urvata mindirir. Tarixdə belə örnəklər çoxdur. Onlardan biri Məcnunluqdur. Ərəblərin "Leyli, Məcnun" dastanı Füzulu poeziyasında ilahi haraya çevrildi. Məcnun türk deyil, ancaq Məcnunluq türk ruhudur. Türk ruhunun harayladığı Məcnunluq ilahi münasibətlər oxuludur, həyata ruhani uyum gətirən sevdalılar örnəyidir.

Məcnunda "İslam" qapalılığı, mütiliyi yox idi. Taleyi ilə barışmır, ahı-fəryadı ilə Allahın "yazdığını" da, özünü də oda qərq edirdi. Məcnun "dəliliyi" din möminliyindən yüksəkdə dururdu. Füzulu ruhundan gəlirdi Məcnun harayı. Yüzillərdir bu haray sağlam bəşəriyyətin qəlbinə dolur, riqqət yaradır. Ərəb Məcnunun harayını ürəyi ilə duymadı, qulağı ilə eşitdi. Ona görə də ürəyi kor qaldı...

Türk ruhunun Koroğlu məsumluğu, mərdliyi, möhtəşəmliyi var. Koroğluda arılıq, toplumsal ədalətə vurulmaq, doğmalıq, imtina, halallıq Məcnunluğa çox yaxındır.

"Koroğlu"nu bir sıra qaynaqlar 16-cı yüzilə özgün edirlər. Ancaq Koroğluluq özündən min illər öncəki gələnəklərə bağlanır. Koroğlu dünyasında igid, mərd, döyüşkən olmayan yoxdur.

Koroğlu dünyası ideal toplumdur – hamı halaldır, ədalətlidir, xeyirxahlığı yaşadandır. Orada demokratiya oyunu yerinə idraki müdriklik var. Koroğlu belə bir dünyanı birləşdirir, nizamlayır, yönəldir. Koroğluluq Dədə Qorqudluğa bənzəyir. Üstündən min illər keçir, ancaq Türkün sağlam niyyəti dəyişmir. Ədalət istəyi, qəhrəmanlıq çağı, ağsaqqallıq nüfuzu ulusal yaddaşda sabaha gedir. Min illərdir türk bu diləklərlə, bu çabalarla yaşayır.

Dədə Qorqudluqla Koroğluluqda təkcə qəhrəmanlıq, ağsaqqallıq, hallalıq motivləri deyil, fəlakət motivləri də üst-üstə düşür. Oğuz elinə dönüklük sızması, Yalıncıq adlanan şərin Beyrəyə qəsd etməsi ilə Oğuz tayfaları arasına yağılıq düşür. Birliyi dönüklük qanı suvarır, qırılır birlik...

Keçəl Həmzə adlanan şərin fitnəsi ilə Koroğlu dünyasına da kədər dumanı çökür, Dəlilər Koroğludan üz döndərir. Ancaq gələnək asan pozulmur, Koroğlu dönüklüklə döyüşür, birliyi bərpa edir...

Asif Ata özünün “Koroğlular, Həmzələr” əsərində gəldiyi bir düşüncəni görüşlərində vurğu edirdi. O deyirdi, Türkdən Həmzə çıxmaz, yəqin o, erməni idi. Bu düşüncəni bir az da gəlişdirmək olar. Koroğlu arılığı, mərdliyi, ürəyiyumşaqlığı Həmzəni içəri buraxdı. O da dönüklük edib Koroğlunu yağıların, deyək, öz qəyyumlarının ayağına verdi. Sonucda Həmzə öz eybəcər diləklərini həyata keçirdi.

Bu faktı daha qlobal araşdırsaq, Türkə qarşı dönüklük törətmiş erməni toplumu ilə tutuşdururuq. Türk erməniyə qarşı humanist davrandı, onu yurduna buraxdı. O isə Türkə arxadan zərbə vurdu, torpağını parcaladı, qəyyumlarının məqsədinə qulluq elədi.

Şər türkə dönüklüyündən usanmır, Türk isə “sadəlövhlüyündən”. Yəni arılığından, halallığından, ürəyiyumşaqlığından. Biz demirik, Koroğlu dönüklük görəndən sonra bir daha ürəyiyumşaqlıq etməməli idi. Ya da Koroğlunun qanından olan türk millәti öz humanistliyindən əl çəkməli idi. Humanizm, mərdlik, ürəyiyumşaq olmaq, sadiqlik – türkün özümlüyüdür. Türk

özümlüyündən əl çəkə bilməz. Əl çəksə türk olmaz, erməni olar. Türk türklüyündən əl çəkməli deyil, Türklüyünə yiyə çıxmalıdır. Milliliyi, dövlətçiliyi yenilməz bir qüdrətlə qorumalıdır. Belə olanda, üzünə qapı açdığı, ürək qızdırdığı türk olmayan etniklər, başqa toplumlar türkə dönüklük etsə də, onu devirə bilməz. Türkdə qoruma qüdrəti var. Bu qüdrəti ifadə eləmək üçün, başqalarına gərək olduğundan daha artıq səviyyədə özünə gərək olmalıdır. Milli ideoloji ilə dövlətçilik özülünün möhkəmlənməsi, Milli Dəyərlərin gəlişməsi, qorunması ilə gücə çevrilməsi – Türkün özü üçün də, dünya üçün də sabitlik əmniyyəti yarada bilər...

Koroğlu Türk dəyəridir. Ancaq onun anlamı Azərbaycançılıqda daha aydın özünü göstərir. Doğmamız Türkiyə Koroğlu filmi çəkib. Ancaq orada nə Koroğlu var, nə də Eyvaz. Filmdə Eyvaz fırıldaq, cüvəllağı bir uşaq kimi təsvir edilir. Bizim dastanlarımızda isə Eyvaz döyüşkən, ölümlə öcəşən, yenilməz qəhrəmandır. Ona görə də Koroğluluğu Azərbaycanın dastanlarında, Üzeyir Hacıbəylinin "Koroğlu" operasında, Dədə Qorqud Dünyasına bənzərliyində dərk eləmək olar.

Yuxarıda vurğuladıq, "Koroğlu" 16-cı yüzilə özgün edilir. 16-cı yüzildə isə indiki Türkiyənin yerində Osmanlı imperiyası var idi. Söz yox, İslam təfəkkürlü Osmanlı dünyasında "Koroğlu" olayı öz mahiyyətinə bərabər səviyyədə dərk olunub qəbul edilə bilməzdi. Ancaq baxmayaraq, 16-cı yüzildə Azərbaycanda da İslam dünyagörüşü hakim idi, "Koroğlu"ya İslam elementləri girə bilməyib. Bu, Azərbaycançılıqda türk ruhunun möcüzəsi idi. Səbəb də odur, o çağlarda Türk təfəkkürünü oyadan Hürufiliyin etkisi, özəllikcə Nəsiminin harayları könülləri, düşüncələri fəth etmişdi. Eləcə də dövlətçilikdə türklüyün, türk dilinin hakim mövqedə dayanması xalqın düşüncəsində özümlüyünə meyil aşılayırdı. Elə bu kimi məsələlərə bağlı olaraq, Asif Ata Azərbaycanı türklüyün beyni, ürəyi sayır...

Yenə sözümüzü Asif Atanın sözüylə bitirək: Azərbaycan türk ruhunun ən parlaq ifadəsidir!

## Ruhsal Özgürlüyümüz – Ulusal Gələcəyimiz

Bu gün Azərbaycan toplumunda toplumsal çalışmaların spektri çox rəngarəngdir. Ancaq bunlar bir-birinə bağlı deyil. Bu da ondan irəli gəlir, çalışmalar eyni məqsədə qulluq eləmirlər. Bunun nədənini aydınlaşdırmağa keçməzdən öncə xarakterizə eləmək doğru olar:

I. Hakimiyyət ugrunda siyasi çalışmaları deyək. Bu çalışmada bulunan qüvvələr olduqca dağınıq, gücsüz, yöntəmsiz bir durumdadırlar. Ən başlıcası, ulusal yöndə bunların heç bir ortaq paylaşımları da yoxdur. Eləcə də siyasətdən qıraqda çaba göstərənlərlə (deyək, ədəbiyyat, mədəniyyət adamları ilə) onların ortaq bağlantıları gözə dəymir. Sadəcə ayrı-ayrı küsdürülmüş, incidilmiş ədəbiyyat, sənət, mədəniyyət adamları siyasi qüvvələrin yanında yer alır. Burada da yerliçilik amili güclü rol oynayır. Başqa təbəqənin adamlarının öz bölgəsindən olan siyasətçilərin yanında yer alması, bir daha onların çalışmalarında ulusal istəklərin yoxluğunu sübut edir.

II. Tarixçilərin çalışmaları: burada da ulusal istəkləri doğruldan çabalar çox azdır. Dağıdıcı qüvvələrin buyruguna girmiş adamlar (bunların içərisində ayrı-ayrı etnik toplumların da nümayəndələri var, baltalara sap olan özümüzünkülər də) tarixi köklərimizə daim zərbə vururlar. Onların çalışmaları başlıca olaraq, danmaq, yanıltmaq (təhrif), gizləmək biçimində özünü göstərir. Bu xalqı kökündən ayırmaq, onun törəmə bir şey oldugunu qondarmaq bəlli strategiya ilə gerçəkləşdirilməkdədir. Dediyimiz kimi, bunun qarşılığında ulusal kimliyin təsdiqi yönündə çalışan tarixçilər çox azdır, onların etkisi də bir o qədər ötkəm deyil.

III. Ədəbiyyat, sənət yönündə çalışmalar. Sovet ideolojili quruluş dağıldıqdan sonra çoxları ədəbiyyat, sənət xəttində ulusal bireylərin ortaya çıxacağını gözləyirdi. Ancaq nə yazıqlar, başqa istəklər, çalışmalar ortaya çıxarıldı. Dəyərlərin, şəxsiyyətlərin, ulusal keçmişin yenidən qiymətləndirilməsi adı altında

dağıdıcı, danıcı, lağlağıya çevirici ədəbiyyat-sənət örnəkləri araya gətirildi. Üzdən baxanda çox yaxşı səslənir – ələşdirmə, yenidən qiymətləndirmə. Adını da qoydular postmodern ədəbiyyat. Ayrı-ayrı istedadlar dağıdıcılığa yönləndirildi. Dagıdıcılıq xəttində yarışlar başlandı. Bu yarışlarda udanlar ödülləndirildi.

IV. Mədəniyyət xəttində çalışmalar. Bu məsələdə ən çox qabağa gedən, daha doğrusu, qabağa aparılan musiqi sahəsidir. Yabançı musiqi çeşidləri qazanc-gəlir qaynağına çevrildi. Xalq mahnıları, el havaları sıradan çıxarıldı. Əxlaqsız, mənəviyyatsız adamlarla səhnələr dolduruldu. Onları tanıtmaq üçün proqramlar işlənildi. İndi hər gün onların əxlaqsız davranışları, mənəviyyatsız yaşamları yayımlanıb topluma sırınır. Hələ ulusal mahiyyətini anlamayan gəncliyə sübut eləməyə çalışırlar, özünə karyera qurmaq, firavan yaşamaq bu cür çalışmalarla əldə olunur.

Mədəniyyətin bir yönü də idman çalışmalarıdır. Öncələrdə də yazmışdıq, idman iç siyasətin birinci sütunudur. Sağlamlıq istəyilə deyil, qazanc istəyilə həyata keçirilən idman, həm də, hakim elitanı qorumaq görəvi daşıyır. Bir sözlə, idman xalqın ulusal qalxınma tələblərindən deyil, siyasətin toplumu gerilikdə (cəhalətdə) saxlaması istəklərindən qaynaqlanır.

V. Ruhaniyyat yönündə çalışmalar. Siyasi çalışmaların bir hissəsi olsa da, buraya ideoloji çalışmaları da qatmaq olar. Çünkü ruhaniyyat ideologiya yaradır, ya da ideologiyaya çevrilir.

Ruhaniyyat bizi ən çox düşündürən çalışma sahəsidir. Belə götürəndə, bütün sorunların ilk böyük nədəni birbaşa buradan qaynaqlanır. İnsanı ayaqda tutan, onun çalışmalarını doğrulayan, ya da əyən ruhaniyyat olayıdır. Ayrı-ayrı insanlar – bilim adamları, ədəbiyyat adamları, fəlsəfə, siyasət adamları fərqli düşüncələrlə fərqli çalışmalarda bulunsalar da, bütövlükdə toplumun həyat özəllikləri ruhaniyyat qaydaları ilə nizamlanır.

Yurdumuzda ruhaniyyatın yönü, yöntəmi də hər kəsə bəllidir. Min ildir ruhaniyyat məsələsində yenilmiş durumdayıq.

Yabançı bir ruhaniyyat ulusal özünüqoruma sistemimizi sıradan çıxarıb, milli şüurumuzu işğal edib. Dediyimiz kimi, demək olar, bütün sorunlarımız burdan başlayır. Siyasi qüvvələrimizin yenilgənliyi, ulusumuza, özünə güvənsizliyi, ulusun gələcəyi uğrunda deyil, hakimiyyət uğrunda savaşması – ulusal yaşamımızda özgür, özümlü ruhaniyyatçılığın olmamasına görədir.

Eləcə də tariximizi bilməməyimiz ucbatından milli gəlişmə tariximizin yanlışlara uğradılması ruhaniyyatsızlıq etkisində milli şüurumuzun yenilməsinə görədir. Yadlığı həmişə yaşamımıza özül edib özümlüyümüzün qədir-qiymətini bilməmişik.

Ədəbiyyatda, sənətdə olan adamların çoxları ruhsuzluq, ruhaniyyatsızlıq ucbatından kosmopolit yönlərə köklənir. Ədəbiyyat millətsevərliərin ağlında, ürəyində yaranmalıykən siyasi ideologiyaların yedəyində yaranır. Sonucda ulusallıq toplumsal istəklərə, yaşama gətirilmir.

Mədəniyyət sümürücüləri də, yuxarıda vurguladığımız qoşullar üzərində, millətin özəlliklərinə qarşı çalışırlar.

Millətin içində bu qədər dağıntıların olmasına görədir, Yurdumuz coğrafi baxımdan da paralana-paralana daralır, dövlətsizləşmə qorxusu ilə üz-üzə gətirilir. Hər cəhətdən toplumun mənliyi sıradan çıxarılandan sonra Vətəni sevən, qoruyan qalmır. Vətən sevgisini itirən hər kəs yörəsindəkilərə də vətənsizlik aşılayır. Toplumda psixoloji etki daha güclü olur. Çünkü toplum daha çox psixolojilik üstə yaşam sürür. Psixologiya da mənəvi özüllərə dayanmırsa, yenilmələr qaçılmazdır.

Bura qədər dediyimiz düşüncələri indi deyəcəyimiz ulusal sorunumuza görə genelləşdirib irəli sürdük.

Ötən yüzilin 80-ci illərinin sonunda başlayan qovulmalar, köçürtmələr Azərbaycan toplumunda hiddət, ağrı, qeyrət doğurmadı. Ya da, doğursa da, çox ötəri görünüb aradan getdi. Bunun dalınca daha fəlakətli münasibətlər ortaya çıxdı. Məsələn, Azərbaycanın Batı bölgələrindən (Ermənistan adlandırılan bölgələrimizdən) qovulanlara münasibət "mən-sən" ayrılığı üzərində quruldu. Ordan qovulan soydaşlarımıza "yeraz" dam-

ğası vuruldu. Bu gün "yeraz" sözü yiyəsiz, yurdunu atıb qaçmış, qeyrətsiz sözlərinin sinonimi kimi işlədilir. Ancaq heç kim oradan qovulmuş soydaşlarının işgəncələrə ugramasını, qardaqışda ayaqyalın, çılpaq dağlara səpələnməsini, namusuna toxunulan qız-gəlinlərin fəryadını özünün dərdi saya bilmir. Sanki bu faciələr – uğrayanların şəxsi dərdidir. Bir yandan yurdundan-yuvasından uzaq düşmələr, elat mədəniyyətini itirmələr, bir yandan da qaçıb qovuşduğu soydaşlarından ögey yanaşmalar qaçqın, köçkün yaşamı sürənlərə ağır zərbələr endirir. Sonucda o insanların gözündə bütün dəyərlər qiymətdən düşür. Dəyərə münasibətini itriən adamlar simasızlaşırlar.

Bir vaxtlar gözlərinin alışdığı, öyrəşdiyi doğa – dağlar, ormanlar indi yoxdur, onlarda ilahi duygular əmələ gətirmir. İlahi duyğular itirilirsə, vətənə, millətə sevgi ayaqda qala bilməz, gələcəyə umudla boylana bilməz. Elindən, yurdundan, doğasından ayrılmaq – kökündən, varlığa bağlı düşüncəsindən ayrılmaq deməkdir. Duyğular obyektsiz qalanda cılızlaşır, milli-mənəvi ayrıntılar əmələ gətirir. O insanlar üçün hər şeyin dəyəri adiləşir.

Görüşlərin birində Asif Atadan soruşdular, niyə qaraçılar sırtıq olurlar? Cavab verdi, çünkü vətənləri yoxdur. Doğru, vətən – insanda insani keyfiyyətlər bəsləyən qutsal olaydır. Yurd itkisində əxlaqi-mənəvi pozuntular çox olur.

Çadırlarda doğulan uşaqların vətəni haradır görəsən?! Onlar böyüyür, oxula gedir, başqaları onların gah üzlərinə, gah arxalarına deyirlər, xeyirli insanlar olsaydınız, yurdunuzu qoyub gəlməzdiniz. Bu anlamsız qınaqlar həmin gənclik üçün hər şeyi heçə çevirir. Onların çoxu vecsiz olur. Vecsizlik genişlənir, başqalarına da etki göstərir. Ağıl, ürək boş qalır. Bu boşluğu doldura biləcək ortam yox, dəyər örnəkləri yox, yiyə kimi qabağa duran dövlət yox. Bəs sabah vətənin yiyəsi kim olacaq?! Onsuz da çadırda doğulan uşaqlar üçün hər şey adi yaşanır. Onlar üçün ailə ilə, doğa ilə bağlı pünhanlıq ortadan qalxır. Sehr, sirr itir. Sehrlənməyən ürək qutsal duyğular bəsləyə bilərmi?! Elə onların böyükləri üçün də bu sorunlar yaşanır. Onların

öncə yaşadığı, onları boya-başa çatdıran doğanın yaratdığı duyğuların yerini nə doldura bilər ki?! Bu cür böyük milli-mənəvi itkilərlə üzləşən insanlar, getdikcə simasını da itirirlər – "yağışdan islanmışın sudan nə qorxusu"...

Ona görə postmodern ədəbiyyat asan yeriyir içimizdə. Hər cür yad, yabançı yönlər asan oturuşur. Bu cür pozuntular bütövlükdə xalqı pozur. Umudsuzluq, pozulmuş ruh yaşadığı, mövcud oldugu hər yerdə pis ovqatlara nədən olur.

Dindirəndə hər kəs deyir, qaçqınlar, köçkünlər gəlib pis gələnəklər yaratdılar. Halbuki türkün ruhu – qovulanların coğrafiyasında daha dərin özüllər üzərində yaşayıb. Türkün bənzərsiz dəyəri olan saz Azərbaycanın batı bölgələrindən yayılmadımı?! Adı dillərdə dolaşan ustadları bu gün öz yurdundan qovulanların anaları doğmadımı?!

Düşünmək gərək, ayrı-seçkilik yaratmaq millətə qarşı getməkdir. Millətin dərdini ayrı-ayrı bölgələrin ayağına yazmaq yolverilməzdir.

Bizim qovulmalarımıza yardımçı olan siyasi güclərin buyruğunda durub öz ulusunu söyənlər anlamalıdırlar, vətənin hər qarışına hər kəs sorumludur. Bizi içimizdə özümüzə qarşı qoymaqla əridənlərin dəyirmanına su olmaq dönüklükdür. Onsuz da dünyanın hər yerində ayrı-ayrı türk etniklərini əridib sıradan çıxarırlar. Buna qarşı açıq zor da işlədirlər. Tarixdə buna yetərincə örnək var. Bunu görmək vaxtıdır.

Bizi əritmək istəyənlərin başlıca planları özümüzü öz gözümüzdən salıb söydürmək, parçalara bölüb bir-birilə cırmaqlaşdırmaqdır. Bu həqiqəti anlamadan ulusal qalxınma aşamasına ayaq basa bilməyəcəyik.

## “Seçkinlər”in seçkiləri

Hər iki ildən bir ölkədə seçki sürəci başlayır. Dövlətə öndər seçirik – dövlətin güc strukturlarının əli ilə başıqapazlı oluruq: döyülürük, söyülürük, işimizi itiririk, tutuqlanırıq.

Millətin haqqını qorumağa vəkil seçirik – haqqımız hər yerdə ayaqlanır, sözümüz havaya gedir, əlimiz havadan asılı qalır. Millət vəkilləri sanki milləti incidən qurumları qoruyur.

Toplumsal, sosial sorunlarımızı yoluna qoymaq üçün bələdiyyə “vəkilləri” seçirik – başımız yüz dərdin içinə girir...

Bizə – həyatımıza, gələcəyimizə yağı seçdirirlər. Ancaq seçirikmi?! Seçki olayının doğruluğuna, ədalətliliyinə inanmaya-inanmaya necə seçə bilərik ki?! İradəmizdən qıraqda seçirlər, seçdirirlər. Bizə danışmamaq, dinməmək, görməmək qalır. “Seçkiyə gəlmirsən gəlmə, ancaq danışıb aranı qatma da”. Bax, beləcə illərdir oyunun içində yaşayırıq...

Uşaqlıqda bir yerə yığılardıq, ikiyə bölünüb “gəlin dava-dava oyunu oynayaq” deyərdik. Ağlımıza da gəlməzdi, oyunlar bizim xatirələrimizə çevrilməklə qurtarmayacaq, sonralar həyatımızın anlamına çevriləcək. Uşaqlıqda özümüz oynayırdıq, böyüyəndə özgələr bizi oynadır. Bu gün qurucu millət yerinə oynadılan millət durumunda yaşayırıq. Sabahın açılmasını gözləyirik, ömrün başa çatmasını izləyirik. Sabah istəyimizdən qıraqda açılır, ömür istəyimizdən qıraqda irəliləyir, daha doğrusu geriləyir. Səbəb nədir?! – Milli Qüvvə olmadıq, özümüzlə dalaşdıq, bölündük – kiçildik, satıldıq – tükəndik. Böyük Milli Hərəkat yerinə balaca-balaca partiyalara umsunduq. Milli qüruru mənəmlik heysiyyəti üstələdi.

İçimizdən çıxanlar öncə Talançıları söydülər, sonra bizdən ayrıldılar, Talançılara qoşuldular. Beləcə, dayanıqlığını itirənlər su kimi axıb Talançıların dəyirmanını işlətdilər. Millətin sərvəti, ləyaqəti bu dəyirmanlarda üyüdülüb mənimsənildi. Bizdən ayrılanlar mənimsəyənlərə yardımçı oldular, paylandılar (pay yiyəsi oldular). İndi onlar bizə ağıl öyrədirlər: seçkiyə qatılmaq gərəkdir deyirlər. Seçkiyə getmədən dəyşiklik əldə etmək olası deyil, ən kiçik yeri mənimsəmək belə uğurdur deyirlər. Ancaq kəsdirə bilmirik, bu illər içində ən kiçik yerləri mənimsəyənlər millətə hansı uğuru gətiriblər?! – Özləri üçün uyğun yaşam ortamı əldə edənlər bunu millətin adına çıxırlar. Dağınıq bir qüvvə ayrı-ayrı adamları ilə yer qazanırlar. Talançıla-

rın yenidən, guya seçki ilə, kürsülərdə qalmasına görüntü yaradırlar...

Bəs bu çalışmanın adı nədir – döyüşdürmü, dönüklükdürmü?! Özüüçünlük, hakimiyyətüçünlük – xalqüçünlük kimi qələmə verilir. Bu adamların içindən "millət vəkili" olan nəyə etki göstərə biləcək ki?! Bunun arxasında hansı birləşmiş qüvvə var?!

...Talançılara yardımçı olanlar öz əməllərinə haqq qazandırmaq üçün, köhnə yaraqdaşlarına böhtanlar yağdırırlar, Talançıların onları şantaj eləmələrinə yardımçı olurlar.

Çox əcayib çağda yaşayırıq. İndi döyüş meydanına çıxan hər kəs yörəsində özünü böhtandan, şantajdan qorumaq səngəri yaratmalıdır – ordan atılan daşdan qorun, burdan deyilən sözə cavab ver b.k. Bəs döyüşü nə vaxt aparacaq?!

Özlərini qoruya bilməyənlər, dayanıqlığını itirənlər sınır, sındırılır, meydan döyüşsüz qalır, sərtliksiz, mərdliksiz qalır. Hakimiyyətin xalqa qarşı zor siyasəti xalqı qorumalı olanlara qarşı "orden, medal siyasəti" ilə birləşir. Xalqa arxa çevirənlər medallanır, ödüllənir, şöhrətlənir. Savaş millətin ləyaqəti uğrunda başlamışdı (ya da belə adlanmışdı), özünəyarar kiçikliyin qələbəsi ilə başa çatır. Yəni başlar ayaq olur, başqaları üçün yeriyir.

Pis duruma gəlib dayanmışıq. Yeni soylar özlərindən öncəkiləri örnək götürməməlidir. Yeni döyüş gərəkdir, yeni insan gərəkdir, yeni qələbə gərəkdir!

## Anarxiya yaradan tolerantlıq

Sovetlər dağılandan üzü bu yana Azərbaycan iqtidarı daim dini tolerantlığını göstərgə etdirib öyünür. Ancaq biz indiyədək bu tolerantlıqda müsbət bir məzmun tapıb anlaya bilməmişik. Guya hər kəsə məslək seçimində özgürlük verilib. Bu, öz-özlüyündə yaxşı səslənir. Kim nəyə istəyir ona da inanır. Söz yox, heç kəsin içinə zor göstərmək olmaz, yalnız filan yönə inanma-

lısan. Ancaq bu İnam məsələsi həvəsə dayanan hobbi deyil axı. İnam – kainatın genel nizamını dərk etmək, toplumsal münasibətlərin sağlam axarını yaratmaq deməkdir. Bunu isə arı, müdrik, mütəfəkkir insanlar öyrədir, maarifləndirir, yönəldir. Dövlət də belə insanlara qayğı, baxış ayırmaqla toplumun arılaşmasına yardımçı olmalıdır. Ancaq bu dediklərimiz harda var?! İndi İnam-etiqad məsələsi ilə əlində milyardlarla para toplamış adamlar uğraşırlar. Onlar ayrı-ayrı vaxtlarda yaranmış təriqətləri ələ alıb siyasi məqsədlərini həyata keçirirlər. Yeni təriqətlərin yaranması hardasa anlaşılandır. Yəni, min illər öncə yaranmış dinlərin əski qurallarında, dövrə, bilimin gəlişməsinə, çağdaş həyatın nizamına görə islahatlar aparmaq gərəkir. Ancaq görünən odur, bu yöndə islahatlar həyata keçirilmir, başqa məqsədlər ortaya çıxır. Ədliyə Baxanlığının qeydiyyatından keçən istənilən təriqətin, sektanın, nə bilim nəyin, siyasi məqsədlərlə yaradıldığı bəllidir. Əgər insana məslək seçimi tanıyırsansa, onu qeydiyyata götürmək nə üçündür?! Yox, qeydiyyata götürürsənsə, deməli, onun məqsədini gözaltına götürürsən. Bəlli olur, bu inam məsələsi deyil, siyasət məsələsidir. İnam məsələsi olsaydı, insanlar gedib mənəviyyatla uğraşar, toplumda da bunun yayılmasına qulluq göstərərdilər. Mənəviyyat quruculuğu ilə uğraşanlara qarşı dözümlülük (tolerantlıq) göstərməkdə isə məntiq olmadığına görə, bunu qabardıb özünü ağıllı hakimiyyət kimi sunmaqda da məntiq yoxdur. Biz yazılarımızda dönə-dönə vurğulamışıq, dini tolerantlığın bir anlamı var: toplum düşüncəsində neçə yerə bölünür bölünsün, təki birgə düşüncəyə yiyələnib gücə çevrilməsin. Parçalanmış toplumu yönətmək daha asandır, güc birliyini yönətmək isə çox çətindir. Birliyi olan toplum yönətilmir, ona qulluq göstərmək gərəkir. Tolerantlıq – "Parçala, buyur" tələbinin iç siyasət quralıdır.

Bu gün Azərbaycanda sələfilər deyilən vəhabilərin sayı çox artıbdır. Onların təşkilatlandığı ötən illər boyunca yüzlərlə aldadılmış Azərbaycan gənclərini hakimiyyətimiz mühakimə etmiş, çoxlarını isə zindanlara atmışdır. Deməli, tolerantlıq zindanlara yol açırmış. Dövlət öz insanlarına yiyə çıxmalı, onların

maariflənməsi üçün önəmli işlər həyata keçirməlidir. Ancaq nə yazıqlar, toplumumuzun dağınıq olmasında istəkli olan dış qüvvələrin "afərin" qiymətini qazanmaq üçün tolerantlıq oyunu göstərməli olur. Dış qüvvələr toplumun dağınıqlığını qullanıb onun bəlli bir kəsimini ələ keçirir, ölkəmizdə öz niyyətlərini həyata keçirmək üçün hakimiyyətə etki göstərmək olanağı qazanır. Ona görə də hakimiyyətin tolerantlığına "afərin " deyir.

Deməli, toplumun çoxrəyliliyi, mahiyyətcə dağınıqlığı, həm hakimiyyətə gərəkdir, həm də burada siyasi niyyəti olan dış qüvvələrə. Beləliklə, hakimiyyət öz xalqına qarşı dış qüvvələrlə sanki anlaşmış bir çalışmadadır...

Ötənlərdə ölkənin gündəmini Nurçuluq təriqəti ilə bağlı bir qonu qapsadı. Hər kəs bu məsələyə iş işdən keçəndən sonra münasibət bildirir. Biz isə bu məsələnin doğura biləcəyi sorunları on ildən çoxdur, araşdırıb yazırıq, vurğu edirik. Biz xalqımızın şüurunu işğal edən dünyagörüşlərə qarşı döyüşürük, sapı bizdən olan baltalar isə itilənib üstümüzə qaldırılır. Özgə dəyirmanına su tökənlər milli dəyərlərimizə ərəb-islam donu geydirib toplumun gözünə kül üfürməklə uğraşırlar. Babəkin, Nəsiminin guya müsəlman olduğunu sübut eləmək üçün dəridən-qabıqdan çıxırlar. Babəkin "İslam"a qarşı deyil, ərəb işğalına qarşı döyüşdüyünü, Nəsimini avamların edam elədiyini yazırlar (Nəsimini avamlar edam elədi. Ancaq o avamlar elə-belə adamlar deyildilər, onlar "bilirdilər" neylədiklərini). Babəkin, Nəsiminin müsəlman "olduğunu" sübut etmək üçün Babəkin Həsən, Nəsiminin Seyid Əli adı daşıdıqlarını dilə gətirirlər. Bu cür adamlar anlamaq istəmirlər, heç kim anadan olanda özünə ad qoymur, adı ona qoyurlar. Adı çəkilən böyük şəxsiyyətlərimizin hər ikisi müsəlmançılıq dünyagörüşünə zorlanmış toplumun övladları idi. Bu günkü soyun nümayəndələri olan bizlər də müsəlman damğası ilə doğulmuşuq, pasportlarımıza ərəb adları yazdırıblar. Ancaq milli kimliyimizi dərk elədikcə bu dünyagörüşdən, onun gətirdiyi adlardan əl çəkdik. İndi ulusal kimliyimiz, ruhani özgürlüyümüz uğrunda döyüşürük. Döyüşü-

müzün hədəfi odur, bu cür özünəyadlaşma hansısa bir nöqtədə dayansın, özünəqayıdış aşaması başlasın. Qədimdə ərəb adları qoyulan şəxsiyyətlərimiz də belə bir döyüşün peşində olublar.

Bu gün insanlarımız onun içini qarışdıran siyasi oyunları araşdıra bilmirlər. Hara niyə getdiklərinin fərqinə varmırlar. Ancaq bir yandan da onları qınamaq olmur. Dövlətin yol açdığı, olanaq yaratdığı eyitim ocaqlarına getməsinlər, bəs hara getsinlər?! Onsuz da hara gedirsən get, milli gələcəyə qulluq göstərən oxul ocaqları tapmayacaqsan...

Övladları Qafqaz universitetində eyitim alanlar deyirlər, orada heç kimi "Nurçuluğa" zorlamırlar. Bax, bu da türk sadəlövhlüyü. Məgər onların məqsədi gəlib bu xalqın övladlarına milli şüurun gəlişməsinə yol açan eyitim verməkdir?! Heç kim hansısa gizli bir məqsədi həyata keçirmək üçün qabaqca koşullar dilində danışmır axı. Qafqaz universitetində də heç kim açıq şəkildə Nurçuluğa çağırılmır. Ancaq onlara öyrədilən, aşılanan ideoloji etkilər eyitimin sistemində var. Gəncliyi oxula götürməklə kütləvi şəkildə harasa yönəltmirlər ki. Yüzlərlə öyrəncinin içindən onlarla gələcək kadr gözaltı edirlər. Onlara hər dönəmdə beş kadr gərəkdir. Ancaq bu beş kadrı əldə etmək üçün yüzlərlə insan götürməlidirlər, seçə bilsinlər. Bu cür seçimlər bir ünvanda deyil, bir çox ünvanda – görünən, görünməyən qəliblərdə əldə edilir. Bunlardan da ən başlıcası oxuldur.

Basın yazırdı: "hakimiyyətin içinə yerləşdirilmiş "Nurçular" gözaltında tutulur". Guya hakimiyyət elə görüntü yaradır, dövləti qoruyur, dış qüvvələrin etkisinə düşmüş adamların xalqı yönətməsini aradan qaldırır. Halbuki, indiki Türkiyə hakimiyyətinin ona qarşı etiraz sərgiləməsindən çəkinir. Dünənə kimi Ərdoğan-Gülən birliyi vardı. Azərbaycanın hakim strukturlarına yerləşdirilmiş adamlar bu "birliyin" ortaq kadrları idi. Bunu Azərbaycan iqtidarı da bilirdi. İndi Ərdoğan-Gülən qarşıdurması yaranıb. Bu qarşıdurmada bəlli olur, Azərbaycanın hakim strukturlarındakı "Nurçu" kadrlar başlıca olaraq, Gülənin kurasiyasındadır. Gülən Azərbaycandan Ərdoğanın işlərinə əl uzatmasın deyə, Ərdoğan öz hakimiyyəti üçün gözlənilən qorxuları

önləmək çabaları göstərir. Azərbaycandakı Gülən kadrlarını bir-bir barmaqla göstərir. İşin pis cəhəti ondadır, harda kimlərin münasibəti korlanırsa, Azərbaycanın siyasi gündəmi qarışır. Söz yox, Azərbaycan böyük, sabit, dayanıqlı, öz içinə bağlı dövlət olsaydı, onun-bunun əsəbi əhvalları ilə su üzündəki qayıq kimi dalğalanmazdı. Biz hər zaman vurğu eləmişik, Azərbaycanda böyük siyasi güclərin hər birinin kadrı var, Azərbaycanın öz kadrı yoxdur. Dış çıxarlara qulluq edən qruplar zorən bir araya gəlib Azərbaycanı sümürməklə uğraşırlar. Bu qruplar bir-birinə qarşıdır, ancaq, bir də vurğu edirik, onları bir arada tutan ortaq istək Azərbaycanı sümürməkdir.

Dini qruplara qarşı tolerantlıq da elə bu sümürmə sürəcini saxlamaq anlamı daşıyır. Hər kəs bilir, Azərbaycanda heç bir dini qruplaşma bağımsız deyil, nə də Azərbaycana bağlı deyil. Hər biri dış qüvvələrin çıxarına qulluq göstərir. Al, bu da sənin üçün demokratiya, çoxrəylilik. Azərbaycanın içi elə bir toplumsal-siyasal anarxiyaya çevrilib, bundan heç Allahın da başı çıxmır. Biz isə vətənini, millətini, gələcəyini düşünən, düşünmək istəyən insanlarımızı bu fəlakətli durumdan baş çıxarmağa çağırırıq. Biz ideya veririk, ideoloji konsepsiya veririk – gözlülər görsün, qulaqlılar eşitsin, ürəklilər qabağa dursun.

## Başarısızlıqmı, Dönüklükmü

Tarixdə türkün bəzi uduzmalarının nədəni doğru araşdırılsa, onun siyasət yürütmədə başarısız olduğu üzə çıxar. Yəni üz-üzə qol döyüşləri gedən çağlarda meydana mərdlik havası gətirmiş, gizlənib arxadan vurma, məkr, fəndgirlik kimi aşağılıqları xislətinə yaxın buraxmamışdır. Bu xarakter getdikcə folklorumuza yerimiş, mərdlik kimi yüksək keyfiyyət, demək olar, folklorumuzda başlıca məzmunu əmələ gətirmişdir. Biz bunu "Dədə Qorqudun Kitabı"nda da görürük, Koroğlu dastanlarında da b.k. Bu dastanların birində Koroğlu tüfəngi görüb mərdliyin sona çatdığını vurğulayır... Soz yox, burada məqsədimiz bu qonunu genişləndirmək deyil, çağdaş durumumuzla bağlı ra-

hatsızlıq yaradan bəzi məsələlərə baxış sərgiləməkdir. Vətənini sevən, millətinin gələcəyini düşünən hər kəs, bu gün, istər Türkiyədəki olayları, istər Azərbaycandakı gedişləri izləyir, rahatsızlığını, ən azı yazılarla, ifadə eləməyə çalışır. Biz də beləcə. İzləyirik, qınayırıq, ələşdiririk. Deyə bilərlər, qıraqdan baxana döyüş asan gəlir. Yox, bizə döyüş asan gəlmir. Çünkü sorunların içindəyik, Vətənimizlə bağlı hər bir ağrını da içimizdə daşıyırıq. Biz bir sıra sorğulara cavab axtarırıq: Vətənimizlə bağlı sorunları yaradan nədir?! Ortada olan bacarıqsızlıqdırmı, düşünülmüş dönüklükdürmü?! Dövlətimiz getdikcə dayanıqlığını itirir, xalqın yaşamı dözülməz şəkil alır. Zorakılıq son həddə çatır, qarşıdurmalar kəskinləşir. Dışarıdan gələn basqılar tükənmir... Düşünürük, bütün bunların hamısı yanlış yürüdülən siyasətin sonuclarıdır. İstər bacarıqsızlıq olsun, istər dönüklük, fərq etməz. Yönətim tam olaraq çöküb, özbaşınalıq dağınıqlıq (anarxiya) yaradıb. Nə iç siyasət özünü doğruldur, nə dış siyasət.

Baxın, Rusiya Ukraynanın bir parçasını işğal elədi. Ona görə Ukrayna Rusiyanı düşməni kimi qələmə verdi, özü də onunla döyüş cəbhəsində dayandı. Rusiyanın ondan bir neçə qat güclü olduğunu da unutmayıb. Ancaq Rusiya Azərbaycanın bir parçasını, erməni üçün, işğal elədi. Özü də, yaraqlı-ordulu, erməninin içində oturub onu bizdən qoruyur. Azərbaycan iqtidarı isə bu çağa kimi Rusiyanı nəinki düşmən adlandırıb, tərsinə, onunla hər cür əməkdaşlığa gedir, onun tələblərini yerinə yetirir. Dinəndə isə deyir, bizim Rusiya ilə heç bir sorunumuz yoxdur. Uzun illər iqtidarımız bunun adını balanslaşdırılmış siyasət qoydu. Belə də siyasətmi olar?! Bu, siyasət deyil, təslimçilikdir. İllərdir Azərbaycan iqtidarı hakimiyyətini, sərvətini qorumaq üçün Rusiyanın hər cür şıltağına boyun əyir, yurdumuzun heysiyyətini onun ayaqları altına atır. Elə bil nə "20 Yanvar" qırğını olub, nə də Xocalı vəhşəti; nə Azərbaycanın batısından vəhşicəsinə qovulanlar olub; nə də Qarabağ işğaldadır. Bunun adı bacarıqsızlıqdırsa, dövləti qamarlayanlar qırağa durmalı idi. Dönüklükdürsə, Azərbaycanın ayaqlar altına salınan toplumu

təpərlənib, toparlanıb bu gedişi dayandırmağa çalışmalıdır. Yarıtmazların yanlışları ucbatından bütöv bir xalqın gələcəyinin işığı söndürülür axı.

Uyğun fəlakətlər bu gün Türkiyədə də yaşanır. Baxın, bizi işğal eləyən, erməniyə hər cür status yaradan (yeri gəlmişkən basın yayınlarında ilginc faktlar ortaya çıxarılıb – Rusiya "Dağlıq Qarabağ Respublikası"nın ermənilərinə sürücülük vəsiqəsi paylayır) Rusiya ilə Azərbaycan iqtidarı əməkdaşlıq edir. Türkiyə insanlarını qırğına uğradan PKK uzantısına da Ərdoğan hökuməti baxanlıq (nazirlik) görəvi tapşırır. O da "Erməni soyqırımı"nı tanıdığını bəyan edir. Bunların hamısı yürüdülən yanlış siyasətin sonucudur. Hökumət xalqın qoruyucularından qurular, dağıdıcılarından yox. Nə qədər azğın, mənfəətsevər olasan, özünəyarar düşünəsən, böyük bir xalqın, qurulu bir dövlətin gələcəyini qorxu altına buraxasan.

Öncə türklük dəyərləri sıradan çıxarıldı – Azərbaycanda da, Türkiyədə də, sonra dövlətçiliyin özülü laxladıldı. Eyni sürəc getdi – Azərbaycanda türklük sıradan çıxarılıb abstrakt Azərbaycançılıq elan olundu, Türkiyədə türklük sıradan çıxarılıb anlamsız Türkiyəçilik ortaya çıxarıldı. Bu gedişlər isə bacarıqsızlıqdan daha çox dönüklüyə oxşayır. Bu, qədim çağlardakı kimi, mərdlik meydanlarındakı siyasət başarısızlığı deyil, türkü çökdürmək planlarının çılpaqlığı ilə üzə çıxmasıdır. Bütün addımlar sanki öncədən hazırlanıb, düşünülmüş şəkildə də atılır...

Buna görə biz dönə-dönə vurğu edirik, Ümumtürk Hərəkatı başlamalıdır!

## Bütövləşməyən Bağımsızlığımız

Tarixi faciələrimiz çoxdur, ən zoru "Türkmənçay Bağlaşması"dır. Çünkü vətən bölünüb, millət parçalanıb. Bəlkə də Türkmənçay Bağlaşması sonucdur. Babək yenilməsəydi, Nəsimi soyulmasaydı, Çaldıran Savaşı baş verməsəydi, bəlkə Türkmənçay Bağlaşması da olmazdı. Millətin ruhsal yenilməsi aşama-

aşama böyük faciələrə nədən olur. Millət bu faciələrin kökünü araşdırıb öyrənmirsə, buna qarşı ulusal savaş aparmırsa, bütün dövrlər onun üçün davamlı olaraq faciələr hazırlayır. Faciə içrə yaşayan millətin gücü getdikcə azalır, tarixdən çıxdanclığa yuvarlanır.

Biz bölünəndən üzü bu yana iki yöndən mədəni assimilyasiyaya uğradıq. İran adlandırılmış bölgəmizdə durmadan türk kimliyimizin danılması həyata keçirilib. Rusiya əlaltısı olan bölgəmizdə isə türk kimliyinin əyrilməsi (təhrif olunması) süreci yürüdülüb. Bu Tayda bağımsızlıq əldə edəndən sonra da əyriltmə sürəci dayanmadı.

Elə bir duruma gətirilmişik, Quzeylilərimiz Güney sorunumuza görə rahatsız ola, həyəcanlana bilmir. Güneylilərimizin çalışanları isə tutuqlanır, kimisi öldürülür, kimisi canını götürüb Batı ölkələrinə üz tutur (mühacir taleyi yaşayır). Sovetlər dağılandan sonra Batıdan ayaqlanan demokratik devrimlərin onlara da gəlib çatacağını düşünürdülər. Bu gün də belə düşünənlər az deyil. Düşünürük, Güney məsələmiz demokratik devrim oyununa qarışdırılmamalıdır. Batının həyata keçirdiyi demokratik devrimlər qarışıqlıqdan (anarxiyadan) başqa bir şey vermir. Batı demokratiyasının Güneydə haçağsa devrim edəcəyinə bel bağlamaq yerinə, Ulusal Özgürlük ideyası ilə möhkəmlənmək doğru olar.

Biz parçalanmışıq, biz bütövləşməliyik. Olaylar hara çəkir çəksin, bizim ağlımızda bütövləşmək tələbi oturmalıdır, ürəyimizin gücü, sevgisi Bütövləşməyə yönəlməlidir. Biz, bir millət olaraq, dağılmışıq, bizi bir araya gətirəsi ideya ortalıqda yoxdur. Bizi nə demokratiya bir araya gətirir, nə ruhumuzu basqı altına alan ərəbin dini dünyabaxışı, nə də ideoloji özülü milli şüurda aydın olmayan türkçülük ideyası. Ancaq bizim bir araya gəlməyimizdə, başlanğıc olaraq, Güney Azərbaycan dərdi çox önəmli rol oynaya bilər. Bundan sonra Türkçülük şüuru bəzi yönlərdən açılıb dərk oluna bilər. Güney Azərbaycanın özgürlüyünə yönəlik addım götürəndə nələrin əngəl, nələrin hərəkətverici olduğu bütün aydınlığı ilə üzə çıxacaqdır.

Biz bu əngəlləri, təkanverici məsələləri daim dilə gətirir, vurğu edirik. Ancaq nə yazıqlar, üzdə olanlarımız ciddi məsələlərə həmişə yazı materialı kimi, ya da subyektiv mövqelər kimi yanaşırlar. Əgər toplumsal çalışmalarımız Güney Azərbaycan məsələsinə başqa məsələləri qatmadan bir araya gəlsələr, içdə, dışda olan bütün niyyətlər özünü açıq göstərəcəkdir. Onda heç kim düşməni bizə dost kimi, müttəfiq kimi sırımağa ürək etməyəcək.

Bu gün başımızı iqtisadi böhranın içinə soxurlar. Gediş faciələrimizi dərk eləməyimizə qarşıdır. Gediş – faciələrimizin içindən çıxa bilməməyimiz üçün hazırlanır, bundan sonra da artacaqdır. Necə, 25 ildir ancaq korrupsiya, rüşvət deyirik, bundan sonra da illərlə "devalvasiya", "iqtisadi böhran" deyəcəyik. Heç vaxt bunları doğan, doğuran faciələrimizi deməyəcəyik. Bağımsız, özgür millət olmağımızın savaşına qalxmasaq, məişət fəlakətlərinin dedi-qoduçusu səviyyəsində boğulacağıq (qəhr ediləcəyik)...

Milli konsepsiyanı işləyib savaşa qalxmağımız, artıq ölüm-qalım haqqında düşünməyimiz qaçılmaz tələbə çevrilib. Qabağa addım götürmək, bu yöndən savaşı sıfır nöqtəsindən tərpətmək gərəkdir.

## Milli Dəyərlərin soyqırımı

Tarixdən bəllidir, Babəki İslam xilafətinin amansız edam eləməsindən sonra Azərbaycanda müsəlmanlaşdırmanın yeni aşaması başladı. Yəni başların doğranması üsulu, psixoloji basqı altında, şüurlara yeritmə, eləcə də namusu hədələmə üsulu ilə əvəzlənməyə yönləndi. Sonrakı aşamada, xalqın içində gələcəyi çaşdıran gələnəklərin özülü qoyuldu. Bu gələnəklərdən biri də "seyidləşdirmə" gələnəyi idi. Peyğəmbərin soyuna bağlı olanlar, onun yaxın adamları seyid adlandırılırdı, onlardan vergi tələb olunmurdu. (Biz burada İnsanlığa yaraşmayan seyidləşdirmə üsulunun başqa çalarını vurğu eləmirik.) Odur, ağır ortamda yaşayan, dözülməz maddi çətinliklərlə üzləşən insan-

lar özlərini seyid kimi qeydiyyata götürtdürürdülər. Onlardan dünyaya gələn körpələr, qaçılmaz olaraq, seyid sayılırdılar. Zaman keçdikcə Azərbaycanda seyidlərin sayı çoxalmağa başladı. Çağımızda da onlar bu adla öyünürlər, hər yerdə mövhumatı genişləndirməklə uğraşırlar. Artıq onlar toplumda özlərini üstün təbəqə sayır, bir sıra istəklərini topluma sırıya bilirlər. Toplumda çoxları onlarda ilahi güc olduğunu düşünür, çəkinirlər. Seyidlərin "cəddi" qarşısında nəzir-niyaz paylamaq gələnəyi də bu gün hamıya bəllidir. Bu əməllərin, bu gələnəklərin başlanğıcda özülünü qoymaq – bizim etnik mahiyyətimizə kobud soxulma idi. Bu soxulmanın acı sonuclarını bu günə kimi də yaşayırıq. İş o yerə çatıb, bu gün bir sıra tarixçilər, yazarlar, İslamı Yurdumuza gətirənlərlə qanlı döyüşlərə çıxan, Babəki müsəlman-seyid adlandırırlar. Eləcə də ərəb dünyabaxışının yeritdiyi "göylər hökmdarına" meydan oxuyan Nəsimini dindar-seyid adlandırmaqdan çəkinmirlər. Adamda elə təsəvvür yaranır, bu adamlar hansısa qüvvələrin tapşırığı ilə hərəkət edirlər, əməllərinin qarşılığında ödülləndirilirlər. Türk olmayan etnik toplumun nümayəndələrini anlamaq olar. Ancaq türksoylu adamların belə davranmalarına bilmirsən nə ad qoyasan?!

Ötən həftə Azərbaycanın televiziya kanallarının birində bilim, sənət adamları Nəsiminin dünyabaxışını dartışmaya çıxarmışdılar. Bu dartışmada Nəsimini dindarlaşdırmaq çabası olduqca gülünc, məzhəkə etkisi bağışladı. Belə adamlar toplumsal, tarixi sorumluluq daşımalarını unudur, çıxışlarını bugünün kütlə psixologiyasına hesablayırlar. Açıq şəkildə tarixin, gələcəyin gözünə kül üfürür, bunun ayıb olduğunun, eləcə də milli şüura qarşı qəsd olduğunun fərqinə varmırlar. "Bəs Nəsimini nə üçün edam elədilər" sorusuna da asan cavab verirlər: – "siyasi baxışlarına görə". Əgər soruşulsa, Nəsiminin siyasi baxışları nə idi, doğruldulmuş bir cavab tapa bilməyəcəklər.

Birincisi, Nəsimi siyasətçi deyildi, ruhaniyyatçı idi (İslam ruhaniyyatçısı yox, Hürufi ruhaniyyatçısı). Dinin cəhalətini yayanlara dirəniş göstərmək siyasi baxış deyil. Bəllidir, Nəsimi Hələbdə edam edilib. Nə Hələbdə, nə də Hələb dönəminədək

onun heç bir siyasi davası olmayıb, hakimiyyət uğrunda da döyüşməyib, dinə qarşı hürufilik baxışlarını yayıb. Başqa bir çalar, əgər Nəsimi dindar olubsa, onda nə üçün bu gün muğam ifaçıları onun qəzəllərini oxumurlar?! – Çünkü Nəsiminin qəzəllərini oxumaq ürək istəyir. Gərək "Həqq mənəm, Həqq məndədir", "Gövhəri laməkan mənəm" deməkdən, oxumaqdan qorxmayasan. Ə. Vahid hansı milli dərinliyi ifadə edir, ondan nə qədər oxumaq olar axı?! İnsanı düşündürən, sarsıdıb böyüdən hikmətlər oxunmur, əyləndirən nəsnələr oxunur. Çünkü əyləncədə heç bir qorxu yoxdur, ancaq milli ruhu diriltməkdə özünü yadlığa qarşı qoymaq var.

Bu gün milli dəyərlərimizi araşdırıb həqiqi qiymətini verməkdənsə, onu əyintilərə uğradıb (təhrif edib) qiymətsizləşdirmək, dəyərsizləşdirmək xətti tuturlar... XXI yüzili bilim gəlişməsinin yüksək bir qatı sayırlar. Ancaq gerilik (cəhalət) aradan qalxmır, bilimli adam kənd mollası kimi davranır. Bu səbəbdən də, düşünürük, ruhaniyyat yenilənməlidir. Başqa sözlə, milli ruhun gəlişməsi ödənməlidir (təmin olunmalıdır). Ruhaniyyat – toplumda İnsanilik ölçüsünün nizam yaratması deməkdir. İnsanın ağlını söndürüb onun şüurunu qarabasmalarla yükləmək eybəcərliyinə son qoymaqdır.

## Özünəyadlaşmanın tarixi nədəni

Azərbaycanda milli olmayan, eləcə də antimilli təbliğatlar sürətlə işə keçir, ancaq milli təbliğatların etkisi ya yoxdur, ya da çox az duyulur. Bu gün toplumu özgələşməyə umsunduran təbliğatlar arasında yeni bir düşüncə də yayılmaqdadır. Son dövrlər toplumsal bireylərdən, eləcə də sadə insanlardan belə bir düşüncəni çağaşırı eşitmək olur: "İkinci dünya savaşında Bolşevik Rusiyası deyil, almanlar qalib olsaydı, Azərbaycan indi ən gəlişmiş ölkəyə çevrilmişdi, sosial sorunlar da aradan qalxmışdı". Çox qəribə faktdır, hər kəs də buna inanır. Ən qəribəsi də odur, hər kəs eşitdiyi bu düşüncəni özünün axtarışının

sonucu kimi deyir. Sanki bu düşüncə, deyildiyi andaca, onun ağlına gəlib. Söz yox, bu hal ölkədə yaradılan genel gedişin, oturuşmaqda olan təbliğatın göstəricisidir. Şirin əsarət axtarmaq insanların qeyrətinin kəsərsizliyini göstərir. Əsarətdə qurtuluş axtarmaq, gəlişmə görmək, firavanlığın olacağına inanmaq iki yöndən düşündürücüdür: Birinci, ölkənin milli yönətimi sıradan çıxıb, insanlar ədalətin, qanunun təminatına ümid bəsləmirlər. Eyni halda, ölkənin gücünə, gələcəyinə inanmırlar. İkincisi, vətən, dövlət insanların gözündən düşüb. Ona görə də onlar maddi-sosial həyatın rahatsızlığını qıraqdan gələn etkilərdə axtarırlar. Belə bir istəyin arxasında qlobal əsarətin oturuşa bilməsinin qorxusunu düşünmək belə, istəmirlər. Belə götürəndə bu iki cəhətin hər biri iç-içə məsələlərdir, bir-biri ilə aşama təşkil etmir.

Bəs səbəb nədir?! Doğrusu, bir çox düşünərlər nədəni birbaşa indiki hakimiyyətin yarıtmazlığında axtarırlar. Bu axtarış yanlış deyil, ancaq bu axtarışla sınırlaşmaq yanlışdır. Baxın, bu hakimiyyət parçalanmış, dağılmış, cılızlaşmış bir toplumun üzərində özünəyarar yönətim qurub talançılıqla uğraşır. Ancaq bizə görə toplumun özgələşməyə meylini koşullandıran nədənlər daha dərindədir. Həm də bu nədənlər təkcə bizim toplumumuzla bağlı deyil, geneldə türk toplumunun etnik mahiyyətiylə bağlıdır. Bu səbəbdən millətlə bağlı ortaya gələn düşüncələrin sorumluluğu çox böyükdür. Bunu, milləti öz gözündən salmağa çalışanların təbliğatına uyanlar da götür-qoy eləməlidirlər, milləti özü üçün öyüb mənasız arxayınçılıqlar yaradanlar da. Ancaq bu tendensiyaların hər ikisi zərərli olsa da, bunlardan öyrənilәsi məqamlar var. Millətsevər insanlar bu cəhətlərin hər ikisini doğru araşdırıb öyrənməklə çaşqınlıqların etkisini azaltmağa qulluq göstərmiş olarlar. İndi bu cəhətləri aydınladan ayrı-ayrı faktları misal göstərək. Birinci cəhəti savunanlar ən çox nəyə baxış çəkirlər?! – "Bu millət içində toparlanıb birlik yarada bilmir. Bir-birini aldadır, satır, sıradan çıxarır; mənəmlik ehtirası güclüdür; öz çıxarından başqa heç nə görmür; başqasının hesabına varlanmaq, yüksəlmək xarakterindədir; qanunsuzluğa

meyil edəndir b.k.”. İkinci cəhətin daşıyıcıları isə: “Bu millət humanistdir, tolerant keyfiyyətləri var; qonaqsevərdir, öz evində qonağı başda oturdandır, başqa etnik toplumlara üstdən aşağı münasibət bəsləmir, tərsinə, özündən üstün münasibət bəsləyir; Çox dözümlüdür, genişürəklidir” b.k. deyirlər. Belə götürəndə bu dəyərləndirmələrin heç biri yanlış deyil. Ancaq bu deyilişlərin hər biri ayrı-ayrılıqda nədəni açılmadan sərgiləndə, öncədə vurğuladığımız kimi, zərərli olur. Bu deyilişlərin arxasında duranlar ayrı-ayrılıqda özlərini haqlı sayırlar. Bununla belə, bu haqlılığın zərərləri onu deyənləri haqsızlaşdırır. Birinci düşüncədəki toplumsal qüsurlar, beyinlərə, milləti gözdən salmaq faktı kimi yeriyir. Toplumun milli mahiyyətində deyil, xarakterində oturuşmuş qüsurları qabağa verib “dəyərlərin yenidən qiymətləndirilməsi” kampaniyaları həyata keçirirlər. Bununla da milli dəyərləri gözdən salıb “əsarətin dəyərləri”ni gözə mindirirlər. İkinci münasibətdə səslənən düşüncələr isə, başlıca olaraq, birinci münasibətə qarşı yönəlir (ondan az iş görsə də). Söz yox, dəyərlərin qorunması gərəkdir. Ancaq gerçəklikdə özülü olmayan düşüncələr dərin iş görmür, daha çox arxayınçılıq yaradır. Toplumda mənasız arxayınçılıq isə milli var olmağa əngəl yaradır. Bu səbəbdən də topluma mahiyyəti, xarakteri baxımından bütöv yanaşmaq gərəkdir. Yəni, milli kimliyimizi doğru qiymətləndirmək üçün etnos mahiyyətimizi prinsipial cəhətdən öyrənmək tələbi çıxır qarşıya. Bu gün artıq bilimsəl araşdırmalar da göstərir, qədim Şumer mədəniyyəti türk etnosuna bağlıdır. Deməli, bəlli sivilizasiya türkün mahiyyətinin bütövlüyünü, genişliyini nişan verir. Bir sıra tarixi xalqların mədəniyyətinin formalaşmasında, gəlişməsində türkün özəl etkiləri olmuşdur. Çünkü ilk sivilzasiya – ilk mədəniyyət, ilk dövlətçilik, toplumsal qurralların birgəyaşayışı ödəyən nizamları Şumerdən başlayır. Deməli, türkün bəşəri nizam yaratmaq görəvi mahiyyətindən irəli gəlir. Özünə sığmamaq, dünyalaşmaq, dünyada insani nizam yaratmaq – türkə xas olan böyük bir şərəf yüküdür. Özlərini ari sayan, yüksək bilən xalqların üstün cəhətlərini kölgələmək, aşağılamaq niyyətimiz yoxdur. Be-

lə götürəndə, üstün saymalar pis deyil, toplumu öz gözündə ucaltmaq, özünə inandırmaq məqsədi güdüb. Ancaq nə yazıqlar, sonralar toplumu öz gözündə ucaltmaq meyilləri dünyaya ağalıq etmək istəkləri ilə əvəz olunub. Türkdə isə ən çox dünyagirlik deyil, dünyasevərlik özünü göstərir. Bu, onun inanclarında açıqca təsdiqini tapıbdır. Göytanrıçılıq, Panteizm, İşıqçılıq, Xürrəmdinlik, Hürufilik inancları ciddi tarixi faktlardır.

Bəs bu deyilənlərin səbəblə nə bağlılığı var?! Öncədə dedik, toplumun özgəliyə meyil etməsinin nədəni bütövlükdə türkün etnos mahiyyətiylə bağlıdır. Onu da vurğuladıq, türk dünyaya qurtarıcılıq gətirmək görəvi daşıyır. Ancaq bugünkü gerçəklik türkün özünün əsarətdə olmasına tanıklıq edir. Bunun da başlıca nədəni odur, türk böyük sivilizasiya yaratdı, böyük mədəniyyət yaratdı, böyük tarix yaratdı, ancaq yazılı tarixini, yazılı mədəniyyətini yaratmadı. Sonucda ondan bəhrələnənlər onun özünü danmağa, kiçiltməyə girişdilər. Türkü özünə bağlayan, bir araya gətirən sistem olmadı. Yönətim strukturu pozuldu, özümləşmə strukturu pozuldu. Qollara bölündü, bütövlüyü dağıldı, içinə əsarət yeridi. Bu gün də özgələşməyə meyil – Dünyalaşmaq qüdrətinin əyrilməsinin görsənişidir (təhrif olunmuş təzahürüdür). Türkün dünyasevərliyi, dünyalaşması – dünyaya inteqrasiyası deyildi. Dünyaya inteqrasiya Dünyalaşmaq deyil, dünyanın içində ərimək, özgələşməkdir.

Şumer əsilliyi, yəni dünyaya mədəniyyət vermək, qurtuluş gətirmək əməli aradan getdiyi üçün türkün özünəyadlaşma meyli güclənibdir. Türkün yaratdığı nizam bir zamanlar başqalarını başqaların özünə bənzədirdi, indi türkün bəşəri əməlsizliyi özünü özgələrə bənzədir.

Bu səbəbdən də öz içində dəyərləri tanımaq, özümləşmək, dünyaya münasibətini dəyişmək, düşünürük, türkün yeni görəvi olmalıdır.

## Yadlıqlara doğmalar

Yurdumuzda qaranlıq gündən-günə qatılaşır. Qaranlığın yarasaları çoxalır. İşığı görmək istəməyən, işığa kor baxan yarasalar həyata qaranlıqdan baxırlar. Özlərinin varlığını qaranlıq həyatda dərk edirlər...

Yadlığı bayraq edənlər, milli kimliyinə arxa çevirənlər, ruhunu, mənliyini buxovlayıb, canını, cəmdəyini özgür edənlər qaranlığa soxulurlar, yarasalaşırlar...

Yenə də Babək, yenə də Atatürk gündəliyin qonusuna çevrilib. Yenə söyürlər, küçümsəyirlər, üfunət püskürürlər şəxsiyyətlərimizin ünvanına. Türkiyədə Atatürkə qarşı, Azərbaycanda Babəkə, M.Ə.Rəsulzadəyə qarşı böhtanların, aşağılamaların altında nələr yatır, arxasında kimlər durur?! Aydınca görünür, bu məsələdə Avropa anarxiyaçılığı ilə islam qafalıların istəkləri bir araya gəlir. Qıraq Qüvvələrin buyruğunda dayanıb dəyərlərimizi küçümsəyənlər milli şüurumuzun dirçəlməsinin qarşısını kəsməyə çalışırlar. Söz yox, qarşılığında da nələrsə əldə edirlər.

Türkiyədəki antitürk sürəc ilə Azərbaycandakı antitürk sürəc, yürüdülmə yönünə görə, üzdən fərqli görünə bilər. Ancaq nə olursa-olsun hədəf birdir – Türklüyü sarsıtmaq.

Avropadan "dəyərlərə yenidən baxılması" ideyası gəldi. Bu ideyaya görə çağdaşlaşmaq, gəlişib qabağa getmək üçün toplumun şüurunda etkisi olan Keçmişi təftiş eləmək, ələşdirmək gərəkdir. Bu isə xalqın qədimliyindəki yüksək dəyərləri qırağa qoymaq anlamına gəlir. Bizimkilər də ağıllarını belə bir boz-bulanıq meydanda sınamağa yüyürürlər. Sonucda kəkilləri sığallanır, ciblərinə əl girir.

Hələ bu çağa kimi bircə yol görmədik, onlardan bir kimsə keçmişimizdə xalqın mənəvi özülü olmuş hansısa bir dəyəri araşdırıb ortaya çıxarsın, onu layiq olduğu bir sevgi ilə öyüb xalqına sunsun. Eləcə də, görmədik, uca dəyərlərimizi araşdırıb üzə çıxaran, xalqımıza sunmaq istəyən kimsəni Avropa alqışlasın. Çünkü xalqı ələbaxanlığa öyrədib yönətməyin ən yaxşı

üsulunu tapıblar: milli özül sayılan dəyərləri silmək, xalqı zəminsiz qoymaq. Keçmişini, dəyərlərini itirən, "çağdaşlaşdırılan" toplum dönüb bu gününə baxır, heç nə görmür. Gördüyü bir şey olur: dağınıqlıq, başıpozuqluq, dəyərsizlik, kimsəsizlik. Keçmişini, dəyərlərini itirənlər üçün Avropaya inteqrasiya qaçılmaz görünür. Bu inteqrasiyanın altında isə bir məzmun var – kürəsəlləşmə, yəni "birgə mədəniyyət". "Birgə mədəniyyət" ideyası da millətləşməni sıradan çıxarmağa düşünülmüş bir plandır. Bəllidir, millət olan yerdə onun özünəxas mədəniyyəti də olmalıdır. Deməli, mədəniyyət "birgələşərsə", millət də "birgələşməlidir" (vahidləşməlidir), mədəniyyətsiz millət olmaz ki. İmperiyalaşmanın özül prinsiplərindən birincisi millətləşmənin qabağını almaqdır...

O sıradan yeni xanədanlıq (imperiya) başçılığı həvəsinə düşən Ərdoğan da Türkiyədə millətləşmə sürəcini sıradan çıxarmağı qarşısına məqsəd qoyubdur. Burada ən pis cəhət odur, başqa imperiyalar basqısı altına aldığı xalqlara qarşı öz xalqının üstünlüyünü (hegemonluğunu) yaratdığı halda, Ərdoğan Türkiyədə türkün üstünlüyünü əksiltməklə uğraşır. Respublikanın dayağı Türklük olduğu halda, imperiyanın dayağı islamlaşmadır. Deməli, imperiya başçısı olmaq üçün Türklüyün yiyəsini – Atatürkü vurmaq qarşıya məqsəd qoyulubdur. Hələ biz demirik, Ərdoğanın xanədanlıq diləyi nə dərəcədə baş tuta biləcək; yoxsa bir vaxtlar (Osmanlının son aşamasında) Atatürkün qüdrəti qarşısında Türkiyəni parçalamaq şanslarını itirən Avropa güclərinə bu şansı yenidən qazandıracaqdır?! Bəlkə də həmin güclər Ərdoğanın "İslam xanədanlığı"na göz yumacaq, sonradan Türkiyəni parçalamaq üçün səbəblər olsun?! İndi soruşmaq gərəkdir: Türkiyədə Atatürkü böhtanlatdırıb millətləşmənin qabağını almaqla Ərdoğan komandası kimlərin dəyirmanına su tökür?!

Bugünkü Rusiyanın SSRİ-çilik xülyası nədirsə, Ərdoğanın Osmanlıçılıq xülyası da odur. Hələ bu bir az da pis. Çünkü yeri gəlsə, Avropa Rusiyanı tamam məhv olmaqdan qoruyar, ancaq Türkiyəni qorumaz.

Qayıdaq Azərbaycan məsələsinə. M.Ə.Rəsulzadəyə qarşı paxıllıqla, qısqanclıqla bağlı yetərincə qədər yazmışıq, mövqe sərgiləmişik. Şəxsiyyəti, qurucunu danmaq heç kimə baş ucalığı gətirmir, Azərbaycanın danıcı iqtidarına da heç gətirməyəcək. M.Ə.Rəsulzadənin qurduğu Respublika uzunömürlü olmasa da, onun Respublikaçılıq örnəkləri tarixi fakta çevrilibdir. Bunu heç kim dana bilməz.

Respublikanı öz milli keyfiyyətləri ilə yaşamağa qoymayanlar bugünkü Azərbaycan Respublikasının yaşamasına dözürlərsə, bu da, Azərbaycanı yönətənlərin milli ruhun daşıyıcıları olmadığına görədir. Azərbaycanı qamarlayıb talayanlara toxunmurlar, onu qurub qoruyanları isə sıradan çıxarırlar. Buna örnək bu gün də var, keçmişdə də olub. Babəkə qarşı ortaya atılan addımlar bir daha bunu sübut edir.

Sovetlər dağılandan sonra türk toplumlarının yaxınlaşması qaçılmaz tələbə çevrildiyi kimi, Güney Azərbaycanın özgürlük məsələsi də qaçılmaz döyüş xarakteri aldı. Bu döyüşün çağdaş ideolojisi formalaşmasa da, insanların bir araya gəlməsi üçün Babək Qalası bir tapınağa çevrildi. Hər il minlərcə insan, bu Qalaya yürüş edərək, özlərində özgürlük ruhunu tərbiyə edir, Babəkdən əyilməzlik keyfiyyəti mənimsəyə çalışırlar. İranın Molla Rejimi isə Quzey Azərbaycandakı əlaltılarına Babəki böhtanlamaq, onun şəxsiyyətini ləkələmək, döyüşünün məzmununu yanlışlığa uğratmaq göstərişi verib. Buyuruqla hərəkət edənlər içərisində, söz yox, başqa təriqətlərə, güclərə boyun əyənlər də az deyil. Bu güclər bir-birinə qarşı olsalar da, Azərbaycana münasibətdə mövqeləri üst-üstə düşür. Bu gün bu niyyət geniş şəbəkəyə çevrilməkdədir. Toplumda Babək haqqında çelişkili düşüncələr yaratmağa çalışırlar. Babəki savunanlar da bəzən doğru olmayan arqumentlər sərgiləməklə xeyir yerinə ziyan verirlər. Məsələn, Babəkin şəxsiyyətinə, milliliyinə qarşı olanlardan biri, Fazil Mustafa, televiziya ekranından söyləyir, Babək türk deyil, özü də Məzdəkilik dünyagörüşündə genelləşdirmə ideyasının yanlısıdır (ailə məsələsini vurğu edir – S.A.). Babəki savunanlardan biri, Sabir Rüstəmxanlı da deyir, Babək

İslam dünyagörüşünə qarşı döyüşməyib, ərəb işğalına qarşı döyüşüb. Geneldə, bu düşüncəni deyənlər çoxdur.

Başqa bir kəsim isə vurğulayır, Babək müsəlman-şiə təriqətinin daşıyıcısı olub, adının Həsən olması da buna sübutdur.

Biz də bu deyilənlərin hər birini heç bir sorumluluğa dayanmayan, araşdırılmayan, düşünülməyən mövqelər sayırıq. Fazil Mustafa milli dəyərlərə qarşı bu sayaq danıcı mövqelər sərgiləyərkən "türk" sözünü çox işlədir. Ancaq bu "türk" sözünün altında nələr olduğunu, ya da nələrin olmalı olduğunu sanki düşünmür. "Türk" sözünün anlamına islam dünyagörüşünü yerləşdirməklə millət anlayışından uzaqlaşdığının fərqinə varmır. Başa düşmək gərəkdir, islam dünyagörüşünə türk, türklük, millət anlayışları gərək deyil, ümmətçilik millətçiliyin ləğvi deməkdir. İkinci, əgər Babək "ümumiləşdirmə" ideyasının yanlısı idisə, necə oldu, 23 il davamlı olaraq döyüşə bildi?! Başı-ayağı bilinməyən azman Xilafət ordusunu 6 dəfə darmadağın eləyən bir başçının, qəhrəmanın içi nə qədər arı olmalı, ideyası nə qədər güclü olmalıdır, bu qalibiyyətləri yetirə bilsin. Özü də nə ilə – qol ilə, qılınc ilə, nə top vardı, nə tüfəng vardı.

Babək İslama qarşı döyüşüb. Xilafət Babəkin üzərinə İslamın qara bayraqları altında, bir əlində qılınc, bir əlində "Quran", dilində "lailahəillələllah" kəlməsi ilə gəlirdi. Babək müsəlman-zad deyildi. Necə müsəlman idi, özünün dini dünyagörüşü var idi Xürrəmilik adında. O Xürrəmilik ki, onun canı fərəhçilik idi: "İnsan gərək yaşayanda da fərəhlə yaşasın, döyüşəndə də fərəhlə döyüşsün, öləndə də fərəhlə ölsün" deyirdi. Buna görə də yenilmirdi. İçində Şirvin gəzdirirdi. Şirvin Qüdrət Allahının adı idi. Bu elə Babəkdən başlayan "Ənəlhəqq" ideyası idi – "mənəm, məndədir Allah". Bu ideya Zərdüştün İşıqçılıq öyrətisindən gəlirdi. "Arı düşüncə, arı duyğu, arı əməl" ideyası insan ürəyinin arılığını, qüdrətini yaradır.

Babəkin adının Həsən olduğunu vurğulayanlar bilməlidirlər, o, doğulana qədər İslam dünyagörüşü Azərbaycanda oturmuşdu. Dözülməz həyat ortamı yaratmaqla etnik mahiyyətimizə soxulmuş, milli kimliyimizi alt-üst eləmişdi. Gələnəklərimiz də,

adlarımız da ərəbləşdirilmişdi. Öncə onu deyək, dünyaya gələn uşaq özünə ad qoymur, ona adı ata-anası qoyur. Belə bir ortamda, ərəb şüurunun etkisi altına alınmış atalar, analar öz övladlarına Həsən, Hüseyn, Əli, Əhməd, Məhəmməd, Mustafa... adlarını qoyurdular, o çağlarda da, bu çağlarda da. Bunu deyənlər baxsınlar öz adlarına, görsünlər hansıların atası-anası onlara türk adı qoyubdur.

Televiziya verilişində aparıcı Həmid Herisçi Babəki faciəvi qəhrəman elan edir. Nəyə görə, çünkü Babək haqqında fərqli düşüncələr ortaya çıxıb, hamı onu birmənalı qəhrəman kimi qəbul eləmir. Burada o, guya barışdırıcı mövqe sərgiləyir. Bununla da qəhrəman adını minnətlə Babəkə "qaytarırlar". Bu nə deməkdir, Babəkin minnətə, minnətçiyə nə ehtiyacı var? Kimlərsə öz şüurundan Babəkin qəhrəmanlığını, böyüklüyünü silə bilər, ancaq Babək haqqındakı həqiqət heç zaman dəyişməyəcək. O, Azərbaycanın ölçüyəgəlməz qürur qaynağıdır.

Siz də, ey Babək haqqında qara danışanlar! Babəkə Xilafət sarayında yazılan qaranlıq tarixlərdən baxmayın. Düşmən dəyirmanına su tökməyin. Milli mənliyinizi qorumaq olanağınız varsa, düşünün. Hərəniz özünüzdən bir millət obrazı quraşdırmayın...

## Yadlığı bizdən qoruyanlar

Ürəyinizdə Günəş olsun sayğılı yurddaşlarımız!

Asif Atanın Evladlarına belə bir buyruğu var: ***"Xalq sizi gözləməyən görünür, əslində isə o sizi gözləyir".*** Biz, Atalılar, Asif Atanın bu çağırışına üz tutub daim xalqın görüşünə gedirik. Hər dəfə fərqli münasibətlərlə qarşılaşırıq. Bizə etiraz edənlər də var, sayğı bəsləyənlər də. Yansız qalanlar da olur. Ən çox etirazlar dinə görə baş verir. Artıq toplumda bəlli bir bilgi formalaşıb, Asif Atanın gəlişi, döyüşü dinin gedişi anlamını daşıyır. Toplumun etiraz eləyən kəsimi fəlakətlərimizin kökündə nə dayandığının fərqinə varmır. Toplumun bu zümrəsi

milli, insani kimliyini dərk eləməyən, söz yox, bu səbəbdən də onun qeydinə qalmayan ruhsal assimilyasiyaya uğramış adamlardır. Bunların içərisində ərəbçilik, farsçılıq yöntəmli qüvvələrin etkisinə düşənlər çoxluqdadırlar. Bu cür adamların ürəyinə həqiqət sözü yad olur. Sayğı bəsləyən insanlar da yaxşı anlamda çaşqınlıq, heyrət içində bizi dinləməkdən milli, insani açıdan ümid tapırlar. Qaranlığın qatılaşdığı bir çağda heç bir dəyərə yiyə çıxmaq olmur. Dəyərlərə yiyə çıxılmayanda isə insanların özləri yiyəsizləşirlər. Biz bir millət olsaq da, hər bir bireyimiz təkdir. Çünkü insanları bir-birinə bağlayan nəsnə qalmayıb. Belə bir gedişdə Asif Atanın Evladları, sözün doğru anlamında, təkcə qurtarıcı vətənsevərlərdir. Asif Atanın Ocağından başqa toplumun içində heç kim, heç bir qüvvə milli, insani yöndən söz demir, iş aparmır... Azərbaycanda iş aparan missionerlər var. Ancaq bu qüvvələr milləti özünə tanıtmaqla, onun dəyərlərini özünə qaytarmaqla uğraşmırlar. Başqa xalqların (doğrusuna qalsa isə siyasətlərin) məqsədlərini yeridirlər. Bu durumu anlayan soydaşlarımız, artırmadan deyə bilərik, Asif Ata Ocağından ümid tapırlar. Biz bu əhvallarla bölgələrdə daha çox üzləşirik.

Asif Atanın işi asta yerişlə olsa da, bir çox bölgələrdə yeriməkdədir. Ocağın özündənkeçən Evladları bu işi yeritməkdən usanmırlar. Onu da demək olar, Azərbaycanın başqa bölgələri ilə tutuşdurmada bu iş Beyləqanda daha geniş yön alıb. Bu da onunla bağlıdır, bu bölgədə, uzun illərdir, davamlı iş aparan Amaldaşımız Günev Atalı, ona bağlı ayrı-ayrı bireylər var. Günev Atalı, toplumsal anlayışla desək, çox ürəkli, hər kəsə örnək ola biləcək bir aydındır. Ruhaniyyat ölçüsüylə desək, bənzərsiz, özündən keçən ruhsal bir döyüşçüdür. O, heç vaxt insanlara acıqlanmır, ona yamanlıq edən, etmək istəyən kəslərdən üz döndərmir. Hər kəsə sevgiylə, inamla yanaşır. Ürəyinin gözəlliklərindən doğan İnsanilik hikmətini heç kəsdən əsirgəmir. Bu ona görədir, Günev Atalı millətini ciddi bir içdənliklə sevir. Millətinin insanlarında milli şüurun oyanması üçün əlindən gələni edir, zəhmətlərə qatlaşır. Söz yox, o bu işdə Amaldaşlarına

söykənir, Ocaqdan güc alır. Günev Atalı öz bölgəsində çox işlər görür, görüşlər keçirir. Eləcə də toyda, vayda daim ruhsal söz söyləyir, Asif Atanın ideya-prinsiplərini çatdırmaq üçün ərkyana münasibətlər sərgiləyir, xalqın işinə qarışır. Ancaq etiraz edən olanda da qarşıdurmalara getmir. Ehtiyacı olanlarla ünsiyyətini davam eləməkdən isə geri durmur. İllərdir, Günev Atalı belə bir ömür yaşayır. Hər cür basqılara, tənələrə sinə gərib öz soyundan olan insanları milli dəyərlərə yiyə çıxmağa, millət olmağa çağırır.

Günev Atalıya qarşı münasibət yalnız anlamsızlıqdan irəli gəlmir, nə yazıqlar, bunların arasında, sayca az da olsa, qərəzli Qaragüruh da var. Bayaq dedik, Günev Atalıya fərqli münasibətlər onda acıq doğurmayıb. Tərsinə, hər kəs sevgiylə qarşılanıb. Ancaq elə məqamlar var, burada sevgi sözünü işlətmək olmur. Ruhaniyyatda sevgi görüntüsü yaratmaq, nələrisə ört-basdır eləmək özünü doğrultmur. Ona görə də Qaragüruhun axmaqlığını, axmaqlıqdan doğan amansızlığını açıb göstərmək, ifşa etmək doğrudur. Milli qurulmağa ziyan verən kəslər, kimliyindən asılı olmayaraq, tarixin, gələcəyin nifrətiylə damğalanmalıdır...

Bu günlərdə Günev Atalı anasının ölümü ilə bağlı öz evində yas törəni təşkil elədi. Bu törənə öz elindən, yaxın-uzaq kəndlərdən çox sayda adam qatılmışdı. Günev Atalı elan elədi, ortaya dəftər qoyub pul toplamayacaq, növ-növ yeməklər verib ehsan süfrəsi təşkil etməyəcək. Bütün bunlar onun Amalına, geneldə insani tələblərə uyğun deyil. Hamı üçün çay süfrəsi açılacaq. Uzaqdan gələnlər isə süfrəmizdə duz-çörəyə qonaq ediləcək. Burada məqsəd milli ruhda söz deyib törən keçirməkdir.

Beləliklə, Günev Atalı anası, onun yas törəni haqqında yığcam söz dedi. Sonra isə, Mütləqə İnam Ocağının Yükümlüsü olaraq, mənə söz verdi. Ancaq sözümü ortada kəsdilər, süni hay-həşir saldılar. Həşir salanlar 4-5 adam, qabaqcadan planlı şəkildə hazırlanmış adamlar idilər. Belə götürəndə məsələ heç də dini-filanı qorumağa görə deyildi. Çünkü orada heç dinin adı tutulmurdu da. Sadəcə Günev Atalıya qarşı cismanı qardaşı

Əliyev Ələsgərin qərəzli, qısqanc münasibətini 3-4 adam, aranı qatmaqla, yerinə yetirirdi. Bu adamlar ya psixoloji sorunlar yaşayırlar, ya da arxalarında İran-şiə etkisi dayanır (hələ Atanın sağlığında biz orada mollaların əliylə İranın etkisini dönə-dönə izləmişik. Sonralar bu etki, Günev Atalının şəxsində, Ocağa qarşı yenə özünü göstərmişdir). Çünkü bir adamın qısqanc, qərəzli münasibətinə başqalarının qoşulması heç bir məntiq ortaya çıxarmır. Ən azından ona görə, Əliyev Ələsgərə orda sayğı bəsləyən yoxdur, baxmayaraq, həşirçilər eyni soyadı daşıyırlar: Əliyev İnşallah, Əliyev Yolçu, Əliyev Ələddin...

Burada biz, ordakı çıxışımızdan bir parçanı yığcam şəkildə sunmaqla, nəyə qarşı etiraz olduğunu göstərmək istəyirik: "Ürəyinizdə Günəş olsun, sayğılı yurddaşlarımız! Bu gün amaldaşımız Günev Atalının anası Zümrüd xanımın ölümü ilə bağlı ona, eləcə də, başqa yaxınlarına başsağlığı veririk. İstəyirik, yurdumuzda, haqqımız çatan bir ünvanda, milli mənliyimizi ifadə edən bir dildə, üslubda söz deyək. Bu bizim milli, insani haqqımızdır... Zümrüd xanım 7 övlad böyüdüb. O, övladlarının hər birinin beşiyi başında layla deyib, öz dilinin həzinliyini, gözəlliyini körpələrinin yaddaşına yazmaqla özünün milli gələcəyini əmniyyət altına almışdır. Belə götürəndə, bütün analarımız bilərəkdən, ya bilməyərəkdən bu işi həyata keçirir. Ona görə danışdığımız dilə ana dili deyirik, qutsal sayırıq. Anamızın layla dili qutsaldır, onu bütün hallarda qorumalıyıq. Eyni zamanda, anamız bizi layla diliylə böyütdüyü halda, bizim haqqımız yoxdur, ona yad dildə layla deyək, yad dildə ağırlayıb sonevə yola salaq. Anamıza qarşı bu münasibət özünə yadlaşmağa, milli kimliyini itirməyə gətirib çıxarır...

Layla insana iki dəfə deyilir – bir körpəlikdə, bir də öləndə. Bunlardan biri, qaçılmaz olaraq, ana dilində olsa da, ikincisi milli ərdəmliksizlik ucbatından ərəb dilində olur. Anamızı onun öz dilində deyil, başqa dildə ağırlamaq isə onu da, onun millətini də aşağılamaqdır. Ağırlamaq – ölənin qeyrətini, ləyaqətini, özündən keçməsini, əməyini, balasına, millətinə, dəyər-

lərinə sevgisini – qalanların ağlına, sevgisinə yazmaqdır, qalanlara ölümü, həyatı anlatmaqdır...”

Baxın, Qaragüruh hansı düşüncəyə əngəl olur?!

Buna baxmayaraq, törənə qatılanlar, çoxluq baxımından, məmnun qaldılar. Onlardan 15-20 adam, axşamüstü, Asif Atanın Ocağını dinləməyə qayıtdılar. Bu söhbətlərdə Soylu, Günev, Güntay Atalılar, Ocaqdostu Ağşın Ağkəmərli milli, ruhsal söz dedilər, çoxsaylı sorulara cavablar verildi. Bundan başqa, ideoloji yöndən düşüncə bölüşmələri həyata keçirildi...

Qadınlar kişilərlə bir məclisdə deyildilər. Qadınların da içərisində Qaragüruhun nümayəndəsi vardı. Ancaq ürək edib əngəl ola bilməmişdi. Göylü, Üstün, Elana Atalılar, Ocaq yönündən söz deyib, quralları icra eləməklə qadınlar arasında heyrət doğurmuşlar. Bir gün sonra Günev Atalıya qohum olan qadınlardan bəziləri ailələri ilə birlikdə “Ulufərəh” Ocaq Ailəsinin “Ailə Günü” törəninə qatılmağa gəlmişdilər. Onların boynunaalmalarına görə, öncələr Asif Atanın Ocağını Vəhhabi tipli qurumlarla tutuşdururmuşlar. Ancaq Ocaqçıları dinlədikdən sonra, içdənliklə, Ocaqsevərlərə çevrildiklərini bildirdilər. Onların içərisində Bakıda, Sumqayıtda yaşayanlar da vardı. Ocağın başlıca ünvanının Bakıda olduğunu bildikləri üçün ünvan götürdülər, Ocaqla bağlantı saxlamağın özləri üçün qürur duyğusu olduğunu vurğuladılar.

Ocağın döyüşü, yaşamı həm bir tarixdir, həm də həyatın özüdür. Necə deyərlər, Xeyirlə Şərin döyüşüdür. Şər üstələyir, ancaq qalib olmur, olmayacaq! Asif Ata Xeyirin qələbəsi üçün döyüşdü, bu, dönməz xarakter aldı. İndi onun işini, döyüşünü böyük bir ərdəmliklə Evladları davam etdirir.

## Keçmişi bilmək – Gələcəyi yetirmək

Keçmişdə yaranan mədəniyyətlərin, eləcə də ruhaniyyatların yaradıcılarının bu gün soyu varmı, yoxmu, bəlli deyil. Bir çox yaranmışlar yaşamdan silinib gedib, ancaq ilsırada (tarixdə) qa-

lıb. Ona görə yeni soy yaşamdan çıxmış keçmişi yalnız araşdırıb öyrənməklə uğraşır. Keçmişi bu gündə təkrar eləmək istəmir. Yeni soy yenilik istəyir. Söz yox, bu yenilik də havadan yaranmır, özündən öncəki mədəniyyətlərin bəşəri xassələri ilə cilalanıb ortaya çıxır. Hər çağın, hər sivilizasiyanın yaşayıb başaçatma gedişi var. Ömrünü başa vurmuş hansısa bir olayı olduğu kimi dala qaytarmaq olası deyil. Ancaq onun, dediyimiz kimi, üstün, toxunulmaz cəhətlərindən yararlanmaq, qullanmaq ola bilir, gərəkdir də. Dəyərdə elə cəhətlər var, toxunulmaz qalır. Bunu gerçək bir faktla tutuşduraq. Məsələn, insanı torpağa göməndən çağlar sonra orqanizm çürüyür. Ancaq çürüməyən nəsnələr də qalır. Deyək, sümük, saç. Bu qalanların dayanılıb onun kimliyi, hansı etnosa özgün olduğu öyrənilir, həmin soyun, etnosun qədimliyi ilə bağlı düşüncə formalaşır. Mədəniyyətlərdə də qalan insani toxunulmazlıqlar olur. Hər bir mədəniyyət özünün gələnək, görənəkləri ilə var olub yaşayır. Gələnək, görənəklər getdikcə dəyişir, aradan çıxır. Bu halda mədəniyyət yalnız anlamı ilə qalır, tarixə çevrilir. Bir daha deyək, istənilən mədəniyyət, ideya öncə nəzəri olur. Sonra toplumun yaşam gələnəyini, görənəyini oluşdurmaqla nəzərilikdən gerçəkliyə çevrilir.

İnsanlar bu gün tarixi mədəniyyətləri öyrənirlər, bunda onlar haqlıdırlar. Onlar tarixi mədəniyyətlərin etkili gözəlliklərini öyrənib üzə çıxarmaqla, yeniliyin ortaya çıxmasına ortam hazırlayırlar. Onlar üzə çıxardıqları mədəni faktlar əsasında yeniliyin olmasını istəyirlər, istəmirlər bu ayrı məsələdir. Bir çox hallarda onlar yeniliyin oluşmasına qatılmırlar heç. Burada söhbət konkret tarixçilərdən gedir. Onlar öz görəvlərini, keçmişi öyrənməklə, sonuca çatdırırlar. Ancaq elə araşdırmaçılar olur, onlar köhnəyə nəfəs verib yenidən toplumun yaşamına qaytarmaq istəyirlər. Bu istəyi də haqsız saymırıq, ancaq yanlış sayırıq. Haqsız ona görə saymırıq, o kəslər əxlaqi-mənəvi yaşamın pozulmasının qarşısını almağa çalışdıqlarını düşünürlər. Yanlış sayırıq ona görə, yaşam köhnə gələnəklərə dönüşə bilməz. Yeni çağın tələbləri gözardı olunmamalıdır. Köhnəliyə

nəfəs verməyə çalışmağın yerinə yeniliyin oluşmasına qulluq göstərmək gərəkdir. Bu yoxdursa, çəkilən zəhmətlər havayıdır, gərəksizdir. Bir daha vurğulamaq yerinə düşər, tarixin arxivinə qovuşmuş mədəniyyətlərin üstün cəhətlərindən yeni sivilizasiyanın qurulmasında qullanmaq olar, ancaq onun özünü yeni sivilizasiyaya çevirmək olumsuzdur. Bəşəriyyət geriyə deyil, qabağa gedir.

Bu gün ayrı-ayrı çağdaşlarımız türklüyün gəlişməsi üçün türkün qədim inancı olan Tanrıçılığın bərpa olunmasının gərəkliyini sunurlar. Burada niyyət arıdır, ancaq məntiqsizdir. Biz də bilirik, türk kimliyinin varlığı özümlü ruhaniyyat məsələsinə bağlıdır. Bu gün türkün ruhaniyyatı özümlü deyil, yabançıdır. Türk bu yabançılığı özümləşdirə bilmir, bilməyəcək. Çünkü bu yabançılıq türkün varlığını danır. 7-ci, 9-cu yüzilə kimi türkün inancı Tanrıçılıq olub. Bundan başqa özünün yazı sistemi – abesi də olub. İnancı danılmaqla dilinin özəllikləri də sıradan çıxarılıb. Üstəlik yazı sistemində yığılan bilgilər yoxa çıxarılıb. Öz abesini deyil, başqasının abesini qullanmaqla, ruhsal yönlərdən bilgiləri, başqasının yaşam sisteminə bağlı olub. Bununla da, ulusal kimliyini itirməyin başlanğıcı başlayıb, bu çağa kimi də davam edir. Sonucda dağılmalar, etnik assimilyasiyaya uğramalar yaşanmaqdadır.

Beynimiz ulusal kimlik bazasından ayrıldığı üçün toplum ərəb qafasına uyğun düşünür. Ona görə ərəbin şüurundan yaranan Allah bizə gərəkli ola bimir. Bizim beynimizin axtarış dalğaları Allahın ortamına girə bilmir. Girsə də, tutalqa tapa bilmir. Çünkü ərəb şüurundan oluşan Allah ideyası bizim ruhumuza doğma deyil.

Bir sıra hallarda adamlar, yanlış olaraq, elə düşünürlər, kim nə deyir desin, adını nə qoyur qoysun, Allah birdir. Olsun bir. Ancaq bu "bir olan" nədir axı?! Hər bir ulus Allaha nə ad qoyursa, öz düşündüyü keyfiyyətlərə görə qoyur. Daha doğrusu, Allah anlamının altına öz keyfiyyətlərini yerləşdirir. Məsələn, müsəlman Allah deyəndə, öz şüurunda, xəyalında Allaha ərəbin verdiyi keyfiyyətləri canlandırır. Allah, yəni hurili-pərili,

mələkli, cənnətli, cəhənnəmli, istədiyi insanın yaşamına işıq salan, istəmədiyinin ağlını, qulağını tamğalayan... bir obyekt. Rus "Boq" deyəndə o an şüurunda, xəyalında özünün "Boq"a verdiyi keyfiyyətlər, xassələr canlanır. Başqası da "Boq" adı çəkəndə şüurunda "Boq"a rusun verdiyi keyfiyyətləri canlandırır. Yəhudilər "Yəhva" deyəndə də beləcə. Yəni yəhudilər öz şüurlarında "Yəhva"ya verdikləri keyfiyyətləri canlandırırlar. Bir sözlə, insanın Allah anlayışını hansı keyfiyyətlərlə tanıması olduqca önəmlidir. Onun içsəl özgürlüyü bu məsələyə yanaşmadan çox asılıdır. Ona görə adamlar bizə deyəndə, siz "Mütləq" deyirsiniz, biz "Allah" deyirik, rus "Boq" deyir, – hamısı bir şeydir, – biz buna etiraz edib deyirik bir şey deyil! Ərəbin "Allah"ı bizim dediyimiz "Mütləq"in eyni deyil!

Əslində varlığa münasibət – dünyabaxış yaradıcısının harayadək bəşəri olub-olmadığını bəlli edir. Dünyabaxış yaradıcısı öz ulusunun üstün keyfiyyətlərini böyük Anlama (Mənaya) bağlı şəkildə sunursa, onun bəşəriliyi ulusunun üstün keyfiyyətlərini qoruduğu qədərdir. Çünkü hər bir ulus üstün insani keyfiyyətləri ilə bəşəri anlam daşıyır. Ancaq gərək başqa toplumlar üçün də, onların üstün keyfiyyətlərini özgür şəkildə üzə çıxarmalarına, ortam yaradasan. Nə yazıqlar, dünyabaxış yaradıcıları bunu etməyiblər. Bununla da bir sıra başqa toplumlar ruhsal assimilyasiyaya uğrayıblar. Ona görə bu məntiqə dayanıb biz sübut eləyirik, Asif Ata bütün dünyabaxış yaradıcılarından daha çox bəşəridir. Tutuşdurmalar aparmaqla da bunu sübut eləmək olumludur. Məsələn, ərəblərin "Allah" anlayışına üz tutanda o anlamın daşıdığı keyfiyyətlər içində türk öz etnik keyfiyyətlərini tapa bilmir. Deyək, heç ingilis də tapa bilmir. "Boq"larda, "Yəhva"larda da beləcə. Ancaq Asif Atanın "Mütləq" anlamının daşıdığı keyfiyyətlərdə hər bir toplum özünü görə bilir. Başqa sözlə, özünün etnik keyfiyyətlərini tapa bilir. Məsələn, Asif Ata deyir: Mütləq – əzəli, əbədi, kamil, sonsuz Dünyalıq deməkdir, Həyatlıq deməkdir, İnsanlıq deməkdir. Əzəli, əbədi, kamil, sonsuz İnsanlıq (eləcə də Həyatlıq, Dünyalıq) bütün toplumlar üçün doğrudur, yüksək dəyərdir. Asif Ata-

nın türk kimliyini qurmasına gəlincə, bu məsələ, Onun yaratdığı Dünyabaxışın varlıq anlamından qaynaqlanan gələnək, görənəklərində öz yerini tapır. Hər bir toplumun da etnik kimliyi, bu dünyabaxışın böyük anlamına dayanaraq, öz yaşamında öz etnik mahiyyətindən yaratdığı gələnək, görənəklərə görə özünü tapır, başqa sözlə, doğrulur. Atanın Baxışında hər bir toplumun böyük gələnəkləri, görənəkləri, özünəxas olaraq, qaldığı üçün o, assimilyasiyaya uğramır. Deməli, Asif Atanın bəşəriliyi həm etnik-ulusal kimliyini qorumaqda özünü göstərir (hər bir ulus özündə bəşərilik daşıdığı üçün, onun qorunması bəşəriliyin qorunması deməkdir), həm də başqa toplumlara özünütapma, özünüqoruma ortamı yaratmasında...

İndi qayıdaq "keçmişi bugündə bərpa" məsələsinə. Biz vurğuladıq, olası deyil. Niyə olası olmadığına da qısaca yanıt verdik. İndi isə vurğulayırıq, yeniliyin qaçılmazlığı baxımından, bu çağ, bu aşama Asif Atanındır. Bunu görməzliyə vurmaq, bunu danmaq gerilikdir, ulusal gələcəyi dərk etməməkdir.

Asif Ata Yeni, Yalansız İnam yaradıb. Bu inam, insanlığı yaşama qaytarmaqla, Ulusal kimliyi təsdiq edir. Bu İnam toplumun düşüncə yönünü bəlirləyib gələnək, görənəklərini özümlü, ulusal şəklə salır. Mədəniyyətini, ilsırasını, kültürünü qoruyub yaşatmaq üçün abesini ortaya gətirir.

Tarixi türk abeləri özündə önəmli, ancaq həm də gizli bilgilər daşıyır. Abe işlənmədiyi üçün, o bilgilər də yazılmadığı üçün bizə bir şox şeylər bəlli deyil. Asif Ata, az-az tapılan bilgiləri dəyərləndirməklə, özünün fəhmi, ərdəmliyi ilə, hünərli idrakı, ruhu ilə ulusal qurtarıcılıq işinə başlamışdır. (Bu qurtarıcılıq işi həm ulusal, həm də bəşəri anlam daşıyır.) Bunu öyrənməyi, ona yiyə durmağı hər kəsin qutsal görəvi hesab edirik.

## Dəyərləri söyməyin

Bu günlərdə ADP-nin başçısı Sərdar Cəlaloğlunun bir internet tv-də yayımlanan müsahibəsini dinlədim. Söhbət Azərbaycanın bəzi dəyərlərindən gedirdi. S.Cəlaloğlu Babəkə, Koroğ-

luya qarşı özülsüz, tutarsız qınaqlarla, ələşdirmələrlə yanaşır. Qaçaqlarla da bağlı düşüncələrini sərgiləyirdi. Qaçaqlarla bağlı dediklərinə yönəlik nəsə deməyə gərək yoxdur, çünkü qaçaqçılığı milli dəyər saymıram. Ancaq Babək haqqında danışanda, dediyim kimi, çox tutarsız arqumentlər uydurur. Babəkin Xürrəmilik Baxışının daşıyıcısı olduğuna toxunmur, Xürrəmiliyin hardan qaynaqlandığını, ideya-prinsiplərinin nədən oluşduğunu araşdırıb öyrənmədən danışır, ya da qərəzli danışır. Bilmək gərəkdir, dəyərlərə baxış siyasət deyil, nə də bu dəyərlər hansısa ideoloji düşüncələrlə kompromisə girməli faktor deyil.

Çoxları Babəki sovet yapısının (şüurunun) məhsulu sayırlar. Sovet yapısı ilə Xürrəmiliyi bir-birinə bağlayan heç nə yoxdur. Məzdəkizmin ümumiçilik prinsiplərini də Xürrəmiliyə qarışdırıb Sovet yapısına bağlamaqda qabaqcıl təfəkkür yoxdur. Xürrəmilik ideya başlanğıcını Tanrıçılıqdan götürmüş bir baxışdır. Şirvin – İnsanla Doğanın birliyində yaşayan qüdrətdir. Bu qüdrət, insanda dönməz döyüş əzmi yaratmaqla, ölməzlik həqiqətini anladan dəyər ölçüsüdür. Babək də ərəb azğınlığına qarşı döyüşəndə özünə bu qüdrətin işığıyla yol açırdı. Döyüşkənliyə, Yenilməzliyə inam (söhbət fiziki yenilməkdən getmir) Babəkdə olduğu qədər, dünyanın heç bir qəhrəmanında olmayıb. Çünkü Babəkdə şəxsiyyətin gücü – Döyüşkənliklə Dünyabaxışın birliyindən formalaşmışdı. Babəkdə "Ən-Əl Həqq" ideyasının parlaq bir gerçəkliyi vardı – İçində Şirvin gəzdirirdi. İçində Şirvin gəzdirəndən (belə baxanda Həqq mənəm deyəndən) ərəbbaşlar o qədər qorxurlar, Babəkə qarşı Mötəsimdən daha betər böhtanlar yağdırırlar.

Koroğluya gəlincə, Sərdar bəy, niyəsə, Koroğluda ancaq qol-qıç görür, ideyaya çevrilən həyat salnaməsini görmür. Baxın, Sərdar bəy nə deyir, "Koroğlunun nəyi qəhrəmandır, Dəli Hasana, Dəmirçioğluna, Giziroğluna yenilir"? – Ancaq nədənsə, Sərdar bəy, Dəli Hasanların, Dəmirçioğullarının Koroğlunun buyruğuna gəlməsinin niyəsini demir. Dastandan aydın anlamaq olur, Koroğluda olan qol-güc başqalarında da ola bilir. Ancaq Koroğlu kimi uzaqgörənlik, tədbirli olmaq, Dədə Qor-

qud kimi böyüklük edib 7777 Dəlinin yaşamında nizam yaratmaq hər qəhrəmanın işi deyil. Böyük bir toplumda hamı halaldır, mərddir, ədalətlidir, bir-birinin haqqına, malına göz dikmir. Paşalardan, Xotkarlardan aldıqları da eldən, xalqdan oğurlanan sərvətdir. Məgər bu gün xalqı soyan məmurların banklara topladıqları sərvətlərin xalqa qaytarılmasını, bir partiya başqanı olaraq, Sərdar Cəlaloğlu istəməzmi?!

Koroğlunun Saza tapınması, Qırata bağlanması – onların arxasında gizlənməsi anlamına gəlməz. Bu birlik Türk kimliyinin göstəricisidir. Türk Atsız, Sazsız doğanı sevə bilməz, göylərlə əlləşə bilməz, yəni Türk olmaz. Koroğlu, Dədə Qorquddan başlayaraq, Azərbaycan türklərinin obrazlaşmış yaşam sistemidir, bədii dillə desək, həyat salnaməsidir. Bütün bunları gözardı elədiyinə görə, Sərdar bəy Koroğluya alternativ irəli sürür – Qaraca Çobanı. Görəsən, Qaraca Çobanda, xalqa qəhrəmanlıq örnəyi kimi, nələri ölçüyə çevirir Sərdar Cəlaloğlu?! Ağasına sədaqət göstərərək, yağılarla döyüşə girən, Qaraca Çobanlar örnəyi həyatda azdırmı?! Burda ideya səviyyəsinə qalxan özəl üstünlük nədədir görəsən?! Bir də görürsən döyüşdə qumbara partladıb üç düşmənlə özünü öldürən bir şəhidi Babəklə tutuşdururlar. Şəhidlərimizə sevgimiz yetərincədir, ancaq onu, özülsüz olaraq, böyük ideya səviyyəsinə qaldırmaq, guya şəhidi uca tutmaqdır?! Hər şey öz yerində, öz qatında qiymətlidir...

S.Cəlaloğlu S.Vurğunla da bağlı danışır. Biz S.Vurğunla bağlı, 2004-cü ildə, basın yayınında (mətbuatda) ciddi araşdırmalarla çıxış eləmişdik, kitaba da, "Zamanın içində" adlı bir əsər kimi, salındı (İnamçı Harayı, Adiloğlu nəşriyyatı, 2007). Bu zaman biz, S.Vurğunun bədii gücünü, ilahi yetənəkliyini (istedadını), Doğa-Saz nəğmələrini gözardı eləməmişdik. Gərək ələşdirəndə (tənqid edəndə) də ədalətli edəsən...

Bir sözlə, istər dəyərlərə, istər dəyərsizliklərə qiymət verəndə, insan gərək ilk növbədə özünü görə bilsin, olanaqlarını üzə çıxarıb özünü ciddi qura bilsin – Dəyərlərə Özündən baxa bilsin. Onda xeyirlə şərin yeri dəyişik düşməz.

## Babək Özgürlük simgəmizdir
### *(Babək Günü ilə bağlı toplantıda çıxışdan)*

Tarix boyu Azərbaycanın dəyərlərinə çoxsaylı hücumlar olub, bu gün də var. Bizi, bir millət olaraq, sıradançıxarma gedişləri var. Bunu dövlət siyasəti səviyyəsində həyata keçirirlər. Buna direniş göstərməyin ilk addımı, özümüzün ayaqda qalmağımız üçün, tutacağımız dəyərlərimizi tanımaqdan başlayır. Bizi millət eləyən nə varsa, onları öyrənməliyik, bilməliyik. Onları təkcə öyrənməli, bilməli deyilik, milli gələnəklərimizdə yaşadılmasına çalışmalıyıq.

Babək haqqında tarixi faktları burda vurğulamayacağam. Bilirsiniz, Babək haqqında çoxsaylı yanlışlar var. Bu yanlışlar təkcə onun tarixi faktlarına yanaşmada deyil, bütövlükdə Babəkin sunulması, öyrədilməsi, bir dəyər olaraq, bir mənəviyyat faktı olaraq pozuntuya uğradılır (təhrif olunur). Ən yaxşı halda isə, Babəki ərəb işğalçılarına qarşı döyüşən bir qəhrəman sayırlar. Bilmək gərək, Babək ərəb işğalına qarşı elə-belə döyüşmürdü. Ərəb bizim üzərimizə elə-belə gəlməmişdi, ideologiya ilə gəlmişdi. Başının üstünə İslam bayrağını qaldırmışdı. Dilində "la ilahə illallah" bağırtısı vardı. Yurdumuzun içərisinə "la ilahə illallah" bağırtısı ilə girirdi. Babək "la ilahə illallah"a qarşı döyüşürdü, onun xalqının içinə gələn, gətirilən ideologiyaya qarşı döyüşürdü.

Bilirsiniz, Azərbaycanı işğal eləyən Abbasilər sülaləsi olub, o çağda xilafətin başında onlar dururdu. O da bəllidir, Azərbaycanın özünün inamı vardı – Tanrıçılıq. Xilafət Azərbaycanın qarşısında koşul qoymuşdu, İslam dinini qəbul eləməsəniz xərac verməlisiniz, cizyə (can vergisi) ödəməlisiniz, bir gün, bir gecə olmaqla, ərəb əsgərlərini ailələrinizdə saxlamalısınız. Hədəf bu idi, ərəb əsgərlərindən dünyaya övladlar gətirmək, yaxın gələcəkdə Azərbaycan kimi verimli torpaqları ərəb feodallarının ələ keçirməsini sağlamaq. Bu artıq əxlaq məsələsi, namus məsələsi idi. Bizim millət belə qəbul edibdir İslamı. Namusunu qorumaq üçün fiziki dirənə bilməyib, qəbul edib. Baxmayaraq

qəbul edib, xalqın qız-gəlinlərindən dünyaya ərəb övladları gətirmək planı ortadan qaldırılmayıb. Harda gəldi, qız-gəlinləri zorlama murdarlıqları həyata keçirilib. Azərbaycanlılar namussuzluğa dözməyib ərəb əsgərini öldürəndə, hər öldürülən ərəb əsgərinə qarşılıq beş can istəyirdilər. Əgər bir evdə, bir ailədə beş can yoxdursa, qohumlarından o sayı düzəldirdilər. Bir ərəb əsgərinə qarşı beş can. Xalqda bir deyim var, yaşlı adamlar bunu bilir, "ərəb öldü, qan düşdü". Bu söz ordan qalıb.

Cizyə nə idi? – Can vergisi, yəni bu torpağın üstündə yaşadığına görə, hava udduğuna görə vergi verməlisən. Bu millətdən öz yurdunda cizyə alırdılar. Mən bunu niyə vurğu edirəm? – Bu millətin qeyrətini oyatmaq üçün. Babək buna qarşı ayağa durdu. Ancaq təkcə işğal məsələsi deyildi, Babəkin özünün Xürrəmilik inancı vardı. Bu gün ərəbqafalı tarixçilər ortaya düşüb sübut eləməyə çalışırlar, Babək ərəbin işğalına qarşı döyüşürdü, İslamla döyüşmürdü. Necə yəni İslamla döyüşmürdü, nə deməkdir bu? Axı onun öz inancı vardı, özünün bayrağı vardı, Dövlət quruluşu vardı, yasaları vardı. Xilafətin dövləti İslam dövləti, yasaları İslam yasaları idi...

Babək ordu başçısı idi, üsyançı deyildi. Üsyançı damğası vurublar Babəkə. Babək üsyan eləmirdi, İslam xilafətinə qarşı savaş aparırdı. Böyük bir xalqla, millətlə ayağa durmuşdu, beş-on adamla deyil. Bir yanı Zəncan, bir yanı Şəmkir, bir yanı Naxçıvan, bütöv Azərbaycanı qapsamışdı. Babək bütöv yerimişdi ərəblərin üstünə.

Babəkin inancıyla bağlı da çelişkili baxışlar var. Guya Xürrəmilər ayin yerinə yetirərkən içki içib şənlənərdilər, sonra pozğunluq edərdilər. Guya Xürrəm sözü də bu davranışdan irəli gəlib. Yalandır, Böhtandır! Baxın, bu məsələləri ciddi öyrənən Asif Ata deyir, xürrəm sözü kefcillik anlamına gəlmir Babəkdə, Fərəh anlamına gəlir. O, Fərəh üstə yaşayırdı. Onun inancının adı fərəhçilik idi. Babək özgürlük uğrunda döyüşürdü. Babək deyirdi, özgürlük elə-belə yaşam faktı deyil. İnsan içindən özgür olduqca onun içi Fərəhə qərq olur. Bu fərəh onun ömrünün yönünü bəlli edir. Onun kimliyini bəlli edir. Babəkdə

inam, İslamdakı kimi, insanı bədbinliyə qapamır. İslam, bədbinlik yaratmaqla, insanı mənəvi fəlakətə sürüyür: Dünya oyun-oyuncaqdır, heçdir, fanidir. Gec-tez Qiyamət qopacaq, bu dünya dağılacaq, filan olacaq. Dünya niyə dağılacaq? Çünkü insan əzəli günahkardır. Onun ulu babası Adəmlə, ulu nənəsi Həvva günah işlədib, İblisin felinə uyub, Allahın buyuruğundan çıxıb, ona görə Allah onları lənətləyib, cəzalandırıb, Cənnətindən qovub, Yer üzünə göndərib. Bundan sonra Allaha daha çox ibadət eləyən, öləndən sonra, yenidən Allahın dərgahına qayıda bilər. Düzəlməyən isə, bu dünyayla birlikdə, məhv ediləcək...

Budur Xilafətin Azərbaycana gətirdiyi inam. Din Axirət dünyası uydurur. Axirət Dünyaya qarşıdır. Din bütövlükdə dünyanın anlamına qarşıdır. Dünyanın gözəlliyinə qarşıdır. Fani dünya ideyası yaşadığımız dünyanı insanın gözündən salır. İnsanın gözündən dünya düşürsə, o, vətən haqqında düşünmür, axirət haqqında düşünür. Çünkü dünya fanidirsə, vətən də fanidir. Vətən dünyanın bir parçasıdır. Deməli, onda vətən də fanidir. Vətən sevgisi yapılardan (şüurlardan) silinib gedir. İnsanın varlığına bütünlüklə qorxu sarınır. Babək buna qarşı döyüşürdü. Onun Özgürlük ideyası özündə insan faktının yüksəldilməsini daşıyırdı. Babək deyirdi, mən içimdə Şirvin gəzdirirəm. Onun yandaşları, yörəsində olan azərbaycanlılar inanırdılar, Şirvinin ruhu Babəkdədir. Şirvinin ruhu Babəkdədirsə, deməli, O, peyğəmbərdir. Xürrəmdinliyin peyğəmbəridir. Çünkü o ruhu peyğəmbər özündə daşıya bilir. "Peyğəmbər" sözünü işlətmirdilər, bu söz fars sözüdür. Ancaq Şirvinin ruhunu gəzdirən insan peyğəmbər statusu daşıyan insandır, bunun anlamı belədir. Bunu bizim şüurumuzdan siliblər, əlimizdən alıblar.

İçimdə Şirvin var demək, əslində, Babəkdən 500-600 il sonra ortaya çıxan hürufilərimizin dediyi Ənəlhəqq ideyası idi. 10-cu yüzildə Hüseyn Mənsur Həllacdan öncə "Ənəlhəqq"i Babək demişdi. Şirvin qüdrət allahının adı idi. Yenilməzlik onunla bağlı idi. Babək ona görə yenilmirdi. Döyüşkənlik, sığmazlıq onunla bağlı idi. Mən içimdə Şirvin gəzdirirəm, yəni məndədir

Allah. Hürufilər deyirdilər, İnsan kainatın zərrəsidir, ancaq cövhərində olan zərrəsidir. Asif Ata da bunu deyir, İnsan özündə bütün kainatın anlamını, mənasını daşıyır. Dünyalıq adlı mənasını özündə daşıyır. Dünyalığın İnsanlıq adlı çalarını özündə daşıyır. Bu, elə insanın Allahlığı deməkdir. İnsanlıq Allahlıq anlamının çalarıdır, onu insan özündə daşıyır. Hürufilərimiz onu vurğu eləyir, Babək onu vurğu eləyirdi. İnsan özündə belə bir olanaq daşıyır. İnsana elə-belə baxmaq olmaz. İnsana, içində o qüdrəti daşıyan kimi baxarsansa, insan o qüdrətə çatmaq haqqında düşünər. Böyük olar, şəxsiyyətə çevrilər. Ancaq insanı bəndə, qul, kölə sayarsansa, o, qul şüuru ilə yaşayar. İndiki kimi sürü halında – Xalqını tanımayan, onun qədrini bilməyən, gələcəyini düşünməyən.

Biz Babəkə yanaşanda bu açıdan yanaşırıq.

Ancaq bir şeyi də mən deməliyəm. Mən burda heç kimə heç nəyi təbliğ eləmirəm. Öz düşüncəmi deyirəm. Hər kəsin düşüncəsini dinləməyə də hazırıq. İslam şüurlu toplumumuz Babəkin də adından qorxurlar, Asif Atanın da. Ancaq nə qədər Babəkin adından, Nəsiminin adından, Asif Atanın adından qorxacaqsan, millət ola bilməyəcəksən. Qorxaqdan türk olmaz. Qorxaqdan ərəb olar. Qorxaqdan başqa şey olar.

Bəzən Babəkə qarşı yeniliyi tutalqa (bəhanə) gətirənlər də olur. Yəni Babək keçmişdə qaldı. Biz bunu yanlış sayırıq. Yenilik nədir? Yenilik – gələnəyin gəlişməsidir, gəlişdirilməsidir. Qədim gələnəklər daim həyatımızda gəlişir, çağdaşlaşır. Ancaq heç bir qədim gələnəyi, olduğu kimi, bu gündə saxlaya bilmirsən, ya da onda dayanıb qalmırsan, bu ayrı məsələ. Konservatizm gəlişmənin ölümüdür. Yerində saymaqla millətin gələcəyi olmaz. Gələcək gəlişmə deməkdir. Gəlişmə isə, dediyimiz kimi, keçmişi, qədimliyi danmaq üzərində qurulmur, onun davamı üzərində qurulur. Tanrıçılıq sistemimiz, inancımız olub. Tanrıçılığın uzantısında Xürrəmilik yarandı. Bu, bütöv Tanrıçılıq deyil, yenilikdir, ancaq onun cövhərində Tanrıçılıq var. Babəkdən sonra Hürufilər gəldi ortaya. Hürufilər yenilik idi, ancaq gələnəyin davamı idi. Bu gün Asif Ata gəldi, Hürufilərdən

beş yüz il sonra, bu da yenilikdir, gələnəklərin yenilənməsidir, çağdaşlaşmasıdır. İnsan haqqında, millət haqqında, dövlət haqqında, vətən haqqında, bəşər haqqında yetgin, kamil ideya qoyub ortaya. Bu ideya səni, bir millət olaraq, gələcəyə çağırır. Bir millət olaraq, səni var eləyir. Baxın, millətin gəlişməsi budur. Gələnəyin gəlişməsi belə olur – çağdaşlıq. Bu olur yenilik. Başqa cür yenilik olmur. Ancaq bu gün insanlarımız yenilik adına bütün dəyərlərimizdən, gələnəklərimizdən əl çəkirlər. Bizə sırınan, bizi əritməyə yönələn (Assimilyasiyaya uğradan) gələnəklərdən tuturlar.

Bir var gələnək (ənənə), bir də var vərdiş. Bunlar ayrı-ayrı şeylərdir. Bu gün biz, millət olaraq, özümüzün qədim gələnəklərimizin üzərində gəlişib çağdaşlaşmırıq, yenilik adında bizə sırınanlara vərdiş olunuruq. Bununla da, öz üzümüzü, öz kimliyimizi itiririk, özgənin ətəyində namaz qılırıq, kişiliyimizi itiririk, qadınlığımızı itiririk, Mənəviyyatımızı itiririk. Bu gün bizim gəlişməyimiz, yenilənməyimiz budur. Ona görə papağı qabağımıza qoyub ciddi düşünmək çağımızdır. Qədim gələnəklərimizin bizim həyatımızda, bizim gələcəyimizdə, bizim millət olaraq, qurulmağımızda yeri, rolu nədir, bəlli etməliyik. Tapınmalıyıq ona. Babək o dəyərlərdəndir, insan böyüklüyünü öyrədir, insandakı yenilməzliyi, sığmazlığı, Allahlığı öyrədir. Ənəlhəqqi öyrədir. Şirvinliyi öyrədir. Bu gələnəklərin üzərində, millət kimi, ciddi addım götürə bilərik. Dünya, mənəvi gəlişmə baxımından, bizdən çox şey öyrənə bilər. Dünyanın tör-töküntülərinə vərdiş eləməyimizin yerinə dünyaya dəyərlər verə bilərik.

Babək haqqında bu cür düşünürəm, onu bu cür tanıyıram, bu cür qarşılayıram. Bu cür də sevirəm. Bu cür də o ləyaqəti öz sevgimdə, öz daşıdığım dünyabaxışda yaşadıram, yaşatmağa çalışıram.

## Asan referendum keçirməyin nədənləri

Eldə məsəl var – "quş dimdiyindən tora düşər" deyirlər. Yəqin bunun nə demək olduğunu hər kəs başa düşür. Yəni quş ovlananda, heç də, heç kim onun dimdiyinə qarmaq salmır. Dənə – yemə aldanan quş tora düşər anlamı daşıyır bu məsəl. Yem fiziksəl varlığı gərəkli edən başlıca faktordur bu bəlli. Ancaq yalnız fiziksəl varlığını düşünüb başqa şey düşünməyəni, yem, ölümə yem edə bilir. Azərbaycanın bugünkü siyasal mənzərəsi yem qurbanlarının macəralarından oluşubdur. Ayrı-ayrı çağlarda özünün döyüş yoluna, eləcə də bir-birinə dönüklük edib "dimdiyindən tora düşənlər" (hakimiyyətin yeminə, yemləməyinə satılanlar) indi toplumu antireferendum kompaniyasına qoşulmağa çağırırlar. Toplum isə onları nə görür, nə də eşidir. Hakimiyyət də çox rahat antimilli qərarlar verir. Sosial şəbəkələrdə emosional yazanları, virtual narazılıq edənləri çıxsaq, heç bir ciddi direniş görməyən hakimiyyət sadəcə buyruğundakı qurumlara nə etmək gərəkdiyini göstəriş verir. Deyək, Konstitusiya məhkəməsinə göstəriş verir, referendumun ola bilməsini kanıtla, qəbul elə. Bir azdan da dövlətin bütün müəssisələrində çalışan işçiləri səsverməyə göndərəcəklər. Heç kim də, iş yerini itirmək qorxusu üzündən, getməkdən boyun qaçıra bilməyəcək. Beləliklə, bir tayfa, dövlətin başında, öz hakimiyyətinin ömrünü uzadıb sürdürəcəkdir. Hər şey çox asan başa gəlir, çox sadə həyata keçirilir. Nədən, – çünkü siyasi müxalifət yoxdur – aldananlar, aldadanlar, satılmışlar yığını var. Mən bu sözü kimlərisə alçaltmaq üçün demirəm, durumdan acıyan, ağrıyan bir millət övladı olaraq inciyib deyirəm.

Bəlkə də, başlanğıcda hakimiyyəti ələ keçirən bu tayfa bunca uzun ömürlü olacağını düşünməmişdi. Ancaq zaman-zaman siyasi müxalifəti içəridən dağıdıb elə bir ələbaxan duruma gətirdi, özü öz işinə heyran qaldı. Bu çağacan müxalifətdə bir balaca birlik, təpər olsaydı, bu hakimiyyət dövlətin başında qalmağa tab gətirməzdi.

İqtidar bir çoxlarının mənliyinə pul qoydu. Onlar da asanlıqla mənliklərindən əl çəkdilər. Bununla qarşısında hansısa içsəl bir gücün olmadığını görən İqtidar düşündü, niyə də hakimiyyətini əlindən versin, niyə də olanaq varkən özü davam etməsin. Ona əngəl olan yalnız bir güc vardı – qanun. Onu da dəyişdirib susdurmağa nə var ki?!

Dışarıdan da təpki göstərən yoxdur. Kimin nəyinə gərəkdir. Bir halda, dışarıdakının istəkləri ödənilir, niyə rahatsız olsun ki?!

...Ancaq durum təkcə siyasal ortamda çelişkili deyil, toplumsal ortamda da çelişkilidir. Söz yox, bunlar bir-birinə bağlı məsələlərdir. Bilim, mədəniyyət, ədəbiyyat adamları da ortamın dalınca yüyürürlər. Opportunizmin başlıca özəllikləri də zatən bu deməkdir. Ortam nəyə, hara çağırırsa, oraya gedirlər. Gerçəkliyə uyğun hərəkət eləmək gərəkdir deyirlər. Ötən illərin tarixini də unudurlar. Anlamırlar, bilimdə, ədəbiyyatda ciddi iz qoymuş adamlar gerçəkliyə uyğunlaşmağı deyil, gerçəkliyi dəyişməyi düşünüblər. Ona görə döyüşüblər. İndikilər kimi gerçəkliyin xoşuna gəlmək üçün "hər şey" olmayıblar. Mənəvi, idraki güclərini gerçəkliyi, öz əyrisində, sarsıtmağa yönəldiblər. İndikilər isə sığınmaq üçün kölgə axtarırlar. Nəyimə gərək "anlamsız" uzun savaş deyirlər.

Unutmaq olmaz, gerçəkliyə uyğunlaşanlar idealsız qalırlar.

Özlərini türkçü sayanların da əlləri yalındır. Köhnə ideyalardan yapışırlar, ölünü diriltmək istəyirlər. Yenilikdən qaçırlar, vaxt itirirlər, ortama uyğun türkçülük istəyirlər – heç nə alınmır, alınmayacaq. Nə dinçi türkçülük, nə Batıçı türkçülük qurtuluş deyil, ola da bilməz. Dinçiliyi dananlar isə deyirlər gərək ateizm olsun. Türk kimi inamçı, insançı bir etnos ateizmlə hara gedə bilər ki?!

Asif Ata deyir: "Azərbaycan millətçilik yolu keçmədi. SSRİ dağılandan sonra rusçuluqdan Batıçılığa yüyürdü".

Biz də deyirik, Azərbaycan toplumunun bəlli bir kəsimi də Batıçılıqdan dinçiliyə qayıtdı, yenə də millətçiliyə üz tutulmadı. Biz düşünürük, Azərbaycan böyük anlamda bağımsızlığına,

özgürlüyünə qovuşmaq üçün Millətçiliyə üz tutmalıdır. Bu millətçilik Mütləqə İnam Öyrətisindən bəhrələnən bir döyüş xəttinə çevrilməlidir. Bunsuz Millətçilik ideyası gücə çevrilə bilməyəcək.

Asif Ata yazır: "Millətçilik – Vətəni, Milləti mütləq saymaqdır". Düşünürük, bu ləyaqətə yetməyən toplum bağımsızlığa, özgürlüyə qovuşmaz. Vətənçi, Millətçi olmadan, böyük bağımsızlıq, özgürlük qazanmaq olumsuzdur.

## Nardarandan başlayan İran bölücülüyü

İllərdir Azərbaycanda elə görüntü yaradılır, elə bil hər şey göz altındadır, güc strukturları ayıq-sayıqdır. Ona görə də heç bir toplumsal sorun yarana bilməz. Yaransa da anındaca qarşısı alınar, hər şey yoluna qoyular. Söz yox, bu bir gerçəklik deyil, yaradılan görüntüdür. Azərbaycanda yanlış yönətmə ucbatından çox sorunlar vardır. Toplumu etki altında tutmaq üçün çox oyunlara meydan verilib. Bu oyunların da əsas fəsadları dini müstəvidə özünü göstərir. Hakimiyyətimiz davranışlarının adını tolerantlıq qoyub din çətiri altında qorxulu qrupların örgütlənməsinə ortam yaradır. Bunlardan biri Sələfi adlandırılan Vəhhabilik örgütüdür. Bu örgütü iki qrupa ayırıb birinə radikal Vəhhabilik deyilər, o birinə sivil Vəhhabilik. Ancaq anlamaq olmur, dünyəvi dövlətin içində hansısa dini cərəyanın radikallaşması, ya da siyasal örgütlənməsi nə deməkdir?! Geneldə bu cərəyanın radikalı necə olur, sivili necə?! Öncələrdə yazdığımız kimi, sivil deyilən qanad odur, istəklərini gerçəkləşdirmək üçün toplumu çaşdıran bir Orta (Mərkəz) yaradır. Bu Ortanın da arxasını bərkitmək üçün üzvlərinin bəlli bir kəsimini terror şəbəkəsinə çevirir.  Kim sübut edə bilər, Türkiyədəki HDP ilə PKK arasında ayrılıq var?! HDP siyasal döyüş ilə istəklərini ortaya gətirir, bu istəkləri yeritmək üçün gərəkəndə silahlı şəbəkəsini işə qoşur. Vəhhabilik də onun kimi. Üzdən baxanda ayrı-ayrı qruplar şəklində görünür. Ancaq elə deyil.

İndi qayıdaq Azərbaycan hakimiyyətinin davranışı məsələsinə. Məgər hakimiyyətin ideoloji şöbələri araşdırıb öyrənməyibmi, vəhhabilik haçağ yaranıb, kim yaradıb, nə üçün yaradıb?! XIX yüzilin başlanğıcında yaradılan Vəhhabilik Qafqazda, Orta Doğuda bəzi projeləri gerçəkləşdirmək üçün ortaya çıxarılmadımı?! Bəs qara niyyətləri doğrultmaq üçün hərəkətə gətirilən bir olaya qarşı tolerantlıq nə deməkdir?! Zaman-zaman aldadılaraq, şirnikləndirilərək tora Salınan xalqın balalarına kim yiyəlik edəcək?! Bəs dövlət bundan ötrü deyilmi?! İş tamamilə tərsinə gedir. Bölücü, dağıdıcı qruplara, qüvvələrə qarşı tolerantlıq sərgilənir, onların toruna düşən xalqın balaları isə zindanlara atılır. Azərbaycan televiziyaları bircə yol bu tip məsələlərə yönəlik ifşaedici mövqe sərgiləmir, maarifçilik işi aparmır. Bütünlüklə yüngül həyat tərzi keçirənlərin anlamsız verilişlərinə yer verilir. Ara-sıra milli məsələlərə də yer verəndə elə hal yaranır, heç kim heç nə anlamır. Nə yaxşıdır, nə pisdir – bilinmir. Qarışıq-dolaşıq düşüncələr səslənir, qoy toplum özü gedib baş sındırsın, nə yaxşıdır, nə pisdir. Belə nizamsız, anlamsız üsulla toplumu necə doğru yönəltmək olar ki?! Aydın, alim o deməkdir, toplumu çaşdıran gedişi düzgün araşdırır, ona (topluma) gərək olanı, doğru olanı öyrədir.

Biz aydınlara, bilim adamlarına, hakim strukturlara ərk edib iradlar bildiririk – buna haqq edirik. Çünkü vətənimizi, millətimizi sevirik. Onun bugünkü, ya da sabahkı taleyində yaranan, yaranacaq acılardan dolayı rahatsız oluruq.

Bu gün Bakının Nardaran kəndində baş verən olaylar, belə götürəndə, bir uyarılıq siqnalıdır. Bunun sonrası daha acınacaqlı şəkil ala bilər. Yaxşı, biz necə dövlətik, ağzımızın içində bir kənd illərdir boyunəyməzlik göstərib özbaşınalıq edir?! Nə vaxta qədər kəndin 3-5 adamını zindana atıb gözləmə mövqeyi tutacağıq?! Bəs soydaşlarımızı yoldan çıxaran İran-molla rejimini haçağ dövlət səviyyəsində nişan verib ifşa edəcəyik?! Sorğular tükənmir, bu yazı da ancaq sorğulardan oluşdu...

Quzey Azərbaycanda illərdir İranlaşdırma sürəci aparılır. İran eyitim ünvanlarında, bilim ortamlarında milli kimliyimizi danan təbliğatlar qurur. Güney Azərbaycanda özgürləşmə sürəci o qədər güclü getmir, nə ki Quzey Azərbaycanda İranlaşma sürəci. Çünkü Quzey Azərbaycanda dövlət səviyyəsində bircə yol Güneyli soydaşlarımıza yiyə durulmadı. Ancaq İran, Güneylilərin səsinə Quzeyin səs verməməsi üçün, Nardaranda bölücülük şəbəkəsi qurub. Baxın, Sovetlər dağılan kimi, İran Quzey Azərbaycana hər mənada basqı göstərməyə başlayıb. Güneyin özgürləşməsinin qarşısını Quzeydə kəsir. Şaxsey-vaxsey çığırtıları ilə toplumumuzun bir kəsiminin içində o biri kəsiminə qarşı nifrət duyğusu böyüdür, vətəndaş-soydaş qarşıdurması hazırlayır. Xorasanda, Qumda eyitim verib içərimizə qaytardığı yurddaşlarımızın çağırışına baxın: – "Azərbaycan İmam Hüseyn yurdudur". Soruşan gərəkdir, bu yurdu İmam Hüseynə kim bağışlayıb, haçağ bağışlayıb?! Fars-molla rejimi öz ölkəsini İmam Hüseynə bağışlayırsa, özü bilər. Azərbaycanın yiyəsi türkdür, ərəb deyil. Bu yurdun yiyəsinə arxa çevirmək, qıraqdan ona yiyə axtarmaq çox qorxulu təcrübədir, bunu İranın əmmaməli-çuxalı mollaları daim həyata keçirirlər.

Bugünkü olayları yaradanların da adına radikal şiəçilər deyirlər. Əzizlərim, bölücülərin radikalı, sivili olmur. Bölücülüyə qarşı tolerantlıq oyununu qırağa qoymaq, ya da İrana vermək gərəkdir. Addımı dala qoyduqca üstümüzə gəlirlər, içərimizi qarışdırırlar. Özündə güc tapıb bu qara niyyətli şərə dur deməyin vaxtıdır. Bu vaxtı ötürmək, ya da hansısa çağı gözləmək doğru deyil.

Televiziyalarımızda ortam yaratmaq gərəkdir, xalqa öz dəyərlərini, keçmişini, tarixini düzgün öyrətmək yönündə ciddi iş getməlidir. İranın oyunlarını açıb ortaya qoymaqdan çəkinmək olmaz. Azərbaycanı ona-buna yem eləməyə çalışanların çoxalmasının qarşısını almaq gərəkdir.

## İmperiyaçılıq – tərəqqinin ölümüdür

Bu gün "dövlət", "dövlətsizlik" sözləri, daşıdıqları çağdaş, gerçək anlama görə bir-birindən az fərqlənir. Bu, güclü dövlətlər üçün də belədir, zəif dövlələr üçün də. Çünkü dövlət milli-mənəvi gücə dayanmır, həyat uğrunda döyüşü yoluna qoyur. Həyat uğrunda döyüş isə dövlətlərarası münasibətlərdə yağılığa səbəb olur. Dünyanın yeraltı, yerüstü sərvətlərini mənimsəmək üçün fəlakətli silahlar icad olunur, olmazın oyunlar quraşdırılır. Antibəşəri əməlləri pərdələmək, dünyanı aldatmaq üçün xərclənən paraların sınırı yoxdur. Güclü dövlətlər qırğınlar törədir, dağıdıcılıqlar həyata keçirir, sonra da əməllərinin humanizmə qulluq olduğunu təbliğ edirlər. Guya şər ünsürlərlə döyüşür, tərəqqini qoruyurlar. Deməli, əslində şər əməl yiyələri ömürlərini uzatmaq üçün humanizm libasına bürünürlər. Adamın ağlına bir anlıq belə bir soru gəlir: Görəsən, humanizm görüntüsü yaratmaq deyil, doğrudan da humanist əməllər həyata keçirsəydilər nə baş verərdi?! Çoxları düşünürlər, dünyada insani, bəşəri nizamın bərqərar olması olası deyil. Söz yox, birdən-birə olası deyil, bu, aydındır. Ancaq geneldə olası deyilsə, bəs bu humanizm söhbəti hardan çıxıb, yaşam anlayışlarına necə girib?! Ya da, bəs onda dinclik (asayiş), barış, ədalət nə deməkdir?! Nə yazıqlar, hamı tərəqqidən danışır, ancaq içdənliklə tərəqqiyə inanmır. Çünkü döyüş məsələsinin kökünə varılmır. Dünyada düşüncə, araşdırma ancaq taktik məsələlərin, gündəlikdə saxlanılan olayların üzərində şəkillənir. Olayın gündəlikdən çıxması, ya da gündəlikdə qalması, həmin olayın doğurduğu sorunların çözülüb çözülməməsinə görə deyil, ilgisi olan güclərin diləklərinə uyğun köhnəlməsinə görədir. Bu vaxta qədər, heç bir dünyəvi sorun çözümünü axıra qədər tapmayıb. Məsələn, Əfqanıstan, İraq, Liviya, Misir, Suriya, İran, Gürcüstan, Azərbaycan indi Ukrayna-Rusiya, sabah onlarca belə sorunlar. Bu məsələlər niyə çözümünü tapmır, ya da nə vaxt tapacaq – bu sorulara nə tarix düzgün cavab verib, nə də bugünkü ideoloqlar, analitiklər.

Siyasal dünyanın ikinci qütbü olan SSRİ dağıdıldı, dünya hələ də bu dağıntıların altından çıxa bilmir. SSRİ-ni dağıdan Batı hansısa dünyəvi sorunları çözmək üçün dağıtmadı, yeni sorunlar yaratmaq üçün dağıtdı. Dünyanı qamarlamaq üçün yaradılan sorunlar bəşəriyyətin gücünü tükədir, planeti məhv olmağa sürüyür. İnsan dünyası heyvan dünyasına çevrilib. Heyvanlar dünyanı dağıdır. İnsan dünyanı dağıtmazdı, nizamlayaradı.

Söz yox, biz, SSRİ niyə dağıldı deyə etiraz etmirik. Bu gün ayrı-ayrı “tinlərdən” SSRİ-nin “üstün cəhətləri” tapılıb təbliğ olunur. Sovetlərin sosial həyatda yaratdığı dincliyi örnək götürürlər. Biz isə dönə-dönə vurğulamışıq, quruluşlar arasındakı sosial fərq heç də toplumsal qurtuluş sayıla bilməz. Çünkü insanın ruhunu öldürüb, onu heyvan kimi bəsləməkdə humanizm aramaq ağılsızlıq olardı. Milli düşüncəni sıradan çıxarmaqla Ümumiçilik yaratmaq rus imperiyasını qorumaq üçün idi. SSRİ dağılandan sonra guya milli dövlətlər yarandı, milli düşüncə gəlişdi. Elə görüntü yaranır, Sovetlərdə milli düşüncə sıxışdırılmışdı, bunun qarşılığında isə, sosial sorunlar çözülmüşdü. Demokratik kapitalizmdə isə milli düşüncə özgürlüyə çıxmış, sosial sorunlar çoxalmışdır. Bu, sadəcə belə görünür. Gerçəkdə isə belə deyil. Milli sorun heç bir vaxt çözümünü tapmayıb. Dünyaya ağalıq eləmək iddiasında olanlar, elə milli sorunlar yaratmaqla sərbəst olurlar. Sovetləri dağıtmaq da Batının ortaqsız ağa olmaq istəyindən doğurdu. Bu gün Rusiya öz ağalığının öncəki sınırlarını bərpa eləmək istəyir. Ancaq gecdir. Batı SSRİ-ni dağıdıb Rusiyanın hegemonluğunu qüvvədə saxlamalı deyildi ki. Sözsüz, Rusiyanın durumu acınacaqlıdır. O, öz içində güclü olması ilə bağlı təbliğat aparsa da, hər şey ortalıqdadır. İçindəki sunuşla dışındakı sunuş bir-birinə oxşayır. Çünkü içindəki durum, çölündəki duruma bərabərdir. Sadəcə dışarıda atdığı addımlarla içini pərdələməyə çalışır. Buna baxmayaraq, dışında balacalar üçün qorxu yarada bilir. Çəkinmədən demək olar, qıraq dövlətlərdəki qorxu, başlıca olaraq, hakimiyyəti itirməklə bağlıdır. Məsələn, Azərbaycanda elə hal yaradılır, Qara-

bağda yeni savaş başladıla bilər, yeni rayonlar işğal olunar. Əgər hakimiyyət xalqın içində möhkəm olsaydı, bu düşüncəni inadla rədd etmək olardı. Ancaq indiki halda hakimiyyətin iç, dış mövqeyi zəif olduğuna görə Rusiyadan gələn sıxışdırmalar özünü doğruldur. Başqaları da belədir. Zəif dövlətlərin hakimiyyətləri xalqın mühakiməsinə verilməkdən qorxurlar. Rusiyanın gücü də onların gücsüzlüyündədir. Rusiyanın içi mənəvi cəhətdən çürüyüb. Onun dünyaya mədəni, ideoloji etki göstərmək gücü bir heçdir. Ona görə də qol-qıç gücü göstərir. Rusiya bir dövlət kimi qurulduğu gündən bu çağa qədər imperiya olub. O, milli dövlət kimi düşünülməyib, imperiya kimi düşünülüb. İmperiyanı isə mədəni, mənəvi etkilərlə deyil, başlıca olaraq, hərbi zorla yaşatmaq olur. Doğrudur, bu günə qədər Rusiyanın zoru ilə yanaşı mədəni-marifçilik etkiləri də olub. Ancaq dediyimiz kimi, bu gün belə bir etkisi yoxdur. Ona görə bu gün Rusiya ancaq zor göstərir. Bununla da, bütün eybəcərliyi üzə çıxır. O bu çılpaq durumundan özü də qorxur. Burada prinsipial məsələ odur, bu vaxta qədər Rusiya öz imperiyasını genişləndirmək, ağalığını əldə saxlamaq üçün balaca dövlətləri qurban verirdi. İndi Rusiyanın özü qurbanlığa çevrilib. Artıq bir imperiyadan söhbət getmir. Quruluş (kapitalizm) özünü qorumaq üçün böyük qurbanlar udur. Bir vaxtlar kapitalizmi tərk eləmiş Rusiya artıq kapitalizmin başına keçə bilmir. Çünkü bu Quruluşun başında otruşmuşların yanında ona yer yoxdur. Ancaq bununla belə, Quruluşun yönəticiləri Rusiyanı biryolluq bitirmək düşüncəsindən uzaqdırlar. Rusiyanın parçalanması SSRİ-nin parçalanmasına bənzəmir. Türk Dünyası Sovetlər dönəmindəki kimi deyil, xeyli dövlətləşmə sürəci keçiblər. Ona görə də yeni gücün – Türk Gücünün dirçəlməsinə ortam hazırlamaq Batı dünyasının çıxarlarına uyğun deyil. İkinci cəhətdən, Batı Rusiyadan enerji asılılığını tam çözə bilməyib. Ona görə Rusiya ilə ehtiyatla davranır. Nə qədər, bu asılılıq azalmayıb, ya da, aradan qalxmayıb, Rusiya zorakı hərəkətlərlə yörəsində bərkiməyə çalışır. Üçüncü bir məqamı da vurğu eləmək olar: nəhənglərin yıxılması da nəhəng dağıntılara səbəb olur. Bu da-

ğıntıların altından çıxmağa çaba isə daha qorxulu bir dəyişikliyə nədən ola bilər. Dünyada bir yönətilməzlik, anarxiya başlaya bilər, bundan sonra hansı düzənin ortaya çıxacağı, hansı güclərin hegemon olması bəlli olmaz. Bütün bunların hamısı gözə alınır. Bəlkə buna görədir, Batı heç kimin arxasında axıra qədər durmur – Azərbaycanın arxasında durmadı, Gürcüstanın arxasında durmadı, Ukraynanın arxasında durmur b.k.

Batı, onun hakim olduğu Quruluşla xalqlar döyüşməsinlər deyə, dünyanı demokratiyası ilə qatıb-qarışdırır. Öz qurbanlarını hazırlamaq üçün onların içində toplumsal-siyasal qurumlar, hüquq təşkilatları yaradır. Bu qurumlar, təşkilatlar cəllad kötüyü rolunu oynayırlar...

Bütün bu dediklərimizin içində başqa sürəclər də var. Bu sürəclər üzdə deyil, gizlində gedir. Batı özü də öz ideolojisi ilə birlikdə sonuna doğru gedir. Rus hegemonluğunu sonuna aparan ABD-Yəhudi hegemonluğu da sona varacaq. Bəlkə də onda İsrayil dövlətinin varlığına son qoyulacaq. Etki-tərsetki məsələsi var. Dünyanı məhvə sürüyənlərdən bir gün dünya dəyişib hesab soracaq. Tərəqqini məhv etmək inadından dönməyənlərin yaşamaq haqqı yoxdur...

## Batı siyasəti qorxu yayıcılığıdır

Uşağı böyütmək çox çətindir. Doğrusu ata, ana olmaq çətindir. Ancaq bu çətinliyi ananın yuxusuz qalmaları ilə, ya da atanın dolanışığı ödəmək üçün çəkdiyi əzablarla sınırlaşdırmaq doğru deyil. Bunlardan daha ağır, daha çətin bir məsələ uşağı milli, insani ruhda böyütməyi bacarmaqdır. Nə yazıqlar, bu məsələ demək olar, özünü doğrultmur. Çünkü belə bir gələnək yaranmayıb. İkinci, ata-ananın özləri də, çoxluq baxımından, milli ruha bağlı olmurlar. Başqa bir çalar odur, həyatı dərk eləmək, onu düzgün dəyərləndirmək hər kəsdə alınmayan bir keyfiyyətdir. Ona görə ata-ana uşağı böyüdərkən mənəvi, psixoloji yükün ağırlığı altına girmir, asan yol seçir. Asan yol isə uşağı

aldada-aldada, qorxuda-qorxuda böyütməkdir. Uşağı sərbəstləşməkdən çəkindirmək üçün cindən, şeytandan, xortdandan o qədər danışırlar, həyatda olmayan bu obrazların etkisi uşaq böyüyəndə belə, onun, necə deyərlər, alt yapısında qalır.

***

Bu məsələ zaman-zaman siyasətdə öz yerini tapıb. Bəlkə də siyasətlə uğraşanlar yaddaşlarında ilişib qalmış belə məsələlərin köməyi ilə yönətim üsulları yaradıblar. Göründüyü kimi, bu gün uluslararası siyasətin yönətiçiliyi bizə qarşı ən çox bu üsulla yanaşır. Yəni bizə münasibət qorxu, xof üzərində qurulub. Özəllikcə də Batı siyasəti həmin oyunun üzərində oturuşub. Hamının ağlına, şüuruna bir şey yazırlar, dünyanı yönətən Massonçuluqdur (Bu psixologiyanı bütün dünyada yeritsələr də, Azərbaycanda daha çox qabarır). Guya Massonçuluq elə bir güclü şəbəkədir, Allah qədər yenilməzdir. Heç bir xalq, dövlət onunla bacara bilməz. Ona görə hamı onun nizamı ilə barışmalıdır, könüllü şəkildə onun tələblərinə boyun əyməlidir. Onsuz da bütün dövlətlərin öndərləri Massonçulardan seçilir i.a. Beləcə milli şüura qarşı cəbhə yaradılır. Massonçuluğa qarşı təbliğatları da özləri təşkil edirlər. Çünkü bu qorxulu düşüncələri, daha doğrusu, uydurulmuş yeridici (təlqinedici) düşüncələrin qorxusunu hər gün hamı deyəndə, yazanda altyapıda oturuşur, oxucuya, dinləyiciyə yeridilir. O da bunu çevrədəkilərə çatdırır. Beləliklə, yenilməz bir qüvvə obrazı bəşəriyyətin qanına şaxələnir. Bununla da Milli düşüncənin, Milli quruculuğun yolu qapanır. Dediyimiz kimi, Azərbaycanda bu şüur daha güclüdür. Ona görə insanlar Milli quruculuğun baş tutacağına inanmır, belə bir işə çağ ayırmağı önəmsiz sayır. Belə-belə xalqımız, genel olaraq hamı, – qədim xalqlar bəşəri dəyərlər yaratmağı yadırğayırlar. Ona görə də xalqlararası münasibətlərdə humanizmin heç bir etkisi özünü göstərmir. Azğın, dağıdıcı siyasət dövlətlərarası münasibətlərdə aparıcı gücə çevrilir. Xalqlar böyük dəyərlərlə, mədəniyyətlərlə deyil, dövlət siyasəti ilə yönətilir. Dövlət də öz xalqının başqa xalqlara qarşı münasibətini istədiyi vaxt dost, istədiyi vaxt yağı kimi biçimləndirir.

***

Deməli, insanın tərbiyəsi, mədəniyyəti, ruhunun yönü özüldən düzgün qurulmur. Bilim kainatın sirlərini açsa da, insanın qorxudan, xofdan çıxmasını ödəyə bilmədi. Onu din də qorxudur, siyasət də. Din də, Allah qorxusunu, lap körpəlikdən insanın yaddaşına yazır. "Allahdan qorxmayan kafirdir" deyir. Qorxmayanlar da kafir adlanmamaq xətrinə qorxduqlarını bəyan edirlər. Nə fərqi var, Allahdan qorxmur, ancaq Allah xofu ilə yaşayan Qaragüruhdan qorxur. Din insanı yaman günə saldı. Kimi dindirirsən, "dünya qorxu üzərində bərqərar olub" deyir. İnsan özünə sevimli Allah obrazı yarada bilmədi, qorxudan, xoflandıran din yaratdı; qorxudan, alçaldan siyasət yaratdı.

***

İnsan doğulanda ona sevgi öyrətmək, inam vermək gərəkdir, yaddaşında, şüurunda bu otursun; böyüyəndə onunla böyüsün, geninə çevrilsin, soylara ötürülsün. Onda insan dəyərə çevrilər, dəyər yaradar, xalq olar, bəşər olar.

İnsanı böyük olmağa qoymurlar, balaca saxlayırlar.

Kimdir günahkar? – İnsan!

İnsanı İnam qurtaracaq!

## "Bilim"in siyasəti

Son çağlar "Yadplanetlilər" qonusu nədənsə aktuallaşdırılır. Görəsən bunun arxasında nələr dayanır?! Nəzərə alsaq, dünyanın nizamı ancaq siyasətdən oluşub, onda oyunbazlıqlardan baş çıxarmaq, doğrudan da, çətinləşir. Siyasət bəşəriyyətə oyundan başqa heç nə sunmur. Oyuna düşüb dünya. Basının da qulağı səsdədir, oyunlar gözləyir, hallandırıb oxucunun baxışını çəksin.

Mənə elə gəlir, "uçan boşqab", "yadplanetlilər" qonuları da "böyük dəlilərin" quyuya atdığı bir daşdır. Ən azı bu qonularla

bağlı mühakimələr yürüdüləndə qarşıya çoxsaylı cavabsız sorular çıxır.

Bəllidir, Günəş sistemində olan planetlərdə, uzun illərdir, bilim izləmələri var, araşdırmalar aparılır. Ancaq heç birində həyat üçün gərək olan ortam üzə çıxmayıbdır. Danmırıq, kainatın hansısa bir Qalaktika sistemində həyat ola bilər. Bizim planetimizə bənzər bir planetin, ulduzun olması ağlabatandır. Ancaq o planetlə bizim planetimizin arası, yəqin neçə mln. işıq ilinə bərabərdir. Söz yox, yaxın aralarda olsaydı, bunu alimlər çoxdan ayırd eləmişdilər. Bilimin indiki olanaqları da bu məsələ üçün yetərlidir.

Deməli, əgər bizim planetimizdə yadplanetlilər izlənilirsə, yəqin, onlar neçə mln. işıq ilinə bərabər yol gəliblər. Bəs görəsən, onlar hansı sürətlə hərəkət edirlər, fantastik rəqəmlərlə ifadə olunan aranı uça bilirlər?! Bilimə bəlli olan ən böyük sürət işıq sürətidir – saniyədə 300 min km. Bu sürətlə isə cismin hərəkəti olası deyil. Olsa belə, həmin yadplanetlilər bizim planetimizə qonmaq üçün min illər yol keçməlidirlər. Onlar neçə min il yaşayırlar ki?! Bir sözlə, ən adi bilim məntiqinin üstündən adlayıb yadplanetlilərin bizim planetimizə sərbəst şəkildə qonmasından danışmaq çaşdırıcıdır. Başqa bir yandan, "dovşanı araba ilə tutan" supergüclərin hərbi kəşfiyyatları bu qədərmi acizdir, bu obyektləri bəlli edib üzə çıxara bilmirlər? Necə olur, başqa yaxın planetlərə gedə bilirlər, bilimsəl araşdırma sistemi qururlar, ancaq qulaqlarının dibinə qədər gələn obyektlərdən bilgisizdirlər. Hələ üstəlik ingilis alimləri insanlar üçün, yadplanetlilərlə bağlı, önəri (tövsiyə) paketi hazırlayıblar. Özü də bu önərilərdə ilginc xarakterik çalarlar var. Baxın, bildirilir, yadplanetlilərlə qarşılaşanda aşağıdakı 10-a yaxın qaydaya əməl edin: 1) "Dəyərli şeylərinizi gizlətməyin... Gözə alın, onlar bizdən daha gəlişmiş texnologiyanı çoxdan kəşf ediblər... milyonlarca işıq ili sürətindən gəlməyi bacaran yadplanetlilərin sizin metal, yerlə sürünən maşınınıza əsla ehtiyacları yoxdur..."

Elə buradaca bir məsələyə göz yetirək. Bu alimlər yadplanetlilərin milyonlarca işıq ili sürətində olduqlarını vurğulayır-

lar. Yuxarıda vurğuladığımız kimi, axı cismin işıq sürəti ilə uçması necə ola bilər? Fizika sübut edir, cismə işıq sürəti versən, o maddi olaraq qala bilməz, onun molekulyar strukturu dağılıb məhv olar. İşıq özü maddidir, ancaq yüksək sürətli olduğuna görə dalğaya çevrilir. Tutalım, onların gəldiyi planetdə fiziki qanunlar bizim planetimizdəkindən fərqlidir. Axı ən azı bura gələndə planetimizdəki fiziki qanunların etkisinə uğrayacaqlar. Yoxsa onların planetində bioloji qanunlardamı fərqlidir?! İşıq sürəti ilə uçan adamın hansı fərqli keyfiyyətləri var, o məhv olmaqdan qoruna bilir?!

2) "Hədə-qorxu gəlməyin"; 3) "Onların baxışını çəkməyə çalışın"; 4) "Gələnək-görənəklərimizi unudun"; 5) "Riyazi dilinizi danışdırın"; 6) "Astronomiya bilgilərinizi göstərin"; 7) "Təvazökar olun"; 8) "Diplomatik olun"; 9) "Sübutlar tapın" ("Yeni Müsavat" qəzeti, 30 aprel, 2012).

Buradan belə çıxır, bu önərini verənlər yadplanetliləri psixoloji, xarakterik olaraq tanıyırlar. Sonuncu bəndə göz yetirsəniz, görərsiniz, burada oyunbazlıq edilir. Baxın, önəridə nə deyilir?! "Yadplanetlilər sizi qaçırıblarsa, geri qayıdanda çoxlu faktınızın olmasına çalışın. Yəni ancaq hekayələr danışsanız, sizə inanan az olacaq. Maddi sübutlar isə hekayənizin daha inandırıcı olmasını ödəyəcək". (Həmin qəzetdən).

Bizim planetimizdə dövlətlər kosmosa gəmi uçurdurlar. Onun da ən böyük sürəti – 3-cü kosmik sürətdir (yanılmıramsa, 21,6 km/san-dir. Onunla uçuş da bildiyim qədər hələ özünü doğrultmur). Uçuşdan öncə kosmonavtı yerdə yüksək sürətlə fırlayıb ürəyini, beyninin olanaqlarını yoxlayırlar, dözüb-dözmədiyini bəlli edirlər. Bəs necə olur, sıradan bir vətəndaşı işıq sürəti ilə uçan yadplanetlilər oğurlayır, o bu sürətə dözür, ölmür? Hələ üstəlik faktlar da toplayır, İşıq sürəti ilə hərəkət edəndə onun gözləri nələriysə sərbəst şəkildə görə bilir. Yoxsa yadplanetlilər oğurladıqlarına dərman verib özlərinə bənzədirlər?! Qəribədir deyilmi?! Hər şeyi asan danışmaq, məncə, sorumsuzluqdan irəli gəlir. Danışan az da olsa sorumluluq daşımalıdır. Adam alimlərin (özü də dünyaya ağalıq edən ingilislə-

rin alimlərinin) bu məsələni qabartmalarından açığı kuşkuya düşür. Görəsən, bunun da arxasında böyük güclərin projelərimi dayanır?! Bəşəriyyəti görəsən nəyə hazırlayırlar?!

Niyə yüksək texnologiyaya çoxdan yiyələnən yadplanetlilər, yüz, iki yüz il bundan öncə planetimizə qonmayıblar, elə Yer'-də bilim gəlişəndən, yüksək texnologiyalar əldə ediləndən sonra qonmağa başlayıblar?!

Yağış kimi yağan sorulara damcı-damcı cavablar tapmağımız gərəkdir...

## Rusiyanın istəklərini pozmaq gərəkdir

Toplumun üzdə olan aktiv kəsimi bilir, Rusiya üçün tarixlərinin önəmli bir səhifəsini yazan Pyotr Azərbaycanla, Türkiyə ilə bağlı plan sərgiləmişdir (çoxları bunu Pyotrun rus millətinə sonərki (vəsiyyəti) kimi eşitmişdir). Bu planla onlar Qafqazda Azərbaycanın bir dövlət kimi varlığına son vermək istəyi güdürlər. Azərbaycan dövlətçiliyini biryolluq yenməklə Türkiyəni parçalayıb əsarətə götürmək (PKK, başqa terror örgütləri də bunun üçün yaradılmışdır), İstanbula bayrağını sancmaqla dünyaya ağalıq eləmək. Rusların bu əməlləri Pyotrun istəyinin davamıdır, bu günə kimi davam edir.

Pyotrun çağırışından bu günə kimi yüzillər keçib, dünya düzəni dəyişib, indi dünyanın yönətici koşulları başqadır, ancaq rusların istəkləri dəyişməyib. Azərbaycanı Arazboyu bölməklə onun gücünü ən aşağı həddə salmaq, Dəmirqapını işğal eləməklə özünün strateji etkilərini artırmaq, Azərbaycanın Quzey parçasının böyük bir coğrafiyasında özü üçün oyuncaq Ermənistan dövləti yaratmaq, sonra addım-addım gah Qazaxdan, gah Dağ Borçalıdan, gah (indi Ermənistan sayılan) ayrı-ayrı mahallarımızdan parçalar qoparıb Ermənistana calamaq, Qarabağı, qırağındakı rayonlarımızla bir yerdə, işğal eləyib erməniləşdirmək – Azərbaycanı aşama-aşama yox etmək gedişləridir. Bu sürəc bütün dünya güclərinin gözü qarşısında baş verir, ancaq hər kəs bu gedişə göz yumur. Batı üçün də Azərbaycanın

parçalanması deyə bir rahatsızlıq olmayıb. 90-cı illərdə Batı üçün önəmli olan SSRİ-nin parçalanması idi. İndi də onun qayğısı Rusiyanın güclənib genişlənməsinin qarşısını almaqdır. Ancaq bu qayğıda Azərbaycanın güclənib Rusiyaya direniş göstərməsi üçün heç bir istəyi yoxdur. Elə ona görə də, ATƏT-in Minsk Qrupu deyilən, uluslararası bir qurumun 23 ildir çalışması başqatmaqdan başqa bir şey deyil. Azərbaycanın öz iradəsiylə çözülməli bir məsələnin illərdir qarşısı alınır. Bu qurum olmasa, durum bir anda dəyişilə bilər. Budur, Rusiyanın istəyi ilə atəşkəsi pozan erməni ordumuzun geriyə hücumu qarşısında miskin duruma düşdü. Xalqımızın, illərdir, zorla susdurulmuş qeyrəti ayağa durub vətənimizin özgürlüyünü istədi. Bir anda, dünyanın hər yerindən, soydaşlarımız ayağa durub vətən sevgilərini ifadə elədilər. İndi də insanlarımız, haqlı olaraq, öz dövlətindən qeyrət, iradə ortaya qoymaq tələb edir. Ancaq hardadır bu iradə?! Adam indiki durumda çox şeyi demək istəmir. Ancaq eyni halda, bəzi məqamların deyilməsi gərəkdir. Belə götürəndə, xalqımızın bu gün öz hakimiyyətindən savaşı davam etdirməyi tələb eləməsi, 90-cı illərdə Bişkekdə bağlanan atəşkəs bağlaşmasını da, indi Moskvada bağlanan atəşkəs bağlaşmasını da ifşa eləməkdir. O çağlardakı atəşkəs bağlaşması 23 il xalqın qeyrətini susmağa zorladı, erməni yurdumuzda oturuşub sərvətlərimizi mənimsədi, insanlarımız isə işsizlik ucbatından Rusiyaya, başqa ölkələrə səpələndi.

Qarabağın haraya qədər işğal olunması planı bəlli idi. Ona görə H.Əliyev hakimiyyətə gələndən sonra atəşkəs bağlaşmasını dərhal bağlamadı, bəlli beş rayon da getməli idi. Çünkü, o aşama üçün, işğal planında həmin rayonlar da vardı. Ancaq elə görüntü yaratdılar, guya xalqımızın anlamsız qırılmasının qarşısını aldı.

Rusiya Qarabağı işğal elədi, H. Əliyev hakimiyyəti, bu faktı ifşa eləmək yerinə, Rusiya ilə ilişkilər qurdu, Rusiyada özlərinin bizneslərini həyata keçirdi, işsiz qalan, siyasi baxımdan sıxışdırılan bir çox insanlarımızı Rusiyaya axıtdı. Hər zaman elan elədi, bizim Rusiya ilə heç bir sorunumuz yoxdur. Baxın,

Rusiya aşama-aşama Azərbaycanın varlığına son vermək gedişlərini həyata keçirir, bunlar deyir, Azərbaycanın Rusiya ilə sorunu yoxdur. Azərbaycan hakimiyyətinin Rusiya ilə sorunu olmaya bilər, ancaq Azərbaycanın Rusiya ilə sorunu ən yüksək səviyyədədir. Rusiya Azərbaycanı ilbəil qorxuların içərisinə dartır...

Azərbaycan hakimiyyəti iradəsiz hakimiyyətdir. Ona görə bu hakimiyyətin yetkililərinin Azərbaycanla bağlı qlobal hədəfləri bəlli deyil. İndiki davranışları da anlamsız görsənişlərdir. Qorxaq hakimiyyət dövlətçiliyi qoruya bilməz. Baxın, ordumuz canı bahasına qabağa getdiyi yerdə, Rusiya bizim qorxaq hakimiyyətimizi yenə ayağına çağırdı, Moskvada atəşkəs bağlaşmasına qol çəkdirdi. Eynən Bişkekdə olduğu kimi. O vaxt Rusiyanın "ayağı" Bişkek idi – hakimiyyətimizi oraya çağırıb atəşkəsə qol çəkdirdi (o dövr üçün işğal planı başa çatmışdı). İndi "ayağı" Moskvadır – bu dəfə də hakimiyyətimizi buraya çağırıb qol çəkdirdi. Görünür, yenə də ordumuzun yerinə, Qarabağla bağlı, uluslararası qurumlar "işləyəcək". 23 ildə uluslararası qurumlar nə iş gördü, indən sonra da nə iş görsün. Üzdə bizimkilərin iddialı danışması, guya erməniləri öz koşulları ilə barışdıracaqlar, anlamsız bir şeydir. Yarımçıq uğurla bütöv istəkləri gerçəkləşdirmək olumsuz olacaq. Qarabağ bütövlükdə o vaxt özgür olacaq, öz iradəmizlə hərəkət edəcəyik. Qarabağ sorunu milli sorundur, onu millət çözməlidir. Dünyada uluslararasılaşdırılan heç bir sorun axıra kimi çözülmür. Çünkü böyük güclər öz çıxarlarını həmin uluslararası sorunlar üzərində qoruyurlar. Azərbaycan hakimiyyəti də özünü qorumaq üçün uluslararası soruna çevrilən dərdimizi yarıtmaz uluslararası qurumların əlindən alıb milliləşdirməyə çalışmır. Başqa sözlə, qaşınan yerini özü qaşımaq istəmir. Hakimiyyətimiz Azərbaycansevər olsaydı, özünün siyasi, iqtisadi varlığını Rusiyadan açmağa çalışardı. Addımbaşı özünü qorumaq xatirinə Azərbaycanı geriyə çəkməzdi.

Çağdaş dünya gücü tanıyır, qəbul edir, anlamsız barışsevərliyə isə gülür. Ona görə özünü humanist, üzüyola, sözəbaxan

aparmaq yox, ortaya güc qoymaq gərəkdir. Bu güc millətimizdə, ordumuzda var, hakimiyyətimizdə isə iradə yoxdur. Biz də üzümüzü hakimiyyətimizə tutub deyirik: bizi aldatmayın, ya dövlətimizin olanaqlarını vətənimizin özgürlüyünə, xalqımızın sağlam olaraq ayaqda qalmasına yönəldin, ya da qırağa durun!

## Erməni Hədyanlığı

***xxx***

Erməni məkrində ardıcıldır, türk ona qarşı sadəlövhlüyündə.

Erməni yüzildir azğın, pozğun Ermənistan yaratmaqla uğraşır, azərbaycanlılar yüzildir Azərbaycanın ləyaqətini girov qoyub erməniyə güzəşt eləməklə.

Bu gün də Azərbaycanın işğal olunmasına qarşı azərbaycanlıların vecsizliyi erməni qəddarlığından, onun arxasındakı məkr azğınlığından daha qorxuludur.

***xxx***

Azərbaycanda bircə erməninin olması belə, fəlakətdir. Erməni özünü hər cür humanist, insani duyğulardan məhrum edib. Bu səviyyə ilə, bu durumla onun varlığı bəşərə qarşı dönüklükdür.

***xxx***

Ermənilər daim savaşa meyillidirlər. Bu meyil, onların ruhaniyyat tanımayan xalq olduğundan irəli gəlir. Ruhsal xalq dəyərlə uğraşar, savaşa meyil eləməz. Erməninin barış adlı həqiqəti yoxdur, olanaq düşdükcə ilan kimi çalır. Bununla da o, özünü bəşər anlamına qarşı qoyur. Xalq mahiyyətcə ruhsal olay olduğu halda, erməni daim bu həqiqətə qarşı yaşayır. Bu anlamda erməni "ruhsal xalq" tələbinə deyil, "Qanlı Xalq" adına tapınır. Çağdaş dünyanın humanizmi də "Qanlı Xalq" vəhşiliyinə arxa durmaqdan oluşur. Əgər çağdaş dünyada həqiqi in-

sansevərlik olsaydı, "Qanlı Xalq" islah edilər, həqiqətlə üz-üzə qoyulardı.

Çağdaş dünya Qanlılığı qoruyur – Qanlılıqdan bəhrələnir. Bu səbəbdən də Qanlı Dünyanın "hərisliyi"nə qarşı İnsanilik bayrağını ucaltmaq gərəkdir, təslimçi barışqanlıq bayrağını yox.

***xxx***

Bütün dünyaya yayılıb, iftiralarla uğraşmaq millətin ölümüdür. Millət bir yerə bağlanır – bir Vətəndə yaşayır, Dünya xalqlarıyla bəşəri birlik yaradır. Bu anlamda, erməni siyasal dünyanın qorumasında görünsə də, əslində dünyasızdır.

Erməni dünyaya – dünyanın gedişini pozmaq üçün səpələnib. Bu, onun faciəsidir – üzdən hər yerə etki göstərən görünməyə çalışsa da. Ermənininin hünəri yoxdur, azğınlığı var. Ruhaniyyatı olmayan xalq hünərsiz, qüdrətsiz xalqdır!

***xxx***

Bizim siyasətçilər çox bağırırdılar, dünyada Türk lobbisi yoxdur deyə. Gərək hər bir ölkədə eybəcərlərə qarşı eybəcərlikmi yaradasan?! – Sən öz ölkəndə qüdrətli ol, başqa yerdə ayaqlanmazsan. Öz ölkəsində özünü qura bilməyənlər başqa ölkələrdə özünü qorumaq istəyinə düşürlər. Belə çıxır, sən ailəçiliyini təsdiq eləmək üçün qonşularla iş aparmalısan. Belə çıxır, sənin ölkənin taleyi ən çox özgələrdən asılıdır. Belə çıxır, Vətənləşmək üçün dünyanın hər yerinə səpələnmək gərəkdir. Millətləşmək üçün bağırmaq gərəkdir.

Bu, bəşərin çox pis gedişidir. Hər bir xalqın bəşəri mədəniyyətə, bəşəri humanizmə, həyanlığa, doğmalığa ehtiyacı var – lobbi yadlığına, özgəçiliyinə yox!

Qoy Erməni lobbiylə uğraşsın, türk – Türk Dünyasının birliy ilə!

***xxx***

Bakıda keçirilən Helsinki Assambleyasının tədbirinə ermənin qatqısı – Azərbaycan hakimiyyətinin, barışsevər görün-

mək xatirinə, vecsizliyinin, arsızlığının göstərilməsi (nümayişi) idi. Qatillikdən usanmayan, insan qanını içməkdən məst olan ermənin Azərbaycan torpağına – onun baş şəhərinə ayaq basmağa haqqı yox idi. Bu gəliş, ona hansı bir siyasal don geyindirilməsindən asılı olmayaraq, Türk Qüdrətinə üstdən aşağı baxmaq idi.

***xxx***

Erməni-rus birliyi – antitürk hədyanlığıdır. Ermənin Türkə qarşı vəhşiliklərinin rus dayağı, arxası olub həmişə, indi də davam edir.

Tarixi siyasal yöndə araşdırırlar, siyasal yöndə qiymətləndirirlər. Faciələrə siyasətin gözüylə baxırlar – praqmatik faciə yaradırlar. Faciə artır, çoxalır – siyasətə gərək olur.

Çağdaş siyasal dünyanın “praqmatik erməniçilik hegemonluğu” vardır. Buna görə siyasi dünyanın humanizminə bel bağlamaq – “praqmatik erməniçiliyin” azğınlığına əyilmək deməkdir!

***xxx***

**Sonuc**: Çağdaş dünya Türkə qarşı hədyanlığı artırır, böyüdür, qoruyur.

Türk Dünyası qurulmalı – dünyanı hədyanlıqdan, hədyanlaşmaqdan qorumalıdır!

## Qarabağ Sorunu Müsəlman Faktı Yox, Türk Faktıdır

Hər bir sorunun anlamı, ona yanaşmadan asılı olaraq, doğru, ya da yanlış çözülə bilir. Bir sıra hallarda isə sorunun anlamına doğru yanaşmayanda uzun illər çözülmür, tərsinə, daha da mürəkkəbləşə-mürəkkəbləşə gedir. Bu dediklərimizə ən çox siyasal sorunlar özgündür. Bunlardan biri Azərbaycanın Dağlıq Qarabağla bağlı sorunudur. Söz yox, Dağlıq Qarabağ sorununun çözümü, biranlamlı olaraq, savaş yoludur. Ancaq bu savaşı

aparmaq üçün Azərbaycan bir çox yönlərdən gücsüzdür. Gücsüzlüyün nədənini deməzdən öncə, niyə savaşın qaçılmaz yol olduğuna qısaca aydınlıq gətirək. Ermənistan adlanan dövlət, Rusiyanın yardımı ilə, Azərbaycan torpaqlarını ələ keçirib. Siyasətdə aparıcılıq edən dünya dövlətləri də buna üzdən yanaşır, yalançı, gözə külüfürmə yönündə qarşılıq verir. Deməli, Qarabağ sorununadək, bir neçə yerə parçalanmış Azərbaycanın yenidən parçalanması indiki siyasal gedişin tələblərinə uyğundur, aparıcı güclərin istəklərinə görədir. Buna tarixi sübutlar da yetərincədir. Dağlıq Qarabağdan öncə də Azərbaycanın parçalanması olayları yaşanıb. Burada da Rusiyanın qatqısı, Batı dünyasının istəkləri aparıcı olub. İstər Güney Azərbaycan, istər Azərbaycanın batı bölgələri, istər Dəmirqapı (Dərbənd), dediklərimizə örnəkdir. Dünyanın siyasal gücləri özlərini bəşərsevər (humanist) göstərmək üçün yaratdıqları siyasal birliklərin (deyək, BMT, Aİ, ATƏT) araçılığı ilə qərarlar verirlər. Bununla da, Azərbaycanı arxayın salır, özünə də etki göstərərək, barış yolu seçməsini tələb edirlər. Axı barış necə ola bilər – Azərbaycanın torpaqları əlindən alınıb. Burada barış yolu o deməkdir, Azərbaycanın torpaqları üzərində alver getsin. Axı torpaqlar bütünlüklə geri qaytarılacaqsa, onda əngəl nədir, on illərlə gözləmək nə üçündür?! Ya da bu torpaqlar nəyin qarşılığında qayıtmalıdır?! Deməli, barış yolu, ən yaxşı halda, Azərbaycanın torpaqlarının bir kəsimindən əl çəkməsi anlamındadır. Azərbaycan isə buna getmir, gedə bilməz. Elə dünya güclərinə də bu gərəkdir – sorun çözülməsin, hər kəs istədiyini aşama-aşama Azərbaycana diqtə eləsin. Deməli, dünya güclərinin, Qarabağ sorunu ilə bağlı, Azərbaycana barış yolu önərməsi – sorunun çözülməsinin qarşısını almaq üçündür.

Bəs savaşı aparmaqda Azərbaycanın gücsüzlüyünü göstərən nədir? – Bəllidir, Azərbaycan Rusiya kimi imperialist dövlətin təpkisi qarşısındadır. Eləcə də Qafqazda çalışqan etkiyə (fəal təsirə) yetmək istəyən Batı dünyasının basqısına uğrayır. Ancaq bu gücsüzlüyü gücləndirən iç sorunlar daha çoxdur. Bəlli sorunları burada geniş açmağa gərək yoxdur. Deyək, Azərbay-

canın dövlət öndərliyinin ulusa qarşı yağı davranışı; toplumun ağır yaşam durumu; ayrı-seçkilik; dövlətin tayfaçılıq prinsipləri ilə yönətilməsi; dövlət səviyyəsində oğurluq, yəni pulların ulusdan oğurlanıb dışarıya axıdılması; dövlət yasalarının yaşam nizamında işləməməsi, bir sözlə, ulusal sistemin çökdürülməsi – istər-istəməz dış qüvvələrə, Azərbaycana basqı göstərmək üçün uyğun ortam (münbit şərait) yaradır.

Bu məsələnin başlıca sorunu isə olayları ulusal anlamından ayırmaqdır. Baxın, dövlət öndərliyi səviyyəsində Dağlıq Qarabağ müsəlman faktı kimi sunulur. İslam dövləti adlanan İrandan "ümmət mənafeyi"ni qorumaq umulur. İran, Livan "müsəlman həmrəyliyi"nə çağırılır. Ancaq bircə yol Dağlıq Qarabağ türk faktı kimi, geneltürk sorunu kimi vurğulanmır. Çünkü istər Azərbaycanda, istər Türk Dünyasında Güney Azərbaycan faktına yandaşlıq (təəssübkeşlik) olunmur. Baxın, Dağlıq Qarabağ müsəlman faktı kimi sunulur, ancaq dünya gücləri "dini ayrı-seçkilik yaratmayın" deyə qarşılıq vermir. Ancaq Dağlıq Qarabağ türk faktı kimi sunulsa, o an dünya gücləri "milli ayrı-seçkilik yaradırsınız" deyə qarşılıq verəcək. Belə götürəndə, Dağlıq Qarabağ sorununa bu cür yanaşma onun çözülməsinin qarşısını alır. Deməli, ulusal sorunumuza dış qüvvələr necə yanlış yanaşırsa, içimizdə də ona, uyğun olaraq, yanlış yanaşırlar. Düşünürük, haçağacan türk dövlətlərinin Dağlıq Qarabağla bağlı ağzı bir olmayacaq, bu sorun çözülməyəcək; haçağacan Azərbaycan öndərliyi Dağlıq Qarabağ sorununu türk dövlətlərinin birgə sorunu olaraq qəbul etdirə bilməyəcək, bu sorun çözülməyəcək; haçağacan türk toplumunun yapısında (şüurunda) Güney Azərbaycanla Quzey Azərbaycanın birləşməli olduğunun önəmi dərk olunmayacaq, bu sorun da çözülməyəcək. Dağlıq Qarabağa siyasal yanaşmaların oyunu kimi yox, ulusal-türk sorunu kimi baxmaq gərəkdir. Onda dövlətin də, toplumun da ulusal sorumluluğu artar.

## Vətənsizlik uçurumuna dirəniş göstərək

Bu gün "Qarabağ" çevrəsində gedən söz-sov yenidən aktiv şəkilə düşüb. Bunun nə qədər utancverici olduğu haqqında danışmaq artıq adi hal alıb. Yəni ya Ermənistanla bağlı nəsə olmalıdır, ya da ATƏT-lə bağlı bir dəyişiklik ortaya gəlməlidir, Qarabağ məsələsi çevrəsində aktiv danışıqlar, araşdırmalar başlasın. Belə deyək, ATƏT-in sədrlərindən biri dəyişəndə bölgəyə gedir, işlə tanış olur, jurnalistlərə müsahibə verir. Sanki bu məsələdə hansısa bir tərpəniş olacaq. İndi də Ermənistanda yeni parlament seçkisi yaxınlaşır. Bununla bağlı araşdırmalar, müsahibələr gündəmi doldurub: " Sarkisyanın işi çətindir, onu aradan götürə bilərlər. Belə getsə, Ter-Petrosyan hakimiyyətə gələr, barış yolu ilə Qarabağ məsələsinin çözümü də irəliləyər..."

Bundan başqa durumun gərgin, çətin olduğunu yazan politoloji araşdırmaçıların düşüncələrinə də yer ayrılır. Məsələn, İngiltərəli araşdırmaçı Tomas De Vaal yazır: "Qarabağ konfliktinin diplomatik yolla həllindən başqa alternativ yoxdur". Sonra da yazır, ATƏT-in Minsk Qrupunun formatı gücləndirilməlidir.

Biz bu araşdırmaları, çıxışları illərdir izləyirik. Ancaq Azərbaycanda yenə də bu aldadıcı, qərəzli çıxışlara üz tutan basın yayınları vardır. Soruşan gərək, nədən Qarabağ məsələsi hələ də konflikt sayılır. Bir dövlət başqa dövlətin torpaqlarını işğal edib, adına konflikt deyirlər. Kimlər deyir – dünyanın aparıcı, siyasal gücləri. ATƏT-in Minsk Qrupu işğal faktını tanımır, sorunun çözümünü, 7 rayonun qaytarılması ilə, Qarabağa bağımsızlıq verilməsində görür. Yəni fakt olaraq, ATƏT-in Minsk QrupuAzərbaycanın yenidən parçalanmasını qanuna salmağa çalışır. Açıq şəkildə Ermənistanın arxasında durur.

Bütün dünya məsələnin çözümü diplomatik yolla olmalıdır deyir. Diplomatik yol da, dediyimiz kimi, Azərbaycanın öz torpaqları ilə alver eləməsi anlamındadır. Belə götürəndə, siyasal dünya, ya birbaşa, ya dolayısı ilə Ermənistanın yanındadır.

Minsk Qrupunda olan Batı dövlətləri nə Rusiyanın, ortaqsız olaraq, Güney Qafqazın yiyəsinə çevrilməsini istəmirlər, nə də Azərbaycanın böyüyüb Güney Qafqazın aparıcı dövlətinə çevrilməsini. Ona görə də Azərbaycan-türk dövlətçiliyinə "qanun" yoluyla, başqa sözlə, Azərbaycanın öz əliylə son qoymağa çalışırlar. Yəni 7 rayon qaytarılır, Azərbaycan da " ziyanın yarısından geri qayıdır" – Qarabağın bağımsızlığına göz yumur. Oraya "sülhməramlılar" (doğrusunda isə işğalçı ordu bölmələri) yerləşdirilir. Bununla da, Güney Qafqaz dünyanı yönətən qüvvələr arasında işğal olunur. Azərbaycanın böyüməsinin, birləşməsinin qarşısı biryolluq alınır, ardınca Türkiyənin parçalanması gündəmə gəlir. Bununla da, dünyanın yönətiminə yeni nizam gətirəcək Türk Birliyi ideyası arxivə atılır. Biz dönə-dönə yazmışıq: Türk Dünyasının birliyi – Azərbaycanın birləşməsindən keçir. Türk Dünyası bilməlidir, Azərbaycanı bölə-bölə sıfrlamağa çalışan qüvvələr türk birliyinin biryolluq yolunu bağlamaq üçün edirlər. Bu gün bütün baxışlar Azərbaycana yönəlməlidir. Bir türk dövləti olan Azərbaycanın sorununu ələ keçirənlər, bu sorunun çözülməsinin qarşısını almaq üçün ediblər. Türklər də seyrçilik edir, yalançı dünyanın demokratiya adlanan ideolojisinə küsənirlər. Bizdə isə yazırlar: Ermənistanda hakimiyyət dəyişsə, Qarabağ məsələsinin çözümü irəliləyə bilər. Nə yazıqlar, hələ də Qarabağ məsələsinin açarını Ermənistanda axtarırlar. Belə götürəndə, bu açar Rusiyada da, ATƏT-də də deyil, baxmayaraq, onlar çözümün qarşısını alırlar. Açar Azərbaycanın milli qeyrətində, siyasal ürəkliliyindədir. Azərbaycanın indiki hakimiyyətində isə nə milli qeyrət var, nə də siyasal ürəklilik. Dövlətin başında sağlam millətçi insanlar olmasa, dövlətin gələcəyi sorğu altına düşür. Tarixin bütün dönəmlərində dövləti möhkəmlədənlər millətçilər olublar. Baxın, bu gün də İngiltərənin basqısı altından çıxaraq, Şotlandiyanı bağımsız etməyə çalışan millətçi hakimiyyətdir.

Heç kim "millətçilik" sözünə damğa vurmağa çalışmasın.

Millətçilik – özündə yaratdığı milli-bəşəri dəyərlərlə möhkəmlənib varlığını qorumaq anlamı daşıyır. Başqalarına göza-

ğartmaq anlamı daşımır. Biz də sağlam millətçilik deyəndə dəyərlərimizə yiyə çıxmağı, varlığımızı qorumağı düşünürük.

## Qarabağ sorunu Azərbaycanın Bütövlüyünə bağlıdır

Azərbaycan üçün "Qarabağ" sorunu yaradanlar iki önəmli sürəcin qarşısını almaq məqsədi güdüblər: – Azərbaycanın siyasal bərpasına – Bütövləşməsinə doğru yaranacaq hərəkatın; genellikdə Türk Birliyinə doğru gəlişmənin. Bu iki sürəcin ciddi olaraq ayaqlaşması bizim, türk olaraq, etnik ərdəmliyimizin göstəricisidir. Bu səbəbdən də, "Qarabağ" Azərbaycanın siyasal, dövlət sorunudur deyərək, Türkün yaranmalı olan dünyası yaxasını qırağa çəkə bilməz. Eyni halda, Azərbaycanın siyasətçiləri, ideoloji düşünərləri, yazarları, basın yayını "Qarabağ"a Azərbaycanın bireysəl, bölgəsəl sorunu kimi yanaşma sərgiləməməlidirlər. Belə baxanda, siyasal güclər də "Qarabağ"ı Azərbaycan-Ermənistan konflikti kimi sunurlar. Ancaq bu illər içində məsələ bütün çılpaqlığı ilə üzə çıxdı, "Qarabağ" Azərbaycan-Rusiya, Azərbaycan-Batı, Batı-Rusiya davasıdır. Əgər belə olmasaydı, Azərbaycan Ermənistanla sorununu çoxdan çözərdi. Bizim, Azərbaycan olaraq, döyüşümüz də, təbliğatımız da yalnız bir yönə köklənməlidir: – "Qarabağ"ın "uluslararası sorun" statusunu özümüz üçün rədd etməli, ona "milli sorun" statusu qazandırmalıyıq. Bunu uluslararası güclər istəməyəcək, buna yol verməməyə çalışacaq. Ancaq bizim milli yapımız, milli psixologiyamız buna köklənməlidir. "Qarabağ" – Azərbaycanın, böyük anlamda, siyasal bərpasının – Bütövləşməsinin parçası kimi dərk olunmalıdır. Biz "qarışqa yuvası"na qısıldıqca siyasal dünya bizi əzməyə çalışır. Ona görə ideoloji birliklər də, basın yayını da, yuxarıda vurğuladığımız məsələlərin çözümünə, oyunsuz qulluq göstərməlidir. Bizim başımızı, milli ölçümüzü itirməyimizlə, qatırlar. Ona görə nə Türk Birliyinə doğru ciddi çabalar göstəririk, nə də Güney Azərbaycanın özgürlüyünə doğru. Milli eyitimçilik yox səviyyəsinə endirilib.

Özümüzdə güc tapıb haqqımızı, həqiqətimizi ortaya qoymalıyıq. Elə bir aşamaya gəlib çıxmışıq, milli gəlişmə haqqında, böyük Özgürlüyümüz yönündə düşünənləri, yumşaq desək, sadəlövh adlandırırlar. Guya onlar dünyanın gedişini görmür, durumu doğru dəyərləndirib araşdıra bilmir, siyasal güclərlə oyun oynamağı asan sayırlar. Bizə də bəllidir, asan heç nə yoxdur. Ancaq hər şeyə çətin deyib təslimçilik əhvalı sərgiləmək – siyasal assimilyasiyadan etnik assimilyasiyaya doğru yuvarlanmaqdır…

## Güney Azərbaycan haqqında düşünməmək - yaşamamaqdır

Günaydın, sayğılı yurddaşlarım!

İki gün öncə Güney Azərbaycana baxışı soruşan bir status yazdım. Bir sıra yorumlar yazıldı. Türkiyəli soydaşlarımızdan da məsələyə ilginc yanaşmalar oldu. Görünən odur, baxışlarda ayrıntılar olsa da, bu məsələ çoxlarını ilgiləndirən, rahatsız edən qonudur. Bu yaxşı haldır. Rahatsızlıqlar belədir: Güney Azərbaycanla Quzey Azərbaycan uzun bir aradır ayrı düşüblər, mədəniyyət, baxış, məzhəb ayrıntıları var. Bu faktlara dayanılıb düşünülür: bu iki parçanın birləşməsi qısa çağda olası deyil. Ona görə özərklik (muxtariyyat) ideyasına üstünlük verən var; "öncə bağımsızlıq əldə etməlidir" deyən var; bu məsələni gündəliyə gətirməyi – Kürdüstan qurucularına yardım kimi dəyərləndirmələr var... Hər kəsin düşüncəsinə dözümlü yanaşaq. Ancaq deməliyik: nə olursa olsun, Azərbaycanın birləşməsi yönündə düşüncələr dərinləşməli, mariflərdirmələr genişlənməli, milli-ideoloji yardımlar daha böyük aşamaya keçməlidir.

Gələk Güney Azərbaycanla Quzey Azərbaycanın məzhəb ayrıntısı məsələsinə. Sayğılı soydaşlarım, məzhəb ayrıntısı təkcə Güneylə Quzeyin arasında deyil, Quzeyin öz içində də, lap elə başqa türk toplumları arasında da vardır. Bütövlükdə mədəniyyət ayrıntısı türk toplumları arasında qabarıq şəkildə var. Bu

ayrıntılar qıraqda öz-özünə aradan qalxmayacaq, iç-içə gələndə, bir yerdə olanda düşünülüb, işlənilib çözüləcək.

"Kürdüstan dövləti qurucularına fürsət vermək" məsələsinə gəlincə, bilməyimiz gərəkdir: məqsədli qüvvələr, bizim tutduğumuz mövqedən (əgər mövqe tutmuşuqsa?) asılı olmayaraq, nəyi planlayırlarsa, ona da çalışırlar. Kimlərsə, bizim bir olmaq istəyimizdən qullanaraq, məqsədlərini yeyinlədəcəklər deyə, ayağımızı üst-üstə aşırıb izləyici olmalı deyilik. Kimin necə düşünməsindən asılı olmayaraq, biz özümüzün haqlı çabalarımızı yetirməyi düşünməliyik. Hamı planlar cızır, bizə tale hazırlayır (özlərinə gərək olan ölçüdə), biz isə gözləyirik, görək axırı necə qurtaracaq. "Axırlar" da gözümüzün qabağındadır.

"Özərklik" məsələsi də, düşünürəm, yersiz aşamadır. Bizi nədənsə aşamalara çox həvəsləndirirlər. Qarabağ məsələmizi də aşama-aşama çözün deyirlər. Bu Vətən mənimkidir, nədən "onu qarış-qarış istəyin" deyirlər?! Milli-mənəvi, bəşəri haqqımızı siyasi oyunlara çevirənləri nədən fakt qarşısında qoymaq istəmirik?! Bizə deyirlər oynayın, ancaq udmayın. Biz də deyirik, onsuz da gücümüz yoxdur, gəlin aşama-aşama oynayaq. Biz tarixin aşamalarında oynayırıq, bizi parçalayanlar özlərinin qurduqları oyun aşamalarının birində qabağımızı kəsirlər. Deyirlər balaca bir güzəşt bəsinizdir, indi yüz il gözləyin. Biz isə əlimizi yanımıza salırıq. Mənə elə gəlir, biz Güney Azərbaycanla bağlı düşüncələrimizdə qəti olmalıyıq. Orada bizim 35-40 milyon gücümüz var. Mariflənib biryolluq ayağa durmalıyıq, tarixin bizə qarşı ironiyasına dur deməliyik.

## Azərbaycanın siyasi yeri Türk Dünyasındadır

Çağdaş dünyanın mənzərəsini göstərməyə çalışan qüvvələr, eləcə də ayrı-ayrı yazarlar olduqca qarışıq düşüncələr formalaşdırırlar. Söz yox, bu qarışıqlığı bilərəkdən, istəyərəkdən yaradırlar. Çünkü bütün yanaşmalar qrup, partiya, hakimiyyət çıxarlarına uyğunlaşdırılır.

Çoxları elə düşünürlər, Batı ölkələrində hər cür yanaşma hakimiyyət çıxarlarına deyil, dövlət çıxarlarına görədir. Biz burada hər bir incə məsələnin yerini gözləmək üçün "əsil dövlət", ya da "çağdaş dövlət" anlayışları işlətmək istəyərdik. Nədən? Çünkü əsil dövlət çəkişmə aparatı rolu daşımır (daşımamalıdır). Çağdaş dövlətlərin çıxarlarına isə, çəkişmələrdə gücünə, gücsüzlüyünə görə doğrulur. Söz yox, çıxarları ödənən dövlətlər, başlıca olaraq, güclü dövlətlərdir. Gücsüz dövlətlərin çıxarları isə güclülərin ixtiyarında ödənir. Ona görə də, biz düşüncəmizi ifadə eləmək üçün, dövlət anlayışını deyil, imperiya anlayışını qullansaq doğru olar. Bəllidir, çağdaş dünya dörd başlıca siyasal imperiyanın basqısı altında yaşayır. Bu imperiyalar aşağıdakılardır: ABD, Avropa Birliyi, Rusiya, Çin. ABD ilə Avropa Birliyi bir-birinə bağlı çalışdıqları üçün daha böyük etkiyə yetikdir. Bunların etki çevrələrini genişləndirən başlıca faktor iqtisadiyyat üstünlüyü, eləcə də ideoloji sistemliliyidir. Onlar Rusiya imperiyasını bu üstünlükləri ilə üstələyirlər. Çindən üstünlükləri isə, başlıca olaraq, ideoloji sistemliliklərinə görədir... Bu yazıda istəyimiz məsələni bu yöndən araşdırmada davam eləmək deyil. Sadəcə bu dediklərimizin fonunda dövlətimizin çağdaş durumuna qısaca aydınlıq gətirmək istəyirik. Bu gün dövlətimiz adı çəkilən dörd imperiyadan ən çox üçünün (ABD, AB, Rusiya) basqısı altındadır. Bununla belə, hələ də bəlli deyil, bizim dövlətimiz kimin yanında yer alıb. Bu da onun bağımsız siyasət yürütməsinə görə deyil, seçim eləməyin çətinliyinə görədir. Bu çağa kimi Azərbaycan hakimiyyəti balanslaşdırılan siyasət yürütməsi düşüncəsindəydi. Axıra kimi də belə olacağını kəsdirmişdi. Başqa sözlə, bu komandanın hakimiyyətdə olduğu sürəcdə balanslaşdırmanın (daha doğrusu, Batı ilə Rusiya arasında vurnuxmanın) yetərli siyasət olduğunu gözə almışdılar. Ancaq zaman çox iti gedişlərlə irəliləyir. Siyasal durum çox tez-tez dəyişilir. Dünyanı bölmək uğrunda savaş yeni-yeni istəklər, tələblər ortaya çıxarır. Bu gedişdə qurbanların sayı da çoxalır. Ona görə də kiçik ölçülü dövlətlər, qaçılmaz

olaraq, böyük şəxsiyyətlər, yetkin siyasi öndərlər ortaya çıxarmalıdır.

Böyük güclər, çəkişmədə udmaq üçün, süni şəkildə balaca milli dövlətlər yaradırlar. Onların haqqını, hüququnu qorumaq adıyla bir-birinin sınırlarını daraltmağa, öz hərbi-siyasi sınırlarını genişləndirməyə çalışırlar. Böyümək, güclənmək olanağı olan dövlətlərin isə, içində anarxiya yaratmaqla, onların özləri üçün "əngəl"ə çevrilməsinin qarşısını alırlar.

Onlar üçün gələcəkdə "əngələ" çevriləcək dövlətlərdən biri Azərbaycandır. Ancaq bu gün Azərbaycan elə bir duruma gətirilib, onlar üçün əngələ çevrilə bilməsi, yəni böyüyüb güclənməsi yaxın çağlar üçün gözlənilən deyil. Çünkü dövlətin gələcəksəl özünüqoruma sistemi (milli strategiyası) yaradılmayıb. Bütünlüklə zor ilə yönətilir.

Bu gün sosial şəbəkələrdə, eləcə də basın yayınlarında düşüncələr dolaşmaqdadır. Bu düşüncələrdən biri budur: Batı Azərbaycana qarşı ikili standartlarla davranır, Azərbaycanı gözümçıxdıya salır; ikincisi isə: "Batı Azərbaycan hakimiyyətindən insan haqlarına sayğı tələb edir".

Hər iki düşüncə doğrudur. Eyni halda, hər ikisi Azərbaycana qarşıdır. Öncə birinci düşüncənin Azərbaycana qarşı olmasına aydınlıq gətirək. Batı Azərbaycanı sevmir, bu aydındır. Ancaq Azərbaycanı talayan, dağıdan bir hakimiyyətin Batını suçlaması necə özünü doğrulda bilər?! Axı Azərbaycan hakimiyyətinin özü Azərbaycana ikili deyil, çoxlu standartlarla yanaşır. Batını suçlamaqla Azərbaycan hakimiyyəti kimi kimdən qorumuş olur?! Öncələr Azərbaycan hakimiyyəti özünü, Azərbaycan xalqından, Batının köməyi ilə qorumurdumu?! Necə oldu, indi xalqı Batıdan qoruyur?! Bu gün bu ritorik sorğuların cavabı, belə götürəndə, hər kəsə bəllidir. Sadəcə, yuxarıda dediyimiz kimi, hər kəs qrup, partiya tələbləri ilə davrandığına görə, sözdə, çalışmada içdənlikli (səmimi) ola bilmirlər...

İndi də "Batı Azərbaycan hakimiyyətindən insan haqlarına sayğı tələb edir" düşüncəsinin Azərbaycana qarşı olduğuna göz yetirək. Öncə "Batı üçün insan haqları nə deməkdir" sorusunu

aydınlatsaq, bizi rahatsız edən məsələlərin mahiyyəti bütünlüklə üzə çıxar. Azərbaycanın torpağı parçalanıb. Batı özünün dünyaya zorla sunduğu demokratiya ideolojisini özgürlüyün, bağımsızlığın qarantı sayır. Ancaq Azərbaycan torpağını parçalayan Rusiyanı, buna görə, bircə yol suçlamır. Tərsinə, Qarabağ sorunumuzu guya çözmək üçün, Rusiya ilə ATƏT-in "Minsk Qrupu"nda bir arada durur. İllərdir, gözgörəsi, bu sorunun çözülməsinin qarşısını alır. Azərbaycanda hər kəs də bunu bilir. Ancaq düşünürlər, Batı başqa cür də edə bilməz, çünkü öz çıxarlarına uyğun davranır. Necə olur, ayrı-ayrı dövlətlərin hakimiyyətlərini, diktator olmaqda suçlayaraq, çevriliş (demokratik devrim) elətdirir, "özgür" düşüncəli adamları (daha doğrusu, əlaltılarını) hakimiyyətə gətirir, ancaq başqasının torpağını parçalayanlarla barış dilində danışmağı tələb edir?! Əgər doğrudan da, Batı dünyada insan haqlarına önəm verirsə, onda başqasının vətənini parçalayan bir dövlətin hakimiyyətini də demokratik devrimlə dəyişib, başqalarının haqqına sayğı duyanları orada hakimiyyətə gətirsin...

Bax, bizim müxalif düşüncəli insanlarımızın bunu deməyə içdənlikləri çatmır. Azərbaycan hakimiyyətini, xalqın birliyini yaratmaqla deyil, imperialist Batı ilə hədələyirlər. Sonucda vətənimizin, dövlətimizin çıxarları ayaqlar altına atılır. Batının Azərbaycanda demokratik devrim eləməsini istəyənlər vətəndaş qarşıdurmasının hansı səviyyəyə kimi gəlib qorxuya çevrilməsini gözə almalıdırlar.

Batı Azərbaycanda devrim eləməyə ona görə tələsmir, Rusiyanın Azərbaycanlı kadrlarının, Batının Azərbaycanlı kadrlarından gücsüz olmadığını bilir. İkinci bir yandan, Türkiyənin Azərbaycanda etkisinin də güclü olduğunu gözardı eləmir.

Bu gün Azərbaycan düşünərləri, yazarları topluma bir düşüncəni yeritməyə çalışırlar: Azərbaycan dövləti Batı-Rusiya çəkişməsində Batının yanında yer almalıdır. Doğrusu, çağdaş gediş də bunu tələb edir. Ancaq bununla belə, biz başqa cür düşünürük. Gedişin asan tələbinə boyun əyməyi deyil, varolmanın çətin tələbinə üz tutmağı doğru sayırıq. Yaranmış tarixi or-

tamdan yararlanaraq, Türk Dünyasının birliyini yaratmaq, Türk Dünyasında yer almaq gərəkdir. Tərsinə olarsa, heç bir imperiyanın basqısı altında, istər dövlət varlığımızı, istər ulusal varlığımızı qoruyub saxlaya bilməyəcəyik.

## Oyunların ötəsində

Bu günlərdə "BMT Baş Məclisi"nin yubiley sessiyası keçirildi. Siyasal dünyanın ağası kimi davranan ABD-nin dövlət başçısı Obama, gələnəksəl olaraq, dünyaya bir sıra ismarıclar verdi. Bu ismarıclar əslində zorüstə ağıl göstərgəsi idi.

Müsəlman Allah anlamını dərk eləmədiyi üçün Allaha öz diləklərindən yanaşır. Başqa sözlə, Allahı öz diləklərinə uyğun düşünür. Özəllikcə, davamlı namaz qılıb oruc tutan adam bəzən elə davranır, elə bil Allah onun dayısıdır. Belə adamlar dünyanın gözəlliyini anlamayan, anlamını bilməyən zavallılardır. Onlar Allahın, əslində ağanın qulu olduğunu düşünüb bunula qürur duyurlar. Özünə qul demək – Allahı ağa kimi görməkdir. Çünkü qul sözü ağa sözünün anlamına uyğun yaranıb. Ağasız qul olmur, başqa cür desək, qulu olmayana ağa demirlər.

Yuxarıda başladığımız qonuya bu artırmanı qoşmaqla bir tutuşdurma aparmaq istədik. Mütiliyin tələbləri birdir, təyinatı başqa görünsə də. Yaşama siyasal yanaşma da din baxımından yanaşma kimidir. Yəni mütilik insan şüuruna, mənliyinə hakim olanda, o, gücünü itirir, mənliyinə, çalışmasına ağa axtarır. Din Allahdan insanın mənliyinə ağa yaratdığı kimi, milləti kölə kimi yaşayan dövlətin başında duranlar da, özünə, xalqına başqa güclərdən ağa yaradır. İndi qayıdaq Obamanın çıxışına. O, bir sıra dövlət başçılarını, demokratiyanı pozmaqla, avtoritar rejim yaratmaqda suçlayır. Bu suçlama nə dərəcədə içdənlikli, haqlıdır?! Axı avtoritarları yaradan ABD-nin siyasətidir. Nə qədər, ABD-nin istəkləri ödənilir, o, avtoritarlarla hər cür əməkdaşlıq edir. Elə ki istəkləri ödənmir başlayır suçlamalara. On illərlə bu cür yanaşma açıq şəkildə görünür, ancaq heç kim (heç bir döv-

lətin başçısı), ürək edib, yüksək tribunalarda onun gözünün içinə bunu demir. Çünkü heç kim sağlam ruhlu, sağlam düşüncəli, sağlam ideyalı deyil. Xalqını talayan, bunun üçün, çağında ABD-nin özündən belə yardım alan, bir başçı yüksək tribunada o cür ürəkli olub ərdəmlik göstərə bilməz. Ona görə Obamanın çıxışına hər kəs öz diləyindən yanaşır. Hər kəs, yəni iqtidar-müxalifət cəbhəsində olanlar. Başqalarının (zəif, güclü dövlətlərin) "hər kəs"inin istəklərini burada araşdırmağa gərək duymuruq. Sadəcə olaraq, Azərbaycandakı yanaşmalara qısaca aydınlıq gətirmək istəyirik. Çünkü bu yanaşmalar, istəsək də, istəməsək də, Yurdumuzun siyasal taleyində rol oynayır. Müxalif düşərgədə görünən adamlarımıza görə, Obamanın uyarısından dövlətimizin öndərliyi ciddi ölçü götürməlidir. Biz düşünürük, Obamaların çıxışlarından ilhama gəlmək – kölə mənliyin yaşadığı sevincdən başqa bir şey deyil. Bu cür çıxışlardan Azərbaycan toplumu üçün xeyir gələcəyini ağıla gətirmək, yumşaq desək, yersizdir. Nə yazıqlar, bu çağa kimi ABD-nin xeyrinə deyilən söz – dünyanın xeyrinə deyilən söz kimi düşünülüb, daha doğrusu sırınıb. Əslində isə ABD-nin xeyri üçün deyilən söz, çoxluq olaraq, dünyanın zərəri üçün gerçəkləşib. Demokratik devrimlər – ABD süfrəsinin artığına cummaq kimi bir hərislik səviyyəsini doğruldub. ABD-nin dağıdıcılığına demokratik gəlişmə adı qoyanlar dövlətinin, xalqının olanaqlarını oğurlayıb ələ keçirmək istəyən xudbin hərislərdir. Xalqla iş aparmayan, xalqa həqiqətləri deməyən, xalqla birləşməyən istənilən qüvvə, xalqın gələcəyi üçün, ABD qədər qorxulu, zərərlidir.

Bildirmək istəyirik, bizim ABD siyasətinə yönəlik düşüncələrimiz Azərbaycan iqtidarının ABD-yə yanaşmasının eyni deyil, ola da bilməz. Bizim rahatsızlığımız milli varlığımıza, dövlətçiliyimizin gələcəyinə qorxu yaradan gedişlərdən doğur. Azərbaycan iqtidarı isə dövlətimizin bağımsızlığına qarşı ABD-nin qısnama (təhdid) siyasəti yürütməsini tutalqa edərək, toplumumuzu özünün doğru olmayan mövqeyinə inandırmağa çalışır. Əgər Azərbaycan iqtidarı dövlətin bağımsızlığını ABD-

nin basqılarından qoruyursa, bəs bunca Azərbaycanın gələcəyini Rusiya kimi azğın bir imperiyanın ixtiyarına sürüşdürmək nə deməkdir?! İndi hər kəs anlayır, ABD ilə Rusiyanın Qafqaz uğrunda çəkişmələri qlobal savaş üsulu ilə gerçəkləşməz. Hər ikisi Qafqaz dövlətlərinin başçılarına etki göstərib, öz yanına çəkməklə, udmağa çalışır. ABD-nin Qafqazla coğrafi sınırları olmadığı üçün etkisini demokratiya adlanan ideolojisi ilə həyata keçirir. Rusiya isə, fiziki olaraq, Qafqazın içindədir. Onun etki göstərmək olanaqları bu baxımdan xeyli üstündür. Hələ üstəlik imperiyasının içindən ayrılan Qafqaz ölkələrində yetərincə casus-kadrları çalışır. Buna baxmayaraq, ABD-nin etkisi Rusiyanın üstünlüyünü də yenməyə yetərlidir. Çünkü Rusiyanın özündə də ABD-nin ideolojisi hakimdir, üstəlik də Rusiyaya iqtisadi yöndən basqı göstərmək olanaqları genişdir. Bir sözlə, ABD Azərbaycan iqtidarına etki göstərmək üçün onun öz toplumuna qarşı ədalətsiz davranışlarını, demokratiyanın prinsiplərini pozmasını əsas gətirir. Azərbaycan iqtidarı da, ABD-nin davranışını dövlətimizin iç işlərinə qarışmaq kimi qiymətləndirərək, dirəniş göstərməyə çalışır. Üzdən baxanda bunların hər ikisi haqlı görünür. Əslində isə iki çəkişənlər arasında haqlı bir olar. İki haqlı olanda, onlar arasında çəkişmə olmaz, birlik olar. Birlik yoxdur, haqlı da yoxdur. Çünkü haqq – millətimizin, dövlətimizin gəlişməsini, bağımsızlığını qorumağın adıdır. Ortada isə qoruyucu mövqe yoxdur, nədən, bu çəkişənlərin heç biri millətimizlə, dövlətimizlə bir deyil, birlikdə deyil. ABD millətimizin ləyaqəti ilə bir araya gəlməyib, gəlmir. Ən yaxşı halda, toplumumuzun güzəran çətinliyini tutalqa edib özünəyarar devrim hazırlayar ( bu çağacan bir sıra ölkələrdə elədiyi kimi. Heç birində də müsbət sonuc yoxdur). Azərbaycan iqtidarı da millətin ləyaqətini düşünmür, ona görə millətlə bir deyil. Bu səbəbdən də, öz hakimiyyətini qoruyan iqtidar Rusiyanın kölgəsinə sığınır...

Bu gün Azərbaycanda seçki hazırlığı gedir. Ancaq bəllidir, bu seçki Azərbaycan üçün heç bir milli önəm daşımır. Heç kəsə sirr deyil, seçkiyə qatılanlar iqtidarın gözə aldığı, siyahılaş-

dırdığı adamlardan oluşur. Onların da heç birinin hədəfi, məqsədi yoxdur. Başqa sözlə, millət vəkili adına layiq deyillər. Bu çağa kimi heç kim millət vəkili adını doğrultmayıb. Bu cür milli şüuru gəlişməyən adamların toplaşdığı məclisi Milli Məclis adlandırmaq doğru deyil. Hakimiyyətaltı kolondan Millət Məclisi yaranmaz.

İndi dünyanın hər yerində demokratik seçki adlanan seçki oyunu var. Lap ABD-nin özündə. Nə qədər SSRİ vardı, ABD-də seçki demokratiyası vardı. SSRİ dağılandan sonra ABD-də seçki oyunları var. Baxın, anayasada yazırlar, bir şəxs iki dəfədən artıq dövlətə başçı seçilə bilməz. Ancaq bu o anlama gəlmir, bir adam mütləq iki dəfə seçilməlidir. Təkqütblü dünya düzəni yaranandan sonra ABD-də bir adam mütləq iki dəfə seçilir. Əgər anayasada 3 dəfə yazsaydılar, 3 dəfə seçiləcəkdi. Bu saxtakarlıq, içdənsizlik nəyə gərək?! Axı hər seçkidə milyonlarla pul xərclənir. Elə bəri başdan yazın, bir adam 8-10 illiyinə seçilə bilər. Ola bilər, onlarda "Mərkəzi Seçki Komissiyası" Azərbaycandakı kimi hər cür saxtalaşdırmağın yolunu bilməsin. Azərbaycanda seçici pərdə arxasına keçir, köynəyinin altından bir topa bülleteni çıxarıb qutuya doldurur. Bu da olur "demokratik seçki". ABD-də bu cür olmasa da, başqa cür saxtakarlıq var. Ona görədir, bir demokrat, ya da bir respublikaçı iki dönəm dalbadal uduş əldə edə bilməz. Ya da iki partiya arasında bəri başdan razılaşdırılıb, növbə ilə gah o, gah da bu, hakimiyyəti ələ alsın. Vurğuladığımız kimi, SSRİ dağılandan bəri elə bir dönəm olmayıb, bu iki partiyadan biri 3 dəfə, o biri isə bir dəfə seçkini udsun. Növbə ilə gah o, gah da bu seçilir. Budur ABD-nin demokratik seçkisi. Bu baxımdan Azərbaycan iqtidarı xeyli "içdənlikli" görünür. O qəti qərar verib, xalq ondan başqa heç kimi iqtidarda görmək istəmir. ABD də öz "içdənliyini" bizim iqtidara öyrədə bilmir, içinizdə başqa bir qüvvə tapın, onunla növbələşin– bir dəfə o qüvvə hakimiyyətə gəlsin, bir dəfə siz. Bu da olsun demokratik seçki...

Dünya bir boyadadır, ona görə ölü görünür. İnsan dünyanın sabahına ümidləmi baxsın, yoxsa qiyamətə inanıb gözləsinmi?!

Axı dinlər ona qiyamət vəd eləyir, siyasət isə çıxılmazlıq. Bəs insanın üzü gülməli, sevinməli deyilmi; dünyada ədalətin, gözəlliyin bərqərar olunmasına inanmalı, onu sevməli deyilmi?! Burada biz dayanıb Asif Atanın insan haqqında, dünya haqqında, siyasət, din haqqında dediklərinə qulaq asmalıyıq. Onda qorxu yaradan gedişin olaylarını sadalamaqdan ayrılıb, ürəklilik, hünər yaradan ideyaların qüdrətini düşünməli olacağıq!

## Oyunların Sınırsızlığı

Orta Doğunun taleyi siyasal məngənədən necə açıla bilər?! Heç kim bu soruya olmalı cavabı vermir. Ya Doğunun taleyini məngənədə saymırlar, tərsinə, onun bu gedişlə (devrimlər dalğasında) qurtaracağını düşünürlər, ya da siyasal güclərin əlindən yaxa qurtarmağı olumsuz sayırlar. Biz isə hər iki yönü yanlış sayırıq. Yada salırıq, Əfqanıstandan başlayan, bu gün Suriyada davam eləyən oyunlar bir xətt üzrə gəlişir. Olaylar bu xəttin sonuna doğru kəskin xarakter alır. Əgər Əfqanıstanda, bir çağlar, Batının çıxarları SSRİ ilə toqquşurdusa, o (Batı), bu gün İraqdan Suriyaya qədər davam edən olayların axarında özünün yandaşı (müttəfiqi) adlandırdığı Türkiyə ilə hesab çəkməyin zamanını yaxınlaşdırır. Biz hər zaman vurğulamışıq, Amerika ilə Türkiyə heç vaxt müttəfiq olmayıblar. Türkiyə, başlıca olaraq, Amerikanın siyasal çıxarlarına yarayıb. O bu qulluğu zorən seçib, – Sovet respublikalarından biri olmaqdansa, bağımsız qalıb, ABD-nin çıxarları ilə uzlaşmağa üstünlük verib. SSRİ dağıldı, Türkiyə isə yağışdan çıxıb yağmura düşdü. Bu yağmur onu yuyub aparmaqdadır. ABD İraqı dağıtdı, oranı, PKK-nın gəlişib döyüşməsi üçün, meydana çevirdi. “Kürdüstan dövləti”nin layihəçilərindən birini – Təlabanini dövlətin başına gətirdi, o birinə – Bərzaniyə isə ölkənin Quzeyini hərbi düşərgə elədi. PKK da elə həmin düşərgədə ortalaşıb. İndi PKK sanki başqa bir ölkədir, Türkiyə də başqa bir ölkə ilə savaşır. İşin eybəcərliyi ondadır, bu “başqa ölkə”nin sınırları Türkiyənin içərilə-

rindən başlayır. Heç bir Batı ölkəsi də, PKK kimi vəhşi bir terrorçu şəbəkənin əməllərindən diksinib, həyəcan təbili çalmır. Çünkü hər birinin istəyi PKK-da ifadə olunur.

Görünür, PKK-nın son günlər aktivləməsi də Suriyadakı durumla bağlıdır, Batıdan ismarıc olunub. Hələ Suriya məsələsi durumu mürəkkəbləşdirib. Heç kim siyasal bəlirti sərgiləyə bilmir. ABD aranı qarışdırdı, Əsəd rejimini devirsin. Ancaq gözləmədiyi bir şəkildə Əl-Qaidənin Əsəd hakimiyyəti ilə döyüşü başladı. İndi ABD bu iki qüvvənin bir-birini sıradan çıxartması üzərində işləyir. Üstəlik Əsəd hakimiyyətinə Əl-Qaidənin mövqeləri ilə bağlı bilgilər də verir. Analogiya az uyğun olsa da, eynən 1944-cü ildə, SSRİ-Almaniya döyüşündə ikinci cəbhənin açılmasını ləngidərək, hər ikisinin zəifləməsini gözlədiyi kimi. ABD-nin elə bir təcrübəsi var. Türkiyə hökumətinin də Suriya ilə bağlı mövqeyi qaranlıqdır. Xəlifəlik diləyində olan Ərdoğan hökuməti Əsədin rejimini öncədən istəmir, bu bəllidir. Çünkü Əsəd rejimi, 1979-cu ildən, İslam Devrimiylə, Doğuya ağalıq etmək istəyində olan İranın dostudur. Ancaq Ərdoğan hökuməti, dünyanın gözü qarşısında, terrorçu Əl-Qaidəyə də yaxın mövqe sərgiləyə bilməz, (o da bəlli, Əl-Qaidə də xəlifət diləyindədir).

Deməli, Suriya həm Batı üçün, həm də Ərdoğan hökuməti üçün istənilməyən bir aşamaya keçib. Bununla belə, Batı, Türkiyənin başı öz içinə qarışsın deyə, PKK-nın silahlarını işə salıb. Geneldə Türkiyəni zəiflətmək, parçalamaq yönündə süreclər heç vaxt daynmayıb, – nə Osmanlı dönəmində, nə Atatürk dönəmində, nə də ondan sonra. Orta Doğu Projesi, başlıca olaraq, Türkiyənin, bir daha qüdrətlənib, dünyada aparıcı söz yiyəsinə çevrilməməsi yönündə planları həyata keçirir. Nə kürdlər, nə də ermənilər ABD üçün bəşəri bir nəsnə deyil.

Bütün bu olayların fonunda baxışımızı çəkən, bizi rahatsız eləyən bir məsələ də var. Türkiyədə PKK-nın yeni oyunları, İranın Azərbaycana qarşı viza söhbəti, "İranla savaş başlasa, Naxçıvan ayaq altında qalacaq" panikası. Bütün bu oyunlar sanki bir əllə törədilir. Heydad, doğrudanmı "Kürdüstan dövlə-

ti"nin hazırlanması bu qədər aktuallaşdırılaraq yeyinləndirilir?! Gözlə görünməyən siyasal qorxular haqqında düşünmək artıq gecikir. Bu gün Naxçıvanın çevrəsində olaylar elə eybəcər şəkil alır, elə bil Naxçıvan "Kürdüstan dövləti" üçün boşaldılmağa sürüklənir. Belə ki, İranın viza rejimi qullanması Bakıya gəlib-gedən toplumda panikanın etkisini gücləndirir. Başqa bir yandan, Naxçıvanda toplum sadə iş yerlərindən (yeməkxana, çayxana b.k.) məhrum olunur. Eləcə də susuzluqdan kənd təsərrüfatını iflic duruma salırlar, bu da yerli toplumun həyat tərzini dözülməz hala gətirir, artıq orada yaşamaq olumsuzlaşdırılır. Deməli, dözülməz durumdan qaçıb canını qurtarmaq – Naxçıvanı boşaltmaq anlamına gəlir. Dəhşətli bir soru adamın içini qovurur – kimdir, hansı əllərdir bunları törədən?! Yoxsa, Naxçıvanı verməyəmi hazırlayırlar?! Görünür, Cavid durub yurdunu seyr etməli, haray qoparmalıdır:

***"Ya rəbb, bu nə dəhşət, bu nə vəhşət, nə qiyamət?!"***
***İblis hökm edir Vicdana, kimsədən yoxdur kəramət!***
(Cavidin ağrısına ağrımızı, sözünə də sözümüzü qatırıq).

## Dirəniş ləyaqəti imtinalarla təsdiqlənir

Topluma, istər yazılı yasalarla, istər ideoloji etkilərlə yaşam tərzi hazırlanır. Başlanğıcda toplum heç nəyə etiraz eləmir – hara deyirlər gedir, necə deyirlər yaşayır. Yəni toplum ona hazırlanan yaşam tərzini araşdırıb öyrənmədən yaşayır. Bu, qaçılmaz bir gedişdir. Bazardan tərəvəz almırsan, o üzünə, bu üzünə çevirib yoxlayasan.

Ancaq seçilən həyat tərzi özündə neqativ hallar daşıyırsa, gec-tez onun pis etkisi özünü göstərməyə başlayır. Bununla da, toplumun mənəvi-əxlaqi durumunda pozuntular yaranaraq, onu özünə yadlaşdırır, lap elə yağılaşdırır. Biz bunu Sovetlər dağılandan sonra daha yaxşı izləyirik.

Söz yox, çox şeylərin özülü Sovetlər dönəmində qoyulmuşdu. Sadəcə rejim düşüncələrin üzünə qapalı olduğuna görə, bunun fərqinə varmaq da çətin idi. İndiki dönəmdə isə, milli po-

zuntuların yeyinlənməsi, tam olaraq, ortadadır. Totalitar rejim anarxiya rejimi ilə əvəz olunduğuna görə (bizdə totalitar-anarxiya rejimi var), pozuntular gözlə görüləcək qədər qabarır. Düzdür, çoxluq sosial ağırlıqlar altında bu pozuntuların o qədər də fərqinə varmır. Fəlakət isə gündən-günə böyüyür, insanların üzərinə yeriyir. Biz sosial şəbəkələrdə, fəlakətin ayrı-ayrı etkilərinə etiraz edənləri də görürük. Ancaq bu etirazlar elə də kəsərli olmur. Nədən? – Bir var etiraz, bir var imtina. Etiraz başlanğıcdır, imtina isə süreçdir – gedişə direniş göstərmək, onun yönünü dəyişmək süreci. Dediyimiz kimi, etirazlar olur, imtinalar isə yetişmir. Söz yox, pozuntuya uğramış mövcud gələnəklərdən imtina eləmək asan da deyil. Bunun üçün köhnəliyə qarşı əvəz olmalıdır. Yaranacaq boşluğu doldurmaq üçün ortada ideya-məzmun olmalıdır.

Bəzən ayrı-ayrı insanlar, yaşamda yox, yapıda (şüurda) lokal imtinalara gedirlər. Bu zaman onlar düşüncələrində yaranan boşluğu milli-insani keyfiyyətlərlə deyil, başqa yadlıqlarla doldururlar. Yəni bir yadlıqdan çıxıb başqa yadlığın içinə girirlər. Bu isə bütöv toplumun yaşamı üçün nizam, örnək sayıla bilməz. Gərək milli-insani ideya-məzmun meydana çıxarılsın, bunun yeriməsi, yaşaması üçün ciddi əməklər çəkilsin. Bu əməklər az sayla başlasa da, getdikcə çox saya çevrilsin. Bu işdə təfəkkür yiyəsinə çevrilmək, özündən keçmək (fədakar olmaq) başlıca koşuldur. Sosial sorunlar, qıraqdan yeridilən gələnəklərin arxasındakı maddi-fiziki güclər tutalqa olmamalıdır. Direniş – ürəyin, beynin gücü, təpəri ilə yaranır. Mən inanıram, Yurdumuzda bu cür oğullar, qızlar yox deyil. Sadəcə onlar, mənəvi, ideoloji baxımdan, zaman-zaman toparlanmalıdırlar.

## Türklüyün Fəlakəti

Bu gün Milli-etnik sorunlarımıza yönəlik yaşantılarımız ciddi çaşqınlıqlar törədir. Hara gəlib çıxdıq, hara üz tutmalıyıq?! İndi bu sorğu ilə kimə üz tutsan, bütöv bir cavab almaq asan ol-

mayacaq. Çünkü heç kim dünyanın halının qarışma nədənini kürəsəlləşmədə axtarmayacaq. Hələ də elə düşünürlər, Doğuda Batının yönətim qaralları (üsul-idarəsi) oturuşmadığına görə dünya çalxalanır. Doğrusu isə budur, dünyanı yönətmək üçün iqtisadi olanaqların mənimsənilməsi uğrunda Batı siyasətinin vəhşiliyi gözardı edilir. Ərəblərdə, diktaturanı devirməyi tutalqa edib, həyata keçirilən qırğınlar Türkiyə kimi demokratik sayılan ölkənin də taleyini sorğu altına alıbdır. Türkiyəni parçalamaq çabaları sürətlə qabarır. O, getdikcə artıq dərəcədə savaşa sürüklənir.

İraq parçalanmağa hazırdır, Suriya parçalanmağa hazırlanır, İranla Türkiyə isə parçalanma aşamasının ilkin görüntüləri ilə silkələnməkdədir. Ancaq İranın parçalanması Güney Azərbaycanın deyil, yeni Kürdüstanın xeyrinə baş verə bilər. Hər halda, olayların gedişi bunu deyir. Bu gün Güney Azərbaycan ayrılmağa çaba göstərsə, Kürdüstanın ərazisinə çevrilmək ehtimalı çox yüksəkdir. "Fars-molla rejiminin basqısı altında əzilirsənsə, demokratik dövlət kimi hazırlanan Kürdüstanla birgə ol" deyiləcək ona. Azərbaycanlıları kürdlərlə "qardaşlaşdırmaq" təbliğatı aparılacaq.

(Bir çağlar, Bolşevik irticası, ermənінin Azərbaycanda törətdikləri qırğınlardan vur-tut beş il sonra, azərbaycanlılara erməni vəhşətini unutdura, onları süni şəkildə "qardaşlaşdıra" bildi. Söhbət 1915-ci ildə Bakıda, geneldə Azərbaycanın bir çox rayonlarında törədilən erməni vəhşiliklərindən, 1920-ci ildə Azərbaycan SSR-in yaranmasından gedir).

Bölgədə dövlətləri parçalayıb, onların güclərini qırdıqları halda, yeni bir gücün yaranmasına Batı siyasətinin olanaq tanımasına inanmaq sadəlövhlük olardı.

Sovetlər birliyi dağılandan sonra Türk Birliyinin yaranmasına ümid edirdik. Ancaq indi Türklüyün siyasal taleyi sorğu altındadır. Türk dövlətçilik gələnəyinin zədə götürməsi gerçəkləşməkdədir. Kürdüstan dövlətinin yaranmasına qarşı Türkiyə ilə Azərbaycanın eyni mövqedən çıxış etmələrini əngəlləmək planları da hazırlanır. Basın yazır, Azərbaycan iqtidarı Türki-

yəyə qarşı plana qatılır. Bunu da Azərbaycanın İsraillə iş birliyinə getməsinə bağlayırlar. Söz yox, bu məsələnin kökünü bir az öncələrdə axtarmaq gərəkdir. Biz ayrı-ayrı basın çıxışlarımızda dönə-dönə vurğulamışıq, Sovetlər Birliyini dağıtmağı planlaşdıran Batı siyasəti bu Birlikdən qopan Türk dövlətlərinə soxulmaq planlarını da öncədən hazırlamışdılar. Bu günə qədər hər şey planla həyata keçirilib. Sovetlərin dağılmasının başlanğıcında, türk dövlətləri üzərində Rusiyanın etkisini azaltmaq üçün, Türkiyəyə Batı həryönlü olanaq yaratdı. Üzdə Türk Birliyinin güclü təbliğatı da quruldu. Ancaq dediyimiz kimi, ən qısa zamanda Sovetlərdən qopan türklər demokratikləşmə gedişlərinə çəkildilər, Türkiyə kimi oturuşmuş dünyəvi dövlət isə Ərdoğanın hakimiyyətə gətirilməsiylə islamlaşmaya. Beləliklə, Türkiyə yalançı müsəlman birliyinə götürüldü, gücünü Türk Birliyinə qoymasın. İsrail-Türkiyə münasibətlərinin gərginləşməsi də süni şəkildə təşkil olundu. Ərdoğan ərəblərin düşməni olan İsraillə münasibəti əyməsəydi, ərəblərin "qəhrəmanına" çevrilməzdi. Batı siyasəti ərəbləri içəridən parçalamaq üçün Türkiyə "himayədarlığı" quraşdırdı. Bu yanda isə (Azərbaycanda) Türkiyədən, Batıdan, öz xalqından "kəramət" görməyən Azərbaycan iqtidarı İranın aramsız təhdidləri qarşısında İsraillə işbirliyinə getdi. Bununla da hakimiyyətinin ömrünü uzatmaq olanağı qazandığını düşündü.

Ancaq məsələnin çətinliyi bundan sonradır. Ən qorxulusu odur, Azərbaycan-Türkiyə münasibətləri şiə-sünnü qarşıdurmasına sürüklənə bilər. Bəllidir, bu gün İslam dünyabaxışının heç yerdə bağımsız varlığı yoxdur: – Şiəçilik adında İran İslamı var; Nurçuluq adında Amerika İslamı var; Vəhabilik adında İngiltərə İslamı var. Çağımızda üçüncü qol daha geniş yayılmaqdadır. Türk toplumlarını, İslam araçılığıyla, dış qüvvələr yönətir, gərəkəndə qarşıdurmaya gətirilir. Tarixdə örnəklər bəs qədərdir. Ən böyüyü Şah İsmayıl-Səlim döyüşüdür.

Biz yenə də üzümüzü sağlam ruhlu insanlara – aydınlara, bilim adamlarına, ideoloji düşünərlərə tuturuq: toplumlarımızı türkçülük-avropaçılıq, türkçülük-İslamçılıq paralelliyi ilə çaş-

dırmağı önləmək gərəkdir. Türklüyü bir, bütöv götürmək gərəkdir. Toplumlarımızı bu yöndən davamlı marifləndirmək əməlləri genişlənməlidir. Bu, Azərbaycana da özgündür, Türkiyəyə də, başqa türk toplumlarına da. Alınan, satılan soyumuz yeni alınan, satılan soylarla təkrar olunmaqdadır. Onlar elə bilirlər, ölkələrimizin modernləşməsinə qatılırlar...

Bu gün bizim milliləşməyə böyük gərəyimiz var, bunu heç nəyə qurban vermək olmaz!

## Türklüyə qarşı iç, dış gedişlər

SSRİ-nin dağılması ilə yeni türk dövlətlərinin yaranması, başqa sözlə, türk dövlətlərinin bağımsızlıq əldə eləməsi Batını o qədər də rahatsız eləmirdi. Ancaq indiki Rusiyanın dağılması ilə bu imperiyanın əsarətində olan türk toplumlarının bağımsızlıq əldə eləməsi baş tutarsa, Batını ciddi rahatsız edir. Çünkü SSRİ dağılsa da, türk dövlətlərini basqı altında saxlamaq üçün, hərbi gücü dünyaca üstün olan Rusiya öz etkisini qoruyub saxlayırdı. Rusiyanın dağılması isə Türk Dünyasının birləşməsi ilə sonuclana bilər. Ona görə Rusiya imperiyasını çökdürüb Türk Dünyasının birliyinə yol açmaq Batının planlarında ola bilməz. Söz yox, Rusiyanın parçalanması ilə yalnız onun içindəki türk toplumları bağımsızlıq əldə etmir, eləcə də Güney Azərbaycanın, Doğu Türküstanın (Uyğurustanın) bağımsızlıq əldə eləməsi üçün yol açılır. Bu da dünyadakı dörd böyük imperiyanın – ABD-nin, AB-nin, Rusiyanın, Çinin mənafelərinə uyğun deyil.

Bu gün Batı Türkiyənin arxasında görünür. Doğrusunda isə qarşısındadır. Ancaq özünü qarşısında göstərmir, çünkü dünyanı öz ağalığı altına almağı tarixin heç bir dönəmində gizlətməyən Rusiyanı ancaq Türkiyə ilə zəiflətmək olar. Nə yazıqlar, Türkiyənin Rusiyanı zəiflətmək gedişindən Türk Dünyası deyil, daha çox Batı yararlanır. Çünkü indiki Türkiyə hakimiyyətinin yürütdüyü siyasət türk birliyini gecikdirən siyasətdir. Üzdən baxanda elə görünə bilər, AKP hakimiyyəti müsəlmanlıq

çadrasına bürünməklə ərəblərdən gözlənilə bilən əngəllərin qarşısını alır. Doğrusunda isə türk birliyini gecikdirib sürəcləri on illər dala atır. Tarix boyu heç vaxt ərəblə türkün birliyi baş tutmayıb. Bundan sonra baş tutması isə İslam kosmopolitizminin aradan qalxması ilə ola bilər. Bu isə yaxın onillərdə gözlənilmir. Bunu bildiyi üçün, Batı, Türkiyə-Ərəb yaxınlaşmasına əngəl olmur. Tərsinə, bu yalançı yaxınlaşmanı sözdə dəstəkləyir də. Ancaq Batı Türk Dünyasının siyasal yaxınlaşmasını hər cür yollarla əngəlləyir. Bu açıdan yanaşanda Batının Azərbaycana yanaşması da çox açıq görünən əngəlləmə faktıdır. İyirmi ildən çoxdur "Minsk Qrupu" yaranıb, Azərbaycan torpaqlarının qaytarılmasına aman vermir. Azərbaycan torpaqlarının əldən getməsi ilə başlanan sorunu "mübahisəli məsələ" sayır. Yaxşı, Qarabağda bir neçə min sayı olan erməniyə görə Azərbaycan torpaqlarını "mübahisəli zona" adlandıran ATƏT, Suriyada vətəndaş savaşından yana Türkiyə torpaqlarına keçən ərəblər üçün Türkiyənidəmi "mübahisəli zona" adlandıracaqdır?! Necə olur, Batının beynəlxalq qurumlarından biri olan BMT "ərazi bütünlüyü toxunulmazdır" deyir, o biri qurumu ATƏT isə ərazi bütünlüyümüzü "mübahisəli zona" adlandırır?! Görünən odur, Batı ilə Rusiya nə qədər çəkişsə də, Türkiyənin parçalanmasını, Azərbaycanın isə parçalanmış qalmasını, daha doğrusu, parçalana-parçalana dağılaraq dövlət kimi varlığına son qoyulmasını hər ikisi eyni dərəcədə istəyir. Sadəcə hər biri bu "qənimətlər" üzərində daha çox haqqa, paya yetmək üstündə bir-birini basqı altına almağa çalışırlar.

Biz bütün yazılarımızda vurğulamışıq, Batı Rusiyanın parçalanmasını deyil, zəifləməsini istəyir. Çünkü Rusiyanın parçalanması bağımsız türk dövlətlərinin çoxalması deməkdir, bununla dünyanın yönətimi türkün əlinə keçə bilər. Yoxsa Batı blokadaya almaqla Rusiyanı çoxdan parçalamışdı. Geneldə Batı təkcə Rusiyaya qarşı deyil, bütün imperiyalara qarşı ehtiyatlı davranır. Çünkü hansı imperiyanı parçalasa, içindən qalib türk çıxacaq. Məsələn, Rusiya parçalansa, içindən Başqırdıstan, Saxa-Yakutiya, Tatarıstan, Kalmıkiya, Altay b. bağımsızlıq əldə

edəcək. Çin parçalansa, Doğu Türküstan, İran parçalansa, Güney Azərbaycan türk gücünü, qüdrətini artıran subyektlər olacaqdır. Baxın, İrana tətbiq edilən sanksiyalar qısa zaman kəsiyində ortadan qaldırıldı. Sanksiyanı ona görə tətbiq eləmişdilər, İran Batı qarşısında bağımsız söz yiyəsinə çevrilməsin. Ancaq gördülər, bölgədə Türkiyənin olanaqları gözlənildiyindən daha çox genişlənir. Ona görə də İranı Türkiyənin yoluna çıxardılar. Eyni halda, bölgədə türk etkisinin böyüməsi ilə Güney Azərbaycan bağımsızlıq uğrunda aktiv savaşa həvəslənəcəkdir. Bütün bunları gözə alıb hər nə olur-olsun, türk toplumlarının gəlişməsinin qarşısını kəsməyə çalışırlar.

Rusiya imperiya kimi formalaşıb. O, heç vaxt milli dövlət olmayıb. Milli dövlət olması üçün siyasal ortam da yoxdur. Çünkü hakim olduğu bütün torpaqlar türk toplumlarına özgündür. Ona görə məcburdur, öz imperiyasını qoruyub saxlasın. Bunun üçün dünya üzərində (ən başlıcası Türk Dünyası üzərində) özünə ağalıq olanağı yaradır.

Öncələr Rusiya (SSRİ) özünün parçalanmasının qarşısını Doğu Avropada kəsmişdi. Bu gün isə parçalanmasının qarşısını Qafqazda kəsməyə çalışır. Bunun üçün Gürcüstanı üç yandan parçalayıb, Azərbaycan torpaqlarını isə aşama-aşama erməniləşdirib içində oturur. Bununla Türkiyənin Türk Dünyasına çıxışının qabağını kəsir, ən başlıcası, Güney Azərbaycanla Quzey Azərbaycanın birləşmə olanaqlarının qarşısını alır.

Biz öncələr də yazmışdıq, Türk Dünyasının birliyinin qırıldığı nöqtə Güney Azərbaycandır. Ona görə bütün Türk Dünyasının baxışı Güney Azərbaycana yönəlməlidir.

Bir çağlar, tarixə hökm edən türk imperiyaları, qarşılarında alternativ güc görmədikləri üçün bir-biri ilə döyüşürdü (bu da tarixin türk gücü üzərində ironiyası idi), indi onlar basqılarına uğradıqları güclərə qarşı birləşməlidirlər. Söz yox, bu birliyi imperiya kimi düşünmək doğru deyil, biz imperiyaçılığın yanlısı deyilik. Bəşəriyyət imperiyaların yaratdıqları bəlalardan rahat nəfəs ala bilmir. Ancaq özünüqoruma sistemini bərpa eləmək üçün türk birliyinə böyük gərəklik var. Bunun üçün ba-

ğımsız türk dövlətlərində Milli Yönətim formalaşmalıdır. Bu baxımdan nə Türkiyə hakimiyyətinin, nə də Azərbaycan hakimiyyətinin tutduqları siyasal yön türk birliyinin tələblərinə uyğun deyil. Biz hələ ki bu iki türk dövlətinin adını çəkirik, çünkü bu gün, başlıca olaraq, basqı altında qalan bunlardır, birliyin qarşısını da bunları sıradan çıxarmaqla alırlar. Bu iki dövlətin hakimiyyətində olanlar da türk birliyinə əngəl olan güclərin istəklərinə uyğun qüvvələrdir. Baxın, Türkiyənin dövlət başçısı Ərdoğan, bu gün türkçülüyü sıradan çıxarıb, bu millətə qarşı açıq çıxış edir. Deyir babamdan soruşdum, biz türkükmü, lazıqmı? Dedi, əlhəmdülillah, müslümanıq. Kimin dəyirmanına su tökməkdir bu?!

SSRİ imperiyası qurulandan sonra Stalinin yürütdüyü siyasətin başlıca hədəflərindən biri türk kimliyini ortadan qaldırmaq idi. Ona yetdi də. O boyda Türküstanı boylara, qollara parçalayıb birinə Qazaxıstan, birinə Özbəkistan, Türkmənistan, Qırğızıstan dedi. Bizi də, millət kimi, türklükdən ayırıb azərbaycanlaşdırdı. Bu gün də çoxları özünə azərbaycanlı, ya da müsəlman deyir. Milli kimliyimiz olan türklüyümüzü bərpa eləyə bilmirik. Bağımsızlıq əldə eləyəndən sonra da, H.Əliyevin siyasəti ilə, biz yenə rəsmi şəkildə azərbaycanlaşdırıldıq. Paralel olaraq, Türkiyədə də Ərdoğan, Atatürkün qurduqlarının üstündən xətt çəkməklə, milli şüuru pozub türk kimliyini sıradan çıxarmaq işinə girişdi. Yaxşı, bu gedişlə şüurlarda türk birliyi nə demək olacaq?!

Çağdaş Azərbaycanda da talançı bir hakimiyyətin əlində yesir olmuşuq. Şəhidlər verdiyimiz Qarabağda istəklərimiz yenə də dalana dirəndi. Çeşid-çeşid planlar hazırlayırlar, hamısı da Azərbaycanın ziyanına. Müzakirə olunan planlardan bircə dənə bizim xeyrimizə olanı yoxdur. Ziyanımıza olan planların müzakirəsinə getməklə, Azərbaycan hakimiyyəti nəyə yetmək istəyir görəsən?! Beş rayonun taleyi söz qonusuna çevrilib. Tutaq, beş rayonu dış talançılardan (erməni-rus birləşməsindən) alıb iç talançılara (Azərbaycan hakimiyyətinə) verdik. Bəs Qarabağın

öz taleyi necə olacaq, biryolluq erməni-rus talançılarınamı verəcəyik?!

Çox acınacaqlıdır vətənin taleyi, belə götürəndə türk taleyinin bir görsənişidir. İçəridə xalqı birləşdirməli olan qüvvəmiz də dağınıq durumda. Elə bil böyük faciələri düşünmək istəyən yoxdur. Düşünməyən qüvvə isə döyüşkən ola bilməz. Düşüncəsizliklərdən ideoloji boşluqlar törəyir. Bu boşluqlar millətin varlığında keçilməz uçurumlar demək olur. Bunları gözə alıb, ortaya milli düşüncə sistemi, qeyrət, hünər qoymaq gərəkdir. Başını məişətinin içində itirənləri ayıldıb onlardan milli güc formalaşdırmaq çağıdır – istər Azərbaycanda olsun, istər Türkiyədə.

## Türkçülükdə umacağımız, gözləntilərimiz, üzləşdiyimiz

Son çağlar türkçülüklə ilgilənənlər, eləcə də türkçülüklə uğraşanlar türkün minillik tarixini araşdırıb bir-birindən fərqli sonuclar ortaya qoyurlar. Bu sonuclarda öyünməli çalarlar da var, hayıfsılandırıcı çalarlar da. Ancaq nə olursa-olsun, keçmiş keçmişdir, geridə qaldı. İndi öyünməli olayları da, enişə nədən olan olayları da öyrənmək, düşünmək, örnək götürmək çağıdır. Son minillik tarixdə türklüyün istər yüksəliş, istər eniş nədənləri doğru düşünülsə, ciddi uğurlara yetilə bilər. Araşdırdıqda görürük, türkün yüksəlişini ən çox fiziki olanaqları yetirib – hünər, döyüşkənlik, qorxmazlıq kimi keyfiyyətləri türkə üstünlüklər qazandırıb. Enişləri isə, başlıca olaraq, diplomatiyada uduzmalarına bağlı olub. Türkdə ulusal ruh güclüdür. Ancaq türk dövlətləri diplomatiyada uduzanda yabançı ideolojiliklər toplumun yaşamına girir, ulusal ruhu gücdən salır. Sonucda dövlətin yönətim sistemi ulusallığa deyil, yabançılığa hesablanır. Belə olduqda isə içəridə kəskin ayrılıqlar başlayır, toplumla dövlət bir-birinə yad yaşamalı, çalışmalı olur. Bu, aparıcı dünya güclərinin hazırladığı bir siyasətdir – dövlətin öz içinə başının qarışması, başqa sözlə, hakimiyyətin toplumdan qorunması çaba-

ları. Adını demokratiya qoyublar. Ancaq bu demokratiyanın ərəbləri nə günə qoyduğunu son çağlar hər birimiz izləmişik. İndi də bu dalğa daha amansız şəkildə türklüyün üzərinə yeriyir. Birinci aşamada başlıca yön türkün hər yerdə özgələşməyə (assimilyasiyaya) uğradılmasıdır. Özgələşdirmə alınmayan bölgələrdə türkün soyqırıma yuvarladılması baş verir. Buna örnək çağımızda da yetərincədir. Baxın, Colan təpələri adlanan bölgədə, Kərkükdə, Mosulda, Güney Azərbaycanda, Doğu Türküstanda soyqırım olayları baş verir. Dünyanın aparıcı güclərindən bircə yol səs çıxmır. Əzənlər haqlı çıxarılır, qorunur. Bu dediyimizə də tarixi, eləcə də, çağdaş örnəklər çoxdur: minlərlə insanlarımızın qanı tökülüb erməniyə dövlət quruldu; minlərlə insanlarımızın qanı tökülüb yurdumuzun böyük kəsimi fars hakimiyyətinin zülmü altına alındı (türk hökmdarlığına son qoyuldu); minlərlə insanlarımızın qanı tökülüb kürd dövləti qurulur; minlərlə insanlarımızın qanı tökülüb Doğu Türküstan biryolluq çinləşdirilir b.k. Bütün bunları görən, anlayan türk soyları, doğal olaraq, özümləşməyə meyil edir, yəni türklük faktoru şüurlarda ayağa durur. Bu gün bu gedişdən istər Batı, Avropa, istər Rusiya rahatsız olmaqdadır. Buna görədir, ABD-Avropa Azərbaycana Güney Qafqaz faktoru kimi yanaşır, şüurlarda da bu faktorun qabarmasına çalışırlar. İstənilən də budur: Azərbaycanın özü də bu təyinatdan qırağa çıxmağa çalışmasın, özünün, Güney Qafqaz faktorundan daha böyük olay olduğunu anlamasın. Bir sözlə, Azərbaycanda türk toplumunun düşüncəsi bütövləşməyə, böyüməyə yönəlib gəlişməsin. Sabah özü bir gücə çevrilib "gözdən uzaqlaşmasın" (nəzarətdən çıxmasın).

Bütün bunlara baxmayaraq, Batı dünyası Azərbaycanı bütövlükdə Qafqaz faktoru kimi sunmaq istəyindən də uzaqdır. Bu məsələdə üstünlüyün Rusiyaya keçməsi də istənilən deyil. Çünkü bugünkü Azərbaycanın, Qafqazın güclü faktoruna çevrilən, Rusiyaya tən tutulması ağılalan məsələ deyil. Ancaq Güney Qafqaz faktoru kimi sunulanda Azərbaycan istər-istəməz Gürcüstanla, Ermənistanla eyniləşdirlir. Bununla da Azərbay-

canın böyük türk faktoru olmasının (Türk Dünyasının bir parçası kimi) dərk olunması əngəllənir.

Bütün bunlara dayanıb demək olar, Azərbaycanın Rusiyanın yanında yer almasından Batının hansısa ciddi əndişə keçirməsi inandırıcı deyil. Sadəcə üzdə elə görsəniş yaradıla bilər. Çünkü Batının iqtisadi, ideoloji, siyasi kökləri Azərbaycanda bu gün yetərincə dərinə boy atıb. Yəni Batı Rusiya ilə Azərbaycan uğrunda çəkişmədə (rəqabətdə) uduzmaqdan qorxmur. Ancaq böyük anlamda (insanlarımızın şüurunda) türkçülüklə çəkişmədə uduzmaqdan qorxur. Batı dünyası Azərbaycanın türk faktoruna doğru meyil etməsinin qarşısını almaq üçün, Rusiya ilə də anlaşmaya gedə bilər.

Bu gün sosial şəbəkələrdə türkçülüyə meyilin çoxalması çoxlarını rahatsız edir. Ancaq diləyimiz odur, türkçülüyün arxası boş qalmasın. Bizi hər yerdə, türk toplumları olaraq, ideoloji boşluqlar hədələyir. Ortada görünən də odur, türkçülük aydın bir plana, bəlli bir sistemə bağlı yürüdülmür. Bir yanda islam dini, o biri yanda Batı demokratiyası düzgün araşdırılıb dərk olunmadığından ulusal kimliyə yamaq edilir, sonucda düşüncə ayrılıqları, nizamsızlıq, yetkinsizlik ulusal savaş üçün gücsüz, gələcəksiz ortam yaradır. Türklük kimliyinin nəyə dayanaraq ayağa durması, oturuşması olduqca önəmlidir. Dayanılacaq nəsnə ulusal gücmü deməkdir, yoxsa sonradan yenə yabançılığa açılan qapımı?! Burada bizim, Mütləqə İnam Ocağı olaraq, önərilərimiz aşağıdakı kimidir: ulusal-ruhsal baxış sistemimizi öyrənərək, ulusal ideolojiliyi qatqısız oturuşdurmaq, yəni üzərimizdə ərəbçilik, farsçılıq basqısı yaradan dini, eləcə də vətəndaş qarşıdurması hazırlayan Batı demokratiyasını rədd etmək gərəkdir. Bu dönəmdə bunu düşünmək olduqca önəmlidir. Hər bir böyük yanlışlıqlar bizi, ulus olaraq, onilliklər dala atır, sonucda özgürlüyümüzü, bağımsızlığımızı itiririk...

## Türkiyəmiz çöküşə doğru

Sovetlər dağılan çağlarda ilginc bir eyforiya vardı. Hər kəs düşünürdü, 21-ci yüzil türk yüzili olacaq. Çünkü Sovet quruluşu türk birliyinin qarşısını alan güc faktı idi. Üstəlik Türkiyəyə qarşı düşmən mövqedə idi. Dost ola bilməzdi, çünkü bu dostluq SSRİ-nin dağılmasını sürətləndirə bilərdi. Ona görə basqı altında saxladığı türk respublikaları ilə Türkiyənin hər hansı biçimdə ilişkilərinin olmasına yol verməməyin təkcə yolu da dostluqdan uzaq durması idi. Elə buna görə də Türkiyə Batı dünyasının yanında yer almağa məcbur idi. Ya belə olmalı idi, ya da Türkiyənin özü SSRİ-nin etkisi altına düşəcəkdi. Eyni halda, Türkiyənin SSRİ-yə qarşı güclənməsi Batıya gərək idi. Ancaq Atatürkün də sonərki vardı: "Gec-tez Sovetlər dağılacaq, türk respublikaları bağımsızlıq əldə edəcək. Bu zaman Türkiyə onlara yiyə durmağa, onlarla birləşməyə hazır olmalıdır". Onillərlə sovetlərin dağılmasını hazırlayan Batı, eyni zamanda, sovetlərin dağılması ilə, yaranacaq türk birliyinin qarşısını almaq planları da hazırlayırdı.

Sovetlər dağıldı, türk respublikaları bağımsızlıq əldə edib demokratik quruluşa inteqrasiya etməyə başladılar. Bu zaman, onillərlə dünyəvi dövlət prinsipləri üzərində oturuşmuş, Türkiyə Respublikasının başına islamçı-xilafətçi Ərdoğan gətirildi. Ərdoğanın siyasal kursu türk birliyinə doğru deyil, müsəlman ümmətçiliyinə doğru yönəldi. Üzdə türk dövlətləri ilə əməkdaşlıq, qardaşlıq görsənişi yaratdı. Konkret addımlar da atıldı. Ancaq yenə də bu addımlar görsəniş olmaqdan uzağa getmədi. Çünkü türk toplumlarının ideoloji-siyasi bağlılığı baş tutmadı. Nədən, çünkü belə bir bağlaşma üçün heç çalışılmadı da. Türkiyənin çevik bir yeyinliklə ərəbləşməsi, türkləşmə-millətləşmə sürəcinin qarşısını aldı. Ərdoğan "Ortadoğu projesinin eş başkanlığı" görəvini "uğurla" yerinə yetirdi. Bu sürəc təkcə türk birliyinin qarşısını almadı, Türkiyənin özündə vətəndaş-soydaş qarşıdurması hazırladı. İndi bu qarşıdurma getdikcə böyüməkdədir. Bəlli "Ergenekon əməliyyatı" hər kəsin yadındadır. Öncə

Atatürkçü qüvvəni parçalayıb məhv etdi. Yüksək çinli, ehtiyatda olan, eləcə də, görəv başında olan ordu başbilənlərini şərləyib zindanlara doldurdu. Bununla da onları toplumun böyük kəsiminin gözündən saldı. Sonralar onlara özgürlük verməklə Fətullah Güləni gözdən saldı. Guya ordu başbilənlərini hakimiyyətdə olan Gülənçi çete zindanlara saldırmışdı. Ərdoğan isə zaman-zaman Gülənçiləri zərərsizləşdirib onları zindanlardan çıxarmağı bacardı. Bu "zindandançıxarma" əməli gec idi, Ərdoğan orduya vurduğu zərbəni artıq vurmuşdu. Özünü isə həm o, həm bu halda toplumun gözündə qurtuluşçu kimi göstərə bilmişdi. Bu kimi oyunlarına görə (biz hamının bildiyi bütün oyunları burada sadalamaq istəmirik) Ərdoğanı bircə yol dünya gücləri qınamadı. Çünkü onun bu rolu oynaması həmin güclərə gərəkdir.

Deyirlər Avropa-Batı birliyi islam dininə qarşıdır. Bu biranlamlı olaraq yalandır. Avropa-Batı islamın ayaqda qalmasının yanlısıdır. Onlar bilirlər, islam istənilən toplumu cahilləşdirir, onu qaragüruha çevirir. Cəhalətin, geriliyin üzərində isə ağalıq eləmək asan olur. 23 ərəb dövlətinin hamısı bu gün Batının buyruğunda hərəkət edir. Bu, deyilənə çox ciddi bir örnəkdir.

Atatürk İslam dinini dövlətdən ayırdığı gündən Türkiyə güclənib ordu dövlətinə çevrilmişdi. İntellektual səviyyəsinə görə də öncül Avropa dövlətləri ilə bir cərgədə dayanırdı. Bəs qara çadraya bürünən Türkiyə hara qayıdır?! - Çağdaş düşüncədən yüzil dala qalan ərəb dövlətlərinin cərgəsinə.

Ərdoğan özünü, partiyadaşlarını inandırıb, o, Osmanlı sınırlarını bərpa edəcək. Onun bu istəklərinə doğru yürüməsinə dünya güclərinin göz yumması həvəsini daha da artırır. Halbuki dünya güclərinin göz yummasının nədəni tamam ayrıdır, bu çox qorxulu bir məkrə dayanır. Ərdoğanın Atatürkçü quruluşu, Atatürkçü düşüncə sistemini, tam olaraq, sıradan çıxarması başa çatmalıdır. Çünkü Batının Atatürkçü quruluşa, özəllikcə ordu dövlətinə batması olumsuz idi. Ancaq gələcəkdə Ərdoğançı ərəb-islam bayraqlı Türkiyəni yerində oturtmaq Batı üçün çətin

olmayacaq. Buna görə Ərdoğanın şıltaqları Batının xeyrinə işləyən antitürkiyə aktyorluğundan başqa bir anlam daşımır.

Ərdoğanın Bəşər Əsədə qarşı davranışı nə üçündür?! – Bəllidir, Osmanlının bir sınırı Suriyanı qapsayırdı. Suriyaya doğru sınırları yenidən uzatmaq üçün Bəşər Əsəd əngəli ortadan qalxmalı, Rusiya siyasal etkisini buradan geri çəkməlidir. (B.Əsəd Rusiyaya gərəkli kadrdır).

Bəs Ərdoğanın Suriyada Rusiya ilə çəkişməsi Türkiyəninmi xeyrinə idi? – Yox. Söz yox, Batının xeyrinədir. Ərdoğanın əli ilə Rusiyanın etkisini Suriyadan dışlamaq Batının Ortadoğu planının bir parçasıdır. Bəs Ərdoğan Suriyalıları B.Əsədə qarşı necə qoya bilər, özünə necə inandıra bilərdi? - Türkiyəni islam çadrasına bürüməklə.

Ərdoğan Türkiyənin içində PKK ilə niyə savaşa başladı, axı onun PKK yandaşları ilə ciddi ilişkiləri vardı, Türkiyənin gələcəyi üçünmü? - Yenə də yox. PKK-nın Türkiyəni bölmək çabaları Ərdoğanın xilafətçilik istəklərinə ciddi əngəl yaradır. Bəs PKK-nın arxasında duran güclər (onu qorumaq üçün) niyə aktiv hərəkətə keçmir? Çünkü Ərdoğanın orduda, toplumda türklüyü sarsıtma işini başa çatdırması gərəkdir. Belədə PKK-nı qorumaq dünya gücləri üçün Türkiyəni çökdürmək məqsədi daşımırmı?! Əgər bu işi Ərdoğan həyata keçirirsə, deməli, hələlik bu gedişi dəstəkləmək gərəkdir. Türkiyə tam sarsıdıldıqdan sonra Kürdüstan yaratmaq niyyəti daha asan baş tutmayacaqmı?!

Düşünürük, son "çevriliş" oyunları da bu gedişlərin bir parçasıdır. Ordunun içinə yerləşdirilmiş bir çetenin oyununu öncədən bilən Ərdoğan Ordunu gözdən salıb islah etmək, yenə ordudakı respublikaçıları tam sıradan çıxarmaq gedişləri hazırlayaraq, məqsədini uğurla həyata keçirdi. İndi, zaman-zaman ordunun içinə yerləşdirilmiş, bir çetenin çevriliş oyununu, düşüncələrdə, bütün orduya özgün etməyə çalışırlar. Artıq orduya, eləcə də respublikanın nüfuzuna vurulan zərbə göz önündədir.

Ərdoğan haqqında ciddi faktların ortaya çıxarıldığı, dönüklüyün üstünün açılmağa başladığı bir zamanda birdən-birə ba-

xışlar başqa səmtə yönəldildi. Yenə bu məsələdə də toplum iki cəbhəyə bölündü – istər Türkiyədə olsun, istər Azərbaycanda. Sosial şəbəkələrdə sinirlər tarıma çəkilib, gərginlik səngimir. Ərdoğanı savunanlarla ona qarşı olanlar arasında artıq patoloji nifrət qarşısıalınmaz çalara yönəlir. Bu nifrətlərin səngiməsi çox zaman tələb edəcək. Bunun bu həddə çatmasının sorumluluğu da birbaşa Ərdoğanın üzərindədir.

Biz burada bəlli düşüncələri təkrar etməyəcəyik. İstər basın yayını sistemində, istər sosial şəbəkələrdə yetərincə aydın mövqelər sərgilənib (biz də mövqeyimizi bildirmişik). İndi görünən dağa bələdçilik eləmək, söz yox, yerinə düşməz. Ancaq fakt odur, Türkiyədə türklük yapısı əngəlsiz olaraq çökdürülməkdədir. Türkiyədə siyasal müxalifət də heçə çevrilməkdədir. Heç bir gedişə etki göstərə bilmir.

Daha qorxulu məsələlərdən biri də odur, Ərdoğan üç milyon suriyalıya vətəndaşlıq vermək istəyir. Bunun adını müsəlman qardaşlığı, yandaşlığı qoyur. Ancaq bu məsələdə də o, içdənlikli deyil. Sadəcə türk xarakterinə güvənmir. Hələ ki, türkün inanc duyğularından yararlanıb onları özünə inandıra bilir. Ancaq günlərin bir günü Türkiyənin çöküşü açıq müstəviyə keçib aydın görünən zaman türklər ayıla bilər. O zaman ordu da ayağa qalxa bilər. Onda Ərdoğan özünü qorumaq üçün türk insanlarını küçələrə çağıra bilməyəcək, hər cür üstün ortam yaratdığı 3 milyon suriyalı ərəbləri çağıracaq. O da var, suriyalılar da 3 milyon sayda qalmayacaqlar.

Bax belə, Türkiyəmiz ölüm qarşısındadır. Ancaq nədənsə içimdə bir arxayınlıq duyğusu var – yaxın illərin birində Türkiyə ordusu təpərlənib ayağa qalxacaq, Ərdoğana dur deyəcək. O zaman Atatürkün Respublika bayrağı da türk birliyinin qovşağında dalğalanacaq. Mən də türksevər, vətənsevər oxucularla elə bu inamla sağollaşıb ayrılmaq istəyirəm.

## Baş örtüsü siyasət oyunu olmamalıdır

Bu gün qadınlarda baş örtüsünü (hicabı) kor bir təbliğatla (bunun gizlin adı zordur) qanuna mindirirlər. Daha doğrusu, Türkiyədə bu sürəci yeyinlədirlər. Bu məsələyə yanaşmalarda, istər Azərbaycanda, istər Türkiyədə, düşüncə ayrılıqları əmələ gəlir, qovğalara nədən olur. Başlıca da sosial şəbəkələrdə çəkişmələr baş alıb gedir. Bir kəsim bunun doğru olduğunu inadla savunur, başqa bir kəsim isə inadla rədd edir. Öncə onu deyim, biz də rədd edənlərin yanlısıyıq. Çünkü baş örtüsü kimi üzdə olan gələnəklər mənəviyyata heç bir müsbət etki göstərmir. (Söz yox, dinçilərin tələb elədiyi biçimi deyirik, türk qadınının özünəxas gözəl şal örtükləri olub. Bu zaman o, şalı burmalayıb saçını gizləməyib, yəni bunu o, mömünlük göstərgəsinə çevirməyib). İndi siyasətə gərək olan baş örtüsü qadın ləyaqəti üzərində həyata keçirilən dəllallıqdan başqa bir şey deyil. Türkiyə siyasətinin başında duranlar milli yapını (şüuru) sıxışdırmaqla yönətimi asanlaşdırmağa çalışırlar. Bununla da, özlərinin yalançı böyüklük ehtiraslarına yol açırlar. Tarixə düşmək hərisliyi Türkiyə hakimiyyətini mənəmlik xəstəliyinə uğradıb. Atatürk Türkiyəsinin tarixində özlərinin yerlərini görmədikləri üçün başqalarının qucağında özlərinə böyüklük axtarırlar. Ona görə böyük bir millətin əxlaq ölçüləri ilə oyun oynayırlar. Bu oyunlara aldanan qadınlarımız düşünməlidirlər, bu, əxlaq yolu deyil. Bu üsulla nə Allahı dərk etmək olar, nə də İnsanlığı yaşatmaq.

Ərdoğan özünün "ümmətçilik quruculuğu" ilə Səid Kürsinin Nurçuluq təriqətini Türkiyə insanının yapısına hakim etməyə or-tam yaradır...

## Ərdoğandan Azərbaycana xeyir gəlməz

Siyasal qarışıqlıq (xaos), ikiüzlülüyün oyunları, qaraya ağ, ağa qara deməkdən çəkinməyənlərin eybəcərliyi elə bir iyrənclik yaradır, hər şey gözdən düşür. Xalqın mənəviyyat ölçüləri, dövlətin millilik prinsipləri elə kökə salınıb, heç bir etkisi qalmayıb. Kim necə gəldi danışır, necə gəldi davranır. Qabağa çıxan hər kəs dövlətçiliyin gələcəyi, millətin ləyaqəti üzərində alver edir. Hakimiyyət ölkəni dağıdır, talayır, xalqı ayaqlayır, alçaldır, onunla alverə girənlər isə xalqın güvəncini, ümidini hakimiyyətin ayaqları altına sərir. Bütün bunlar göründükcə xalq onun adından danışıb sonra da hakimiyyətə satılanlardan ayrılıb üz döndərir. Hakimiyyət də artıq xalqın üz döndərdikləri ilə alverə getmir, öz bildiyini edir. Bilir, boşuna çığır-bağır salanların xalqa heç bir etkisi yoxdur. Biz bunları illər öncədən yazırıq, deyirik, bu gün gəldiyimiz sonuc deyil. Azərbaycandakı siyasi təşkilatlar Batının ayaqları altına papaq atanda biz yazırdıq, "siyasi təşkilatlarımız Batı ilə birləşir, xalqla yox. Ona görə xalq onların arxasında durmayacaq. Batı isə siyasi təşkilatlarımızı öz çıxarlarına uyğun qullanır. Ancaq arxasında xalq olmayan təşkilatları qullanmaq da bir zaman özünü doğrultmayacaq. Sonucda Batı hakimiyyətimizlə araçsız olaraq alverə gedəcək”. Söz yox, bizim kimi siyasətçi olmayanların dediklərinə, yazdıqlarına qarşı siyasal təşkilatlarımızın eqoizmini anlamaq olar, ancaq onların bu gün xalqı passivlikdə suçlamalarını, Batının Azərbaycanla bağlı istəklərinin sömürgəçilik olduğunu vurğulamalarını isə anlamaq çətindir. Axı Batının hakimiyyətimizlə birgə Azərbaycanı talamasında, onun bizə qarşı sömürgəçilik siyasəti yürütməsində siyasi təşkilatlarımızın rolu az deyil. Əgər illər öncə, biz bunları yazanda, siyasi təşkilatlarımız da bunları bilirdilərsə, nə üçün səslərini çıxarmırdılar, tərsinə, Batını Azərbaycan hakimiyyətinə qarşı çağırmaqla talançılığa ortam yaradırdılar. Yox, əgər bilmirdilərsə, bu bilməzlərin hakimiyyət uğrunda döyüşlərinin anlamı nədir? Anlamayanların, bilməyənlərin hakimiyyətə gəlməsi xalqa uğurlu nə vəd edə bi-

lər?! Bir-birindən oğurlanıb Batıya, Azərbaycan hakimiyyətinə satılanları xalq necə qəbul eləsin?! Ya da bunlar xalqdan nə istəyirlər, hansı üzlə istəyirlər?! Hakimiyyət siyasi meydanı boş görüb necə gəldi davranır. Qanunsuzluqlardan, ədalətsizliklərdən, işsizlikdən, aclıqdan ayrı-ayrı hallarda etirazlar olur, təngə gələn toplum ayağa qalxıb etiraz edir. Bütün bunlar özbaşına törəyir, yönətən bir öndər olmur. Ona görə də, asanlıqla, polisin dəyənəkləri altında yatırılır. Bu zaman siyasi təşkilatlar onlara yaxın durmurlar. Tutula bilməkdən, ölkədə qarışıqlıq (xaos) yaradıcısı adlanaraq vurulmaqdan, damğalanmaqdan qorxurlar. Çünkü dağınıqdırlar, bir-birinə qarşıdırlar, çoxlarının da hakimiyyət qarşısında gizli öhdəlikləri var. Xalqın həqiqi öndəri olmuş olsaydı, hakimiyyət onu tutuqlamaqdan qorxardı, xalq cəza evlərini dağıdardı, hakimiyyəti başından düşürərdi. Nə yazıqlar, xalqın ortada öndəri yoxdur, ayrı-ayrı qrupların öndərləri var, onlar da, dediyimiz kimi, gücsüz, etkisiz.

Biz bu dediklərimizi xalqa muştuluq kimi sunmuruq, adama deyərlər, bəs nə olsun? – Bunu da biz zaman-zaman vurğulamışıq, indiki qrupların, satılmışların, intriqaçıların içərisində gücə çevrilmək olumsuzdur. Vətənə, millətə umacaqsız sevgisi olanlar, siyasal təfəkkürlərini birləşdirib, yeni siyasal kadrlar yetişdirməklə, Milli Qüvvə formalaşdırmağa çalışmalıdırlar. Şöhrətə, varidata tamahlanmayan, özünə, tayfasına karyera qurmağı millətin şərəfindən üstün tutmayan öndərə (öndərlərə) böyük ehtiyac var. Qurtuluş onların ləyaqətinə dayana bilər.

...Xalqın heysiyyatını ayaqlamağı ört-basdır eləməyin bir üsulu da "Qarabağ"  yörəsindəki söz-söhbətləri illərlə çək-çevirə salmaqdır. Hakimiyyətimiz hər dəfə, Qarabağ məsələsində güzəştə getməməyini tutalqa edib, xalqın əzilməsini yozmağa çalışır. Onun bu əməlinə quyruq bulayan basın orqanları, özlərini müxalifətçi sayan siyasətçilər, yazarlar da az deyil. Budur, Putinin, Ərdoğanın, Əliyevin şəkillərindən birlik simgəsi düzəldib Qarabağın 5 rayonunun qaytarılması üçün sürəclərin getməsindən danışanlar ard-arda düzülüb. Sanki dünyanın siyasal düzəni dəyişir, Ərdoğanla Putin sükanı ələ keçirib planeti

başqa səmtə sürürlər. Doğrudan da, söz meydanını siyasi möhtəkirlərin, ikiüzlü basın alverçilərinin qapsaması olduqca acınacaqlıdır. Simasızların qurduğu təbliğata baxın: "Öncə Rusiya-Azərbaycan-Türkiyə birliyi yaranacaq. Sonra İran bu birliyə qoşulacaq... Ermənistan təklənir, bundan əndişə keçirib ABD-yə üz tutur. Ancaq Sərkisyana qandırırlar, Qarabağ konflikti bir yerə qədər çözülsə, Türkiyə sınırları açacaq, Ermənistan iqtisadi cəhətdən gəlişəcək, regional layihələrə qoşulacaq. Putin də Sərkisyanla görüşündə deyib, konflikt həm Azərbaycanın, həm də Ermənistanın xeyrinə çözüləcək...

Özlərini müxalif sayan yozumçuların toplumumuzu bu cür yalanlarla aldatmaları, bizə görə, gələn ay keçiriləcək referendumu sakit qarşılamağa, hakimiyyəti bərkitməyə hesablanıb. Öncə onu deyək, 5 rayonun qaytarılması nağıldır, qaytarılsa belə, nağıldır. 25 ildir Qarabağ üzərində Batı ilə Rusiya alver edirdi, indi isə Ərdoğanla Putin alver eləmək istəyir. Axı Batı bu alverdən qıraqda deyil, olmayacaq da. 5 rayon qaytarılsa belə, Azərbaycanın xeyrinə olmayacaq. Nədən, bundan sonra uzun illər susmaq tələb olunacaq. Sonrakı aşamada daha böyük qurbanlar istəniləcək, bəlkə də Dağlıq Qarabağ biryolluq erməniləşəcək.

Nə Putindən, nə də Ərdoğandan Azərbaycana xeyir gəlməz. Ermənistanın əndişə keçirməsindən danışmaq isə boş sözdür. Ermənistan toplumu əndişə keçirə bilər, ancaq Rusiya onu heç vaxt türkün ayağına verməz. Məgər Rusiya Qarabağı erməni üçün işğal eləmişdi, onu erməninin əlindən alıb Azərbaycana qaytarsın?! Məgər Rusiya Qarabağ konfliktini çözər, Türkiyə ilə Azərbaycan güclənsin, sonra da Türk Dünyasının birliyi qarşısında özü yenilsin?! Ermənininin məkrli, tamahkar, işğalçı olduğunu Rusiya hamıdan yaxşı bilir. Qriboyedovun çara məktubu hər kəsə bəllidir. Ona görə onu öz içinə buraxmır, türkün içinə buraxıb onu özünün siyasal varlığı üçün qoruyur. Bu gün də, yarın da Ermənistan, türk birliyinin yaranmasının qarşısını almaq üçün, Rusiyanın başlıca yarağıdır. Ermənistan Türkiyənin, Azərbaycanın qarşısını kəsməsəydi, Sovetlər dağılandan

sonra Rusiyanın içindəki türk subyektləri bağımsızlıq uğrunda ayağa durub birləşərdilər.

Bu açıdan yanaşanda türklüyə qarşı çıxan Ərdoğanın Türkiyə Respublikasının başına gətirilməsi də planauyğun baş verdi. Ərdoğanın antiAtatürk siyasəti yürütməsi, türklüyü sıradan çıxarıb mollaçılığı hakimiyyətə gətirməsi Rusiyanı parçalanmaqdan qoruyan gedişlərdir. Ərdoğan mollaçılığın yayılmasına deyil, türk birliyinə çalışsaydı, Rusiya əsarətinin kölgəsi türklərin üzərindən çəkilərdi.

Bu gün Putin ermənini qorumaqla, türklüyü parçalanmış durumda saxlamaqla Pyotrun sonərklərini (vəsiyyətlərini) gerçəkləşdirməkdədir. Ərdoğan isə özünün mollaçılıq siyasəti ilə Atatürkün sonərkini ("Vaxt gələcək Sovetlər dağılacaq. O zaman Türkiyə Respublikası Sovetlərin əsarətində olan türklərin bağımsızlığına yardımçı olmalı, onlara yiyə çıxmalıdır") aradan qaldırmaqdadır.

İndi soru sorulur: Türkiyədə türklüyü ərəb cəhalətinin – mollaçılığın ayağına verən, Atatürkün Respublikaçılıq sistemini dağıdan Ərdoğandan Azərbaycan hakimiyyəti, eləcə də siyasətdəki ayrı-ayrı kimsələr, yazarlar Azərbaycanın xeyrinə nə umurlar görəsən?! Axı Türkiyəni çökdürən biri Azərbaycana hansı xeyiri verə bilər?!

Azərbaycan hakimiyyətini anlamaq olar – onun üçün türk kimliyinin, türk dövlətçiliyinin önəmi yoxdur, olsaydı, bu xalqı qanunsuzluq, ədalətsizlik girdabında çabalatmazdı. Bəs o birilər Ərdoğandan nə umurlar, – sorunun önəmli cəhəti də budur. Lütfən, heç kim deməsin, Ərdoğan Qarabağa görə Ermənistanla sınırları açmadı. Bu məsələyə geniş toxunmayıb qısaca desək, sınır məsələsi təkcə Azərbaycan üçün deyil, onun öz hakimiyyəti üçün də bir qarantiyadır. İkincisi, dünyada Türkiyəyə qarşı qondarma soyqırım oyunu aparıldığı halda, sınırların açılmasından söz gedə bilməzdi.

Demək istədiklərimiz odur, Ərdoğanın özü üçün, eləcə də buyruğunda durduğu qüvvələr üçün yerinə yetirdiyi oyunlar türklüyü, türk dövlətçiliyini sevənlərin, düşünənlərin ağlını oy-

natmamalıdır. Bu adamı hakimiyyətə gətirənlər də yaxşı bilirdilər, istər Türkiyədə, istər Azərbaycanda, eləcə də, başqa türk bölgələrində türklərin baxışları parçalanacaq – Respublikaçılığın dayağı olan Atatürkə bağlı olanlarla mollabaşı Ərdoğanın ətəyindən tutanlar arasında qarşıdurmalar yaranacaq. Sonucda, türklüyü yüzillərlə yıxan "şiə-sünnü" oyununa yeni adda bir oyun əlavə ediləcək. Türklər ayılmalı, belə faciəyə yol verməməlidirlər. Ərdoğanı Atatürk səviyyəsinə qaldırıb Türkiyədə (bütün Türk Dünyasında) vətəndaş-soydaş qarşıdurması yaradanların diləklərini gözlərində qoymaq gərəkdir.

## Türkiyə Türkçülüyə qayıtmalıdır

Bu gün dünya siyasətçilərinin də, yazarların da, sıradan adamların da baxışı Türkiyəyə yönəlib. Bu baxış – Ukraynaya, Gürcüstana, İrana, Suriyaya, İraqa, eləcə də başqalarına yönələn baxışdan çox fərqlidir. İndi araşdıra bilən də, bilməyən də, anlayan da, anlamayan da bir düşüncə səsləndirir: "axır Türkiyəni də bu oyunlara soxa bildilər". Söz yox, bu düşüncə son günlər Türkiyənin yaşadığı olaylara görə deyilir. Ancaq bilmək gərəkdir, Türkiyə çoxdan bu oyunların içərisindədir. Bu olaylar da yeni deyil. Türkiyə 80-ci illərdən bənzər olaylar yaşamaqdadır. Durumun dönməz xarakter alması isə Ərdoğan hökumətinin antitürk çalışmalarda bulunduğuna görədir. Ölkə toplumunun ulusal yapısında (milli şüurunda), türkçülüyün yerinə islamçılığı gətirməklə, Ərdoğanın Türkiyəni hansı duruma soxduğunu, hələ bundan sonra da, çox araşdırmalı olacaqlar.

Ərdoğanın siyasal manevrlərinin nəyə qulluq göstərməsini ayıq adamlar öncədən də görə bilirdilər. Ancaq çoxluq Ərdoğana – çadraya bürünən qadınların "mərifətindən" baxırdı. Hələ də baxanlar az deyil. Bu adamlar heç vaxt düşünmürlər, İslamı dövlət səviyyəsində Türkiyənin içinə qaytarmaq – onların özünü terror qurbanlarına çevirməkdir. Bu gün Türkiyənin hər yerində istər PKK-çılar, istər İŞİD-çilər İslam köynəyinin içində gizlənirlər. Bunları çağında tanıyıb islah eləmək Türkiyə dövlə-

ti üçün çox çətin olacaq. İslamı bayraq, yaraq edənlər hər yerdə dünya güclərinin əlində alətə çevrililər. Dünyanın heç yerində Avropalılardan oluşan terrorçu birliklərə rast gəlinmir. Burada biz bank yaran, birilərinə qarşı ölüm işini yerinə yetirən qruplardan deyil, dövlətlərarası siyasal çəkişmələrdə araçılıq edən birliklərdən danışırıq. Bu birliklər dünyanın hər yerində İslam bayrağının altına yığışanlardan oluşur. Çünkü İslam onlarda uzağa baxan təfəkkür yaratmır, qaraqışqırıq səviyyəsində hayqıran cilovsuz duyğular yaradır. İdrakı olmayan küt bir sürünün əlinə yaraq verib insanlığa qarşı cinayətlərə yönəldirlər. Sözdə onlara yeridirlər, öz dinlərinin qorunması, ya da öz toplumlarının bağımsızlığı, özgürlüyü uğrunda vuruşurlar. Ancaq gerçək olaraq, dünyaya ağalıq eləmək istəyənlərin buyruğunda, qulluğunda insanları qurbanlara çevirir, özləri də qurbanlığa çevrilirlər. Heç bir müsəlman ölkəsi də öz vətəndaşlarını bu cür avantüralara yuvarlanmaqdan qoruya bilmir. Atatürk öz çağında bu qorxunu yerində qiymətləndirə bilmişdi. Ona görə də dini dövlətdən ayıraraq, onun dövlətə etkisini qapıdan dışarda saxlaya bilmişdi.

Türkiyənin gələcəyi üçün din xurafatını bütünlüklə Türk insanlarının yapısından silməyin gərəkliyini dərk eləmək yerinə, yuxarıda vurğuladığımız kimi, Ərdoğan hökuməti, Atatürkün yaratdıqlarını dağıdaraq, hər işi tərsinə gördü. İndi Türkiyə toplumu bu cür baş-ayaq əməllərin acısını yaşamaqdadır. Ancaq bu acını yaşamaq təkcə Türkiyə toplumu ilə sınırlanmayacaq, bütövlükdə Türk Dünyasının yaşamında öz etkisini göstərəcəkdir.

İkinci bir çalar, dediyimiz kimi, Türkiyənin içərisindəki PKK uzantıları ilə bağlıdır. Bir yandan PKK-nı qanlı əməllər yaradıcısı kimi qiymətləndirdikləri halda, Türkiyə kimi güclü, oturuşmuş bir dövlət həmin qanlı PKK ilə bağımsız subyekt kimi davrandı. Onlara qarşı münasibətinə "demokratik açılım" adı qoyaraq, "barış masası"nda üz-üzə oturdu. Harda görünüb, terrorçu ilə barış dilində danışıb onlara çalışma ortamı yaradasan?! Ərdoğanın bu "manevrləri" ona bənzəyir, maşını dağın

başına çıxarasan, sonra ayağını əyləcdən qaldırıb üzü aşağı buraxasan. Bu avara manevrlərlə nə PKK-nı zərərsizləşdirib vətəndaşlarını qoruya bildi, nə də onu yaradıb arxasında duranları, yardım göstərənləri nişan verib ifşa edə bildi. Tərsinə, PKK-ya vaxt verdi, özünün siyasal qanadını Türkiyə dövlətinin içərilərinə daşısın. Böyük Millət Məclisinə soxulan DTP PKK-nın istəklərini ayrı-ayrı vaxtlarda dilə gətirməkdən çəkinmədi. Başı-ayağının hara getdiyini anlamayan Dəmirtaş adlı birisini, havadarları, Türkiyə üçün siyasi bəlaya çevirə biliblər.

250 illik bir planla Osmanlını çökdürən Batı dünyası Türkiyə Respublikasının yaranmasını gözləmirdi. Atatürkün ortaya çıxacağı heç bir planda yer almamışdı. Batı dövlətləri Türkiyənin içini özləri üçün bölüb, yeni planlar işə salmağa hazırlaşmışdılar. Atatürk bu planları alt-üst elədi. Ancaq Batı dünyası Türkiyəyə qarşı istəklərindən əl çəkmədi. Yeni planlar hazırlayıb işə saldı. PKK kimi qanlı bir birlik də həmin planın baş cizgisində yer aldı. İslamı da ayaqda tutdular. Ancaq yeni bir Osmanlı gücünə çevrilməsi üçün yox, ondan terror şəbəkələri yaradıb, əllərində oyuncağa çevirmək üçün. Belə götürəndə İslam bayrağı altında yeni Osmanlı gücü yaratmaq heç olası iş də deyildi. Bu gün də onun olması baş tutan iş deyil. Baxmayaraq, Ərdoğan, Türkiyə toplumunun içində gözbağlayıcılıq edərək, yeni Osmanlı xanədanlığını yaradacağını düşündü. Belədə bu cür yanlış düşüncələri ilə Ərdoğan Türk Birliyinin qabağını kəsdi. İndi Türkiyənin gələcəyi, heç kimə gurultulu səslənməsin, bütünlükdə Türk Dünyasının gələcəyi Ərdoğandan qurtulmasına bağlıdır. Başqa sözlə, İslamı Türkiyə dövlətinin içindən çıxarmaq gərəkdir. Yoxsa XXI yüzil, doğrudan da, Türkün yüzili olacaq – ancaq qalxınmasının deyil, yenilməsinin yüzili olacaq. Düşünürük, Türk Dünyasının gələcəyi siyasətdə (çox çaları ilə) Atatürk quruculuğuna, ruhaniyyatda isə Asif Atanın İnam Dünyagörüşünə bağlıdır.

## Türkün Böyük Siyasal Birliyi yeyinlənməlidir

Uzun zamanların qaynatdığı qorxulu bilgilər artıq gerçəkləşməyə dayanıb. Verilən bilgilərə görə, Orta Doğu Projesinin başlıca hədəflərindən biri olan, Kürdüstan dövlətinin yaranması ilə bağlı referendumun vaxtı bəlirlənib. Belə demək olar, bu məsələ Orta Doğu Projesinin başlıca hədəfidir. Çünkü gözə alınan bütün planların gerçəkləşməsi bu hədəfə dayanır. Ayrı-ayrı çağlarda, istər yazılı basında, istər elektron basında "Kürdüstan dövləti"nin sınırlarını göstərən xəritə dəfələrlə gündəliyə çıxarılmış, siyasal dünyanı, sanki, psixoloji yöndən bununla barışmağa çağırmışlar. Bölgəyə yaxın dövlətlərin basın yayınında, eləcə də Azərbaycan basın yayınında davamlı etirazlar da olmuşdur. Biz də, belə bir hədəfin yaxın gələcəkdə gerçkləşdirilməyə hazırlandığını, ilk yazanlardan, bunu həyata keçirmək üçün uğraşanlara etiraz edənlərdən olmuşuq. Məsələnin gərəkliyini vurğulayanlar, təbliğatını (yazılı olaraq) aparanlar da az olmamışdır. Bu layihənin həyata keçirilməsini kürd toplumunun siyasal, bir az da qabağa gedib, bəşəri haqqı kimi savunanlar, "bu toplumun da özünü siyasal yönətməyə haqqı var" deyənlər qıraqdan çox humanist görünürlər. Ancaq bu məntiqi sərgilyənlər məsələyə biryanlı yanaşırlar. Biz bunu öncələr də vurğulamışıq, kürd toplumuna dövlət qurmağı hədəfləyənlər, bu toplumun siyasal varlığını qorumaq məqsədi güdmürlər. Gedişi izləyən hər kəs bunu aydın görür. Bu dövlətin yaranması ilə ərəb toplumunu, Türkiyəni, İranı parçalayıb gücsüz duruma gətirmək – siyasal gedişi yönətən güclərin birbaşa çıxarlarına hesablanıb. Bunlardan biri də İsrail dövlətidir. Onun, sınırlarını genişləndirmək, yörələndiyi ərəb etkisini aradan qaldırmaq istəyi də bu projedə öz yerini tapmışdır. Bir sözlə, balaca bir Ermənistanın da çıxarları, bu dövlətin yaranması ilə, ödənilir. Yəni Türkiyə ilə Azərbaycanın birgə hərəkət eləməsi çox anlamda daralır. Türkiyənin güney bölgələri hədəflənən kürd dövlətinin birbaşa sınırlarına girir. İranın quzeyi (daha doğrusu, Güney Azərbaycan torpaqları) bu xəritəyə girdiyi üçün, Azərbaycan

dövlətinin siyasal sorunları, olduğundan da, çox genişlənir. Onsuz da, yeni aşamaya keçən Rusiya-Türkiyə bağlılıqları Rusiyanın xeyrinə genişlənməkdədir. Bu layihə Türkiyəni qısnadıqca (təhdid elədikcə), Rusiyanın əli Türkiyənin içinə daha çox uzanacaqdır. Biz dönə-dönə vurğulamışıq, Ərdoğanın İslam siyasəti Türkiyəni qlobal fəlakətlərə sürüməkdədir. Çağında Türk Birliyini deyil, müsəlman birliyini hədəf götürmək – dönüklüyün açıq görsənişi idi. **İndi Türk Birliyini anlamsız sayanların ayılması gərəkdir.** Müsəlman ərəb, tarix boyu türkə dönük çıxıb. Bu gün də ərəb dövlətlərinin ixtiyarı Batı güclərinin əlində ola-ola, türklə, Türkiyə ilə hansı birliyi quracaqlar, Türkiyə özünü çoxsaylı siyasal basqılardan qoruya bilsin. Ancaq sovetlərin dağıldığı 25 ildən çox zamandan bəri Türk Birliyinə çalışılsaydı, tamam başqa mənzərə yarana bilərdi. Türk dövlətləri Türkiyəyə, bir-birinə dönük çıxmazlar. Ərdoğan düşünürdü, ərəblər onun ətəyində namaz qılacaqlar, ancaq dediyimiz kimi, tarix boyu ərəblər türkün belində namaz qılıblar.

Türk dövlətləri arasında bu günkü birlik o qədər formaldı, bunlardan birini qısnayan (təhdid edən) siyasal soruna o biri nəinki qarışa bilir, hec yanaşma sərgiləyə bilmir. Məsələn, Türkiyə Ermənistanla siyasal, iqtisadi bağlaşmalara getməsə də, Qarabağ məsələsinə yönəlik heç bir siyasal etki göstərə bilmir. Rusiya Ermənistanı qoruya bilir (erməni üçün yox, özü üçün ), Türkiyə Azərbaycanı, Azərbaycan üçün yox, heç olmasa özü üçün belə, savuna bilmir. Ya da, Azərbaycan olsun, Türkiyənin içində illərdir qan-qada törədən PKK-nı terror təşkilatı kimi rəsmən tanımır. Hələ basında yayılan ayrı-ayrı bilgilərə görə, Azərbaycandan bu təşkilata maliyyə yardımları da göstərilmişdir. Bu faktları genişləndirmək, Orta Asiya türk respublikalarının qıraqda qalmalarını da vurğulamaq olar. Məsələ bəs qədər aydındır...

Di gəl Türk Birliyini formalaşdıra bilməyən ayrı-ayrı türk dövlətləri, onların özlərini oyuna çəkən güclərlə iş birliyində bulunurlar. Məsələn, Azərbaycan terrorizmə qarşı uluslararası konvensiyanın üzvüdür. Ancaq hansı terrorizmlə savaş ciddiyə

alınır ki? Terror şəbəkələrini kimlər yaradır, kimlər maliyyələşdirir? Şəbəkənin, təşkilatın terrorçu olmasını kim bəlirləyir, bu zaman hansı ölçüyə dayanılır? Necə olur, İŞİD-i Rusiya, Amerika qadağan olunmuş terror təşkilatı kimi tanıyır, ancaq PKK-nı, PYD-ni yox? Terror təşkilatının qadağan olunanı, qadağan olunmayanı nə anlam daşıyır? Bütün bu soruların cavabı bilinəndir. İmperiya quran güclər siyasal dünyanı terror təşkilatları ilə yönətirlər. Hər bir gücün qoruduğu terror təşkilatları vardır. Hər birinin gizli məntiqi də birdir – mənimkinə dəymə, o biri ilə döyüş.

Bizdə korrupsiyaya, rüşvətxorluğa qarşı döyüşən qurum var. Bu qurumun başında korrupsioner, rüşvətxor qruplar da dayanır. Yuxarı eşalonda korrupsiya, rüşvət dövlətə göz açmağa aman vermir. Aşağı təbəqələrdə isə rüşvət alanlar aradabir cəzalandırılır, sübut eləsinlər, rüşvətə qarşı döyüşürlər. Dünyanı yönətən güclərin uluslararası oyunları balaca dövlətlərin iç siyasətində özünü belə göstərir. Balaca dövlətlər terror şəbəkəsi yaradıb çölündəki durumu "yoluna qoya" bilmirlər, bunu həyata keçirən güclərə boyun əyirlər. Ancaq öz içlərində də nizamı, qanunlarla deyil, kriminal sistemin əli ilə yoluna qoyurlar. Belə götürəndə uluslararası terror başqa xalqlara qarşı yönəldiyi halda, kriminal olaylar, başqa sözlə, ölkəiçi terrorlar, onu həyata keçirənin öz xalqına qarşı yönəlir. Azərbaycanda öldürülən bir sıra siyasət, bilim adamlarının öldürənləri (qatilləri) hələ də üzə çıxarılmayıb. Terror sanki dövlət siyasəti kimi gerçəkləşdirilir.

Bəs dünyanı terrorlarla yönətənlərin içi necə demokratiyadır? Bu demokratiyanın bəşəri nizam, humanizm yaratmasını dilə gətirmək olası deyil axı...

Bax beləcə, siyasət dünyanı dağıdır, din də deyir, Qiyamət yaxınlaşır. Bəs insan nə etməlidir – siyasətimi tutsun, dinimi? Biri dağıdır, biri də "son"u elan edir. "Son"u bilmək insana heç nə vəd eləmir axı. Bir bütünün iki üzü – biri dağıdır, o biri çıxılmazlıq elan edir. İnsanlıq isə sona vara bilməz. Deməli, bəşər bu şəbəkənin hər iki üzündən əl çəkməlidir (imtina eləməlidir). Yeni Bəşər Halı başlamalıdır!

## Yurddaş sözü

Sovetlər birliyi adında imperiya Türk birliyini dağıdan, türkləri dağınıq saxlayan başlıca güc qaynağı idi. "Türk" sözünü, türk milli kimliyini millətin yaddaşından pozmağa çalışan ikinci güc qaynağı İran imperiyası olub. İran adlanan ölklənin toplumunun başlıca kütləsi Azərbaycan türkləri olduğu üçün, onun assimilyasiya yönündə etkisi də türkün Azərbaycan boyuna qarşı yönəlib. Orada başqa etnik türklərə münasibət Azərbaycana münasibətin bir çaları kimi özünü göstərir. Türk milli şüurunun oyanmasından qorxan İran həmişə sərt, kəskin araclara əl atıb. Sovetlərin "şirin" özgələşdirmə üslubu ilə İranın qəddar özgələşdirmə üslubu arasındakı fərq, yalnız onların daşıdıqları ideologiyalarla bağlı olub. Bu iki imperiya bir-birinə tərs ideologiyalar daşısalar da, onları, bütün çağlarda, türkü özgələşdirmək niyyətləri birləşdiribdir. Yəni birinin dinçilik xətti ilə o birinin ateizm xətti fars-rus münasibətlərini deyil, türkün milli-ideoloji gəlişməsini zədələyibdir. Hər iki ideologiya türk ruhuna yad olub. Bu antitürk qüvvələr belə ideolojilərdən bəhrələnib türkə qarşı qullanıblar. İran rejimi, Güney Azərbaycanı dinçilik basqısı altında saxlamaqla, həm də Sovetlər birliyinə yardım etmişdir. Yəni Orta Asiya türklərinin bir araya gəlməsi də, tatarların, yakutların, başqırdların... bağımsızlaşması da, Azərbaycanın parçalanmasına bağlı olaraq, baş tutmur. Azərbaycan Türk Dünyasının mənəvi-ideoloji beynidir. Onun dünyaya siyasal, iqtisadi açıdan girə bilmək olanağı da genişdir. Yəni Türk birliyi deyilən zəncirin həlqəsi Azərbaycanda qırılmışdır. Doğu Türküstanın siyasal taleyi də bu həlqəyə bağlıdır... Bu qonunu bəs qədər yazdığımız üçün davam etmirik.

Nə qədər, "Türk Yönətim Quralı", "türk ideoloji sistemi" həyatımızda bərpa olunmur, türk birliyi yalnız diləklərimizdə var olacaqdır. Türk birliyinə qulluq adı altında müxtəlif qurumlar yaradırlar, bir yerə qədər çalışırlar, ancaq çalışmaları nədən oluşur, sonuc nədir, bəlli olmur. Çünkü nə Avropa yönətim qu-

rallarının, nə də dinçiliyin həlməşik qəliblərində Türk varlığı bilinməz. Toplumun, zamanın diqtəsi ilə, çağdaş türk dövlətlərinin hakimiyyətləri, türk birliyi şüarları ilə görüntü yaradıb, baş qatırlar...

Sovetlərin əngəlliyinin yerinə, çağımızda Avropa əngəlliyi gəlib. Sovetlərin "qardaşlıq" şüarlarından Avropanın "insan haqları, plüralizm" şüarları daha çəkici görünür. Bir çağlar DTK Sovet quruluşuna qarşı söz deyənlərin dilini kəsirdi. İndi DTK-nın qılıncına gərək yoxdur, hakimiyyət həsrəti ilə çalışan siyasal partiyaların nümayəndələri, qrantlarla dövran sürən "hüquq müdafiəsi" təşkilatları b.k. dünyanı qatıb-qarışdıran Avropa ağalarının qulluğunda (müntəzir) dayanırlar.

Böyük güclərin buyruğu ilə hərəkət edən Türkiyə, Azərbaycan iqtidarları da bu iki dövlətin münasibətlərinin durulmasına əngəl olurlar. Türkiyə-Azərbaycan münasibətləri daim qalxıb-enir. Çünkü bu iqtidarla o iqtidarın çalışmaları şəxsi maraqlara bağlıdır. Türk millətinin varlığı, gəlişməsi onları düşündürən məsələ deyil. Biz Azərbaycan, Türkiyə münasibətlərinə zərər gətirən məsələləri daim izləmişik. O faktları sadalamadan yeni bir fakta baxış yönəltmək istəyirik: Azərbaycan vətəndaşlarının, Türkiyə torpaqlarından keçərək, Suriyada döyüşmələri hakimiyyətimizin yetkililərində qıcıq doğurur, tranzit rolu oynadığına görə Türkiyə dövlətini qınayırlar. Halbuki Suriyada döyüşən azərbaycanlılar Azərbaycan hakimiyyətinin gözləri qarşısında yetişdirilib göndərilirlər. Azərbaycanda bəzi məscidlər gənclərin sosial durumlarının aşağı olmasından, milli zəmində doğru mariflənə bilməmələrindən yararlanıb onları ələ keçirir, zehnini, düşüncəsini korlayıb Türkiyəyə göndərir, Türkiyədəkilər də, özünəyarar siyasəti həyata keçirmək məqsədi ilə, bu cür "atılmışlar"ı qullana bilirlər. Azərbaycan hakimiyyəti öz gəncliyinə yiyə çıxa bilmir, başqaları "yiyə" çıxıb məhv edir. İndi basında Müşfiqabad məscidinin adı azərbaycanlıları Suriyaya göndərməkdə çəkilir. Azərbaycanın hüquq-qoruma sistemi də həmişə iş-işdən keçəndən sonra əl-ayağa düşür...

Dinin başında duran şəxs vəhabilərdən pul alıb onların sərbəst çalışmalarına ortam yaradır, hansısa baxanlıqdan (nazirlikdən) vəhabilərin çalışmalarına pul ayrılır, Azərbaycan hökuməti isə Türkiyəni suçlayır. Əsil komediya qonusu da belə məsələlərdən yaranır.

Məscidlər gənclərimizi korlayır, hakimiyyət də korlanan gəncləri bir-bir içəri doldurur. Bəs dövlətin quruculuq, qurtarıcılıq borcu harda işlənəcəkdir?!

Bu gün məscidlərin sayı yeyinliklə artır. Bu o deməkdir, Azərbaycanda milli yapının gəlişməsinə dəyən zərbələrin sayı da yeyinliklə artır. Heç bir məsciddə insanlarımız milli yönə bağlanmır, dəyərlərimiz tanıdılmır, vətənə sevgi aşılanmır. Sevgi Azərbaycandan qırağa yönəldilir, daha doğrusu, milli dövlətçiliyə qarşı başqa bir qorxu hazırlanır. İranın buyruğunda olan məscidlər (Azərbaycanın harasında olmasından asılı olmayaraq) bir sıra gənclərimizin ruhunu milliliyə o qədər yadlaşdırır, onlar dövlətimizə nəcis deməkdən belə çəkinmirlər...

Bir vaxtlar sadə insanlar məbədlərə sığınacaq kimi baxırdılar. Ancaq bizdə məscidlər ona sığınanların yox, yurdu dağıdanların, gəncliyi azdıranların ünvanına çevrilib. Buna görədir, dini təriqətlərə qoşulanlar, məscidlərə gedənlər arasından mühakimə olunanların sayı oğurluq üstə mühakimə olunanların sayından çoxdur. Çünkü toplumsal tərəqqiyə xərclənməli olan pullar ekstremizmin, terrorizmin yuvalarına xərclənir. İnsanlığı, dövlətçiliyi çəkindirən (təhdid edən) cəhalət qorunur, genişləndirilir, gəlişdirilir. Bizim hakimiyyətimizi mənimsəyən kapitalist zümrə də özünü qoruyur, xalqın aqibətini faciələrə sürüyən köklü sorunların heç birini çözüb aradan qaldıra bilmir. Dövləti sevgi, ədalət, vicdan qoruya bilər. O da yoxdur. Dövlət xalqa qulluq eləməlidir, sevilsin. Xalqın dövlətçiliyə münasibəti uçuruma salınıb. Artıq “dövlətin ədalətliliyi”, “qanunun aliliyi” kimi anlayışlar xalqın inamından ayrılıb. Xalqın içində yalnız bircə “nizam” var – o da Zor. Zorun mütləq hakim olduğu toplumda insan sevilməz, vətən bilinməz.

Bəs xalqın gələcəyini kim düşünməlidir?! Artıq elə bir aşamadayıq, aydınlılıq adına iddia edənlərimiz, çoxluq baxımından, nəinki danışmaqdan, dinləməkdən belə qorxurlar. Dərdi çəkmək istəyən olmadığı üçün dərd, varlığımızdan doğma olan millətimizə faciələr yaşadır.

Gəlin düşünək, qabaqdakı soy özündə güc tapa bilmir. Gəncliyimizi qoruyaq, vətənimizə, millətimizə bağlayaq.

Bütün bu sorunları görüb ümidsizləşmək çağı deyil, dərk eləyərək, Haray çəkmək çağıdır.

## Dövlətçilik Bayramı ilə bağlı toplantıda
### *(Bakı Biologiya litseyinin öyrənciləri, öyrətmənləri qarşısında çıxış)*

Bizə sevinc gətirəcək çox böyük dəyərlərimiz yaranıb. Eyni halda, çox dərin də kədərlərimiz olub, yəni fəlakətlərimiz olub. Bu fəlakətlərimizdən birinin adını çəkmək istəyirəm. Midiya dövlətinin yenilməsi. O dövrdə Əhəmənilərin nümayəndəsi Kirin başçılığıyla, Maday dövlətinin (yunanlar Midiya deyiblər, tarixçilər də ondan götürüblər) başçısı Astiaqa qarşı üsyan qaldırıldı. Baxın, üstündən nə qədər çağlar keçib. Bizim dövlətçiliyimiz onda sarsıldı, ondan sonra özümüzə gələ bilmədik. Bunu Asif Ata daim vurğu edirdi.

Dövlətçiliyimizin sarsılmasından sonra xalqın şüuru, mənliyi, kimliyi çox böyük zədə götürdü. Nə yaxşı, sonradan Şah İsmayıl Xətai bu fəlakəti bəlli biçimdə aradan qaldıra bildi... ondan öncəkilər də olub, mən onların adını sadalamayacam, bilirsiniz. Ona görə Şah İsmayılın üzərində dayanıram, o, millətləşmə sürəci apardı. Onun dövləti Səfəvilər imperiyası olsa belə, o, çox ciddi millətləşmə, dövlətləşmə sürəci apardı. Bu gün bizə qıraqdan deyirlər, onların dövləti olmayıb. Nəyə görə deyirlər? Bizim tariximizi "Azərbaycan" sözünə bağladıqlarına görə deyirlər, dövlətçilik ənənəsi 20-ci yüzilin 20-ci ilində başlayıb. Halbuki Azərbaycan deyə bir ad bizim tarixi dövlətlərimizin

hamısının varisidir. Bu bir çatışmazlıq idi, dövlətlərimiz türk tayfalarının adıyla bağlı olub. Nə yazıqlar, bu belə olub. Belə olması doğru deyildi, ancaq belə olub. Məsələn, Ağqoyunlular dövləti, Qaraqoyunlular dövləti. Məgər Ağqoyunlular dövləti Hindistanda qurulmuşdu? Ağqoyunlular dövləti Azərbaycanda qurulmuşdu da. Yəni indiki coğrafiyamızda qurulmuşdu, o tay-bu tay Azərbaycanda idi. Ya da Qaraqoyunlular dövləti. O da başqa bir yerdə deyildi axı. Əfşarlar dövləti, Səfəvilər dövləti başqa bir yerdə deyildi. Eləcə də Qacarlar dövləti. Tayfaların adına bağlı olub. Söz yox, bu bir yanlışlıqdır. Dövlət millətin adına bağlı olmalıdır. Bu gün də bizim dövlətimizin adı Azərbaycandır. Ancaq mən əminəm, Azərbaycan sözünün ardına millətin adı da yazılacaq. Biz onun, bəlli anlamda, konseptual biçimini yazmışıq. Onun adı Azərbaycan-Türkel dövləti olacaq. Haçağ olacaq, mən bilmirəm. Ancaq inanıram olacaq. Düşünürük, bu, olmalıdır. Azərbaycan sözünü mən sevirəm. Azərbaycan bizim mənəvi-ruhani dəyərlərimizin ifadəsidir. Zərdüştdən başlayaraq, Dədə Qorqudluğumuz, Xürrəmiliyimiz, Hürufiliyimiz, Füzuliliyimiz, Muğamlığımız, Sazlığımız – bunları içinə alan bir sözdür Azərbaycan. Bu bizim ruhsal kimliyimizdir. Ancaq bir də var etnos, milli kimliyimiz.

M.Ə.Rəsulzadənin milli dili türk dilidir. Yaratdığı dövlət türk dövləti idi – Azərbaycan Türk Respublikası. Baxmayaraq, onu Azərbaycan Demokratik Cümhuriyyəti elədilər. İngilis sərkərdəsi Tomson oturmuşdu Bakıda, M.Ə.Rəsulzadənin qurduğu dövləti tanımaq istəmirdilər. Çox ciddi basqı vardı. Bayrağı da dəyişdilər, himn də dəyişdi. M.Ə.Rəsulzadənin yaratdığı struktur zəiflədi. Məcbur oldu ittihadçılarla, sosialistlərlə dil tapsın. İttihadçılarla, sosialistlərlə birləşdi, axırda bolşeviklərin gəlişiylə nə ittihadçılar, nə də sosialistlər M.Ə.Rəsulzadəni qorumadılar. Bağımsızlığı savunmadılar. Ona görə bağımsız dövlətin varlığına Bolşeviklər son qoydular. Burada Nərimanovun çalışmalarının da qatqısı oldu.

Nərimanov haqqında çoxşaxəli düşüncələr səsləndirirlər. Mən Nərimanovu qəbul etmirəm. Baxmayaraq, Nərimanov in-

tellektual adam idi, yazarlığı da vardı. Ancaq mən yazmışam, doğrudanmı Nərimanov 16 mart, 21 mart, 31 mart qırğınlarını görmürdü? Doğrudanmı anlamırdı onun nə demək olduğunu?! Doğrudanmı bilmirdi, Şaumyanın başçılığı altında bolşeviklərin Azərbaycan türklərinə qarşı oynadığı oyunlar nə deməkdir? Doğrudanmı Nərimanov bilmirdi, soyqırım olayı nə üçündür?! Bilirdi, M.Ə.Rəzulzadə ilə birləşmirdi. M.Ə.Rəsulzadəyə qarşı cəbhə yaratmışdı.

Azərbaycandan Ermənistan dövləti yaratmaq planı vardı. Erməni yönətimi yaratmaq planı vardı. Bu ideyanı Osmanlı pozdu. Bunları Nərimanov görməliydi, bilməliydi. Siyasi xadim, belə məsələlərdə, yanlışa yol verə bilməz, aldana bilməz. Bu boyda açıq qırğınlara necə aldanmaq olar?!

Burda bir məsələni də gözə almaq gərəkdir, Nərimanovun daşıdığı ideoloji şüur vardı, bir də M.Ə.Rəsulzadənin daşıdığı ideoloji şüur vardı. M.Ə.Rəsulzadənin daşıdığı şüur bağımsızlıq şüuru idi. Özgürlük, türklük şüuru idi. Baxmayaraq, M.Ə.Rəsulzadə Azərbaycanı dünyadan, Avropadan ayırmırdı. Ancaq şüur bütünlüklə milli idi. Nərimanovun şüuru bəs nə idi? Nərimanovun şüuru bolşevizm şüuru idi. Bu şüur Leninin planları ilə oluşurdu, o da öncədən bəlli idi. Boş sözdür, o sonradan anladı. Sonradan anlamadı, sonradan gec oldu.

Dediyim odur, dövlətimiz sadəcə elanla olmur. Dövlət milli kimlik üzərində formalaşır. Milli kimlik də dəyərlərə dayanır. Millətin öz içində yaranan dəyərlərə dayanır. Bizim dəyərlər bu günə qədər danılıb, bu gün də danılır, bu gün də ona damğalar vurulur.

Dədə Qorqud olayımız var. Dədə Qorqud olayımızın 3000 min il yaşı var. Ancaq bağımsız Azərbaycan dövlətimizdə Dədə Qorqudun 1300 illik yubileyi keçirildi. Nə deməkdir bu? Niyə onu ərəb mədəniyyətinin, ərəb dünyabaxışının içinə salırsan? Onun etkisinə boyun əydirirsən? Olmaz! Bu millətin dəyərləri çox əskidən gəlir. Onun dəyərlərini heç bir başqa mədəniyyətlərin, dəyərlərin qoltuğuna salmaq olmaz. Biz başqa millətlərə qarşı deyilik. Başqa mədəniyyətə qarşı deyilik. Öz mədə-

niyyətimizin, kimliyimizin başqalarının etkisi altına düşməsinə qarşıyıq. Heç kimin bizim mədəniyyətimizi basqısı altına almasını qəbul etmirik.

M.Ə.Rəsulzadənin yaratdığı respublika qualları, respublika strukturu bu gün tarixi fakt kimi öyrənilir, araşdırılır. Söz yox, yanlışlar da vardı. Mən o yanlışlardan söz açmaq istəmirəm. Ancaq başlıca olaraq, dediyimiz faktlara görə yenildi.

Biz parçalanmş xalqıq, bölünmüş vətənik. Böyük bir kəsimimizin şüuru (Güney Azərbaycanda) daim özgələşdirilməyə uğradılır. Fars rejiminin etkisində sarsıtmağa çalışırlar. Bizə azərilər deyirlər. Nə yazıqlar, Türkiyə türkləri də bizə azərilər deyirlər. Biz azəri deyilik. Azərilər fars tayfasıdır. Bu gün fars rejimi ciddi işləyir, sübut etmək istəyirlər, Azərbaycan türkləri türk deyil, onlar azəri tayfalarıdır, yəni farsdan dönmədir, sonradan dillərini dəyişib türkləşiblər. Baxın, bunu bizim xalqın içinə yeridirlər – hansı adla olur-olsun, dostluq, dili bir, dini bir, qardaşlıq. Qardaş olmursan axı, düşmən olursan. Sıradan çıxarırsan məni. Bir sözlə, dövləti yaşatmaq şüura bağlıdır. Ona görə biz respublikamızı qoruya bilmədik. Bölünmüş xalq bütövləşməyincə, milli şüura yetməyincə, onun dövləti güclü olmayacaq. Bu gün Azərbaycan dövlətini hər birimiz sevirik. Bizim üçün doğmadır, qutsaldır. Asif Atanın sözü var: “Dövləti olmayan xalq yetim xalqdır”. Ancaq nə qədər, Azərbaycan – tarixi haqlarını bərpa eləməyib, biz Azərbaycanımızın güclənəcəyinə ümid bəsləyə bilməyəcəyik. Dünya güclülər dünyasıdır. Güclülər yönəldir dünyanı. Asif Ata deyir: “Çağdaş dünya ancaq güc tanıyır. Mədəniyyət, mərifət tanımır, əxlaq tanımır”. Gücə dayanır, güclə də sıradan çıxarır. İçərimizdə ayrı-ayrı, Milliliyə qarşı, qüvvələr formalaşdırır, onları aktivləşdirir də. Bu aktiv qüvvələr hər mənada bizim şüurumuzu korlamaqla uğraşır. Balalarımızın şüurunu məhv edirlər. Evimizin içinə girirlər. Şüurumuzun məhv olmasının sonucudur, dövlətimizi qoruya bilmədik.

İndiki dövlətimiz isə onun nə dərəcədə varisidir, onu zaman göstərəcək. Varis o vaxt olur, onun bütün strukturları, dəyərləri

hamısı milliləşir, milləti tam olaraq ifadə edir. Yəni millət öz vətənində özünü bağımsız, özgür bilir, dəyərlərini qoruya bilir. Bu gün milli dəyərlərimizi qoruya bilmirik. Ağzımızdan vururlar, hamısını böhtanlayırlar, ləkələyirlər...

Mən sizə bir önəridə də bulunmaq istəyirəm: bizim təkcə dövlətçilik gələnəklərimizi deyil, milli-mənəvi dəyələrimizi də bu cür tədbirlərdə ifadə etmək gərəkdir. Məsələn, yaxın çağlarda biz Nəiminin 675 illiyini keçirdik, söz dedik. Babəkin öldürülməsinin, eləcə də anadan olmasının ildönümünü vurğulamaq gərəkdir. Hürufiliyin yaradıcılarından Nəiminin, Nəsiminin doğum, ölüm tarixini vurğulamaq gərəkdir. Onların xalqa verdiyi dəyərləri, xalqda oynadıqları rolları vurğulamaq gərəkdir, şüura yazmaq gərəkdir. Onu özümləşdirmək gərəkdir. Onda biz qeyd elədiyimiz, vurğuladığımız olayların tamamını, gəlişməsini yaşaya biləcəyik. Xalq dəyərlərin qorunmasında yaşayır. Xalq dəyərlərin davam eləməsində yaşayır. Ona görə də dəyərlərimiz insanlarımızın, aydınlarımızın, gənclərimizin şüuruna yazılmalıdır. Mən də sizə bu işinizdə böyük uğurlar diləyirəm. Dəstəkçiniz olmaq istəyirəm. Düşünürəm, bu cür tədbirləri bu cür şəkildə davam eləsəniz, çox böyük addım atmış olarsınız. Milli dəyərlərimizin yaşamasına qulluq göstərmiş olarsınız. Yenə vurğu edirəm, milli dəyərləri yaşatmayan xalqın dövləti də zəif olur. Dövləti təkcə ordu, silah qorumur, dövləti gənclik qoruyur, aydın insanlar qoruyur. Milli şüur, milli kimlik qoryur. Milli kimliyi yaşatmaq, doğrultmaq gərək, onda M.Ə.Rəsulzadələrin ləyaqətini dərk etmiş olacaqsınız. Onların nə etdiklərini, niyə etdiklərini öz varlığınızda yaşatmış olacaqsınız.

## Siyasal Qurtuluşumuz Türkləşməyə bağlıdır

25 sentyabrda "bağımsız Kürdüstan" iddialı referendum keçiriləndən sonra bölgəyə yaxın dövlətlərdə, qısa arada, çalxalanma izlədik. Referendumun sonucunu açıqlamağı yubatdılar, üzdə bir sakitlik yarandı. Qıcıqların səngiməsini gözləyirlər, qabaqlayıcı addımlar düşünürlər. Ancaq kim hara kimi qıcıqla-

nır-qıcıqlansın, bu, Batının projesidir. Batı özünün hakim etkisini qorumaq üçün ya bütün projelərini gerçəkləşdirməlidir, ya da güclülük səhnəsindən geri çəkilməlidir. Bəlli ki, geri çəkilməyəcək, qurduğu oyunlara axıra kimi babalıq edəcək.

Bu gün, bir çağlar qürurla "biz Orta Doğu Projesinin eş başqanıyıq" deyən Ərdoğan iki daş arasında qalıb – İraq parçalansınmı, parçalanmasınmı?! Hər iki hal Türkiyənin çağdaş siyasal çıxarına uyğun deyil. İraq parçalanarsa, yaranacaq Kürdüstanın sınırı gedib Türkiyənin içərilərinə girəcək. Parçalanmazsa, İranın bayrağı altında güclü İslam-Şiə birliyi yaranacaq. Bu isə müsəlmanlaşma siyasəti ilə bölgədə hakim rol almaq istəyən Ərdoğanın hədəflərini boşa çıxarır. Hələ biz demirik, İraqın parçalanması Türkmənelinin də fəlakətlərini genişləndirəcəkdir. Bu sorun Ərdoğan hakimiyyətini ciddi qayğılandırmır. Baxmayaraq, sözdə Ərdoğan Türkməneli ilə bağlı qayğılandığını dilə gətirir. Ancaq uzun illərdir biz, Ərdoğanın heç bir sözünün arxasında durmadığını izləyirik.

Ərəb dövlətləri içərisində daha güclüsü Səudiyyə Ərəbistanı sayılır. Əslində Türkiyənin dövlət səviyyəsində müsəlmanlaşması bu dövlətin heç də ürəyincə deyil. Səudiyyə Ərəbistanı istəmir İslamın ortası, Osmanlıda olduğu kimi, Türkiyəyə keçsin, nə də İran-Şiə ortası (mərkəzi) yaransın. Ona görə də öz soyundan olan bir dövlətin parçalanmasına razılaşıb, Türkiyənin İranın etkisinə girməsindənsə, Batının buyruğunda durması onun üçün daha önəmlidir... Bəs müsəlmanlaşma siyasəti yürüdən Türkiyə kimlərlə birlik yaradacaqdır – Qırğızıstanlamı?! Belə isə Ərdoğan Türkiyə kimi oturuşmuş dövlətin gücünü Türk Birliyinə yönəltsəydi, yaxşı olmazdımı?! Yönəltmədi, çünkü siyasal ambisiyaları siyasal təfəkkür olanaqlarından daha yuxarıda dayanır.

Batı, başda ABD olmaqla, bütün xətlər üzrə Doğunu dağıdır. 300 illik tarixi olan bir dövlət, min illər tarixi olan köklü xalqların dövlətçiliyini, mədəniyyətini, tarixi keçmişini məhv edir, yerində özünə əl buyuruqçuları olan özülsüz dövlətlər yaratmağa çalışır. Bu gedişdə BMT-nin "hər bir dövlətin ərazi

bütövlüyünü tanımaq" qanunu anlamsız bir bəlgəyə çevrilir. Ancaq yazıqlar olsun, bu anlamsız bəlgələr bir sıra dövlətlərin başının altına yastıq qoyur, məqsədli güclər isə onların sınırlarını pozmaqla öz hədəflərinə doğru yürüyürlər. Başının altına yastıq qoyulanlardan biri də Azərbaycandır. 25 ildir "BMT-nin dörd qətnaməsi" deyib durur. Erməni isə, havadarı Rusiyaya söykənib, Azərbaycan torpaqlarında oturuşur.

Azərbaycanın Güneyinin də (Güney Azərbaycanın) aqibəti sorğu altına girir. Batı illərdir İrana dəymir, Güney Azərbaycan bağımsızlıq əldə eləməsin. Ancaq "Kürdüstan" yaratmaqla İranı da parçalayıb gücünü sındırmağa çalışır. Yəni İran-Şiə birliyini, "Kürdüstan"ı qurmaqla, heçə çevirməyi gözə alır. Gözə alınan Kürdüstan sınırları əslində Güney Azərbaycanın içərilərinə uzanır. Ona görə Güney Azərbaycan onun sınırlarını qorxudan (hədələyən) "Kürdüstan"a qarşı, İranla birgə hərəkət eləmək zorunda buraxılır. Belədə isə Azərbaycanın bütövləşməsi ideyası, bəlkə də yüz il, arxivə atılmalı olur.

30 il öncə Asif Ata yazırdı: "İranın sabahında nə baş verirsə-versin, Azərbaycan birləşmə, bütövləşmə uğrunda döyüşməlidir". Bu çağırış 30 il bundan öncəyə deyil, elə bu günə, sabaha hesablanmış bir çağırışdır. Hər kəs öz yolunu bəlirləyir, Azərbaycan isə kimlərin yenilgən, kimlərin yenilməz olmasını gözləməli deyil. Heç bir yenilməz (qalib gələn) Azərbaycanı düşünmür, düşünməyəcək. Bunu Azərbaycan (O Tay-Bu Tay olmaqla) özü düşünməlidir.

Türkiyə İslama, Azərbaycan da BMT-nin qətnamələrinə bel bağladıqca üzü aşağı gedəcək. Düşünürük, bu iki dövlətin strategiyası dəyişməli, dövlət ideologiyaları Türkləşmək xəttinə dönüşməlidir. Siyasal Qurtuluşumuz buna bağldır.

## Türk dövlətlərinin birgə hərəkət qaçılmazlığı

Bəşəriyyət Orta Doğunun timsalında ağlamalı günlərini yaşayır. İnsanlar qan içində çabalayır, yaşlılar, qadınlar, körpələr fəryad qoparır. Tükənməyən qırğınlar, tükənməyən dağıntılar böyük məqsədlərə qatılır. Dünyaya demokratiya yayılır – qırğınlar, vəhşətlər, nifrətlər, düşmənçiliklər biçimində. Dünyanı "ağ günə" çıxartmaq yönündə "Ağ evdə" planlar tutulur, əməllər becərilir. Tapıldığı (kəşf olunduğu) gündən yalnız qətllər, qırğınlar, terrorlar hazırlanır, yetirilir Amerika qitəsində. Hələ bəşəriyyətə böyük bir dəyər sunmayıb bu qitə. Tərsinə, qədim, tarixi xalqların tarixi dəyərlərini, yaşı minilliklərə dayanan, insanlığın keçmişindən soraq verən abidələrini məhv edib torpağa gömməklə uğraşır. İnsanlığı məhv edən, insanlığa qarşı hazırlanan hər cür baza bu qitədə yerləşir.

Amerika – Avropa xalqlarının imperiyası, dünya xalqlarının yağısı anlamı daşıyır. Bilirik, bəşər bəlli olandan, dövlət yaranandan xalqlar arasında savaşlar olub, torpaq uğrunda, sərvət uğrunda çəkişmələr gedib. Bu savaşlarda bir sıra abidələr də məhv edilib. Ancaq heç vaxt bütün dəyərlərin, bütün tarixi abidələrin məhv edilməsi qarşıya məqsəd qoyulmayıb. Amerika isə belə bir məqsəd daşıyır, bilərəkdən köklü xalqları sıradan çıxarmağa girişib. Bu köklü xalqlar da ən çox Doğuda yerləşir. Ona görə də Amerika Doğunu qan dənizinə çevirib. Əfqanıstandan başlayaraq, Misirdə, İraqda, Suriyada, indi də artıq Türkiyədə törədilən alovlar sönmək, söndürülmək bilmir. Hamını demokratiyaya vərdiş elətdirmək adı qoyulub qırğınlara. Ancaq bu demokratiyanın nə başı bəllidir, nə ayağı. Xalqların özünəxaslığı (mentalitetləri) sıradan çıxarılıb qul halına gətirilir. Bəllidir, qulun sabahı yoxdur. Deməli, köklü xalqlar bəşəri yaradıcılıq keyfiyyətlərini itirməklə aradan getməli, dünyada Amerikanın istədiyi hakim xalqlar qalmalıdır. Bütün torpaqlar da, sərvətlər də onların əlində olmalıdır. Orta Doğu Projesinin qlobal hədəfləri budur. Bunun üçün ayrı-ayrı aşamaları özündə daşıyan hədəflər gerçəkləşdirilir. Biz bu hədəflərin canlı görənlə-

riyik (şahidləriyik). Onsuz da bütün planlar üzdədir. Ancaq dünyada elə bir zəncir bağları yaradıblar, heç kim bu zəncirin həlqələrindən açıla bilmir. Uluslararası qurumlar, uluslararası maddi fondlar bu zəncirin həlqələrindəki açarlar rolunu oynayır. Ona görə də heç bir dövlət təkbaşına bu zəncirlərdən açıla bilməyəcək. Düşünürük, hər bir dövlətin milli gələcəksəl proqramı (strategiyası) olmalı, bir-biriylə anlaşma, birgə qorunma strategiyası yaranmalıdır. Ancaq anlaşılan odur, bu istək xeyli uzaq hədəfdir. Çünkü yaxın, qonşu dövlətlərin hər birinin o birisiylə çözülməmiş sorunları var. Bu sorunlar yaxalarından tutub onları Amerikanın etkisinə sürüyür.

Bu yanaşmamıza görə kimsə düşünməsin, biz üstünlüyü Rusiyaya ötürmüş oluruq. Rusiya çox qorxulu, əməlinin, addımının yerini bilməyən dövlətdir. Yaxasını ona verən yüzillərnən açıla bilmir. İndi Rusiyanın özü də Amerikanın basqısı altından qırağa dura bilmir. Bununla belə, Rusiyaya qarşı ayıq olmaqdan heç kim vaz keçməməlidir. Bu başqa, ciddi qonudur...

Bu gün dünyada başlıca yanğınlar Amerikanın çaxmağı ilə alışır. Biz bilərəkdən bu yazıda ən çox Batı sözünün yerinə Amerika adını çəkirik. Çünkü Batı deyəndə başda Amerika görünür. Ən başlıcası da odur, bizim üçün önəmli bir məsələ (yazımızda da onun üzərində vurğu eləmək istəyirik) Türklük məsələsidir. Türklüyün də ən böyük sorunu bu gün Türkiyənin varlığı ilə bağlıdır. Amerika onu dağıtmağa çalışır, o da Amerikaya yaxınlaşmağa zorlanır. İlk baxışdan bu zorlanma qaçılmaz görünür. Çünkü Türkiyənin İraq torpağında yerləşən PKK-nı vurması üçün Amerikanın icazəsi gərəkdir. Bu yöndən Türkiyə Amerika ilə anlaşmalar yapır. Qıraqdan izləyənlər də, çoxluq olaraq, bu anlaşmadan məmnun görünürlər. Türk toplumlarının içərisində sevinmələr də başlayıb. Yalançı nikbinlik, eyforiyalar baş alıb gedir: "Türkiyə PKK-nın xeyli canlı qüvvəsini məhv etdi; Türkiyə öz istehsalı olan yaraqları PKK-ya qarşı işə saldı; PKK-nın öndərlərindən bir çoxu ələ keçdi" b. k. Bu yandan Türkiyənin Baş Baxanı bəyanat verir, bu sorunu gələcək soylara buraxmayacağıq.

Bu cür yeritmələrdən (təlqinlərdən) də sadəlövh türk insanları sevinc duyğuları keçirirlər. Əslində bunların hamısı kütlənin baxışına hesablanmış görüntülərdir. Üzdə qələbəlik kimi görünən məsələlərin heç birinin ciddi özülü yoxdur. Hələ (seçkilərdən sonra) Türkiyədə oturuşmuş (sabit) hökumət formalaşmayıb, çox işlər yoluna qoyulmayıb. Baş Baxan bunları gözə alıb kütləni eyforiyaya yönəldir...

Bilmək gərəkdir, Türkiyə ilə Amerikanın bu yaxınlaşması kimin üçünsə günsəl gedişdir (taktikadır), kimin üçünsə gələcəksəl proqram (strategiya). Düşünürük, Türkiyə üçün günsəl gedişdir, Amerika üçün strategiyasının bir parçası. Bizə görə Amerikanın "Orta Doğu Projesi"nin Türkiyəyə bağlı aşaması artıq gəlib sınıra çatıb. Burdan geriyə yol yoxdur. Yəni Amerika Türkiyəyə bağlı dağıdıcı istəklərində ancaq qabağa getməlidir. Nəyin alınıb-alınmaması məsələnin ayrı yanıdır. Hədəf odur, plan dayanmasın. Ya plan davam eləməlidir, ya da Amerika imperiyası çökməlidir. Deməli, bu gün Türkiyənin yörəsində fırlanan olaylar Amerikanın olum-qalım məsələsinə özgündür. Ona görə bu gün Türkiyəylə "yaxınlaşma" Amerikanın özünə gərəkdir. Yəni, həm Türkiyə Amerikaya qarşı ikinci qütblərlə anlaşmaya getməsin, həm də Amerika çılpaq niyyətlə ortaya çıxıb ifşa olunmasın. Onsuz da məqsədli güclərdən yardım alan terror şəbəkələrinin biryolluq sıradan çıxarılması asan bir iş deyil. Türkiyəni terrorla savaşda yorub, sivil sayılan başqa kürd birləşmələri ilə masa arxasına oturtmağa çalışacaqlar. "Kürdlərin özünüyönətim haqqını tanımaq" kimi bir layihəni işə salmağa çalışacaqlar. Bir sözlə, bu gedişdə Türkiyənin uduşu gözlənilmir. Türkiyənin parçalanma həddinə gətirilməsi isə Türk Dünyası üçün qorxulu bir siqnaldır. Artıq düşünmək çağı deyil, gerçək addım atmaq çağıdır. Qaradan o yana boya yoxdur. 7 Dövlət balaca qüvvə deyil, birgə hərəkət etməyin çağı yetişib. Türkiyə parçalanarsa, sabah bu dövlətlərin bağımsızlığından danışmaq çətin olacaq. Yuxarıda vurğuladıq, Batının basqısına uğrayan ayrı-ayrı dövlətlərin bir-biriylə siyasal sorunları var. Bu gün onların birgə hərəkəti çətindir. Ancaq türk

dövlətlərinin bir-biriylə sorunları yoxdur. Onların böyük anlamda birgə hərəkət etmələri vazkeçilməz tələbə çevrilib.

## Türk Birliyinin Qaçılmazlığı

Bu gün dünyada gedən oyunlar yeni siyasal düzənin ortaya çıxacağından soraq verir. Sovetlər dağılandan sonra pozulmuş ağalıq balansı başqa biçim almaqdadır. Batı özbaşınalıq gedişləri ilə hər yeri qarışdırdı. Dünyanın ortasında – enerji ilə zəngin olan Doğu ölkələrində istədiyi quruluşu yaratmaq, özünə qulluq göstərəcək satılmışları yönətim sisteminin başına gətirmək onun çalışmalarının yönünə çevrildi. Ancaq Sovet-rus imperiyasının ixtiyarında olan bütün Avropa, Asiya ölkələrini öz etkisi altına keçirdisə də, hələ bir çox məsələləri öz xeyrinə çözə bilmədi. Bütünlüklə çözə bilməsi olası iş də deyil. Çünkü Batının xeyrinə çözülən məsələlər başqalarının içini əyən məsələlərdir. Bu da doğaldır. Böyük güclər siyasal sınırlarını genişləndirmək üçün öncə sorunlar yaradır, sonra bu sorunları öz xeyirlərinə doğru çözürlər. Baxın, rus-sovet basqısından çıxmaq istəyən ölkələr bağımsızlıq, özgürlük qazanmaq üçün Batının quruluş xarakterini, ideoloji yönətim qurallarını bütünlüklə mənimsəyib özlərini onun ixtiyarına verdilər. Bununla da ayrı-ayrı ölkələr (yerləşdiyi bölgənin dünya gücləri üçün önəminə görə) parçalanmağa uğradılar. Məsələn, Azərbaycanın Qarabağı, Gürcüstanın Abxaziyası, Acariyası, Osetiyası, Ukraynanın Donetsk, Luqansk vilayətləri buna örnəkdir. Batı bu parçaları heç vaxt bütövləşdirməyəcək. Onlar iki canavarın əlinə keçmiş ov kimidirlər. Sanki ovun başı birinin, quyruğu da o birinin əlinə keçib. Biri o yana dartır, biri bu yana.  Batıdan gözləntiləri olan bu cür yazıq ölkələr indi daha pis durumdadırlar, yağışdan çıxıb yağmura düşüblər. Batı bu ölkələrə yararlı olan siyasi dəyişikliklər eləmir, özü üçün hakimiyyətdəkiləri dəyişir. Hakimiyyətə gətirdiklərini də bir yerə qədər qoruyur. Hakimiyyətə gətirdiklərinin Batının istəklərinə qulluq göstərmələri özünü

doğrultmayanda yenidən dəyişikliklər edirlər. Orta Doğuda apardıqları dəyişiklikləri də buna örnək göstərmək olar. Ancaq burada bunları sadalamaq düşüncəmiz yoxdur. Bu yazıda bizim istəyimiz politoloqların deməli olduqları məsələləri vurğulamaq da deyil, yurdumuzla bağlı rahatsızlığımızı dilə gətirməkdir.

Bu gün "Şanxay Əməkdaşlıq Təşkilatı" adlanan bir qurumun dünyanın baxışlarını özünə çəkməsi söz qonusudur. Bu qurum üzdə iqtisadi xarakter daşısa da, Batı ilə çəkişməyə (rəqabətə) girərək yeni siyasal güc oluşdurmağı qarşısına alan bir qurum etkisi bağışlayır. İndi araşdırmaçılar bu qurumun kimə xeyir, kimə ziyan gətirəcəyi ilə bağlı düşüncələr sərgiləməkdədirlər. Basın yayınlarında yazılanları önə tutsaq, ayrı-ayrı siyasal araşdırmaçıların ŞƏT adlanan quruma umudla baxdıqlarını görərik. Azərbaycanın bu quruma girməsiylə Qarabağ sorununun uğurla çözüləcəyini yazanlar da var. Ancaq bu yazılanlarda bir-biriylə ziddiyyət doğuran yanaşmalar əməlli-başlı çaşdırıcılıq yaradır. Ərk edib deyə bilərik, araşdırmaçılarımızın çoxu hələ də dünya güclərinin məkrli davranışlarını dərk eləməkdə çətinlik çəkirlər. Bu güclərin, bizim sorunlarımıza, bizə gərəkən yöndə yanaşmağa məcbur olacaqlarını düşünürlər. Tarixdə məcburolmalar çox olub. Ancaq bizim sorunlarımızla bağlı onların (yönətən güclərin) qarşısına məcburiyyət çıxanda bir-birinə başqa yöndən güzəşt edib, başqa-başqa planlar gerçəkləşdiriblər. Bu cür planlar Azərbaycanın ikiyə bölünməsində də, ötən yüzildə Güney Azərbaycanın özgürlüyü uğrunda dörd yol ayağa duran devrimlərdə (bəlli Səttarxan, Xiyabani, Pişəvəri, azərbaycanlıların keçirdiyi islam inqilabları) də, Quzey Azərbaycanda ADR-in yaranmasında da özünü göstərmişdir. Bu məsələləri geniş araşdırmadan, yuxarıda vurğuladığımız kimi, araşdırmaçıların ziddiyyət doğuran düşüncələrinə aydınlıq gətirək. Vurğulanır, Azərbaycan maraqların kəsişdiyi önəmli bölgə oldugundan, onu ŞƏT-ə üzv etmək bu qurumu yaradan dövlətlərin istəyinə tam uyğundur. Ancaq unutmayaq, Azərbaycanda çoxsaylı Batı şirkətləri çalışdığından onun ŞƏT-ə keçməsi asan

başa gəlməz. Deməli, Azərbaycanın bu addımı atması böyük umacaq qarşılığında olumludur. Bu umacaq da, həmin bu qurumdan, Qarabağ sorununun çözülməsinə yardımçı olmaq istəyi ola bilər. O da vurğulanır, ŞƏT-in əsas yaradıcısı olan "Çinin özünün ərazi konfiliktləri olduğu üçün dövlət siyasəti Azərbaycanın yanında olmağı tələb edir". O biri yandan vurğulanır, Azərbaycan, yanaşı olaraq, Batı ilə ilişkilərini davam etdirməlidir. Bu yanaşmalarda biz uzağabaxma görmürük. 20 ildən çoxdur, Azərbaycan Batı ilə Rusiya arasında vurnuxur, hər ikisinin istəklərinə, tələblərinə boyun əyir, ancaq Qarabağ sorunu nəinki sıfır nöqtəsindən tərpənir, tərsinə, daha da düyünə düşür. Bu illər içində biz Azərbaycan hakimiyyətinin, adını "balanslaşdırma siyasəti" qoyduğu, oyununu izləmişik. Elə bir oyun, istəkləri (guya) balanslaşdırılan güclərlə Azərbaycan hakimiyyəti, Azərbaycanı bu başdan o başa, o başdan da bu başa talamaqlarından ayrı bir anlam daşımadı. İndi də düşünülür, Azərbaycan yaranmış durumdan yararlanaraq, ŞƏT-lə Batının istəklərini "balanslaşdırmağa" başlasın. ŞƏT – Qarabağ sorununu açıq saxlayan Rusiyanın qatıldığı bir qurum deyilmi?! Guya ŞƏT-də Rusiyadan başqa Azərbaycanı istəyən Çin, Hindistan, Pakistan kimi dövlətlər var. Düşünürük, Çinə, Hindistana, Pakistana bel bağlamaq yazıqlığın məntiqidir. Bu çağa kimi biz nə Hindistanın, nə də Pakistanın dünya siyasətinə hansısa bir etkisini izləməmişik. Tərsinə, onlar bu gün də öz içlərində Batının əliylə qarışdırılmağa hazır dövlətlərdir. Çinə gəlincə, "onun ərazi konfliktini" tutalqa edənlər (bəhanə gətirənlər) bilməlidirlər: Çinin ən böyük sorunu Doğu Türküstanladır. Deməli, əgər Çin Azərbaycanın sınır bütünlüyünə dayaq olsa, Azərbaycan da Doğu Türküstanın Çinin basqısına uğramasına göz yummalıdır. Bəs diləyində olduğumuz "Türk Birliyi"nin mövqeyi necə olacaq – Azərbaycana görə Çinə "sağ ol"mu deyəcək, Doğu Türküstana görə "rədd ol"mu?! Axı açıq görünür, heç kim heç yerdə türk sorununu çözməyə meyilli deyil. Haçağacan Azərbaycan öz ixtiyarını, daha doğrusu, sorunlarının ixtiyarını onu düyünə salanlara tapşıracaq?! Azərbaycan gözə almalıdır, istəni-

lən halda onu oyunların ortasına çəkirlər. Bu oyunlar onun taleyini sorğu altına alır...

Bu yandan "Altılıq" adlanan gücün İranla razılaşmaları da yeni oyunlar hazırlayır. Bu oyunların da ortasına yenə Azərbaycan çəkilir. Baxın, İrana iqtisadi dirçəliş qapısı açan Altılıq dövlətləri bir-birilə çəkişmədədir. ABD, İngiltərə, Fransa, Almaniya Batının siyasal strukturunu yaradanlardır, Rusiya ilə Çin isə ŞƏT cəbhəsinin yaradıcılarıdır. Deməli, İranın əl-qolunu açıb hərə öz yanına çəkməyə çalışır. Burada İranla bağlı başqa istəkləri sadalamadan, bizi rahatsız edən bir məsələnin adına vurğu etməklə yetərlənəcəyik. Yuxarıda yazdıq, istənilən halda, oyunların ortasında (episentrində) Azərbaycan dayanır – O Tay, Bu Tay Azərbaycan. Deməli, Batı İranı özü üçün bölgədə söz yiyəsi eləsə, Rusiya Güney Azərbaycanın taleyini oynatmağa başlamaq istər. Sorunu çözəcək yox, qarışdıracaq. Belə bir oyun növü Batının da planında yox deyil. Özəllikcə Batının da istər Rusiyaya qarşı, istər Çinə qarşı bənzər planı ehtiyatdadır. Yəni Rusiyanı içində Tatarıstanla, Başqırdstanla, Çini Doğu Türküstanla qarışdırmaq planları haçansa işə düşə bilər. Ancaq bu məsələ o qədər də asan deyil. Onların içini elə qarışdırmaq, doğrudan da, onlar (türklər) bagımsızlıq olanağı qazanmasınlar. Düşünürük, bu istək o halda ola bilər, Türkiyənin gücü Kürdüstan məsələsinin çözülməsi ilə sındırılmış olsun. Bu yöndə iş gedir də. Öncə İraqda, Suriyada türkləri qırmaqla, qovmaqla içdə qorxu saxlamamaq, sonra Türkiyənin sınırlarını daraltmaq. Baxın, bütün oyunlar, çəkişmələr Türk Dünyasının bölgələrində gedir. Ona görə hər dəfə olduğu kimi, vurğu edirik: türk dövlətləri qoşulmaq üçün orda-burda "Birlik" axtarmaq yerinə, özlərinin Birliyini gündəmə gətirməlidirlər. Ancaq bu Birlik – mədəniyyət, ədəbiyyat adamlarının gediş-gəlişi ilə sınırlanmalı deyil. Türk dövlətlərinin siyasal, hərbi, iqtisadi Birliyi (əməkdaşlığı yox) elan olunmalı, işə başlanılmalıdır.

Kaş bu diləyimiz türk dövlətlərinin başçılarının da diləyinə çevriləydi.

## Ümumtürk Hərəkatı başlamalıdır

Azmanlar yaralananda yan-yörələrindəkiləri gəmirməyə başlayırlar. Elə olanda güclülər döyüşür, balacalar ayaqlar altında qalır...

70 il özünü dünyanın birinci yerində güclü sayan Rusiya axır, böyük istəklərində yaralandı. Bununla da yedəyindən açılmaq istəyənləri çağaşırı əzməyə başladı. O bu çağa qədər ən böyük saldırıları Azərbaycana qarşı yönəldib. Vətənimizin böyük bir kəsimini əlimizdən alıb erməniyə bağışlayıb. Bu azmış kimi insanlarımızı doğmaca baş kəndimizdə evlərinin içində, qarşısında gülləbaran eləyib.

Bu yazıda istək, söz yox, hər kəsə bəlli olan qanlı olayları sadalamaq deyil, baxışları yurdumuzla bağlı bir məqama yönəltməkdir. Az qala iki yüz ildir bizim taleyimizi Rusiya yazır. Daha doğrusu, taleyimizi Rusiya qaralamaqla uğraşır. Rusiya bizim xəritəmizi istədiyi vaxt dəyişir, dəyişə-dəyişə gedir. Biz də bununla hər dəfə barışırıq. "Rusiya güclüdür, qarşısına çıxmağa gücümüz çatmır" deyərək, onun bundan sonra bizimlə bağlı hansı addımı atacağını gözləyirik. İstədiyi vaxt bizimlə yalançı dost kimi davranır, arxayınlaşırıq. İstədiyi vaxt milli mənliyimizi də, vətənimizi də ayaqlayır, qısılırıq. Dərs götürmürük, addım atmırıq, bu heyvərənin basqısı altından qurtarmaq haqqında düşünmürük. Pişik siçanla oynayan kimi bizimlə oynayır.

Azərbaycanı iki yerə böldü – bunu "çar yönətim quralı"nın (üsul-idarəsinin) hədəfi saydıq, bütövlükdə Rusiyanın gələcəksəl planı (strategiyası) saymadıq. Toparlanıb sonrakı qorxuları qabaqlamaq yerinə, ixtiyarımızı Rusiyanın olmayan mərhəmətinə buraxdıq. Dəmirqapını (Dərbəndi) halal malı kimi mənimsədi, Borçalını Gürcüstanın parçası kimi təsdiq elədi, ayılmadıq. Bizi erməni adlanan bolşevik nökərlərinin əliylə soyqırıma uğratdı, bunu daşnakların əməli kimi qiymətləndirib, Rusiyanın adını tutmadıq. Yurdumuzun bir parçasında (ingilis, fransız

yandaşları ilə birlikdə), ermənilərlə bizi “qardaşlaşdırandan” sonra Ermənistan dövləti yaratdı, yenə səsimiz çıxmadı. İmperiyasının içində, dönə-dönə Borçalıdan, Ermənistan adlanan tarixi yurdumuzdan türklərin köçürülməsi (deportasiyası) həyata keçirildi, bizim Rusiya ilə heç bir sorunumuzun olmadığını dilə gətirdik. Qarabağı boşaltdı, erməniyə verdi, Bakını qanına qəltan elədi, bunu Qorbaçovun, Yazovun, Azərbaycanın o çağkı hakimiyyətinin ayağına yazdıq. Yenə də Rusiya toplumumuzun gözünə arı-duru göstərildi. Hələ Qarabağdan sonra da sınırımızı dəyişmək istəyəcək. Yenə də “o güclüdür, biz gücsüz” deyib qısılacıq.

Rusiya istədiklərini elədikcə biz addım-addım geri çəkilirik. Geridə isə bizi yoxluq gözləyir. Rusiya bizim varlığımızı sona çatdırmaq istəyindədir. Pyotrun sonərkindən (vəsiyyətindən) irəli gələn bir sürəc dönməz xarakter alıb, qabağa gedir. Bu gün də Rusiyanın Azərbaycanı hədələyən jestləri həmin plana bağlıdır.

Son günlərdə Azərbaycanda “Avrasiya İttifaqı” adında bir örgüt ortaya çıxdı. Deyirlər bu örgüt keçmiş DTK-nın yavrularından oluşdurulur. Yəni Rusiyanın kölələrindən. İstək də odur, Azərbaycan iqtidarına etki göstərib (ya da bütövlükdə onu öz nökərləri ilə dəyişib) Batının Güney Qafqazı ələ keçirməsinin qarşısını alsın. Biz isə deyirik: günsəl (taktiki) addımlar nə olursa-olsun, həmin böyük planın bir parçasıdır. Kimlərsə deyə bilər, Rusiyanın bu qorxulu planına qarşı elə Batının Güney Qafqazda oturuşması bəlkə daha çox önəm daşıya bilər. Biz yenə belə düşünənlərin yanıldıqlarını vurğulamaq istəyirik. 90-cı illərdə Rusiyanın zorakılığından qaçıb Batının ideoloji etkisinə sığınanlar Azərbaycan üçün hansı uğurları əldə edə bildilər ki?! Azərbaycanın Rusiya əməli ilə dəyişdirilmiş xəritəsini, Batı içimizə girməklə, yerinə qaytarmadı ki. Tərsinə, daha da yardımçı olur. Başqa bir yandan, hələ də sübut eləmək gərəkdirmi, Batının “Orta Doğu Projesi”nin başlıca hədəflərindən biri Türkiyəni parçalamaqdır?! Batı ilə Rusiya bir-biri ilə çəkişsələr də, biri Türkiyəni parçalamaq hazırlığı aparır, o biri Azərbaycanın var-

lığını sona çatdırmaq hazırlığı. 90-cı illərdə Batıya boylanan umudların bu gün puç olduğu bütünlüklə üzə çıxmadımı? Nə yazıqlar, bütün eyforiyaların köpük olduğu göründü, ancaq bizdə "ağıllanma sürəci" hələ də başlamayıb.

Yuxarıda vurğuladıq, bizim yurdumuzla bağlı, istədikləri xəritələri yaradır, arxasına da güc qoyurlar. Bir xəritəmiz Rusiyanın diləkləri ilə cızılır, başqa bir xəritəmiz Batının (Güney Azərbaycanın böyük bir coğrafiyasını, Batı gözdə tutulan "Kürdüstan" xəritəsinə qatıb).

Biz də, ayrı-ayrı ürəyi yanan aydınlar, deyirik, o xəritələri qəbul etmirik. Genel olaraq, Azərbaycanın indiki sınırlarını qəbul etmirik. Həmin güclər öncə sınırlarımızı pozur, yurdumuzu parçalayırlar (ya birbaşa, ya dolayısı ilə), sonra yaratdıqları BMT adlanan uluslararası qurumun dili ilə deyirlər: filan ildən başlayaraq, sınırlar toxunulmazdır. Parçalana-parçalana bir ovuc qalmışıq. İndi BMT adlanan "Allahın" "fatalizm tamğası"nı dəyişməz qəbul edib yurdumuzun parçalarından əl çəkməliyikmi?! Söz yox, əl çəkməli deyilik. Ancaq nə etməli, axı bu gün bizim istəklərimizin arxasında güc-qüvvə yoxdur...

Ölkənin durumu olduqca ciddidir. Ancaq bizim çalışqan insanlarımız basın yayınlarında görüntülər yaradırlar. Özləri də, çoxluq olaraq, yazılarda məmur özbaşınalıqlarını sadalamaqla savaşlarını bitmiş sayırlar.

Siyasal partiyaların çabalarından isə danışmağın heç bir anlamı yoxdur. Satılanlar satılıb, satılmayanlar da gücsüzləşib dağılırlar.

Hakimiyyətə gəlincə, elə köklənib, ya bu cür davam eləməlidir, ya da çöküb sıradan çıxmalıdır. Onun varlığında hansısa bir reforma önəmli etkiyə çevrilə bilməz. O, özünü belə yaşamağa məhkum edib. Talançılığından əl götürə bilmir, zorakılığından geri dura bilmir.

Çoxlarına qəribə görünsə də, düşünürük, bütün partiyalar özlərini buraxmalı, ümumxalq hərəkatına başlamalıdırlar. Öz partiyadaşlarının, öz toplumlarının qarşısında ciddi sorumluluq daşımalı, balaca iddialardan əl çəkməlidirlər. Xalqa, bir-birləri-

nə yanaşmalarında əsaslı dəyişikliklər etməli, ölkə içrə böyük reformalara uğramalıdırlar. Bundan sonra Milli Qüvvə yaranar, dışarıdan gələn qorxulara qarşı direniş göstərilə bilər.

Türkiyənin gəlişməsi üçün də, gücü Azərbaycandan öndə olsa da, düşünürük, bu prinsiplər keçərlidir.

Ümumxalq hərəkatı Ümumtürk hərəkatı anlamı daşımalıdır. Türklüyün qorunması üçün bundan başqa yol qalmır. Ancaq bu hərəkat içimizdə yaşayan başqa etnik yurddaşlarımızdan qıraqda yox, onların qatqısı ilə yerimәlidir. Çünkü türklüyün qurtarılması onların da qurtarılması anlamı daşıyır. Onlar bizim ayrılmaz parçamızdır. Bunu unutmaq olmaz.

Vurğu edirik: Hamı üçün gözlənilən qorxulara qarşı Ümumtürk Hərəkatı başlamalıdır!

## Türkçülük Hərəkata çevrilməlidir

Dünya güclərinin mövqe dartışmaları – siyasal mənzərənin gözlənilməz, birdən-birə dəyişilməsinə stimul verir. Sürəclər o qədər sürətlənib, ikinci, üçüncü sırada duran dövlətlər macal tapıb regional mövqelərini dəqiqləşdirə bilmirlər. Uluslararası yanaşmalarda bir sorun çözümünü tapmamış yeni sorunlar ortaya çıxır, ya da çıxarılır. Artıq istənilən bir dövlətin gücü öz içində dəyişməz hərbi, iqtisadi zəmin tapmaqla deyil, region dövlətlərin içinə soxulmaqla, onların üzərində hakim etkiyə yetməklə ölçülür. Bəşəriyyətin mənəvi halı pozulub. Dünyada elə bir anarxiya var, milli dəyərlər, mədəni quruculuqlar arxa plana keçib, toplumsal həyata etkisini itiribdir. Bəşər övladının dodaqlarında demokratiya kəlməsi çiçək açdıqca dünyanın halı bataqlığa çevrilir. Bu gün demokratik gedişdə dövlətlərin ayaqda qalmasının çətinləşməsi toplumsal həyatda anarxiyanın çoxalması ilə bağlıdır. Bir yandan guya imperiyalar sökülüb milli dövlətlər qurulur, ancaq o biri yandan tarixi dövlətlər parçalanmağa uğradılır.

Bu açıdan yanaşanda Türkiyənin Osmançılıq meyli əcayib etki bağışlayır. Hökumət elə görüntü yaradır, guya Türkiyəni

qorumaq üçün yan-yörədə keçmiş etkilərini bərpa eləmək gərəkdir. Ancaq bizə görə bu niyyətin heç bir gələcəyi yoxdur. Bu gün dünyada aparıcı etkisi olan Batı dünyası var, onun Orta Doğunu yönətmək üçün strateji planları var. Türkiyədəki gedişlərin yönətilməsi də bu planların içindədir. Həmişə vurğuladığımız kimi, bu plan iki yöndə Türklüyün sıradan çıxarılmasına hesablanıb. Birincisi, Sovetlərin dağılmasından sonra ayrı-ayrı türk dövlətlərinin bir-birinə yaxınlaşması qaçılmaz oldu. Söz yox, öz ağalığını qorumağa çalışan, bunun üçün də parçalama siyasəti yürüdən Batı bu yaxınlaşmaya vecsiz qala bilməz. Bəllidir, bu çağa qədər Türkiyə Batının ideoloji, siyasal etki çevrəsindədir. Bağımsızlıq əldə eləyən türk dövlətlərinin bir-birinə yaxınlaşması Türkiyə araçılığı ilə gözlənilirdi. Bəlli dövr "Türk Dünyası", "türkçülük", "türklərin inteqrasiyası" (qaynayıb-qarışması) çağırışları da eşidilməyə başladı. "Türksoy", "Türk dövlətlərinin parlament assambleyası" b.k. qurumlar yaradıldı. Ancaq heç bir addımın həlledici etkisi olmadı. Artıq "türkçülük", "Türk Dünyası", "türk birliyi" deyimləri ayrı-ayrı millətsevərlərin yazılarında ilişib qalıbdır. Genel anlamda sanki köhnəlib bayağılaşmışdır. Bütün bunlara səbəb Ərdoğan hakimiyyətinin Türkiyəni yenidən müsəlmanlaşdırmasıdır. Düşüncələri çadraya bükməklə türklüyün gəlişməsini əngəlləyən Ərdoğanı, doğal olaraq, Batı dünyası kölgəsində tutur. Əminliklə demək olar, Türkiyə hökumətinin İsraillə münasibətləri korlaması da Batının niyyətlərinə uyğun şəkildə baş verir. Yəni Batının Orta Doğudakı başlıca vassalı olan Türkiyə hakimiyyətinin, Batının müsəlman ərəbləri yönətməsi üçün öndərlik rolu olur. Türkiyənin – Türk Dünyasının deyil, müsəlman ərəblərin öndərinə çevrilməsi üçün, qaçılmaz olaraq, İsraillə münasibətləri oynadılmalı idi. Beləliklə, həm Orta Doğu göz altında saxlanılır, həm də Türk Dünyasının yaxınlaşması əngəllənir. Orta Doğunu Batının göz altına götürməsi istənilməsə də, türk birliyinin yaranmaması, Rusiyanın, Çinin, eləcə də İranın çıxarlarına uyğun gəlir. Türkiyədə yeridilən siyasət bu ardıcıllıqla davam edərsə, orada türk sözü leksikondan çıxarıla bilər. Sovetlərdə, ABD-də,

Azərbaycanda sınaqdan çıxarılmış mücərrəd xalq anlayışı Türkiyədə də tətbiq edilə bilər – türk milləti yerinə Türkiyə xalqı. Bu da türklüyün sıradan çıxarılmasının ikinci yönüdür. Yəni dışarıda Türk Dünyasının Türkiyəyə ümidi aradan qaldırılır, içəridə isə milli şüurun türklüyə, Türk Dünyasına bağlılığı sıradan çıxarılır.

Bir şey bəllidir, Türkiyə Osmanlı hegemonluğunu bərpa edə bilməyəcək. Nə dünya o çağkı dünya deyil, nə də dövr qol-qılınc dövrü deyil. İdeoloji, iqtisadi olanaqlar da, göründüyü kimi, Batının əlində. Sadəcə Ərdoğan yerinəyetirmə görəvində dayanıb hakimiyyətinin ömrünü uzadır. Bizə görə təkcə doğru yol Türk Birliyinin yaranmasıdır. Türk Dünyasının birliyi bərqərar olmasa, bütün mövqelər itiriləcəkdir. Bu Birliyin yaranması üçün isə, Türkiyədə İslamlaşmağa qarşı, Türkçülük Hərəkatı başlamalıdır, bu Hərəkat bütün Türk Dünyasını qapsamalıdır. Bu çağırış xəyal kimi görünməməlidir!

## Böyük Türk Birliyinə doğru

VII yüzildən üzü bu yana Türk öz taleyini bəlli edə bilmir. Bu da Türkə İslam dininin gəlişi ilə bağlıdır. Bəzən din yanlıları deyirlər, türkün taleyi həmişə dağınıq olub, yəni böyük birliyi olmayıb. Bunu tarixi həqiqət kimi demirlər, qınaq kimi deyirlər. Çünkü böyük birlik bütün xalqlarda istənilən səviyyədə olmayıb. Söz yox, xalqın özümlüyünü ifadə eləyən birlikdən danışırıq. Bunu təkcə türkün sorunu kimi vurğulamaqla, ortaya çıxarılan bu qınaq, dini qorumaq anlamı daşıyır. Ən çox Osmanlı imperiyasının qurulmasını örnək göstərib, bunu, türk üçün, dinin yaratdığı birlik kimi sunurlar. Yəni burada hərəkətverici qüvvə kimi İslam dinini götürürlər. Belə düşünən adamlar, düşünürəm, ulusal kimliyi dərk eləməyən adamlardır. Çünkü Osmanlı güc biryerdəliyi olsa da, milləti içdən yaratmadı. Qondarma Osmanlı mədəniyyəti heç vaxt türk kimliyini ifadə eləməyib. Dilin, kültürün, ruhsal varlığın özgələşməsi, yüzillər boyunca, tarixin gözümüzün qabağına tutduğu faktlardır.

Özgələşdirən birliyə güvənmək olmaz. Din – özgələşdirən birlikdir. Başqa sözlə, din – bizim özgürlüyünü itirdiyimiz birliyimizdir. Bu cür itkilərimizin uzantılarını çağımızda da izləmək olur.

Dini geriliyə boyun əymələrimiz bütün çağlarda ulusal kimliyimizə zədə yetiribdir. Buna görədir, biz həmişə "yan" axtarmışıq, "yan" olmamışıq. Yəni başqalarının bizim üçün hazırladığı yabançı birliklərdə özümüzə yer axtarmışıq. Həmişə də ulusal kimliyimizdə zədələnmişik. Sovetlər qurulanda bir cür zədələndik, sovetlər dağılanda başqa cür. Sovetlər qurulanda bizi içinə aldı. Çünkü öz içimiz yox idi. İçimiz din geriliyi ilə dolu idi. Bu geriliklə döyüşümüz "rus marifçiliyi" ilə həyata keçirilirdi. Aydınlığımızı "rus marifçiliyi" yaradırdı. Aydınlarımız rus mədəni etkisinin altında bizi ərəbçilikdən, az da olsa, açıb rusçuluğa bağlayırdı. Ona görə az da olsa deyirik, mədəni düşüncələrimizin yönündə lokal dəyişikliklər yaranırdısa da, ruhsal dünyagörüşümüzdə heç bir dəyişiklik baş vermirdi. Çünkü rusçuluq ərəbçilikdən güclü deyildi. Ərəbçilik ruhumuzu qapsayırdı, rusçuluq toplumsal həyatımızı. Bir sözlə, rusçuluq yönlü marifçilərimizin etkisiylə türkçülüyə üz tutmurduq, tərsinə, ondan uzaqlaşırdıq. Ulusal kimliyimiz rusçuluğa üz tutmağımızla kölgələnib arxa plana keçirdi. Ona görə bolşeviklərin içimizə hakim olması böyük çətinlik çəkmədi. XX yüzildə Nərimanovların, satqın Çingiz İldırımların bizi ruslaşdıran əməllərinin özülünü, XIX yüzildən başlayaraq, Axundovlar qoymuşdu. Ərəbçilik dünyagörüşünə lağ edən Axundov çiyinlərində çar Rusiyasının paqonlarını, döşündə də nişanlarını daşıyırdı. Kimsə Axundovların çalışmalarını keçid aşaması saya bilər. Biz belə saymanı yanlış sayırıq. Keçid aşaması özümləşmə xəttində ola bilər. Bir özgələşmədən çıxıb başqa özgələşməyə girmək, yəni ərəbçilik geriçiliyindən çıxıb, rusçuluq "gəlişməsinə" girmək qalxınma (tərəqqi) aşaması sayıla bilməz. Belə götürəndə, biz heç ərəbçilik geriliyindən tam çıxmamışıq da. Üstəlik rusçuluq əsarətinə də girmişik.

XX yüzilin sonunda sovetlər dağıldı. Ancaq biz rusçuluq əsarətindən çıxmadıq. Tərsinə, ərəbçilik əsarəti, basqısı içimizdə yenidən irəliləməyə, qalxınmağa başladı. Biz ulusal kimlikdə qabağa getmirik. Yabançı yerdəyişmələr edirik. Bir əsarət o biri əsarətdən qabağa keçir (aradan qalxır yox).

Sovetlər dağıldı, əsarətimizə biri də – Batı əsarəti də qoşuldu. İndi marifçilərimiz, aydınlarımız nə düşünürlər – biz hara gedirik?! Bu millətə nələr vəd olunur?!

Ancaq biz, Mütləqə İnam Ocağı, ulusal kimliklə bağlı nə düşündüyümüzü sunuruq. Deyirik, Asif Ata türkə bəşəri üz (sima) yaradır. Bu, nədə özünü göstərir?! Baxın, Hindi, Çini çıxsaq, dünya çoxluq olaraq, müsəlman, ya da xristian olmaqla, semit dünyagörüşünə tapınır. Bu gün aydın görünür, semit dünyagörüşü gerilik, köhnəlik anlamı daşıyır. Batı dünyası xristianlığı öz psixologiyasına uyğunlaşdırıb, pis-yaxşı ulusal kimliyini qoruyur. Ancaq müsəlman nəinki öz ulusal kimliyindən soraqsızdır, özünə qarşı yaşayır. Özəllikcə, türk toplumları. Biz bunu ayrı-ayrı yazılarımızda faktlarla dönə-dönə sübuta yetirmişik.

Bu gün Asif Ata insanlığın mahiyyətindən gələn, türkün xarakterini də özündə daşıyan ulusal-bəşəri dünyagörüş ortaya gətiribdir. Ulusallığı ondadır, bu dünyagörüşün tələbində türk, bir etnos olaraq, özgürlüyünə yetir, kimliyini qoruyub saxlayır. İslam ümmətçiliyində türk kimliyi heç vaxt heç yerdə özünə yer tapmayıb. (Bu məsələ ilə də bağlı, istər yazılı, istər elektron basın yayınlarında yetərincə yazmışıq).

Bəşəriliyi ondadır, Asif Atanın İnam Dünyagörüşü İnsanlığın mahiyyətindən gəlir, İnsanlaşma tələbi ilə çıxış edir. Bu səbəbdən də, Asif Ata dünyagörüşü türkə bəşəri sima yaratdığı kimi, bəşərə də ulusal (milli) sima yaradır. Asif Ata deyir: "Millətsiz bəşər yoxdur". Bəşər mədəniyyəti millətlərin özünəxaslığından yaranır. Bu dünyagörüş insanlığı İnam səviyyəsinə qaldırdığına görə burada istənilən millət öz kimliyini bütöv biçimdə ifadə edə bilir. Bu düşüncəyə, ideyaya dayanıb deyə bilərik, Məhəmməd bəşəri peyğəmbər deyil. Ümmətçilik milləti

dandığına görə bəşəriliyi təsdiq edə bilməz. Peyğəmbər hər bir milləti təsdiq elədiyi dərəcədə onun peyğəmbəri sayıla bilər. Asif Ata milli yönlü olduğu, hər bir millətin varlığını öz ideyaları ilə qoruduğu üçün onun dünyagörüşü bəşəridir, özü də bəşəri peyğəmbərdir. Peyğəmbərdir, yəni İnam yaradıcısıdır. Biz Asif Atanı Allahdan soraq daşıyan peyğəmbər saymırıq. Başqa sözlə, peyğəmbər sözünün hərfi anlamını deyil, fəlsəfi, ruhsal anlamını qəbul edirik – yəni Yeni Bəşər Halı yaradan İnam yaradıcısı. (Bu haqda da yetərincə aydınlaşdırıcı yazılarla basın yayınlarında çıxış etmişik).

Bəşərin siması – insana münasibətlə ölçülür. Əslində bəşərin taleyi də insana münasibətlə bağlıdır. İnsana münasibət doğru deyilsə, bəşər özündən ayrılıb deməkdir. Onun gələcəyini qanlı savaşlar, qırğınlar izləyəcək. Bu açıdan da deyirik: Asif Ata insana münasibəti yeni aşamaya qaldırır, başqa sözlə, İnsanilәşdirir – bəşəri özünə qaytarır.

## Türkçülük Bəşəri Tələbdir

Bu gün insanlar arasında hər bir düşüncəyə subyektiv baxış kimi yanaşma halları çoxalıb. Varlığa yeni yanaşmaların danılmaz qatlarını ortaya qoysan da, bu, düşüncələrdə subyektiv xarakter daşıyır. Varlığa köhnə yanaşmaları isə, bilim adamlarının, eyitim görmüş adamların içərisində elələri var, obyektiv yanaşma saymasalar da, subyektiv yanaşma da saymırlar. Çünkü gerilik səviyyəsində düşünən toplumun basqısından çəkinmələr – doğru düşüncə söyləməyin qarşısını alır. Ancaq ulusal sistemi oluşduran düşüncələrə çəkinmədən, o an, subyektiv düşüncə adı qoyurlar. Özəllikcə demokratiya adlanan ideolojilik toplumsal düşüncəyə gətirilən hər şeyi subyektiv adlandırır. İndi toplumsal çalışmalarda bulunan hər kəsdən "bu da bir baxışdır", "bu da bir yanaşmadır" deyilişinə tez-tez rast gəlinir. Yəni yanaşmalar çoxdur, bu da biri. Bütün bunlar onu göstərir, heç kim heç kimin dediyinə həqiqət kimi baxmır. Bəs belə olanda

sonuc nə olur? – Toplumda heç bir birlik alınmır. Bu gedişlə alınmaz da.

Söz yox, hər kəsin dediyi fal deyil. Ancaq bir daha vurğu edirik, burada söhbət ulusal sistemi oluşduran düşüncələrə yanaşmadan gedir. Çünkü başqa yöndə fal sayılan baxış yox deyil. Bu başqa yön də, dediyimiz kimi, ulusal sistemi deyil, gerilik (cəhalət), özbaşınalıq (anarxiya) ortamı yaradır. Bu cür ortam da birliyə deyil, dağınıqlığa yön verir. Ayrı-ayrı misallarla qonunu genişləndirmək də olar. Bunun üçün öncə, yuxarıda vurğuladığımız, "varlığa yanaşma" ideyasına üz tutaq. Bu gün iki baxış yanaşı gedərək, bir-birini danmadan toplumun yaşamını yönətir. Bunlardan biri İslam dinidir, biri də Batı ideolojisi olan demokratiyadır. Öncə İslam dininin toplumda yaratdığı halı gözdən keçirək. Bu din insanların düşüncələrində varlığa yanaşmanı əyir. Bununla da ulusal birliyin qabağını alaraq, ulusal yaşam sistemimizi dağıdır. Bu nədə özünü göstərir? – Öncə varlığa yanaşmanın əyriliyinə qısaca düşüncələrlə aydınlıq gətirək. Varlığın özülündə Allah ideyası durduğuna görə, sözü İslamın bu ideyaya yanaşmasından başlamaq olar. Onu demək olar, Allah ideyası insan üçün iki cəhətdən olduqca önəmlidir. Biri odur, bu ideya kainatın nizamını, quruluşunu, gedişini anlamaq istəyindən ortaya cıxıb. Bəşər idrakı sakit durmaz, sirləri açmaq istər. Çünkü idrakın bilməsi, sirlərə yetməsi əminlik, nikbinlik yaradır. İdrak ondan ötrü var, sirlərə yetsin. İkincisi, Allah ideyasına dayanıb insanca, ulusca uğurlu bir gələcəyin oluşmasına çalışmaq olar. İndi görək, bu iki yön İslam dünyabaxışında nə dərəcədə özünü doğruldur?! Bəllidir, kainatla bağlı, İslam dininə görə, "Allahın sonradan, yox yerdən yaratdığı bir şeydir" düşüncəsi irəli sürülür. Bununla da, bəşər övladının kainatın sirlərinə ağıl uzatması yanlış sayılır, yasaq bilinir. Kainatı Allah necə yaradıb, nə üçün yaradıb, özü bilər. Allah kainatı yoxdan yaratdığı kimi, yox etmək üçün zaman da ayırıb – "Qiyamət günü". Bu yanaşma ilə nə dünyanı dərk eləmək olar, nə də Allah ideyasını. Allahı dərk eləməyən insan mənəvi quruculuq işləri yerinə yetirməz. Allah anlamı özündə fəzilətlər,

gözəlliklər daşıyır. Allahı dərk etmək – fəzilətlərlə, gözəlliklərlə dolub arı-duru ömür yetirmək deməkdir. İnam çox böyük qüvvədir. Ancaq gərək İnamın gedişi idraka bağlı olsun. İnsanı inandırıb qul da eləmək olar, şəxsiyyət də. İnsanın idrakını söndürüb nəyəsə inandırmaqla, onu, qul durumuna salmaq olar. Ancaq insanın idrakını yetkinləşdirib, onu, uca həqiqətlərə inandırmaqla, şəxsiyyətə çevirmək olar. Bu açıdan yanaşanda müsəlmanın Allaha inamı kor inamdır. Genellikcə, müsəlmanın düşüncəsində Allah ideyası yanlış canlanır (təhrif olunur). Müsəlman ibadət edir, dua edir, ancaq bu, Allaha üztutma anlamına gəlmir. Allah müsəlmanın görümündə pay verən, qismət verən, ruzi paylayan anlamındadır. Din özü Allahı müsəlmana o cür sunur: "Ya peyğəmbər iman gətirənlərə de ki, onları cənnətdə filan-filan şeylər gözləyir… orda nə isti var, nə soyuq, nə əzab var, nə kədər… hər şey hazırdır" (Quranda bəlli ayə). Buna görədir, müsəlman ibadət edəndə Allaha üz tutmur, Allahın vəd elədiyi həzzə, kefə, rahatlığa can atır. Allaha can atıb onun kimi qüdrətli olmaq yox, kefcil olmaq istəyi hökm sürür. O başqa məsələ, Allahın özü də mənəvi qüdrət qaynağı kimi sunulmur, dediyimiz kimi, kef, əyləncə paylayan güc obrazı kimi sunulur. Əslində din insanı kefə, həzzə, cinsiyyətə çağırır, dolayısı ilə şəhvətə sevgi (pərəstiş) yaradır. Ömürlərdə Allaha səcdəni cinsiyyətə səcdə əvəz edir. Bu səbəbdən də nə Allah var olur, nə də insan. Dinin ideyaları özündən öncəki baxışların bəsitliyindən, ibtidailiyindən qurtara bilmədi. Bir sıra nəfsi istəklər qorunub saxlandı. "Dünya malına tamah salma" deyib də dünya malına şirnikləndirmə dinin özül ideyasında – cənnətə çağırışda başlıca yer tutur. Buna görədir, bu gün ibadətə qurşanan, deyək, oruc tutub namaz qılan müsəlmanla vətən sevgisindən söhbət açmaq olumsuzdur. "Vətən imandandır" sözünü əzbərləyən müsəlman üçün vətən, onun həzzidir, cənnətidir. Çünkü "dünya fanidir, heçdir" düşüncəsini müsəlmanın beyninə yeridib "vətən imandandır" deməkdə qəti bir ikiüzlülük (riyakarlıq gizlənir. Bu cür ikiüzlülüklə müsəlmanda vətən sevgisi yaratmaq özünü doğrulda bilməz.

Bütün bu deyilənləri içdənliklə düşünən adam görər, min ildir, İslam dini bizim milli sistemimizi necə darmadağın eləyib. Tarixin heç bir dönəmində İslam-türk birliyi yaranmayıb. Çünkü türk Məhəmmədin köləsinə, bəndəsinə çevrildi – ümmət bu deməkdir. Ümmət – birlik demək deyil. Çünkü ümmətçilikdə millət özümlüyünü itirir. Birlik – millətin özünəxaslığının qorunması ilə oluşar. Birliyi yaradan özgürlükdür. İslam türkdən millət yaratmadı, şiə, sünnü yaratdı. İslam gerilik yaradır, gerilik yaradan isə alətdir. Aləti hər kəs qullanar. Göründüyü kimi, qullanıb bizdən nurçu, vəhabiçi yaradırlar.

Yuxarıda dedik, toplumu yönətən ikinci baxış demokratiyadır. İnsanın yaşamına etkisi baxımından demokatiyanın zərəri dindən az deyil. Demokratiyanın yaratdığı ən böyük hal özbaşınalıqdır (anarxiyadır). Yönü siyasi qarşıdurmadır. Demokratiya bizim içimizə Türkçülüyün yerinə gəlib. Həm demokratiya, həm türkçülük, birgə olan iş deyil. Demokratiya ideolojisini şüuruna hakim edən adam Türkçülüyü dərk etməz. Soydaşlarımın duyğularına toxunmaq istəmirəm. Biz ciddi türkçülərik. Bizim üçün Türkçülük ideoloji hədəf deyil, ruhaniyyat məsələsidir. İdeologiya siyasi məqsəddir, Türkçülük – ulusal varolmanın özülüdür. Ulusal varolma siyasi məqsəd ola bilməz. **Bu, bəşəri bir tələbdir**. Siyasət mənafelər davranışıdır. Türkçülüyü mənafelər döyüşünə çevirmək olmaz. Bu gün bizi çevrələyən gedişlərdə millətçiliyin siyasətə çevrilməsini izləyirik. Məsələn, rusçuluq, ingilisçilik, çinçilik. Bu "çılıqlar" özünü ulusal-mənəvi təsdiqə deyil, başqalarına basqı göstərməyə hesablanıb, basqı yaratmağa köklənib. Biz, Asif Atanın Mütləqə İnam Ocağı, türkçülüyün ingilisçiliklə, farsçılıq, rusçuluq, çinçiliklə eyniləşməsinin yanlısı deyilik. Başqa toplumları əritmək, başqa mədəniyyətləri sıxışdırmaq insaniliyi (bəşəriliyi) deyil, heyvaniliyi təsdiq edir. Bizim üçün türk bəşəri anlamda qurtarıcı qüdrətdir, o bu qüdrətə yetməlidir. Yetməsi üçün Asif Ata onun bəşəri keyfiyyətlərini üzə çıxaran İnam Dünyabaxışı yaradıb. Öyrənmək, tapınmaq, özgür olmaq gərəkdir.

## Türkcəmizin ərdəmliyini qoruyaq

Azərbaycanın siyasal faciəsi zaman-zaman onun həyatının bütün sahələrində özünü göstərib. Bu gün də biz həmin faciələrin ağırlığı altından çıxa bilmirik. Bəlkə də bizə ən böyük faciəni "Türkmənçay bağlaşması" yaşadıb. Tarixdə başqa xalqların aqibətinə də parçalanmalar düşüb. Ancaq heç bir xalqa parçalanma, bizdəki kimi, məzhəkə taleyi yaşatmayıb. Yurdumuzun bir parçasını Rusiya işğal elədi. O biri parçasında isə, türk yönətiminə son qoyularaq, yerində fars hakimiyyəti quruldu. Antitürk qüvvələrin əli ilə yönətilən, türkə qarşı möhkəmlənən fars hakimiyyəti də ədaləti, vicdanı komediya faktına çevirdi. İki yüz ilə yaxındır, öz doğma yurdunda qərib yaşayan Azərbaycan türkü doğduğuna türk adı qoya bilmir, onu türk dilində oxutdurmaq sorunu yaşayır. Fars hakimiyyəti bu millətin türk olduğunu hər an onun özünə dandırmağa çalışır. Türk sözünü millətin gözündən salmaq üçün hər oyundan çıxır. "Eşşək türk" mənası daşıyan "türkəxər" sözünü qulaqlara o qədər doldurub, nəinki farslar, ordakı türklərin passiv, ancaq sayca əsas kütləsi, acığı tutanda bir-birinə "türkəxər" deyiblər. Bu azmış kimi, indiyədək dilimizə qarşı aşağılayıcı kompaniyalar həyata keçirilib. Bu kompaniyaların etkisi bu gün də həyatımızda öz işini görür. Məsələn, türk dilində elə fe'llər var, onları işlədəndə "türkün sözü" kəlməsi işlədirik. Deyək, "qayırmaq", "tıxamaq", "soxmaq", basmaq b.k. Bu sözlərimizə ədəbsizlik damğası vurulub. Guya bu sözlər cinsi davranışları ifadə eləyən anlayışlardır. Halbuki xalqın danışığında cinsi, cismani davranışları bildirən sözlər yetərincədir. Məsələ ondadır, fars rejimi dilimizdəki nitq hissələrinin (ən çox isim, sifət, zərf), demək olar, hamısına soxula bilib, yalnız ikisinə – "fe`l" ilə "say"a əl qoyub özgələşdirə bilməyibdir. "Say" nitq hissəsində yalnız "80"-ə dəyişiklik etməyi bacarıblar. O da ordakı türklərin humanistliyindən irəli gəlib. Yəni səksən sözü farscada, bildiyimə görə, söyüş anlamı verir. Türklər onlara qarşı sayğı göstərib səksən sözünün yerinə həştad işlədiblər. Söz yox, bu humanizm yerin-

də deyil, bizim də dilimizdə elə sözlər ola bilər, başqa xalqlarda qarşılığı başqa anlam versin. Məgər onlar bizə görə öz sözlərindən əl çəkərlərmi?!

Dediyimiz kimi, çağdaş dilimizdə ismi, zərfi, sifəti bildirən bəs qədər alınma sözlər var (ən çox da, bildiyimiz kimi, farscadan), ancaq fe'llərimiz arı-duru türkcədədir. Ona görə də dilimizi gözümüzdən salmaq üçün, türkcəmizdə səslənən fe'llərimizi "ədəbsizləşdirib" farscanın işlədilməsinə yol açmağa çalışıblar. Guya fars dili mədəniyyət dilidir, türk dili isə məişət dili. Baxın, "içəri girdim" yerinə "içəri daxil oldum" deyirik, yazırıq. Qısa, aydın, yığcam dilimizi "mədəni dil" hesabına uzadırıq, mürəkkəbləşdiririk. Bir sözlə, dilimizin uyum yasasını (ahəng qanununu) pozuruq. Çoxsaylı fe'llərimizin yanına yardımçı yabançı söz qoşuruq. Bunu da eləyəndə "türkün məsəli", "türkün sözü" deyirik. Tarixin heç bir dönəmində, dünyanın heç bir yerində belə bir şeyə rast gəlinmir, başqa xalqlar, məsələn, fransız öz dilində söz desin, sonra dalınca, öz utancını bildirərək, "fransızın sözü" kəlməsini işlətsin. Bu olası deyil. Bəs niyə biz doğmaca, gözəlcə türk sözümüzü işlədib dalınca "türkün sözü" deməliyik?! Niyə bizə layla çalan anamızın layla dilinə həqarətlə yanaşırıq?! Niyə sazımızın, muğamımızın, böyüklüyümüzün, qəhrəmanlığımızın izhar dili olan türkcəmizə utanc qaynağı kimi baxırıq?!

Bu gün yurdumuzun insanları özümüzü söymək, özümüzə gülmək, dilimizə lağlanmaq taleyi yaşayır. Ancaq buna ağlamırıq, heç acımırıq da...

Bizə özünü söymək gələnəyi öyrətdilər, indi özünə inanmaq, özünü sevmək gələnəyi yaratmalıyıq. Gənc soylara dəyərlərimizin, dilimizin, mənliyimizin qədrini bilmək gələnəyi öyrətməliyik.

"Türkün məsəli" deyən hər kəsə onun nə demək olduğunu anlatmaq gərək, bundan onları daşındırmaq gərək. Dilindən, Sözündən utanmağın ayıb olduğunu dərk eləmək, elətdirmək gərək.

## Türkcəmizin Poeziya Ruhu

Dini dünyabaxışda ərəbin, poeziyada farsın etkisinə uğrayıb yenilən türk etnosu orta çağlarda təriqətlər araçılığıyla türklüyün mədəni çöküşünün bir az qarşısını ala bildi. Türk dilini poeziyaya gətirməklə isə yeni aşama başladı. Genellikcə, şeiriyyəti insan duyğularının dərinliklərinə yeriyə bilən ən uğurlu etki saymaq olar. Qutsallığın, ruhaniliyin şeir dili ilə öyülməsi duyğulara tez yol tapır. Nə yazıqlar, klassik poeziyamızın ilkin aşamaları, əruzda yazılmaqla, fars dilində araya gəlmişdir. Bir çox klassiklərimizin yetənəkliyi türk dilinin deyil, fars dilinin gəlişməsinə qulluq elədiyi üçün, bu gün də onun mədəni etkisinin ağırlığı altındayıq. Xalq ruhu adlanan folklorun gəlişməsi də arxa plana keçib, folklorşünaslıq əski ənənələrin araşdırılması ilə uğraşır. Ancaq gələnək toplumsal yaşamda qırılırsa, onun araşdırılması yetərli sayıla bilməz. Xalqın ruhunu gələnəyin davamlı olması qoruya bilər. Gələnəyin ölçüsü isə dildir. İnsan dil araçılığıyla özünü həm ifadə edir, həm də dərk edir. Dil xalqın yaşamasının birinci koşuludur. Ancaq bu koşul bizdə çox zədə götürüb. Yuxarıda dediyimiz kimi, dini dünyabaxış bizə ərəb dilinin ifadə üslubunu da gətirdi. Ərəb öz ruhunu (ruhsuzluğunu) ruhumuza elə caladı, zaman-zaman etnik keyfiyyətlərimizi itirməyə başladıq. Türk dilini poeziyaya gətirəndən sonra da ərəb ruhunun etkisi məzmunumuzda yaşadı. Poeziyamızın obrazları dinin içindəki imamlara, övliyalara, ağ əmmamələlərə, qara çuxalılara bağlandı. Habelə sevgi, qəhrəmanlıq dastanlarımızda qəhrəmanlarımızın dili türkcə oldu, yönü ərəbcə. Yaradıcılığın bütün yönlərində ərəbçilik türk dili ilə türk ruhu arasına girdi. Milli kimliyimiz öz özülümüzə dayanmadı. Ona görə də mənəvi, siyasi faciələrimiz ard-arda düzüldü.

Bununla belə, poeziyaya türkcənin gəlişi, dilimizi, məişət dili səviyyəsində qalıb tükənmək qorxusundan qurtardı. Poeziyanın əruzdan hecaya keçid dönəmi dilimizin gəlişməsinə yeni uğurlar gətirdi. (onu da deyək, əruz özü uğurlu üslub olmaqla

yanaşı türk dilinə yad deyil...). Qoşma, gəraylı, təcnis, müxəmməs kimi aşıq şeirlərinin genişlənməsi, **Saz Sözünün** önəminin artması xalqın özünə doğmalaşması üçün ciddi ortam idi. Ustad aşıqlar dilində türkcə söz, sinəsində saz el-el, oba-oba gəzib məclislər keçirdikcə, türk dilinin gözəlliyi xalqın yaşamına qaytarılır, mənəvi varlığı işıqlanırdı.

XIX yüzilin birinci yarısında Azərbaycan yenidən işğal olundu. Bu dəfə siyasal işğal fəlakəti ilə üz-üzə qaldı. Ulusal varlığımıza zərbəni Azərbaycanı ikiyə bölməklə vurdular. Ərəbin ruhsal işğalı elə bir ortam hazırlayıb, mədəni, siyasi işğal faktından heç cür qaça bilmirik... Parçalanmağımızla türklüyün yenidən sıxışdırılması başlanıldı. Yad dillərin, yad mədəniyyətlərin basqısı altında dilimiz, folklorumuz üzü aşağıya meyilləndi, qalxınmadan dala qaldıq.

XX yüzilin ortalarında Avropadan Rusiyaya, Rusiyadan Azərbaycana yeni şeir biçimi gətirildi. Sərbəst vəznli şeirlər Saz Sözünün yaranmasını əngəllədi, – heca vəzni üstələndi. Yetənəkli yazarlar asanlığa yuvarlandılar. Aşıq sənəti, Saz Sözü adiləşdi, lağa qoyuldu. Yeni Saz Sözü yazılmadı. Bu sənət tamamilə gerilədi.

Folklorumuzun başında saz durur. Dünyanın heç yerində xalq ruhunu saz qədər bitgin ifadə eləyən olay yoxdur. Nə yazıqlar, özgəliyə meyil eləyənlərimiz poeziyanın yönünü dəyişməklə Saza arxa çevirdilər. Halbuki dünənə kimi bizi, mənəvi-ruhani aşılanmadan, ən çox saz ədəbiyyatı qoruyurdu... Sərbəst vəzndə nə qədər məna çalarları ifadə olunsa da, xalq ruhuna bütöv şəkildə girə bilmir. Çünkü musiqiyə bağlı deyil. Sərbəst vəzni nə muğamda oxumaq olur, nə də sazda. Poeziya musiqi araçılığıyla hər yerdə var. Musiqiyə doğma olmayan şeiriyyət iş görmür, havadan asılı qalır. Bu baxımdan, az da olsa, bu gün hecada yazılanları daha çox ulusal saymaq olar.

Ədəbiyyatla, daha doğrusu, poeziya ilə sazın birliyini bərpa eləmək gərəkdir. Bu, türk ruhunu qorumaq üçün olduqca önəmlidir. Yetənəkli adamlar gərək bu sorumluluqdan qırağa çəkilməsinlər.

## Türkiyə haqqına uyğun davrandı

Nə yazıqlar, toplumsal gündəmi ən çox qara, qaranlıq olaylar haqqındakı bilgilər bəzəyir. Həyatımıza qaranlıqlar yeriyir, yeridilir. Qaranlıqların doğurduğu acılar söz qonusuna çevrilir. Çağaşırı gündəmi qarışdıran məsələlər araşdırılır, çək-çevir edilir, hər kəs ona baxış sərgiləyir, nəyin doğru, nəyin yanlış olduğuna aydınlıq gətirməyə çalışır. Ancaq heç bir sorun çözülmür, bir-birinin ardınca yenilənir. Belə bir gedişi izləmək, belə bir acınacaqlı çağda yaşamaq – dünyanı sanki insan üçün dəyərsizləşdirir. Bunun da başlıca nədəni dünyaya ağalıq eləmək uğrunda döyüşən güclərin qlobal oyunlarıdır. Hər kəs başqasını yenməyə çalışır – ancaq nədə, kimin üzərində?!.

Bütün siyasal yenilməzliklərə çalışmağın yolu indi bütünlüklə insanlığı öldürməkdən keçir. Yüzillər bir-birini əvəzlədikcə, planetin abadlaşmasını izləməliykən, siyasal davranışların yeni eybəcər, dağıdıcı çeşidlərini izləyirik. Bilim gəlişdikcə bəşəriyyətin tökülən qanı daha da artır. Ağlasığmaz öldürücü əməllər həyata keçirilir. Di gəl, hər yerdə gəlişmənin qaynağı kimi demokratiya harayı çəkirlər. Ancaq bilmirsən dünya demokratiya şəbəkəsidirmi, terrorizm şəbəkəsidirmi?! Hamı özünə terror şəbəkəsi düzəldir. Dünya yarış (rəqabət) meydanına çevrilir. Hər kəs bu meydanda yenmək üçün özünün terror şəbəkəsini işə salır. İnsanı sürüyə çevirmək, ona vədlər verib terrora qurşamaq bəşəriyyətə hansı gələcəyi vəd edər – artıq bunu aydınlaşdırmağa gərək qalmır.

İzləyən hər kəsə bəllidir, bu sürəclərin böyük bir qolu Rusiyaya bağlıdır. Yaranışından imperiya kimi formalaşan Rusiya, bilimi, maarifçiliyi gəlişdirdiyi çağlarda belə, xalqlara qarşı amansız davranışlarını, yekəxanalığını islah eləməyib. Bu dövlətin başlıca hərəkətverici qüvvəsi düşmənçilik siyasətidir. O bu siyasətini ən çox türklərə qarşı yeridibdir. Bu gün də davam edir. SSRİ qurulana qədər, SSRİ dağılandan sonra istənilən araşdırmaçı Rusiyanın davranışlarında bu dediklərimizi açıqca görə, üzə çıxara bilər. Qafqazda ağalıq mövqeyini qorumaq

üçün, ilin-günün bu çağında, Rusiyanın Azərbaycanla, eləcə də Gürcüstanla davranışları hər kəsin gözü önündədir. Yəni həm Azərbaycanın, həm də Gürcüstanın bəlli torpaqlarını (Azərbaycanda Qarabağı, Gürcüstanda Abxaziyanı, Osetiyanı) işğal altında saxlamaqla, bu iki dövlətin özgürlüyünü daim sıxışdırır. Ukrayna torpaqlarına soxulması da açıq, üzdə olan bir davranışdır. İş o yerə çatıb, Türkiyə kimi sanballı, oturuşmuş, güclü bir dövlətin sınırlarını, çağaşırı, yarıb keçməkdən belə çəkinmir.

Burnunu dik tutanın hardasa burnu qırılmalı idi. Bu addımı Türkiyə atdı, çox da doğru elədi. Ərdoğan hakimiyyətinin, başlanğıcdan, Orta Doğu siyasətinə qulluqetmə yanlışlarını bir qırağa qoyuruq. Bu ayrı bir qonu, ayrı bir yanaşmadır. Ancaq Türkiyə dövlətinə qarşı Rusiyanın siyasi həyasızlığına dözmək yolverilməzdir. Biz, Azərbaycan türkləri, Azərbaycan dövləti olaraq, hər zaman Türkiyənin yanında olmalıyıq. Çünkü Türkiyə böyük anlamda elə "biz" deməkdir. Türkiyə bu gün Azərbaycanın dövlət özgürlüyünün başlıca qarantıdır. Rusiya Azərbaycanın dövlət özgürlüyünə son verməkdə həmişə qərarlı olub. Bu gün də qərarlıdır. Hər an tutalqa axtarır. Bəlkə də onun tutalqalarının yeriməməsinin başlıca nədəni Türkiyənin bizim yanımızda olmasına görədir. Ona görə, biz heç bir anda Türkiyədən uzaqlaşıb Rusiya kimi canavara yem olmalı deyilik. Nə qədər, Azərbaycan Güneylə bütövləşməyib, özünün tarixi haqqına qovuşmayıb, onun dövlət özgürlüyünün başlıca qarantı, dediyimiz kimi, özündən öncə Türkiyədir. Türkiyədən uzaqlaşan Azərbaycan Rusiya adlanan dağıdıcının, eləcə də İran mollasının yeminə çevrilə bilər. Bunu toplumumuz da, dövlət strukturlarımız da anlamalıdır.

O ki qaldı "Türkiyə Rusiyadan üzr istəməlidir" kimi cəfəng çağırışa – bu, Rusiya dikbaşlığına qoşulan bəzi azərbaycanlıların boş, anlamsız avantürasıdır. Onlar Azərbaycanın faciələrini gözardı eləyən, antitürk niyyətlərə yardımçı olan özgələşmiş adamlardır. Guya hansısa gözlənilən böyük qarşıdurmaya görə rahatsız olurlar. Ancaq bu "uzaqgörənlik" sadəcə ağıl nümayişi deyil, bir daha vurğu edirik, yarınma, yalmanma şəbəkəsi əmələ gətirən başqa qüvvələrin əlaltılarıdır. Unutmaq olmaz, canavarın azğının qabağından qaçan-

da dayanmır, daha da qovur. İllərdir Azərbaycan Rusiyanın qabağında boyun əyir, onun istəklərini yerinə yetirir, bəs Rusiya Azərbaycana hansı güzəştləri, ya da yardımları eləyib?!

Türkiyəni Rusiyadan üzr istəməyə çağıranlar, niyə bircə yol "20 Yanvar", "Xocalı" vəhşətlərinə görə Rusiyanı Azərbaycandan üzr istəməyə çağırmadınız?! (Hələ Rusiyanın tarixdəki başqa bölücü, dağıdıcı davranışlarını demirik). Türkiyə dövlətini saymayan Rusiya uçağı Rusiyanın torpağında yox, Türkiyənin sınırında vurulub. Ancaq "20 Yanvar" qırğını Bakıda – özgürlük istəyən insanların üzərində həyata keçirilib. "Xocalı" soyqırımı da Rusiyanın torpaqlarında deyil, Azərbaycanın torpaqlarında törədilib. İndi siz, "üzr" çağırışı edənlər, Xocalı soyqırımına, “20 Yanvar” qırğınına uğrayanların soydaşlarının gözünün içinə baxıb çağırışınıza ad qoyun, görün ürəyiniz varmı?! Ürəyiniz olsa, orda titrəyiş, həyəcan duyacaqsınız... Türkiyəni Rusiyadan qorxmağa çağırmayacaqsınız. Rusiya Türkiyəyə, bütövlükdə türkə yeni nə edəcək ki?! Uzaqbaşı bu çağacan gizli elədiklərini bir az açıq şəkildə edəcək.

Türkiyənin addımı doğrudur, haqlıdır, gərəklidir!

## Türklüyün Zəfər Günü qutlu olsun

Türkiyədə Ərdoğançı kəsim Atatürkü gözdən salmağın yeni üsulunu işə salıbdır. Guya Atatürk bütləşdirilir. Deməliyik, bütləşdirmədə kor bir "pərəstiş" olur. Bu keyfiyyəti də biz ən çox dinə tapınan kütlədə görürük. Bunların münasibətində dərk eləməkdən söz gedə bilməz. Çünkü şüuru zorlanan insanların təfəkkürü ayılmır. (Məni yanlış anlamayın. Heç kimin heysiyyatına toxunmaq istəyim yoxdur. Sadəcə düşündüyüm, doğru bildiyim həqiqətləri sizlərlə paylaşmaq istəyirəm. İstəyirəm Atatürkə sevdalı münasibət sərgiləyənlərin fərqini göstərim). Atatürk gerçək bir qurtarıcıdır. Heç kimi aldadaraq sevgisinə soxulmayıb. Yurdu, Ulusu üçün, sözün doğru anlamında, şəhid taleyi yaşayıb. Həm milləti qurtarıb, həm də bu millətə dövlətçilik uğurları verib. Tarixi burada sadalamaq istəmirəm. Hər kəs bilir, Osmanlı xarabalıqları üzərində Avropa imperi-

yası genişlənmək üzrə idi. Yağıların mənfur diləkləri gözlərində qaldı. Çünkü Atatürkdə təfəkkür, ürəklilik, özündənkeçmə ərdəmliyi birləşmişdi.

Bu gün nə baş verir? – Ərdoğan millətə molla şüuru verməklə, öz arxasınca, uçuruma aparır. Çəkici (cazibəli) bir uçurum yaradıb. Bu uçuruma (aldanıb) küsənənlər Ərdoğanın özündən büt yaratmaqdadırlar. Nədədir Ərdoğanın "qəhrəmanlığı"? – Mollaçılıq şüurunu diriltməkdə.

Bu gün İran mollaçılıq şüurunu sırımaqla, qorumaqla Azərbaycanı parçalanmış durumda saxlayır. Ərdoğan isə mollaçılıq şüurunu dirçəltməklə bütövlükdə türklüyü parçalanmış durumda saxlayır.

Heç bir türk dövləti Ərdoğanı eşitməyəcək – Amerika Nurçuluğunu dövlətinin başına gətirməyəcək. Ancaq Türkiyə ilə ayrılıqları sonucunda türklüyün parçalanmış durumu aradan qalxmayacaq. Bununla da türk birliyini istəməyən qüvvələrin diləkləri qabağa gedəcək.

Mən üzümü Azərbaycanlı, Türkiyəli türksevərlərə, bütövlükdə insansevərlərə tutub deyirəm: sayğılı bəylər, xanımlar, biz demirik, Atatürkün dövlətçilik prinspləri yerində saymalıdır. Hər bir prinsip gəlişməyə bağlıdır. Gəlişmə olmayan yerdə dəyər də yaranmır. Ancaq Atatürkün prinsplərini bütövlükdə rədd edib yerinə köhnə bir düşüncə sistemi gətirmək, hər hansı bir biçimdə, gələcəyə qulluq eləmir. Atatürkün prinsplərini gəilşdirib dövlətçiliyi möhkəmlətmək gərək idi, bu prinspləri ləğv eləmək yox. Ərdoğanda gəlişmə gedişi yoxdur, geriyəqayıtma var. Bu gedişlə Türkiyə, ən yaxşı halda, 18-ci yüzilə dönəcək. O zaman bunun fəlakətləri daha da sərt, amansız olacaq. Bu gediş bütün Türkiyəsevərləri rahatsız eləməlidir. Daha böyük anlamda, Dirəniş Hərəkatı başlamalıdır. Bu məsələdə qorxaq seyrçilik yolverilməzdir.

## Son söz yerinə

Bir çağlar içimi öyrənməyə başladım. Gördüm, yalanla doğru, tamahla gözütoxluq, ikiüzlülüklə içdənlik (səmimiyyət), qabalıqla vicdan, şöhrət sevgisi ilə vətən sevgisi, xudbinliklə özündənkeçmə (fədakarlıq), mənəmliklə mənlik, geriliklə düşüncə, bir sözlə, özgəliklə özümlük bir-birinə qarışıb, sınırı itib. Öncə özgəliklə özümlüyün sınırlarını tanıdım. Bu sınırı ayırmaq istədiyimdə, içimdə heyvanla insanın döyüşü başladı. Hər zaman içimdəki insanı eşitmək istəsəm də, çox hallarda heyvana yenildim. Ancaq bu döyüşdən usanmadım, ümidimi itirmədim, insanlığın heyvanlığı yenəcəyinə (İnsanın qalib olacağına) inandım. Bu ümid, bu inam içimdəki insanın gücünə çevrildi. Öyrəndiklərim, bildiklərim də bu gücün üstünə gəldi, böyütdü içimi. Aşama-aşama heyvan yenildi. Düşüncələrim daim yeniləndi, duyğularım daim duruldu. Bundan sonra anladım – Tanrı nədir, vətən, millət, bəşər nədir. Anladıqlarım ruhumda od qaladı. İndi bu odun işığı ilə içimdə iki cəbhə aydınlanır. Bu cəbhələrdən birində Həqiqət, ədalət, xeyir sevgisi yaşayır, o birində isə Yalana, Geriliyə, Şərə nifrət. Bu iki cəbhə bir-birini qoruyur, tamamlayır.

Sevgim də yüksəkdir (alidir), nifrətim də. Özümləşdikcə Özgəliyi –Yadlığı, Yağılığı rədd edirəm – İçimdəki özgəliyi də, Yurdumdakı özgəliyi də.

Özümlüyün özülündə insan var, millət, vətən, bəşər var. Özgəliyin üzərində isə insanı kiçiltmək, milləti ruhsuzlaşdırmaq, vətəni parçalamaq, bəşəri dağıtmaq haytası, gedişi. Qoşulmadım talançılara, dağıdıcılara, günahlılara. İçimdə insan yiyəsi oldum, millət, vətən sevdalısı oldum...

İndi üzümü sevdalılara tutub deyirəm: Əgər sevdiklərimi sevir, nifrət etdiklərimə nifrət edirsinizsə birik, birlikdəyik. Bu ülvi birliyimizdən özünə bənzəyən millət doğacaq, dünyaya qutsal söz deyəcək!

# İÇƏRİSİ

**Ön söz**

**BİRİNCİ BÖLÜM**

İnamın Özülü, Fəlsəfəsi ........ 6
Dünya İçindən Yaranır ........ 16
Özgürlük – İnsan Haqqıdır ........ 20
Görəni görmək gərəkliyi ........ 25
Varlıq Özüldə dərk olunur ........ 34
Özümləşmənin Ölçüsü ........ 39
"Od İşığı" ideyası ........ 46
Ömür Yolu ........ 63
Tükənməyən Ümidin Harayı ........ 68
İlkinlik istəyi ilə yaşayan ürək ........ 73
Ruhaniyyat İnsanlığın gerçəkləşməsidi ........ 75
Təkallahlığın ayrıntıları ........ 82
Ruhaniyyat başqalarının bənzərsizliyini pozmamalıdır ........ 86
Türkə bağlı baxışlar insana yanaşmada daha anlamlıdır ........ 95
Sözardı ........ 103
Həyatın Anlamı göründüyündən artıqdır ........ 104

**İKİNCİ BÖLÜM**

Özgürlüyün Özülü ........ 122
Ruhsuz törənlər gələnəyi ........ 125
Özümləşmək tələbi ........ 128
İnamın özümləşmə tələbi ........ 130
Asif Atanın (İnam Atanın) gömüldüyü (İlk Torpaqda) "Amal Bağı"nda Ziyarət sözü ........ 132
Ocaq tədbirində ........ 134
Dində Allah Mütləq deyil ........ 137
Siyasətin dini ........ 138
Ürəyinizdə Günəş olsun, saygılı yurddaşlarımız! ........ 139
Milli kimliyi qorumaq üçün ........ 140
Nəimi – 675 ........ 142
Aşağıdan yuxarı atılan daşlar boşuna gedər ........ 145
Şəxsiyyət Yubileydə tanınmır ........ 147
Çağımızın örnək aydını ........ 149
Psixologiya insanı yanlış qiymətləndirir ........ 153
İdeya, Deviz (şüar) ........ 154

**ÜÇÜNCÜ BÖLÜM**

İnsanlığın Yaşam Sevdası
Gəlişmə – antigəlişmə....................................................158
Xeyir Ümidin yenilməzliyidir....................................................176
Şər aldada bilir, ancaq varlığa yetmir....................................................182
Xeyir – özündən keçənlərin İşığıdır....................................................191
Xeyirə qovuşduran Kədər işığı....................................................196
Nəsimi – 650....................................................205
Sənət Mömini....................................................212
Akif Səməd – İşıqlı şeiriyyət yolçusu....................................................217
Dəyərlərimizi havalandıranların "aydınlığı"....................................................221
"Tənqidçi"nin Boyalı (Rəngli) baxışı....................................................226
Sənət Tərəqqi Yoludur....................................................229
Xalq Ruhunun İncilərindən....................................................233
"Sevda" ulusa sevgi örnəyidir....................................................234

**DÖRDÜNCÜ BÖLÜM**

Xalqının durumundan əzab çəkən bağımsızlığımız....................................................238
Zorakı hakimiyyətin bayram zorakılığı....................................................240
Anarxiya Quralları....................................................243
Fəlakətə çevrilən ideologiya....................................................245
Balanslaşdırılan faciələrimiz....................................................249
Anlayışların anlamsızlığı....................................................252
Dövləti xalqsızlaşdırma siyasəti....................................................254
Milli Faciəmizin Xocalısı....................................................255
Türklüyün dərdi....................................................258
"İqtidar Demokratiyası"nın yaratdığı siyasi iflas....................................................261
Milli dövlət sorunumuz....................................................263
Böhranın kölgəsi....................................................266
Milli Dəyər Dövlətin özülüdür....................................................268
Türk Ruhu – Qurtarıcı Dəyərdir....................................................271
Ruhsal Özgürlüyümüz – Ulusal Gələcəyimiz....................................................274
"Seçkinlər"in seçkiləri....................................................278
Anarxiya yaradan tolerantlıq....................................................280
Başarısızlıqmı, Dönüklükmü....................................................284
Bütövləşməyən Bağımsızlığımız....................................................286
Milli Dəyərlərin soyqırımı....................................................288
Özünəyadlaşmanın tarixi nədəni....................................................290
Yadlıqlara doğmalar....................................................294
Yadlığı bizdən qoruyanlar....................................................298

Keçmişi bilmək – Gələcəyi yetirmək........................................................302
Dəyərləri söyməyin...................................................................................306
Babək Özgürlük simgəmizdir....................................................................309
Asan referendum keçirməyin nədənləri.....................................................314
Nardarandan başlayan İran bölücülüyü .....................................................316
İmperiyaçılıq – tərəqqinin ölümüdür ........................................................319
Batı siyasəti qorxu yayıcılığıdır.................................................................322
"Bilim"in siyasəti.......................................................................................324
Rusiyanın istəklərini pozmaq gərəkdir .....................................................327
Erməni Hədyanlığı.....................................................................................330
Qarabağ Sorunu Müsəlman Faktı Yox, Türk Faktıdır ...............................332
Vətənsizlik uçurumuna dirəniş göstərək....................................................335
"Qarabağ" Azərbaycanın Bütövlüyünə bağlıdır ........................................337
Güney Azərbaycan haqqında düşünməmək yaşamamaqdır........................338
Azərbaycanın siyasi yeri Türk Dünyasındadır............................................339
Oyunların ötəsində......................................................................................343
Oyunların Sınırsızlığı..................................................................................347
Dirəniş ləyaqəti imtinalarla təsdiqlənir......................................................349
Türklüyün Fəlakəti .....................................................................................350
Türklüyə qarşı iç, dış gedişlər.....................................................................353
Türkçülükdə umacağımız, gözləntilərimiz, üzləşdiyimiz ..........................357
Türkiyəmiz çöküşə doğru ..........................................................................360
Baş örtüsü siyasət oyunu olmamalıdır........................................................364
Ərdoğandan Azərbaycana xeyir gəlməz .....................................................365
Türkiyə Türkçülüyə qayıtmalıdır................................................................369
Türkün Böyük Siyasal Birliyi yeyinlənməlidir...........................................372
Yurddaş sözü ..............................................................................................375
Dövlətçilik Bayramı ilə bağlı toplantıda.....................................................378
Siyasal Qurtuluşumuz Türkləşməyə bağlıdır..............................................382
Türk dövlətlərinin birgə hərəkət qaçılmazlığı.............................................385
Türk Birliyinin Qaçılmazlığı ......................................................................388
Ümumtürk Hərəkatı başlamalıdır ...............................................................392
Türkçülük Hərəkata çevrilməlidir...............................................................395
Böyük Türk Birliyinə doğru .......................................................................397
Türkçülük Bəşəri Tələbdir..........................................................................400
Türkcəmizin ərdəmliyini qoruyaq .............................................................404
Türkcəmizin Poeziya Ruhu.........................................................................406
Türkiyə haqqına uyğun davrandı ...............................................................408
Türklüyün Zəfər Günü qutlu olsun ............................................................410
Son söz yerinə .............................................................................................412

**Soylu Atalı**
**(Talıflı Zülfüqar Qara oğlu)**

**Söz İşığı**
**(Türk dilində)**
**Kitab Bilən Atalının yatırımı ilə basılmışdır.**
**Bağlantı: (051) 585-56-97**
**www.asifataocagi.com**
**soyluatali@mail.ru**

"Elm və təhsil" nəşriyyatının direktoru:
***professor* Nadir MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 11.05.2020
Şərti çap vərəqi 26. Sifariş № 105
Kağız formatı 60x84 1/16. Tiraj 200

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4